ƏNVƏR METE HƏMİDOV
ZƏRNURƏ HƏMİDOVA

# İNTELLEKTUAL EKOLOGİYA

- 11368 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

«Elm və təhsil»
Bakı – 2012

*Rəyçi:*
**Əlizadə Elbrus**
*coğrafiya elmləri doktoru*

***Məsləhətçi və ixtisas redaktoru:***
**Səfalı Nəzərli**
*«Qızıl qələm» mükafatı laureatı*

***Nəşriyyat redaktoru:***
**Həqiqət Eldarova**

**Ənvər Mete Həmidov, Zərnurə Həmidova. İntellektual ekologiya. Bakı, «Elm və təhsil», 2012, 584 səh.**

Kitabda insan intellektinin təkamülü ilə əlaqədar yeni bir məqsədin, daha doğrusu, əqillə necə yaşamağın mübarizə prinsiplərindən bəhs edilir ki, bunu da müəlliflər «intellektual ekologiya» adlandırmışdırlar. «İntellektual ekologiya» ilk dəfə Ənvər Metenin 2008-ci ildə çapdan çıxmış «Loğmanlar» kitabında irəli sürülmüş elmi termindir.

İnsan intellekti həyatın istər iqtisadi və istərsə də siyasi məsələlərinin həllinə ehtiyac duyulduğu yerlərdə təzahür edir. Müəlliflər araşdırmalarla sübut etməyə çalışırlar ki, müasir dövrdə istər iqtisadi-siyasi vəziyyət, istərsə də ümumi ekologiya insan zəkasından, onun müdrikliyindən, əsl mənada, insan intellektindən asılıdır və öz fikirlərini əsaslandırmaq üçün Ön və Orta Şərq dahilərinin fəlsəfi fikirlərinə, inanclara, İslam fəlsəfəsinə müraciət edir, bu haqda ətraflı məlumat verirlər.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş kitab filosoflar, ekoloqlar, tarixçilər, ziyalılar üçün də əhəmiyyətlidir.

$\frac{4702000000}{N098-2012}$ *qrifli nəşr*

© «Elm və təhsil», 2012



# Həyat bağçasından hikmətli damlalar

**BİSMİLLAHİR-RƏHMANİ-RƏHİM! Mərhəmətli, rəhimli Allahın adı ilə! Həmd olsun Allaha – aləmlərin Rəbbinə, mərhəmətli, rəhmli olana, Haqq-hesab (qiyamət) gününün sahibinə! Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! Bizi doğru yola yönəlt! Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!**

***Qurani-Kərim,***
***əl-Fatihə surəsi.***

Məhəmməd peyğəmbərdən (s.) «Ya Rəsulullah! Hər peyğəmbərin bir möcüzəsi var. Bəs sizin möcüzəniz nədir?» – deyə, saruşanda: «Kəlamətullah» demişdir.

***

Cəhalətdən çətin yoxsulluq, ağıldan üstün var-dövlət, xüdpəsəndlikdən qorxulu tənhalıq, xoş xasiyyətdən uca şərafət və təfəkkürdən böyük ibadət yoxdur.

***Məhəmməd peyğəmbər (s.).***

Bütün yaradılana, hər şeydən əvvəl, sülh və əmniyyət diləyirəm.

***Zərdüşt.***

Yalnız sözdə deyil, həm də işdə hikmət sahibi ol, sözdəki hikmət bu dünyada qalar, işdəki hikmət isə o dünyaya çatar, əbədi yaşar.

***Əflatun – Platon,***
***qədim yunan filosofu.***

Qəlb insanın intellektual keyfiyyətidir. Qəlbin atributları ağıl, zəka, təfəkkür, hikmət və fikirdir.

***manilik.***

Əxlaq və intizamsız birlik də ola bilməz.

***Atilla,***
***hun hökmdarı.***

Bu dünyada yaxşılıq və ədalət «təqdim edənlər»in, pislik haqsızlıq isə «alanlar»ın hesabına mövcuddur.

***Blez Paskal.***

Həyatı qiymətləndirməyən adam yaşamağa layiq deyil.

***Leonardo da Vinçi.***

Dünya yaranandan hər bir aqil insan sözünü «Allah» kəlamı ilə başlayıb.

***Vaqif Abbasov,***
***AMEA-nın müxbir üzvü,***
***professor.***

Mədəniyyət – əqli mədəniyyətlə mənəvi mədəniyyətin qovşağıdır. İntellektual mədəniyyət aparıcı olduğu zaman şər və kasıblıq azalır. İntellektual mədəniyyət haqqında qanun qəbul olunmalıdır.

***Fuad Məmmədov,***
***professor.***

Elmin səmərəsi rahatlıq, dünya malının səmərəsi əzabdır.

***Ərəb atalar sözü.***

İstər din (İslam) və istərsə də elm cəmiyyətin mənəvi-mədəni həyatında, müsbət intellektual sferanın (ab-havanın) yaranmasında – mütləq amildir. Din fəzilət və əmanətdir, elm-təhsil onun açarıdır.

***

Millətin davamı həssas, duyğulu və səviyyə qazanmış bir qəlbə sahib olan nəsillər yetişdirməklə mümkündür.

***Ənvər Mete,***
***tibb elmləri namizədi.***





# Ön söz

İnsan yaranan gündən qarşısında bir sual olmuşdur: «Necə yaxşı yaşamalı?» İnsan intellektinin təkamülü ilə əlaqədar yeni sual qarşıya çıxdı: «Əqillə necə yaşamalı?» Cəmiyyətin təbəqələşməsi, istismarın meydana gəlməsi ləyaqətlə, xoşbəxt yaşamağın insan intellektindən asılı olmasını aşkar etdi.

İntellekt – ağıl, idrak, zehni inkişaf səviyyəsi, intellektual – əqli, zehni, fikri mənasında işlənir. Professor Qoşqar Əliyevin təbirincə desək: «Əgər yaxşı görmə qabiliyyəti çoxlu görmək və uzaqlara baxmağa imkan verirsə, onda müdriklik – əqli baxış isə gözlə görülməsi və qulaqla eşidilməsi mümkün olmayanları «görür», hadisəni qulaqla eşitmək mümkün olmayanları «eşidir», yəni hadisəni dərk etmək imkanı yaradır.»

Daha doğrusu, insan intellekti həyatın istər iqtisadi və istərsə də siyasi məsələlərinin həllinə ehtiyac duyulduğu yerdə təzahür edir. Müasir dövrdə istər iqtisadi-siyasi vəziyyət və istərsə də ümumi ekologiya insan zəkasından, onun müdrikliyindən, əsl mənada, insanın intellektindən asılıdır. Kitabın müəlliflərindən biri olan Ənvər Mete ədəbiyyatda ilk dəfə onu «İntellektual ekologiya» adlandırmışdır. («Loğmanlar», Bakı, 2008)

Müəlliflərin fikrincə, söz intellektual ekologiyanın (istər müsbət və istərsə də mənfi) yaradıcı amilidir. Dahi, müdrik ta-

rixi şəxsiyyətlərə məxsus hikmətli kəlamlar, sözlər heç vaxt unudulmur, nəsildən-nəslə keçərək təkrarlanır və həmişə yad edilir. Sözün qüvvəsini qiymətləndirən, dünyanın məşhur dövlət xadimi və sərkərdə Əmir Teymurun saray əyanlarına dediyi sözlər tarixə düşmüşdür: «Mən nə vaxta qədər baş kəsməklə, qan tökməklə qalib gələcəyəm. Bəs hanı sizin kəlamlarınızın qüdrəti?!»

XX əsrin dahisi, böyük türk oğlu Qazi Mustafa Kamal Paşa Atatürkün müharibənin ən çıxılmaz bir vəziyyətində öz əsgərlərinə: «Mən sizə hücum etməyi yox, ölməyi əmr edirəm!» – deyərək döyüşə səsləməsi və qalib gəlməsi sözün insan intellektinə təsir qüvvəsinə ən tutarlı sübutdur.

Yenə də tarixə nəzər salsaq, görərik ki, superfaşizmin ən səciyyəvi xüsusiyyətlərinin insanlara, millətlərə, dinlərə nifrət ideologiyası və əməlinin nə demək olduğunu bir çox xalqlar Ermənistanın Qarabağda apardığı milli nifrət müharibəsində müşahidə etdi. Nifrət müharibəsi dünyaya yayıldıqca başqaları da görür, onun yeni bir təzahür olduğunu, mənfi intellektual faktorların yüksələn xətlə inkişafını dərk etməyə başlayır.

Müəlliflərin araşdırmaları göstərir ki, iyrənc təbliğatlar, qırğınlar, vəhşiliklər dünyada intellektual ekoloji faktorlar tarazlığının pozulmasına, düşmənçiliyə, nifrətə səbəb olan amillərdir. Dinindən, dilindən, irqindən asılı olmayaraq hər bir millətin doğma Yer planetində sərbəst yaşamaq, inkişaf etmək hüququ var və onu pozmağa heç kimin haqqı yoxdur. Tanrının bizə bəxş etdiyi bu hüquq bəzi hegemon dövlətlər tərəfindən pozulur və bu patoloji proses davam etməkdədir.

Kitabda haqlı olaraq göstərilir ki, hər bir cəmiyyətin öz daxilində, ölkədə, təşkilatda, hətta ailədə də mənfi intellektual atmosfer yaradan ünsürlər az deyil. Həmin ünsürlər, ələlxüsus ixtiyar sahibləri, insanları sözlə yavaş-yavaş məhv edir, mənəvi və tədricən cismani ölümə sürükləyir. Müəlliflər belə insan qatillərini məsuliyyətə cəlb edən bir qanun məcəlləsinin olmamasına təəssüflənir və hesab edirlər ki, vaxt gələcək hər bir dövlətin daxilində mənfi intellektual ekologiyanın sağlamlaşdırılması həyatın ən vacib məsələsi olacaq və bu, dövlət qanunu ilə tənzimlənəcəkdir.





İnsanın yarandığı ilk gündən ruhi aləmini qidalandırmaq üçün həmişə inanclara ehtiyacı olmuşdur. Bu inanclar isə bəşərin bəzən özünün müqəddəsləşdirdiyi hər hansı bir təbiət hadisəsində, səmavi görünən qalaktikada, bütlərdə, hətta müəyyən canlılarda, nəhayət, fövqəlbəşər olduğuna inandığı şəxslərdə və sonda gözəgörünməz varlıqda duymağa başlamışdır.

Müəlliflər göstərirlər ki, əsrlər boyu dünya teoloq və filosofları Tanrının varlığını və ya yoxluğunu sübut etməyə çalışmış və çoxları belə qənaətə gəlmişlər ki, İslam sülh və barış dinidir, insanlara həmişə yaxşılıq etməyi, pisliklərdən çəkinməyi təbliğ edir.

«Allah (bəndələrini) əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola salır!» (Yunus surəsi, ayə 25)

Apardıqları tədqiqatlar əsasında müəlliflər dövlətdə, təbiət hadisələri qarşısında insanın davranış, ümid və qorxularının dindən çox elmlə əlaqədar olduğu qənaətinə gəlir və haqlı olaraq göstərir ki, istər elmi və istərsə də dini xəbərdarlıqlar eyni vəzifəni ifadə edir. Biri bunu elmi araşdırmalarla, başqa biri isə Rəbbin vəhyi ilə əlaqələndirir. Ancaq məqsəd eynidir: Tanrının sənə bəxş etdiyi təbiəti və şüurun məhsulu olan intellektual ekologiyanı pozma, mənfiliklərə meyil göstərmə.

Araşdırmalardan sonra, müəlliflər belə qərara gəlirlər ki, dini, elmi və əxlaqi amillərə dayanan vətəndaşlıq fikri uca olduğu qədər də faydalıdır və təklif edirlər: Planetimizdə Ümumdünya Ekologiya Təşkilatı – ÜDET yaradılmalıdır. Elmin yeni sahəsi olan «İntellektual ekologiya» bölməsinin əsasını isə mənəviyyat, kəlam və onların qüdrəti təşkil etməlidir. Müəlliflərin fikrincə, ÜDET III minilliyin sərhədlərdən sərbəst keçən, bütün xalqlara fayda gətirən yeni təşkilatı olmalıdır. İnsanlığa, əmin-amanlığa, insanlığa zidd təriqətlərin fəaliyyəti hər bir dövlətdə qanunla neytrallaşdırılmalıdır. Dinin mənəviyyata xidmət edən tələbləri dövlət qanunları ilə birgə fəaliyyət göstərməlidir. Dünyəvi dinlərdən İslam bu sahədə daha

inandırıcı və məqbuldur. Ön və Orta Şərq nəinki əksər dinlərin, o cümlədən elmin, sivilizasiya və fəlsəfənin beşiyi olmuşdur. Tarixi dəlillər göstərir ki, fəlsəfi fikir ilk dəfə burada – Misirdə, Suriyada, əski Şumer–Akkad dövlətində, Babil torpağında intişar tapıb. Babilistan–Assuriya mədəniyyəti nəinki Ön və Orta Şərqin, o cümlədən dünya elm və mədəniyyətinin başlanğıcı hesab edilə bilər. Beləliklə, müəlliflər göstərirlər ki, dünyada ilk mədəniyyət Şərqdə yaranmışdır və hələlik dünya mədəniyyətinin ilk beşiyi Şumer sayılır. Qərb mədəniyyəti bütövlükdə Şərq mədəniyyətinin bazası əsasında təşəkkül tapmışdır.

Müəlliflər oxuculara təqdim etdikləri araşdırmaların yekununda belə qərara gəlirlər: «İnsan doğulduğu andan təbiətin, ictimai mühitin və irsi faktorların təsiri altında formalaşır. Xoşbəxtliyin qazanılması insan davranışından, onların bir-birinə münasibətindən, bir sözlə, istər insanlar arasında və istərsə də cəmiyyətdə müsbət intellektual sferanın bərqərar olmasından asılıdır. İnsan varlığı məfhum anlayışından daha çox, batini mənaları əhatə edir və cəmiyyət formasında bu ali varlığın yaradış qayəsi, sadəcə, yaşamaq və öz maddi istək və arzularını həyata keçirərək, onları təmin etmək olmayıb. Yaratmaq, yüksək əxlaqi-mənəvi ideyaların təbliğatçısı olaraq yaşadığı cəmiyyətləri, mədəniyyətləri, sivilizasiyaları və s. doğru bildiyi fəlsəfi təfəkkür tərzlərinə söykənərək sağlam beyinlərin ənənəvi təxəyyül obyektinə çevrilmiş ideal dövlət, saf ekoloji cəmiyyət ideyasını həyata keçirməkdir. İnsan övladı yarandığı gündən xoşbəxtliyi, əmin-amanlığı, səadəti sevmiş, arzulamış və daim buna nail olmaq üçün çalışmış, mübarizə aparmışdır. Nəfsin saflaşdırılıb tərbiyələndirilməsi, rəzil əxlaqi sifətləri uzaqlaşdırıb, bəyənilmiş keyfiyyətləri özündə yaratmaq gözəl xüsusiyyətdir. Allah-Təalanın göndərdiyi peyğəmbərlər, insanları sevən müdriklər, alimlər, mütəfəkkirlər, filosoflar və s. bu yolla getmiş, haqsevənləri bu yola dəvət etmişlər.»

Məhz bu səbəbdən, müəlliflər kitabda Ön və Orta Şərqin dünyada tanınmış bir sıra müqəddəs şəxsləri, mütəfəkkirləri, filosofları, alimləri, dövlət xadimləri haqda qısa məlumat vermiş, onların qiymətli kəlamlarını yada salmışlar. İnsan mənəviyyatının tərbiyə olunmasında «İntellektual ekologiya və onun yaradıcı amili – söz» bölməsində tez-tez Qurani-Kərimə, Məhəmməd peyğəmbərin (s.) kəlamlarına müraciət edilir. Həzrət Məhəmməd (s.) haqqında məlumat verən müəlliflər göstərirlər ki, sevimli Peyğəmbərimizin (s.) məqsədi insanlara xəbərdarlıq olub. Çünki insanın sonu iki ünvandır: cənnət və cəhənnəm, səadət və bədbəxtlik. İnsana əvvəl doğru yol göstərilməlidir. Əgər şəxs bu göstərişdən sonra əyri yola qədəm qoyarsa və ilahi qəzəblə üzləşərsə, günahı özündə görməlidir. Müəlliflər haqlı olaraq göstərirlər ki, Həzrət Məhəmməd peyğəmbər (s.), onun kəlamlarını, ona xas olan gözəl xüsusiyyətləri yada salmaq insanları mənən saflaşdırır, bir daha Allaha yaxınlaşdırır. Saflıq bəşəri müsbət intellektual sferanın ihkişafına, mərhəmətə, əmin-amanlığa, şəfqətə, ilahi və insani məhəbbətə qovuşdurur.

Kitabın növbəti bölməsində zərdüştilikdən başlamış, müasir dövrə qədər Ön və Orta Şərqdə yayılmış dinlərdən söhbət açılır, onların bəşər tarixindəki rolundan danışılır.

Müəlliflər qədim peyğəmbərlərdən Zərdüşt, Musa (ə.), İsa (ə.), Məhəmməd (s.) və ilk xəlifələr haqda qısa məlumat verdikdən sonra, Ön və Orta Şərqin dünya elm, mədəniyyət, fəlsəfə xəzinəsinə öz töhfələrini bəxş etmiş dahi insanları, onların bəşər tarixindəki rolunu, fəlsəfi baxışlarını yada salır və belə qənaətə gəlirlər: «Dünya sivilizasiyası qədim Şumer, Misir mədəniyyətindən bəhrələnir. Ön və Orta Şərq dünyanın erkən mədəniyyət mərkəzidir.»

Deyilənlərdən aydın olur ki, İslam insan mənəviyyatının inkişafında, Yer planetində ekoloji tarazlığın və müsbət intellektual sferanın bərqərar olmasında elmlə birlikdə əsas dayaqdır.

Növbəti bölmədə Ön və Orta Şərqin müdrik alim və filosofları, dövlət xadimlərinin sosial-etik, dini-fəlsəfi baxışları haqqında qısa məlumat verilir. Müəlliflər haqlı olaraq göstə-

rirlər ki, fəlsəfə ilk əqli əməyin müstəqil fəaliyyət sahəsinə çevrildiyi zaman yaranmış və insanın ətraf aləmə münasibətini müəyyənləşdirməyə yönəlmişdir. İlk fəlsəfi təlimlər zərdüştiliyin müqəddəs kitabı «Avesta»da əksini tapmışdı. Fəlsəfənin əsas funksiyası antik dövrdən hazırkı dövrə qədər, mürəkkəb və ziddiyyətli təbiət və cəmiyyət aləmində insanın ləyaqətlə yaşaması üçün onun dünyagörüşünün oriyentasiyasıdır.

Təsadüfi deyildir ki, hazırda təbiət və insan haqqında biliklərə tələbat daha da artır, çünki çoxlarına həqiqətən də elə gəlir ki, onların gözləri qarşısında insan varlığının adət etdiyi dünya dağılır. Bu isə o deməkdir ki, hər bir insan bu gün yeni şəxsi yönümlərə ehtiyac duyur. Əvvəla, insan, sadəcə olaraq, yaşamağa, ikincisi, insani ləyaqətlə – ağlı, şərəfi və vicdanı ilə yaşamağa, həyat fəaliyyətinin yeni gələcəyini görmək müdrikliyi ilə yaşamağa ehtiyac hiss edir.

Bəs fəlsəfə başqa elmlərdən nə ilə fərqlənir? Fəlsəfədə başlıca problem həqiqət axtarışında real yolları dərk etmək və onları müəyyənləşdirməkdir. Müəlliflər haqlı olaraq göstərirlər ki, həqiqət axtarışı fəlsəfə üçün sadə məsələ deyil, bu məsələnin həllinə, buna cavab axtarılmasına həm keçmişin və həm də bu günün filosofları, mütəfəkkirləri səy göstərmiş və bu axtarış hələ də davam edir.

Məhz bu səbəbdən müəlliflər Ön və Orta Şərqin alim və filosoflarının, mütəfəkkirlərinin, din və dövlət xadimlərinin mülahizələrinə müraciət edir, onların fikirlərinin insan mənəviyyatında, ümumi və intellektual ekologiyanın qorunmasındakı rolunu aşkar etməyə çalışırlar. Müsəlman Şərqində Aristoteldən sonra «İkinci müəllim» (əl-müəllim əs-sani) fəxri adını almış Əbu Nəsr Məhəmməd ibn Məhəmməd-Fərabi, Həllac Hüseyn İbn Mənsur haqda məlumatlar verilir. Sufi mütəfəkkir Həllac Hüseynin panteizmə güclü meyil göstərib, hüluliyyə təlimini qəbul etməsindən bəhs edilir.

Müəlliflərin tədqiq etdiyi Biruni yaradıcılığı daha maraqlı və elmi-fəlsəfi cəhətdən daha hərtərəflidir.





Kitabda Şərq aristotelizminin nümayəndəsi, fəlsəfədə Fərabinin davamçısı olan İbn Sinanın Aristotel təliminə əsaslanaraq antik fəlsəfi fikrin inkişafında mühüm rol oynamasından bəhs edilir. İbn Sina zəkanı maddilikdən ayırmış, «zəkalı canı» ölməz hesab etmişdir. O, fəlsəfə ilə dinin müstəqil mövcud olduğunu göstərmiş, fəlsəfəni insan zəkasına əsaslanan elm adlandırmışdır.

Firdövsi yaradıcılığına müraciət edən müəlliflər belə qərara gəlirlər ki, Xeyir və Şər, İşıq və Zülmət arasında fəlsəfi və sosial məna kəsb edən əzəli və əbədi mübarizə ideyası Firdövsi «Şahnaməsi»nin başlıca qayəsidir. Humanist şair qədim İran dini əsatirindən gələn bu ideyanı tarixi və bədii konfliktlərlə əlaqələndirmiş, Xeyir və İşıqla bağlı qüvvələrin tərəfində durmuşdur.

Müəlliflər onlarca mütəfəkkir, şair və filosofa müraciət etdikdən sonra dahi Nizami fəlsəfəsinə, şeirinə üz tuturlar. Hələ XII-ci əsrdə Nizami Gəncəvi sufizmə rəğbətlə yanaşmış, sufiləri ürəkdən xəbərdar olan adamlar kimi təqdim etmişdir. Nizami Yaxın Şərq ədəbiyyatında ilk dəfə məhəbbəti fəlsəfi mənada şərh edərək, nəcib məhəbbət konsepsiyasını yaratmış, onu insan azadlığı, vicdan azadlığı və mənəvi təkamül problemləri ilə bağlamış, ilk dəfə müsbət qadın obrazı yaratmışdır. Şair «İsgəndərnamə» əsərində xalqın istək və arzularını, müdrik fikirlərini yüksək sənət dili ilə ifadə etmişdir. Dahi sənətkar İsgəndərin timsalında adil padşah obrazı yaradaraq, xəyalında bəslədiyi gələcək azad cəmiyyət haqqında öz utopik təsəvvürlərini vermişdir. Müəlliflərin fikrincə, məhz bu səbəbdən Nizami Gəncəvini «utopik sosializm»in banilərindən biri kimi qəbul etmək olar.

Dahi sənətkar irqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd etmiş, insan zəkasının qüdrətinə dərin inam bəsləmiş, insanın əxlaqi gözəlliyinə xüsusi qiymət vermişdir.

Məhz bəşərin belə övladları öz müdrik kəlamları, tövsiyələri ilə müsbət intellektual sferanın yaranmasına xidmət etmişlər.

Müəlliflər sonrakı araşdırmalarında Nəsirəddin Tusi dühasına müraciət edirlər. Elmin hər bir sahəsində şöhrət tapmış N.Tusi Şərqdə filosof kimi də məşhur olmuşdur. Onun «Əxlaqi-Nasiri» əsəri Ön və Orta Şərq məktəblərində əxlaq dərsliyi kimi şöhrət tapmış, indi də bəzi orta məktəb proqramlarında bu məqsəd üçün istifadə edilir. O, materiyanın məhvedilməzliyi, dünyanın dərkinin mümkünlüyü barədə fikirlər söyləmiş və Kainatın sirlərinə dair bir sıra dialektik tərifi izah etmişdir. N.Tusinin ictimai-siyasi və hüquqi görüşlərində «dövlət» anlayışı mühüm yer tutur və onun Azərbaycanın siyasi fikir tarixində ilk dövlət nəzəriyyəçisi olduğunu söyləməyə əsas verir.

Kitabda Sədi Şirazidən, Yunus Əmrədən söhbət açılır, Mövlana Cəlaləddin Ruminin bəşər təfəkkürü ilə çətin qavranılan mövzuları ruhani ifadələr, hikmətli hekayələr yolu ilə sadə insanların belə könüllərinə həkk etdiyindən bəhs olunur.

Ön və Orta Şərqin digər mütəfəkkir və filosofları: Əhvədi Marağayi, İbn Yəmin, Hafiz Şirazi, Əssar Təbrizi, Qasım Ənvar, İbn Xəldun, İmaməddin Nəsimi kimi şəxsiyyətlərin fəlsəfi baxışları haqqında da məlumat verilmişdir.

Dahi Füzuli hakimiyyət uğrunda gedən mübarizə və müharibələrin şahidi olmuş, «odlara yansın büsati-səltənət» deyə saraya qarşı kəskin nifrətini qələmə aldığı əsərlərində ifadə etmişdir. Füzuli lirikası məhəbbət, eyni zamanda dərin ictimai-fəlsəfi məzmuna malikdir. Onun «ərəb dilində yazdığı «Mətlü ül-etiqad» əsərində fəlsəfi görüşləri öz əksini tapmışdır. Xaqani, Nizami, Nəsimi, xüsusilə Füzuli fəlsəfi məktəbinin davamçısı Saib Təbrizi olmuşdur.

Müəlliflər ardıcıl olaraq Təbrizi Rəcəbli, M.Ş.Vazeh, A.Bakıxanov, M.F.Axundzadə, S.Ə.Şirvani, M.Ə.Sabir, C.Məmmədquluzadə, Ü.Hacıbəyli, H.Cavid, S.Mümtaz və b.-nın fəlsəf fikirlərini, qısa da olsa, oxuculara təqdim edirlər.

Müəlliflər müasir dövr yazarlarından H.Cavidə, S. Vurğuna, B.Vahabzadəyə müraciət edirlər. Bu belə də olmalı idi. Müasir söz sənətinin ustadı S.Vurğun idisə, onun fəlsəfi cərəyanının daşıyıcısı bayraqdarı Bəxtiyar Vahabzadədir.





Əsərdə müəlliflər Ön və Orta Şərqin, xüsusilə müsəlman Şərqinin dünyada mühüm nailiyyətlərə malik olmuş və insan cəmiyyətinin intellektual təkamülünə yetərincə təsir etmiş bəşəri şəxsiyyətləri yada salırlar. Bu şəxsiyyətlər millətindən, dini etiqadından, ictimai-siyasi mənsubiyyətindən asılı olmayaraq, həmişə yad edilmiş və onların humanist ideyaları bəşərin müsbət intellektual amillərinin inkişafına təkan vermişdir.

Sonra müəlliflər Ön və Orta Şərqin bir sıra dövlət başçıları və sərkərdələrinin həyat və fəaliyyətinə nəzər salmağı məqsədəuyğun bilmiş, qədim dövrdən başlamış, müasir dövrə qədər Ön və Orta Şərq tarixinə, onun dövlətçiliyinə, siyasi və dövlət xadimlərinin, sərkərdələrin fəaliyyətinə qısa bir səyahət etmişlər. Müəlliflər qürur və fərəhlə qeyd edirlər ki, danılmaz bir həqiqətdir ki, türklər neçə-neçə qüdrətli dövlətlər yaradıb onu uğurla idarə etmişlər. Bu qüdrətli dövlətlərin sərhədləri Avrasiya, Mesopatamiyadan Şimal Buzlu okeana, Dunaydan əzəmətli Çin səddinə qədər uzanmızdır. Türklər yüzillərlə İran, Hindistan, Misir, İraq, Suriya kimi qeyri-türk ölkələrini, axırıncı min ildə isə İran-Azərbaycan dövlətini idarə etmişlər.

Tarixi faktlar göstərir ki, türk oğlu türk gündoğandan günbatanadək bütün qarlı-qarsız zirvələrə, düzlərə, çaylara, göllərə, şəhərlərə, ölkələrə ad vermiş, dünyada xanlıq, xaqanlıq, sultanlıq etmiş, şahlar – şahı kimi, dahilər kimi tarixlər yaratmışlar.

Kitabda bəşəriyyətin islamaqədərki dövrdə necə bir vəziyyətdə olduğunu aydınlaşdırmaq üçün, insanlığın yarısı olan qadınların vəziyyətinə, qismən də olsa, nəzər yetirilir. Məlum olur ki, bəşər tarixində ilk dəfə (1400 il əvvəl) islam cinslər arasındakı fərqi birdəfəlik aradan götürmüş, istər oğlan və istərsə də qız uşağının dünyaya tər-təmiz gəldiyini elan etmişdir.

«Ana – insaniyyətin məşəl aparanı, onun ayaqları altındadır Cənnət» bölməsində müəlliflər Məhəmməd peyğəmbərin (s.) həyat yoldaşı Həzrət Xədicə (r.a.), Aişə (r.a.), Həzrət Xədicədən (r.a.) sonra Məkkədə İslamı qəbul edən ilk qadınlardan biri olan Lubabə bintul Haris (r.a.), Ammar bin Yasi-

nin anası Suməyyə (r.a.) (bu qadın Əbu Cəhlin fiziki təzyiqlərinə baxmayaraq, dini inkar etməmiş, nəticədə kəskin mübahisələrdən sonra Əbu Cəhl nizəsi ilə onu qətlə yetirmişdir. Bununla da İslamın ilk şəhidi qadın olmuşdur), Ümm Vəraqa (r.a.) (Quranı əzbərdən bildiyinə görə, Rəsulullah (s.) onu yaşadığı yerə namaz qıldırmaq üçün imam təyin etmişdi), Həzrət Əlinin (ə.) həyat yoldaşı Fatimeyi Zəhra (r.a.) və b. haqda məlumat verirlər. Qazan Xanın qadını Burla xatun, Banuçiçək, Selçan xatun, Süməyya xatun, Səidə xatun, Səlcuq sultanı Məlik şahın xanımı Türkan xatun, Şəmsəddin Eldənizin zövcəsi Mömünə xatun, Məhəmməd Cahan Pəhlivanın və Qızıl Arslanın anası, tarixdə ilk səfir qadın Sara xatun, Rüstəmə və b. qadınlardan bəhs edərək belə qərara gəlirlər ki, bəşər tarixində qadın liderliyinin beşiyi Qədim Şərqdir. Qoca Şərqin bir hissəsi olan müsəlman dünyasında qadın nüfuzu, qadın zəkası, qadın müdrikliyi yüksək qiymətləndirilib. Onların cəmiyyətin inkişafında, elmin çiçəklənməsində, əmin-amanlığın bərqərar olmasında iştirakı danılmazdır. Qadın zəkası müsbət intellektual amillərin yaradıcısıdır. Şərqin müsəlman qadınları ağbirçək anaların müqəddəs yolu ilə gedərək neçə-neçə nəsillər böyütmüş, dünyaya dahilər bəxş etmişlər: Məhsəti Gəncəvi, Heyran xanım, Xurşidbanu Natəvan, Şəfiqə Əfəndizadə, Həmidə Məmmədquluzadə-Cavanşir, Hənifə xanım Məlikova, Sona Vəlixan və b. belə qadınlardandır.

Kitabda kainatın ən qiymətli əsəri olan insanın istedadı, ləyaqəti və imkanlarından söhbət açılır, Qurani-Kərimdə insan haqda olan ayələr, dahilərin hikmətli kəlamları oxuculara təqdim edilir. Nəhayət, müəlliflər belə nəticəyə gəlirlər ki, insan yalnız fiziki və bioloji funksiyalardan ibarət bir varlıq deyil, o, özünəməxsus istedad, ləyaqət və imkanlara sahibdir. Yaşadığımız Yer planetində istər müsbət, istərsə də mənfi ekoloji mühitin yaranması insan və onun intellektinin məhsuludur.

Növbəti bölmədə, insanın kamilliyə, inkişafa meylindən bəhs edilir. Qurani-Kərimdə buyurulur: «Rəbbin hər şeyi elmlə (öz əzəli elmi ilə) ehtiva etmişdir» (əl-Ənam surəsi, ayə 80).





Müəlliflər haqlı olaraq, araşdırmalarından belə qərara gəlirlər ki, bu gün elmin hansı sahəsinə, əldə etdiyi hansı nəticəyə, hansı kəşfə baxsaq, onun 1400 il bundan əvvəl Quranda bəyan edildiyi məlum olur. İnsan tərbiyəsi haqda məlumat verən müəllif göstərir ki, yaxşı tərbiyə nəinki ailənin, o cümlədən millətin, dövlətin, bəşəriyyətin xoşbəxtliyi, pis tərbiyə isə fəlakətidir. Müəlliflərin fikrincə, ailə tərbiyəsi ictimai-iqtisadi quruluşla, mədəniyyətin inkişaf səviyyəsi və ər-arvadın qarşılıqlı münasibəti ilə sıx əlaqədardır. Bütün bunlarla bərabər inancın, ailədə müsbət intellektual ekoloji faktorlar tarazlığının sabitliyi də əsas amillərdən biridir.

Sonrakı bölmələrdə insan ağlı, təvazökarlığı, əxlaqı və mənəviyyatı, müdrikliyi haqda araşdırma aparılır və göstərilir ki, insanın ən xeyirli xüsusiyyəti onun ağlıdır. Ağlın xüsusiyyəti doğru seçim, adil davranışdır. Müəlliflər, həmçinin şəxsiyyətin insanlarla münasibətlərində mədəni səviyyəni müəyyən edən əxlaqi qaydalar haqqında da qısa məlumat verirlər. Bu əxlaqi qaydalara riayət insanın vicdanından asılıdır. Vicdanlı insan, sözsüz ki, ədalətli olmalıdır. Ədalət, sözün geniş mənasında heç bir ayrı-seçkilik olmadan ləyaqət sahiblərinə haqlarını verməkdən ibarətdir. Ədalət qanununa görə, hər kəsin cəzası və ya mükafatı öz əməlinin bəhrəsidir.

Müdriklik və dostluqdan danışan müəlliflər qeyd edirlər ki, bir kimsəyə əbədi səadətə gətirəcək həqiqi dostluq haqq ilə qurula bilən dostluqdur. «Allah-Təalanın nəzərində ən yaxşı dost öz dostuna sirdaş olan, ən yaxşı qonşu isə öz qonşusu ilə yaxşı dolanandır.» (Həzrət Məhəmməd peyğəmbər)

Növbəti bölmələrdə əməyin insanın formalaşmasında, gənc nəslin tərbiyəsində, bəşəri əlaqə və münasibətlərin yaranmasında əsas meyar olmasından bəhs edilir və göstərilir ki, əmək insanın məqsədəuyğun fəaliyyətidir. Əmək hər şeydən əvvəl, insanla təbiət arasında baş verən bir prosesdir. Əmək insanlarla birgə yaranmışdır.

Müəlliflər insan əzabının səbəbi olan həsəd, pislik, kin, nifrət hərislikdən də söhbət açır və göstərirlər ki, insan hər şeyə

ancaq ibrət üçün baxmalıdır. Əzabı düşünmək insanı sıxırsa, əzabın içinə düşmək daha dəhşətli olur. Halbuki, düşünmək içinə düşməkdən daha asan və sadədir. Bunun üçün insan bioloji varlıqdan insanlıq şəxsiyyətinə ucalmalı və vicdanına müraciət etməlidir. Qəzəb, mübahisə, dalaşqanlıq pisliklərin açarıdır. Qəzəb insana xas olan ilkin emosiyalardan biridir. Tarixi hadisələr qəzəbin intiqamla nəticələnməsini sübut etmişdir. Vəhşi ermənilərin Türkiyə və Azərbaycana qarşı törətdikləri cinayətlər buna canlı sübutdur. Müəlliflərin qərarı belədir: «İnsanı qəzəbləndirən amillərdən, həmçinin qəzəb hissinin təzahür formalarından asılı olaraq, qəzəb ictimai əhəmiyyətli və ictimai zərərli, intellektual ekologiya kimi müsbət və mənfi ola bilər.»

Bütün bu araşdırmalardan sonra müəlliflər dünyanın tanınmış şəxsiyyətlərin bir çoxunun İslam dini və Qurani-Kərim haqdakı fikirlərini oxuculara təqdim edir və belə bir qərara gəlirlər ki, dünyanın ağıl və nizamnaməsi Qurani-Kərimdir.

Bəşəriyyətin fəlakətdən xilas olmasının yeganə yolu İslamdır. Vaxt gələcək Qərb bunu sözsüz qəbul etmək məcburiyyətində qalacaqdır. Biz buna əminik.

**Elbrus Əlizadə,**
***coğrafiya elmləri doktoru,***
***AMEA-nın Həsən Əliyev adına***
***Coğrafiya İnstitutunun baş elmi işçisi.***



# I FƏSİL
## SÖZ TANRININ MÖCÜZƏSİDİR

Varlığın anası doğmamış, inan,
Sözdən gözəl övlad, şahiddi cahan.
***Nizami Gəncəvi.***

Mən aləm sədəfində insandan qiymətli bir gövhər görmədim,
İnsan gövhərində isə sözdən şərəfli cövhər tapmadım.
***Məhəmməd Füzuli.***

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

# İNTELLEKTUAL EKOLOĞİYA (AB-HAVA, ABİ-HƏYAT) VƏ ONUN YARADICI AMİLİ – SÖZ

Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz (la ilahə illəllah, Muhəmmədin rəsulullah) kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac (xurma ağacı) kimidir.

*Qurani-Kərim,*
*İbrahim surəsi, ayə 24.*

O kəslər ki, sözü (öyüd-nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır.

*Qurani-Kərim,*
*əz-Zumər surəsi, ayə 18.*

Əgər Şərqdə bir müsəlmana əziyyət edilirsə, Qərbdə olan müsəlman, heç olmasa, ona sözü ilə, hissiyyatı ilə və gücü çatan hər hansı bir əməllə imdad əlini uzatmalıdır.

*Məhəmməd peyğəmbər (s.).*

Əgər söz olmasaydı, mövcudatı tanımaq olmazdı.

*Fəzlullah Nəimi.*

Zavalsız söz parlaq günəşdir,
Məğribi qulaqdır, məşriqi ağız.

*Saib Təbrizi.*





Ekologiya həm şüuru, iqtisadiyyatı, inkişafı, həm də gələcək nəslin taleyini izah edən və ona bilavasitə təsir göstərən bir sahədir. Ekologiya sözünün əsası «aykos» yunan sözü olub, ev, mənzil, məskən, yurd, vətən, «logiya» isə elm deməkdir. İntellekt – ağıl, idrak, zehni inkişaf səviyyəsi, intellektual – əqli, zehni, fikri mənasında işlənir. Ekologiya yunan sözü olsa da, onu ilk dəfə alman bioloqu Ernest Hekgel işlətmişdir (1869). Ona görə: «Ekologiya yaşayış yeri haqqında, canlılar ilə ətraf mühit arasında qarşılıqlı əlaqə elmidir.» Ekologiya, əsasən, ümumi ekologiya və xüsusi ekologiya bölmələrinə ayrılır. Ümumi ekologiya orqanizm səviyyəsindən yuxarıdakı müxtəlif sistemlərin quruluş və fəaliyyətini, xüsusi ekologiya isə müxtəlif orqanizmlərin ətraf mühitlə münasibətlərini tədqiq edir. XX əsrin sonlarından alimlər ekoloji tarazlığın məhz insanlar tərəfindən pozulmasını müşahidə etdilər. Sonralar tam aydın oldu ki, ekologiyanın ən mühüm sahəsi insan ekologiyasıdır. Sənayenin inkişafı ilə əlaqədar sosial ekologiya meydana gəldi. Sosial ekologiya ətraf mühiti sistemli öyrənməklə bərabər, həm də insan cəmiyyəti ilə ətraf mühitin qarşılıqlı əlaqəsinin sosial mexanizmlərini araşdırdı. Məqsəd ekologiyanın qarşısına çıxacaq və mane ola biləcək bütün səbəbləri aradan qaldırmaq idi.

Son tədqiqatlarımız göstərir ki, istər ümumi və istərsə də xüsusi ekologiya sistemində tarazlığın qorunması və pozulması insan intellektindən tam asılıdır. Ədəbiyyatda ilk dəfə o, «İntellektual ekologiya» adlandırılmışdır. (Ənvər Mete, Loğmanlar, Bakı, 2008)

İntellekt (latınca «intellektus» sözündən götürülmüşdür, idrak, düşüncə, anlayış deməkdir) – cism və hadisələr arasındakı əlaqə və münasibətləri dərk edərək, insanın öz davranışını şəraitin tələbinə uyğun surətdə dəyişdirmək qabiliyyətidir. İntellekt fəal və mürəkkəb idrak əməliyyatı sistemi olub, yalnız həll edilən məsələlərin mürəkkəbliyi ilə deyil, insan fəaliyyətinin istiqaməti, təhrik və motivlərin xarakteri ilə müəyyən olunur. İntellekt başqa psixi proseslərdən (məsələn, hiss, iradə və s.) fərqli olaraq təfəkkürün səmərəli idrak qabiliyyətidir. İnsan-

da davranış formaları təkamülünün yüksək mərhələsi olan intellektin formalaşmasında əmək fəaliyyəti və nitq həlledici rol oynamışdır. İntellektin inkişaf səviyyəsini müəyyənləşdirmək üçün müxtəlif kəmiyyət metodları – testlər geniş yayılmışdır. Lakin hələlik intellektin səviyyəsini dəqiq təyin edən metodika yoxdur. İntellektin inkişafına səmərəli təşkil edilmiş təlim-tərbiyə[1] *(bax: Şərhlər)* prosesi müsbət təsir göstərir. Psixi inkişafın filogenezində üç əsas mərhələ – sensor psixika, proseptiv psixika və intellekt mərhələsi fərqləndirilir. İntellekt mərhələsi şüurun inkişafının əsasını təşkil edir. İntellektual inkişaf məhdud mənada təfəkkürün inkişafını ifadə edir. Hər yaş mərhələsində təfəkkür özünün müəyyən inkişaf səviyyəsi ilə səciyyələnir. İntellektual inkişafda analiz, sintez və müqayisənin təşəkkülü əsas rol oynayır, onların köməyi ilə insan cism və hadisələrin mahiyyətinə nüfuz edir, öz rəftar və davranışını şəraitin tələbinə uyğun qura bilir.

«...İntellektual hisslər insanın idrak fəaliyyəti ilə bağlı hisslərdir. İntellektual hisslər insanın intellektual fəaliyyət prosesinə, onun nəticələrinə, fikir və mülahizələrə münasibətini ifadə edir. Gözlənilməz, anlaşılmayan, yeni cism və hadisələrin təsiri ilə törənən (təəccüb), irəli sürülən fikir, müddəa və ya hipoteza zidd faktlarla qarşılaşdıqda doğan (şübhə), düşüncə prosesində müəyyənləşdirilən əlaqə və münasibətlərin, əldə edilən nəticələrin düzgünlüyü sübut olunduqda əmələ gələn (inam) müəyyən məsələnin müvəffəqiyyətli həlli, elmi kəşf zamanı yaranan (sevinc), həmçinin cism və hadisələr arasında axtarılan əlaqələrin xarakteri barəsində ilkin mülahizələrin yaranması ilə bağlı (fəhm) hisslər intellektial hisslərdir.» (ASE, 4-cü c., Bakı, 1980, s.471)

Əgər ekologiya canlı orqanizmlə, onu əhatə edən mühit arasındakı münasibətlərdirsə, onda intellektə malik olan ali canlı – insanlar, ayrı-ayrı fərdlər, bəzən millətlər arasındakı münasibətlər və bu münasibətlər nəticəsində baş verən ab-

[1]Bundan sonra gələn izahlar «Şərhlər» bölməsində verilmişdir.





hava, abi-həyat, daha doğrusu, insan intellektinə, onun sağlamlığına və s. təsir edən, hətta müharibəyə, toqquşmalara, terrorrizmə, millətlərarası ədavətə, irqçiliyə, separatizmə, bunların əksi kimi dostluğa, əmin-amanlığa, sülhə, inkişafa səbəb olan amillər intellektual ekologiyadır.

Hikmətli kəlamlar, mərhəmət, şəfqət, sevgi, təvazökarlıq, ədəb-ərkan, sadəlik, sülhsevərlik, gözəl xasiyyət, mənəviyyat, elm, xoş niyyət və s. müsbət intellektual mühiti yaradan faktorlardır. Bütün dediklərimizə əsasən, intellektual ekologiyanı «müsbət intellektual ekologiya» və «mənfi intellektual ekologiya» kimi iki hissəyə ayırmaq olar.

Ziddiyyət, zülm, zorakılıq, lovğalıq, təkəbbür, paxıllıq, namərdlik, qəzəb, xudpəsəndlik, biganəlik, laqeydlik, hiyləgərlik, yalançılıq, boşboğazlıq, kin, nifrət, haram, qeybət, əxlaqsızlıq, cahillik və s. mənfi intellektual ekologiyanı yaradan faktorlardır. Bütün müsbət və mənfi faktorlar sözlərlə ifadə olunur. İnsan şüuruna və onun əməllərinə təsir edir.

Abi-həyat kimi sözün həyat verər insanlara,
Arif olan feyz aparar, nadan isə dodaq büzər.
Məsləksizə hikmət dərsi, nadanlara öyüd neylər,
Ulağın da qabağına gövhər töksən, mat-mat baxar.

***Nəsimi.***

Demək, söz intellektual ekologiyanın (istər müsbət və istərsə də mənfi) yaradıcı amilidir. Bu barədə kitabın gələcək bölmələrində geniş məlumat veriləcək, indi isə söz haqqında.

Allah hər şeydən əvvəl sözü, «Ol» kəlməsindən sonra isə kainatı yaratmışdı. Müasir elm də sübut edir ki, Yer kürəsi partlayış nəticəsində əmələ gəlmişdir. Deməli, İlahidən «Ol» kəlməsindən sonra səs göndərilmişdir. Daha sonra Yer planetində canlılar, o cümlədən insan övladı yaranmışdır. İnsan dünyaya səslə gəlir–ağlayır. Bu, Tanrının möcüzəsidir. Uşaq böyüyür, sonrakı inkişafı ilə əlaqədar müxtəlif səslər çıxarmaqla, danışıq, nitq əmələ gəlir, yəni insan müxtəlif söz-

lərlə bir-birilə ünsiyyət yaratmağa başlayır. Dahi Nizami Gəncəvi çox gözəl demişdir: «Allah hər şeydən əvvəl sözü yaratmışdır... Söz tərəzisini Allah qurmuşdur və öz xoşbəxt peyğəmbərlərini və elçilərini sözlə tərbiyələndirib bəsləmişdir.»

**Qurani-Kərimin ayələrinə nəzər salaq:**

(Nəhayət) Adəm Rəbbindən (bəzi xüsusi) kəlmələr öyrənərək (Həvva ilə birlikdə o kəlmələr vasitəsilə) tövbə etdi.

*əl-Bəqərə surəsi, ayə 37.*

(Onlar yenə dedilər:) Ey Rəbbimiz! Onların (nəslimizin) içərisindən özlərinə elə bir peyğəmbər göndər ki, Sənin ayələrini (hökmlərini) onlara oxusun, (Sən göndərən) Kitabı (Quranı) və (oradakı) hikməti onlara öyrətsin, onları (günahlardan) təmizləsin. Həqiqətən, Sən yenilməz qüvvət, hikmət sahibisən.

*əl-Bəqərə surəsi, ayə 129.*

El arasında deyirlər: «Bıçaq yarası sağalar, söz yarası sağalmaz». Söz var, dağa qaldırar, söz var, dağdan düşürər. Söz var, qəhrəmanlığa sövq edər, söz var, insanın qol-qanadını sındırar. Söz var, insanı nəcibliyə, ədalətə şəfqətə, məhəbbətə sövq edər, söz var, vəhşiləşdirər, qatilə çevirər. Söz var, xəstəyə şəfa verər, söz var, xəstəliyi daha da dərinləşdirər. Əsl loğman, təbib sözlə xəstəni müalicə edər. Beləliklə, ən ali varlıq olan insan sözlə ünsiyyət edir, elmlənir, öz sevgi və məhəbbətini, qəzəb-kinini izhar edir.

İmam Sadiq (ə.) buyurmuşdur: «Sözü kiçik sayıb ucuz bir şey hesab edirsənsə, onu bil ki, Allah-təala öz peyğəmbərlərini xalqa tanıtmaq istədikdə onları qızıl, gümüş ilə tanıtdırmayıb. Bəlkə, hikmətli söz və mənalı nitq vasitəsilə onları xalqa tanıtdırmışdır.»

«Varlığın anası doğmamış, inan,
Sözdən gözəl övlad, şahiddir cahan.» – bu kəlamları dahi Nizami Gəncəvi demişdir.





Qətran Təbrizi demişdir: «Sözün öz tərəzisi və öz qiyməti var. Onu yersiz işlətmək və ucuzlaşdırmaq olmaz.»

Sözü ölçüb-biçərək söylə, ucuzlaşmasın o,
Yolu düz seç ki, sənə vurmaya axırda ziyan.

Söz insanın daxili aləminin güzgüsüdür.

Əmir Xosrov Dəhləvi demişdir:

Kimya kimidir mənası sözün,
Bir dünya qədərdir bahası sözün.
İnsanın zinəti söz ilə artar,
Hörməti, izzəti söz ilə artar.
Söz könül oxşayan bahar kimidir,
Yüz bəzək vurulan nigar kimidir.
Fərmanlar, xəbərlər sözlədir tamam,
İnsan övladına şərəfdir kəlam...
Əbədi həyatdır söz bu dünyada,
İnsan sözlə çatır hər an murada.

Sözün kəsərini biliklə, qılıncla müqayisə edən böyük şairimiz Şəhriyar demişdir:

Ölkəyə bilək də, göz də gərəkdir,
Qılıncla bərabər söz də gərəkdir.

Əziz oxucu, bir qədər tarixə nəzər salaq.

Dahilik, müdriklik tarixi şəxsiyyətlərə məxsus xüsusiyyətlərdir. Onlardan bəzilərinin dedikləri söz, kəlam unudulmur, nəsildən-nəslə keçib təkrarlanır və həmişə yad edilir. Belə şəxsiyyətlərdən biri, dünyanın etiraf etdiyi kimi, XX əsrin dahisi, böyük türk oğlu Mustafa Kamal Paşa Atatürk müharibənin ən çıxılmaz vəziyyətində öz əsgərlərinə: «Mən sizə hücum etməyi yox, ölməyi əmr edirəm!»– deyərək onları hücuma səsləmiş və qalib gəlmişdir. Bəlkə də dünya hərb tarixində əsgərləri hücuma səsləyən belə çağırış və ya əmr olmayıb. Bax, budur sözün qüdrəti! «Vətənin üçün qan, dostunuz üçün göz yaşı, ailəniz

üçün tər tökün!», «Mənliyi olmayan millət, başqa millətlərin ovudur» kimi tarixi sözlər də məhz dahi Atatürkə məxsusdur.

Sözün qüvvəsini çox qiymətləndirən, dünyanın tanınmış dövlət xadimi, sərkərdə Əmir Teymurun saray əyanlarına xitabən dediyi sözlər tarixə düşmüşdür: «Mən nə vaxta qədər baş kəsməklə, qan tökməklə qalib gələcəyəm. Bəs hanı sizin kəlamlarınızın qüdrəti?!»

Təbabətə müraciət edək. Bir zamanlar Rusiya xəstəxanalarında palatalar iki yerə ayrılırdı: yüngül və ağır xəstələr üçün. Bunun əleyhinə olan dünya şöhrətli Botkin bir dəfə ağır xəstələr palatasında vəziyyəti ağır olan qıza yaxınlaşıb, onu xoş nəvazişlə, gözəl sözlərlə müayinə etdikdən sonra əmr edir ki, bu xəstə heç də ağır deyil, onu yüngül xəstələr palatasına köçürün. Və xəstə tezliklə sağalır. Bu hadisədən sonra palataların ağır və yüngüllər üçün bölünməsinə son qoyulur. Budur sözün qüvvəsi, kəraməti.

Çox yüzilliklər bundan əvvəl qədim Elladanın görkəmli həkimlərindən olan Hippokrat tərəfindən peşəkar tibbi etikanın əsasını təşkil edən bəzi davranış qaydaları və əxlaqi-mənəvi ehkamlar yazılmışdı. Bu, bəşəriyyətə «Hippokrat andı» kimi məlumdur. Müdrik insan olan Hippokratın həyat amili ona məxsus belə ifadələrdən ibarət idi: «Həyat qısa, elmin yolu uzun, əlverişli hallar keçici, təcrübə aldadıcı, mühakimə yürütmək çətindir. Ona görə həkimlə bərabər xəstə özü, onun ətrafındakılar və bütün xarici amillərin hamısı həkimin fəaliyyətinə kömək etmək üçün səfərbər olunmalıdır.»

Yazıçı Maqsud İbrahimbəyov deyir: «Şəhər avtobusuna əldəqayırma bomba qoyan erməni oğlandan soruşuram: Bunu niyə elədin, axı adamlar qırıldı, özü də müxtəlif millətlərdən, ahıl erməni qadını diri-diri yandı. Niyə? Bəlkə kimsə sənin xətrinə dəyib? «Yox, xətrimə dəyən olmayıb?» Sən demə, o, Zori Balayanın «Ocaq» kitabını oxuyub. Orada isə yazılıb ki, azərbaycanlılar köçəridirlər, müsəlmandırlar, türkdürlər, deməli, onları öldürmək lazımdır.» (Максуд Ибрагимбеков, «Завтра будет поздно», В сб.: Конфликт в Нагорном Карабахе, Б., 1990, s. 269)

Erməni radiosu 1991-ci ilin 11 dekabrında bəyan edir: «Ermənistan özünün bütün ərazilərində milli azlıqların soyqırımının yolverilməz olduğu barədə BMT paktına qoşulmuşdur». Erməni həyasızlığının ən yüksək zirvələrindən biri. 1988-ci ildə bütün azərbaycanlıları (200 mindən çox) və müsəlman kürdləri (18 min nəfər) qovandan, bir hissəsini qətlə yetirəndən, şikəst edəndən sonra, demək olar ki, dünya dövlətləri arasında monoetnik (98%) olan Ermənistan indi «pakta qoşulur». Görəsən, ermənilər hansı «milli azlıqların soyqırımı»na yol verməyəcəklər?! Bax, budur erməni yalanı, erməni faşist təbliğatı, erməni intellektinin məhsulu...

«...Xocalıda evlərdən birinin divarına 11 yaşlı türk qızının mismarlandığını gördüm. Türklərə olan nifrətimi hələ də can verən qızın sinəsindən dərinin qopardılması ilə soyutmağa çalışdım...» (Zori Balayan)

İntellektual ekoloji tarazlığı pozan, abovyanların, sumbatların törəmələri, onların ideyalarının icraçısı olmuş Şaumyan, Mikoyan, Andranik, Lalayan, Dro, Kaputikyan, Balayan və qeyri erməni cəlladları öz əməlləri ilə qəddarlıqda Hitlerdən də irəli getdilər, erməni superfaşizmінin ideoloqlarına çevrildilər.

Superfaşizmin ən səciyyəvi xüsusiyyətlərinin insanlara, millətlərə, dinlərə nifrət ideologiyası və əməlinin nə demək olduğunu biz azərbaycanlılar Ermənistanın Qarabağda apardığı milli nifrət müharibəsində gördük. Nifrət müharibəsi dünyaya yayıldıqca başqaları da görür, onun yeni bir təzahür olduğunu, mənfi intellektual faktorların yüksələn xətlə inkişafını dərk etməyə başlayır.

Yenə tarixə nəzər salaq. Ermənilər tarix boyu inildəyir, ağlayır, yazıq-cəfakeş görkəm alır və bütün dünyaya bəyan edirlər ki, onlar xeyirxah, sülhsevər və köməksiz «qədim» xristian millətidirlər. Lakin müsəlmanlar onları qırır, torpaqlarını zəbt edir, «erməni soyqırımı» təşkil edirlər. Tarixən müsəlmanlara və xüsusilə türklərə qarşı həmişə antiinsani ideoloji təbliğat aparılıb və aparılmaqda davam edir. Məhz belə bir ideo-

loji təbliğat, antimüsəlman ideologiyası avropalıların və başqa müsəlman olmayan millətlərin yaddaşına həkk olunur: müsəlman pisdir, qəddardır. Ona görə də xristianlar onların üstünə 8 dəfə səlib yürüşü *(bax: Şərhlər)* etmişlər.

Tarixi araşdırsaq, görərik ki, heç vaxt (!) müsəlmanlar birləşib, bir neçə dövlətin birgə ordusu ilə xristianların və digər dinlərin nümayəndələrinin üstünə müharibəyə, dini müharibəyə (!) getməyiblər. Xristianlar, avropalılar isə məhz belə, bir neçə dövlət birgə ordu yaradaraq Şərq–müsəlman ölkələrinin üstünə yerimişlər. İndi hamı bilir ki, həmin o səlibçilər üçün din bir pərdə kimi istifadə edilib, xaç bəhanə imiş, əsl məqsəd qəsbkarlıq olub.

Rusiyanın çoxmillətli ordusunun türk xalqlarının torpaqlarını (Sibiri, Altayı, Krımı, Qafqazı, Orta Asiyanı) zəbt etməsini yada salaq. Rusiyanın Əfqanıstana yürüşü, 100 minlərlə dinc əhalininin qırılması, sonradan ABŞ-ın bu ölkəyə müdaxiləsi...

Rusiya – Ermənistan blokunun Azərbaycana hücumu, 20% torpağımızın zəbt olunması, minlərlə insanın qətlə yetirilməsi, 1 milyondan artıq dinc əhalinin öz doğma yurdlarından didərgin düşməsi, Çeçenistan müharibəsi və s. hələ ki, sonuncu təəssüratlardır.

XXI əsrdə ermənilər özgə torpaqlarına yiyələnmək üçün yeni «ideologiya» kəşf ediblər. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, Tarix İnstitutunun direktoru Yaqub Mahmudovun «Tarixin ən böyük və ən təhlükəli yalanı» məqaləsinə diqqət yetirək: «Erməni millətçiləri tarixi saxtalaşdırmaqda da yeni mərhələyə qədəm qoymuş, Azərbaycan tarix elminə hücumlarını daha da genişləndirmişlər. Təbriz və Ərdəbil də daxil olmaqla, tarixi Azərbaycanın cənub torpaqlarını uydurma «Velikaya Armeniya»nın tərkib hissəsi hesab edən ermənilər, indi daha da «dərinə» getməyə başlamışlar. Erməni millətçiləri hazırda Arazdan cənubda – qonşu İran İslam Respublikasının ərazisində öz ata-baba torpaqlarında yaşayan və özlərini bu gün də





«türk» adlandıran azərbaycanlı qardaşlarımızı Şimali Azərbaycanda yaşayan azərbaycanlılardan («gəlmə, köçəri türklərdən») tamamilə fərqli olan bir xalq kimi qələmə verməyə başlamışlar. Onların iddiasına görə, Cənubda yaşayan azərbaycanlılar, guya Şimalda yaşayan qardaşlarından fərqli olaraq, vaxtilə İran dillərindən birində danışmış olan azərilər adlanmış xalqın nəsilləridir və sonradan, XV–XVI əsrlərdə onların dilləri kütləvi surətdə zorla dəyişdirilib və bundan sonra onlar Azərbaycan–türk dilində danışmağa başlamışlar. Sən demə, Cənubda yaşayan soydaşlarımız – Cənubi azərbaycanlılar «genetik» baxımdan da bizə deyil, ermənilərə daha yaxın bir «xalq» imiş. Yerevan Dövlət Universitetinin iranistika kafedrasının müdiri Q.Asatryanın bununla əlaqədar verdiyi «açıqlamaya» görə, ermənilərin bu istiqamətdə apardıqları tədqiqatların nəticələri artıq indidən sübut edir ki, onların (yəni ermənilərin) Cənubi azərbacanlılarla antropoloji parametrlərinin çoxu eynidir; azərilər (Cənubi Azərbaycan türkləri nəzərdə tutulur– *Y.M.*) genetik baxımdan özlərinin Azərbaycan Respublikasındakı soydaşlarındansa ermənilərə daha yaxındırlar» (www.qolos.arm; 8 iyul, 2008). Mətləb aydındır: erməni saxtakarları tarixi Azərbaycanın Arazdan cənubdakı torpaqlarını öz saxta «tədqiqatlarında» «özününküləşdirdikdən» sonra, indi də həmin ərazidə yaşayan Azərbaycan türklərinin mənşəyini saxtalaşdırmağa başlamışlar. Guya «Velikaya Armeniya»nın tərkib hissəsi olmuş Cənubi Azərbaycan torpaqlarının əhalisi də bizimlə, yəni Şimali Azərbaycan türkləri ilə deyil, ermənilərlə bir kökdən imiş?!» («Azərbaycan» qəzeti, 25 yanvar, 2009)

Bütün bu vəhşiliklər, qırğınlar, iyrənc təbliğatlar dünyada intellektual ekoloji faktorlar tarazlığının pozulmasına, düşmənçiliyə, nifrətə səbəb olan amillərdir. Dinindən, irqindən asılı olmayaraq, hər bir millətin doğma Yer planetində sərbəst yaşamaq, inkişaf etmək hüququ var və onu pozmağa heç kimin haqqı yoxdur. Tanrının bizə bəxş etdiyi bu hüquq hegemon xristian dövlətləri tərəfindən pozulur və bu patoloji proses davam etməkdədir.

İkinci dünya müharibəsindən sonra siyasətçi U.Çörçillin 1946-cı il martın 5-də ABŞ-ın Fulton şəhərindəki davakar nitqindən sonra «soyuq müharibə» deyilən bir ideoloji siyasətin əsası qoyuldu. Bu müharibə cəbbəxanasına aşağıdakılar daxil idi: hərbi siyasi ittifaqlar sisteminin yaradılması və hərbi bazalar şəbəkəsinin genişləndirilməsi, nüvə və s. kütləvi qırğın silahları da daxil olmaqla, sürətlə silahlanma, siyasətə təsir vasitəsi kimi hərbi qüvvədən istifadə, iqtisadi təzyiq vasitələrinin tətbiqi, kəşfiyyat xidməti idarələrinin pozuculuq fəaliyyətinin genişləndirilməsi və fəallaşdırılması, ən əsası isə ideoloji təxribatlar və s. Deyilənlər Qərbin siyasi doktrinasına çevrildi və bu siyasət indi də davam edir, xüsusilə müsəlman dövlətlərinə qarşı. Müasir dövrdə Ermənistanın Rusiya tərəfindən durmadan silahlandırılması Azərbaycan və Türkiyəyə qarşı ən böyük və danılmaz təxribatdır.

1995-ci ilin yayında Tiflis şəhərində qəribə bir beynəlxalq forum oldu: «Həmrəylik dözülməzliyə qarşı. Mədəniyyətin dialoqu naminə.» («İzvestiya» qəzeti, 19 iyul, 1995)

Forumun gözü önündə qaya kimi duran problem bu idi: «Birinci dünya müharibəsi Yer əhalisinin beş faizinin həlak olması ilə nəticələndi. İkincidə statistika həlak olanların üçqat olduğunu aşkar etdi.»

«Hazırda lokal və regional müharibələrdə hər il Yer kürəsi əhalisinin beş faizi həlak olur. UNESKO-nun məlumatına əsasən, «soyuq müharibə»dən sonra baş vermiş 250 yerli münaqişələrin qurbanlarının sayı 30 milyon nəfər olmuşdur.» (Saleh bəy, «Dünyanın taleyi», Bakı, Elm, 1998, s. 637)

Dünyanın müasir dövr siyasətinə bir qədər nəzər salaq. Bu gün müşahidə etdiyimiz prosesləri cəmi 2-3 il bundan əvvəl təsəvvürə gətirmək çətin olardı. Aydındır ki, XX əsrin sonu – XXI əsrin əvvəlləri planetimizin milyardlarla sakininin yaddaşında geosiyasi və geoiqtisadi xarakterli mühüm dəyişikliklər dövrü kimi qalacaqdır. Məhz belə bir şəraitdə dünya siyasətinin strukturu ənənəvi qarşılıqlı ünsiyyət – anlaşma metodlarının transformasiyasına məruz qalır və bu da müsbət intellektual sferanın genişlənməsinə səbəb olur. Bu münasibətlərin dəyişməsi, qarşılıqlı anlaşılmazlıqlar isə mənfi intellektual sferanın əmələ gəlməsinə təkan verir. Deməli, beynəlxalq münasibətlərin forması dəyişdikcə, onun tərkib hissələri və nəticəsi də dəyişir.





Azərbaycan Prezidenti Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov: «Səmərəli inkişaf, intensiv iqtisadi artım, «möcüzə» modelləri... yalnız intellekt və elmi yanaşma sayəsində mümkün olmuşdur. Qədim Yunanıstandan başlamış Fransada Rişelye dövrünə qədər bəşəriyyətin inkişafının bütün mərhələlərində mütərəqqi dövlət xadimləri ölkənin inkişaf modellərinin reallaşdırılmasında həmişə intellektual resurslardan istifadə etməyə çalışmışlar. Məsələn, Abbasilər sülaləsinin xəlifələri Bizansdan töycü kimi pul deyil, elmin ayrı-ayrı sahələrinə aid qiymətli əlyazmalar alırdılar. Bir neçə xəlifənin hakimiyyəti dövründə formalaşmış «Müdriklik evi» müasir elmlər akademiyasının rolunu yerinə yetirir, orada dövrün ən parlaq zəkaları çalışırdı.» («Yeni Azərbaycan» qəzeti, 2 iyun, 2010)

E.Aslanovun məlumatından aydın olur ki, XX əsrin əvvəlindən etibarən dövlətin daxili və xarici strukturunun müəyyən edilməsində təfəkkür fabrikləri öncül rol oynamağa başlamışdır. Belə fabriklərin ilk cücərtiləri 1916–1919-cu illərdə siyasi tövsiyələr və proqramlar üzərində işləyən akademiya və universitet laboratoriyaları şəklində fəaliyyət göstərirdi. Bu gün dünyanın 170 ölkəsində 6 minə yaxın «beyin mərkəzi» vardır. İntellektual element hər bir cəmiyyətdə fərdi xarakter daşıyır və yalnız ayrı-ayrı vahidləri keyfiyyətli idarəetmə sistemi şəklində qruplaşdırmağı bacaran dövlətlər həmin elementlərdən uğurla istifadə edirlər. Bu sistem informasiya mübarizəsində münasib tədbirlər təklif etməyə imkan verir, eləcə də intellektual cəbhədə geniş hücum strategiyasını təmin edir.

E.Aslanovun fikrincə, yeni intellektual məkana doğru addımlarımızı intensivləşdirmək, ekspert qruplarını səfərbər etmək və «beyin mərkəzi diplomatiyası»nı həyata keçirməyə

başlamaq artıq zəruridir. Beləliklə, yaxın perspektivdə müxtəlif ölkələrin ekspert birlikləri müasir təhlükəsizlik arxitekturası, yeni regional qaydaların birgə müzakirəsini intensivləşdirəcək, yeni kommunikasiya dəhlizlərinin və etnik-siyasi münaqişələrin həlli yollarının gələcəyi barədə təsəvvürlərin, həmçinin aktual geosiyasi və geoiqtisadi layihələrin ümumən reallaşdırılması imkanlarını müəyyən edəcəklər.

XXI əsrdə insan yeni intellektual məkana doğru addımlayır. Məqsədlərə nail olmağın vasitələri təkmilləşdirilir, strateji planlar daha mürəkkəb xarakter kəsb edir.

Yer planetinin bəlalarından biri də ümumi ekologiyanın pozulmasıdır. Ümumi ekologiya haqqında əvvəllər də geniş məlumat vermişdik: Ə.Həmidov – Ənvər Mete, Ekologiya və sağlamlıq, Bakı, 1990; Ə.Həmidov – Ənvər Mete, Torpağımız, məhsullarımız və sağlamlığımız, Bakı, 1990; Ənvər Mete, Loğmanlar, Bakı, 2008.

Əziz oxucu, biz bir daha bəzi məqamlara toxunmağı vacib saydıq.

1400 il əvvəl, hələ insanların ekoloji fəlakətin nə olduğunu bilmədikləri bir zamanda, Qurani-Kərimin ər-Rum surəsinin 41-ci ayəsində insanların ilahi düzəlişə xələl gətirəcəyi zaman, onları gözləyən fəlakətlər barədə məlumat verilmişdir: «İnsanların öz əlləri ilə etdikləri (pis əməllər, günahlar) üzündən quruda və suda fəsad (pozuntu) əmələ gələr (bəzi yerlərdə quraqlıq, qıtlıq olar, bəzilərində zərərli yağışlar yağar, zəlzələ baş verər, dənizlərdə gəmilər batar) ki, Allah (bununla) onlara etdiklərinin bir qismini (etdikləri bəzi günahların cəzasını) daddırsın və bəlkə, onlar (tövbə edib pis yoldan) qayıtsınlar».

Əfsuslar olsun ki, Hafiz Mirzənin ifadəsi ilə desək: «Ekologiyanı fəlakət həddinə sürükləyən insanlıq hər cür təbii fəlakətlərlə üzləşsə də, ona dərs olmur.»

Planetimizin bir çox sakinləri bugünkü vəziyyətlə barışıb, gələcəyi düşünmür, ekoloji normativlərin pozulmasının hansı fəlakətləri doğurmasına məhəl qoymurlar. Yaponiyada bunu beynəlxalq xəstəlik adlandırırlar. Əgər müharibə konkret bir





ərazidə olan fəlakətdirsə, ekologiyanın pozulması dünyanın və bəşəriyyətin fəlakətidir.

Bütün bu fəlakətlərin arxasında dayanan kimdir? İnsan! İnsan şüuru, insan şüursuzluğu, insan intellekti, nəfs, nadanlıq, tamahkarlıq...

Əsrlərlə və min illərlə hər bir cəmiyyətdə insanları yeməklə, geyimlə, evlə, istehsal vasitələrilə və hətta silahla təmin etmək üçün gərgin mübarizə gedib. Cəmiyyətin inkişafı, daha doğrusu, sivilizasiyanın yüksəlməsi ilə əlaqədar insanların qeyd etdiyimiz amillərə olan tələbatı durmadan artmaqdadır. Yer kürəsində son 25-30 il ərzində sərf olunan xammalın miqdarı, təxminən insan cəmiyyətinin bu vaxtadək istifadə etdiyi təbii sərvətlərə bərabərdir. Planetimizdə insanların sayı durmadan artmaqdadır. 2008-ci ilin statistik məlumatına görə, planetimizdə yaşayan insanların sayı 8 milyarddan çoxdur. XX əsrin sonunda ümumdünya sənayesinin 2,5-3 dəfə artması labüdlüyü var idi. Bu məsələ isə xammal istehsalı ilə həll edilə bilərdi: bax, görürsüz, Yer kürəsində insanın yaşaması, rifahı və sağlamlığı üçün nə qədər problemi həll etmək lazımdır. Bu müqəddəs iş, şüurlu insan cəmiyyətində məsələni obyektiv, ağıllı və hər millətin, xalqın, regionun marağı nəzərə alınmaqla həll edilməlidir. Yenə də insan şüuru, millətlər və xalqlararası ağıllı münasibət, bir sözlə, müsbət intellektual ekoloji sfera birinci yerdə durur.

İnsanın yaşadığı planetə vurduğu yaralara tam qiymət vermək üçün son dövrdə ozon təbəqəsində baş verən dəyişikliklərdən məlumat verən mənbələrə müraciət edək. İngilis alimlərinin 1985-ci ildə Antarktida üzərində atmosferin qoruyucu ozon qatının seyrəkləşməsi haqqında dəhşətli məlumatlarından bir o qədər də çox müddət keçməmiş və bu sahədə çox işlər görülmüşdür. Təkcə onu demək kifayətdir ki, 1989-cu ildə ozon təbəqəsini dağıdan istehsalı azaltmaq və tədricən dayandırmaq üçün Monreal protokolu qüvvəyə minmişdir. Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT) ozon təbəqəsi tədqiqatı proqramının rəhbəri doktor Rümen Bojkovun (1989)

məlumatına görə, Yer kürəsinin şimal hissəsində ozonun miqdarı, ümumiyyətlə, 3% azalıb, qış aylarında isə bu göstərici 5%-ə qədər artır. İngilis tədqiqatçısı C.Farman ilk dəfə, əldə etdiyi məlumatlar əsasında, Antarktida üzərində ozon təbəqəsindəki dəlikləri təyin etmişdir. Beləliklə, görünür ki, planetimizin Antarktida hissəsində vəziyyət daha faciəlidir. 1989-cu ilin məlumatına görə, Antarktida üzərində ozon normadan 50% aşağıdır, «ozon dəliyi»nin sahəsi isə artmaqdadır. Canlı təbiətin təhlükə qarşısında olduğunu göstərən bu dəhşətli amil insanlardan onu əhatə edən mühitə ehtiyat və vicdanla yanaşmağı tələb edir. Onu da qeyd etmək lazımdır ki, ozon təbəqəsindəki dəyişikliklərin 50%-i XX əsrdə baş vermişdir.

ÜMT-nin məlumatına görə (1989), Yer kürəsində hər il 1 mln. 300 min tona qədər ozonu məhv edən maddə istehsal olunur 0və bu istehsal indi də durmadan artmaqdadır. Bəs ozon təbəqəsinin məhvi hansı fəlakətlərin baş verməsinə səbəb olur?! 1989-cu il martın əvvəllərində Londonda keçirilən beynəlxalq simpoziumun iştirakçıları bildirdilər ki, qəti tədbirlər görülməsə, planetimizdə nəfəs almaq mümkün olmayacaq, içmək üçün yararlı su tapılmayacaq. Dünya alimlərinin verdikləri statistik məlumatlarda diqqətə çatdırılır ki, Şimal qütbündə və Antarktidada ozon qatında əmələ gəlmiş dəyişikliklər nəticəsində Günəşdən radioaktiv şüalanma çoxalmış və ildə 100 minlərlə adam bu səbəbli xərçəngdən tələf olur! Beynəlxalq ozon qatının mühafizəsi təşkilatının devizi belədir: «Səmanı qoru, özünü qoru, ozon təbəqəsini qoru!»

İnkaredilməz bir faktdır ki, hər hansı bir orqanizmdə xərçəng xəstəliyinin baş verməsi ekoloji amillərlə sıx əlaqədardır və belə xəstələrin sayı ildən-ilə 4-5 % artır. Ümumdünya xərçəng xəstəliklərini öyrənən agentliyin məlumatına görə, xərçəng xəstəliyinin baş verməsində 20% virus və irsilik, 80% isə ekoloji amillərin rolu var. Hazırda ekspertlər tərəfindən müəyyən edilmişdir ki, istehsal prosesində əmələ gələn 50-dən çox maddə insan orqanizmində xərçəngin əmələ gəlməsinə səbəb olur. Elmə məlum olan başqa faktorlar: siqaret çəkmək, spirtli içkilə-





rin qəbulu, atmosferdə zəhərli tüstülərin miqdarının artması, keyfiyyətsiz qida və s. haqda məlumat verməyə lüzum yoxdur. Fikrimizcə, kütlə arasında səhiyyə maarifi işi aparılmalı, insan orqanizminə təsir edən və xərçəng xəstəliyinin əmələ gəlməsinə səbəb olan faktorların qarşısını almaq üçün təbabətin yeni sahəsi – «Ekologiya və onkologiya» yaradılmalı və bu sahədə ixtisaslamış mütəxəssislər hazırlanmalıdır. Hər bir dövlətdə «Ekologiya və onkologiya» adlı elmi-kütləvi jurnal buraxılmalı və onun səhifələrində həmin regionun ekoloji amilləri təhlil edilməli, bu amillərin nəticəsində əmələ gələn xərçəng xəstəliyinin tam təhlili verilməli, profilaktika yolları göstərilməlidir. Beləliklə, insan tərəfindən törədilən fəlakətlərin qarşısı insanın intellekti ilə də dəf edilməlidir.

Məlumdur ki, insan həyatı ilə bağlı olan üç varlığı: hava, torpaq və suyu öz əlləri ilə faciəli bir hala salıb. Qədim yazılı abidələrdən olan «Avesta»da Şərq ölkələrində suyun və suvarmanın əvəzedilməz əhəmiyyətindən bəhs edilərək deyilir: «Su olmayan yerdə nə həyat var, nə də məhsul ola bilər», BMT-nin son hesabatına (2009) görə, növbəti 20 il ərzində Yer kürəsi əhalisinin yarısı kəskin su qıtlığı problemi ilə üzləşəcək. Hesabatda xəbərdarlıq edilir ki, dünya əhalisinin sayının artması və iqlimin dəyişməsi (temperaturun yüksəlməsi) su çatışmazlığına səbəb olacaq. Statistik məlumatlara görə, dünya əhalisinin 3 milyarda yaxını hər gün içməli su qıtlığı çəkir. Araşdırmalar göstərir ki, tükənmək üzrə olan su qaynaqları sənayeləşmə, şəhərsalma nəticəsində çirkləndirilir və istifadəyə yararsız hala salınır. Abşeronda başqa bir faktor da peyda olub: neft quyularına vurulan dəniz suyu, bütün su quyularına təsir edib, su şoranlaşıb. Abşeron kəndləri içməli suyu pulla alır. Yaxın keçmişə qədər Abşeron su quyuları içmək, suvarmaq, isti aylarda isə ərzaqları saxlamaq üçün soyuducu rolu oynayıb.

2009-cu il martın ortalarında İstanbulda 5-ci Dünya Su Forumu keçirilmişdir. Rəsmiyə Rzalının «Dünyanı su qıtlığından xilas etmək hər bir dövlətin borcudur» məqaləsindən bəzi məlumatlar: «BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı-

nın dəstəyi ilə dünyanın 400-dən çox hidroloq və aqronomunun apardığı tədqiqatlar zamanı gəldikləri nəticəyə görə su probleminin həlli, ərzaq probleminin həlli qədər asan olmayacaq... Dünya Su Şurasının rəhbəri Loik Fauçon narahatlıqla bildirib ki, su bolluğu dövrü geridə qalıb. Odur ki, suyu israf etməmək lazımdır. O, suyu çatışmayan ölkələrə digər ölkələrin yardım etməli olduğunu bildirib: «Dünya ölkələri bir-birilə su kanalları vasitəsilə bağlanmalıdır». BMT-nin baş katibinin müavini Şa Yukonq isə dünyanın bütün bölgələrinə bərabər şəraitdə su çatdırılması üçün təcili tədbirlərin görülməsini vacib sayıb... Hazırda dünyanın ən çox susuzluqdan əziyyət çəkən ölkələri sırasında birinci yeri Afrika tutur. Əslində bu qitə beynəlxalq su hövzələrinin üçdə birinə malikdir, lakin bu qədər su mənbələrinin 6%-dən istifadə edə bilir. Bu gün Afrikada 300 milyona yaxın insan təmiz sudan, 313 milyona yaxın insan isə kanalizasiyadan məhrumdur. Beynəlxalq araşdırmalara görə, qarşıdakı 20-30 il ərzində Afrika ölkələrində iqlim dəyişkənliyi və əhalinin artması ilə əlaqədar su qıtlığı yaşanacaq... Hazırda Çinin təxminən 400 şəhəri su çatışmazlığı ilə üz-üzədir. Hindistanda isə 2025-ci ilə qədər təmiz suya ikiqat, sənayenin suya tələbatının isə üçqat artacağı gözlənilir. Banqladeşdə 28-35 milyona yaxın insan tərkibində arsenin miqdarı yüksək olan sudan istifadə edir. Latın Amerikasında 75 milyon insan təhlükəsiz su mənbələrindən məhrumdur. 116 milyon insanın isə kanalizasiya sistemi yoxdur. Proqnozlara görə Mexiko, Boqota, San-Paulo və Buenos-Ayres kimi şəhərlərə hüquqi və maliyyə dəstəyi artmasa, 20 ildən sonra təhlükə son həddə çatacaq. Şimali Amerikada isə su axınlarının yarısı çirklənmişdir. Cənubi Qafqazdakı vəziyyətə gəlincə, burada ümumi su ehtiyatının 62%-i Gürcüstanın, 28%-i Ermənistanın, 10%-i isə Azərbaycanın payına düşür. Azərbaycanın ərazisinin dörddə üç hissəsi Kür çayı hövzəsindədir və bu çay ölkə əhalisi üçün əsas içməli su mənbəyidir. Azərbaycana Kür çayı vasitəsilə daxil olan suyun çox hissəsi Gürcüstan və Ermənistan ərazisindən keçir. Yeri gəlmişkən qeyd edək ki, Ermənistan və Gürcüstan hələ də





Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Konvensiyaya qoşulmayıb. Azərbaycan isə bu sahədə 17 müxtəlif beynəlxalq konvensiyanın, o cümlədən Transsərhəd Suların Mühafizəsi üzrə konvensiyanın iştirakçısıdır. Azərbaycanın şirin su ehtiyatlarının kiçik bir qismi də Araz çayı hesabına formalaşır ki, bu da İran və Ermənistan tərəfindən çirkləndirilir. Şimaldan – Rusiyanın Dağıstan ərazisindən gələn Samur çayı da normalara uyğun deyil.» («Azərbaycan» qəzeti, 31 mart, 2009)

BMT-nin məlumatına görə, planetimizdə bir nömrəli qatil bir stəkan çirkli sudur.

«Torpaq» və «su» məfhumu insanların güzəranı üçün eyni məna daşıyaraq, ayrılmaz bir vəhdət təşkil edir. Dədə Qorqud vaxtilə demişdir: «Torpağa vətən demək üçün iki şərt gərəkdir. Biri onu əkib-becərmək, ikincisi onu qorumaq. Torpağı əkib-becərmirsənsə, qorumağına dəyməz, qorumursansa, əkib-becərməyinə dəyməz». Torpağı iki bəladan qorumaq labüddür: düşməndən və ekoloji faktorlardan. Torpağı düşməndən qorumaq hər bir dövlətin daxili işidir, ekoloji faktorlardan qorumaq isə bütün dövlətlərin, elmin, etiqadın, hər bir insanın müqəddəs vəzifəsidir.

4 iyun 2008-ci il Ümumdünya Ətraf Mühiti Müdafiə Günü münasibətilə dərc olunan məlumatlara görə, hazırda atmosferdə əsas istilik saxlayan karbon qazının ($CO_2$) miqdarı 150 il bundan əvvələ nisbətən 33% çoxdur və bu göstərici daha sürətlə artmaqdadır. Ekosistemin bu sürətli dəyişiklikləri dağlardan tutmuş okeanlara, qütblərdən tutmuş tropiklərə qədər sürətli dəyişikliklərə məruz qalır. Nəticədə dəniz səviyyəsindən aşağıda yerləşən şəhərlər suyun altında qala bilər, münbit torpaqlar səhralara çevrilər və hava şəraiti daha da dözülməz olar. N.P.Dubinin yazır: «Biz elə bir məqamda yaşayırıq ki, insanı əhatə edən mühitin çirklənməsi təhlükəli xarakter almışdır...Biosferada bundan sonra da belə pozuntular davam edərsə, insanın özünün mövcudluğu üçün təhlükə yaranar.» («Palitra» qəzeti, 4 iyun, 2008)

Hesablamalara görə, atmosferdə daim mövcud olan qarışıqların ümumi çəkisi 10-11 milyon tona bərabərdir. Atmosferdə bu çirkləndiricilər sürətlə geniş ərazilərə yayılaraq qlobal problemlərin, o cümlədən qlobal istiləşmənin yaranmasına təkan verir. Buna görə də bir ölkədə atmosferin çirklənməsi təkcə həmin ölkənin deyil, həm də digər ölkələrin probleminə çevrilir.

Hazırda dünyada daxili yanacaq mühərrikli avtomobillərdə il ərzində 3 milyard tona qədər neft yanacağı işlədilir. Avtomobil mühərrikləri ilə şəhər havasına 25%-dən artıq karbon qazı, 65% karbohidrogenlər və 30% azot oksidi atılır.

İnsandan başqa bütün canlılar təbiətlə üzvi vəhdətdə olub onun tələblərinə uyğunlaşır. Yalnız insan təbiətin qanunlarını pozur, onu özünün tələblərinə uyğun dəyişdirməyə çalışır. Bu o dərəcəyə gəlib çatıb ki, nüvə silahına nisbətən daha çox təhlükəli olan ekoloji partlayış gözlənilir. Ekoloji partlayışın planetdə yarada biləcəyi mənbələr qlobal istiləşmə ilə əlaqələndilir. Tədqiqatçıların fikrincə, qlobal istiləşmənin indiki şəraitində stabilləşmə və təbii sərvətlərdən səmərəli istifadə təmin edilərsə, ekoloji-iqtisadi tarazlığın mühafizəsi mümkün olar. Bu isə insan intellektindən, dövlətlər arasında müsbət intellektual sferanın bərqərar olmasından asılıdır.

Şüurlu insan bilməlidir ki, torpağı istehsal etmək, onu Yer kürəsində olduğundan əlavə çoxaltmaq qeyri-mümkündür, olduğunu vicdanla qorumaq isə onun müqəddəs borcudur. Torpağın üst qatında çox kiçik bir hissə onun qumosu adlanır. Bu isə yalnız ağaclı, otlu, bitkili ərazilərə aiddir. «Bir santimetr humusun yaradılmasına 6-8 əsr zaman tələb olunur. Lakin onun məhv edilməsi üçün 6-8 dəqiqə yetərlidir. Belə ki, torpağın üzərində partlayan bombalar və böyük yanğın hadisələri onun qumosunu məhv edir... Qədim Çində insan sağlamlığı onun ciyərlərinin sağlamlığı ilə ölçülürdü. Bundan ötrü ən yaxşı vasitə təbiətin öz təbiiliyini saxlaması və ekoloji tarazlığın qorunması hesab edilir. Lakin insanlar buna əməl edirmi?» (Hafiz Mirzə, «Olaylar» qəzeti, 18 avqust, 2009)





Yenə də Hafiz Mirzənin dediyi kimi, ekoloji tarazlığın qorunması dolayısı yolla həm də İlahi Nurun qorunması və artırılması anlamında qəbul edilməlidir. Beləliklə də, insanın intellekti, onun mənəvi kamilliyi ekoloji tarazlığın qorunmasına rəvac verir. Bu isə insanın təbiəti qoruması, dolayısı yolla həm də özünü qoruması deməkdir. Ekoloji mədəniyyət insanın dünyanı qoruması anlamındadır. Beləliklə, ekologiyanın hansı sahəsinə müraciət edilsə, mütləq insan və onun intellekti birinci sıraya çıxar.

Meşəyə dünyanın ağ ciyəri, qapısız xəzinəsi deyiblər. Materikin 29%-i meşədir. Meşələr gecə-gündüz, qəddarcasına, plansız qırılır. Meşələri ləğv edib zavodlar tikir, şəhərlər salırlar. Qlobal istiləşmənin qarşısını almağın ən sadə üsullarından biri yaşıllıqların qorunmasına, inkişaf etdirilməsinə nail olmaqdır. Alman tədqiqatçıları sübut etmişlər ki, bir fısdıq ağacı bir saatda 2 kiloqrama qədər, bir gündə isə 70 nəfər adamın istifadə etdiyi oksigen ixrac edir, bir saatda 2,5 kiloqram zəhərli təsirə malik qazları udur, bununla havanı ekoloji təmizləyir. Texniki-iqtisadi və bioloji keyfiyyətlərlə zəngin olan tut ağacı ağır hava şəraitində mühiti zərərli və zəhərli qarışıqlardan təmizləyir. Belə misallar çox çəkmək olar.

Beləliklə, qlobal istiləşmənin yaratdığı mühitdən nisbi qorunmaqda və onun təsirini sabitləşdirməkdə əsas mühafizə şəhər ətrafında salınmış yaşıllıqlar ola bilər.

XX əsrdə meşələri bilərəkdən yandırmaqla, yeni bir terror növü peyda oldu: «Ekoloji terror». Son dövrlər erməni işğalı təkcə Azərbaycan xalqına yox, onun təbiətinə qarşı da soyqırımı ilə müşayiət olunur. Mənfur ermənilərin işğal etdikləri torpaqlarımızda törətdikləri genişmiqyaslı yanğınlar, meşələrin vəhşicəsinə qırılması, konyak istehsalında istifadə edilən çəlləklər üçün material olan qırmızı palıdın qəddarcasına kəsilməsi, yeraltı sərvətlərin gecə-gündüz daşınması, Ermənistan AES-in radioaktiv tullantılarının Azərbaycanın işğal olunmuş ərazilərində basdırılması, Araz çayına axıdılan zəhərli sular və s. Azərbaycana qarşı ekoloji terrordur. Əfsuslar olsun ki, dünya

dövlətləri və ictimai təşkilatlar hələ də erməni terroru qarşısında «təmkin» göstərir. Bu terror növü planetimizin başqa regionlarında da törədilməkdədir.

Vaxtilə akademik M.C.Hüseynov (1913–1974) neft və kimya stimulyatorlarının yeni növlərini, o cümlədən «neftboy» maddəsini kəşf etmişdi. Həmin dövrdə kənd təsərrüfatında bu yeni maddədən geniş istifadə edilməyə başlanmışdı. VaxtiləŞəkidə kənd-təsərrüfatı məhsulları muzeyi fəaliyyət göstərirdi. Həmin muzeydə çəkisi 80-100 kq olan qarpız nümayiş etdirilirdi. Bu məhsul inəklərə verilir, heyvan kökəlir və südü dəfələrlə artırdı. Başqa məhsullar da o sıradan. Sonradan məlum oldu ki, həm «neft-boy» maddəsi, həm də onunla becərilən məhsullar kanserogendir, insanlarda cürbəcür xəstəliklərin, o cümlədən şişlərin əmələ gəlməsinə səbəb olur. Bəs müasir dövrümüzdə vəziyyət necədir? Gəlin müxtəlif araşdırmalara müraciət edək.

«Təbii bitkiləri transgen növlər əvəzləyir, qidalandığımız ərzaq 7 nəslə ötürülür» məqaləsindən bəzi məqamları oxucuların nəzərinə çatdırırıq: «Son illər mərkəzi sinir sistemi xəstəlikləri, ürək çatışmazlığı və immun sisteminin zəifliyindən əziyyət çəkənlərin sayının kəskin artması müxtəlif amillərlə izah edilir. Səbəblər içərisində ekoloji və ya epidemioloji çirklənmədən daha çox qidanın keyfiyyəti məsələsi qabardılır. Alimlərin fikrincə, xəstəliklərin artmasında genetikası modifikasiya olunmuş ərzaq məhsullarının xüsusi rolu var. Doğrudur, indiyədək qeyri-ənənəvi ərzaq məhsullarının orqanizmə təsirilə bağlı mübahisəli fikirlər söylənilib. Lakin aparılan tədqiqatlar sübut edir ki, belə məhsullar hətta bir neçə nəsil sonra gendə dəyişiklik edə bilər.

Qida məhsullarının yararlılıq müddətini uzatmaq və dadını artırmaq məqsədilə onların genetikasının dəyişdirilməsi təcrübəsi ilk dəfə 1984-cü ildə ABŞ-da həyata keçirilib. Genetikası modifikasiya olunmuş (GMO) məhsullar iqtisadi cəhətdən səmərəli olduğundan tez bir zamanda dünyaya yayılıb. Araşdırmalara görə, hazırda dünya əhalisinin 65%-i genetik dəyişikliyə





məruz qalan məhsullarla qidalanır. Əsas məqam ondur ki, gen dəyişiklikləri zamanı məhsullara xəstəliklər də ötürülə bilər. Təmiz və eyni biçimli kartoflar heyvan geni köçürməklə becərilir. Məlumdur ki, Kolorado böcəyi kartofun düşmənidir. Heyvan geni ilə birləşdirilmiş yeni kartof növləri bu böcəyə qarşı davamlıdır. Hətta böcək kartof növünün yarpaqları ilə qidalananda məhv olur. Geni dəyişdirilmiş inək çoxlu süd verir, donuzun əti piyindən çox olur, toyuqlardan yağ damır.

Son illər GMO ilə bağlı 500-dən çox araşdırma aparılıb. Qəribədir ki, belə məhsulların orqanizmə mənfi təsirilə bağlı rəy də ABŞ alimlərindən gəlib. Onlar Ümumdünya Səhiyyə Təşkilatının vasitəsilə həyəcan təbilinin çalınmasına nail olmaq istəyiblər. Transgen məhsullarla daima qidalananlar piylənməyə məruz qalırlar. Araşdırmalara cəlb edilən qadınların 96%-də mədə-bağırsaq xəstəlikləri, həzm sisteminin pozulması müşahidə edilib. Məlum olub ki, qadınlar «McDonalds»da qidalanmağı çox sevirlər. «McDonalds»ın menyusunun bəzəyi olan hamburger, hot-doq və digər ət yeməklərində istifadə edilən qidalar transgen məhsullardır. Bundan başqa, restoranlarda təklif edilən toyuqlar hormonla böyüdülür, bitki yağları belə məhsullarla hazırlanır.

«Cipsi»lərin hazırlanmasında yalnız gen dəyişikliyinə məruz qalmış kartof növündən istifadə edilir. Mütəxəssislər yeni doğulanların 30%-nin genetik fəsadlara məruz qaldığını bildirirlər. Artıq dünyanın əkin sahələrinin 30-50%-də transgen məhsullar becərilir. Kolbasa, şokolad, mayonez, bitki yağları, soya unu da transgen məhsullardan hazırlanır. Geni dəyişdirilmiş məhsulların istehsalı və istifadəsinə görə ABŞ liderlik edir. Beynəlxalq Ərzaq Araşdırmaları İnstitutunun hesabatında deyilir ki, son illər təbii məhsul əkini sahələrinin sayı 10 dəfələrlə azaldılıb. Yaxın illərdə təbii bitkilərin əkin sahəsi tamamilə məhv edilə bilər...» (Əntiqə, «Olaylar» qəzeti, 26 dekabr, 2007)

Biz bir də təkrar etmək məcburiyyətindəyik: Allah-Təala öz bəndələrinə o qədər nemətlər əta etmişdir ki, onları saymaq-

la qurtaran deyil. Dahi Mövlana öz «Məsnəvi»sində deyir: «Hər meyvənin toxumu öncə yerə girər, ondan sonra yerdən göylərə doğru baş qaldırar və yüksələr... Bütün nemətlərin əslləri göydən torpağa yağdı, torpağın altına girdi. Ondan sonra tərtəmiz cana qida oldu.»

Allah-Təala buyurur ki, bütün bu nemətlər insan üçün yaradılmışdır. Sadəcə olaraq, dünya nemətlərindən istifadədə hədd gözləmək lazımdır. Qurani-Kərimin Maidə surəsinin 87, 88-ci ayələrində buyurulur: «...Allahın sizə halal buyurduğu pak nemətləri (özünüzə) haram etməyin və həddi aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz. Allahın sizə verdiyi ruzidən halal və təmiz olanını yeyin...» Lakin insan bu nemətlərə laqeyd yanaşdı, qorumadı, hətta onların məhv olmasına səbəb oldu, daha doğrusu, ekoloji qaydalara riayət etmədi.

Yer üzərində ləyaqət, mərhəmət, ədəb, rəhm, şəfqət, xeyirxahlıq, mehribanlıq, iman, təvazökarlıq, əxlaq, sülhsevərlik və ədalətin yox dərəcəsinə çatması, alimlərin təlim və təlimatının öz yolunu azması, elmə qiymət verilməməsi, insanların bir-birinə həsədlə yanaşması, boş şeylərin, uydurmaların həqiqət sayılması, qanun və qaydaların silinib getməsi, insanların içməli suya, təmiz qidaya, havaya və yararlı torpağa həsrət qalması, qlobal istiləşmə ilə əlaqədar daşqınların, sunamilərin çoxalması, terrorizm və nasizmin, ekoloji terrorizmlə təbiəti məhv etmək vəhşiliyinin baş alıb getməsi, bununla əlaqədar xəstəliklərin epidemiya halını alması, ümumiyyətlə, mənfi intellektual ekoloji faktorların durmadan artması haqq olan qiyamətin əsas əlamətləridir. Qurani-Kərimin əl-Haqqə surəsinin 15-ci ayəsində buyurulur: «Məhz o gün (vaqe olacağına heç bir şübhə olmayan) qiyamət qopacaqdır!»

Beləliklə, ekoloji fəlakət Yer kürəsində yaşayanların hamısı üçün eyni dərəcədə qorxuludur. Elə buna görə də xırdalanıb evlərə, ellərə, vilayətlərə, dövlətlərə ayrılmadan hamılıqla ekoloji saflıq uğrunda çarpışmalıyıq. Yoxsa gözəl dünyamız və bəşəriyyət tamamilə məhv olar. Akademik N.N.Moiseyev planet





miqyasında böhranın – «tarixin sonunun» yaxınlaşmasından bəhs edərək yazır: «...fəlakət sürətlə yaxınlaşır, bəşəriyyətin bundan sonra qarşısını almaq imkanları, praktik olaraq, tükənmişdir.»

Məşhur astrofizik Stiven Xokinq son günlər baş verən müxtəlif təbii fəlakətlərə işarə edərək dünyanın sonunun gəldiyini bildirib: «Bu dünyadan qaçmasaq, axırımız yaxşı olmayacaq. Sivilizasiya tarixinin ən təhlükəli dövrünə giririk. Dünyadan yox olmağımız bir ana bağlıdır. Belə hadisələr gələcəkdə daha tez-tez baş verəcək, çünki dünyanın bizə bəxş etdiyi təbii sərvətləri sürətlə tükədirik. Genetik kodlarımız daha eqoist və daha aqressiv olub. Var olmaq üçün tək şansımız var. O da kainata yayılmaq. Qeyd edək ki, alimlərin hesablamalarına görə, sivilizasiya hazırda sahib olduğu texnika, raket və yanacaqla ən yaxın ulduza 50000 ilə ancaq gedə bilər. Bundan başqa insanın belə bir səyahət üçün işıq sürətinə ehtiyacı var və səyahət müddətində kosmik radiasiyalardan qorunmaq üçün xüsusi texnika əldə etməlidir.» («Olaylar» qəzeti, 11 avqust, 2010)

Biz, hər şeydən əvvəl, bir həqiqəti unutmamalıyıq ki, Yer insan cəmiyyətinin ümumi evidir, onun alternativi yoxdur və ola da bilməz. Əgər başqa planetdə yaşayış varsa da, biz ora qonaq kimi gedə bilərik. Gəlin, doğma evimizi, gələcəyimizi qoruyaq. Ekologiya qanunlarına hamımız vicdanla riayət edək. Bəlkə 10, bəlkə 100 milyon illər bundan əvvəl Yer planetində indikindən də böyük inkişaf olub, bəlkə onda da insan ekologiyaya məhəl qoymayıb, hər şey dağıdılıb? Həyat bəlkə yenidən əmələ gəlib? Ancaq insan, yenə də sabahını, xalqını, millətini, bəşəriyyəti düşünməyən insan bu müqəddəs planeti elə bir hala gətirə bilər ki, ondan dəfələrlə böyük olan ulduzlar kimi sıxılmış bir qaz kütləsinə çevrilər. Bəlkə də, «Pioner– 10» və «Pioner–11» Amerika kosmik aparatlarının uçuş trayektoriyasını təsdiq edən reaktiv hərəkətlər laboratoriyasının əməkdaşı Con Andersonun 10-cu planetin mövcudluğu haqdakı fərziyyəsi düzgündür? Ola bilsin ki, vaxtilə 10-cu planetlə Yer arasında əlaqə olub, lakin ekoloji faciələr nəticəsində bu əlaqə-

lər kəsilib.

Vaxtilə Türkmənistan Elmlər Akademiyasının müxbir üzvü O.Odekov yazırdı: «...indi başqa planetdən paleogəlişlər barədəki daha mübahisəli məsələyə müraciət edək. Mən belə hesab edirəm ki, onların mövcudluğu tamamilə mümkündür. Axı, bizdə heroqlif işarələrində, əfsanələrdə, Bibliya miflərində qeyri-adi atmosfer təzahürləri barədə maraqlı yazılar mövcuddur. Bu cür yazılardan biri hələ 3500 il bundan əvvəl yaranıb. Qədim misirlilər göydə uçan «odlu dairələr», «yanar nöqtələr» barədə qeydlər etmişlər. Elə 3500 il əvvəl Hindistanın Mohenco-Daro şəhəri 40 min sakini ilə birlkdə yer üzündən silinmişdir. «Mahabhapata»da deyilir ki, faciənin səbəbi «tüstüsüz alov» və göy işartısından sonra baş verən partlayış olmuşdur.»

Hind arxeoloqu P.Benerci 1922-ci ildə Mohenco-Daronun xarabalıqlarını aşkara çıxarmış və faciə haqda deyilənləri təsdiq etmişdir. «Buradakı küllük Xirosima və Naqasakinin atom partlayışından sonrakı vəziyyəti xatırladır, ancaq burada radioaktiv mühit yoxdur.» («Trud» qəzeti, 23 fevral, 1989)

Hər şey mümkündür. Hansı əfsanəni, fərziyyəni, tarixi araşdırsaq, görərik ki, hər şeyin səbəbi yalnız bir amildir: canlı, şüurlu insan. O insan ki, öz şüuru, öz əlləri ilə özünə qəbir qazır, yediyi çörəyi, içdiyi suyu, ciyərlərinə çəkdiyi havanı zəhərləyir, yaşadığı məkanı dağıdır.

Ey insanlar! Bir-birini tamamlayan iki insani ləyaqəti unutmayın: insaf və vicdan. Məhz bu iki insani ləyaqət müsbət intellektual ekologiyanın bünövrəsidir.

İnsan Allah-Təala tərəfindən azad yaradıldı, səadət və ya bədbəxtlik yolunu seçmək onun öz ixtiyarına verildi. Demək, istər kamala çatan, istərsə də süquta uğrayan insan bunları öz iradəsi ilə edir. Qurani-Kərimin əl-İnsan surəsinin 3-cü ayəsində buyurulur: «Biz ona haqq yolu göstərdik. İstər (nemətlərimizə) minnətdar olsun, istər nankor (bu onun öz işidir).»

İnsan tək özü üçün yox, ailəsi, qohum-əqrəbası, dostları, vətəni və milləti üçün yaşamalıdır. Dahi şəxslər insanlıq və bəşəriyyət üçün yaşayırlar. İnsan bu xüsusiyyətlərinə görə Allah-





Təalanın yaratdığı bütün canlılardan fərqlənir. Yalnız yemək üçün yaşayanlar, başqa canlılardan danışa bilmələri ilə fərqlənirlər. Məhəmməd peyğəmbər (s.) buyurur: «Bəşəriyyət Allahın ailəsidir. Allah dərgahında insanların ən sevimlisi onun ailəsinə fayda verib sevindirəndir.»

İnsan qədər ucalmaq mümkün olmadığı kimi, insan qədər alçalmaq da mümkün deyil. Belə ki, bütün fəsadların, azğınlıqların əsası insanın qəflətidir. Qəflət xəstəliyinə yoluxmamaq üçün insan özünə diqqət yetirmək və nəzarət etmək məqsədilə özünü sorğu-suala tutmalıdır: «Sən kimsən? Haradasan? Nə axtarırsan? İnsanlığa layiq və əksinə, hansı hərəkətləri etmisən? Özünün, ailənin, mənsub olduğun cəmiyyətin... və nəhayət, yaşadığın planetin aqibəti necə olacaq?» Bu proqramla hərəkət edən insan hökmən irəliyə doğru addım atır. Belələri çox halda cəmiyyətdə şəxsiyyət kimi yetişir. Vücudunda özünü dərketmə hissi az olan insan isə insaniyyətdən uzaqlaşır, onda özünə və ətrafına qarşı biganəlik baş verir. Hədislərdən birində deyilir: «Özünü tanıyan Allahını tanımışdır.»

Bütün millətlərin müdrikləri gənc və gələcək nəslə məsləhət vermişlər: «İnsafla yaşa, vicdanla ömür sür». Abbasqulu ağa Bakıxanov deyib ki, insaf ləyaqətin zinətidir. Məncə, insafsız adamda heç vaxt vicdan da ola bilməz.

Saleh bəy Yer planetində ekoloji tarazlığı qorumaq üçün təklif edir: «Beynəlxalq ekoloji fond yaradılmalı, hər dövlət təyin olunan məbləğdə oraya vəsait köçürməlidir. Və eyni zamanda fondun təyinatı və nəzarəti ilə müəyyən ölkələrə vəsaitlər ayrılmalıdır... Planetin ekzotik təbiətə malik olan yerlərinin, məsələn, Afrikanın, Hindistanın qorunub saxlanması, tək Afrikaya aid iş deyil, onlar, ümumiyyətlə, bütün Yerin, bütün xalqların sərvətidir. Odur ki, hamı dövlətlər öz «ciblərinə görə» xərc qoyanda məhz belə də düşünməlidirlər: «Mən xərc qoymasam, mənim nəvələrim o filləri, şirləri, zürafələri görə bilməyəcək». Yer bizim hamımızın və hər birimizin ümumi, doğma, əziz və əvəzsiz evimizdir, onu hamımız birgə qoruyub saxlamalıyıq! Və yalnız birgə saxlaya bilərik! («Dünyanın ta-

leyi», Bakı, 1998)

Qoy, əsrin ekoloqunun gələn əsrə proqnozu bizə qəm gətirmək əvəzinə, hamımızı oyatsın, öz gözəl planetimizi qoruyub saxlamağa bizi ruhlandırsın! Jak-İv Kusto hesab edir ki, «Yem və həyat üçün yer çatışmazlığı üzündən planetdən ilk yox olub gedən zürafə və fil olacaqdır. Həddən artıq çox insan eyni bir həyat məkanı uğrunda rəqabət aparacaqdır.» («Литературная газета», 18 dekabr, 1996)

Unutmaq olmaz ki, bəşər mənəviyyatında hər şey tərbiyədən, saf intellektdən başlayır və bu amil hər şeyə qadirdir. Tərbiyə insanı saflaşdırar, əks halda insan vəhşiləşər, caniyə çevrilər.

Beləliklə, insaniyyət, tərbiyə cəmiyyətin həyat və inkişafı üçün birinci dərəcəli amildir və onu bu səviyyəyə rəsmən və qanun üzrə qaldırmaq lazımdır. Tərbiyənin, insan ünsiyyətlərinin məzmun və forması dövlətin ən vacib işi hesab edilməlidir.

Saleh bəy təklif edir: «İnsaniyyət – ədalət, vicdan, insana, onun hüquq və ləyaqətinə hörmət, ən azı tolerantlıq – qarşılıqlı dözüm arzu edilən xüsusiyyətlər səviyyəsindən ümumbəşəri qanunlar səviyyəsinə qaldırılmalıdır. Bunun üçün yeni, insani hüquq normaları, yeni elm – insaniyyətşünaslıq sahələri yaradılmalıdır...». Keçmişin «güc hüququ» daha işləməyəcək, daha doğrusu, təkcə güc (və xüsusən əlavə olaraq hiylə) üstünlük yox, təhlükə gətirəcəkdir. Lakin gücsüz də iş keçməyəcək, heç olmasa, «keçid» dövründə ədalət və güc tələb olunacaq. Beynəlxalq əməliyyatlar, qərarlar tam (!) ədalət əsasında və ədalətsizliyə qarşı güc işlətmək yolu ilə icra ediləcəkdir – «Güc ədalətdir» prinsipi üzrə. Əfsuslar olsun ki, müasir dövrdə istər dövlətlərarası münasibətlərdə və istərsə də dövlət daxilində hüququn gücü yox, gücün hüququ hörmranlıq edir.

Bəzi müsəlman dövlətlərində yolunu azanları, əyyaşları, narkotik qəbul edənləri şallaqla cəzalandırırlar. Qərb dövlətləri buna quldarlığın qalığı kimi baxırlar. Belə çıxır ki, bir atom bombası ilə bütöv bir şəhəri əhalisi ilə birlikdə məhv etmək sivil, başqasının namusuna toxunana, oğruya, əyriyə şallaq vur-





maq isə vəhşilikdir. Bəzən tərbiyələndirmək üçün şallaq vacibdir. Atalar deyiblər: «Döyülməyən düyüdən aş olmaz!» Beləcə, insan intellekti, şüuru onu pilə-pillə mərifətə çatdırır, onu öz insani vəzifələrindən xəbərdar edir. İnsan düşünməli, fəlakətdən qurtarmaq üçün haqq-ədalət yolunu tutmalıdır.

Müəlliflərdən biri, olaraq qeyd etməliyəm ki, mən vaxtilə «Ekologiya və sağlamlıq» (Ə.Həmidov – Ənvər Mete, Bakı, 1990) kitabımda da Yer planetində ekoloji problemləri həll etmək üçün dünya xalqlarını, elm xadimlərini və dövlət başçılarını birliyə, düzlüyə, ehtiyatlı olmağa, gələcəyə qayğıkeşliyə çağırışla öz arzularımı bildirmişdim. İndi isə fikirlərimi (bunlar mənim arzularım və qəlbimin harayıdır) həmmüəllifimlə birlikdə daha geniş şəkildə oxuculara çatdırmaq istəyirəm.

Əziz oxucu, bütün bu deyilənləri, bəlkə də, bir utopiya kimi qəbul edəcəksən. Unutma ki, utopiya çox dərin tarixi köklərə söykənir. Utopiya bəzən tarixi zərurətdən həqiqətə çevrilir. Nağıllarda xalça üstündə uçmaq, yerin altı ilə başqa bir məmləkətə getmək, div – təpəgözün içməli suyun qabağını kəsməsi, insanları susuz qoyması və s. əfsanə, utopiya hesab olunurdu. Lakin insanın kosmosa və başqa planetə uçması, yeraltı metrolar və s. artıq həqiqətdir.

Qədim yunan şairi Hesiodun (e.ə. VIII–VII əsrlər) «qızıl əsr» haqdakı təsəvvüründən başlayaraq ictimai fikir tarixində daim utopik anlayış olmuşdur. Utopik ideyalara Platonun («Dövlət»), Avqustinin («Allah şəhəri haqqında»), XII əsr italyan mütəfəkkiri İoahim Florlunun («Əhli-cədidə «şərh») əsərlərində və s. rast gəlinir. Nizami Gəncəvinin «İsgəndərnamə» poemasında ideal cəmiyyətin mövcud olduğu utopik ölkə təsvir edilmişdi. Utopiya çərçivəsində mövcud quruluş bilavasitə və ya dolayı tənqid edilir, başqa sosial-siyasi idealı həyata keçirmək yolu ilə bu qüsurları aradan qaldırmağa cəhd göstərilir. Bəs müasir dövrdə təbii və intellektual faciələrin qarşısı necə alınmalıdır?

İnsanın ruhi aləmini qidalandırmaq üçün həmişə inanclara ehtiyacı olmuşdur. Bu inancları isə bəşər bəzən özünün müqəd-

dəsləşdirdiyi hər hansı bir təbiət hadisəsində, səmavi görünən qalaktikada, bütlərdə, hətta bəzi canlılarda, nəhayət, fövqəlbəşər olduğuna inandığı şəxslərdə və sonda gözəgörünməz varlıqda duymağa başlamışdır. Məlumdur ki, sistemli şəkildə insanların bu ehtiyaclarını təmin edən isə Allahın peyğəmbərləri vasitəsilə göndərdiyi dinlər olmuşdur. Elşad Mirinin dediyi kimi, dinlər də müxtəlif mərhələlərdən keçərək günümüzə qədər gəlib çıxmışdır: ibtidai qəbilə dinləri, milli dinlər və cahanşümul qəbul edilən dinlər müasir insanın inandığı dəyərlər sistemləridir. İngiltərənin Bristol Universiteti alimlərinin iddiasına görə, müasir insan genetik olaraq Allaha inamla doğulur («Xalq qəzeti», 9 sentyabr, 2009). İngiltərəli mütəxəssislər tədqiqat zamanı uşaqların təfəkküründə intuitiv formada fövqəltəbiiliyə inam olduğunu üzə çıxarıblar.

Əsrlər boyu dünya teoloq və filosofları Tanrının varlığını və ya yoxluğunu sübut etməyə çalışmışlar. Müasir elm isə bu sualı irrasional (ağılla, düşüncə ilə dərk edilməyən) elan edib. Hərçənd, elm inkişaf etdikcə, xariqülадə qüvvənin varlığını inkar edən materializm və darvinizm tamamilə iflasa uğrayıb.

Briston Universiteti alimlərinin fikrincə, Allaha inamsız nə «homo sapience», nə də müasir cəmiyyət mövcud olardı. İddiaya görə, bəşəriyyətin ilk çağlarında Tanrının, İlahi ədalətin, dünya düzənində nizamın varlığına inam bəsləyən insan qrupları daha möhkəm sosial əlaqələr quraraq həyatda qalma dərəcəsini yüksəldə biliblər.

«Belə danışırlar ki, Sokratı öldürməyə apararkən, bütpərəstliyi qəbul etməyi təkid ediblər. Sokrat isə deyib: «Allah eləməsin ki, Yaradandan başqa birinə sitayiş edəm.» («Qabusnamə»dən)

Məhz bu inam müasir cəmiyyətin əsasını qoymuş, inkişafını stimullaşdırmışdır. Allaha inamı, bu haqda anlayışı olmayan tayfa və insan qrupları isə özlərindən sonra heç bir iz qoymadan parçalanaraq məhv olmuşlar. Mövcud inanclar sisteminin ən sonuncusu və təbii olaraq, ən gənci islam dinidir. Bu dinin mənsublarının sayı durmadan artır.





ABŞ-ın Pyu Təhqiqat Mərkəzinin din və ictimai həyat bölməsinin hazırladığı məruzədə dünyada 1,57 milyard müsəlman olduğu bildirilmişdir. Mərkəzin əməkdaşları məruzə üçün 3 il müddətində 1,5 min mənbədən istifadə etmiş, 232 ölkə və regionda əhali arasında sorğu və demoqrafik araşdırmalar aparmış, siyahıyaalmanın nəticələrini öyrənmişlər. Tədqiqatlardan məlum olub ki, müsəlmanların 60%-i Asiyada, 20%-i Yaxın Şərq və Şimali Afrikada yaşayır. Sənəddə deyilir ki, Almaniyada yaşayan müsəlmanların sayı Livanda olduğundan artıqdır. Rusiyada isə İslama etiqad edənlərin sayı İordaniya və Liviyadan çoxdur. Heç təsadüfi deyildir ki, 2009-cu ildə Misirə səfər edən Rusiya Prezidenti Dmitri Medvedyev öz çıxışında demişdir: «Rusiyada fərqli inanc və mədəniyyətlərə hörmət var. Ölkəmizin islam dünyası ilə dostluq qurmaq istiqamətində bir səy göstərməsinə ehtiyac yoxdur. Bizim ölkəmiz onsuz da İslam dünyasının bir parçasıdır.» («Səs» qəzeti, 25 iyun, 2009)

Məruzədə həm də göstərilir ki, 300 milyondan çox müsəlman İslamın əsas din olmadığı ölkələrdə yaşayır. Avropada 38 milyon, Amerikada isə 4,6 milyon (onların yarıdan çoxu ABŞ-da yaşayır) müsəlman var. Məlumatları Rusiya informasiya agentlikləri yayıb.

İslam sülh və barış dinidir, insanlardan həmişə yaxşılıq etməyi, pisliklərdən çəkinməyi istəmişdir.

**Qurani-Kərimin ayələrinə nəzər yetirək**:

Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (İslama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq-aşkar düşməninizdir!

***əl-Bəqərə surəsi, ayə 208.***

Bir-birinizin qanını tökməyin, bir-birinizi yurdunuzdan çıxarmayın.

***əl-Bəqərə surəsi, ayə 67.***

Ey insanlar! Yer üzündəki qidaların təmiz, halal olanlarını yeyin. Şeytanın izi ilə getməyin!..

***əl-Bəqərə surəsi, ayə 168.***

Həqiqətən, Allah insanlara ədalətli olmağı, yaxşılıq etməyi... buyurur, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. Allah sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!

*ən-Nəhl surəsi, ayə 90.*

Yaxşılıqla pislik eyni ola bilməz!.. Sən (pisliyi) yaxşılıqla dəf et! (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!). Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən!

*Fussilət surəsi, ayə 34.*

Dahilərin dediyi kimi, insan kainatın ən sevimli əsəridir. Kainatın yaradılmasında elə məqsəd də insandır. İnsan – başına kainatdakı bütün incəlikləri tanıya biləcək ağıl tacı qoyulmuş, köksü incə hissiyyatlar, duyğularla bəzədilmiş bir məxluqdur.

Əfsuslar olsun ki, təmiz dənizləri və havanı çirkləndirən insan özüdür. Meşələri yandıran, müxtəlif heyvanları öldürən və nəslini kəsən yenə insandır. Texnologiyasını qəsdən zərərli işlərdə, kütləvi qırğınlarda istifadə edən, öz nəslini belə amansızcasına məhv edən yenə də insandır. Millətlər, dövlətlər, irqlər və dinlər arasında nifaq salan, Yer planeti adlı evimizdə həm ümumi və həm də intellektual ekologiya tarazlığını pozan elə insan özüdür. Bütün bu problemlərə qarşı mübarizə yenə də Yer planetində yaşayan insanların ümumi işidir. İnsanlar öz mənəviyyatını, sağlamlıqlarını sarsıdan təzahürlərə qarşı fəal müqavimətə, ümumilli simanı qorumağa məsuliyyət daşıyır. Bu, hər kəsin vətəndaşlıq borcu olmaqla, ruhi və intellektual sağlamlığı üçün xeyirlidir.

Danılmaz faktdır ki, müasir dövrdə, təbiət hadisələri qarşısında insanın davranışı, ümid və qorxuları dindən çox, elmlə əlaqədardır. Tanrıya inanıb-inanmamasından asılı olmayaraq, təbiətdə hamının təsirləndiyi hadisələr var. Hər iki tərəf də bəzi hadisələrdən qorxur və ya sevinir. Bunlar o hadisələrin nəticəsinə aiddir. Daha doğrusu, belə şeylər insanın ümumi problemidir.

Qurani-Kərimdə buyurulur: «Yer özünə məxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman; yer öz ağır yüklərini çıxarıb atacağı zaman; insan (təəccüblə): «Buna (bu yerə) nə olub?» – deyəcəyi zaman – məhz o gün (yer) öz xəbərlərini (başına gələnləri) söyləyəcəkdir; çünki (bunu) ona sənin Rəbbin vəhy etmişdir (buyurmuşdur)!» (əz-Zilzal surəsi, ayə 1-5)

Beləliklə, istər elmi və istərsə də dini xəbərdarlıqlar eyni vəzifəni ifadə edir: Ey insan! Ekoloji tarazlıqları pozma, səni fəlakət gözləyir. Biri bunu elmi araşdırmalarla, başqa biri isə Rəbbin vəhyi ilə əlaqələndirir. Ancaq məqsəd eynidir: Tanrının sənə bəxş etdiyi təbiəti və şüurun məhsulu olan intellektual ekologiyanı pozma, mənfiliklərə meyil göstərmə.

**Təkliflərimiz:**

Yer planetində Ümumdünya Ekologiya Təşkilatı – ÜDET yaradılmalıdır. İkinci dünya müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) yaradılmasına zərurət olduğu kimi, müasir dövrdə ÜDET-ə böyük ehtiyac var. Dünyanın ekoloji fəlakət astanasında olması ÜDET-in yaradılmasını zəruri edir. ÜDET iki bölmədən ibarət olmalıdır: «Təbiət ekologiyası» və «İntellektual ekologiya». («İntellektual ekologiya» elmin yeni istiqamət sahəsi olmaqla, söz, sözün təsiri, kəlam və onun qüdrəti əsasdır). Bütün dünya dövlətləri bu təşkilatın üzvü olmalıdır. Nümayəndələrin tərkibini, əsasən, bütün elmlər sahəsində tanınmış alimlər, ekoloqlar, filosoflar, din xadimləri, kulturoloqlar, hüquqşünaslar, fəaliyyətdə olan dövlət başçıları təşkil etməlidirlər. Təşkilatın fəaliyyəti üçün beynəlxalq ekoloji fond yaradılmalı, hər bir dövlət inkişaf səviyyəsinə uyğun təyin olunan məbləğdə oraya vəsait köçürməlidir. ÜDET-in nizamnaməsi və tapşırıqlarını yerinə yetirməyə nəzarət məqsədilə ekologiya polisi – hərbi dəstələri yaradılmalı, bütün dövlətlərin nümayəndələri bu bölmədə qulluq etməlidirlər. ÜDET-in bayrağında bu sözlər həkk olunmalıdır: «Yer hamımızın və hər birimizin ümumi, doğma, əziz evimizdir, onu hamımız birgə qo-

ruyub saxlamalıyıq! Və yalnız birgə saxlaya bilərik!»

Ekofonda dünya dövlətlərinin nümayəndələri nəzarət etməli, bütün vəsait yalnız ekoloji amillərin sağlamlaşdırılmasına yönəldilməlidir. ÜDET-in ayrı-ayrı dövlətləri, fərdləri mükafatlandırmaq və cərimə etmək hüququ olmalıdır. Böyük, beynəlxalq əhəmiyyətli ekoloji layihələrin işlənməsi, maliyyələşdirilməsi və həlli də ÜDET-in çox vacib və irimiqyaslı vəzifəsi olmalıdır. ÜDET-in sərhədlərdən sərbəst keçən, bütün xalqlara fayda gətirən, III minilliyin yeni təşkilatı olmasına tam əminik.

Kəlamların qüdrəti hər zaman kəsərli olmuşdur. Qüdrətli kəlamlar yaşadığımız Yer planetində intellektual ekologiyanın sağlamlaşmasına səbəb olan ən vacib bir amildir.

Qədim Çin filosofu Konfutsi (e.ə. 551–479) dövlətin möhkəmlənməsi üçün üç amil göstərib: çörək, ordu və mənəviyyat. Bunların içərisində ən əsası, dövlətin əsas dayağı olan mənəviyyatdır. İnsan mənəviyyatını necə tərbiyələndirmək olar? Yalnız inanc, elm və kəlamlarla. Şərq filosofu, ensiklopediyaçı alim Fərabi (870–950) «Elmlərin siyahıya alınması» traktatında dövrünün bilik sahələrini 5 bölməyə, onları da müxtəlif qismlərə ayırmışdır: 1) dilçilik; 2) məntiq; 3) riyaziyyat (hesab, həndəsə, optika, ulduzlar haqqında elm, mexanika); 4) fizika və metafizika; 5) idarəetmə haqqında elm, hüquqşünaslıq və kəlam. Kəlamın qüdrəti haqqında sonrakı bölmələrdə məlumat veriləcəkdir. Kəlamlar müsbət və mənfi intellektual ekologiyanın yaranmasının bazisidir. Planetimizi şüurlu insanlar tərəfindən qəbul edilən, müsbət ekoloji faktorları yaradan, mütərəqqi, mənəviyyatlı, şəfqətli fikirləri əks etdirən kəlamlar xilas edəcəkdir. Buna canlı misal Tanrı tərəfindən göndərilən 5 səmavi kitab, onlarda əksini tapan kəlamlar və bəşəriyyətin inancıdır. III minillikdə intellektual ekologiya elmi elə formalaşmalıdır ki, inancından, irqindən, millətindən, dilindən, sosial vəziyyətindən asılı olmayaraq, Yer planetinin bütün sakinləri tərəfindən «Amin» ifadəsi ilə qəbul edilsin. Necə ki, bütün dinlərdə insanların inandıqlarına etdikləri dua «Amin»lə yekunlaşır. İntellektual ekologiyanın bəşəriyyət tərəfindən qəbul





edilən bir əlifbası və bir notu olmalıdır. Necə ki, bütün millətlərin həm oxuyub, həm dinləyib başa düşdükləri bir dil var: musiqi dili. Hansı ki, bu dilin əlifbası olan notun ilk əsaslarını XIII əsrdə Səfiəddin Əbdül Mömin ibn Yusif ibn Fakir əl-Urməvi qoymuşdur.

Beləliklə, bütün araşdırmalardan və hörmətli oxuculara təqdim etdiyimiz mülahizələrdən sonra belə qərara gəlmək olar ki, III minillikdə Yer planetini fəlakətdən insan, onun əqli, intellekti, vicdanı, qəlbi, müdrikliyi, əxlaqı, mərhəməti, özünü dərk etməsi, mənəviyyatı, elmi və nəhayət, inancı xilas edəcəkdir. Çünki başqa yol yoxdur.

Son bir neçə tarixi faktı yada salaq. Təsəvvür edin ki, dünya vahid bir orqanizmdir, millətlər, xalqlar isə bu orqanizmin əzaları. Yaşadığımız dünya bu gün belə bir vücud formasındadır. Görünür, buna da səbəb qloballaşmadır ki, artıq nəinki millətlər, xalqlar, eyni zamanda dinlər və sivilizasiyalar da ayrılıqda formalaşa və inkişaf edə bilmir, çünki bir-birinə bağlıdır. Bunu deyərkən, 1998-ci ildə Bakıda «İslam sivilizasiyası Qafqazda» mövzusunda keçirilmiş beynəlxalq simpozium və 2002-ci il oktyabrın 10-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun «Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması» mövzusunda yenə də Bakıda keçirilən beynəlxalq konfrans yada düşür. Bu konfranslar dünyanı terrorizm bəlasından qurtarmağa və cəmiyyətin mənəvi saflığını qorumaq üçün dinin rolunu gücləndirməyə çağırmışdır. Son hadisələr göstərir ki, cəmiyyətin mənəvi saflığının qorunub saxlanmasında dini dəyərlərin rolu əvəzedilməzdir.

Bu, bir həqiqətdir ki, Azərbaycan müxtəlif millətlərə, dinlərə, etnik qruplara mənsub insanlar arasında nifaq yaradan səbəblərin aradan qaldırılmasına xidmət edən tolerantlığı dəstəkləyir. 2002-ci il mayın 22-23-də Bakıda rəsmi səfərdə olmuş Roma katolik kilsəsinin başçısı II İoann Pavel də bunu etiraf etmişdir. Almaniyanın Azərbaycandakı sabiq səfiri Klaus Qrevlix həmin tədbirdəki çıxışında bu məsələni xüsusi vurğula-

mışdır: «Bu gün Azərbaycanda dinlər arasında müşahidə olunan dözümlülük və tolerantlıq münasibətləri hamı üçün, bütün ölkələr üçün nümunə ola bilər. Azərbaycan təkcə neftini deyil, tolerantlıq da ixrac edə bilər». Bəli, Azərbaycan mövqeyinə, etnik və dini mənzərəsinə görə nəinki Qafqazın, eləcə də dünyanın nadir diyarlarındandır. Məhz burada, Avropa ilə Asiyanın qovuşağında, Böyük İpək Yolunun üstündə qədim dini inanclar öz izlərini qoymuş, İslam, Xristian və Yəhudi dinləri əsrlər boyu dialoq və qarşılıqlı anlaşma şəraitində dinc yanaşı yaşamış, indi də yaşamaqdadır.

26-27 aprel 2010-cu ildə Bakıda dünya dini liderlərinin «Qloballaşma, din, ənənəvi dəyərlər» mövzusunda ikigünlük sammiti keçirilmiş, yekun Bəyannamə qəbul edilmişdir.

Sammitin iştirakçıları – 33 ölkədən olan müsəlman, xristian, yəhudi, buddist və induist dinlərinin rəhbərləri və təmsilçiləri dövrümüzün aktual mövzularını, o cümlədən qloballaşmanın dinə və ənənəvi dəyərlərə təsiri məsələsini müzakirə etmək üçün Azərbaycana toplaşmışdılar.

Dini liderlər bildirmişlər ki, iqtisadiyyat, siyasət, hüquq və mədəniyyətin qloballaşması birmənalı proses deyil. Bu, istehsalın, ticarətin, elmin, təhsilin inkişafına, təhlükəsizlik və ətraf mühitin mühafizəsi sahələrində ümumi çağırışlara cavab verilməsində heç də az səmərə verməmişdir. Beynəlxalq əlaqələr möminlərə müasir çoxmillətli və çoxdinli cəmiyyətlərdə öz hüquqlarını qorumağa imkan verir. Lakin qlobal proseslərin din sahəsinə təsiri bir çoxları tərəfindən tənqidlə qarşılanır.

Qəbul olunmuş Bəyannamədə deyilir ki, qloballaşma dövlətlərin, xalqların və fərdlərin təhlükəsizliyi üçün təhdidləri aradan qaldırmamışdır. Müasir dünyamızda ötən əsrlərdən miras qalan aclıq, sosial qeyri-bərabərlik, ətraf mühitin çirklənməsi, milli-dini zəmində silahlı münaqişələr kimi problemlər hələ də həllini tapmamış, əksinə, bu problemlərə yeniləri əlavə olunmuşdur.

Sənədi imzalayan dini liderlər hesab edirlər ki, əvvəllər ayrı-ayrı regionları təhdid edən terrorizm artıq beynəlxalq xarakter almaqdadır və onunla mübarizə xeyli çətinləşmişdir. Buna görə də nasist ideyalar kimi, dinc insanlara qarşı zorakılığa haqq qazandıran dini-siyasi doktrinalar da qadağan edilməlidir.





Sammitin iştirakçıları tərəfindən xüsusi vurğulanmışdır ki, bu gün dünya üçün ən böyük təhlükələrdən biri hər il milyonlarla insanın həyatına son qoyan narkomaniya problemidir. Terrorçuluqda olduğu kimi, narkotik maddələr ticarətinə qarşı da mübarizə ardıcıl, amansız xarakter daşımalı və dünya ictimaiyyətinin gücü ilə aparılmalıdır.

Dünya dini liderləri sənəddə işğalçılıq probleminə də toxunaraq qeyd etmişlər ki, hər bir ölkənin ərazi bütövlüyü qorunmalı, eyni zamanda hər bir xalq azad şəkildə inkişaf etməlidir. Xalqların öz taleyi ilə bağlı bütün beynəlxalq qərarların qəbulunda iştirakları vacib olmalıdır. Meydana çıxan münaqişələr ədalətli, beynəlxalq norma və prinsiplər çərçivəsində öz həllini tapmalıdır.

Bəyannamədə bildirilir ki, sülhə və səbrə səsləyən dinin potensialı barışıq qüvvəsi olmalıdır. Mübahisəli məsələlərin hərbi yolla həllinə yol verməmək həyati əhəmiyyət kəsb edir.

Dünyamızın gələcəyi naminə ümumi dil taparaq ekstremizmə, terrorizmə, təcavüzkar separatçılığa dəstək verən şər qüvvələrin əməllərinə son qoymağın yeganə yolu budur: problemə yalnız Haqqın və İlahi ədalətin gözü ilə baxılsın, insanlar dininə, irqinə və milliyyətinə görə dəyərləndirilməsin.

Hörmətli oxucu, insanın fitrətən can atdığı şeylərdən ən şirini səadət, xoşbəxtlik və sağlamlıqdır. Normal şüura malik insan heç vaxt bədbəxtliyə can atmaz, əzab-əziyyət ardınca qaçmaz. Bütün bəşəriyyət səadət, xoşbəxtlik, sağlamlıq, rahatlıq, sakitlik sorağındadır. Deyilənlərin hamısı bəşər intellektinin müsbət ekoloji amilləridir ki, bunları inancın, elmin, ağlın sayəsində bərqərar etmək mümkün olacaqdır. Vaxt gələcək, bəşər özü gündəlik yaşayışında bu amillərin həm icraçısı və həm də keşikçisi olacaqdır.

# II FƏSİL
# Şərqin hikmətlər simfoniyası

O, göylərin, Yerin və onların arasında olanların (bütün məxluqatın) Rəbbidir. Məşriqlərin (şərqin və qərbin – Günəşin, Ayın və ulduzların doğub batdığı yerlərin) də Rəbbi Odur.

***Qurani-Kərim,***
***əs-Saffat surəsi, ayə 5.***

İki məşriqin və iki məğribin Rəbbi (Günəşin və Ayın yazda və qışda çıxıb batdığı yerlərin sahibi) Odur.

***Qurani-Kərim,***
***ər-Rəhman surəsi, ayə 17.***

Məşriqlərin və məğriblərin Rəbbinə and olsun ki, Biz, həqiqətən, qadirik.

***Qurani-Kərim,***
***əl-Məaric surəsi, ayə 40.***

Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıl sahibləri düşünüb dərk edərlər.

***Qurani-Kərim,***
***əl-Bəqərə surəsi, ayə 269.***



## DİNLƏRİN VƏ ELMLƏRİN BEŞİYİ ŞƏRQ

Biz, istər Şimal, istərsə də Qərb adamları ərəb poeziyasının gözəlliyini heç vaxt qiymətləndirə bilməyəcəyik.

***Aleksandr Düma.***

Şərqi öyrənmək lazımdır, bilmək faydalıdır, dərk etmək səadətdir.

***Banu-Lahutti,***
***şair-publisist.***

Ön və Orta Şərq tarixən dinlərin, fəlsəfənin və bir çox elmlərin beşiyi olub. 124 min peyğəmbərdən adları Qurani-Kərimdə çəkilən Adəm (ə.), İdris (ə.), Nuh (ə.), Hud (ə.), Salih (ə.), Şuayib (ə.) , İbrahim (ə.), Lut (ə.), İsaak (ə.), İsmayıl (ə.), Yaqub (ə.), Yusif (ə.), Musa (ə.), Harun (ə.), Davud (ə.), Süleyman (ə.), Əyyub (ə.), Zulkifl (ə.), İlyas (ə.), Elyesa (ə.), Zəkəriyyə (ə.), Yunis (ə.), Yəhya (ə.) , İsa (ə.) və Məhəmməd (s.) (25 nəfər) Ön və Orta Şərqdə dünyaya göz açıb fəaliyyət göstərmişlər.

İnsanın yarandığı gündən ruhi aləmini qidalandırmaq üçün həmişə inanclara ehtiyacı olmuşdur. Tarixən dinlər də, bəşərin inkişafı ilə bərabər, müxtəlif mərhələlərdən keçərək günümüzə qədər gəlib çıxmışdır.

İbtidai dinlərin ən qədim formalarından biri totemizm, digəri sehr – magiyadır. Orta əsrlərdə «Allah qüvvələrinin» – mələklərin, müqəddəslərin köməyi ilə «möcüzələr» yaradan ağ magiyanı və «natəmiz qüvvələrin» – şeytanın (qəzəbli ruhların) köməyinə müraciət edən qara magiyadan fərqləndirirdilər.

Yürüşlərin, əkinin, məhsul yığımının başlanması zamanı, yağışın yağması, ovda, müharibədə və s. müvəffəqiyyət qazanılması arzusu ilə keçirilən magik mərasimlər geniş yayılmışdı. Dini görüşlərin formalaşmasında fetişizm də xüsusi rol oynamışdır. İbtidai dinlərdən biri də animizmdır. Təcəssümləşdirmənin inkişaf etmiş forması mifologiyanın, mifologiyanın inkişafı antropoitrfizmin meydana gəlməsinə səbəb olmuşdur.

Hörmətli oxucu, ibtidai dinlərin bu formaları haqqında qısa məlumat verməyi lazım bildik (məlumatlar ASE-dəndir).

**Totemizm** (Şimali Amerika hindilərinin dilində *ocibve ottem*, hərfi mənası – onun nəsli, tayfası, qəbiləsi deməkdir). İbtidai icma cəmiyyətinin ən erkən din formalarından olan totemizm etiqad və adətlər kompleksidir. Müəyyən insan qrupu (tayfa, qəbilə) ilə heyvan və bitkilərin (totem) qohumluq əlaqəsinə inamla əlaqədar yaranmışdır. Hər tayfa (qəbilə) öz toteminin adını daşımışdır. Totemi öldürmək və ya yemək olmazdı. Totemizm dünya xalqları arasında geniş yayılmışdır. Totemizmin qalıqları bütün dinlərdə saxlanılmışdır.

**Sehr** (ərəbcə cadu, əfsun deməkdir), sehrbazlıq – qədim dini ayin formalarından biri olub, hələ qədimdən, insanların təbiət hadisələrinin sirlərini dərk edə bilmədikləri dövrdən məlumdur.

**Magiya** (latınca *magia*, yunanca *mageia* sözündəndir) – sehrbazlıq, cadugərlik, ovsunçuluq olub, ibtidai insanlara məxsus təsəvvür qalığıdır. İbtidai din formalarındandır. Tədqiqatçıların fikrincə, «magiya» sözü Midiya tayfası maqların adındandır. Bəzi alimlərin göstərdiyi kimi, Midiya tayfasının adı olan «maq» Avropanın bir çox xalqlarında kahin, münəccim, sehrbaz sözlərinin sinoniminə çevrilmişdir. Atropatenanın yerli tayfaları ilə qaynayıb-qarışmış midiyalıların bir qismi qədim azərbaycanlıların etnogenezində müəyyən rol oynamışdır.

**Mistika, mistisizm** (yunanca *mystikos*, *mystika* – əsrarəngizlik sözündəndir) -gerçəkliyə dini-idealist baxış; insanın «fövqəltəbii qüvvələr» və qismən də Allahla ünsiyyəti və qovuşmasının mümkünlüyü haqqında dini təlimdir. Qədimdə yaranmış, sonralar Qədim Şərq və Qərbin dini cəmiyyətlərinin gizli mərasimlərinin (misteriyaların) mühüm ünsürü kimi çıxış etmişdir. Mistikanın əsasında insanın Allahı dərk etməsi üçün «imkan yaradan», güya onları qovuşduran fövqəlidraki və fövqəlhissi sirli Allah – insan əlaqələri durur. Guya bu prosesdə Allahla ünsiyyət, nurlanma, vəcd, vəhy, qeybdən səda almaq vasitəsilə «fövqəltəbii qüvvələrlə» baş verir, insan Allahla, axirətlə qovuşur və onun sirlərini dərk edə bilir.





**Fetişizm** (fransızca *fetishisme* – cadugərlik sözündəndir – maddi əşyalara – fetişlərə dini sitayiş deməkdir). Fetişizm ibtidai dinin – sehrbazlığın bir forması idi. Fetişlər cürbəcür olur: daş, ağac parçası, heyvan bədəninin bir hissəsi, təsvirlər (idollar). Fetişizmin ünsürləri müasir dinlərdə saxlanılmışdır. Quru cəsədlərə, ikonaya (xristianlıqda), müqəddəs yerə və «Qara daşa» (islamda) pərəstiş şəklində fetişizm qalmaqdadır.

**Animizm** (latınca *anima* – ruh sözündəndir) – ruhlara sitayiş, etiqad. Guya ruhlar insanların, heyvanların həyatına təsir göstərir. Animizmə görə, insanları, heyvanları, maddi aləmin digər cism və hadisələrini ruh idarə edir. Bədən bu və ya digər hadisə ilə bağlıdırsa, ruh müstəqildir, qeyri-məhduddur. Animizmin meydana gəlməsi və inkişafı ibtidai insanların təbiət qüvvələrinə qarşı mübarizədə acizliyi ilə əlaqədardır. İbtidai insan doğum, ölüm, bayılma, yuxu, xəstəlik və s. hadisələri bədəndəki ruhun fəaliyyəti hesab edirdi. Axirət dünyasına, əcdada, təbiətə pərəstiş aninizmin əsas ideyasıdır. İlk dövrlərdə ruh konkret varlıq şəklində anlaşılırdı. İnsanın gözdə əks olunan surəti də ruh hesab edilirdi. Animistik təsəvvürlər sonrakı dini etiqadların əsasını təşkil etmişdir.Animizm hər cür dinə xasdır.

Azərbaycan ərazisində ilk animistik təsəvvürlər e.ə. V–IV minilliklərdə yaranmışdı. Qədim Azərbaycan adətinə görə, pərvanəni öldürmək günah idi. Çünki pərvanə evə gəlmiş dədə-baba ruhu sayılırdı.

**Mifologiya** (yunanca *mythologia*, *mythos* – əfsanə, rəvayət və logos – söz, təlim sözündəndir), əsatir – dünya haqqında ib-

tidai icma cəmiyyəti insanına məxsus fantastik təsəvvür (bir qayda olaraq şifahi nağıllar – əsatirlər formasında verilirdi) və miflərin mənşəyini və onlarda gerçəkliyin inikasını öyrənən elm. İbtidai icma dövründə insan özünə yaxın və doğma olan icma-tayfa münasibətlərini, onu əhatə edən bütün əşya və hadisələr üzərində keçirirdi. Torpaq, səma, bitki və heyvanlar aləmi universal tayfa icması şəklində təsəvvür olunur və bu icmada bütün əşyalar təkcə canlılar kimi yox, həm də şüurlu və mütləq bir-birilə qohum məxluqlar kimi anlaşılırdı. Bu təsəvvürlər mifologiyada ümumiləşirdi. Buna görə allah-sənətkar, allah-əkinçi, allah-maldar, allah-döyüşçü və s. mifoloji obrazlar yaranırdı. Mifologiyanın ilkin formaları fetişizm, totemizm, inkişafının daha yüksək pilləsi isə animizm idi.

Mifoloji təfəkkür müxtəlif tarixi ümumiləşdirmələrə çox erkən gəlib çıxmışdı. İnsanların oturaq həyat tərzinə keçməsi ilə əlaqədar, onlarda tayfa və nəsil birliyi haqqında təsəvvür möhkəmləndi, əcdadlara sitayiş və buna uyğun əsatirlər yarandı. İbtidai icma quruluşunda mifologiya özünəməxsus sadəlövh inam olub, idologiyanın yeganə forması idi.

Erkən sinifli cəmiyyətdə mifologiya müxtəlif cür dini, sosial-siyasi, əxlaqi və fəlsəfi ideyaların alleqorik ifadə forması olub, ədəbiyyat və incəsənətdə geniş istifadə edilirdi. Mifologiyanın öyrənilməsinə elmi münasibət Renessans – İntibah dövründə təsadüf edir. Bir çox filosof və alimlər mifologiyanı ümumxalq müdrikliyinin ifadəsi hesab edirdilər. Romantizm mifologiyaya marağı daha da gücləndirdi. Bir çox ölkələrdə xalq rəvayətlərinin, əfsanə, nağıl və əsatirlərin toplanmasına başlandı, beləliklə də, mifoloji məktəb yarandı.

Azərbaycan mifologiyası qədim tarixə malikdir. Xeyir və Şəri, İşıq və Zülməti təmsil edən iki allahın – Hürmüzd və Əhrimənin, bu iki başlanğıcın mübarizəsi haqqındakı təsəvvür Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən Azərbaycanda uzun zaman sadəlövh etiqad forması olmuşdur. Azərbaycanda xalqın arzu və ideallarının təcəssümü olan müsbət şəxsiyyətlərin divlər, təpəgözlər, əjdahalar və müxtəlif əcaib varlıqlar üzərində qələbəsini əks etdirən mif və əfsanələr geniş yayılmışdı. Bu qəbildən olan rəvayətlərin çoxu xalq dastanları və nağıllarda, digər folklor nümunələrində öz əksini tapmışdır.





Azərbaycan mifologiyasının elmi əsaslarla öyrənilməsinə XIX əsrdən başlanmışdır. Azərbaycan şərqşünası, şərqşünaslıq elminin banilərindən olan Mirzə Kazım bəy (1802–1870) Şərq, o cümlədən Azərbaycan mifologiyasının təşəkkülünü və qaynaqlarını ilk tədqiq edən alimlərdən biridir.

**Antrpomorfizm** (yunanca anthropos – insan, morphe –forma sözündəndir)– cansız təbiətin əşya və hadisələrinə, heyvanlara, bitkilərə, göy cismlərinə, mifoloji obrazlara insani sifətlər verilməsidir. Dünyagörüşünün ilkin formalarından olan antrpomorfizm bir sıra din üçün xarakterikdir. Bu dinlər allahları insan obrazında təsəvvür edir. Məsələn, ilahiyyatda inkar edilsə də, iudaizmdə Yəhva (yəhudi dinində VII əsrə qədər baş allah. VII əsrdən sonra Qüdsdə Yəhvanın məbədi tikilmiş, digər allahlara sitayiş qadağan edilmişdir), öz hərəkət və danışıqlarına görə, insan kimi təsvir olunur. Antrpomorfizm xalq yaradıcılığına da xasdır. Nağıl və mahnılarda heyvanlar, bitkilər və əşyalar çox vaxt insan kimi danışır və hərəkət edir.

Tarixi mənbələrdən aydın olur ki, qəbilə quruluşunun son dövrlərində patriarxın – tayfa başçısının, həmçinin, ölmüş başçıların ruhuna, əcdada sitayiş başlamışdı. İctimai inkişafın bu mərhələsində bir sıra xalqlar arasında şamanizm də yayılmışdı. Şamanizm zamanın (coşqun, ehtiraslı, keyləşmiş adam) ruhlarla ünsiyyətinə arxalanır. Bəzi xalqlarda şamanizm qalıq halında qalmaqdadır. Şamanizmin qalıqları sonrakı bir çox dini sistemlərə də daxil olmuşdur.

Cəmiyyətin siniflərə bölünməsi və dövlətin meydana gəlməsi ilə Qədim Misirdə, Babilistanda, Assuriyada, İranda, Yunanıstanda, Romada və s. ölkələrdə politeizm (çoxallahlılıq) yarandı.

**Politeizm** (yunanca *poly* – çox, *theos* – Allah sözündəndir) – çoxallahlılıq, çoxlu allaha sitayiş . Politeizm erkən sinfi cəmiyyətdə yaranmışdır. İbtidai icma quruluşunun dağılması

mərhələsində totemizmdən, fetişizmdən, animizmdən meydana gəlmişdir. Politeizmin bir çox təsəvvür və ayini bütün təkalahlı dinlərdə saxlanmaqdadır

Politeizm başqa xalqların da allahlarını qəbul edirdi. Politeizmin bir çox təsəvvür və ayini bütün təkallahlı dinlərdə saxlanmaqdadır. Bəzi xalqlar içərisində ayinlərin əsaslı şəkildə mərkəzləşməsi və kahinlər təbəqəsinin formalaşması nəticəsində politeizm, monoteizm ilə əvəz olundu. Bu dövrdən insanların şüurunda yerdəki mütləq hakimin mövqeyinə bəraət qazandıran səma hakimi tək, hər şeyə qadir Allah haqqında baxışlar meydana gəlmişdir.

**Monoteizm** təkallahlılıq, bir Allaha sitayiş edilməsi deməkdir. Monoteizmin mənşəyi ibtidai icma quruluşunun dağılması, quldarlığın yaranması, daha da möhkəmləndirilməsi və inkişafı ilə bağlı olmuşdur. Lakin əsl mənada monoteizm e.ə. I əsrin ortaları və ikinci yarısında Yerusəlimdə Yahve məbədinin kahinləri dini hökmranlığı öz əllərində cəmləşdirdikləri dövrdə meydana gəlmişdir.

Xristianlıq, İudaizm və İslam monoteist din hesab olunur. Dinşünas alimlər dinlərin təsnifatını vermişlər:

1.Qəbilə, tayfa dinləri.

2.Milli dinlər (Konfutsiçilik, Sintoizm, Hinduizm, İudaizm).

3.Dünya dinləri (Xristianlıq, İslam və Buddizm).

Qəbilə, tayfa dinləri haqqında əvvəllər bir qədər məlumat vermişik. Qeyd etmək lazımdır ki, dünya dinləri çox xalqlar arasında yayılmış, yeni dini münasibətlərin meydana çıxmasına səbəb olmuşdu. Belə münasibətlərdən kilsə, məscid, ruhanilər, məzhəb və təriqətləri göstərmək olar. Araşdırmalar göstərir ki, dünya dinləri, əsasən, Xristianlıq, missionerlik vasitəsilə təbliğ edilir.

**Missionerlik** (fransızca *missionnaire*, latınca *missio* – göndərmə, tapşırıq sözündəndir) – dini təşkilatlar olub, kilsənin fəaliyyət formalarından biridir. Missionerlərin məqsədi başqa dinlərə etiqad edənləri öz dinlərini gətirmək və kilsədən üz dönərənləri kilsəyə qaytarmaqdır. Əslində isə missionerlik müəyyən sosial qrupların, hökumətlərin siyasi məqsədlərinin həyata keçirilməsinə köməklik edir. Buddizmdə bu vəzifəni çox zaman zəvvar rahiblər (e.ə. III əsrdən) həyata keçirmişlər. Xristianlıqda missionerlik eramızın IV əsrində meydana gəlmişdir.





Müsəlman missionerlərinin vəzifələrini çox zaman müsəlman tacirləri, sufilik inkişaf etdikdən sonra sufi-müridlər yerinə yetirmişlər.

Yaxın Şərqdə missionerlik fəaliyyəti ilə məşğul olmuş ingilis yazıçısı V.A.Rays XX əsrin əvvəllərində nəşr olunan və müsəlmanlar arasında missionerlik fəaliyyətindən bəhs edən əsərinə çox maraqlı bir ad seçmişdi: «İyirminci əsr səlibçiləri, yaxud xristian missionerliyi və müsəlmanlar.» Missionerlik və xaçlı (səlibçi) düşüncəsi ilə bağlı təcrübəli missioner V.A.Raysın qeyd etdiyi məsələlər əksər müsəlman müəllifləri və ziyalıları tərəfindən də ifadə edilir, xristian dünyasının tarixdə missionerliyi səlib yürüşləri vasitəsilə həyata keçirməyə çalışdığı, lakin məqsədlərinə çata bilmədikləri, hazırda isə bunu müxtəlif vasitələrlə reallaşdırmağa səy göstərdikləri vurğulanır.

Professor Şinasi Gündüzün qeyd etdiyi kimi, müasir dövrdə xristian missionerliyi müsəlmanlara qarşı planlarını həyata keçirmək baxımından tarixdə görünməmiş fürsət qazanmışdır. İslam dünyasının iqtisadi və texnoloji baxımdan Qərbdən asılı olması, İslam ölkələrindəki təhsil, mədəniyyət və elmi siyasətin əsas istiqamətlərinin Qərbə yönəlməsi, qloballaşma düzəninin Qərbin güclü xristian xalqlarının lehinə meydana gətirdiyi şərait və son dövrlər yaşanan bəzi hadisələr və buna paralel İslam əleyhinə dünyada müşahidə olunan təbliğatlar – islamafobiya missionerlər üçün əlverişli şərait yaradan əhəmiyyətli faktorlardır.

Tarixdən məlum olduğu kimi, ilk Xristian - İslam qarşıdurmasında qalib tərəf islam olmuş, uzun dövr ərzində xristianlığın İslamı və müsəlmanları əzmək səyləri uğursuzluqla nəticələnmişdir. Hazırda İslam dünyadakı aktivliyini qoruyub

saxlamaqdadır. Professor Şinasi Gündüz: «Missionerlik fəaliyyətinin hədəfi olan cəmiyyətlər, xüsusilə də müsəlman xalqları öz dini və milli şəxsiyyətləri, inancları və mədəni dəyərləri ilə bir-birlərinə olan düşmən mövqeyi bir kənara qoyaraq, bu gün yaşanan hadisələri keçmişdə qazanılan təcrübələr və dolğun məlumatlarla, gələcəyə planlaşdırılan düşüncələrlə zənginləşdirsələr, təbii ki, missionerlik fəaliyyətlərinin məğlubiyyətə düçar olacağı şübhəsizdir. Çünki missionerlik fəaliyyətləri də daxil olmaqla, hər cür zərərli cərəyana qarşı ən mühüm müdafiə öz etiqad, mədəniyyət və dəyərlərinizə bağlı qalmaq, cəmiyyətdəki birlik və bərabərlik içində sosial, siyasi və iqtisadi məsələlərin öhdəsindən gəlməyin yollarını axtarıb tapmaq və cəmiyyətdəki sülhü birgə təmin etməkdir.»

Yaşadığımız tarixi dövrdə missioner fəaliyyətləri ilə əlaqədar İslam – Xristian qarşıdurmasında hansı tərəfin qalib olmasını zaman göstərəcək.

**Sufilik, sufizm** (ərəbcə hərfi mənası – yun əbalı deməkdir) – İslam dinində mistik cərəyan, təlim olub VIII əsrdə İraq və Suriyada yaranmış, sonralar İran, Azərbaycan, Orta Asiya, Hindistan və s. Şərq ölkələrinə yayılmışdır. Sufi və sufilik kəlməsinin meydana gəlməsi və onlara belə bir adın verilməsi haqda müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. Bəziləri deyirlər: sufilik – suffə əhlinə mənsub olan addır və bu söz oradan meydana gəlmişdir.

Bəziləri «sufi» kəlməsinin «səfa» sözündən götürüldüyünü, digərləri də onu olduqca mömin və zahidanə həyat tərzi keçirən ərəb qəbilələrindən olan Bəni-Sufəyə verilən ad hesab etmişlər. Başqalarının fikrincə, «sufi» sözü ilk dəfə ömrünü Allaha xidmət üçün vəqf edən Gövs ibn Mərrəyə verilən ləqəbdir. Bu səbəbdən də Allaha qovuşmaq istəyən zahidlər ona oxşadılaraq belə adlandırılmışlar. Bəziləri isə «sufi»nin «sufanə» kəlməsindən götürüldüyünü zənn etmişlər. Sufanə nazik və kiçik bitki növüdür. Sufilər bitkilərdən hazırlanmış yeməklərlə kifayətləndikləri üçün onlara belə ad verilmişdir. Verilən təriflərdən həqiqətə daha yaxın olanı «sufi» kəlməsinin yun mənasını daşıyan «sovf» sözündən götürülməsidir. Sufi «yun paltar geyinən» mənasını verir. Çünki o zamanlar yun paltar ən ucuz və ümumi kütlənin geydiyi libas olmuşdur. Əbu Nəsr Sirac özünün «Əl-ləm fit-təsəvvuf» (sufi məsləkinin ən qədim kitabı sayılır) adlı kitabında deyir: «Yun paltarlar geyindikləri üçün onları sufi adlandırırıq.»





«Sufi» sözünün leksik mənası haqda aparılan araşdırmalardan belə bir qənaətə gələ bilərik ki, bu söz maddi və dünyəvi həyatı tərk edib mənəvi saflığa nail olmaq istəyən, bu yolla Allaha yaxınlaşmaq üçün özünü müxtəlif çətinliklərə vadar edən şəxslərə deyilir. Onlar olduqca az və ucuz yemək və geyimlə kifayətlənər, dünyanın bütün maddi ləzzətlərinə göz yumardılar. Sufilik ilk vaxtlarda olduqca sadə məna daşımışdır. Belə ki, adətən, bir guşəyə çəkilib gününün əksər hissəsini Allaha ibadət və Onu zikr etməklə keçirən şəxslərə deyilmişdir. Lakin getdikcə daha da genişlənməyə və şaxələnməyə başlamış, özünəməxsus rəftar, davranış və ibadət mərhələlərindən ibarət olmuşdur.

Cüneyd Bağdadi sufilik haqda belə deyir: «Sufilik heç bir bağlılıq olmadan Allahla olmaq deməkdir». «Sufilik cəm halda edilən zikr, dinləmə ilə bağlı olan şüur və davam etdirilən işdən ibarətdir». «Sufi pak və napak olmayanların üzərində addım atdıqları yerə bənzəyir, sufi hər şeyə kölgə salan bir buluddur, sufi hər şeyi sirab edən bir qətrədir». Süfyan Suri deyir: «Sufi aram və rahatlıq, yoxsulluqda bəxşiş deməkdir».

Şəbli deyir: «Sufilik Allahla qəm-qüssəsiz ünsiyyət yaratmaq deməkdir. Sufi isə məxluqatdan (xarici aləmdən ayrılıb) xaliqə (Allaha) birləşmiş bir şəxsdir».

Zunnun Misri deyir: «Sufilər Allahı hər şeydən üstün tutan kəslərdir. Allah da onları hər şeydən üstün tutmuşdur».

Məruf Kərxi deyir: «Sufilik həqiqəti tapmaq və yaradılmışların əlindən ümidsizliyi almaq deməkdir.» Ruvəym İbni Əhməd Bağdadidən sufilik haqda soruşduqda deyərdi: «Allahın iradəsi ilə nəfsin öz istəklərindən ayrı düşməsinə deyilir». Həmçinin deyərdi: «Sufilik üç xislətdən ibarətdir: yoxsulluğa əl

atmaq, güzəşt və aliaçıqlığı büruzə vermək, riyakarlıqdan uzaq olmaq.»

Sufiliyin səciyyəvi cəhətləri bunlardır: metafizikanın xüsusi tərki-dünya praktikası ilə birləşdirilməsi, müridin mistik məhəbbət yolu ilə Allahı dərk etməyə və tədricən ona qovuşmağa yaxınlaşması təlimi, müridi Allaha qovuşanadək mistik yol (təriqət) ilə aparan ustadın rolunun mühüm olması. Sufilər xüsusi rəqslər və ya duaların sonsuz təkrarı ilə intuitiv idraka – «nurlanma»ya, ekstaza cəhd etmişlər. Cüneyd Bağdadinin yaratdığı fəna (sufini fövqəlvarlığa aparan, onu Allaha qovuşduran) təliminə görə əbədilik mütləqdə mövcuddur. Cüneydə görə sufinin sirli yolunda ilk pillə – şəriət, ikincisi təriqət, üçüncüsü həqiqətdir (həqiqəti Allahda tapmaq).

Həllac Mənsura görə sufinin ruhu Allah ilə real qovuşa bilər. O, «mənəm haqq!» deyə qışqırarmış. Ona görə də o, 922-ci ildə bidətçilikdə təqsirləndirilib edam edilmişdi

Qəzalinin islahatçılıq fəaliyyəti sayəsində sufiliyin təqibi dayandırılmışdır.

Bir sıra İslam məzhəblərinə görə, hər yeniləşən əsrin əvvəllərində dinin təkmilləşməsi məqsədilə Allah-Təala tərəfindən seçilmiş bir şəxs göndərilir. Elə məhz insanların bu inancından faydalanan bəzi saxtakarlar müxtəlif dövrlərdə özlərini zamanın sahibi, elçi, peyğəmbər və s. adlandırıblar. Bu cür şəxslərdən biri də XX əsrin əvvəllərində Türkiyədə özünü «Bədiüzzaman» adlandıran Səid Kürdi (Nursi) olub.

Həyatını müstəqil kürd dövləti qurmağa həsr edən Səid Kürdi 1912-ci ildə yazdığı bir kitabında kürdləri nəzərdə tutaraq «Oyan, ey Səlahəddin Əyyubinin nəvələri – kürdlər!» cümləsi ilə açıq-açığına öz düşmənçiliyini ifadə edib. Halbuki, təkcə anası kürd olan sultan Səlahəddini kürdləşdirərək kürdlərin «şanlı keçmişi»ni geri qaytarmağa çalışmışdır. «Məktubat» adlı risaləsində özünün türklərlə heç bir əlaqəsinin olmadığını, Türkiyədə kürdlərin ayrı bir xalq olduğunu ifadə edərək: «Müstəqil bir Kürdüstanın toxumunu cücərdirəm, onu inkişaf etdirib böyüdün», – deyirdi. Dilqəm Əhmədin «Son





ümid» elektron jurnalındakı (www.sonumid.com) məlumatlarından bəzi məqamları oxucuların nəzərinə çatdırmaq qərarına gəldim.

Səid Kürdi (1876–1960) kürdçülüyə yönəlmiş siyasi fəaliyyətləri uğursuz alındığından avam insanların dini inanclarından istifadə etməklə tədricən öz ideyalarını həyata keçirməyə başlayır. Oxumağı bacarmayan və türkcə səlis danışa bilməyən bu insan 1950-ci illərdən etibarən göydən ona vəhy gəldiyini iddia edərək bir sıra əsərlər yazmağa başlayır. Savadsız kütlələri öz ardınca çəkməyi bacaran Nursi özünü «Bədiüzzaman» («zamanın möcüzəsi») adlandırır və «Risaleyi-Nur» adlanan Quran «təfsirləri» yazmağa başlayır. Quranın bəzi ayələrinin, xüsusilə Nur surəsinin məhz onun üçün endiyini bildirən bu «möcüzəli» şəxs, yeni cümhuriyyətə qarşı müharibə elan edən Şeyx Səid adlı birini dəstəklədiyindən sürgünə göndərilir. «Kamalçılar»ın qatı düşməni olan Şeyx Səid vaxtilə «Bir türk öldürmək, 70 kafiri öldürməkdən daha üstündür» – demişdir. Sonralar bu şəxs edam olunmuşdur.

Şeyx Səidi özünə ustad seçən Nursi vaxtilə Osmanlı sultanı II Əbdülhəmiddən Kürdüstan adlandırdığı ərazidə kürd gənclərinin təhsil alması üçün 3 mədrəsə açılmasını xahiş edir. Bu istəyin altında nələrin yatdığını bilən Əbdülhəmid əvvəlcə onu sürgünə göndərmək istəsə də, sonra ağlı başında olmadığını düşünüb, dəlixanaya saldırır.

Nurçuların mütləq əməl etmələri və inanmaları vacib olan vəzifələri bunlardır:

«Risaleyi-Nur»u oxumaq, oxumağı bilmirsə, mütləq dinləmək. Onların evlərində Quran olmasa da, mütləq «Risalei-Nur» olmalıdır.

Hansı şərtlər daxilində olursa-olsun, Səid Nursini müdafiə etməli, onun məsumluğunu təsdiqləməli, başqalarını buna inandırmalıdır.

İğtişaşlara qoşulmamaq, qadınlarla əlaqələri kəsərək, onlara yaxın durmamaq.

Hər hansı bir nurçu getdiyi ərazilərdə «camaat»ına yeni bir

şəxs qoşmalıdır.

Harada olursa-olsun, «Risaleyi-Nur» oxunmalı, Əsmaül-Hüsnadan (Allahın mübarək adları) sonra gizli şəkildə Səid Nursinin adı çəkilməlidir.

Nurçuluğa qarşı çıxanlar müsəlman olmayıb, İslamı yıxmağa çalışan kafirlərdir.

Dövlət «Risaleyi-Nur»la idarə olunarsa, doğrudur, idarə olunmazsa yanlışdır. Bütün ali tədris ocaqları «Mədrəseyi-Nur» adlandırılmalıdır.

«Risaleyi-Nur»u oxumaq və yazmaq alim olmaq üçün yetərlidir. Çünki orada hər şey yazılıb, əlavə bilgilərə ehtiyac yoxdur.

Səid Kürdinin bəzi sözləri:

«Risaleyi-Nur»u Allah-Təalanın məhz özü imzalayıb. Başda Həzrət Məhəmməd (s.) olmaqla, Həzrət Əli (ə.), Əbdülqadir Gülani və bu silsilədən görkəmli şəxslər onu imzalayıblar.

«Risaleyi-Nur» daxil olduğu əraziləri öz nuru ilə nurlandırmaqdadır.

«Risaleyi-Nur» Quranın aynasıdır və bir möcüzə səviyyəsindədir. Heç bir kitab onunla yarışa bilməz, ona qarşı çıxa bilməz. Çünki risalələr Allah tərəfindən bilavasitə Səidə verilib.

«Risaleyi-Nur» Musa peyğəmbərin (ə.) əsası kimi hara dəyibsə, oradan su çıxarıbdır.

«Risalei-Nur»u təkcə quşlar deyil, göydə və yerdə olan bütün varlıqlar alqışlamaqdadır.

«Risaleyi-Nur»a heç bir şəkildə etiraz edilməməli, hətta bu etiraz «Kutbil-Əzəm»dən (yəni peyğəmbərlərdən gəlsə belə, ona qulaq asılmamalıdır.

Qurani-Kərim və «Risaleyi-Nur» rəhman və rəhim Allahın kəlamlarıdır. «Risaleyi-Nur»un 129 hissəsi Qurandan uzanan elektrik naqilinin ucuna taxılan 129 elektrik lampası kimidir.

Qurani-Kərimin Səcdə surəsinin 2-ci və 3-cü ayələri məhz «Risaleyi-Nur»u anlatmaqdadır. Fussilət surəsinin 33-cü ayəsində bildirilənlər «Nur təriqəti»nin üzvləridir.

«Risaleyi-Nur» ona xidmət edənləri mütləq cənnətə aparacaqdır.





Radio, dünyanın bir tərəfində səslənən sözün kilometrlərlə uzaqda yerləşən bir qutudan eşidilməsi, onun içindəki mələklərlə əlaqəlidir.

(Bu qədər elmsiz insanın cəfəngiyatlarına inananları hələ də anlamaq mümkün deyildir) (dilqem@List.ru).

İndi isə S.Kürdinin dediklərinin altında yatan planları şərh edək:

1. Qeyd olunur ki, yalnız risalələrə, yəni Səidin cəfəngiyatlarına xidmət edənlər Cənnətə gedəcək, özü də mütləq şəkildə. Halbuki, İslam tarixinə və hədislərə az-çox bələd olan hər kəs bilir ki, kainatın əfəndisi Həzrət Məhəmməd (s.) yalnız 10 nəfəri Cənnətlə müjdələyib (hətta bu hədisə belə iradlar olunub). Bu şəxs və hazırda onun varisliyini həyata keçirən şəxslər Allah adına and içərək mütləq şəkildə nurçuların Cənnətə gedəcəyini bildirirlər. Bu isə Allaha deyil, Cənnətdəki huri-mələklərə aşiq olan müsəlmanların nurçuluğu seçməsinə səbəb olur. Vaxtilə xristian keşişləri də aldadıcı vədlərlə çıxış edərək, insanlara Cənnətdən köşklər satırdılar. İslama daxil olmaq istəyən bir şəxs heç bir tərəddüd etmədən bu təriqəti seçəcəkdir. Əgər nurçu olan Cənnətə düşəcəksə, o zaman «Risaleyi-Nur»un endirildiyi şəxs olan Səid Nursi, yəqin ki, peyğəmbərlərdən də uca məqama sahib olacaqdır.

2. Bəşəriyyətin sonuncu kitabı Qurani-Kərim olduğu halda, bu şəxs öz cəfəngiyatını Quranla bir səviyyədə tutaraq vəhy aldığını iddia edib. Hətta Quran əvəzinə risalələrin oxunması hallarına da rast gəlinir.

3. Türk soylarını şeytanın zürriyyəti hesab edən Səid Kürdinin türkçülüyə düşmənçiliyi burada açıq şəkildə görünməkdədir.

4. Qurani-Kərimdən bəllidir ki, Allah-Təala insanları heç bir təbəqəyə ayırmayaraq, onların birini digərindən üstün bilmir (üstünlük yalnız təqva əsasındadır). Halbuki, nurçular üçün Səid ən üstün insandır.

Nurçuluğun prinsipləri:

Türkiyə Cümhuriyyətinin şəriət qaydaları əsasında idarə edilməsi, keçmiş xilafətin bərqərar olunması, Quran xaricində heç bir konstitusiyanın qəbul edilməməsi.

Bütövlükdə dünya səadətini insanlara haram bilməklə, onları yalnız axirətə yönəltmək. Bu isə insanların dünyəvi işlərdən əl çəkərək pessimistləşməsinə səbəb olur.

Atatürk idarəçiliyi hədislərdə qeyd olunan dəhşətli axir-ət-zamanın əlamətlərindəndir. Cümhuriyyət şəriət qaydaları ilə idarə olunmadığından dinsizliyin, kafirliyin yaranmasına səbəb olur.

Türkiyənin hazırkı siyasi sistemi Nur səadətinin məhvinə səbəb olur. «Kamalçılar» səviyyəsiz, anarxist insanlardır.

Müsəlmanlara Quran xaricində heç bir konstitusiya gərək deyildir. Milliyyətçilik İslam birliyinə manedir. Yalnız İslam milliyyəti mövcuddur və gələcək dünya İslam dövləti olacaqdır. Böyük İslam dövləti isə yalnız «Risaleyi-Nur» sayəsində mümkün ola bilər.

Əvvəlki şəriət qaydaları bərpa edilməli. Quran faizi qadağan etdiyindən, banklar ləğv olunmalıdır.

Əgər bəşəriyyət ağlını başına yığıb İslami məhkəmələr əsasında idarə edilməzsə, maddi və mənəvi qiyamətlər qopacaq, yəcuc-məcuclar zühur edəcəkdir.

Nur camaatı yalnız özləri ilə evlənməlidir.

Mərkəzi Məkkə olmaqla, böyük İslam dövləti qurulmalı və idarəçilikdə ərəblərə üstünlük verilməlidir.

Zülmə mübtəla olan xristianlar da Cənnətə girəcəklər və onlar şəhid hesab olunurlar. Hətta gələcəkdə İsəvi müsəlmanlar adlanan insanlar olacaqlar ki, bunlar xristian həqiqətləri ilə islam gerçəkliklərini özlərində birləşdirərək Qərbə hakim olacaqlar (halbuki açıq şəkildə Quranda qeyd olunubdur ki, «Allah üçdür deyənlər kafir oldular»).

Nurçular iki qismə ayrılıb: birinci qrupa daxil olan insanlar Qurana küfr yazıları ilə (yəni ərəb əlifbasından qeyrisi ilə) xidmət etməyin yolverilməzliyini dəstəkləyirlər. Yazıçı nurçulara görə «Risaleyi-Nur» mütləq ərəbcə yazılmalı, özü də əl yazısı ilə olmalıdır. Oxuyan nurçular isə latın qrafikası ilə yazıb-oxumanın məqbulluğunu müdafiə etməkdədirlər. Sonralar bu qruplar da bir sıra kiçik qruplara (məsələn, «fəthullahçılar», «suracılar», «qazetəçilər», «med zehracılar», «kırkıncılar» və s.) ayrılıblar.





Göründüyü kimi, nurçuluğun ən əsas prinsipi, onu dəstəkləyən Qərb dünyası üçün müsəlmanların pessimist olmalarıdır. Belə ki, tarixdən bəllidir ki, böyük dövlətlər İslam dinini birbaşa yıxa bilmədiklərindən onu daxildən parçalamağa səy göstəriblər. Bu məqsədlə yaradılan vəhhabilik sonradan onların başına bəla olduğundan (çünki onlar vəhhabilərin bu qədər radikal mövqe tutacaqlarını düşünməmişdilər), həddindən artıq pessimist, yalnız axirəti düşünən müsəlmanların birliyini yaratmağa başlayıblar.

Təsadüfi deyil ki, bu təriqətin ən böyük liderini Fətullah Güləni amerikalılar cidd-cəhdlə (qeyd edək ki, o, Türkiyədən qovulub) qorumağa çalışırlar.

Beləliklə, bəşər tarixində müasir dövrə qədər fəaliyyət göstərən təriqətlərdən yalnız nurçuluq haqqında qısa məlumat verdik. Bu cəhdimiz heç də təsadüfi deyil. Çünki Türkiyədə, İranda və Qafqazda erməni məsələsi dünyada ən təhlükəli, kütləvi qırğına, terrorizmə, işğalçılığa, bir sözlə, bəşərin rahatlığını pozan mənfi intellektual amillərin gündən-günə artmasına səbəb olan problemdir.

Sonda qeyd etmək istərdik ki, dövlətlər daxilində hər bir dinə, onlara etiqad edənlərə hörmətlə yanaşmaqla yanaşı, insan mənəviyyatını saflaşdıran, müsbət intellektual sferanın yaranmasına xidmət edən inanca şərait yaradılmalıdır. Dinin mənəviyyata xidmət edən tələbləri, dövlət qanunu ilə birgə fəaliyyət göstərməlidir. Dünyəvi dinlərdən İslam bu sahədə daha inandırıcı və məqbuldur. Gələcək bölmələrdə bu barədə geniş məlumat veriləcək.

Bu bir həqiqətdir ki, Həzrət Adəmdən (ə.) Həzrət Məhəmmədə (s.) qədər bütün peyğəmbərlərə verilən ortaq nöqtə insanı mükəmmələ və kamilliyə sövq etməkdir. Məhz buna görə

dünya və axirət həyatlarıyla bağlı işlərini doğru şəkildə nizamlamaları üçün Allah insanlara peyğəmbərlər göndərmişdir. Peyğəmbərlər, ümumiyyətlə, hər hansı bir cəmiyyətdə bəşəri münasibətlərin pozulduğu zamanlarda göndərilmişdir. Onlar cəmiyyətdəki əxlaqi pozulmaları düzəldərək, insanları birlik və bərabərlir, sülh və əmin-amanlıq içərisində yaşamağa yönəldiblər. Dr. Mehman İsmayılovun dediyi kimi: «Bəşəri münasibətlərin necə olacağını, ya da necə olması lazım olduğunu birbaşa öz şəxsiyyətlərində göstərən peyğəmbərlər insanlara ən gözəl örnəyin necə olacağını göstərən üstün insanlardır. Buna görə də peyğəmbərlik çalışmaqla əldə edilmir, başqa cür desək, kəsbi deyil, vəhbidir. Bu, Allahın istədiyinə əta etdiyi mərhəmətdir (kərəmdir). Allah çox böyük mərhəmət (kərəm) sahibidir.»

Qurani-Kərim də bütün ümmətlərə bir peyğəmbər göndərdiyini bəyan edir: «Doğrudan da, Biz səni haqla (Quranla) müjdə verən və qorxudan bir peyğəmbər olaraq göndərdik. Elə bir ümmət yoxdur ki, onun içindən (kafirləri Allahın əzabı ilə) qorxudan (xəbərdar edən) bir peyğəmbər (yaxud alim) gəlibgetməsin!» (Fatir surəsi, ayə 24)

«(Ya Rəsulum!) Allaha and olsun ki, səndən əvvəl də ümmətlərə peyğəmbərlər göndərmişdik...» (ən-Nəhl surəsi, ayə 63)

Bütün peyğəmbərlər Allahın varlığı və birliyini, axirətin olduğunu açıq şəkildə bildirmişlər. Quran da peyğəmbərlərin hamısına ortaq xüsusiyyətlərin vəhy edildiyini bildirir: «(Ya Peyğəmbər!) Allah: «Dini doğru-dürüst tutun (qoruyub saxlayın), ondan ayrılığa düşməyin!» – deyə, Nuha (ə.) tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə (ə.), Musaya (ə.) və İsaya (ə.) tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi...» (əş-Şura surəsi, ayə 13)

Allah-Təala hər bir müsəlmana, aralarında hər hansı bir fərq qoymadan bütün peyğəmbərlərə inanmağı fərz buyurmuşdur. Quranda buyurulur: «Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə (Qurana) inanmış və möminlər də iman gətirmişlər. (Onların) hamısı Allaha, Onun mələklərinə, kitablarına və (bütün) peyğəmbərlərinə iman gətirərək dedilər: «Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq...» (əl-Bəqərə surəsi, ayə 285)





Bölmənin əvvəlində qeyd etmişdik ki, Ön və Orta Şərq əksər dinlərin, elmin, o cümlədən sivilizasiya və fəlsəfənin beşiyi olmuşdur. Fəlsəfi fikir ilk dəfə burada – Misirdə, Suriyada, əski Şumer-Akkad dövlətində, Babil torpağında inkişaf tapıb. Hətta bu gün bəşəriyyətin səcdəsində durduğu məşhur yunan və Roma filosoflarının ustadları qeyd etdiyimiz bu ərazilərdəki məbədlərin, ocaqların sahibləri idilər. Babil torpağının alim və filosoflarından bəhrələnən əski yunan filosofları öz dövlətlərinin və sonrakı minilliklərin qüdrətli fikir sahiblərinə çevrildilər.

Şərq ölkələri haqqında Suriya, Bizans və bir sıra başqa mənbələrin verdikləri məlumatlar göstərir ki, bir növ, Şərqlə Qərb mədəniyyət arasında körpü olmuşdur. Şərq ölkələrinin və onların tarixinin Qərb ölkələrinin alimləri tərəfindən öyrənilməsi də çox qədim vaxtlardan başlanmışdır. Bir qədər qədim tarixə nəzər salaq.

Babilistan-Assuriya mədəniyyəti nəinki Ön və Orta Şərqin, demək olar ki, dünya elm və mədəniyyətinin başlanğıcı hesab edilə bilər. Babil şumercə – Kadingirra, akkad, Babilu; hərfi mənada Allahın qapısı deməkdir. Babilistan-Assuriya mədəniyyəti e.ə. IV–I minilliklərdə Fərat və Dəclə çayları arasında (Mesopotamiya; müasir İraqın ərazisi) yaşamış xalqların – şumer və akkadların, babillilər və assuriyalıların mədəniyyətidir. Babilistan-Assuriya mədəniyyəti, bir tərəfdən, məhsuldar qüvvələr, elm, texnika, ədəbiyyat və incəsənətin yüksək inkişaf səviyyəsi, digər tərəfdən dini ideologiyanın geniş yayılması ilə xarakterizə edilir. Dünyada elm və mədəniyyətin, o cümlədən maddi mədəniyyətin başlanğıcının Ön və Orta Şərqdən bəhrələndiyi fikrimizi təsdiqləmək üçün bəzi məqamları oxuculara təqdim etmək qərarına gəldim. (ASE, 1-ci c., Bakı, 1976)

E.ə. IV–III minillikdə Mesopotamiyada miss, qismən də daş alətlər işlədilirdi. E.ə. III minillikdə misi tunc, e.ə. I minil-

liyin əvvəlində isə tuncu dəmir əvəz etdi. Mesopotamiyanın cənubundakı torpaqlar sadə daş, ağac və mis alətlərlə süvarma işləri görməyə və əkinçiliyə imkan verirdi. Mis və tunc kətməndən, III minilliyin ortalarında isə kotandan istifadə edilirdi. Çaxmaq daşından hazırlanan taxma dişli gil oraqdan, sonralar isə metal oraqdan, suvarma təsərrüfatında suvarma mancanağından istifadə edilirdi. Dulusçuluq, toxuculuq, dəmirçilik və ağac emalı inkişaf etmişdi. İç həyətləri olan yaşayış evləri, saray və məbədlər, əsasən, çiy kərpicdən dördbucaq şəklində tikilirdi. Şəhərlərin ətrafına kərpic divar çəkilirdi. Şəhərin böyük hissəsi mərkəzi məbəd və saraydan ibarət idi. E.ə. II minilliyin əvvəli Assuriya dövlətində hərbi texnikanın inkişaf etdiyi dövrdür. Hərbi düşərgələr yaradılır, körpülər salınır, yollar çəkilir, mühasirə və atma silahları, yandırıcı alətlər, döyüş arabaları, dəmir geyim və digər müdafiə silahları düzəldilir, süvari dəstələri təşkil edilirdi.

Mesopotamiyada qədim yazı sistemini şumerlər yaratmış, sonra bu sistemi akkadlar (babillilər və assuriyalılar) onlardan götürmüşlər. E.ə. IV minilliyin ortalarından başlayaraq piktoqrafik yazıların (rəsmli yazı) yayıldığı məlumdur. E.ə. III minilliyin ortalarına doğru yazı üçün gil lövhəciklərdən istifadə olunurdu. İşarələr lövhəciklərə düzbucaq taxta parçasının tini ilə yazılırdı.

E.ə. III minilliyin 1-ci yarısında Akkad və Şumer dillərində şifahi ədəbiyyat inkişaf etmişdi. Babilistan, Şumer və Akkad ədəbiyyatının əsas janrı olan epik poeziyanın bir neçə növü vardı: əsatiri dastanlar (allahlar, dünya, şəhərlər və mədəniyyət abidələrinin yaranması haqqında poemalar); qəhrəmanlıq dastanları; tarixi-qəhrəmanlıq dastanları (tarixi şəxsiyyətlər, xüsusən hökmdarların rəşadətindən bəhs edən poemalar); tarixi-didaktik kahin dastanları və s. dini fəlsəfi və lirik poeziya da inkişaf etmişdi. Şifahi xalq ədəbiyyatı nümunələri e.ə. XIX–XVIII əsrlərdən yazıya alınmışdı.

Qədim Assuriya incəsənəti e.ə. III minillikdən, e.ə. VII əsrədək mövcud olmuşdur. Assuriyada heykəltəraşlıq, saray inşaatı və şəhərsalma inkişaf etmiş, ağac, tunc, fil sümüyü və s.-dən düzəldilən məmulatlar geniş yayılmışdı.





Babilistan incəsənəti e.ə. IV minilliyin əvvəlində yaranmışdır. Şumer incəsənətində memarlıq mühüm rol oynamışdır (e.ə. XXVII–XXV əsrlər). Akkad incəsənəti (e.ə. XXIV–XXII əsrlər) dağ sakinlərinə qarşı yürüş səhnəsini əks etdirən mürəkkəb kompozisiya ilə təmsil olunur.

Babilistan-Assuriya elmi, əsasən, hələ ilkin faktlar toplamaq mərhələsində idi. Ən çox riyaziyyat elmi inkişaf etmişdi. Şumerlərin yaratdığı altmışlıq say sistemi əsasında müxtəlif hesablama cədvəlləri tərtib olunmuşdu. Ədədlərin bölünməsi, vurulması, ədədlərin kvadratları, kubları və onların kökləri və s. istifadə edilirdi. Pifaqordan min il əvvəl «Pifaqor teoremi»ni bilir, bəzi planimetriya və stereometriya məsələləri, kvadratlar, tənliklər həll edirdilər.

E.ə. I minillikdə müşahidə astronomiyası (Ay və Günəş tutulmasının əvvəlcədən hesablanması, ulduzların heliaktik doğması) xeyli inkişaf etmişdi. Babilistanda riyaziyyat və astronomiyanın inkişafı bu elmlərin Yunanıstanda və onun vasitəsilə Qərb ölkələrində yayılmasına böyük təsir göstərdi (məsələn, çevrənin 360°, saatın 60 dəqiqəyə bölünməsi və s.). Şumer yazısının və e.ə. II minilliyin ortalarına doğru artıq ölü dilə çevrilən, lakin din və elm dili kimi işlədilən Şumer dilinin öyrənilməsi ehtiyacı işarələr siyahısının tərtibinə səbəb oldu. Sonralar bu siyahılar Şumer-Akkad lüğətinə çevrildi. Tarix elminin yaranması padşahların və ən məşhur hadisələrin siyahılarının tərtibi, habelə padşahların fəaliyyəti təsvir olunan yazıların bina özüllərinə qoyulması ilə başlayır. E.ə. VIII əsrin ortalarından başlayaraq Babilistanda müntəzəm surətdə salnamə yazılır, coğrafi soraq mənbələri tərtib edilirdi. Hətta mərkəzində Babil şəhəri olmaqla, dünyanın coğrafi xəritəsini çəkməyə də təşəbbüs edilmişdi. Kimya, əczaçılıq, botanika, mineralogiya və b. elmlərə dair termin, resept siyahıları, bu elmlər sahəsində də bilik və məlumatın olduğunu göstərir. Tibb elminin ayrı-ay-

rı sahələri yaranmışdı. Təbiyyat elmləri və təbabət, din və dini ayinlərlə sıx bağlı idi.

İslam Sadiqin məlumatından: «Dünyada ilk mədəniyyət Şərqdə yaranmışdır. Hələlik dünya mədəniyyətinin ilk beşiyi Şumer sayılır. Şumer mədəniyyəti əvvəlcə öz hüdudlarından çıxaraq Şərqə, sonra isə Qərbə yayılaraq genişlənmiş, inkişaf etmişdir. Qərb mədəniyyəti bütövlükdə Şərq mədəniyyətinin bazası əsasında təşəkkül tapmışdır. («Azərbaycan» qəzeti, 1 sentyabr, 2009)

Məşhur Amerika şumeroloqu S.N.Kramer kitablarından birinin adını «Tarix Şumerdən başlanır» qoymuşdur. Tarixin başlanğıcı, eyni zamanda mədəniyyətin başlanğıcı deməkdir. Bunu S.N.Kramerin kitabındakı başlıqlar da aydın göstərir: İlk məktəblər; Məktəb illəri; Ata və oğul; «İlk həddi-büllüğa çatmış qanunpozan»; Birinci ikipalatalı «parlament»; İlk tarixçi; Birinci «əkinçi təqvimi»; Əməkdə ilk nailiyyət; İlk kosmoqoniya və kosmologiya; Birinci mənəvi ideallar; İlk atalar sözləri və zərbi-məsəllər; Birinci balıq qoruğu; İlk ədəbi mübahisələr; Birinci dəfn nəğmələri; Bəşəriyyətin birinci «qəhrəmanlıq dövrü»; İlk məhəbbət nəğməsi; Birinci kitabxana kataloqu.

S.N.Kramerin kitabındakı bütün bölmələrdə yalnız «ilk»lərdən söhbət açılır. Lakin bu kitabda bütün «ilklər»dən danışılmır, çünki burada hər şeyi əhatə etmək mümkün deyil. Şumerdəki «ilk»lərin isə sayı-hesabı yoxdur. Şumerdə nədən danışılırsa-danışılsın, yanına bir «ilk» sözü qoşmaq zərurəti qaçılmaz olur.

İlk heykəli şumer heykəltəraşı yonmuşdur. İlk memarlıq işini şumerli işləmişdir. Yazı ilk dəfə Şumerdə kəşf olunmuşdur. İlk kitab Şumerdə yazılmışdır. İlk say sistemi Şumerdə tapılmışdır. İlk astronomik biliklərə şumerlər yiyələnmişlər. İlk tibbi bilikləri şumerlər öyrənmişlər. İlk zərgərlik məmulatını Şumer zərgəri hazırlamışdır. Dəmirçilik peşəsi ilk dəfə Şumerdə yaranmışdır. Arabanı şumerlər kəşf etmişlər. Ox, nizə, balta, bıçaq ilk dəfə Şumer ustaları tərəfindən düzəldilmişdir. Toxuculuq ilk dəfə Şumerdə təşəkkül tapmışdır. Pivə ilk dəfə Şumerdə istehsal edilmişdir. Əkinçilik və heyvandarlıq ilk dəfə Şumerdə yaranmışdır. Dunyanın və insanın yaranması haqqında ilk mifləri şumerlər düzüb-qoşmuşlar. İlk gəmini şumerlər düzəltmişlər. İlk çarlıq Şumerdə olmuşdur. İlk qanunlar Şumerdə qəbul edilmişdir.





Təbiidir ki, bunlar Şumerdəki «ilk»lərin hamısı deyil. Ancaq deyilənlər Şumer mədəniyyətinin öz başlanğıcını ordan götürdüyü haqqında aydın təsəvvür yaradır.»

Bu deyilənlərdən sonra belə bir nəticəyə gəlmək olar ki, dünya sivilizasiyasının beşiyi Ön və Orta Şərq, Şumer mədəniyyətidir.

Saleh bəy yazır: «Şərq-Şərqdir, Qərb-Qərb» aforizminin əsas mənası, mənə belə gəlir ki, bundan ibarətdir: dünya Şərqdən və Qərbdən ibarətdir, başqa sözlə desək, məlum tərif üzrə, «Şərqin müdrikliyi və Qərbin səmərəliliyi» mədəniyyətin və sivilizasiyanın tərkib hissələridir. Özü də mədəniyyətin əsasını Şərq qoymuş və ondan xeyli sonra Qərb sivilizasiyası buraya qoşulmuşdur.»

Məlumdur ki, Asiya ölkələrinin, qismən də Afrikanın (əsasən, Şimali Afrika ölkələrinin) tarixi, iqtisadiyyatı, dilləri, ədəbiyyatı, etnoqrafiyası, incəsənəti, dinləri, fəlsəfi və ictimai fikri, maddi və mənəvi mədəniyyətini kompleks şəkildə öyrənən şərqşünaslıq elmi yaradılmışdır. Şərqşünaslıq bir elm kimi, kompleks halda inkişaf etməkdədir. Müasir şərqşünaslıq üçün onun başlıca sahələri olan tarix, iqtisadiyyat, ədəbiyyatşünaslıq və dilçiliyin ixtisaslaşdırılması, habelə, Şərq ölkələrinin incəsənəti, fəlsəfi və dinini tədqiq edən sahələrin müstəqil şərqşünaslıq elminə çevrilməsi səciyyəvidir. Şərqşünaslığın rüşeymlərinə ilk dəfə qədim yunan müəlliflərinin əsərlərində rast gəlinir. İlk dəfə onlar Avropada özlərini Qərbin Şərqdə nümayəndəsi kimi tanıtmış və bundan sonra yunan aləmindən Şərqdə yerləşən bütün nə varsa, hamısı Şərq anlayışı altında getmişdir. Bugünkü Şərq anlayışı da öz əsasını buradan götürmüşdür.

Təkcə bunu nəzərə almaq kifayətdir ki, ərəblər, türklər, farslar ən qüdrətli, ən zəngin və ən mədəni millətlər olmuşlar.

Ərəblər planetimizin ən qədim sakinləridir. Qədim ərəb dili əs-Səfa (106-cı il), ən-Nəmarə (328-ci il) və Zəbəd (512-ci il) kitabələrində əks olunub. Qədim ərəb dilinin inkişaf edərək, qəbilələrarası ümumi dilə çevrilməsində qüreyş dialekti xüsusi rol oynamışdır. Ərəb dili Qurani-Kərimdə sabitləşmiş qrammatik quruluşa və zəngin lüğət tərkibinə malik klassik dil kimi təsbit edilmişdir. Sonralar bir-birindən az-çox fərqlənən ədəbi (klassik) dilə və dialektlərə ayrılmışdır.

Ərəb yazısı VI əsrdə yaradılmışdır. Ərəb yazısı ərəblərin, həmçinin digər müsəlman xalqlarının (İran, Əfqanıstan, Pakistan xalqları, Sintzyan uyğurları və b.) işlətdiyi yazı sistemi olmaqla, 1929-cu ilədək türklər, 1920-ci illərin sonu – 1930-cu illərin əvvəllərinədək SSRİ-nin bəzi xalqları da (Orta Asiya, Dağıstan və b.) ərəb yazısından istifadə etmişlər. Azərbaycanda ərəb yazısı 1929-cu ilədək işlənmişdir. Ərəb mədəniyyətinin formalaşması İslam dininin meydana gəlməsi (VII əsr) ilə sıx əlaqədardır. Abbasilər xilafətinin yaranması ilə (750-ci il) ərəb mədəniyyətinin mərkəzi Suriyadan İraqa, 300 il ərzində müsəlman Şərqi mədəniyyətinin cəmləşdiyi Bağdad şəhərinə keçdi. IX-X əsrlərdə çiçəklənmə dövrünə çatan ərəb mədəniyyəti bir çox xalqın, o cümlədən orta əsrlərdə Avropa xalqlarının mədəniyyətini zənginləşdirmiş və dünya mədəniyyəti xəzinəsinə çox qiymətli əsərlər vermişdir. Bu, hər şeydən əvvəl fəlsəfə, təbabət, riyaziyyat, astronomiya və coğrafi biliklərin, filologiya və tarix elmlərinin, kimyanın və mineralogiyanın inkişafına aiddir. Memarlıq və bədii sənətkarlıq sahəsində qiymətli abidələr yaradılmışdır. VIII–X əsrlər ərəb mədəniyyətinin dünya mədəniyyəti tarixindəki əhəmiyyəti onun yaradıcılarının dünyanın və insanın elmi, dini, fəlsəfi və bədii cəhətlərdən dərk olunmasında, yeni vasitələr kəşf etməsində idi. Son orta əsrlərdə tarixçi və sosioloq İbn Xəldunun ictimai inkişaf haqqında yaratdığı tarixi-fəlsəfi nəzəriyyə ərəb mədəniyyətinin böyük nailiyyəti olmuş, Abbasilər dövründə Bağdad öz kitabxanaları və məktəbləri ilə böyük elmi mərkəzə çevrilmişdir. Sonralar Bağdadla yanaşı Dəməşq, Hələb, Qahirə və b. şəhərlərdə yeni elmi mərkəzlər yaradılmışdır.





Əziz oxucu, məqsədimiz, ərəb elmini, ədəbiyyatını, tarixini, fəlsəfəsini və b. araşdırmaq deyil. Hansı mövzuya müraciət edirsən, yenə də o sahədə erməni əxlaqsızlığı, yalanı, xəyanəti, böhtanı yada düşür. Erməni faşisti Zori Balayan ərəb bostanına da daş atmağı unutmayıb. Bu insan cildinə girmiş şeytan, ərəbləri «vəhşi varvarlar» adlandırmışdır. Bu nəinki ərəblərə, İslama qarşı böyük təhqirdir. Saleh bəy yazır: «... söhbət ən zəngin dəfinələrdən, qeyri-adi gözəllikdən, görünməmiş var-dövlətdən gedəndə deyirlər: «Min bir gecə»dəki kimi.» Xeyirxahlıq, namus, sədaqət, mərdlik barədə, həmçinin «Min bir gecə» etalon olaraq anılır. Bu tükənməz ilham mənbəyindən Şərqin və Qərbin şair və bəstəkarları yüzillərlə bəhrələnir, yeni-yeni sənət əsərləri, gözəllik nümunələri yaradırlar.»

«Şəhrizadın nağılları ən monumental abidədir.» (M.Qorki)

«Heç bir vaxt hələ heç bir başqa kitabda incəsənətin məğrur qüdrəti bu qədər əsaslı sübut edilməmişdir.» (Gilbert Kin Çesterton)

«Bu deyilənlər həqiqətdir, fəqət həqiqətin hamısı deyil. «Min bir gecə»yə tam qiymət vermək qeyri-mümkündür. Bunu dərk etməklə bahəm mən öz fikrimi belə deyərdim: «Min bir gecə»nin zaman və məkandan asılı olmayan misilsiz, əbədi və bəşəri dəyəri və təsir gücü ondadır ki, Şərqin təkcə xasiyyət və şəraitini deyil, onlardan ziyadə və özü də xüsusi olaraq Şərqin müsəlman mənəviyyatının təsviridir, bütün bəşəriyyətin arzu və qibtəsinə layiq olan gözəl mənəviyyatın gözəl təsviridir.» (Saleh bəy)

Bu dediklərimiz ərəb nailiyyətlərinin cüzi bir hissəsidir. Ərəbin ən böyük nailiyyəti – bəşərin ən böyük nailiyyətidir. Amerika alimi Maykl Hartın «Sıra ilə sadalanan, tarixdə 100 ən əhəmiyyətli şəxsiyyət» kitabında 1-ci yeri Məhəmməd peyğəmbər (s.) tutur, 2-ci Nyuton, sonra isə İsa (ə.), Budda, Konfutsi... («XXI əsr» jurnalı, 1993, №1, s.62; www.fisechko.ru /100vel/ludei)

Cəvahirləl Nehru (1889–1964) yazır: «İslam özüylə adam

lara qardaşlıq ideyası – bütün müsəlman olanların bərabərliyi ideyasını da gətirmişdir. Beləliklə, xalqa müəyyən dərəcədə demokratiya vermişdir. O dövrün pozğun xristianlığıyla müqayisədə bu qardaşlıq ideyası cəzbedici bir qüvvəyə malik olub, təkcə ərəblər üçün deyil, ərəblərin ayağı dəyən bir çox ölkələrin sakinləri üçün də cəzbedici idi!»

Əslən kiyevli, başqa dinin, başqa millətin, başqa dilin nümayəndəsi, Şərq dühasının minlərlə xadimlərindən birini – Firdövsini dərk etmiş Sesiliya Bensianovna Banu-Lahuttinin sözlərini bir daha yada salmaq istərdim: «Şahnamə» mənim həyatımdır. Nə gözəl, nə ali həyat! Şərq budur, onu öyrənmək lazımdır, bilmək faydalıdır, dərk etmək səadətdir.»

Mirzə Kazım bəy rus çarı II Aleksandrla görüşündə demişdir: «...Şərqlə dost olmaq lazımdır... müsəlmanlarla mehribancasına dolanmaq lazımdır. Böyük Rusiya bu yolla getməlidir... Bəli, əlahəzrət...»

Hörmətli oxucu, sizə təqdim etdiyimiz araşdırmaların yekunu olaraq belə qərara gəlmək olar ki, insan doğulduğu andan təbiətin, ictimai mühitin və irsi faktorların təsiri altında formalaşır. Xoşbəxtliyin qazanılması insanların davranışından, onların bir-biri ilə münasibətindən, bir sözlə, istər insanlar arasında və istərsə də cəmiyyətdə müsbət intellektual sferanın bərqərar olmasından asılıdır. İnsan varlığı məfhum anlayışından daha çox, batini mənaları əhatə edir və cəmiyyət formasında bu ali varlığın yaradış qayəsi, sadəcə, yaşamaq və öz maddi istək və arzularını həyata keçirərək onları təmin etmək olmayıb, yaratmaq, yüksək əxlaqi-mənəvi ideyaların təbliğatçısı olaraq içində yaşadığı cəmiyyətləri, mədəniyyətləri, sivilizasiyaları və s. doğru bildiyi fəlsəfi təfəkkür tərzlərinə söykənərək sağlam beyinlərin ənənəvi təxəyyül obyektinə çevrilmiş ideal dövlət, saf ekoloji cəmiyyət ideyasını həyata keçirməkdir.





# ÖN VƏ ORTA ŞƏRQİN BƏZİ MÜQƏDDƏS ŞƏXSİYYƏTLƏRİ HAQDA QISA MƏLUMAT

Etibar ediləcək və arxalanacaq bir dövlət varsa, o da hər bir halda elm və ədəbdən asılıdır. İnsan mənəviyyatı sayəsində yüksəlir, müdrikliyi, ədaləti, xeyirxahlığı və elmi ilə tanınır.

***Abbasqulu ağa Bakıxanov.***

Bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt mümkün olacaq ki, istər Asiyada və istərsə də Avropada insan əqli sənəd və dəlil hesab edilib hakim-mütləq olacaqdır.

***Mirzə Fətəli Axundzadə.***

Əziz oxucu, şübhəsiz, insan övladı yarandığı gündən xoşbəxtliyi, əmin-amanlığı, səadəti sevmiş, arzulamış və daim buna nail olmaq üçün çalışmış, mübarizə aparmışdır. Bu böyük səadətə çatmaq üçün nəfsin saflaşdırılıb tərbiyələndirilməsi, yəni rəzil əxlaqi sifətləri uzaqlaşdırıb, bəyənilmiş keyfiyyətləri özündə yaratmaq gözəl bir xüsusiyyətdir. Allahın göndərdiyi peyğəmbərlər, insanları sevən müdriklər, alimlər, mütəfəkkirlər, filosoflar və b. bu yolla getmiş, haqsevənləri bu yola dəvət etmişlər.

Kitabda ərəblərin, türklərin, farsların, ümumiyyətlə, Şərqin dünyada tanınmış bir sıra müqəddəs şəxsiyyətləri, mütəfəkkirləri, filosofları, alimləri və dövlət xadimlərini xatırlamağı özümüzə borc bildik.

**Həzrət Məhəmməd peyğəmbər (s.).** (570/571, Məkkə – 8.6.632, Mədinə). – İslamın banisi, siyasi və dövlət xadimi («Rəsul-ül-lah»), sonuncu peyğəmbər. Allahın son elçisi, «dünya dahiləri» siyahısında 1-ci şəxs. 610-cu ildə ilk vəhylərin gəlməsi ilə ona peyğəmbərlik verilmişdir. O, rəsmi təhsil görməmişdi, lakin öz dühasının işığı, təxəyyüllünün gücü, fikri və təşkilati istedadının sayəsində müqəddəs bir etiqadın, həyat tərzinin və müsəlmançılığın (İslamın) yaradıcısı olmuşdur. Bu

həyatı yaşayan insan bəşəriyyətə Allahın ən mükəmməl və son dini olan islamiyyəti təbliğ etmişdir. O, insanları tək olan Allahın ətrafında birliyə dəvət etmiş, bir-birini sevən, məhəbbət və şəfqətini bir-birindən əsirgəməyən fəzilət sahibi bir ümmət – bir İslam camisi yaratmışdır. Onun dahiliyi insanları gözəl kəlamlarla, doğru yollar vasitəsilə yaxşılığa dəvət etməsi idi. 23 il ərzində Allah tərəfindən mələk Cəbrayıl vasitəsilə Məhəmməd peyğəmbərə (s.) müqəddəs vəhylərin (ayələrin) göndərilməsi onu istiqamətləndirmişdir. Həmin kəlamlar İslamın müqəddəs kitabı Quranda cəmlənmişdir.

Qurani-Kərimdə buyurulur: «Ya Məhəmməd! İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (İslama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et...» (ən-Nəhl surəsi, ayə 125)

Aparılan tədqiqatlar göstərir ki, Peyğəmbər (s.) təkcə din başçısı kimi deyil, həm də müsəlman icmasının siyasi rəhbəri kimi də fəaliyyət göstərmişdir. O, müxtəlif ərəb qəbilələri ilə danışıqlar aparır, səhabələrini bu və ya digər tapşırıqla ayrı-ayrı yerlərə göndərirdi. Dini əqidəsinə görə, Məhəmməd peyğəmbər (s.) təqiblərə məruz qalmış və 622-ci ildə Məkkədən Mədinəyə hicrət (köçmə) etmişdir. Mədinədə ilk vaxtlardan din təməli üzərində qurulmuş dövlət başçısı kimi rəftar edirdi. İslam dövlətinin tarixi öz başlanğıcını Mədinənin müsəlman icmasından alır. Müsəlman dövlətinin əsasları bu şəhərdə qoyulmuşdur.

Ərəb tarixçisi, illahiyyatçı, «Peyğəmbərlərin və hökmdarların tarixi» (Tarix ər-rəsul və-l-mülük») əsərinin müəllifi Təbərinin (838–923) məlumatına görə, Peyğəmbər (s.) Mədinədə dövlət başçısı kimi ilk addımlarını atmışdır. O, Mədinə yaxınlığındakı Qübaləsinə gəlib burada məscidin əsasını qoyur, burada İslam tarixində ilk cümə namazına başçılıq edir və xütbə oxuyur: «Nəsibinizi götürün və Allah barəsində ifrata varmayın... Yaxşılıq edin, necə ki, Allah sizə münasibətdə yaxşılıq edib, düşmənlərinə düşmən olun, Allah yolunda layiqincə cihad edin.» (Şünasi Əhəd oğlu, Təbəri, 2009) Bu sözlər təkcə din





başçısının deyil, həm də dövlət rəhbərinin sözləridir.

Bir müddət sonra «Mədinə Konstitusiyası» («Səhifət əl-Mədinə») elan edilir. Bu mühüm sənəddə diqqəti cəlb edən cəhətlər bunlardır:

1. Müxtəlif qəbilə və nəsillərdən olduqlarına baxmayaraq, bütün müsəlmanların vahid ümmət (*ümmə vahidə min dun ən-nas*) təşkil etdiklərini bildirdi və bununla qəbilə bölgüsünü aradan götürdü, qan qohumluğuna əsaslanan qəbilə əlaqələrinə son qoydu.

2. Mühacir və ənsarlığından, hansı qəbilədən çıxdığından asılı olmayaraq, bütün müsəlmanların hüquq bərabərliyini təsdiq etdi (*innə-L-muminin bəzihum məvali bəz dun ən-nas*).

3. Qan intiqamını aradan götürdü, bildirdi ki, günahkarlar yalnız hakimiyyət tərəfindən cəzalandırılacaqlar.

4. Bildirdi ki, etiqadlar azaddır, yəhudilər və müsəlmanlar dini vacibatlarına sərbəst əməl edə bilərlər (*li-l-yəhud dinuhum və li-l-müslimin dinuhum, məvalihim və ənfusihim*).

5. Yəhudi icması Yəsribin mümkün hücumlardan müdafiəsi üçün çəkilən xərclərdə müsəlmanlarla birlikdə iştirak etməlidir.

6. Mədinə icmalarından biri öz təşəbbüsü ilə şəhər xaricindəki düşməninə qarşı yürüş keçirərsə, başqa icmalar ona yardım göstərməyə borclu deyil.

7. Mədinə icmaları arasında fəsad doğura biləcək ixtilaf yarandığı təqdirdə münaqişəni ədalətlə həll etmək üçün Allaha (Qurana) və Allahın rəsulu kimi Məhəmmədə (s.) müraciət edilməlidir.

8. Mədinə icmaları qüreyşilər və onların müttəfiqləri ilə heç bir ittifaqa girməməlidirlər.

9. Mədinə Məkkə kimi hörməti saxlanılan şəhərdir.

Mədinə Konstitusiyası açıq-aşkar göstərir ki, artıq hicrətin birinci ilində Mədinədə Məhəmməd peyğəmbərin (s.) başçılıq etdiyi mərkəzi müsəlman dövləti yaranmışdır. (Şünasi Əhəd oğlu)

İslama görə, hakimiyyət ancaq Allaha məxsusdur: Allah

birdir, Onun hakimiyyəti də bir və bölünməzdir. Allah öz kitabı Quranda hökm verir və ona əməl olunmasını tələb edir. Bu baxımdan, Quran İslamda qanunvericiliyin birinci mənbəyidir. Lakin insan cəmiyyətinin problemləri çoxdur və bunların həlli üçün mötəbər mənbəyə ehtiyac vardır ki, bu da Peyğəmbər (s.) sünnəsidir. Buradan da İslamda qanunvericiliyin ikinci mühüm mənbəyi kimi sünnə qəbul edilir. Sünnə Peyğəmbər (s.) dedikləri (*Sünnə qəuliyyə*), etdikləri (*sünnə filiyyə*) və görüb eşitdikləri söz və işlərdən, razılaşdığı və razılaşmadıqları ilə bağlı qanunvericilik dəlilləridir. Sünnə mötəbərlik dərəcəsinə görə Qurandan sonra ikinci yerdə durur. Quranda bu və ya digər məsələ barəsində aydın hökm olmadığı hallarda sünnəyə müraciət edilir. Qurani-Kərim ümumi qaydalar, xülası xarakteri daşıyan prinsiplər ehtiva edirsə, Peyğəmbər (s.) öz sünnəsində həmin qaydaların təfsilatını verir, xülasələrin mahiyyətini açıqlayır. Eyni zamanda sünnə Qurani-Kərimdə verilmiş hökmləri təsdiqləyən, şərh edən, aydınlaşdıran, burada öz əksini tapmamış qanunvericilik məsələlərini tamamlayan müstəqil mənbədir. Peyğəmbər (s.) qanunvericilik haqqını Qurandan almışdır. Qurani-Kərimə müraciət edək: «Ey iman gətirənlər! Allaha, Peyğəmbərə (s.) və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə (s.) həvalə edin! Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.» (ən-Nisa surəsi, ayə 59)

«Peyğəmbərə itaət edən kimsə, sübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki, səni onların üzərində gözətçi olaraq göndərməmişik.» (ən-Nisa surəsi, ayə 80)

«...Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin, Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir.» (əl-Həşr surəsi, ayə 7)

İslamda qanunvericiliyin ikinci mühüm mənbəyi kimi sünnə bütün İslam məzhəbləri tərəfindən qəbul edilir. Cəfəri məzhəbi (şiəlik) ancaq əhli-beyt imamları tərəfindən ötürülən





hədisləri əsas götürür. Şünasi Əhəd oğlunun məlumatına görə, icma və qiyas da İslamda qanunvericiliyin mənbəyi sayılır. Cəfəri məzhəbinə görə icma yalnız imamların şəriət hökmü ilə bağlı yekdil rəyi kimi başa düşülür. Cəfərilər qiyası qanunvericiliyin mənbəyi saymırlar, çünki belə hesab edirlər ki, bir məsələ barəsində Quran və hədislərə istinadən hökm çıxarmaq mümkün olmayanda, mücərrəd ağıl işlədilməsi nəzərdə tutulur, elə isə ağıl nəyi yaxşı hesab edirsə, o da götürülməlidir.

İslama görə, insanlara rəhbərlik ilahi əmanətdir, bu əmanəti qəbul etmək, qorumaq və yerinə yetirmək lazımdır. Rəhbər şəxs ilahi əmanət yükünün bir qismini öz üzərinə götürmüş olur. Kimin dövlət işlərində məqamı daha uca, mövqeyi daha güclü, qüdrəti daha çoxdursa, əmanəti daha ağır olacaqdır.

İslama görə Peyğəmbər (s.) Allahın iradəsinin və əbədi ilahi qanunun bilavasitə ifadəçisi idi. Bu səbəbdən onun bütün dedikləri və etdikləri qanuni xarakter daşıyırdı. Peyğəmbərin (s.) vəfatından sonra Əbu-Bəkr (ə.) xəlifə (632–634) seçildi. Ondan sonra Ömər bin əl-Xəttab (ə.) (634–644), Osman bin əl-Əffan (ə.) (644–656) və Əli bin Əbu Talıb (ə.) (656–661) xəlifə oldular. Xəlifə İslamın ali hakimiyyət nəzəriyyəsinə tamamilə yeni bir şəxs kimi daxil oldu. Xəlifəlik İslam dövlətində Peyğəmbər (s.) dövründəki dövlətçilikdən fərqli və yeni tip dövlətçilik üsulu idi. Xəlifə yalnız Quranın hökmlərinin və Peyğəmbərin (s.) sünnəsinin şərhinə əsasən hökm çıxarırdı. Bu mənada xəlifənin səlahiyyəti çox sadə görünə bilər. Bu səlahiyyət və məsuliyyət insanların bu və ya digər fəaliyyətinin Allahın dəyişməz qanunlarına uyğun olub-olmadığına nəzarət etməkdən ibarət idi. Hər bir xəlifə Peyğəmbərin (s.) köməkçisi və özündən əvvəlki xəlifənin davamçısı, cəmiyyətin rəhbəri sayılırdı.

Allah-Təala ən şirin buyruqlarında insanların tərbiyəsi üçün həqiqi inamların təhlilindən əlavə, ilahi insanların həyat yolu və sözlərinə istinad edir ki, onların ruhuna daha çox təsir etsin. Qurani-Kərimdə peyğəmbərlər və saleh insanlardan bu qədər danışılmasının səbəbi elə budur. Onların mələk simaları

təriflənir, həyat üsulu nümunə göstərilir. Allah-Təala ən gözəl buyruqlarında Həzrət Peyğəmbər (s.) bütün həqiqət ölçülərinin nümunəsi kimi tanıtdırır, bütün insanları onun ilahi simasından nümunə götürməyə çağırır. «Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir.» (əl-Əhzab surəsi, ayə 21)

Hörmətli oxucu! Məhəmməd peyğəmbər (s.) elə bir ilahi şəxsiyyətdir ki, 1400 ildən çox bir zamanda o, hər bir inanc tərəfdarı tərəfindən öyrənilir, qiymətləndirilir və qəlblərdə yaşayır. Təkcə onu demək kifayətdir ki, Həzrət Peyğəmbərimiz (s.) başqa dinə etiqad edən, alimlər tərəfindən tərtib edilən dahi insanların siyahısında birinci yeri tutmuşdur. Bu haqda başqa bölmədə məlumat verilmişdir. Bəs hardandır bəşər övladının sevimli Peyğəmbərimizə (s.) olan bu sevgisi, məhəbbəti? Bunun üçün Həzrət Peyğəmbərimizin (s.) insanlara və insanlığa nümunə olan bəzi ilahi simalarını bir daha yada salaq. Məhz belə ilahi xüsusiyyətlər bəşəri fəlakətdən xilas edəcək, müsbət intellektual ekoloji sferanın bərqərar olmasına səbəb olacaq.

Cəmiyyətin zəif insanlarının hüququ daim zorlular tərəfindən tapdalanır. Məzlumların hüquqlarının müdafiəsi insanların öhdəsinə düşən insani bir fəzilət, ilahi bir dəyərdir. Həzrət Məhəmməd (s.) həmişə haqqı müdafiə etmiş, Qüreyş böyüklərinin məclisində məzlumların haqqını qoruyacaqları barədə müqaviləni imzalamışdır. Həzrət Məhəmməd (s.) özü də bu müqavilə ilə fəxr etmiş və buyurmuşdur: «İndi də məni belə bir müqaviləni imzalamağa çağırsalar, qəbul edərəm.»

Kitabın əvvəlində, qısa da olsa, müxtəlif bəşəri etiqadlar haqda məlumat vermişdik. Bu da danılmaz bir faktdır ki, cəmiyyətin etiqadının dəyişməsi heç də asanlıqla həyata keçmir. İnsan öz əqidəsinə bağlı olur və istinad etdiyi istər fikir, istər ideyalar və istərsə də inanc onun inkişaf səviyyəsindən, bilik ehtiyatından asılıdır. İnsan öz məsləkinə bağlı olmaqla kifayətlənməyib, başqalarını da bu yola gətirməyə çalışır. Tarixən peyğəmbərlərin vəzifələri insanların düşüncəsində batil əqidələri dağıdıb, məhv edib, bəşəriyyəti Allaha qovuşdurmaq, düzgün yola dəvət etmək olmuşdur. Bu silsilədə ən böyük məsuliyyət son Peyğəmbərin (s.) öhdəsinə düşmüşdü. Qurani-Kərimin əl-Maidə surəsinin 3-cü ayəsində buyurulur: «...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i.a.) tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim...»





İlahi peyğəmbərlik insan Yer üzünə qədəm qoyan gündən başlamışdır. Həzrət Məhəmmədlə (s.) peyğəmbərlik silsiləsi sona yetsə də, onun əməlləri, kəlamları dünya durduqca, duracaqdır.

Qurani-Kərimin əl-İsra surəsinin 15-ci ayəsində buyurulur: «Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz. (hərə öz günahına cavabdehdir). Biz, peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab vermərik!» Peyğəmbərin (s.) ən əsas xüsusiyyəti onun ədalətidir. Digər bir xüsusiyyəti müdriklik və rəhbərlikdir. Bütün bu xüsusiyyətlər fərdi qərarı istibdaddan qoruyur. Başqa bir xüsusiyyət mütəxəssislərlə müşavirədir və bu müşavirə istibdad üçün bütün qapıları bağlayır.

Peyğəmbər (s.) hökumətində öz həqiqi əksini tapan dini siyasət xalq üçün həqiqi azadlığın, tərəqqinin əsasını qoymuşdur. Xalq heç zaman peyğəmbər siyasətindən yorulmamışdır. Müasir dövrdə dini-siyasi rəhbərlər Həzrət Peyğəmbərin (s.) üsulunu nümunə götürməlidirlər. Xalqın hüquqlarını məhdudlaşdırmaq olmaz. Quran Peyğəmbərin (s.) xasiyyətlərini belə tərifləyir: «Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!» (Nun və ya əl-Qələm surəsi, ayə 4) Peyğəmbər (s.) yaxşı xasiyyətin ölçüsünü belə bəyan edir: «Yaxşı xasiyyətin ölçüsü Allah sifətləridir», yəni o şəxsin xasiyyəti yaxşıdır ki, ilahi əxlaqla bəzənmiş olsun. Çətinliklər zamanı dözümlülük, qüdrətli vaxtı onun səxavəti, əfv və bağışlamağı hamını heyran qoyardı. Peyğəm-

bər (s.) müsəlmanların bütün işlərinə rəhbər olduğu zaman ən zahid bir insan olmuşdur. Onun zöhdü (zahidliyi) hamı üçün, xüsusilə müsəlman rəhbərlər üçün bir örnəkdir. Peyğəmbərin (s.) zahidanə həyatı bəşər üçün nümunəvi ölçüdür. Bu ölçü Peyğəmbərdə (s.) elə bir şəraitdə zühur edir ki, bütün imkanlar onun ixtiyarındadır. Rəhbərlik şəraitində öz zahidanə həyatı ilə zəif insanlar arasında yaşayır. Bu, onun xalq arasında sevilməsinin rəmzidir.

Məhəmməd peyğəmbər (s.) təvazökarlıq və sadəlik nümunəsidir. Çünki o, ilahi kamilliklərin ifadəsidir və bütün insani dəyərlər onun şəxsiyyətində təcəssüm olunmuşdur. «Sənə tabe olan möminləri qanadın altına al! (Onlarla yumşaq davran, nəzakətlə rəftar et, köməklərinə çat!)» (əş-Şuəra surəsi, ayə 215)

Həbibullah Əhmədinin məlumatından: «O, özünü başqalarından yuxarı bilmirdi, hansı ki, ən üstün insan idi. Bütün təbəqələrdən olan Allah bəndələri ilə təvazö ilə keçinərdi. Allah qarşısında da sadəliyi Allahın razılığı üçün idi. Yoldan keçənlərə, hətta uşaqlara salam verməK adəti idi. Quru yerdə qullarla yemək yemək, əli ilə qoyun sağmaq, bərk pambıq parçadan libas geymək onun qaydası idi.»

Bu nümunəvi xarakter fərdi və ictimai bəlaların əlacıdır.

Həzrət Peyğəmbərin (s.) böyük müvəffəqiyyətlərindən biri də xalqla səmimi əlaqədir. Tarixən peyğəmbərlər öz sadəliklərinə görə nümunəvi rəhbərlər olmuşlar. Qurani-Kərimdə də Allah peyğəmbərlərin bu xüsusiyyətlərini tərif edir. «Peyğəmbərlərə salam olsun!» (əs-Saffat surəsi, ayə 181)

Məhəmməd peyğəmbər (s.) xalq arasından çıxmış, xalqla birgə dayanan dini, ictimai, siyasi bir rəhbərdir. Həzrət Peyğəmbərin (s.) başqalarının məsləhətinə ehtiyacı olmasa da, onların rəyini qiymətləndirir, onlarla məşvərət aparırdı.

Həzrət Peyğəmbərin (s.) həyatında nəzərə çarpan digər bir xüsusiyyət onun məsuliyyəti qəbul etməsidir. O, məsuliyyəti qəbul etməklə başqalarına xidmətə çalışır. Cəmiyyətə rəhbərlik Məhəmməd peyğəmbərin (s.) öhdəyə götürdüyü çox böyük məsuliyyətdir. Bu məsuliyyət çətinliklərə dözməklə, böhtanlarla üzləşməklə, müxtəlif müxalifətlərlə rastlaşmaqla həyata keçmişdir. Bunun üçün isə insana çox böyük dözüm lazımdır. İlahi peyğəmbərlər böyük dözüm sahibi olduqlarından cəmiyyətə rəhbərlik məsuliyyətini daşıya bilmişlər. Qurani-Kərimdə buyurulur: «(Ey ümmətim!) Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərə şəfqətli, mərhəmətlidir!» (ət-Tovbə surəsi, ayə 128)





Böyük ilahi məqsədlərə çatmaq üçün çətinliklərə dözmək lazım gəlir. Quran düşmənlə qarşılaşmaq üçün möhkəm dözümlü olmağı tapşırır. Dözümlük olmasa, ilahi hədəflər həqiqətə çevrilməz. Qurani-Kərimdə buyurulur: «(Ya Rəsulum!) Peyğəmbərlərdən əzm (və səbat, şəriət) sahibi olanların səbir etdiyi kimi, sən də (Allah yolunda çətinliklərə, əziyyətlərə) səbir et, onlardan (müşriklərə əzabın tez gəlməsindən) ötrü tələsmə. Onlar vəd olunduqlarını (əzabı) görəcəkləri gün gündüzün ancaq bir saatı qədər (dünyada) qaldıqlarını sanacaqlar...» (əl-Əhqaf surəsi, ayə 35)

Həzrət Peyğəmbərin (s.) həyatı və mübarizəsi hamı üçün haqq yolda mübarizə dərsidir.

Böyük məqsədlər yolunda böyük də təhlükələr olur. Hədəflər böyüdükcə təhlükələr də böyüyür. Tarixən peyğəmbərlər cəmiyyətdə ən böyük etiqadi və ictimai-siyasi dəyişikliklər yaratmışlar. Bəşəri, etiqadi, siyasi-iqtisadi yeniliklər həyata keçirən Məhəmməd peyğəmbər (s.) bu yolda böyük təhlükələrlə qarşılaşdı: «(Ya Rəsulum!) Allah yolunda vuruş – cihad et.» (ən-Nisa surəsi, ayə 84)

Həzrət Peyğəmbərin (s.) həyatında aydın görünən ictimai əsaslardan biri insanların hüquqlarına riayət və ədalətin gerçəklənməsidir. O, çox səy göstərirdi ki, ilahi quruluş çərçivəsində, ictimai münasibətlərdə kimsənin ən kiçik hüququ belə pozulmasın. Haqların qorunması ilə ədalət möhkəmlənsin. Çünki ədalətin əsl mənası insan hüquqlarının qorunmasıdır.

Araşdırmalar göstərir ki, Rəsulullahın (s.) həyatının bir anı da səmərəsiz keçməmişdir. Bəşəriyyətin son peyğəmbəri Həz-

rət Məhəmmədin (s.) həyatının tədqiqi ilə bütün dünya məşğul olur. Həzrəti (s.) günü-gündən artan hörmət və sevgi ilə daha yaxından tanımağa başlayırlar.

Uca Tanrı, müqəddəs işlər, əmin-amanlıq, azadlıq, insanpərvərlik, mərhəmət və şəfqətlik, müsbət intellektual ekologiya uğrunda çalışan bəşər övladlarına yar olsun, ya Rəbb!

Əziz oxucu, Məhəmməd peyğəmbər (s.) haqqında saysız-hesabsız kitablar, elmi əsərlər yazılıb. Onun qoyduğu haqq yolu araşdırılır, həqiqətlər aşkar edilir. Statistik məlumatlar da göstərir ki, İslamın haqq olduğunu dərk edən bəşər övladları İslamı kütləvi qəbul edirlər.

Dahi şairimiz Nizami Gəncəvinin «İsgəndərnamə»sində Məhəmməd peyğəmbərə (s.) həsr etdiyi bir neçə beyti nəzərinizə çatdırmaq istərdik:

Davuddan yadigar tək bir zireh var,
Məhəmməd yüz zireh qoyub yadigar.

İsanın beşiyi göyə qovuşdu,
Məhəmmədsə özü göylərə uçdu.

Tur dağı Musaya oldusa eyvan,
Məhəmmədin qəsri yarandı nurdan.

Hörmətli oxucu! Biz Allahın sonuncu Peyğəmbəri (s.), İslam dininin və dünyada ilk İslam dövlətinin banisi, təkrarolunmaz ilahi şəxsiyyət Məhəmməd peyğəmbər (s.) haqqında imkanımız daxilində, qısa da olsa, məlumat verdik. Həzrət Peyğəmbərimizi (s.), onun kəlamlarını, ona xas olan gözəl xüsusiyyətləri yada salmaq bizi mənəvi cəhətdən daha da saflaşdırır, bir daha Allaha yaxınlaşdırır. Osman Nuri Topbaşın sözləri ilə fikirlərimizi yekunlaşdırmaq istərdik: «Həzrət Peyğəmbər (s.) nuru etibarilə Həzrət Adəmdən (ə.) öncə, vücud etibarilə isə bütün peyğəmbərlərdən sonra zühur etməklə nübuvvət təqvimin ilk və son yarpağı olmuşdur. Başqa sözlə,





Həzrət Peyğəmbər (s.) yaradılış etibarilə ilk, zaman etibarilə son peyğəmbərdir. Bütün varlıqların səbəbi nuri-Məhəmməd (s.) olduğundan Allah-Təala Həzrət Peyğəmbəri (s.) «Həbibim!» kitabına layiq olacaq bir ləyaqətlə yaşatmışdır. Onu insan cəmiyyəti içində acizlik baxımından ən aşağı təbəqədən olan «yetim uşaqdan» başlayaraq, həyatın bütün dolanbaclarından keçirib, qüdrət və səlahiyyət baxımından ən üstün nöqtəyə, yəni dövlət rəisliyi və peyğəmbərliyə qədər yüksəltmişdir. Ta ki, bəşəriyyət qədəmlərinin hər hansı bir yerində olan hər kəs Ondan özü üçün ən mükəmməl feili davranışları örnək olub, Ona öz iqtidar və istedadlı nisbətində gerçəkləşdirməyə meyil edə bilsin.» (Məsnəvi dəryasından Abi-Həyat qətrələri, Bakı, 2007, s. 90)

Beləliklə, Həzrət Peyğəmbər (s.) saflığı bəşəri müsbət intellektual sferanın inkişafına, mərhəmətə, əmin-amanlığa, şəfqətə, ilahi və insani məhəbbətə qovuşdurur.

Bütün bunları nəzərə alaraq, sevimli Peyğəmbərimizin (s.) vəfatından sonra ilk İslam dövlətinin və dininin rəhbərləri olan ilk xəlifələr haqda da qısa məlumat verməк qərarına gəldik.

**Əbu Bəkr Abdullah ibn Osman (ə.).** (572 və ya 573–634), ilk xəlifə [632–634]. Dövlət başçısı statusunda olan xəlifə seçki ilə idi. Xəlifənin xalq qarşısında birinci borcu ədalətli olmaqdı. Qurani-Kərimin Sad surəsinin 26-cı ayəsində buyurulur: «Ya Davud! Biz səni yer üzündə xəlifə (və ya əvvəlki peyğəmbərlərə xələf) etdik. Buna görə də insanlar arasında ədalətlə hökm et, nəfsdən gələn istəklərə uyma, yoxsa onlar səni Allah yolundan sapdırar. Şübhəsiz ki, Allah yolundan sapanları haqq-hesab gününü unutduqları üçün şiddətli bir əzab gözləyir.»

Xəlifə insanlar arasında ədaləti yaydıqca, Haqqın əmrini yerinə yetirir və daima məsuldur. Məhz buna görə də hər xəlifə özünü cavabdeh hiss edərdi. Xəlifələri əməvilərdən Yezid zamanına qədər seçmə üsulu mövcud olmuşdur. Yezidin dövründən etibarən səltənət cümhur şəklindən səltənət, hökmdarlıq şəklinə düşdü.

Həzrət Əbu Bəkr Siddiq (ə.) Həzrət Məhəmmədin (s.) ən səmimi dostu idi. Məkkəlilər arasında nüfuz və hörməti çox, etibarı sonsuz idi. Əbu Bəkr alicənab olduğu üçün həmyerliləri onu sevər və hörmət edərdilər. Peyğəmbərimizdən (s.) iki yaş kiçik idi. Elə bu səmimiyyətə görə Həzrət Məhəmməd (s.) ailədən əlavə, kənardan ilk olaraq Əbu Bəkri (ə.) islamiyyətə dəvət etdi. Əbu Bəkrin (ə.) islamiyyətə girməsi ilə Həzrət Məhəmməd (s.) özünə böyük bir arxa qazandı. Əbu Bəkrin (ə.) hümməti ilə çoxları islamiyyətə girmişdi.

***İlk müsəlmanlar belə sıralanır:*** Həzrət Xədicə (r.a.), Həzrət Əli (ə.), Həzrət Zeyd (ə.), Həzrət Əbu Bəkr (ə.). Bəzi rəvayətlərə görə ilk müsəlman olma məsələsində ixtilaflar görünsə də, onları belə izah etmək mümkündür: qadınlardan ilk müsəlman olan Həzrət Xədicə (r.a.), gənclərdən ilk müsəlman olan Həzrət Əli (ə.), kölələrdən ilk müsəlman olan Zeyd (ə.), kişilərdən ilk müsəlman olan da Həzrət Əbu Bəkrdir (ə.).

Çox böyük təqva sahibi olan Əbu Bəkr (ə.) Məhəmmədin (s.) üçüncü arvadı Aişənin (r.a.) atasıdır. O, Peygəmbərin (s.) vəfatından sonra İslam dövlətinin başçısı seçilmişdi.

İslamda fərddən xəlifəyə qədər hər kəs vəzifəsi və hərəkəti üçün cavabdeh idi. Böyük xəlifə Əbu Bəkr (ə.) seçildiyi gün: «Ey əhali! İçinizdə ən layiqli olmadığım halda, xəlifəniz oldum. Doğru hərəkət etsəm, mənə yardım edin. Səhv hərəkət etsəm, məni düz yola çəkin. Zəif, güclü nəzərimdə bərabərdir. Heç kəsə tərəfkeşlik etmədən ədalətli olmaq istəyirəm. Əgər Allah və Rəsulunun yolundan ayrılsam, mənə itaət etməyin», – demişdi.

**Ömər ibn əl-Xəttab (ə.).** (təqr. 591, yaxud 581–644). Ömər (ə.), Əbu Bəkrin (ə.) əmri ilə onun vəfatından sonra müsəlman icmasına başçılıq edən ikinci xəlifə idi. I Ömərin qızı Həfsa (r.a.) Məhəmmədin (s.) arvadı olmuşdu.

O, İslam dinini Ərəbistanın hüdudlarından kənarda yaymaq üçün hələ Əbu Bəkrin (ə.) başladığı savaşları davam etdirmiş və çoxsaylı müharibələr aparmışdı. Ömərin (ə.)10 illik hakimiyyəti dövründə İslam dini İraqa, Suriyaya, Misirə və Kirenaikaya (Liviyanın tarixi vilayəti olan Benqaziyə) yayılmışdı. Ömərin (ə.) vaxtında təşəkkül etməyə başlamış ərəb-müsəlman imperiyasının bütün əsas inzibati-hüquqi təsisatları və ilk növbədə, onun vergi-rüsum sistemi müəyyənləşdirilib teokratik (*bax: Şərhlər*) dövlətə çevrilməsi öz formal ifadəsini hicrətin təqribən 19-cu ilində Ömərin (ə.) «Əmir əl-möminin» (möminlərin başçısı) tituluna ilk layiq görülməsi ilə tapdı.





I Ömərin (ə.) hakimiyyəti dövründə orucluq, məcburi həcc, hicri təqvim və s. dini tədbirlər həyata keçirilmişdi.

638-ci ildə Ömər (ə.) Qüdsün alınmasında iştirak etmiş, sonra isə eramızın hələ 70-ci illərində romalılar tərəfindən dağıdılmış müqəddəs Süleyman məbədinin (e.ə. X əsrə aiddir) xarabaları olan daşlı çöllükdə nümayişkaranə namaz qılmışdı. Bu hərəkəti ilə Ömər (ə.) əvvəlki təkallahlı dinlərə münasibətdə İslamın varislik xarakterini qeyd etmişdi. VII əsrin axırlarında əməvi xəlifəsi Əbdülməlik Ömərin (ə.) namaz qıldığı yerdə Qübbət əs-səhra deyilən günbəz (məscid) tikdirmişdi. Bu günbəz sonrakı, VIII əsrdə onun yanında tikilən əl-Əqsa məscidi ilə birlikdə Kəbədən sonra İslam dininin ikinci müqəddəs ziyarətgahına çevrilmiş və ümumən Qüdsün bütün müsəlman dünyasının üçüncü şəhəri (Məkkə və Mədinədən sonra) olduğunu təsdiq etmişdir.

Həzrət Ömərin (ə.) necə şəxsiyyət olduğunu tam anlamaq üçün «Həzrət Məhəmməd və həyatı» kitabına müraciət edək: «Həzrət Ömər (ə.), dünyada ədalət timsalı olan o mübarək şəxs, həm demiş, həm də dediklərini yerinə yetirmişdir. Hanı ədalət və demokratiyadan bəhs edər, ancaq Həzrət Ömər (ə.) kimi dediklərini eynilə yerinə yetirən hanı? Ömər (ə.) haqq bildiyi və haqq olduğunu söylədiyi şeyləri, şəxsən özü yerinə yetirmişdir. Söylədiklərini yerinə yetirənlər azdır. Mübarizə adamı, iş adamı ola bilmək, xalqa özü nümunə olmaq böyüklük, xalqın başına keçdikdən sonra, özünün də xalqdan bir fərd olduğunu unutmadan yaşaya bilmək, Həzrət Ömərin (ə.) cahanı heyran edən əzəmətidir. Xalq arpa çörəyi yediyi zaman onun

boğazından ağ çörək keçməzdi. Xalq yamaqlı paltar geydiyi zaman o, bərli-bəzəkli paltarlar içində rahat ola bilməzdi. Xalqa təzə ət paylayıb, özü evində çörəyini zeytun yağına batırıb yeyirdi. Qeysərin elçiləri Onu çöldə kiçik bir daşı başının altına yastıq əvəzinə qoyub yatdığı zaman tapmışdılar. Xalq adamı belə olur. İslamiyyət insanlığa belə misallar və nümunələr vermişdir.» (Ankara, 1993, s. 6)

Əvvəllər qeyd etdiyimiz kimi, Amerika alimi Maykl Hartın «Sıra ilə sadalanan, tarixdə 100 ən əhəmiyyətli şəxsiyyət» kitabında 1-ci yeri Məhəmməd peyğəmbər (s.) tutur, 2-ci yerdə Nyuton, sonra isə İsa (ə.), Budda, Konfutsi... Həmin sırada Əmir əl-möminin Ömər ibn əl-Xəttab (ə.) 52-ci yerə layiq görülmüşdür.

**Osman ibn Affan (ə.).** (576–656; xəlifəliyi 12 il). Osman ibn Affan İslamın 3-cü xəlifəsi olmuşdur. 2-ci xəlifə Ömər ibn Xəttabın (ə.) əmri ilə onun təklif etdiyi 6 nəfər namizəd tərəfindən səs çoxluğu ilə seçilmişdir. Həzrət Osmanın (ə.) dövründə Şimali Afrikanın fəthi tamamlanmış, İslam Qafqaza və İrana daxil olmuşdur. 651-ci ildə Həzrət Osmanın (ə.) tapşırığı ilə Quran ilk dəfə yazılı şəkildə (dövrümüzə çatmış şəkildə) tərtib edilmişdir. Əbu Bəkrin (ə.) yaxın dostu olan Osman (ə.) İslamı ilk qəbul edən şəxslərdəndir. Osman (ə.) öncə Məhəmmədin (s.) qızı Ruqiyə (r.a) ilə, onun vəfatından sonra Peyğəmbərimizin (ə.) Ümmü Gülsüm (r.a.) adlı qızı ilə evlənmişdi. Peyğəmbərin (s.) iki qızı ilə evləndiyi üçün «Zin-Nureyn», yəni «iki nur sahibi» olmuşdur.

Həzrət Osmanın (ə.) xəlifəliyi dövründə dövlətin sərhədləri genişlənmiş, donanma yaradılmış, bir çox iqtisadi islahatlar həyata keçirilmişdir. Üzərində «Bismillah» yazılmış ilk İslam pulu dövriyyəyə buraxılmışdı.

**Həzrət Əli ibn Əbu Talib (ə.)** (598–661). Osman ibn Affan (ə.) öldürüldükdən sonra seçilən 4-cü xəlifə. O, Rəsulullahın (s.) Mədinəyə hicrətindən 25 il əvvəl Kəbənin içərisində doğulmuş ilk insan olmuşdur. Ona qədər heç kimsə Kəbə daxilində dünyaya gəlməmişdir. Atası Əbu Talıb qürbətdə olanda doğulmuş uşağa anası Əsəd adını qoymuşdur. Məlumatlara görə, ona Əli adını Rəsulullah (s.) vermişdir. Əmisi Əbu Talibin çox uşağı olduğundan Rəsulullah (s.) Əlini (ə.) yanına almış, boya-başa çatdıqda Həzrət Fatiməni (r.a.) 26 yaşlı Həzrət Əliyə (ə.) ərə verməklə ona öz böyük məhəbbətini bildirmişdir. Rəvayətə görə, Həzrət Əli (ə.) kiçik ikən anası oğlundakı şücaəti görərək onu «Heydər», yəni «aslan» adlandırmışdır. Həzrət Əlinin (ə.) digər adları «Heydər-Kərrar» (dönə-dönə hücum edən aslan), «Murtuza» («bəyənilmiş», «seçilmiş») idi.

Rəsulullah (s.) bir gün Həzrət Əlini (ə.) məscidin torpağında yatarkən görmüş və ona: «Kim, ya Eba Turab!», yəni «Qalx, ey torpaqlar atası!» buyurmuş və o bu təxəllüsü almışdı. Həzrət Əli Qüreyşin (ə.) müxtəlif rütbələrinə görə ona «Kərəmullahi-vəchəhu», yəni «Allah onun üzünü pak və şərəfli etmişdir» deyilmişdir.

Həzrət Əli (ə.) ailədə böyük oğul olduğuna görə o, Əbül Həsən, «Şahivilayət», yəni «Övliyalar şahı» və qeyri adlara layiq görülmüşdür. Bu adlar Həzrət Əlinin (ə.) xalq tərəfindən nə qədər sevildiyinə və onun nadir şəxsiyyət olmasına bir dəlildir. Rəsulullah (s.) Həzrət Əliyə (ə.) olan sevgisini belə bəyan etmişdi: «Sən mənim dünya və axirətdə qardaşımsan.»

Məlumdur ki, şiəlik təriqətinə mənsub olanlar Həzrət Əlini (ə.) özlərinin birinci imamı elan etmişlər. Həzrət Əli (ə.) haqqında risalə və kitablar yazılmış, amma onu olduğu kimi deyil, bir növ xurafatla, nağıllarla və ya nöqsanlarla insanlara bildirmişlər, bəziləri hətta onu ilahiləşdirmişlər. Həqiqi tarix bir şeyin həqiqi aynasıdırsa, mübaliğəsiz demək olar və bu, bir həqiqətdir: «Həzrət Əli (ə.) dünya tarixində nadir şəxsiyyətlərdən biridir. Onun elm və irfanı, yüksək əxlaqi, əsrlərcə insanlığa örnək olan qəhrəmanlıq dastanı hər zaman Şərq və Qərb alimləri tərəfindən təqdir edilmişdir. Şərq aləmində əsrlər boyu unudulmayan, mübahisələrə səbəb olan, adı ilə bağlı məzhəblər, səltənətlər qurulan bu böyük şəxsiyyəti həqiqətən anlamaq insanlıq üzərinə düşən bir borcdur. Daima gülər üzlü, şirin sözlü, təvazökar, çox qonaqsevər, yumşaq xasiyyətli və çox səxavətliymiş.

Sözlərində bitib-tükənməz hikmət, fəsahət və bəlağət varmış. Onu dinlədikdə məftun olmamaq mümkün deyilmiş. Natiq, alim, adil, ən böyük pəhləvan, qəhrəman və cəsur bir şəxs, sözü qılınc qədər kəskin, yaxşılıq etməyi sevən, yetim və kimsəsizlərin hamisi, insanların ən doğru danışanı olmuşdur. Həzrət Əli (ə.) yalnız İslam aləminin deyil, bütün insanlığın yetişdirdiyi nadir simalardan biridir.» (Əlhac Mehmet Kamal Pilavoğlu. Böyük insan Həzrət Əli, Bakı, 2008)

Qeyd etmək lazımdır ki, Həzrət Əlinin (ə.) hikmətli sözlərindən ibarət «Nəch əl-bəlağə» əsəri və lirik şeirlər divanı var. Divanın iki əlyazma nüsxəsi Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar Fondunda saxlanılır. (ASE, 4-cü c., s. 165)

Həzrət Əli (ə.) deyir ki, hansı adamın oğlu olursan-ol, tərbiyə, ədəb öyrən. Bu gözəllik səni əsil-nəcabətə möhtac etməz.

Sui-qəsd nəticəsində öldürülmüş Həzrət Əli (ə.) «la ilahə illallah» kəlməsini zikr edərək 1 yanvar 661-ci ildə bu aləmdən ayrıldı. Məzarı Nəcəfdədir.

Əziz oxucu, Həzrət Əlinin (ə.) kəlamları, el arasında zərbiməsələ çevrilmiş sözləri, fəlsəfi fikirləri haqqında çox deyilib, əsərlər nəşr olunub və yenə də müasir elm tərəfindən onun yaradıcılığı araşdırılır. Bu qısa məlumatdan aydın oldu ki, Həzrət Əli (ə.) bəşər tarixində nadir şəxsiyyətdir, 1400 ildən artıq bir dövrdə və gələcəkdə də onun qoyduğu fəlsəfi, ictimai-siyasi irs müsbət intellektual ekoloji sferanın inkişafına, onun qorunmasına xidmət edib və edəcəkdir. Həzrət Əlidən (ə.) bizə 580 mübarək hədis gəlib çatmışdır. İnsanlar daima onun elmindən yararlanmışlar. Həzrət Ömər (ə.) kimi hər kəsin müraciət etdiyi bir şəxs belə ən çətin zamanlarda Həzrət Əliyə (ə.) yaxınlaşıb, ondan soruşarmış. Həzrət Ömər (ə.) daima «Ən böyük qazimiz Əlidir» cümləsini işlədərək onun yüksək, nəhayətsiz elmini bildirərdi. O, Quranın yanlış oxunmaması üçün qrammatikanın bütün qaydalarını bildirmişdir. Beləliklə də, İslam dininə böyük bir töhfə vermişdir... Onun qavramadığı, bilmədiyi bir elm yox idi» (Əlhac Mehmet Kamal Pilavoğlu, Göstərilən əsəri, s. 63-64). Gələcək bölmələrimizdə Həzrət Əlinin (ə.) kəlamlarından geniş istifadə ediləcəkdir.





**Zərdüşt.** Peyğəmbər, islahatçı, zərdüştiliyin banisidir. Yunan və Roma müəlliflərinin çoxu hesab edir ki, Zərdüşt eramızdan 6 min il, bəlkə də daha əvvəl yaşamışdır. Zərdüştün vətəni haqqında tam dəqiq məlumat olmasa da, son dövrlər hesab edirlər ki, o, Azərbaycandandır. Peyğəmbərin vətəninin Azərbaycan olduğunu bir çox orta əsr müsəlman müəllifləri də qeyd edirlər. Zərdüştilik Azərbaycan, İran, Orta Asiya, Əfqanıstan, Ön Asiya və digər yerlərdə yayılmış qədim dövrün ən mühüm dinlərindən biridir. Bu din müasir dövrdə İranda gəbrlər, Hindistanda isə parslar arasında qalmaqdadır. Onların sayı 100 min nəfərdən çoxdur. Zərdüştiliyin müqəddəs kitabı «Avesta»dır.

Filosof Rəfail Əhmədlinin internet saytından götürülmüş «Zərdüşt, «Avesta», Azərbaycan» məqaləsindən bir sıra çox dəyərli məqamları oxucuların diqqətinə çatdırmaq qərarına gəldik: «Azərbaycan türklərinin fəlsəfi və ictimai-siyasi fikrində dövlət və dövlətçilik ideyasının ilkin qaynaqlarından sayılan «Avesta» ən dəyərli abidədir, Son dövr tədqiqatçılarının böyük əksəriyyəti «Avesta»nın qədim Azərbaycan türklərinin müqəddəs kitabı, onun yaradıcısı Zərdüştü isə Azərbaycan türklərinin peyğəmbəri hesab edirlər. Digər mənbələr də «Avesta»nın vətənini Midiya, özünü isə qədim Azərbaycan ədəbiyyatının əsəri hesab edirlər. Zərdüştün urmiyalı azəri türkü olması və Qataların Azərbaycanın Nəhavənd, Rey, Həmədan və İsfahan bölgəsində qələmə alınması, demək olar ki, nüfuzlu mətəxəssislərin əksəriyyəti tərəfindən qəbul və etiraf olunur. Beynəlxalq zərdüştşünaslıq təsdiq edir ki, «Avesta» e.ə. II minillikdə Elam-Şumer mənşəli dildə yazılıb. Elam dilinin isə qədim türk dili ilə bağlılığını bir çox mütəxəssislər, xüsusilə, Yusif Yusifov elmi dəlillərlə sübut etmişlər.

«Avesta» haqqındakı tədqiqatları ümumiləşdirərək öz monoqrafiyasında Baloğlan Şəfiyev göstərir ki, müəyyənləşdirdik ki, bu abidənin («Avesta»nın – *R.Ə.*) yazıldığı dil Şərq xalqla-

rının əcdadlarının danışdıqları «prototürkcə»dir (qədim türkcə – *R.Ə.*). Belə bir hipotez irəli sürdük ki, Yer üzündə ilk sivilizasiyanın başlanğıcı: dil, din, kitab, əlifba, məktəb, fəlsəfə və ictimai fikir məhz bu kitabın («Avesta»nın – *R.Ə.*) mətni ilə bağlanır. Zərdüştün midiyalı və peyğəmbər olmasını M.Məlikova və E.Bayramov da qəbul edirlər.

Zərdüştilik dininə aid kitablar külliyyatı – toplusu sayılan «Avesta»nın dörddə biri gəlib zəmanəmizə çatmışdır. Onların da ən əskisi bizim eranın XII əsrinə aiddir. Bunu nəzərə alan bəzi tədqiqatçılar göstərirlər ki, bu gün əldə olan «Avesta» 2300 ilə yazılmışdır. «Avesta» yüz illərlə o qədər dəyişikliyə uğramışdır ki, Zərdüştün əsl gerçək «Avesta»sından olduqca az bir nəsnə qalmuşdır». Zərdüştdən sonra «Avesta»ya edilmiş əlavələr «Kiçik Avesta» adı almışdır.

Hələ qəbilə quruluşu dövründə meydana gəlmiş «Avesta» quldarlıq və hətta feodalizm quruluşları dövründə də bir çox əsrlərə və bir çox xalqlara xidmət etmişdir. Zərdüştilik Aralıq dənizindən Çinədək yayılmış, Yunanıstan və bir çox Şərq ölkələrini böyük fəlsəfə yoluna yönəltmiş bütün yunan fəlsəfəsinin ilkin qaynağı və əsası olmuş, Anaksimandr, Aniksimen, Heraklit, Pifaqor, Demokrit, Platon, Aristotel, yeni platonçular və s. kimi filosofların hamısı zərdüştilikdən ideya almış, qidalanmış dünyanın metafizik və fizik dərki zərdüştilikdən yaranmışdır. «Avesta» Hegel tərəfindən də öyrənilmiş və ona (Hegelə – *R.Ə.*) da müəyyən təsir göstərmişdir.

Tədqiqatçılar göstərir ki: «İsa peyğəmbər (ə.) Xristianlığın əsas prinsiplərini Zərdüşt təlimindən götürmüşdür... Zərdüşt peyğəmbərin təktanrılı dinini inkişaf etdirərək böyük bir dünya dini (xristianlığı – *R.Ə.*) yaratmışdır. Zərdüştiliyin Musəviliyə (iudaizmə – *R.Ə.*) də təsiri inkaredilməzdir.»

Zərdüşt fəlsəfəsi sonrakı Qərb bədii və fəlsəfi fikrinə də güclü təsir göstərmişdir. Ümumiyyətlə, «Avesta» müqəddəs kitablardan – Tövrat, Zəbur, İncil və Qurandan ən qədimi və ilkini olsa da, o, tamamilə səmavi deyil, burada daha çox dünyəvi məsələlərə önəm verilmişdir.





Qeyd edildiyi kimi, «Avesta» zaman-zaman təhriflərə uğradılmışdır. Bu təhriflər daha çox quldarlıq dövründə fars Əhəmənilərin, erkən feodalizm dövründə isə yenə də fars Sasani dövlətlərinin rəsmi hakim dini olduğu zaman baş vermişdir. Bu fars təhrifləri «ən çox abidədə türklüyü ifadə edən əlamətlərin ziyanına olmuşdur... «Avesta»nın «Qatalar» bölümünün yalnız dili yox, həm də ideyası, tapındığı təlim prototürk inanc və görüşlərlə bu və ya digər dərəcədə səsləşir. İlk tək, böyük Tanrını Zərdüşt elan edir və təkallahlılığın türk «Tenqri» ideyasından daha əvvəlki müəllifinə çevrilir.»

Deməli, ilk Azərbaycan peyğəmbəri Zərdüşt dünyada ilk təkallahlılıq din sistemini yaradan bəşər dühalarından olmuşdur. Zərdüşt özünəqədərki etik-fəlsəfi və dini təzadları müəyyən edərək «dinlərin tarixinə ilk böyük islahatçı, novator peyğəmbər kimi» daxil olmuşdur. Onun təlimində təkallahlılıq əsasdır. Zərdüşt Ahura Mazdanı (Hörmüzü – *R.Ə.*) yeganə ali Allah kimi qələmə verir. Onu kainatın və canlıların yaradıcısı hesab edir. Zərdüşt təlimində Ahura Mazda Xeyir və Həqiqəti təmsil edir.

«Avesta»ya görə, Zərdüşt bu dini «Tanrının dini» adlandırmış və bu dini yönəltmək üçün Tanrı – Ahura Mazda Zərdüştü peyğəmbər seçmişdir.

Beləliklə, Zərdüştün təlimində dualizm də vardır: iki əzəli başlanğıcın– Xeyir və Şərin, Həqiqət və Yalanın bir-birinə qarşı qoyulması. Bütün dünya prosesinin məzmununu təşkil edən həmin mübarizədə insanın rolu fəaldır. Bu, zərdüştiliyin səciyyəvi cəhətidir. Xeyir qüvvələrinin başında Ahura Mazda (sonralar Ahuramazda), Ormazd (Hörmüz), Şər qüvvələrinin başında isə Anhra Manyu (Anhra Manyu, Əhriman) durur. Zərdüştün təlimində dünya ikiləşmiş, iki sferaya bölünmüşdür (real, dünyəvi, cismani və ruhi, xəyali). Əsas diqqət real aləmə verilir, həyat haqqında təsəvvürlər bütün Kainata şamil edilir. Zərdüştün dualizmi onun sosial və təsərrüfat idealının əsaslandırılmasına xidmət edir. Göylərdəki dualizm, əslində, yerdəki dualizmin və antoqonizmin proyeksiyasıdır. Zərdüştün təlimi-

nə görə, insan Xeyirlə Şər arasındakı mübarizədə sərbəst olaraq istədiyi tərəfə keçə bilər. Son nəticədə Xeyir qalib gəlir. Bu mübarizədə mühüm yer tutan insan Xeyir və Həqiqətin Şər və Yalan üzərində qələbə çalması üçün fəal səy göstərməlidir. Bu mübarizədə insanın başlıca silahı «xeyirxah fikir», «xeyirxah söz», «xeyirxah əməl»dir.

Zərdüşt öz təlimində dünyanın inkişafı prosesində insana mühüm yer vermişdir. Onun din sistemində sosial-etik müddəalarla yanaşı, mücərrəd anlayış və obrazlar xeyli yer tutur. Ahura Mazda ali allah elan edilir. Dünya ədalətinin simvolu kimi çıxış edən oda sitayiş ritualda əsas rol oynayır. Zərdüştün ideyaları məzdəkilərin və babəkilərin (xürrəmilərin) ideologiyasına xeyli təsir göstərmişdir.

**Yəhudilik və Həzrət Musa (ə.).** Yəhudilik yaşayan dinlərin ən qədimlərindən və mənsubu az olanlardan biridir. Yəhudiliyin eyni bioloji nəslə və dini camaata sahib irq və inanc birliyi olduğu deyilə bilər. Dünyada təxminən 18-20 milyona qədər yəhudinin olduğu təxmin edilir. Bunların 4,4 milyonu İsraildə, 6 milyonu Amerikada, digərləri də kiçik azlıq olaraq dünyanın müxtəlif ölkələrində yaşamaqdadır.

İlahiyyatçı Əkrəm Həsənovun internet saytından yəhudilik haqqında bəzi məlumatları oxucuların nəzərinə çatdırmaq qərarına gəldik:

**Yəhudi anlayışı.** Həzrət Yəqubun (ə.) 12 oğlundan dördüncüsünün adı Yuda və ya Yəhuda idi və o, Yəhuda qəbiləsinin ağsaqqalı idi. Onun adına görə İsrail oğullarına «yəhudi» deyilmişdir. Yəhudi sözünün ərəb dilində «hədə» kökündən «dönmək» və «tövbə etmək» mənasına gəldiyini, bu adın yəhudilərə verilməsinin də Musa peyğəmbərin (ə.): «Biz sənə dönüb yalvardıq» ifadəsi səbəbi ilə olduğunu bildirmişdik. Xristian ölkələrində yaşayanlara «aşkenazim», İslam ölkələrində yaşayanlara «sefardin» deyimi istifadə edilir. İsrail dövlətinin qurulmasından əvvəl bölgədə 65 min yəhudi varkən, aşkenazim və sefardin yəhudilərinin köçləriylə əhali sürətlə artmış və İsrailin əhalisi bu gün təxminən 4 milyona çatmışdır.





**İsrail.** Bu söz Tanrı və insanlarla güləşib qalib gələn mənasında Yaqub peyğəmbərə (ə.) Tanrı tərəfindən verilmiş bir ləqəbdir. Bu hadisə Tövratda qeyd olunmuşdur. İslam tarixçisi Təbəri isə Həzrət Yaquba (ə.) «Gecə içində Allaha gedən» mənasında İsrail deyildiyini qeyd etmişdir. Qurani-Kərimin müxtəlif ayələrində də «Bəni İsrail» (yəhudilər nəzərdə tutulur) sözü tez-tez təkrar olunur.

**Həzrət Musa (ə.).** Yəhudi dininin qurucusu sayılır. Bu dinə «musəvilik» də deyilir. Tarixi mənbələrə görə, Musa (ə.) e.ə. 1571-ci ildə doğulub, 1451-ci ildə vəfat etmişdir. Adı müxtəlif şəkillərdə açıqlanır: Tövratın Xuruc hissəsinə görə, «sudan çıxarılmış» mənasını verir, ibranicə Moşe, Qədim Misir dilində «Tanrı verdi» mənasını verir. Həzrət Musa (ə.) 120 yaşında Nebo dağında vəfat etmişdir. Cəsədinin Allah tərəfindən basdırıldığı və məzarını kimsənin tapa bilmədiyi rəvayət edilir. Qısaca, Həzrət Musa (ə.) Allahla İsrail xalqı arasındakı anlaşmanın və İlahi dinin qurucusu, bir Peyğəmbər, xalqını Misir boyunduruğundan qurtarması və milli həyatın qurucusu olmasıyla, bir lider və bir qanun quruluşçusudur.

Həzrət Musa (ə.) Tövratı öyrədir və insanları nur və hidayətə yönəldirdi.

Qurani-Kərimdə Tövrat barəsində buyurulur: «Tövrat hidayət kitabı və nur idi». Amma yəhudilər Musanın (ə.) vəfatından sonra Tövratı təhrif etdilər. Yəni onlar Tövratın nəsihət və ilahi hökmlərini silib, ürəkləri istəyənləri, onların şəxsi mənafeləri və adət-ənənələri ilə uyğun gələni saxladılar. Bəşəriyyətə məlumdur ki, bugünkü Tövrat Musaya (ə.) nazil olan Tövrat deyil. Allah-Təala Musadan (ə.) sonra onlara çoxlu peyğəmbərlər göndərdi. Amma onlar peyğəmbərləri ya öldürür, ya da incidirdilər. Yəhudilər daşürəkli insanlara çevrilmişdilər. Onların qeyri-insani adət-ənənələri vardı. Talmud adlı başqa bir kitaba ehtiram göstərirdilər. Talmud onlara iyrənc işlər öyrədirdi. Bu kitabda belə deyilir:

1. Yəhudilər Allahın seçilmiş millətidirlər. Başqa millətlərsə heyvandırlar.

2. Yəhudilərin dünya hakimiyyətinə sahib olmaları üçün onlar həmişə digər insanları zəif saxlamağa çalışmalıdırlar.

3. Yəhudi insan qeyri-yəhudinin mallarını oğurlaya bilər.

4. Yəhudi insan qeyri-yəhudini aldada, ondan çoxlu riba (sələm) ala bilər. Onu bütün var-yoxunu yəhudilərə verməyə məcbur edə bilər.

Talmud ibranicə «təlim» deməkdir. Bu təfsir külliyyatının müasir variantı 19 cilddən ibarətdir. Yəhudilər Talmuda Tövrat qədər hörmət edirlər. Talmud ibrani və arami dillərində yazılmışdır. Talmud məzmununa görə iki hissəyə – Qalaxa və Aqqada bölünür. Qalaxa ibranicə «məfhum, anlayış, həyat tərzi» deməkdir. Burada Tövratın mətninin hüquqi təfsirinə əsaslanan və məcburi qanunlar şəklini alan hüquqçuların mülahizələri yer almışdır. Aqqada ibranicə «hekayə, rəvayət» deməkdir. Bu hissə müxtəlif ibrətamiz hekayələr, əxlaqi rəvayətlər və məcburi səciyyə daşımayan dini nəzəriyyələrdən ibarətdir. Aqqada Talmudun ən az nüfuza malik olan hissəsidir. Talmud – yəhudi dünyagörüşünün ensiklopediyasıdır. Talmudda göstərilmiş və əmr edilmiş həyat tərzi bütün İsrail xalqını birləşdirmiş, yəhudiləri digər millətlərdən fərqləndirmiş, həmçinin onlara düşmən qüvvələrə qarşı fenomenal dayanıqlıq və yaşayış yerindən asılı olmayaraq, milli birlik hissi vermişdir. Bütün bunlarla yanaşı, orta əsr yəhudisi Talmudda mənəvi təskinlik tapırdı. Talmud başqa ölkələrdə yaşayan yəhudilər üçün «vətən» idi.

**İsa, İisus Xristos (ə.).** Xristian təliminin banisi sayılır. Tarixi mənbələrə görə, İsa (ə.) Roma imperatoru Avqustun dövründə Fələstinin Vifleym şəhərində doğulmuşdur. Bizim tariximizin hesabı İsa Məsihin (ə.) (məsh edilmiş adam, yəni dünyanın xilaskarı olub, Allah tərəfindən təyin edilmiş tək bir xilaskar İsa) doğulduğu ildən sayılır. O, İudeya, Qalileya, Samirə və b. yerlərdə yeni dini təlimi (Xristianlığı) təbliğ etmiş, çarmıxa çəkilmiş, sonra diriləərək qeyb olmuşdur. İudaizmə və Xristianlığa aid «müqəddəs» kitablar külliyyatı (e.ə. VIII əsr – eramızın II əsri) – birinci kitab «Əhd-i ətiq» (Tövrat və s.) qədim vəsiyyətlər, ikinci kitab «Əhd-i cədid (İncil və s.) adlanır. Yəhudi və Xristian dinşünasları hesab edirlər ki, Əhd-i ətiq kitablarının (bəziləri onun 39 əsərdən ibarət olduğunu iddia edirlər) yazılma tarixi e.ə. XI–IV əsrlərə təsadüf edir.





**Bibliya** (yunanca *Biblia* – kitablar sözündəndir). Allahın kəlamıdır və o, dünyanın, insanın yaranması sirlərini və varlığın mənasını açır. Burada yalnız insanın yoldan çıxmasından və bu səbəb üzündən onun Allahdan uzaqlaşdırılıb, əbədi məhvə məhkum olmasından, Allahın yer üzünə, adamların günahı və onlara həqiqi həyat yolunu göstərmək uğrunda ölmək üçün Öz Oğlu olan İsa Məsihi (ə.) göndərməsindən söz edilir. Əhd-i cədidin ilk dörd qismi İncil adlanır. İncil, yunanca *evangeliya* – müjdə deməkdir. Həzrət İsa (ə.) haqqında kitabın «Şərhlər» bölməsinin peyğəmbərlərə həsr olunmuş hissəsində geniş məlumat verilmişdir.

Araşdırmalardan aydın olur ki, qədim Ön yə Orta Şərq peyğəmbərlər, dahi alimlər, filosoflar, mütəfəkkirlər diyarı olmuşdur. Qədim peyğəmbərlərdən Zərdüşt, Musa (ə.) və İsa Məsih (ə.) və həmçinin Məhəmməd (s.) haqda müəyyən məlumat verdik. İndi isə Ön və Orta Şərqdə qədim dini-əxlaqi, sosial-etik fəlsəfi təlimlər haqda qısa məlumat verməyi məqsədəuyğun hesab edirik.

# ÖN VƏ ORTA ŞƏRQDƏ QƏDİM DİNİ-ƏXLAQİ, SOSİAL-ETİK FƏLSƏFİ TƏLİMLƏR

Fəlsəfə cəmiyyət haqqında təlimin əsasıdır.
*İbn Xəldun.*

Ön və Orta Şərqdə din və fəlsəfə qədim tarixə malikdir. Əvvəlki bölmədə qeyd etdiyimiz kimi, İranda və Azərbaycanda ilk fəlsəfi təlimlər zərdüştiliyin müqəddəs kitabı «Avesta»da öz əksini tapmışdır. Sonralar manilik və məzdəkilik meydana gəlmişdir.

**Mani** (216–274). Qədim Şərq rəssamıdır, Babilə Həmədandan gəlməsi ehtimal edilir. Uşaqlıqdan fitri istedada malik olan Mani rəssamlıqdan başqa, dini-fəlsəfi görüşləri, həkimliyi, mühəndisliyi ilə də şöhrət qazanmışdır. Hətta o, xüsusi əlifba yaratmışdır. Maninin rəssamlığı haqda Firdövsi, Hafiz, Nizami və b. klassiklərin əsərlərində də deyilib. Rəvayətə görə, Mani 24 yaşında özünü peyğəmbər elan etmiş, Şərq ölkələrini gəzərək yaratdığı dini yaymışdır (C.Rəmzi, «Mani», Bakı, 1979). İrana qayıtdıqdan sonra zərdüştiliyin qatı tərəfdarı olan Sasani hökmdarı I Bəhram ona işgəncə verdirərək edam etdirmişdir. Mani dini-fəlsəfi kitablarını özünün yaratdığı əlifba ilə yazmışdır. Mənbələrdə onun 6 kitabı və 76 risaləsinin olduğu göstərilir. 1931-ci ildə Misirdə tapılmış iki min vərəqdən ibarət dini-əxlaqi məzmunlu 7 kitab Maniyə aid edilir. Maninin dini-fəlsəfi və əxlaqi görüşləri sonralar «Manilik» adı ilə formalaşmışdır.

Əvvəlki bölmədə qeyd etdiyimiz kimi, Amerika alimi Maykl Hartın «Sıra ilə sadalanan tarixdə 100 ən əhəmiyyətli şəxsiyyət» kitabında Mani 83-cü yeri tutur. («XXI əsr jurnalı», 1993, №1, s. 62; www. fisechko.ru/100vel/ludei)

**Manilik.** Zərdüştiliyin, Buddizmin, Xristianlığın, qnostizmin *(bax: Şərhlər)* və digər təlimlərin təsiri altında yaranmış dini- fəlsəfi təlimdir.

Mani III əsrin 30-cu illərinin sonunadək Hindistanda, Orta Asiyada, İranda olmuş, maniliyi təbliğ etmişdi. 243-cü ildə İran şahənşahı Şapur tacqoyma mərasimi zamanı öz sarayında Manini yeni dinin peyğəmbəri kimi qəbul etmişdir Maninin dediyinə görə, bu din mövcud təlimləri birləşdirməli, onlardan yüksəkdə durmalı, universal, vahid «dünya dini» olmalıdır. Mani özünü «həqiqət Allahının elçisi» sayırdı.

Maniliyin əsasında dualizm prinsipi – Nur və Zülmət başlanğıclarının mübarizəsi durur. Bu dünyada Nur və Zülmət ünsürləri bir-birinə qarışmışdır. Dünya inkişafı prosesinin məqsədi insan qəlbində yer tapmış Nur ünsürlərini materiyanın hakimiyyətindən azad etməkdir. Maniyə görə, Allah dünyada şəri yaratmamışdır, deməli, dünyanı da yaratmamışdır, çünki dünya (materiya) şərdir. Deməli, materiya Allahdan asılı olmayaraq mövcuddur, insan isə «materiya ilə yüksəkdə duran Nurun qarışığıdır.»

Nurun hissəciklərinin azad olmasına yalnız qatı asketizm *(bax: Şərhlər)* vasitəsilə nail olmaq mümkündür.

Maninin dövlətə və zülmə qarşı çevrilən, yüksək əxlaqi ideallar təbliğ edən təlimi hələ onun sağlığında Babilistan, İran, Orta Asiya və Hindistanda geniş yayılmağa başlamışdır. Sonralar manilik Misirə, Şərqi Roma imperiyasına, Mərkəzi Asiyaya və hətta Çinə nüfuz etmişdir. Artıq III əsrin sonunda manilikdə demokratik, sol, radikal istiqamət yaranmış, bu isə zülmə qarşı çıxan xalq kütlələrinin geniş rəğbətini qazanmışdır. Lakin maniliyin dövlət əleyhinə çevrildiyi aydın olduqdan sonra manilər amansızcasına təqibə məruz qalmışlar. Mani həbs edilmiş, manilik isə «ən zərərli bidət» elan edilmişdir. Manilik sonralar Xristianlığın və İslamın da təqibinə məruz qalmışdır. Manilik uzun müddət mövcud olmuş, yalnız XIII əsrdə dar təriqətçiliyə çevrilmişdir. Mani özü və manilər böyük ədəbi irs qoyub getmişlər.

**Məzdək və məzdəkilər hərəkatı.** Məzdək (V əsrin 50-ci illəri) məzdəkiliyin banisi, Məzdəkilər hərəkatının başçısı olmuşdur. Bəzi mənbələrə görə, Məzdəkin vətəni müasir İraqın Dəclə çayı sahillərindədir. O, ilk olaraq fikirlərini Həmədanda

yaymağa başlamışdır. Məzdək maniliyin radikal cərəyanı – Bundos təliminin ictimai ideyalarını ön plana çəkməklə onu inkişaf etdirmişdir. Məzdək həyat nemətlərini bərabər bölüşdürməyi təbliğ edirdi. Onun başçılıq etdiyi hərəkat (V əsrin sonu – VI əsrin əvvəlləri) feodal istismarına qarşı çevrilmişdi.

Məzdək manilikdə olduğu kimi, radikal və demokratik istiqamətin tərəfdarı olmuşdur. Məzdəkilikdə manilikdə mövcud olan dualizm – İşıq və Qaranlığın mübarizəsi qəbul edilirdi. Manilik doktrinalarından fərqli olaraq, məzdəkilərin təlimi hesab edirdi ki, İşıq (Xeyir) səltənətinin fəaliyyəti ədalətli, ağıllı və məqsədəuyğundur. Qaranlıq (Şər) səltənətinin hərəkəti isə təsadüfi, ağıldan kənar və xaotikdir. Məzdəkə görə, Xeyirin Şər üzərində qələbəsi «hazırkı həyatda» baş verməlidir. Məzdəkilikdə qarşılıqlı maddi köməyə, bərabərliyə, əmlak «ümumiliyinə» və s. çağıran sosial-etik görüşlər mühüm yer tutur. Məzdək sosial qeyri-bərabərliyi məhv etmək, ilkin mövcud olan («Allahdan əta edilmiş») ümumi bərabərliyi zorla həyata keçirmək üçün fəal mübarizəyə çağırırdı. Məzdəkin bir sıra tələbləri antik dünyanın sosial utopiyalarından götürülmüşdür.

Sasani hökmdarı I Qubadın hakimiyyəti dövründə Məzdək atəşpərəstlik məbədlərindən birinin kahini, sonra İranın baş kahini olmuş, onun tərəfdarları isə mühüm dövlət vəzifələrini tutmuşlar. Əyanların iqtisadi və siyasi hökmranlığına son qoyduqdan sonra I Qubad Məzdəklə ittifaqdan imtina etmişdir. I Qubadın oğlu Xosrovun əmri ilə Məzdək və onun yaxın silahdaşları edam edilmiş, onun məsləkdaşları Azərbaycanın şimalına, Orta Asiyaya və s. ölkələrə çəkilmişlər.

Məzdəkilər hərəkatı, əsasən, kortəbii xarakter daşıyırdı. Bu hərəkat əmlakın cəmiyyət üzvləri arasında bərabər bölüşdürülməsi tələbini irəli sürsə də, xüsusi mülkiyyətin ləğv edilməsini nəzərdə tutmamış, ictimai ədaləti qəbilə-tayfa quruluşuna qayıtmaq yolu ilə bərqərar etmək kimi utopik ideyaya əsaslanmışdı. Məzdəkin ideyaları Müqənna üsyanına və Azərbaycanda yayılmış xürrəmilər hərəkatına təsir göstərmişdir.





Müqənnanın əsl adı Haşim ibn Hakim idi. O, Xorasan hakimlərinin yanında hərbi və dövlət işində olmuş, Ərəb xilafətinin hökmranlığına, siyasi və iqtisadi bərabərsizliyə qarşı fəal mübarizəyə çağırırdı. Üsyan yatırıldıqda əsir düşməmək üçün özünü həlak etmişdir. Müqənnanın təbliğ etdiyi təlimin əsasında məzdəkilik dururdu.

**Xürrəmilik.** Abbasilər xilafətinə qarşı Azərbaycanda və qonşu ölkələrdə yaranmış təriqətdir. Ərəb mənbələri xürrəmiliyin islamaqədərki dövrdə mövcud olduğunu göstərərək məzdəkiliyi də (bu barədə əvvəllər məlumat verilib) ona aid edirlər. Xürəmmilik isə İslam dövründə meydana çıxmış, babəkiyyə və məzyədiyyə adlanan iki qrupa bölünmüşdü. Xürrəmiliyin ardıcıllarına «müxəmmirə» deyirdilər *(bax: Şərhlər)*. Görünür ki, tarixdə ilk dəfə işğalçılara qarşı qırmızı geyimdə və qırmızı bayraq altında çıxış edən məhz xürrəmilik tərəfdarları olmuşlar. Xürrəmi dini etiqadı işıq və qaranlığın, yəni Xeyir və Şərin simvolu olan iki mənəvi qüvvəyə, inama əsaslanırdı. «Xürrəm» sözünün mənşəyini hələ orta əsr tarixçiləri müxtəlif səpkidə izah etmişlər. Bəzilərinə görə, bu söz Ərdəbil yaxınlığındakı Xürrəm kəndinin adı ilə, bəzilərinə görə isə «şad, şən, şəhvətpərəst» anlayışları ilə bağlıdır. Xürrəmilərin atəşpərəst olduğunu söyləyənlər də var. Son tədqiqatlara əsasən «xürrəm» pəhləvicə «xvar» («xur») – «od, günəş» sözü ilə bağlıdır. Xürrəmilər İslamı rədd edir, «ümumi bərabərlik» ideyasını irəli sürürdülər. Xürrəmilərin bazası, əsasən, kəndlilərdən ibarət idi.

Xürrəmilikdə xüsusi mülkiyyətin əleyhinə çıxılır, torpağı kəndlilərə vermək, maddi nemətləri bərabər surətdə bölüşdürmək ideyası irəli sürülürdü. Məhz buna görə xürrəmiləri vaxtilə həmin ideyalar uğrunda vuruşmuş məzdəkilərin ardıcılı hesab edirdilər. Xürrəmilik Babək hərəkatının (816–838) ideya əsası olmuşdur.

Azərbaycanda ərəblərə qarşı narazılıq və qəti etiraz 808 ildə geniş vüsət almış, bu da xürrəmi hərəkatında öz əksini tapmışdır. Cavidanın (xürrəmi hərəkatının başçısı) ölümündən sonra 816-cı ildən Xürrəmi hərəkatına Babək başçılıq etdi. Ba-

bəkin başçılığı ilə xürrəmilər 20 ildən çox ərəblərə və xilafətə qarşı inadlı azadlıq müharibəsi apardılar. Tarixdə bu müharibə Babək hərəkatı adlanmışdır.

Beləliklə, bundan əvvəlki bölmələrdə cahanşümul dinlərin, dini təlimlərin araşdırılması bir daha sübut edir ki, islam sülh, barış, əmin-amanlıq, mərhəmət, bərabərlik və ümumbəşəri bir dindir. İslam təkcə insanlara deyil, bütün canlılara yaxşılıq etməyi, pisliklərdən çəkinməyi və çəkindirməyi tövsiyə edir. Qurani-Kərimdə Allah belə buyurur: «Allah (bəndələrini) əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola salır!» (Yunus surəsi, ayə 25)

Yaxşılıqla pisliyin eyni olmadığını bəyan edən Allah, insanlara zülm etməyi qadağan edir, onları zülm etməyə meyil etməkdən belə çəkindirir. Qurani-Kərimdə buyurulur: «Zülm edənlərə (rəğbət bəsləməklə, kömək göstərməklə) meyil etməyin, yoxsa sizə atəş toxunar (cəhənnəmlik olarsınız)...» (Hud surəsi, ayə 113)

Deyilənlərdən aydın olur ki, İslam insan mənəviyyatının inkişafında, Yer planetində ekoloji tarazlığın və müsbət intellektual sferanın bərqərar olmasında elmlə birlikdə əsas dayaqdır.





# ÖN VƏ ORTA ŞƏRQIN MÜTƏFƏKKİR, ALİM, FİLOSOF VƏ DÖVLƏT XADİMLƏRİNİN SOSİAL-ETİK, DİNİ-FƏLSƏFİ BAXIŞLARI

Fəlsəfə qəlbin təbabətidirsə, filosof qəlbin hakimidir.

***Plutarx,***
***qədim yunan filosofu.***

Müdrikə aydın düşünmək, səlis danışmaq və düzgün qərar qəbul etmək üçün həmişə öyrənmək zəruridir.

***Demokrit,***
***qədim yunan filosofu.***

Fəlsəfəni öyrənmək məharəti müdrikliyə can atmaq və qovuşmaqdır, insan özü fəlsəfi həqiqətlərə yiyələnməlidir ki, müdrik olsun.

***Pifaqor,***
***qədim yunan filosofu.***

Fəlsəfə ilk əqli əməyin müstəqil fəaliyyət sahəsinə çevrildiyi zaman yaranmış və insanın ətraf aləmə münasibətini müəyyənləşdirməyə yönəlmişdi. Antik müəlliflərə görə «fəlsəfə» sözünə Pifaqorda (e.ə. 570–500) rast gəlinmiş, lakin xüsusi elm adı kimi ilk dəfə Platon – Əflatun (e.ə. 428–348) işlətmişdir. Fəlsəfə yunanca «*phileosophia*» – müdrikliyi sevmək mənasını daşıyır. Aparılan tədqiqatlar göstərir ki, Qədim Şərq ölkələrində quldarlıq quruluşunun yaranması və inkişafı ilə müxtəlif fəlsəfi təlimlər meydana gəldi. Əvvəllər qeyd etdiyimiz kimi, ilk fəlsəfi təlimlər zərdüştiliyinn müqəddəs kitabı «Avesta»da öz əksini tapırdı. Fəlsəfənin əsas funksiyası antik dövrdən hazırkı dövrə qədər, mürəkkəb və ziddiyyətli təbiət və cəmiyyət aləmində insanın ləyaqətli yaşaması üçün onun dünyagörüşü orientasiyasıdır.

Filosof-alim Qoşqar Əliyevin təbirincə desək, insan həmişə özünün mahiyyətini, öz şəxsi mövcudluğunun ilkin mənbələrini başa düşməyə, özünün gələcəyini irəlicədən görməyə səy göstərir. Bu hər bir ayrıca insana və bütün cəmiyyətə aiddir. Təsadüfi deyil ki, hazırda təbiət və insan haqqında biliklərə tələbat daha da artır. Bu isə o deməkdir ki, insan bu gün yeni şəxsi yönümlərə ehtiyac duyur.

«Bütün insanlar təfəkkür sahibi olmaq üçün yaranmışlar. Lakin, bildiyimiz kimi, gündəlik həyatda bu arzu baş vermir. Soruşulur, niyə? Müasir elm buna hələlik birmənalı cavab verməkdə acizdir. Lakin filosoflar, antropoloq alimlər, həkimlər belə yekdil fikirdədirlər ki, fitri, əqli qabiliyyət hələ zəka deyildir, hətta müstəqil və düzgün düşünmək bacarığı da deyildir. Bu, yalnız potensial imkandır, dünyada insan kimi də yaşamaq və yaratmaq sənətinə yiyələnmək təbii qabiliyyətdir.» (Qoşqar Əliyev, Təbabət fəlsəfəsi, Bakı, 2000)

Fəlsəfə başqa elmlərdən nə ilə fərqlənir? Fəlsəfədə başlıca problem həqiqət axtarışlarında real yolları dərk etmək və onları müəyyənləşdirməkdir. Həqiqət axtarışında elmi təlim yoxdur, çünki elə bir mülahizə yoxdur ki, onun əksinə fikir söylənməsin. Ona görə də həqiqət axtarışı fəlsəfə üçün sadə məsələ deyil, buna cavab axtarılmasına, həm keçmişin və həm də bu günün filosofları, mütəfəkkirləri səy göstərmiş və bu axtarış hələ də davam edir.

Bir sıra mütəfəkkirlərin fəlsəfə haqda mülahizələrini sizin nəzərinizə çatdırmaq istərdik:

Yunan filosofu Plutarx *(bax: Şərhlər)*: «Fəlsəfə ehtiraslara qalib gəlməkdə insana kömək edir. Ancaq xeyirxah olan adam, həqiqətən, sağlamdır və əgər o, ehtiraslara qapılırsa, az-çox xəstədir və onun müalicəyə ehtiyacı vardır. Buna görə də fəlsəfə, əsasən, qəlbin təbabətidirsə, filosof qəlbin «həkimidir.» (Plutarx, Müqayisəli hallar, M.,1961, 1-ci c., s.466)

Alman klassik fəlsəfəsinin banisi İ.Kant (1724–1804): «Fəlsəfə insan zəkasının son məqsədləri haqqında elmdir».

N.Berdayev: «Fəlsəfə həmişə mənasız dünyadan, bizi hər tərəfdən məcbur edən və zor göstərən dünyadan məna dünyasına çıxışdır.» (N.Berdaev, Философия свободного духа, M., 1994, s. 222-233)





Alman filosofu Karl Yaspers: «Əgər mənəvi aləmdə fəlsəfə yoxdursa, onda, heç olmasa, vəzifəmiz, fəlsəfənin necə olduğunu göstərmək, böyük filosoflara nəzəri cəlb etdirmək, gənclərdə əsl fəlsəfəyə maraq oyandırmaqdan ibarət olmalıdır.» («Западная философия: итоги тысячелетия», Yekaterinburq, 1997, s. 53)

Beləliklə, biz fəlsəfənin mahiyyətini, onun insan cəmiyyətindəki rolunu bacardığımız qədər izah etməyə çalışdıq. Dediklərmizi Qoşqar Əliyevin fikri ilə yekunlaşdıraq: «Fəlsəfə insanın potensial imkanlarının inkişafına kömək edən intellektual bir açardır.»

Əvvəllər qeyd etdik ki, Qədim Şərq ölkələrində quldarlıq quruluşunun, daha doğrusu, sinfi cəmiyyətin yaranması və inkişafı ilə müxtəlif fəlsəfi təlimlər meydana gəlmişdi. Fəlsəfə müsəlmanlar arasında xüsusi bir elm şəklində VIII əsrdən etibarən geniş yayılmağa başladı. İslam fəlsəfəsi fikrinin formalaşmasında, şübhəsiz, İslam dininin banisi, dünya miqyasında böyük və müdrik şəxsiyyət Məhəmməd peyğəmbərin (s.) ciddi təsiri olmuşdur. Məhəmməd peyğəmbərin (s.) kəlamları xeyirxahlıq, humanizm, ümumbəşərilik ideyaları ilə yoğrulmuşdur. O, əxlaqi keyfiyyətlər, davranış qaydaları haqqında bir çox müdrik fikirlər söyləmiş və bu fikirlər müqəddəs Qurani-Kərimdə, həmçinin hədislərində öz əksini tapmışdır.

Hələ ilkin mərhələdən başlayaraq İslam alimləri bütün əqli elmləri fəlsəfə kimi tanıyırdılar. Onlar tarix, ədəbiyyat, dilçilik, təfsir, hədis, üsul kimi əqli elmləri çıxmaq şərtilə ilahiyyat, cəbr, həndəsə, astronomiya və musiqi kimi bütün əqli elmləri fəlsəfənin tərkib hissəsi hesab edirdilər.

Şərq və qədim yunan fəlsəfəsini öyrənməkdə X–XIV əsrlərdə ərəbdilli fəlsəfə özünün ən yüksək mərhələsinə çatmışdı. Bu dövrdə ilahiyyata bağlı İslam fəlsəfəsi, vəhdəti-vücud təlimi, xüsusən sufizm, yunan filosoflarının, ilk növbədə, Platon

və Aristotelin (Ərəstunun) fəlsəfəsi zəminində yaranan, sonralar orijinal təlimə çevrilən Şərq peripatetizmi *(bax: Şərhlər)* daha geniş yayılmışdır. Onun nümayəndələri Aristoteli özlərinin «birinci müəllim»i («əl-müəllim əl-əvvəl») adlandırmışlar. Orta əsr müsəlman Şərqində Aristoteldən sonra «ikinci müəllim» (əl-müəllim əs-sani») fəxri adını Fərabi almışdır.

**Fərabi Əbu Nəsr Məhəmməd ibn Məhəmməd** (870–950). Türk qəbiləsindən olan hərbi qulluqçu ailəsində doğulmuşdur. Fərabi «Fəlsəfəni öyrənməkdən qabaq nəyin müqəddimə verilməsi haqqında», «Xoşbəxtliyin əldə edilməsi», «Elmlərin siyahıya alınması», «Fəzilətli şəhər əhlinin baxışları», «Əql sözünün mənalarına dair», «İki filosofun – ilahi Platon və Aristotelin baxışlarında ümumilik», «Metafizika kitabında Aristotelin məqsədi» və s. elmi, fəlsəfi əsərlərin müəllifidir. Fərabi Aristotelin, Ptolemeyin, Portirinin əsərlərini şərh etmişdir.

Fərabi «Elmlərin siyahıya alınması» traktatında dövrünün bilik sahələrini beş bölməyə, onları da müxtəlif qisimlərə ayırmışdır: 1) dilçilik; 2) məntiq; 3) riyaziyyat (hesab, həndəsə, optika, ulduzlar haqqında elm, mexanika) ; 4) fizika və metafizika; 5) idarəetmə haqqında elm, hüquqşünaslıq və kəlam. Bu əsər elmlərin təsnifatını əks etdirdiyindən bəzi dillərə «Elmlərin təsnifatı» adı ilə tərcümə olunmuşdur. Fərabinin fikrincə, məntq əqli kamilləşdirən, idrakda insanı düzgün yola, həqiqətə yönəldən, onu yanılmaqdan qoruyan, səhvə yol verilib-verilmədiyini yoxlayan qaydalar məcmusunu öyrədir. Fərabi əxlaq məsələlərini insanın zehni keyfiyyəti, onun «ağıllılığı» ilə əlaqələndirirdi.

**İbn əl-Müqəffa – Ədu Məhəmməd Abdullah** (720–759). Ərəb filosofu, yazıçı və tərcüməçi. İslam dinini qəbul edənədək adı Ruzbeh Daduyye olmuşdur. «əd-dürrətül- yatimə» («Nadir inci»), «əl-ədəb əs-sağir» («Kiçik işlərə dair tövsiyələr»), «əl-ədəb əl-kəbir» («Böyük işlərə dair tövsiyələr») adlı əsərlərin müəllifidir. Aristotelin məntiqə dair «Kateqoriyalar», «Erminyas» və «Analitika» əsərlərini, orta fars (pəhləvi) dilindən ərəbcəyə tərcümə etmişdir. Ərəb xilafətinin İranda hökmranlığı əleyhinə çıxmışdır. Kafirlikdə təqsirləndirilərək Bəsrə hakimi Sufyan ibn Müaviyə tərəfindən vəhşicəsinə öldürülmüşdür.





**Nəzzam, ən-Nəzzam ibn Səyyar** (801–837). Ərəb filosofu, mötəzilə ilahiyyatçısı.Yunan fəlsəfəsi ənənələrini ərəb-müsəlman fikrinə tətbiq edənlərdən biri olmuşdur.

Nəzzam qədim yunan filosofu Anaksaqor (e.ə. təqr. 500–428) fəlsəfəsinin təsiri ilə öz dövrü üçün yeni olan bir sıra maraqlı ideyalar söyləmişdir: cism sonsuz sayda çoxlu hissəciklərdən ibarətdir, daim bölünəndir, dünya əbədidir, gerçəkdir, cismlər isə dəyişilməkdə, potensial vəziyyətdə mövcuddur. Hər şey hərəkətdədir, ruh maddidir və bütün orqanizm boyu yayılmışdır və s. Nəzzam fəlsəfəsindən dahi Füzuli də bəhrələnmişdir.

Əziz oxucu, burada mötəzilə haqda məlumat vermək qərarına gəldik. **Mötəzilə** (ərəbcə ayrılmış deməkdir) – erkən müsəlman ilahiyyatında rasionalist cərəyan olub, VIII əsrdə Xilafətdə yaranmışdır. Banisi Vasil ibn Əta (699–748) sayılır. Mötəzilə Quranın əzəli olmasını inkar edib, insanın iradə azadlığını qəbul edirdi. İnsan zəkasını əxlaqın yüksək meyarı sayırdı.

**Həllac Hüseyn ibn Mənsur** (858–922). Sufi mütəfəkkir. Əsərləri: «əl-Ədl və t-tayhid» («Ədalət və tövhid»), «əs-Siyasə və l-xəlifə və l-ümarə» («Siyasət, xəlifələr və əmrlər»), «İlm əl-bəqa və l-fəna» («Bəqa və fəna elmi»), «Nur ən-nur» («Nurun nuru»), «əs-Sidq və l-ixlas» («Səmimiyyət və qurtuluş») və s. O, Qurana adi bir əsər kimi baxaraq, «mən də eləsini yaza bilərəm» demişdir. O, panteizmə (aləmi Allahla eyniləşdirən fəlsəfi təlim) güclü meyil göstərib, hüluliyyə təlimini qəbul etmişdir.

**Hülulilik** («daxilolma» sözündəndir) – Allahın insanda həll olması, təcəssüm etməsi haqqında dini-fəlsəfi təlimdir. Hülulilik xürrəmilik, şiəlik, sufilik və s. cərəyanlarda özünəməxsus şəkildə təbliğ edilirdi. Bu təlimə görə Allah ardıcıl surətdə bütün peyğəmbərlərdə həll olaraq, nəhayət, bu və ya digər bir şəxsdə özünü büruzə verir. Hülulilik bəzən panteist məzmunda şərh edilirdi: «Allah-Təala hər bir məkanda mövcud-

dur, hər bir dildə danışır, bəşərin hər bir şəxsində zahirdir». Bu cəhət sufi mütəfəkkirlər üçün səciyyəvi idi. Onlar şiələrdən fərqli olaraq, ilahinin ancaq peyğəmbərlərdə, imamlarda və ya hər hansı konkret bir şəxsdə deyil, ümumiyyətlə, kamil insanda, onların təbirincə, «mən»də təcəssüm etməsi ideyasını irəl sürürdülər. Beləliklə, hüluliliyin «Mən Allaham», Mənsur Həllacın «Mən haqqam» və s. kəlamları Şərqdə panteist fəlsəfənin əsasını təşkil etmişdir.

Tarixi dəlillər göstərir ki, Mənsur Həllac tənasüxiyyə təliminə də meyil etmişdir.

**Tənasüxilik** (ərəbcə «ardıcıl keçmə», «növbələşmə», «ruhun keçməsi» sözündəndir) – bədənin məhvindən sonra ruhun ölməyib, başqa bir bədənə keçməsini iddia edən dini-fəlsəfi təlimdir. Tənasüxilik bu və ya başqa məzmunda Qədim Şərq dini-fəlsəfi fikrində, xürrəmilikdə, xüsusən şiəlikdə geniş yayılmışdı. Sokrat, Platon və neoplatonçular da tənasüxiliyin tərəfdarları olmuşlar. Şərq peripatetikləri İbn Sina, Bəhmənyar, habelə işraqilik (şəfəq, parıltı – Ön və Orta Şərqdə yayılmış fəlsəfi cərəyan) fəlsəfəsinin banisi Sihabəddin Sührəvərdi belə tənasüxiliyi inkar etmişlər. İşraqiliyin nümayəndələrindən biri olan Cəlal əd-din Dəvvani (1426–1502) isə insan cisminin məhvindən sonra onun ruhunun başqa insana, habelə heyvana, bitkiyə, hətta minerala keçməsini mümkün saymışdır.

Hörmətli oxucu, əsl mətləbdən bir qədər uzaqlaşdıq, Həllac Mənsur haqqında araşdırmamızı davam etdirək. H.Mənsurun fikrincə, kim öz nəfsini islah edərək, həzzin və şəhvətin məhrumiyyətinə dözüb, yüksək məqama, alimlik mərtəbəsinə çatarsa, İlahinin ruhu onda təcəssüm edər, bu vaxt onun bütün işi Allahın işi olar. Həllac Mənsur özünün belə bir dərəcəyə çatdığını bildirmiş, «Mən haqqam» («Ən əl-həqq») ifadəsini işlətmişdir. O, insani təbiət ilə ilahi təbiət arasında yalnız yenilik ilə əzəlilik sarıdan fərq görmüşdür. Dövrün alimlərindən, xüsusilə sufilərdən bəziləri Həllac Mənsuru kafirlikdə təqsirləndirmiş, bəziləri isə ona haqq qazandırmışlar. Görkəmli sufilərdən Əbü-l-Abbas Əzdi (?–922), İbn Xəfif Şirazi (?–982), Əbül-





qasim Nəsrabadi (?–977), Faris Dinəvəri (?–952) ona tərəfdar çıxmışlar. Nəimi və Nəsimi onun yolu ilə getmiş, özlərinin panteist təlimlərini yaratmışlar.

**Zəkəriyyə Razi** (865–925). Yaxın Şərqin ensiklopediyaçı alimi, həkim və filosof. Razi Bağdadda xəstəxanalara başçılıq etmişdi. O, qədim yunan elmini, xüsusən təbabəti və fəlsəfəni öyrənmiş, fəlsəfə, etika, ilahiyyat, məntiq, tibb, astronomiya, fizika və kimyaya aid əsərlər yazmışdır. Onun əsərləri X–XIII əsrlərdə latın dilinə tərcümə edilmiş və 61-i dövrümüzə gəlib çatmışdır. Razinin fəlsəfi görüşlərinə Platonun güclü təsiri olmuşdur. Razi bir-birindən asılı olmayan beş əbədi başlanğıcı («xaliq», «nəfs», «materiya», «zaman» və «məkan») varlıq təliminin əsası və real aləmin mövcudluğunun zəruri şərtləri hesab etmişdir. Ona görə, maddi və mənəvi başlanğıc bir-birindən asılı deyil. Razinin atomizm (materiyanın dənəvər quruluşu haqqında təlim) təliminə əsasən, atomlar bölünməz, əbədi və dəyişməz, daim hərəkətdə olan, forma və ölçüsünə görə fərqlənən ən kiçik maddi hissəciklər hesab edilirdi. Razinin təlimi Demokritin atomizm təliminə yaxındır. O, etik görüşlərində hissləri, arzuları boğmağı, ehtirası öldürməklə mənəvi cəhətdən «kamilləşməyi», «Allah adamı» olmağı təlqin edir və həm də həyat nemətlərindən əl çəkməyi, tərki-dünyalığı, səmərəli əməkdən imtina etməyi təbliğ edirdi.

**Biruni Əbu-r-Reyhan Məhəmməd ibn Əhməd əl-Biruni əl-Xarəzmi** (973–1048). Ensiklopediyaçı alim Biruni tarix, fəlsəfə, coğrafiya, təbiətşünaslıq, riyaziyyat, astronomiya, fizika, mineralogiya və s. elm sahələrinə aid 150-dən çox əsərin müəllifidir. Biruni Yerin kürəşəkilli olduğunu söyləmiş, hündür yerdən üfüq xəttinin enmə bucağını ölçərək Yer çevrəsinin uzunluğunu (41500 km) ərəb astronomlarına nisbətən daha dəqiq təyin etmişdir. Birunının fikrincə, başqa canlılardan dərrakəsinin olmasına görə fərqlənin insan iki səbəb – müxtəlif təhlükələri dəf etmək üçün bir-birinə dayaq olmaq və ictimai faydalı əmək bölgüsü naminə cəmiyyətdə birləşmişdir. Biruni sübut edirdi ki, bütün canlılar, o cümlədən insan və onun psixikası təbiətin in-

kişafının nəticəsidir. O, təbiətin hiss orqanları və məntiqi vasitələrlə dərk olunmasının mümkünlüyü fikrinə tərəfdar çıxmışdır. Biruni işğalçılıq müharibələrini pisləmiş, bütün xalqların bərabərliyi ideyasını irəli sürmüşdür. Biruninin ideya və kəşfləri orta əsr Şərq fəlsəfəsinin və təbiətşünaslığının inkişafına böyük təsir göstərmişdir. Biruni Kopernikdən 500 il əvvəl Yerin Günəş ətrafında hərəkət etməsi fikrini söyləmişdir. Onun «Mineralogiya» (rus dilində) əsərində müxtəlif mineral və qiymətli daşlar, onların mənşəyi, xarakteri, mədənləri haqqında geniş məlumat vardır. «Farmakalogiya» (rus dilində) əsərində isə 1116 dərmanın elmi izahı və müxtəlif dillərdə adları verilmişdir.

**İbn Sina, Əbu Əli Hüseyn ibn Abdullah** (980–1037). Alim, filosof, həkim, Şərq aristotelizminin nümayəndəsi. Fəlsəfədə Fərabinin davamçısı olan İbn Sina Aristotel təliminə əsaslanaraq antik fəlsəfi fikrin inkişafında mühüm rol oynamışdır. «Kitab ül-işarət və t-tənbihat» («Göstərişlər və qeydlər kitabı»), «Danişnamə» («Bilik kitabı»), «Kitab əl-insaf» («Ədalət kitabı») İbn Sinanın əsas fəlsəfi əsərləridir. Onun fikrincə, aləm maddidir və Allah kimi əbədidir. O, «Danişnamə» əsərində göstərir ki, varlığın hüdudu yoxdur. Aləmdə təbii qanunauyğunluq hökm sürür, təbiət hadisələri qarşılıqlı səbəbiyyət əlaqəsindədir. İbn Sina zəkanı maddilikdən ayırmış, «zəkalı canı» ölməz hesab etmişdir. O, elmlərin orijinal təsnifatını vermiş, onları əməli və nəzəri elmlərə ayırmışdır. Əməli elmlərə şəhərləri idarə etmək, öz evinə, ailəsinə və əmlakına münasibət məsələləri və insanın özü haqqında elm aiddir. Nəzəri elmlərə abstrakt varlıq haqqında təlim («ali» elm), riyaziyyat, astronomiya, musiqi («orta» elmlər) və dövrün bütün təbii elmi biliklərini («fizika») daxil etmişdir. İbn Sina fəlsəfə ilə dinin müstəqil mövcud olduğunu göstərmiş, fəlsəfəni insan zəkasına əsaslanan elm adlandırmışdır. O, ədalətli olmağı ən yüksək insani keyfiyyət hesab etmişdir. «Məntiq» əsərində məntiqi təfəkkürün formaları haqqında elm adlandırmışdır. Onun beş hissədən ibarət tibb ensiklopediyası, «Tibb elminin qanunu»





əsəri geniş şöhrət qazanmışdır. Həmin əsər latın dilinə tərcümə edildikdən sonra əsrlər boyu Şərqdə və Avropada tibb üzrə əsas dərslik olmuşdur.

**Bəhmənyar ibn Mərzban,** Əbülhəsən (?–1066). Azərbaycan filosofu, İbn Sinanın tələbəsi və davamçısı olmuşdur. Bəhmənyara görə hər şeyin əsasını varlıq təşkil edir. Varlığı vacib və mümkün olmaqla iki qismə ayıran Bəhmənyarın fikrincə, vacib varlıq zəruridir, mütləq mövcuddur, səbəbsizdir. Mümkün varlıq qeyri-mövcud və mövcud fərz ediləndir, onun varlığı və yoxluğu birsəbəblidir, daha doğrusu, o nəticədir. Bir sıra fəlsəfi kateqoriyalar haqqında Bəhmənyarın mülahizələri bu gün də öz elmi əhəmiyyətini saxlayır.

Bəhmənyar, hərəkət, məkan və zaman kateqoriyalarının şərhini vermiş, onların vəhdətini, bir-birindən ayrılmazlığını göstərmişdir. O, mexaniki hərəkətdən əlavə, kəmiyyət və keyfiyyət dəyişmələrinə də hərəkətin növləri kimi baxmış, hətta fikri «insan zehninin hərəkəti» adlandırmışdır. Bəhmənyar, idrakda hissi və rasional momentlərin əlaqəsinin düzgün şərhini vermiş, mövcud olan şeyin, hətta ilk səbəb və nəticənin varlığını məntiqi mühakimələr yolu ilə yəqinləşdirməyə çalışmışdır. Onun fikrincə, nəticənin dərk olunması ilk səbəbin dərk olunmasına aparıb çıxarır. Bəhmənyar məntiqdə anlayış, hökm, istiqlal və onlarla bağlı bəhsləri geniş işıqlandırmışdır. Onun Orta əsrlərdə müsəlman Şərqində fəlsəfi fikrin inkişafında böyük rol oynamış «Təhsil kitabı» («ət-Təhsil) həcminin genişliyinə və məzmununun dərinliyinə görə xüsusi yer tutur.

**Firdövsi, Firdövsi Əbülqasim** (934–1020). Farsdilli ədəbiyyatın monumental (təqribən 53 min beyt) eposu, dünya ədəbiyyatının möhtəşəm abidələrindən olan «Şahnamə»nin (976–1010) müəllifidir. O, Dəqiqinin *(bax: Şərhlər)* yarımçıq qalmış (988 beytlik) «Şahnamə»sini, müəllifini göstərməklə öz əsərinə daxil etmişdir.

«Şahnamə» bütün dünyada şöhrət qazanmışdır. Alimlər «Şahnamə»də bəhs olunan hadisələri xarakterinə görə üç hissəyə (əsatiri, qəhrəmanlıq və tarixi) ayırmışlar. Birinci hissəyə

«Avesta»dakı qədim əsatirlər daxildir. Bu hissədə İran əsatiri ilə yanaşı, Dəclə və Fərat vadisində yaşamış xalqların, eləcə də türkdilli xalqların mifoloji yaradıcılığı öz əksini tapmışdır. Epopeyanın qəhrəmanlıq bölməsi şərti olaraq, Sistan epik dastanları (Rüstəmlə bağlı dastan və hekayələr) da adlandırılır. Üçüncü hissədə Makedoniyalı İsgəndərin hakimiyyət başına gəlməsi və İranı fəth etməsindən bəhs olunur. Burada yazılı tarixi qaynaqların təsiri açıq duyulur. Xeyir ilə Şər, İşıq ilə Zülmət arasında fəlsəfi və sosial məna kəsb edən əzəli və əbədi mübarizə ideyası «Şahnamə»nin başlıca qayəsidir. Humanist şair qədim İran dini əsatirindən gələn bu ideyanı tarixi və bədii konfliktlərlə əlaqələndirmiş, Xeyir və İşıqla bağlı qüvvələrin tərəfində durmuşdur. İnsanpərvərlik, əmək adamlarına məhəbbət Firdövsi yaradıcılığında mühüm yer tutur. Firdövsi hökmdarları ədalətli olmağa, xalqın qayğısına qalmağa çağırırdı. Vətənpərvərlik «Şahnamə»nin ən səciyyəvi cəhətlərindəndir. «Şahnamə» əsrlər boyu Azərbaycanda sevilə-sevilə oxunmuşdur. Azərbaycan folklorunda «Şahnamə» qəhrəmanları, xüsusilə Rüstəm Zal ilə bağlı bir sıra əfsanə, rəvayət və nağıllar yaranmışdır. Nizami Gəncəvi «Xosrov və Şirin», «Yeddi gözəl» və «İsgəndərnamə» poemalarında «Şahnamə»dən bəhrələnmişdir. H.Cavid «Şahnamə» süjetləri əsasında «Səyavuş» faciəsini yazmışdır. Ü.Hacıbəyli «Rüstəm və Söhrab» dastanı əsasında eyniadlı opera bəstələmişdir.

**Ənsari Əbu İsmayıl Abdullah ibn Əbu Mənsur Məhəmməd Hərəvi** (1006–1088). Şair, sufi mütəfəkkir. O, «şeyx ül-islam» titulu ilə də tanınmışdır. «Zəmm əl-kəlam və əhlihi» («Kəlamı və onun tərəfdarlarını məzəmmət etmə»), «Münacat» («Gizli söhbətlər»), «Təbəqat əs-sufiyyə» («Sufilərin təbəqələri»), «Mənazil əs-sairin» («Seyr edənlərin mənzilləri») və s. fəlsəfi əsərlərin müəllifidir. Ənsari əşariləri *(bax: Şərhlər)* kəskin tənqid etmişdir.

**Qəzali Əbu Hamid Məhəmməd ibn Məhəmməd** (1059–1111). Müsəlman ilahiyyatçısı, sufizmin nümayəndəsi. Qəzali maddi aləmin əbədiliyi və qanunauyğun inkişafı ideyasına qarşı çıxmışdır. Qəzaliyə görə, dünya Allahın iradəsi sayəsində mövcud olub, zaman və məkanda məhduddur. O, sufizmi ilk dəfə ortodoksal (dönmədən riayət edən) İslam təlimi sisteminə daxil etmişdir. Qəzali sufizmi teologiya *(bax: Şərhlər)* ilə birləşdirərək intuisiyanı mütləq həqiqətin dərkində yeganə vasitə saymış, şəxsi emosional etiqada üstünlük vermiş, Allahın intuisiya ilə dərkini mümkün hesab etmişdir. Qəzali «Məqasid əl-fəlasifə» («Filosofların məqsədləri»), «Təhafüt əl-fəlasifə» («Filosofların təkzibi») və s. əsərlərində Aristotel məntiqini, fizikasını və metafizikasını şərh etmiş, Fərabi və İbn Sinanın zəka konsepsiyasına qarşı çıxmışdır. O, «İhya ülum əd-din» («Din elmlərinin dirçəlməsi») traktatında müsəlman əxlaqının geniş şərhini vermişdir. Qəzalinin fikrincə, cəmiyyət ilə insanın harmoniyası mümkün deyildir. «Hökmdarlara nəsihət» (ət-Tibr əl-məsbuk fi nəsihət əl-muluk) kitabında şahlara, məliklərə, hökmdarlara ədalət və təmizliyin əsasları tövsiyə edilir.

**Ömər Xəyyam, Qiyas əl-din Əbülfəth ibn İbrahim** (1048–1122). Fars və tacik şairi, riyaziyyatçı, filosof. O, riyaziyyata və fəlsəfəyə dair çoxlu əsərlərin, dünya şöhrəti qazanmış rübailərin müəllifidir. Şəxsiyyət azadlığı və ədalətsizliyə qarşı mübarizəyə, dünyadan kam almağa, həqiqətə, insanı zülm və əsarətdən qurtarmağa çağırış Xəyyam rübailərinin ideya məzmunudur. Fəlsəfi görüşlərinə görə İbn Sinanın ardıcılı olan Xəyyam rübailərində müsəlman ruhanilərini və dini mərasimləri ifşa etmişdi. «Varlıq və labüdlük haqqında risalə»də Allahın mövcud olub-olmaması və Peyğəmbərə (s.) sitayişin vacibliyi barədə suallara müsbət cavab verərkən, Xəyyam İbn Sinanın fəlsəfəsinə əsaslanırdı.

Ömər Xəyyamın fikrincə, mövcudluq nisbidir və iki mənada başa düşülür: şeylərdə varlıq və «ruh da mövcuddur». Bu baxış Avropada konseptualizm (latınca *konseptus* – fikir, anlayış, sxolastik fəlsəfədə cərəyan) adı ilə məşhur olmuş və orta əsr fəlsəfəsinin inkişafına təsir göstərmişdir. Fəlsəfi risalələrində Şərq aristotelizminin tərəfdarı kimi çıxış edən Xəyyamın

dünyagörüşü materialistlərlə idealistlər arasında mübarizə obyekti olmuşdur.

**Mahmud Kaşqari, Mahmud ibn əl-Huseyn ibn Məhəmməd əl-Kasqari** (XI əsr). Alim, filoloq və folklorçu. Türk dillərinin zənginliyini əks etdirən məşhur «Divani luğat it-türk» (1072–1074) əsərinin müəllifidir. 8000-ə yaxın leksik vahidi əhatə edən əsərdə 26 türk dilində nümunə verilmişdir. «Divan»ın sonuna əlavə edilən xəritə Mahmud Kaşqarinin dövründə türkdilli xalqların yaşadığı ərazilərin təsvirini verən ilk xəritədir. 1971-ci ildə «Divan»ın 900 illik yubileyi dünya miqyasında qeyd edilmişdir.

**Yusif ibn Tahir** (?–1154). Azərbaycan alimi, filoloq, filosof, təbib və astronom. Onun yalnız ərəbcə yazılmış «Tənvir» (1146) adlı əsəri zəmanəmizə gəlib çatmışdır. Bu əsərdə fəlsəfə, ilahiyyat, tibb, psixologiya, astronomiya və s. dair fikirlər öz əksini tapmışdır. Yusif ibn Tahir maddi aləmin dərk olunmasını həm hisslər, həm də təfəkkürlə bağlayırdı. Astronomiyaya dair fikirləri onun Aristotel və Ptolemeyin bu sahədəki tədqiqatları ilə tanışlığını söyləməyə əsas verir.

**Sührəvərdi Əbunnəcib Əbdülqahir ibn Abdulla** (1097–1168). Azərbaycan mütəfəkkiri, sufiliyin görkəmli nümayəndəsi Sührəvərddə *(bax: Şərhlər)* anadan olmuşdur. O, Bağdadda Nizamiyyə mədrəsəsində təhsil almış, həmin mədrəsədə dərs demiş, bir müddət (1150–1162) ona başçılıq etmişdir. Sührəvərdi sufiliyin mötədil qoluna mənsub olmuşdur. Onun fikrincə, təsəvvüf şəriətdən başlayıb təriqətdən keçərək həqiqətdə sona yetir. Birinci mərhələ elm, ikinci mərhələ əməl, üçüncü mərhələ isə ilahi vergi ilə səciyyələnir.

**Sührəvərdi Əbülfütuh Yəhya ibn Həbəş** (1154–1191). Azərbaycan filosofu, işraqiliyin banisi, şair.

İşraqiliyin əsasını Şihabəddin Sührəvəndi *(bax: Şərhlər)* qoymuşdur. Dünya miqyaslı alim Ağşəmsəddinin atası Həmzə filosof Şihabəddin Sührəvərdinin soyundandır Bu haqda «İblis xislətli erməni» kitabında (Bakı, 2009, s. 60–62) hərtərəfli məlumat verilmişdir.





İşraqilik ontologiyasına görə «işıq» («ən-nur») anlayışı geniş məzmuna malikdir və öz-özlüyündə aşkar sayıldığı üçün heç bir təriflə ifadə edilə bilməz. Qaranlıq («əz-zülmə») anlayışı işığın yoxluğunu göstərir. İşraqilik fəlsəfəsinin kosmologiyasında mövcudat silsiləsinin ən ali zirvəsində «işıqlar işığı» (nur əl-ənvar) durur. «İşıqlar işığı»nın vücuda gətirdiyi ilk varlıq isə vahid mücərrəd işıqdır. Bu işıq «Avesta»dan götürülmüş «xürrə» termini ilə ifadə olunur. İşraqilik fəlsəfəsində maddi aləm qaranlıqlar, kölgələr dünyası hesab edilir. İşıqlar silsiləsində ən yaxın işıqdan başlamış son mücərrəd işığa qədər hər bir işığın kölgəsi vardır. Yalnız işığın varlığını əsas götürüb, maddi aləm təşkil edən kölgələri mahiyyətcə yoxluq adlandıran işraqilər platonizmə yaxınlaşmışlar.

İşraqiliyə görə, kölgələr işıqlarla yanaşı daimi mövcuddur. İnsan nəfsi işıqlar silsiləsinə keçərək mücərrəd işıqlar aləminə yetişir. İşraqilər idrakla hissi, əqli və intuitiv mərhələləri fərqləndirir, sufilər kimi mütləq həqiqəti dərk etmək üçün bu dünyadan təcrid olunmağı təbliğ edir, sufilərdən fərqli olaraq açıq idealizm cəbhəsində dururdular. Əbülfütuh Yəhya Aristotelin təliminə yaradıcı yanaşaraq, fəlsəfi kateqoriyaların yeni təsnifatını vermişdir. O, substansiya, kəmiyyət, keyfiyyət, nisbət və hərəkətə müstəqil kateqoriyalar kimi baxmış, zaman, məkan, mülkiyyət, vəziyyət, təsir və təsirlənmə kateqoriyalarını isə nisbət kateqoriyası tərkibinə daxil etmişdir. Əbülfütuh Yəhya kitablarında orijinal bir təlim olan işraqiliyin əsaslarını işləyib hazırlamışdır. İşraqiliyə görə bütün mövcudat mütləq vahid işıqdan emanasiya (axma) yolu ilə meydana çıxmış işıqlardan və onların kölgələrindən ibarətdir.

Əbülfütuh Yəhya ictimai bərabərlik ideyasını təbliğ edir, lakin feodal zülmünün hökm sürdüyü dövrdə bunun mümkün olmadığını anlayır, həqiqi xoşbəxtliyə işıqlar aləmində yetişiləcəyinə ümid bəsləyirdi. O, İslam ideoloqlarının təqibinə məruz qalmış, dinsizlik və etiqad pozğunluğu üstündə təqsirləndirilib, 37 yaşında edam edilmişdir. Tarixdə «Öldürülmüş filosof» adı ilə məşhurdur.

**Sührəvərdi Şihabəddin Əbuhəfs Ömər ibn Məhəmməd** (1145–1234). Azərbaycan mütəfəkkiri, görkəmli sufi filosofudur. Bağdadda baş şeyx olan Şihabəddin Sührəvərdi Xilafətin ictimai-siyasi həyatında fəal iştirak etmişdir. Onun əsərlərində sufilərin əxlaq normalarının, mənəvi keyfiyyətlərinin, davranış qaydalarının müfəssəl şərhi verilmişdir. Şihabəddin Sührəvərdiyə görə, insan mənəviyyatını kamilləşdirdikdə Haqqa yaxınlaşır. O, insan ilə Allahın vəhdətini, eyniyyətini qəbul edən panteist (aləmi Allahla eyniləşdirən fəlsəfi təlim) baxışları rədd etmişdir. O, sufiliyin monoteist sistemini yaratmış, sufilərin psixologiyasını, ruha dair baxışlarını ümumiləşdirmişdir.

**İbn Bəcca, Əbu Bəkr Məhəmməd ibn Yəhya** (1070–1139). Ərəb filosofu, Şərq aristotelizminin ilk böyük nümayəndəsidir. O, Aristotelin fizika və meteorologiyaya dair əsərlərini şərh etmiş, özü isə fəlsəfə, fizika, riyaziyyat, astronomiya, musiqi və tibbə dair risalələr yazmışdır. «Tənha adamın tədbiri», yaxud «Zahidin həyat tərzi» əsərində elm və fəlsəfəni müdafiə etmişdir.

**İbn Rüşd, İbn Rəşd Əbu-l-Valid Məhəmməd ibn Əhməd** (1126–1198). Ərəb filosofu və həkimi. Şərq aristotelizminin son görkəmli nümayəndələrindən biri. Onun əsərlərinin əksəriyyəti Aristotelin əsərlərinə yazdığı şərhlərdir. İbn Rüşd şərhlərində Aristotel fəlsəfəsinin materialist ünsürlərini inkişaf etdirmiş, materiya və hərəkətin əbədiliyi fikrini söyləmiş, axirət dünyasını inkar etmişdir. Onun rasional din (bir qrup savadlılara müyəssər olan) və obrazlı alleqorik din (hamıya müyəssər olan) haqqında fikirləri ikili həqiqət nəzəriyyəsinin mənbələrindən olmuşdur. İbn Rüsdün fikrincə, Allah materiya ilə eyni zamanda yaranmışdır, hərəkət də ilkin materiya kimi əbədi və məhvedilməzdir; maddi aləm zamanda sonsuz, məkanda məhduddur; zamanın ölçüsü hərəkət sayəsində mümkündür. İbn Rüşd əxlaq sahəsində asketizmi rədd etmiş, insanın kamilləşməsində elmi-fəlsəfi idraka üstünlük vermişdir.

İbn Rüşd ədalətli cəmiyyət arzu etmiş, qadınların qul edilməsinə qarşı çıxmış, onların dövlət işlərində tamhüquqlu iştirakı fikrini irəli sürmüşdür. İctimai ideallan Platonun «Dövlət əsəri» ruhunda olmuşdur. İbn Rüşd «Mümkün olan zəka» əsərində göstərir ki, məntiqin vəzifəsi duyğular vasitəsilə əldə edilmiş məlumatlardan bilavasitə hissi məlumatlarla əlaqəsi olmayan həqiqətin dərkinə keçmək yollarını öyrənməkdir. Onun Aristotelin əsərlərinə yazdığı şərhlər avropalı filosoflara antik fəlsəfənin tanıtdırılmasında böyük rol oynamışdır.

**İbn Tüfeyl–Əbu Bəkr Məhəmməd ibn Əbd ül-Malik** (1110–1185). Ərəb filosofu. Ərəb fəlsəfəsində rasionalizmin nümayəndəsi İbn Tüfeylə görə, zəka yalnız mənsəb sahiblərinə məxsusdur, xalqı isə ortodoksal din ruhunda tərbiyə etmək lazımdır.

**Əcəmi Əbubəkr oğlu Naxçıvani** (XII əsrin 20-ci illəri – XII əsrin sonu). Orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. Yaradıcılığının Yaxın Şərq ölkələri memarlığına böyük təsiri olmuşdur. Əcəminin yaradıcılığı XII əsr Azərbaycan mədəniyyəti və ictimai fikrindəki intibahın parlaq təzahürlərindəndir. Onun ornament kompozisiyaları bədiiliklə riyazi təfəkkürün üzvi birləşməsinə əsaslanır. Əcəmi yüksək mühəndislik qabiliyyətinə malik olmuşdur. Onun bu qabiliyyəti Qərbi Avropa memarlarından bir əsr əvvəl Möminə xatun türbəsinin sərdabəsində qurduğu tağlar sistemində və onun oturacağındakı mürəkkəb ornamentlərin əvvəlcədən hazırlanmış tavalar şəklində tərtibində, Cümə məscidinin nəhəng günbəzində və qoşa minarələrdə özünü göstərir. 1976-cı ildə Əcəminin anadan olmasının 850 illiyi geniş qeyd edilmişdir.

**Xaqani Şirvani, Əfzələddin İbrahim ibn Əli Nəccar Şirvani** (1126–1199). Azərbaycan şairi və mütəfəkkiri. Xaqani klassik Şərq poeziyasının bütün janrlarında yüksək sənətkarlıq nümunələri yaratmışdır. O, Yaxın Şərq ədəbiyyatı tarixində epik poeziyanın ilk görkəmli nümunələrindən hesab edilən «Töhfət ül-İraqeyn» (1157) adlı məsnəvisini yazmışdır. «Mədain xərabələri» adlı məşhur fəlsəfi qəsidəsində tarixdə adil qələmə verilən

Sasani şahlarının xaraba qalmış «Tağı-Kəsra» adlı sarayının timsalında zülm ilə şöhrətlənmiş sarayların viran olacağı fikrini irəli sürmüş, müasirlərini bu xaraba qalmış saraydan ibrət dərsi almağa çağırmışdır. «Qəsideyi-şiniyyə» adlı qəsidəsində şair insan ləyaqətini, mərdliyi, yaradıcı əməyi yüksək qiymətləndirmişdir. Xaqani Şirvaninin lirik əsərləri, xüsusilə insan mənəviyyatını yüksəldən saf eşqi, məhəbbəti, vəfa və sədaqəti tərənnüm edən qəzəlləri diqqətə layiqdir. Onun qitə və rübailəri şairin daxili həyəcanlarını, ictimai mühitə münasibətini dərk etmək baxımından müstəsna əhəmiyyətə malikdir.

**Əbd ül-Üla Gəncəvi, əsl adı Mahmud Nizaməddin** (XII əsr). Azərbaycan şairi. 44 yaşında Şirvanşahlar sarayına gəlmiş, sarayda böyük nüfuz qazanaraq «Məlik üş şüara» adı almışdır. Əbd ül-Üla Gəncəvi Azərbaycan ədəbiyyatında ictimai-fəlsəfi şeirin ilk nümunələrini yaratmışdır. Xaqanini Şirvanşah Əbülhica Manuçöhrə təqdim edən, ona «Xaqani» təxəllüsü verən Əbd ül-Üla Gəncəvi olmuşdur. O, Xaqaninin qayınatası idi.

**Təbrizi Əbu Səid** (XI əsrin sonu – XII əsrin əvvəli). Azərbaycan filosofu. Əqli yetkinlik, səxavət və təvazökarlığı yüksək qiymətləndirmiş, bunların əksini pisləmişdir: «Varlı o kəsdir ki, acgözlük buxovunda əsir deyildir»; «Dostlarla lovğa davranan adam onların səmimi məhəbbətinin qazana bilməz»; «Birisi tərəfindən təriflədikdə vəcdə gəlib sevinən şəxs, özü-özünü tərifləmiş kimidir»; «Malik olmadığın keyfiyyətə görə səni tərifləsələr, elə salmış olarlar» və s.

**Nizami Gəncəvi, əsl adı İlyas Yusif oğlu** (1141–1209). Dahi Azərbaycan şairi və mütəfəkkiri.

Orta əsrlərin qaynaqlarında belə bir əhvalat qorunub saxlanmışdır. «Bir gün farsdilli Şərq şeirinin son böyük klassiki Əbdürrəhman Camiyə, sonralar istedadlı şair kimi tanınacaq, hələliksə sənətdə yolunu yenicə başlayan bacısı oğlu Hatifi, Nizamiyə nəzirə-bənzətmə yazmaq istədiyini bildirir. Cami ona məsləhət görür ki, əvvəlcə Firdövsiyə, Sədiyə, Ənvəriyə nəzirə yazsın, əgər bir şey çıxsa, sonra Nizamiyə müraciət etsin. Hatifinin «niyə» sualına Cami bədahətən dediyi bir beytlə cavab verir:

Şeir aləminin olubdur üç peyğəmbəri:<br>Firdövsi, Sədi, biri də Ənvəri.

– Axı burada heç Nizaminin adı çəkilməmişdir?

Cami gülümsünür: «Onlar şeirin peyğəmbəridirlər, Nizami isə şeirin Allahıdır.» (Dünya ədəbiyyatı kitabxanası, Bakı, 1987, s. 5-6)





Nizaminin yazdığı poemaları «Xəmsə» («Beşlik») adı altında birləşdirməyi şairin özü yox, onun ardıcılları ediblər. Həm də haqlı ediblər. Müxtəlif illərdə qələmə alınmış, müxtəlif mövzulu, müxtəlif məzmunlu bu əsərlər bir-biri ilə qırılmaz tellərlə bağlıdır. «Sirlər xəzinəsi» də, «Xosrov və Şirin» də, «Leyli və Məcnun» da, «Yeddi gözəl» də, «İsgəndərnamə» də əslində dünya və yaradılış, insan və onun daxili aləminin sirləri, müəmmaları, bilməcələri haqqında saysız-hesabsız kəşflər ilə həqiqətlərin qovuşduğu zəngin xəzinədir.

Nizami Gəncəvi sufizmə rəğbətlə yanaşmış, sufiləri ürəkdən xəbərdar olan adamlar kimi təqdim etmişdir. O, «Sirlər xəzinəsi» əsərində müxtəlif xarakterlərə malik sufi surətləri yaratmışdır.

Məhəbbət mövzusunun Şərq ədəbiyyatında geniş yayılaraq ictimai-bəşəri ideallarla, humanist məzmunla zənginləşməsində Nizami Gəncəvi poemalarının mühüm rolu olmuşdur. Nizami Gəncəvi Şərq ədəbiyyatında ilk dəfə məhəbbəti fəlsəfi mənada şərh edərək, nəcib məhəbbət konsepsiyasını yaratmış, onu insan azadlığı, vicdan azadlığı və mənəvi təkamül problemləri ilə bağlamışdır. O, Yaxın Şərq ədəbiyyatında ilk dəfə müsbət qadın surəti yaratmışdır.

Yaradıcılığının zirvəsi olan «İsgəndərnamə»də şair əvvəlki əsərlərində qoyduğu mühüm ictimai-siyasi və fəlsəfi fikirlərini yüksək sənət dili ilə ifadə etmişdir. Nizami Gəncəvi ideallaşdırdığı İsgəndəri xalq hakimiyyətinin bərqərar olduğu cəmiyyətlə qarşılaşdırır və onun öz dili ilə belə bir cəmiyyətin üstünlüyünü təsdiq edir.

Qədim İran mənbələrində amansız fateh, Əhəmənilər sülaləsinin qatı düşməni kimi təcəssüm edilən İsgəndər, Nizami dövründə bir çox yazılı abidələrdə ədalətli hakim, elmə, biliyə yüksək qiymət verən müsbət qəhrəman kimi təsvir olunubdur. İsgəndər surətinin belə müsbət dəyişməsinin səbəbi, «Qurani-Kərim»də onun peyğəmbər dərəcəsinə qaldırılması ola bilərdi. Güman etmək olar ki, məhz buna görə dahi Nizami öz humanist və elmi fikirlərini yekunlaşdırmaq üçün bu tarixi faktlara müraciət etmişdir. Belə ki, əl-Kəhf surəsinin, 84-98 ayələri (14 ayə) məhz Zülqərneyn barəsindədir.

«Biz onu yer üzərində möhkəmləndirib qüvvətləndirdik və hər şey verdik (hər şeyin yolunu ona öyrətdik). O, (məğribə çatmaq üçün) yola çıxdı. (Tövbə qapısı məğribdə olduğuna görə səfərini oradan başladı).» (ayə 84-85) «Sonra o, başqa bir yola (məşriqə) tərəf üz tutub getdi.» (ayə 89) «Nəhayət, Günəşin çıxdığı yerə çatdıqda onu bir qövm üzərinə doğan gördü ki, onlardan ötrü ona (Günəşə) qarşı heç bir sipər yaratmamışdıq. (Yalnız Günəşin özü onlar üçün sipər idi). (Zülqərneynin qüdrət və səltənəti, səyahəti) belə idi. Biz hələ onun yanında daha nələr olduğunu da bilirik. (Zülqərneynin qüdrətini, nə qədər əsgərlə səfərə çıxdığını Allahdan başqa heç kəs dəqiq bilməz). Daha sonra o (Zülqərneyn) başqa bir yola (cənubdan şimala) üz tutub getdi.» (ayə 90–92)

Beləliklə, dahi sənətkar, İsgəndərin timsalında adil padşah obrazı yaradır, xəyalında bəslədiyi gələcək azad cəmiyyət haqqında öz utopik təsəvvürlərini verir. Məhz bu səbəbdən Nizami Gəncəvini «utopik sosializm»in banilərindən biri kimi qəbul etmək olar.

Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. O, irqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edirdi. Onun qəhrəmanları milli və dini təəssübdən uzaq olub, ədalət, xalq xoşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə edirdilər.

Nizami Gəncəvi Şərq ədəbiyyatında ilk dəfə olaraq, əməyi insanı bütün başqa canlılardan fərqləndirən həyati tələbat kimi





tərənnüm etmişdir. O, insan zəkasının qüdrətinə dərin inam bəsləmiş, əsərlərində elmin fəzilətindən dönə-dönə bəhs etmişdir. Şair insanın əxlaqi gözəlliyinə xüsusi qiymət vermiş, kamil insanın ancaq zahiri əlamətləri ilə deyil, mənəvi gözəllikləri ilə də seçildiyini qeyd etmişdir.

Hörmətli oxucu, gələcək bölmələrdə mütəmadi olaraq Nizami dühasına müraciət edəcəyik.

**Razi Fəxrəddin Əbu Abdulla Məhəmməd ibn Ömər ibn Xətib** (1148–1209). İran mütəfəkkiri. Qəzalinin davamçısı olmuş, ortodoksal İslamı müdafiə etmişdir. O, Platonun nəfs konsepsiyasına əsasən iddia edirdi ki, insan öldükdən sonra nəfsi ölmür, başqa şəxsə keçir. Razi, Qəzalidən fərqli olaraq, həqiqətin dərk edilməsində ağlın qüvvəsinə böyük əhəmiyyət verir, lakin əqli idrakı hissi qavrayışdan təcrid edirdi.

**İbn əl-Əsir, İzəddin Əbu-l-Həsən Əli ibn Məhəmməd ibn əl-Əsir** (1160–1233). Ərəb tarixçisi. 12 cildlik «əl-Kamil, fi-t-tarix» («Mükəmməl tarix») əsərinin müəllifidir. Təbəri, İbn Misqəveyh, Səllami və b. ərəb müəlliflərinin əsərlərindən istifadə edərək və şəxsi müşahidələri əsasında yazdığı bu əsərdə ən qədim dövrlərdən 1231-ci ilədək baş vermiş hadisələrdən bəhs olunur. Əsərdə Azərbaycanın ictimai-iqtisadi, siyasi və mədəni həyatına dair (ərəblərin Azərbaycanı işğal etmələri, Babək hərəkatı, Sacilər sülaləsi, rusların Bərdəyə hücumu, Səlcuqilərin Azərbaycanı tutması, Eldəgəzlər dövləti, Xarəzmşah Cəlal əddinin və monqolların Azərbaycanı işğal etmələri, azərbaycanlıların işğalçılara qarşı müqaviməti, gürcü feodallarının Azərbaycana basqınları, Şirvanşahlar dövləti və s.) zəngin məlumatlar verilir.

**İbn əl-Ərəbi, Mühyəddin Məhəmməd ibn Əli** (1165-1240). Ərəb şairi, sufi filosof. İbn əl-Ərəbinin dünyagörüşü panteist məzmun daşıyıb. Ona görə, «məxluqatın varlığı Allahdır, məxluqatın varlığı xaliqin varlığının eynidir».

**İbn Yunis, Kəmaləddin Musa** (1156–1242). Şərq filosofu, riyaziyyatçı. O, Əbhəri Əsirəddin, Siracəddin Urməvi, Nəsirəddin Tusi və b. alimlərin müəllimi olmuşdur. Fəlsəfədə Şərq

peripatetizminin tərəfdarı idi.

**Məymun, əsl adı Moşeben Maymen Əbu İmran Musa bin Məymun ibn Abdullah əl-Qürtubi** (1135–1204). Yəhudi filosofu, məntiqçi. Əsərlərini ərəb dilində yazmışdır. Fəlsəfi görüşlərinin əsasında ərəb mütəfəkkirlərinin təfsir etdikləri aristotelizm durur. O, din ilə fəlsəfənin sintezinə cəhd göstərmiş, təbii qanunauyğunluğu dərk etməyə, fəlsəfəni və elmləri öyrənməyə çağırmışdır. İbn Məymunun «Məntiq» əsərində məntiqi sübutolunmaz həqiqətlər haqqında təlim mühüm yer tutur. Yaradıcı həyatının əsas hissəsini Azərbaycanda – Marağa və Təbrizdə yaşamışdır.

**Nəsirəddin Tusi Məhəmməd ibn Həsən** (1201–1274). Azərbaycanın ensiklopediyaçı alimi, filosof və dövlət xadimi. Müəllimləri Bəhmənyar və İbn Sina məktəbinə mənsub alimlər olmuşlar. N.Tusinin dahiliyi aşağıdakı məlumatlardan bəlli olur:

1. Nəsirəddin Tusinin verdiyi ədəd anlayışı müasir təsəvvürə uyğun gəlir və o bu sahədə Avropa riyaziyyatçılarını 400 il qabaqlamışdır.

2. Nəsirəddin Tusi planetlərin geosentrik orbitinin əsas elementlərini təsvir etmiş, onların sutkalıq orta hərəkəti öz dövrünə və hətta XVII əsr astronomiya müşahidələrinə nisbətən daha dəqiq təyin edilmişdir.

3. Nəsirəddin Tusinin rəhbərliyi ilə Yerin fırlanma oxunun illik presessiyasının qiyməti 51"4 tapılmışdır (müasir qiyməti 51"2).

4. Nəsirəddin Tusi fizikaya dair əsərlərində təbiətdə maddənin saxlanması və çevrilməsi haqqında ilk fikir söyləmişdir.

5. Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri» əsəri Ön və Orta Şərq məktəblərində əsrlər boyu əxlaq dərsliyi kimi şöhrət tapmışdır. İndi də bəzi orta məktəb proqramlarında bu məqsəd üçün ona müəyyən yer verilir və s.

6. Nəsirəddin Tusi Bağdada səfəri zamanı vəfat etmiş, «Cəlil Məscid»də dəfn edilmiş, qəbrinin üstündə «Elmin köməkçisi, elm ölkələsinin şahı, dövr anası belə oğul hələ doğmamışdır» yazılmışdır. Nəsirəddin Tusi Şərqdə filosof kimi də





şöhrət tapmışdır. Onun fəlsəfi görüşləri Bəhmənyarın təsiri ilə formalaşmışdır. Nəsirəddin Tusi «İbn Sinanın fəlsəfəsi və məntiqinə şərhlər», «Səhifələrində ər-Razinin qeydləri» («Şərh ul-İşarət»), «Teologiya və metafizikaya dair risalə» («Təcrid əl-kəlam»), «Əxlaqi-Nasiri», «Alicənab insanların xarakterləri və keyfiyyətləri» («Ausaf-ul-Əşrəf») və b. əsərlərində İbn Sinanın fəlsəfi görüşlərini şərh etmişdir. O, materiyanın məhvedilməzliyi, dünyanın dərkinin mümkünlüyü barədə fikirlər söyləmiş, elmlərin təsnifatına və Kainatın dərk edilməsinə dair bir sıra dialektik tərifi izah etmişdir. Nəsirəddin Tusinin ictimai-siyasi və hüquqi görüşlərində «dövlət» anlayışı mühüm yer tutur.

Həmin anlayışların Nəsirəddin Tusi yaradıcılığındakı təsiri, mütəfəkkirin Azərbaycanın siyasi fikir tarixində ilk dövlət nəzəriyyəçisi olduğunu söyləməyə əsas verir. «Maliyyə haqqında» risaləsində irəli sürülən ən mühüm müddəalar sonralar bir sıra orta əsr dövlətlərinin qanunlarının əsasını təşkil etmişdir.

**Səfiəddin Urməvi, Səfiəddin Əbdülmömin ibn Yusif ibn Faxir əl-Urməvi** (1230–1294). Azərbaycan musiqişünası, musiqi ifaçısı, bəstəkar, xəttat, filosof. S.Urməvinin yaradıcılığı Ön və Orta Şərq xalqları musiqisinin inkişafında yeni dövrün başlanğıcıdır. Bütün Şərq, eləcə də şifahi ənənəyə malik Azərbaycan professional musiqisinin əsasını təşkil edən səs kompleksinin sistemləşdirməsi S.Urməvinin musiqi nəzəriyyəsi sahəsində mühüm nailiyyətidir. Şərqdə, eləcə də Qərbi Avropada ilk mükəmməl not yazısının yaradıcısı məhz Səfiəddin Urməvi olmuşdur. S.Urməvinin risalələrində onun sələflərini (Fərabi, İbn Sina) maraqlandıran bir çox ümumi nəzəri məsələlər araşdırılmışdır.

**Sədi Şirazi, Müslihəddin Əbu Məhəmməd Əbdüllah ibn Müşrifəddin** (1203–1292). Fars şairi, mütəfəkkir. Gənc yaşlarında Məkkəyə həcc ziyarətinə getmiş, bundan sonra dərviş libasında Ön və Orta Şərq ölkələrini diyar-diyar gəzib-dolaşmış, Azərbaycan, Kiçik Asiya, Həbəşistan, Misir, Suriya, Fələstin, Hindistan, İran, Hind okeanı, Aralıq dənizini ticarət gəmilərində keçmişdir. Buna görə də bəzi mənbələr Sədini, eyni za-

manda orta əsrin böyük səyyahlarından biri hesab etmişlər.

Vətənini sonsuz məhəbbətlə sevən və onun həsrətində olan şair yazırdı: «Mən istərdim ki, Bəsrədə və ya Bağdadda qalım, lakin Ruknabad suyu və Şiraz torpağı məni özünə tərəf çəkir».

Sədinin səyahət illərində qazandığı böyük həyat təcrübəsi yaradıcılığının zirvəsi olan məşhur «Bustan» (ilk adı «Sədinamə», 1257) və «Gülüstan» (1258) əsərlərində yüksək bədii inikasını tapmışdır. Sədi «Gülüstan»ı həm şeir, həm də nəsrlə yazmışdır. Kiçik hikmətamiz, ibrətli hekayə, rəvayət və lətifələrdən ibarət olan bu nəsr parçaları ilə Sədi, klassik fars ədəbi-bədii nəsrinin əsasını qoymuşdur. Sədinin bu əsərləri yeddi əsrə yaxın br müddətdə dünyanın bütün mədəni xalqları tərəfindən sevilir və oxunur. Onun «Gülüstan» əsəri dünyada fars dilini öyrənənlərin ilk dərs kitabı olmuşdur. Məşhur hind şairi Həsən Dəhləvi «Gülüstan» əsəri haqqında yazmışdır: «Həsən Sədinin «Gülüstan»ından bir gül dərib gətirmişdir. Çünki məna əhli ancaq bu «Gülüstan»dan gül dərər.»

Şahlardan birisi Sədidən ona dua etməsini xahiş etdikdə, o demişdir: «Öz xalqına qarşı ədalətli ol ki, düşməndən xilas olasan». Sədi deyir: «Bir məsələni ki, sülh ilə həll etmək mümkündür, onu müharibə yolu ilə həll etmək ağılsızlıqdır». Bu fikir müasir dövrdə də öz əhəmiyyətini itirməmişdir. Sədi öz əsərlərində insanpərvərliyi, xəlqiliyi, birliyi, qardaşlığı və s. təbliğ etmişdir. Sədi bilik və ləyaqətə, elmə, sənətə qiymət verən dahi sair idi. Sədi deyir:

Biliyin olsa da birümman qədər,
Nadansan əməlin olmasa əgər.
Eşşəyə yükləsən bir neçə kitab,
Nə alim olar o, nə də süxənvər.
Başı boş o yazıq heyvan nə bilsin,
Dalında odundur, ya kitab-dəftər.

Sədi deyirdi ki, düz sözdən, şirin dildən daha təsirli bir vasitə ola bilməz.





Kimin olsa əgər bir şirin dili,
Tük ilə çəkər o, dalınca fili.

Əziz oxucu, gələcək araşdırmalarımızda dahi Sədi kəlamlarına mütəmadi müraciət edəcəyik.

**Yunus Əmrə** (1240–1320). «İnsan qəlbinin çırpıntılarını bütün etirazı ilə sazının tellərində dilləndirən, misralarında ünləşdirən ilk türkiyə şairi Yunus Əmrədir. Türk dilinin ilk böyük zəfəri bu ulu ozanın adıyla bağlıdır. Yunus Əmrə Anadoluda yaşamış bir türkmən dərvişidir.» (Yunus Əmrə, Aşiq Veysəl, «İki zirvə», tərtib edəni və çevirəni Məmməd Aslan, Bakı, 1982, s. 11)

Elm aləmi onun harada doğulduğu, təhsil aldığı və dünyadan köçdüyü yer haqqında, hələ ki, inandırıcı bir nəticə əldə edə bilməyib.

Türkiyədə bir çox kənddə, şəhərdə müqəddəs sayılan 9 məzarı vardır. Yazıçı Məmməd Aslanın təbirincə desək: «Bir cism, doqquz məzar! Ululuğun doğurduğu heyrət! Hər şəhər, hətta hər kənd əhli Yunusun öz torpaqlarında gömülmüş olmasını istəmiş, onu özündən saymış və bağrında ona layiq bir məzar hazırlamışdır, hər məchul məzarı Yunusun torpağa basılmış əbədiyyət möhürüdür.»

Hörmətli oxucu! Yunus Əmrə yaradıcılığı ilə tanışlıqdan, imkanımız daxilində araşdırmadan sonra belə qərara gəldik ki, onu unudulmaz şairimiz Bəxtiyar Vahabzadə qədər sevən, onu duyan və qiymətləndirən az olar. Bəxtiyar Vahabzadənin Yunus Əmrə sevgisinin bəzi məqamlarını sizə təqdim etmək qərarına gəldik:

Mən dünyadan gedər oldum,
Qalanlara salam olsun.

Bu öz «mən»indən yuxarı qalxan, özünü gələcək nəsillərin varlığında tapan, özünə deyil, bütün bəşəriyyətə güvənən böyük bir insanın, həm də mərifətin sözüdür. Bütün bəşəriyyət

bu cür düşünsəydi, yaşamaq nə qədər gözəl və nə qədər asan olardı...

Nə qədər ki, yer üzündə xeyirxahlıq, insanlıq, həqiqət və mərifət, gözəllik və nəciblik var, Yunus Əmrə də var. Nə qədər ki, insanı ucaldan bu gözəl insani keyfiyyətləri başa düşüb dəyərləndirmək var, Yunus Əmrə də var.

O, həyatı sevdi, amma ölümdən qorxmadı, çünki ölümdə həyatın ölməzliyini tapdı, həyatın yeniləşməsini gördü. Çünki həqiqəti və mərifəti – dinlər dini, şəriət və təriqəti isə yalnız o ulu dinə gedən yol hesab etdi.

Şəriət, təriqət yoldur – gedənə,
Həqiqət, mərifət ondan içəri.

Budur, böyük türk ozanı, dədələr dədəsi, müdriklər müdriki, ağsaçlı Yunus Əmrənin fəlsəfəsi, həyat qayəsi!

Həqiqəti və mərifəti həyat qayəsi seçən bu dədə şair «Bir mən vardır məndə, məndən içəri» dediyi zaman nəyi nəzərdə tuturdu? «Mən»indən içəridə olan o «mən» nəymiş görəsən?

– Həqiqət və mərifət!

Həqiqəti və mərifəti, onu əhatə edən ətraf mühitdə, yəni cəmiyyətdə tapa bilməyənlər həmişə öz içlərinə qapılmış, axtardığını könül dünyasında, xəyal aləmində gəzməyə başlamışlar. Özlərini mühitə, cəmiyyətə uyğunlaşdırmağı bacarmayan, əslində istəməyən fikir adamları öz içində yaratdığı xəyali həqiqət dünyası ilə təskinlik tapırlar.

Ulu şair cənnət və cəhənnəmin, dörd müqəddəs din kitabının mənasını insanın özündə tapır, insanı bunların hamısının fövqündə görür. Bu mənadan və bu hikmətdən xəbərsizlər həyat qovşağında öz «mən»ini irəli çəkir, başqasını düşünmür, daha çox malik olmağa can atır. Lakin hardasa qəlbinin dərinliyində bir səs ona haqsız olduğunu deyir. Bax, bu səs, Yunus dili ilə deyəcək olsaq, «mən»dən içəridəki «mən»in səsi, yəni həqiqət və mərifətin səsidir.

Yunus həmişə görünən «mən»inin dili ilə deyil, gözə görünməyən içəridəki «mən»inin – yəni həqiqətin və mərifətin dili ilə danışıb, bizi də özü kimi düşünüb, özü kimi hikmət dili ilə danışmağa çağırıb. Buna görə də biz ona «həqiqət və mərifət nəğməkarı» desək, onun ulular cərgəsindəki yerini daha sərrast təyin etmiş olarıq.





**Mövlana Cəlaləddin Rumi, Cəlaləddin Məhəmməd bin Bəhaəddin** (1207–1273). Xarəzm türklərindəndir, Bəlx şəhərində anadan olmuş, uşaqlıq illərində atası Bəhaəddin Vələdlə birlikdə Kiçik Asiyaya köçərək Konya şəhərini özlərinə vətən seçmişlər. O, Şərq ədəbiyyatı tarixində üç dildə (türk, fars, ərəb) şeir yazmışdır. Rumi bir sıra fəlsəfi əsərlərin müəllifidir. Lakin dünya ədəbiyyatı tarixində Rumiyə ömrünün son illərində yazdığı «Məsnəviye-mənəviye-Mouləvi» («Mövləvinin mənəviyyat məsnəviləri», sonralar «Məsnəvi» adı ilə məşhurlaşmışdır) poeması böyük şöhrət qazandırmışdır. Bu əsərdə Rumi özünün dini-fəlsəfi görüşlərinin şərhini vermişdir.

Yazıçı Məmməd Aslan, Mövlana Cəlaləddin Ruminin mənəvi işığına nəzər salaraq yazır: «Mövlana həm ürəkdir, həm o ürəyə çırpınış gətirən qızıl qan. Ruhumuza yavanlıq gətirən, düşüncəmizin çevrəsini üfüqlərin öhdəsinə gərən sirdir, sehrdir! Hər şeydən əvvəl, özünun sənət möcüzələrini kəsərdən düşməyə qoymayan əvəzsiz bir sərrafdır Həzrəti Mövlana!!! »

«Bir neçə il əvvəl «Türk ədəbiyyatı» dərgisindən bir ibrətli yazı oxumuşdum: adını unutduğum fransız türkoloq qadın bir bəşər övladı kimi mənəvi yöndə itirdiklərimizin fərqinə üzülürcəsinə vararaq Konyaya-Mövlana dərgahına gəlişində sonsuz kövrəklik içində təxminən belə deyirdi: «Biz avropalılar maddənin arxasınca getdik, ölümü tapdıq; siz mənanın arxasınca gedib iman tapdınız! Bu imanı itirməyin ki, biz avropalılar bir gün naçarlıqdan əlləri bomboş qalıb qapınıza məna «diləməyə» gələndə əlinizdə-ovcunuzda bir şey qalmış olsun ki, bizi də naümid şəkildə geri qaytarmayasınız.... İnsanın insan kimi yaşamasına bəşər övladı həmişə həsəd aparıb. Yaşantının o ulu mərtəbəsinin ideal iqlimidir Mövlananın Loğman nəfəsi!» (Osman Nuri Topbaş, Abi-həyat qətrələri, Bakı, 2007, s.7-

8)

Həzrət Mövlana təkrarsız və bənzərsiz «Məsnəvi»sində insan ruhunun dərinliklərinə zirvədən böyük ustalıqla enməyi bacarmış, onun əsas mənasını duymuş və müşahidə etmiş, dərdini, istəyini açaraq bir könül aramışdır. Dahi ustad bəşər təfəkkürü ilə çətin qavranılan mövzuları ruhani ifadələr, hikmətli hekayələr yolu ilə sadə insanların belə könüllərinə həkk etmişdir. Mövlana həzrətləri 800 ildən çoxdur ki, yaşayır, dahi ustadın bundan sonra bəşəriyyətin ömrü qədər yaşamaq haqqı vardır. Ona görə ki, o yalnız türk xalqının yox, öz zəkası, əmanət qoyduğu əsərləri ilə bəşəriyyətin oğlu oldu.

**Əvhədi Marağayi Rüknəddin** (1274–1338). Azərbaycan mütəfəkkiri, şair-filosof. İnsanları mənəvi əxlaqa, təmizliyə çağırmış, əməyi, elmi tərənnüm etmişdir. Ptolemeyin əsərləri ilə tanış olmuş, onun geosentrik sistemini qəbul etmiş və səmanın hərəkəti ilə yaranan zaman haqqında fikir söyləmişdir.

**İbn Yəmin, Əmir Fəxrəddin Mahmud ibn Əmir, Yəminəddin Toğray Mustafa Fərumədi** (1286–1368). Fars-tacik şairi İbn Yəminin ədəbi irsindən 15 min beytdən artıq hikmətamiz, fəlsəfi, ictimai məzmunlu qəsidə, qəzəl, qitə, rübai və məsnəvi məlumdur.

**Əssar Təbrizi, Şəmsəddin Hacı Məhəmməd** (1325–1390). Azərbaycan şairi və alimi. O, Nizami Gəncəvi ədəbi məktəbinə mənsub şairlərdəndir. Yüksək sənətkarlıqla yazdığı «Mehr və Müştəri» poeması şairin ölümündən 70 il sonra türk dilinə tərcümə edilmişdir.

**Hafiz Şəmsəddin Məhəmməd Şirazi** (1325–1389). Fars şairi, Quranı əzbər bildiyinə görə «Hafiz» ləqəbi götürmüşdür. Hafizin ölümündən sonra toplanıb tərtib olunmuş Divanının surəti dəfələrlə köçürülmüş, İranda və onun sərhədlərindən uzaqlarda yayılmışdır. Hafizin şeirlərində mistik görüşlər, dünyanın faniliyi və dərkedilməzliyi fikirləri üstünlük təşkil edir. Məhəbbətin timsalında Hafiz həyatı, onun sevinclərini, zövq və ləzzətini tərənnüm etmiş, axirətdə veriləcəyi vəd olunan bütün nemətləri elə bu dünyada əldə etməyin mümkün olduğunu göstərməyə, məhəbbəti və səadəti göydən yerə endirməyə çalışmışdır. Hafizin bir çox şeirlərinin lirik qəhrəmanı yersiz-yurdsuz, xarabalıqlarda ömür sürən səfil, lakin kefcil, taleyindən razı, heç kəsdən təmənnası olmadığına görə özünü dünyanın ən xoşbəxt və sərvətli adamı sayan insanlardır. Hafizin yaratdığı obrazlar cəmiyyətin eybəcərliklərinə qarşı duran məğrur, azadfikirli şəxsiyyətlərdir.





**Qasım Ənvar, Şah Qasım Ənvar** (1356–1434). Azərbaycan şairi, mütəfəkkir və filosofu. «Ariflərin dostu» və «Ariflərin məqamı» adlı məsnəviləri var. Qasım Ənvarın dünyagörüşündə sufiliyin, hürufiliyin və Şərq peripatetizminin təsiri vardır. Q.Ənvar insanı «böyük aləm»in təcəssümü olan «kiçik aləm» hesab edirdi. O, etik görüşlərində sufilik pərdəsi altında humanist əxlaq prinsiplərini təbliğ etmişdir.

**İbn Xəldun Əbu Zeyd-Əbdər- Rəhman ibn Məhəmməd ibn Xəldun** (1332–1406). Ərəb tarixçisi və filosofu. İbn Xəldunun cəmiyyətin inkişafı təliminə görə, insanların həyat tərzindəki fərqlər coğrafi mühitin müxtəlifliyi ilə əlaqədardır. Onun fikrincə, tarix elmi ictimai həyatın əsas forma və qanunauyğunluqlarını öyrənməlidir, ictimai həyat insanların maddi ehtiyacından doğan birgə istehsal fəaliyyətidir. O, ilk dəfə olaraq cəmiyyəti birgə əməyə əsaslanan zəhmətkeş kollektiv hesab etmiş, hakimiyyət anlayışını cəmiyyətin təbii tələbatı ilə bağlamış, ona tarixi kateqoriya kimi baxmışdır. İbn Xəlduna görə, fəlsəfə cəmiyyət haqqında təlimin əsasıdır. O, real gerçəkliyi, xarici aləmi idrak obyekti saymışdır.

**İmadəddin Nəsimi, Seyid Əli İmadəddin Nəsimi** (1369–1417). Azərbaycan şairi. Hürufilik təriqətinin ən məşhur nümayəndələrindən biridir.

Hörmətli oxucu, hürufilik haqda «Şərhlər» bölməsində ətraflı məlumat verilib.

İmadəddən Nəsimi klassik Şərq və qədim yunan fəlsəfəsini, habelə ədəbiyyatını dərindən mənimsəmişdir. O, İslam və Xristian dinlərinin əsaslarına yaxından bələd olmuş, tibb, astronomiya və astrologiya, riyaziyyat və məntiq elmlərinə yiyə-

lənmişdir. Nəsimi lirik şair olsa da, sonralar dövrün siyasi, ictimai, əxlaqi mövzularında əsərlər yazmış, Azərbaycan ədəbiyyatı tarxində ana dilində yaranan fəlsəfi qəzəlin banisi olmuşdur.

Nəsiminin lirikasında insana məhəbbət, insan şəxsiyyətinin azadlığı mövzusu əsas yer tutur. Nəsimi insanı yaradıcı bir varlıq kimi ucaldır, hətta:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri laməkan mənəm, kövnü məkana sığmazam.
Şəms mənəm, qəmər mənəm, şəhd mənəm, şəkər mənəm,
Ruhi-rəvan bağışlaram, ruhi-rəvana sığmazam.
Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,
Bundan uludur ayətim, ayətu şanə sığmazam,

– deyir. Nəsimi, hətta, «Həqqi-Təala Adəm oğlu özüdür, «ənəlhəqq» («mənəm Allah») deyə insanı Allahla eyniləşdirirdi, Nəsimi məhz hürufilik təlimi əsasında irəli sürdüyü panteist *(bax: Şərhlər)* ideyalar üstündə Hələb şəhərində edam olundu. Nəsiminin panteizmi sufilərdən fərqləndirən başlıca xüsusiyyəti onun hürufi rəmzlərindən istifadə etməsidir, 28, yaxud 32 hərf onun mühüm ifadə vasitələrindəndir.

İbn əl-İmad Hənbəli yazır: «O, (Nəsimi – *Ə.M., Z.H.*) hürufilərin şeyxidir. Hələbdə sakin idi, tərəfdarları çoxaldı, bidəfi artdı, iş o yerə çatdı ki, sultan onun öldürülməsini əmr etdi, boynu vuruldu, dərisi soyuldu, çarmıxa çəkildi».

Nəsimi insanı nə qədər ümumiləşdirib, mücərrədləşdirib kosmoloji həddə çatdırsa da, onun həyatda real etik vəziyyətini, cəmiyyətdə yerini unutmayıb.

**Həmzəoğlu Ağşəmsəddin** (1383–?). Azərbaycan alimi, həkim. Adı dünya tibb ensiklopediyasına düşən, şərəfinə şeirlər, dastanlar yazılan Həmzəoğlu Ağşəmsəddin haqqında dünyada şöhrət qazanmış məşhur «Türklərin altun kitabı»nın müəllifi, görkəmli türk tarixçisi Rafiq Özbək yazır: «Ağşəmsəddinin atası Həmzə azərbaycanlı filosof Şihabəddin Sührəvərdi soyundandır.» («Türklərin altun kitabı», 3-cü c., s. 472, Tərcüman





təsisiləri, İstanbul, 1990)[1] Filosof Şihabəddin Sührəvərdi haqqında əvvəllər məlumat verilmişdir. Ağşəmsəddin Həmzəoğlunun ixtiraları və kəşfləri saysız-hesabsızdır. Təkcə bunu demək kifayətdir ki, dahi tibb alimimiz Ağşəmsəddin mikrobiologiyanın banisi sayılan fransız alimi Lui Pasterdən (1822–1895) neçə yüz il öncə, mikroskopun belə kəşf edilmədiyi bir dövrdə, gözəgörünməz canlılar, yəni mikroblar haqqında geniş məlumat vermişdir. Alimin «Maddətül həyat» («Həyatın maddəsi») adlı elmi kitabında bu sözləri oxuyuruq: «Xəstəliklər insan vücuduna girən gözəgörünməz bir qisim canlı toxumalar üzündən meydana gəlir və yenə o canlı toxumalar insandan insana keçir...»

Ağşəmsəddin ulu Mehmet Fatehin müəllimi olmuşdur. Fatehə «İstanbulu sən fəth edəcəksən!..» sözlərini deyən də odur. Ağşəmsəddinin dediyi kimi oldu, Mehmet Fateh İstanbulu fəth etdi.

İstanbulun mərkəzində salınmış Mehmet Fateh parkında əzəmətli bir abidə var. Ulu Fateh bəyaz atın üstündə sanki göylərə qanad açmaqdadır. Yanındakı silahdaşlarının sırasında özünün və oğlu Sultan II Bəyazidin böyük müəllimi Həmzəoğlu Ağşəmsəddin də vardır. Azərbaycanın dahi oğlunun adı dünyaya bəllidir. Ağşəmsəddin Həmzəoğlu haqda «İblis xislətli erməni» (Bakı, 2009, s. 60-62) kitabında geniş məlumat verilmişdir.

**Seyid Yəhya Cəlaləddin Bakuvi** (1410–1462). Azərbaycan mütəfəkkiri, ilahiyyatçı, filosof. Bakıda Şirvanşah I Xəlilullahın sarayında yaşamışdır. Onun başçılıq etdiyi təriqət şiəliyin Səfəvilər tərəfindən dövlət dini kimi qəbul edilməsinə qarşı mübarizə aparırdı. Azərbaycan, fars və ərəb dillərində yazan Bakuvinin əsərləri, əsasən, ontologiya, etika məsələlərinə, batinilik təliminə həsr edilmişdir. Bu təlimlər haqda oxuculara «Şərhlər» bölməsində məlumat verilmişdir.

**Füzuli Məhəmməd Süleyman oğlu** (1494–1556). Azər-

[1] Rafiq Zəka Xəndan, «Ədalət» qəzeti, 13 aprel, 1997-ci il.

baycan şairi, mütəfəkkir. O, şəxsi mütaliəsi sayəsində orta əsr elmləri (məntiq, tibb, nücum, riyazi və humanitar elmlər), xüsusən dini-fəlsəfi cərəyanları, ərəb tərcümələri əsasında yunan fəlsəfəsi ilə yaxından tanış olmuş, klassik ərəb, fars, özbək, türk və farsdilli hind ədəbiyyatını öyrənmişdir. Füzuli özünün saraydan uzaq olduğunu iftixar hissi ilə qeyd etmişdir. Şair hakimiyyət uğrunda gedən mübarizə və müharibələrin şahidi olmuş, «odlara yansın büsati-səltənət» deyə saraya qarşı kəskin nifrətini qələmə aldığı əsərlərində ifadə etmişdir. Füzuli Azərbaycan dilində lirik şeirin ən gözəl nümunələrini yaratmışdır. Füzuli lirikası dərin ictimai-fəlsəfi məzmuna malikdir. Füzuliyə görə məhəbbət insana, onun gözəlliyinə və kamalına pərəstiş, həyat eşqi, dostluq və sədaqət deməkdir. Füzuli yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Füzuli qədim yunan və Şərq fəlsəfəsi ilə tanış idi. Onun fəlsəfi görüşləri, əsasən, ərəb dilində nəsrlə yazdığı «Mətlə ül-etiqad» əsərində əksini tapmışdır. Füzuli burada Aristotel, Platon, Demokrit və b. yunan filosoflarının fikirlərindən, ən-Nəzamin fəlsəfi irsindən təsirlənmişdir.

Füzulinin yaradıcılığı Azərbaycan incəsənətinin inkişafına güclü təsir göstərmişdir. Füzuli poeziyası, onun «Leyli və Məcnun» poeması Azərbaycan operasının və o cümlədən Azərbaycan muğamının inkişafına təkan vermişdir.

**Dəvvani Cəlal əd-din Məhəmməd bin Səd əd-din Əsəd əs-Siddiqi** (1426/27–1502/03). Filosof, hüquqşünas. Onun fəlsəfə, məntiq, ilahiyyat, tarix, riyaziyyat və s. sahələrə aid elmi əsərləri vardır. Ağılı və əqli nəticəni yeganə fəlsəfi prinsip sayan Dəvvani, ənənəvi görüşlərə kor-koranə tabe olmağın əleyhinə çıxmışdır. Bununla o, istər-istəməz dini ehkamçılığı da qəbul etməmiş, dünyanın dərk edilməsində həyat təcrübəsinin rolunu yüksək qiymətləndirmişdir. O, insanın «iki müəllimi»nin olduğunu söyləmişdir. Birinin «təbiət» müəllimi, o birinin «din» müəllimi olan «bu dünyada», real həyatın dərk edilməsində birinci müəllimin roluna üstünlük vermişdir. «Nur ul-hidayə» («Doğru yolun işığı») əsərində Hippokrat, Platon, Aristotel və b.-nı «müsəlman alimləri» adlandırmış və göstərmişdir ki, onlar «öz ağılları ilə» islam monoteizminə qədər yüksəlmişlər. Dəvvani ictimai-siyasi məsələlərdə Fərabinin cəmiyyət təlimini inkişaf etdirmişdir.





**Koca Əbdülmənnan oğlu Sinan** (1489–1588). Türk memarı, mühəndis. I Sultan Süleymanın inşaat işlərinə rəhbərlik etmişdir. 1539-cu ildə Osmanlı imperiyasının baş memarı təyin edilmişdir. Sinan memarlıq tarixində ən məhsuldar sənətkarlardandır. O, imperiyanın ayrı-ayrı yerlərində 360-dan artıq bina və tikili yaratmışdır. Müasirləri Sinanı «dünya memarlarının və dövran mühəndislərinin başçısı» adlandırmışlar. Şah əsəri Ədirnədəki Səlimiyyə camesidir.

**Saib Təbrizi, Mirzə Məhəmmədəli Mirzə Ədürəhhim oğlu** (1601–1676). Azərbaycan şairi, mütəfəkkir və filosofu. O, Xaqani, Nizami, Nəsimi, xüsusilə Füzuli ədəbi məktəbinin davamçısıdır. Təqribən 300 min misra şeiri olduğu ehtimal edilir. 1975-ci ildə özbək alimi H.Süleymanov Hindistanın Lakxnau şəhərində xüsusi bir kitabxanada şairin əsərlərinin özü tərəfindən əlifba sırası ilə köçürülmüş 230 min misradan çox olan dünyada yeganə tam külliyyatını (2308 s.) aşkara çıxarmışdır. Humanist və mütəfəkkir şair Saib Təbrizinin lirikasında məhəbbətin tərənnümü əsas yer tutur. Eyni zamanda o, ictimai, fəlsəfi, əxlaqi görüşlərini məhəbbət mövzusundakı əsərlərində əks etdirmişdir. İctimai ədalətsizliyə, zülm və haqsızlığa qarşı etiraz ruhlu əsərlərində düzlüyü, xalqa xidməti, dostluğu, səadəti, elm və biliyi tərənnüm etmiş, cəhaləti, riyakarlığı pisləmişdir.

**Şirazi Sədrəddin Məhəmməd bin İbrahim** (?–1640). Filosof, «Molla Sədra» adı ilə məşhurdur. Fəlsəfəyə dair ərəb və farsca «Əsfari-ərəb»ə («Dörd səfər»), «Şəfahid ür-robubiyyət» («İlahiliyin şahidləri»), «Məbdə və məad» («Başlanğıc və axirət dünyası»), «Şəhri-Kafi» («Kifayətin şəhri»), «Təliqe bər Hikmət ül-işraq» («İşraqiyyə fəlsəfəsi») əsərlərinin müəllifidir.

Şirazi müsəlman Şərqində Platon fəlsəfəsi təliminin

nümayəndələrindən hesab olunsa da, peripatetiklərin *(bax: Şərhlər)* də nəzəriyyəsi ilə razılaşdı. Peripatetiklərdən fərqli olaraq, o hər şeyin əsli hesab etdiyi varlığı vahid tərkib kimi götürürdü. Zəiflik, güclülük, çatışmazlıq və kamillik baxımından bir-birindən seçilən çoxlu halları mahiyyətdə qəbul edən Yəhya Sührəvərdidən (əvvəllər bu haqda məlumat verilib) fərqli olaraq Şirazi onları varlıqda görmüşdür.

Şirazi mahiyyətin hərəkəti adı ilə məşhur olan nəzəriyyənin yaradıcısı hesab olunur. O, «mahiyyətin hərəkəti» fərziyyəsi ilə axirət dünyasının varlığını sübut etmək istəmişdir. Şiraziy görə qiyamət günündə insanın ruhu öz əsl özəyinə və sabit mahiyyətinə qayıdacaq və insan bu qayda ilə yenidən diriləcəkdir. Onun fikrincə, fəlsəfə və şəriət elmləri bir-birinə zidd deyildir.

**Təbrizi Rəcəbəli** (?–1669). Azərbaycan filosofu. R.Təbrizi Şərq peripatetizminin (əl-Məşşaiyyə) son böyük nümayəndəsidir. O, «İsbat əl-vacibə» («Vacib varlığın isbatı»), «əl-Əsl-əl-əsil» («Əsl əsas») və b. əsərlərin müəllifidir. R.Təbrizi «Vahid» təxəllüsü ilə fəlsəfi şeirlər də yazmışdır. R.Təbrizi Azərbaycanda Aristotel ənənələrinin davamçısıdır. Onun yaradıcılığında işraqilik və sufiliyin də müəyyən təsiri duyulur. Peripatetik filosof kimi R.Təbrizinin varlıq təlimi ortodoksal islam ideoloqlarının əqidələri ilə uzlaşmır. Varlığı ən geniş həcmdə anlayış saymış, mahiyyətin varlıqla nisbətdə ikinci olması haqqındakı peripatetik müddəaya tərəfdar çıxmışdır. O, Şərq peripatetizminin emanasiya (axıram, yayılıram) nəzəriyyəsini, hər cəhətdən xalis bəsit vahiddən yalnız vahid çıxdığını, mövcudat silsiləsində səbəbiyyət əlaqəsinin olduğunu qədul etmişdir. R.Təbriziyə görə, səbəb ilə nəticə arasında özünəməxsus münasibət, substansional bağlılıq vardır. O, «Əsl əsas» traktatında maddə və forma, hərəkət və b. kateqoriyaları peripatetizm mövqeyindən araşdırmışdır.

**Vazeh Mirzə Şəfi Sadıq oğlu** (1794–1852). Azərbaycan şairi, mütəfəkkir, maarifçi. Gəncədə təsis etdiyi «Divani- hikmət» ədəbi-fəlsəfi məclisində poeziya, fəlsəfə və etikaya, dövrün mühüm ictimai məsələlərinə dair fikir mübadiləsi aparmışdır.





Bu məclisdə A.Bakıxanov, M.F.Axundzadə, F.Bodenştedt və b. iştirak edirdi. Vazehin maarif sahəsində də mühüm xidməti olmuşdur. 1852-ci ildə Tiflis gimnaziyasının Şərq dilləri müəllimi İ.Qriqoryevlə birlikdə Azərbaycan dilində «Kitabi türki» adlı ilk dərs vəsaiti tərtib etmişdir. Həmin vəsaitdən gimnaziya və qəza məktəblərində Azərbaycan dilini öyrənmək üçün uzun zaman istifadə olunmuşdur.

Vazehin fəlsəfi dünyagörüşünün əsasında sufiliyin və çarvaka hind fəlsəfi məktəbinin materialist təliminin çarvaka *(bax: Şərhlər)* ünsürlərini birləşdirən panteizm (aləmi Allahla eyniləşdirən fəlsəfi təlim) dururdu. Vazeh çox vaxt Allahı təbiətlə eyniləşdirir və göstərirdi ki, insan kainatın qanunauyğunluqlarını poza bilməz, o yalnız varlığı dərk edər, təbiətin sirlərini öyrənə bilər. Fatalizmə *(bax: Şərhlər)* qarşı çıxan Vazeh, zahidliyi, tərki-dünyalığı, cənnət və cəhənnəmi inkar edir, insanları gerçəkliyin gözəlliklərini qiymətləndirməyə, xoşbəxt həyata, şəxsiyyətin azadlığı uğrunda mübarizəyə səsləyirdi.

**Abbasqulu ağa Bakıxanov, Qüdsi** (1794–1847). Azərbaycan alimi və şairi. 1820–1830-cu illərdə çar Rusiyası ordusunda qulluq edib, polkovnik rütbəsinə qədər (1842) yüksəlib, Türkmənçay müqaviləsinin (1828) imzalanmasında tərcüməçi kimi iştirak edib. Azərbaycan tarixşünaslığının inkişafında böyük rol oynamış «Gülüstani İrəm» (1841) əsərinin müəllifidir. A.Bakıxanovun fəlsəfi və əxlaqi baxışları «Riyaz ül-qüds», «Təhzib ül-əxlaq», «Kitabi-nəsayeh», «Eyn ül-mizan» əsərlərində, habelə «Mişkat ül-ənvar» poemasında şərh olunmuşdur. Şərq ilahiyyatçılarına əsaslanan A.Bakıxanov islam dininin əsas ehkamlarını müdafiə etmişdir. A.Bakıxanova görə Allah əvvəlcə üç əbədi başlanğıc – ağıl, qələm və nur yaratmışdır ki, bunların birincisi genişlik və əhatəliliyin, ikincisi nizam və ahəngin, üçüncüsü «yaranma və qayıtmanın» rəmzidir.

A.Bakıxanovun bütün elmi və ədəbi yaradıcılığının əsas qayəsi xalqın maariflənməsi olmuşdur.

**Mirzə Fətəli Axundzadə** (1812–1878). Azərbaycan yazıçısı, materialist filosof, ictimai xadim, Azərbaycan dramaturgiyası-

nın banisi. M.F.Axundzadə «Əkinçi» qəzetinin nəşrinə böyük əhəmiyyət vermiş, onun səhifələrində «Vəkili milləti-naməlum» imzası ilə məqalələr dərc etdirmişdir. Onun bədii yaradıcılığında komediya janrı əsas yer tutur. 1850–1855-ci illərdə, M.F.Axundzadə yazdığı 6 komediya ilə Azərbaycanda və eləcə də Yaxın Şərq ədəbiyyatında realist dramaturgiyanın təməlini qoymuşdur. M.F.Axundzadənin 1852-ci ildə yazdığı «Sərgüzəşti mərdi-xəsis» («Hacı Qara») komediyası məzmun və sənətkarlıq cəhətdən dünya dramaturgiyasının ölməz əsəridir.

M.F.Axundzadə 1857-ci ildə realist Azərbaycan nəsrinin ilk nümunəsi olan və Azərbaycan nəsrinin sonrakı inkişafına qüvvətli təsir göstərən «Aldanmış kəvakib» («Hekayəti Yusif şah») povestini yazmışdır. M.F.Axundzadə yalnız realist Azərbaycan dramaturgiyasının və nəsrinin deyil, materialist estetik fikirlərin də banisidir. O, «Kamalüddövlə məktubları» (1865) adlı məşhur fəlsəfi əsərində, habelə bir sıra məktubunda realizm, xəlqilik, müasirlik, ideallıq, sənətkarlıq və bədii yaradıcılığın başqa mühüm məsələlərinə dair qiymətli fikirlər söyləmişdir. Onun fəlsəfi görüşləri Ön və Orta Şərq xalqlarının zəngin fəlsəfi irsi zəminində formalaşmışdır. M.F.Axundzadəyə görə, təbiət əbədi və sonsuzdur. Təbiətdə keyfiyyətcə müxtəlif cism və hadisə maddi substansiyanın, «vahid», «qadir» və «kamil» varlığın müxtəlif təzahürüdür. Materiya daim təzahür edir, dəyişir, bir haldan digərinə çevrilir. Onun fikrincə, dünya işlərində dini etiqad deyil, insan əqli əsas götürülməlidir. «Bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt mümkün olacaqdır ki, istər Asiyada və istərsə də Avropada insan əqli əbədi həbsdən tamam qurtulacaq, işlər və fikirlərdə yalnız insan əqli sənəd və dəlil hesab edilib hakimi-mütləq olacaqdır.» (Əsərləri, 2-ci c., Bakı, 1961, s. 45) O, ictimai, cismani zülmə etiraz edərək belə nəticəyə gəlmişdir ki, xalq özü-özünü qaranlıqdan çıxartmalı, öz hakimiyyətini qurmalıdır. «Zülmü aradan qaldırmaq üçün əsla zalıma müraciət etmək lazım deyildir, bəlkə əksinə, məzluma demək lazımdır ki, ey nadan, sən ki, qüdrət, səy və bacarıq cəhətdən zalımdan qat-qat artıqsan, bəs nə üçün zülmə qatlaşırsan? Qəflət yuxusundan oyan və zalımın atasının goruna od vur!» (yenə orada, 3-cü c., s. 47)





M.F.Axundzadə xalqın gücünə inanır, istibdad zülmündən xilas olmaq üçün onu birliyə, mövcud quruluşu inqilabla məhv etməyə çağırırdı. O, maddi nemətlərin yaranmasında xalq kütlələrinin həlledici rolunu göstərir, cəmyyətdə elə dəyişikliklər haqqında düşünürdü ki, bu dəyişikliklər insanların hüquq bərabərliyini, maddi və əmlak bərabərliyi ilə tamamlamış olsun, bütünlükdə millətin vəziyyətini, insanların xarakter və təbiətini dəyişsin. İdeal cəmiyyət haqqındakı bu fikirlər M.F.Axundzadəni utopik sosialistlərə yaxınlaşdırır. Bu ideya dahi Nizami Gəncəvidən başlamış, bir çox Şərq mütəfəkkirlərinin əsərlərində öz əksini tapmışdır.

M.F.Axundzadənin yaradıcılığı yalnız Azərbaycanın deyil, Yaxın Şərq xalqları ədəbiyyatı və ictimai-fəlsəfi fikrinin də inkişafına böyük təsir göstərmişdir.

**Seyid Əzim Şirvani** (1835–1888). Azərbaycan şairi, maarif xadimi. S.Ə.Şirvani klassik Azərbaycan poeziyası və XIX əsrin əvvəllərindən formalaşan tənqidi realizm ənənələrindən bəhrələnərək, lirik və satirik Azərbaycan şeirini zənginləşdirmişdir. Onun yaradıcılığında ruhaniliyin tənqidi xüsusi yer tutmuşdur. Xalqı din xadimlərinin hiylələrinə uymamağa, ayıq olmağa çağıran şair şeirlərində maarif və mədəniyyəti təbliğ edir, tərəqqiyə mane olan «ziyalılara», mövhumat və cəhalətə gülürdü. S.Ə.Şirvani Azərbaycan şairlərinin əsərlərini toplamış, tərtib etdiyi «Təzkirə»də (1885) 270-dən çox şairin tərcümeyi-halını və əsərlərindən nümunələr vermişdir. Əzizə xanım Cəfərzadənin «Aləmdə səsim var mənim» romanı Seyid Əzim Şirvaniyə həsr olunmuşdur.

**Mirzə Ələkbər Sabir, Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadə** (1862–1911). Azərbaycanın satirik şairi, mütəfəkkir, ictimai xadim, müəllim. Sabir Azərbaycan ədəbiyyatı, ictimai və bədii fikrinin ən böyük simalarındandır. 1906–1911 illərdə «Molla Nəsrəddin» jurnalında əməkdaşlıq etmişdir. Bu illər Sabir yaradıcılığının ən yetkin, məhsuldar dövrü olmuşdur. O,

Azərbaycan ədəbiyyatında tənqidi realizmin qüdrətli nümayəndəsi, Azərbaycan satirik poeziyasına inqilabi mahiyyət verən novator şairdir. Onun realizmi köhnəliyi yıxıb, yeniliyə yol açmaq, tərəqqipərvər qüvvələrin mübarizəsinə kömək etmək, azadlıq və nəcib məqsədlər izləyən bir realizmdir. Sabir poeziyası sənətkarlıq, bədii forma etibarilə Azərbaycan, həmçinin Ön və Orta Şərq şeirində xüsusi yer tutur. Sabirin şeir dili canlı xalq dili və klassik Şərq şeirinin ifadə xüsusiyyətləri əsasında formalaşmış zəngin, rəngarəng, duzlu-məzəli dildir. Şair bəzi əsərlərini hətta parodiya şəklində yazmışdır. Sabir Azərbaycan və eləcə də Şərq ədəbiyyatının ölməz, təkrarsız bir nəhəngidir.

**Cəlil Hüseynqulu oğlu Məmmədquluzadə**, «Molla Nəsrəddin» (1866–1932). Azərbaycan yazıçısı, jurnalist və ictimai xadim. Azərbaycan bədii mədəniyyətinin qüdrətli ədəbi şəxsiyyətlərindən olan Cəlil Məmmədquluzadənin ədəbiyyat, incəsənət, maarif və mətbuat sahəsindəki xidmətləri özünün ən yüksək, ülvi mənasını bu böyük ideala xidmətdə görmüşdür. 40 ildən artıq davam edən çoxcəhətli yaradıcılığı, ictimai-ədəbi fəaliyyəti boyu yazdığı əsərlərilə Azərbaycan realist ədəbiyyatının yeni yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. Ədibin ilk qələm təcrübəsi olan «Çay dəstgahı», «Kişmiş oyunu» əsərləri ürəkdən bağlandığı xalqı üçün, el-oba üçün ürəyinin yanğısı idi. İlk dəfə 1916-cı ildə Bakıda tamaşaya qoyulan «Ölülər» komediyası «ideyası inqilablı bir əsər» (N.Nərimanov) kimi hərarətlə qarşılanmışdı. C.Məmmədquluzadənin əsərlərində dini-fanatizm kəskin tənqid atəşinə tutulmuşdur. Jurnalistika sahəsində də C.Məmmədquluzadənin əsas janrı satira idi. «Molla Nəsrəddin»in (1906–1931) nəşri ilə o, Azərbaycanda, həmçinin Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Çoxcəhətli dərin bilik sahibi olan ədib müxtəlif siyasi, fəlsəfi, dini, sosioloji cərəyanlar haqqında yazmış, mürtəce ideyaları ifşa etmiş, bəşər dühasının nailiyyətlərini təbliğ etmişdir. Onun zəngin bədii irsi bu gün də ictimai-tərbiyəvi və estetik əhəmiyyətini itirməmişdir. «Sizi deyib gəlmişəm!» müraciəti xalqını və bəşəriyyəti mənəvi ünsiyyətə səsləyən əbədi bir müraciətnamədir.





**Məhəmməd Hadi, Ağaməhəmməd Hacı Əbdülsəlim oğlu** (1879–1920). Azərbaycan şairi. Azərbaycan ədəbiyyatında romantizmin görkəmli nümayəndəsi M.Hadi ədəbi-tənqidi və estetik görüşlərində ədəbiyyatın ideyalılığı, «sənət həyat üçündür» prinsiplərini müdafiə etmiş, xalq mənafeyinə xidməti özünün müqəddəs vəzifəsi saymış, qələmi «inqilab bıçağı» adalandırmışdır. «Dad istibdaddan», «El fəryadı» şeirlərində Hadi məzlumların azadlıq, səadət və hüquq bərabərliyi arzularını tərənnüm etmişdir. Onun poeziyasında milli oyanış ideyaları qüvvətlidir. M.Hadinin mütərəqqi mahiyyətli romantizminin dünya romantizmi ilə səsləşən cəhətləri çoxdur. M.Hadi özünün «Amali-vicdan» əsərində bu romantizmin acı həyatdan bezmiş insanların şirin həyat xəyalı ilə bağlı olduğunu söyləyirdi.

**Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli** (1885–1948). Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, ictimai xadim. Ü.Hacıbəyli Azərbaycan professional musiqi sənətinin və milli operasının banisidir. O, 1899–1904-cü illərdə Qori müəllimlər seminariyasında təhsil almışdır. Ü.Hacıbəylinin 22 yaşında yazdığı, 1908-ci il yanvarın 25-də Bakıda H.Z.Tağıyevin teatrında göstərilən «Leyli və Məcnun» operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. Operanın librettosunu Ü.Hacıbəyli Füzulinin eyniadlı poeması əsasında yazmışdır. O, həmçinin Azərbaycanda musiqili komediya janrının da banisidir. Yaratdığı bütün komediyaların mətnini də özü yazmışdır. Ü.Hacıbəylinin dahi əsəri «Arşın mal alan» musiqili komediyası ingilis, alman, ərəb, Çin, fars, polyak, ukrain, Belarus, gürcü və s. dillərə tərcümə olunmuşdur. O, 1921-ci ildə Bakıda azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbini – Azərbaycan Dövlət Türk Musiqi Məktəbini təşkil etmiş və ilk direktoru olmuşdur. Ü.Hacıbəyli 1931-ci ildə Azərbaycan Radio Komitəsi yanında ilk notlu xalq çalğı alətləri orkestri təşkil etmişdir.

1937-ci il aprelin 30-da Azərbaycan Opera və Balet Teatrında ilk dəfə tamaşaya qoyulan «Koroğlu» operası Ü.Hacıbəyli yaradıcılığının zirvəsini təşkil edir.

Bakı Musiqi Akademiyası Ü.Hacıbəylinin adını daşıyır.

**Hüseyn Cavid, Hüseyn Abdulla oğlu Rəsizadə** (1882–1941). Azərbaycan şairi, dramaturq, mütəfəkkir. O, ilk təhsilini Naxçıvanda almışdır. 1899–1903-cü illərdə Təbrizin Talibiyyə mədrəsəsində təhsilini davam etdirmiş, 1909-cu ildə İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmişdir. XX əsr Azərbaycan mütərəqqi romantizmini inkişaf etdirən sənətkarlardandır. Lirik şeirlər, lirik-epik, epik poemalar yazan H.Cavid Azərbaycan ədəbiyyatında ilk mənzum facia və dramların müəllifidir. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları, üslub, yazı manerası, forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, «Cavid teatrı» kimi səciyyələndirilmişdir. Yaradıcılığında mühüm yer tutan «İblis» (1918) faciəsində dövrün bütün mürtəce qüvvələri – «insan insana qurddur» fəlsəfəsinin tərəfdarları, «XX əsrin mədəni vəhşiləri» olan imperialist dairələri İblis surətində ümumiləşdirilmiş, işğalçı müharibələrə lənət yağdırılmışdır. Onun əsərlərinin bədii qayəsini bəşəriyyətin fəlakətinə ədalətsiz, istismarçı ictimai quruluşların səbəb olması fikri təşkil edirdi. H.Cavidin fəlsəfi, siyasi-ictimai görüşləri «ümumi məhəbbət» ideyasından humanizmə qədər bir inkişaf yolu keçmişdir.

**Salman Mümtaz, Salman Məmmədəmin oğlu Əsgərov** (1884–1941). Azərbaycan ədəbiyyatşünası, mətnşünas, şair. S.Mümtazın ədəbiyyat tariximizdəki xidmətlərinə yalnız «Loğman» adı vermək olar (Rəfael Hüseynov). O, doğrudan da, loğmandır, ona görə ki, ulu babalarımızın beyinlərinin məhsulu olan elmi-ədəbi əsərlərini bağlı sandıqlardan, qaranlıq zirzəmilərdən işıqlı dünyaya çıxardı, unudulan dünya şöhrətli alimlərimizi üzə çıxardı, doğma xalqına çatdırdı, millətin başını ucaltdı. S.Mümtazın Azərbaycan ədəbiyyatı klassiklərindən Nəsimi, Şah İsmayıl Xətai, Həbibi, Füzuli, Vidadi, Vaqif, İsmayıl bəy Qutqaşınlı və başqalarının həyat və yaradıcılığına aid araşdırmaları böyük elmi əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, XV əsrin sonu, XVI əsrin əvvəllərində yaşamış Həbibi haqda məlumatı xalqımıza ilk dəfə 1921-ci ildə S.Mümtaz vermişdir.





S.Mümtazın xeyirxah zəhməti nəticəsində xalqımız dahi Nəsimini yaxından tanımışdır. S.Mümtaz Azərbaycan ədəbiyyatı seriyasından 24 şairin (Nəsimi, Qövsi Təbrizi, Nişat Şirvani, Ağa Məsih Şirvani, M.P.Vaqif, Q.B.Zakir, M.Ş.Vazeh və b.) kitabını buraxdırmışdır, bunların bir çoxu həmin şairlərin əsərlərinin ilk toplu nəşri idi.

**Səməd Vurğun,** Səməd Yusif oğlu Vəkilov (1906–1956). Azərbaycan xalq şairi, ictimai xadim, mütəfəkkir. Yaradıcılığı müasir Azərbaycan poeziyasının inkişafında mütərəqqi rol oynamışdır. Vətənpərvərlik, beynəlmiləlçilik, humanizm S.Vurğun yaradıcılığının ideya məzmununu təşkil edir. «Xalq şairi» adını daşımaq Azərbaycanda ilk dəfə Səməd Vurğuna nəsib olmuşdur. Bu isə ümumxalq məhəbbətinin təzahürü idi.

S.Vurğun xalqın, millətin, bəzən bəşərin qəlbindəkini qələmə alıb, insanlara çatdıran dahi söz ustadı idi.

S.Vurğun tarixi araşdırıb, poeziya dilinə gələcəyə çatdıran ictimai-siyasi xadim və filosof idi. O, Azərbaycan və onun gözəlliyinin vurğunu idi.

S.Vurğun Azərbaycan keçmişini, onun başına gələn müsibətləri sadə el dilində müasirlərinə, yetişən nəslə çatdıran el cəfakeşi idi.

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır.
Böyük bir keçmişin vardır,
Bilinməyir yaşın sənin.
Nələr çəkmiş başın sənin,
Azərbaycan, Azərbaycan!

Əsas qaynaq ideyalarından biri vətənpərvərlik olan Vurğ-

un poeziyası düşmənə nifrət, dosta məhəbbətlə dolu humanist bir poeziyadır. S.Vurğun lirikasının qəzəb və məhəbbət motivləri yalnız milli xüsusiyyətləri ilə yox, həm də ümumbəşəri məzmunu ilə mənalı və dərindir.

S.Vurğun yazırdı: «Mənsub olduğu xalqın varlığı ilə fəxr etməyən, onun eşqini müqəddəs bir məşəl kimi öz qəlbində yandırmayan bir insan öz vətəndaşlıq haqqını dərk edə bilməz, ona vətənpərvər demək də gülünc olar.» («Azərbaycan məktəbi» jurnalı, 1945, № 2, s.13)

Şair yaradıcılığının ilk dövründən torpağa, zəhmətə, quruculuğa bağlı, onu tərənnüm edən sənətkar olmuşdur. O, poeziyasında əməyi yalnız fiziki fəaliyyət kimi deyil, əməyin romantikasını məharətlə tərənnüm etmişdir. Məhz bu səbəbdən onun qəhrəmanları təkcə əmək keyfiyyətlərinə görə yox, həm də mənəvi yüksəklik, ucalıq keyfiyyətləri ilə romantik qəhrəman səviyyəsinə qalxırlar. Müasirlik, həyatın anbaan dəyişən sürətindən geri qalmamaq, zamanın hər anından faydalanmaq Səməd Vurğun yaradıcılığının əsas keyfiyyəti, ideya çalarlarındandır. Səməd Vurğun şeirinin əsas fəlsəfi mənası belədir: ətalətə, süstlüyə, durğunluğa etiraz, yaşamaq, yaratmaq, sellərdən, sulardan yeyin axmaq, şimşəklə yanaşı göylərdə guruldamaq, aləmə səs-salmaq, sevmək, sevilmək!

Şair yaradıcılığında böyük problemlərə müraciət etmiş və onun həllinə çalışmışdır. Onun müraciət etdiyi sahələrdən biri də dramaturgiyadır. «Yazıçı öz əsərinin övladı və ideoloqu olmalıdır», «Mən istərəm filosoflar səhnəmizə söz yaratsın» kimi müddəaları Səməd Vurğun öz dramaturji yaradıcılığına da tətbiq edirdi.

Fikrimizi Kamal Talıbzadənin sözləri ilə yekunlaşdırmaq istərdik: «Səməd Vurğun yeni, böyük bir poetik məktəbin banisidir. O, ecazkar sənəti ilə 26 ildən artıq bir dövrün bədii təfəkkürünə güclü təsir göstərmiş, özünün davamçılarını yetişdirmiş, onları uzun zaman öz nüfuz təsirində saxlamış və daha böyük yüksəliş üçün onları silahlandırmışdır.» (Səməd Vurğun, seçilmiş əsərləri, 1-ci cild, Bakı, 1986, s. 14)





**Bəxtiyar Mahmud oğlu Vahabzadə** (1929–2009). Azərbaycan xalq şairi, dramaturq, ədəbiyyatşünas, ictimai xadim.

Biz Bəxtiyar Vahabzadə haqqında nə yaza bilərik? Desək ki, Bəxtiyar gözəl şair idi, bunu hamı bilir, vətənpərvərdir – yenə təzə bir şey demirik, ictimai xadimdir – bunu bütün Şərq bilir, filosofdur – əsərləri buna tam cavab verir.

Yazıçı Mehdi Hüseyn Bəxtiyar Vahabzadə haqda yazdığı məqalələrdən birində onu «narahat şair» adlandırmışdır. B.Vahabzadə özü yazır:

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız bundadır.

Çingiz Aytmatov: «...Dünyada ad çıxaran çox şair var. Qəzet və jurnalları vərəqlədikcə, görürsən ki, əsl şair azdır. Tək-tənha qalanda bir neçə kəlmə ilə «həyat nədir?» sualına cavab axtaranda yalnız sözü fikrindən, obrazdan, ruh və nəfəsdən yoğrulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə, düşüncələrinə qol-qanad verir. Müasirimiz Bəxtiyar Vahabzadə belə şairlərdəndir.»

Professor Ağamusa Axundov: «...şair (B.Vahabzadə – *Ə.M., Z.H.*), şirəsi el ədəbiyyatından, ətri Vətən torpağından, ruhu xalqın ürəyindən gələn doğma ana dilində həyatın bütün sahələrinə, insan qəlbinin ən incə, ən dərin guşələrinə aid əsərlər yazıb.»

Sevgin gözlərində bizi böyütdü,
Öyündün bizimlə, ey xalq, ey Vətən!
Həmişə qəlbimdən bir sual ötdü:
Sənin hörmətinə layiqəmmi mən?

B.Vahabzadə məsləkli şair idi. O, həyatı boyu öz məsləki uğrunda mübarizədə heç bir maneədən çəkinməmişdir.

B.Vahabzadə təbiətin, torpağın vurğunu, ekoloji normaların pozulmasının amansız düşməni idi.

Təbiətin sümüyündə dirəndik,
İliyini sorasıydıq, sorası.
Əlimizdə bu anamız torpağın
Dağlanmamış görən qaldı harası?
Yaranışdan biz övladıq, o, ana,
Bu sitəmi necə qıydıq biz ona?
Hara gedir o, fırlana-fırlana,
Sinəsində çalın-çarpaz yarası?

Dil uğrunda ən mübariz ziyalılardan olan şair yazır: «Biz dilimizə heykəl qoymadıq, heç olmasa, gəlin ona xəyanət etməyək».

B.Vahabzadə maarifpərvər şairdir. O yazır: «Biliksiz müəllim işıqsız çıraq, quruyan bulaq kimidir. Savadsız müəllim olmaq ən böyük cinayətdir, o, neçə-necə uşaq nəslini şikəst edə bilər, cəmiyyətə nə qədər «zay məhsul» verər! Odur ki, müəllim kadrlarının hazırlanmasına çox böyük diqqət və məsuliyyətlə yanaşmaq lazım gəlir.» (B.Vahabzadə, «Gəlin açıq danışaq», Bakı, 1988, s. 81)

Hörmətli oxucu, Bəxtiyar poeziyasından, sənətindən, fəlsəfəsindən, vətənpərvərliyindən, humanizmindən, mübarizliyindən, insana məhəbbətindən neçə-neçə monoqrafiya, elmi əsər yazmaq olar. Bəxtiyar yaradıcılığı hələ illərlə tədqiqat obyekti olacaq, Bəxtiyar cismani bizi tərk etsə də, Bəxtiyar şamı daim yanacaq, bəşərin müsbət intellektual yoluna şəfəq saçacaqdır.

Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır.

Hörmətli oxucu! Biz Bəxtiyar Vahabzadənin vəfatı münasibətilə «İrfan» (№ 28, 2009) jurnalında Saleh Zeki Mericin «Xəzərdə batmayan günəş Bəxtiyar Vahabzadə» məqaləsindən bir hissə verməyi məqsədəuyğun hesab etdik: «Şairlər bir cəmiyyətin yüksələn fəryadı, ağlayan gözləri və gülən üzləridir. Bir millətin dəyərləri qəsb edilə, hətta yox edilə bilər. Ancaq o





millətin şairlərinin yüksək səsi, ədəbiyyatı, sənəti heç bir şəkildə yox edilə bilməz. Şairlər zamanı gəldikcə tarix səhnəsindən fani bəndələriylə çəkilsələr də, arxalarında qoyduqları ədəbiyyat mirası əbədiyyətə qədər davam edər.

Bəxtiyar Vahabzadə həm öz millətinə, həm də bütün dünyaya qoyduğu ədəbi mirası ilə gələcək nəsillərə səsini çatdıran böyük bir şair, ədəbiyyatçı, ziyalı bir ağsaqqal idi. 84 illik ömrü boyunca millətinin azadlığı üçün varını-yoxunu ortaya qoymuşdur. 2009-cu ilin bir fevral axşamında, Xəzərin mavi sularında bir günəş batması kimi aramızdan ayrıldı Bəxtiyar Vahabzadə...

Bir millətin azadlıq mübarizəsində simvollaşmışdı Bəxtiyar Vahabzadə. «Türk» deyilincə onun üçün hər şeyin mənası dəyişirdi. Səsi titrək idi, amma eyni zamanda illərlə millətinə rəva görülən əsarətə qəzəbli idi. Bir fevral axşamında Şərqin yüksələn çinarlarından biri də yıxıldı. Bəlkə Xəzərdə yavaş-yavaş bir günəş batdı, ancaq arxada minlərlə Vahabzadə aşiqi onu son mənzilinə yola salmaq üçün gəlmişdi...

Şair ölkəsinin sərhədlərini çoxdan aşmış və Türk Dünyasının ortaq dəyəri olmuşdur. Elə bu yaxınlarda itirmişdik Çingiz Aytmatovu, ona ağlamışdı bütün ədəbiyyat aşiqləri və azadlıq üçün ürəyi çırpınanlar. Bəlkə öz torpaqlarında azad doğulan, azad böyüyən insanların bunu dərk etməsi çətindir. Lakin bir zamanlar dünyanın qüdrətli imperiyası olan SSRİ-nin əsarətində ola-ola öz mənliyini qorumağı bacarmaq və şeirlərində, hekayələrində romanlarında həmişə azadlıq ideyalarını əks etdirmək hər igidin işi deyildi. Həm Çingiz Aytmatovu, həm də Bəxtiyar Vahabzadəni o birilərindən ayıran ən əhəmiyyətli xüsusiyyətləri də məhz bu idi... O, (B.Vahabzadə – *Ə.M., Z.H.*) içindəki azadlıq atəşini və millətinin səsini əsərləri sayəsində bütün dünyaya eşitdirməyə çalışmışdır. B.Vahabzadənin əsərləri arasında ən əhəmiyyətlilərindən biri 1960-cı ildə yazdığı və parçalanmış Azərbaycan xalqının azadlıq mübarizəsini izha etdiyi «Gülüstan» poemasıdır. Bu poemasına görə 1962-ci ildə «millətçi» damğası ilə universitetdəki müəllimlik vəzifəsin-

dən uzaqlaşdırılmış, ancaq 2 il sonra təkrar işinə bərpa edilmişdir. Kitablarında, sovet rejimində milli varlığı ayaqlar altına alınan, hər cür məhrumiyyətlərə məruz qalan millətinin dərdlərini müxtəlif simvol və ədəbi üsullarla dilə gətirmiş, əsərlərində təkan olaraq həmişə başqa ölkələri göstərərək öz millətinin çətinliklərini izah etməyə çalışmışdır. Birbaşa sovet rejimini tənqid edən əsərlərini isə İttifaqın dağılmasından sonra «Sandıqdan səslər» adı ilə nəşr etdirmişdir. Şairin tabutu qarşısından keçərkən diqqəti çəkən bir xüsusiyyət onun Türk dünyasının ortaq dəyəri olduğunu bir daha göstərdi. «Bir millət, iki dövlət» düşüncəsinin bariz nümunəsini şairin həm Azərbaycan, həm də türk bayrağına sarılmış tabutunda gördüm. Bəli, şairin tabutu ay-ulduzlu bayraqlara sarılmışdı. Çünki şair «Bayraq» adlı şeirində bayrağın müqəddəsliyini çox gözəl bir şəkildə dilə gətirmişdi.

Üçrəngli bayrağın kölgəsində mən,
Qaraca torpağı Vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən,
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq öz yurduma öz hakimliyim.

Türk olduğunu və türk olmaqdan qürur duyduğunu bir çox şeirlərində özü dilə gətirirdi.

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilirsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!

Şair ən çətin şəraitlərdə belə, türk olduğunu ifadə etməklə yanaşı, müsəlmanlığını da ifadə etməkdən çəkinməmişdir. O, «Allah» adlı şeirində Uca Rəbbimizin böyüklüyünü gözəl ifadə etməyə çalışmışdı:





İdrakda yol açmış gecədən gündüzə Allah,
Güldürməsən öz könlünü, gülməz üzə Allah.
Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş,
Qəlbin gözü yanmazsa görünməz gözə Allah.
Allah! Bilirik cism deyil, bəs nədir Allah?
Ən yüksək olan haqda, həqiqətdədir Allah.
Dondunsa təkamül və gözəllik qabağında,
Dərk et, bu təəccübdə, bu heyrətdədir Allah.

İdeyalarını şeirləri ilə yazdığı onlarla kitabı ilə ölümsüzləşdirdi və arxada qalanlara misilsiz bir mədəniyyəti miras qoydu».

***Bəxtiyar kəlamlarından:***

Ömrüm boyu müstəqillik uğrunda mübarizə aparmışam qələmimlə. Həmişə istəmişəm ki, rus imperiyasından xilas olaq.

***

Ən çox qorxduğum şey təklikdir. Ruhən, fikrən tək qalmaq.

***

Vicdan olan yerdə insan ikiləşir. Vicdan olmayan yerdə isə ikiləşmir. Amma vicdan kimdə olur? Əxlaqlı adamda. Əxlaqsız adamın vicdanı olmaz. Amma əxlaqlı adamda ikinci səs var. O, bir hərəkət edir və eyni zamanda qəlbinin dərinliyindən bir səs deyir ki, düz eləmisən!

Əziz oxucu! Biz Ön və Orta Şərqin bütün dahilərinin, kəlam sahiblərinin, alim və mütəfəkkirlərinin, filosoflarının hamısının adlarını çəkib, qısa məlumat vermək fikrində deyilik. Buna imkan da yoxdur. Onların haqqında dünyada nəşr olunmuş ensiklopediyalarda, ayrı-ayrı elmi araşdırmalarda, monoqrafiyarda yetərincə məlumat verilmişdir. Lakin biz Ön

və Orta Şərqin, xüsusilə müsəlman Şərqinin bir sıra bəşəri tanınmış şəxsiyyətlərinin adını bir daha yada salmağı özümüzə borc bildik. Hansı ki, onlar dünya əhəmiyyətli nailiyyətlərə malik olmaqla, insan cəmiyyətinin intellektual təkamülünə yetərincə təsir etmişlər. Bu şəxsiyyətlər millətindən, dini etiqadından, ictimai-siyasi durumundan asılı olmayaraq, insanlar tərəfindən həmişə yad edilmiş və onların humanist ideyaları bəşərin müsbət intellektual amillərinin inkişafına təkan vermişdir.

## ÖN VƏ ORTA ŞƏRQDƏ DÖVLƏTÇİLİYİN TƏKAMÜLÜNƏ TƏKAN VERƏN ŞƏXSİYYƏTLƏR

Ön və Orta Şərqin, daha doğrusu, müsəlman Şərqinin tarixində adları dünyanın hər bir yerində dahi, müdrik şəxsiyyət kimi hörmətlə yad edilən böyük şəxsiyyətlər olmuşlar. Dahilik, müdriklik böyük tarixi şəxsiyyətlərə məxsus ortaq xüsusiyyətdir. «Müdriklik elə böyük məfhumdur ki, o, özündə şəxsiyyətin ideallarını, əməllərini, mübarizəsini, təmaslarını, söhbətlərini, ağıllı cavablarını və s. birləşdirir» (Səfalı Nəzərli). Müsəlman Şərqinin bir çox dövlət başçıları və milli qəhrəmanlarının həyat və fəaliyyətini, tarixi xidmətlərini araşdıranda, məlum olur ki, onların hər bir hərəkət və əməlləri dövlətçiliyin təkamülünə böyük təkan vermişdir. Dünyada ilk islam dövlətinin başçısı Həzrət Məhəmməd peyğəmbər (s.), 1-ci xəlifə Həzrət Əbu Bəkir (ə.), 2-ci xəlifə Həzrət Ömər (ə.), 3-cü xəlifə Həzrət Osman (ə.), 4-cü xəlifə Həzrət Əli (ə.) haqda əvvəlki bölmələrdə ətraflı məlumat vermişik. Həzrət Əlinin (ə.) Misir valisinə yazdığı məktubdan bir məqamı oxucuların nəzərinə çatdırmaq istərdik: «... vergini toplamağı, düşmənlərlə savaşmağı, əhalini sülhə və sağlamlığa qovuşdurmağı və ölkəni abadlaşdırmağı sənə əmr edirəm.» (M.Kamal Pilavoğlu, Böyük insan Həzrəti Əli, Bakı, 2008, s. 71) Burada Həzrət Əli (ə.) Misir valisinə





bütün dövlət başçılarını cəlb edəcək dörd şeyi xatırladır:

– verginin ədalətlə toplanmasını, yəni hər kəsin verə biləcəyi vergini yığmağı;

- ölkəni düşmənlərdən qoruya biləcək bir döyüş hazırlığını;

- əhali arasında ədaləti və sülhü təmin edəcək hər növ tədbirlərin görülməsini;

- ölkənin abadlaşdırılmasını.

Bu əsasdan uzaq düşən başçı ölkəni viran edər, əhali zülmə düçar olar.

Bütün dünya dövlətlərinin konstitusiyalarına şamil edilməsi vacib olan, bəşər övladını sülhə, əmin-amanlığa, normal yaşamağa sövq edən, aktuallığını bu gün də itirmyən bu 4 vacib tövsiyə, hələ 1400 il əvvəl İslam dövlət başçısı Həzrət Əli (ə.) tərəfindən irəli sürülmüşdür.

Ön və Orta Şərqin bir sıra dövlət başçıları və sərkərdələrinin həyat və fəaliyyətinə nəzər salmağı məqsədəuyğun hesab etdik.

**Cavanşir** (616–680/81). Alban (Qafqaz) hökmdarı [637–680/81]. Cavanşir Sasani ordusunun tərkibində ərəblərə qarşı vuruşan alban hərbi hissələrinin komandanı kimi döyüşlərdə fərqlənmişdir. Cavanşirin hakimiyyəti dövründə Albaniyada iqtisadi həyat dirçəlmiş, elm və mədəniyyət inkişaf etmişdi. Alban tarixinin tərtibinə də Cavanşirin dövründə başlanmışdı. Cavanşir Azərbaycan tarixinə dahi dövlət xadimi, siyasətçi və sərkərdə kimi daxil olmuşdur.

**Harun ər-Rəşid** (766–809). Abbasi xəlifəsi [786–809]. Dövləti təkbaşına idarə etmişdir. Onun dövründə Abbasilər xilafətində kənd təsərrüfatı, sənətkarlıq, ticarət, elm və mədəniyyət (əsasən, ədəbiyyat) geniş inkişaf etmişdir. Harun ər-Rəşid surəti «Min bir gecə» nağıllarında müsbət şəxsiyyət kimi təsvir olunmuşdur.

**Cavidan ibn Səhl** (?–816). Azərbaycanda xürrəmilər hərəkatının başçısı, sərkərdə, Bəzz qalasının sahibi. 807/808-ci ildə xəlifə Harun ər-Rəşidin göndərdiyi ərəb qoşunu Cavidanın başçılıq etdiyi xürrəmiləri məğlubiyyətə uğratdı. Üsyançıların

bir qismi dağlara çəkildi və Xilafətə qarşı mübarizəni davam etdirdi. Cavidan öləndən sonra Azərbaycan xalqının Xilafətə qarşı azadlıq mübarizəsinə Babək başçılıq etdi.

**Babək, Babək əl-Xürrəmi** (795–838). Görkəmli Azərbaycan sərkərdəsi və siyasi xadimi. Babəkin rəhbərliyi ilə xürrəmilər 20 ildən çox ərəblərə qarşı mübarizə apararaq, Xilafətin 6 ordusunu darmadağın etmişlər. 830-cu ildə Babəkin qoşunlarının Həmədanı alması ilə Şərq torpaqlarının Xilafətdən ayrılması təhlükəsi yaranmışdı. Babək hərəkatının getdikdə güclənməsindən qorxuya düşən xəlifə Mütəsim Bizans dövləti ilə sülh bağlayıb Xilafətin bütün hərbi qüvvələrini xürrəmilərə qarşı göndərdi. Üsyançıların şiddətli müqavimətinə baxmayaraq, ərəb qoşunları 837-ci ildə Bəzz qalasını alırlar. Babək kiçik bir dəstə ilə mühasirədən çıxıb Araz çayını keçərək Arrana gəlir. O, Bizansa gedib imperator Teofil ilə əlaqə yaradaraq yeni ordu toplamaq istəyirdi. Lakin Şəki (indiki Ermənistanın Sisyan rayonunda) hakimi, erməni əsilli Cəhl ibn Sumbatın xəyanəti nəticəsində ərəblər Babəki ələ keçirirlər. 4 yanvar 838-ci ildə Babək və qardaşı Abdulla Samirə şəhərinə aparılır, Xəlifə Mütəsim Babəki işgəncə ilə edam etdirir.

Yenə də erməni xəyanəti... Bu xəyanət tarix boyu davam etmiş və edir. Haylar heç vaxt türkə dost olmayıb və olmayacaqlar.

**Mahmud Qəznəvi** (970–1030). Qəznəvilər dövlətinin hökmdarı [998–1030], istedadlı sərkərdə, mahir siyasətçi. Onun dövründə Qəznəvilər dövlətinin siyasi qüdrəti xeyli artmış, elm və mədəniyyət inkişaf etmişdir.

**Şəmsəddin Eldəgəz, Şəms əd-din İldəniz, Şəms əd-din Eldəniz** (?–1174/75). Eldəgəz hökmdarı [1136–1174], Azərbaycan atabəyləri – Eldəgəzlər sülaləsinin və Eldəgəzlər dövlətinin banisi. Görkəmli dövlət xadimi, sərkərdə. Mənşəcə qıpçaqdır. Şəmsəddin Eldəgəz kiçik yaşlarında Dərbəndin qul bazarında satın alınmış, əvvəlcə Səlcuq sultanı Mahmudun [1118–1131] vəziri Sümeyrəminin yanında, 1122-ci ildən isə sultan sarayında xidmət etmişdir. Sultan II Toğrulun dövründə [1132–1134]





Şəmsəddin Eldəgəz əmir titulu (132-ci ildə) almışdır. Eyni zamanda sultanın oğlu Arslan şaha atabəyi təyin olunmuşdur. 1136-cı ildə ona atabəylik simvolu olan üzük, «Şəms əd-din» («Dinin günəşi») ləqəbi, həmçinin öz adından sikkə zərb etmək hüququ verildi və o, Arran hakimi təyin edildi. Şəmsəddin Eldəgəzin dövründə Azərbaycanın şimal və cənub torpaqları (Şirvandan başqa) vahid dölət tərkibində yenidən birləşdirildi və Eldəgəzlər Yaxın Şərqin ən qüdrətli dövlətinə çevrildi.

Şəmsəddin Eldəgəzin və oğulları Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın hakimiyyətləri dövründə İraq Səlcuq sultanlığı Azərbaycan Atabəylər dövləti ilə əvəz olundu və yeni bir qüdrətli dövlət - Eldəgəzlər sülaləsi tərəfindən idarə edilən və paytaxtı Həmədan olan Azərbaycan sultanlığı yarandı. Şəmsəddin Eldəgəzin dövründə Eldəgəzlər dövlətinin hüdudları Dərbənddən Fars körfəzinədək əraziləri əhatə edirdi. Şəmsəddin Eldəgəz dövründə Azərbaycan torpaqlarının vahid bir dövlət çərçivəsində birləşməsi, iqtisadiyyatın, elm və mədəniyyətin inkişafına əlverişli şərait yaratdı. (ASE, 10-cu c., s. 505-506)

**Məhəmməd Cahan Pəhləvan Əbu Cəfər Nüsrətəddin** (?–1186). Eldəgəzlər sülaləsinin 2-ci hökmdarı [1174–1186], Şəmsəddin Eldəgəzin oğlu. Məhəmməd Cahan Pəhləvanın dövründə Eldəgəzlər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrilmişdir. Mənbələrdə ağıllı və tədbirli hökmdar kimi adı çəkilən Məhəmməd Cahan Pəhləvan elm və incəsənətin inkişafına himayədarlıq etmiş, ölkədə xeyli tikinti və abadlıq işi aparmışdır. Mömünə xatın türbəsinin və yaxınlığındakı minarəli baştağın tikintisi onun dövründə başa çatdırılmışdı. Ölkə iqtisadi cəhətdən inkişaf etmiş, Azərbaycan şəhərləri Yaxın Şərqin iri ticarət mərkəzinə çevrilmişdir.

**Qızıl Arslan Osman Müzəffərəddin** (?–1191). Eldəgəzlər sülaləsinin 3-cü hökmdarı. Qardaşı Cahan Pəhləvanın ölümündən sonra hakimiyyətə keçmişdir. Qızıl Arslan onun oğlanlarının – Əbu Bəkr, Özbək və sonuncu Səlcuq sultanı III Toğrulun [1177–1194] atabəyi idi.

Qızıl Arslan ədəbiyyatı sevir, şairlərə qayğı göstərirdi. Qızıl Arslan Gəncədə olarkən Nizami ilə görüşmüşdür. Nizami «Xosrov və Şirin» poemasını ona təqdim etmiş, hökmdar isə Həmdünyan kəndini şairə bağışlamışdır.

Qızıl Arslan dövründə Şimali və Cənubi Azərbaycan vahid bir dövlət daxilində birləşdi. Azərbaycanın vahid bir dövlət olması iqtisadiyyatın, elm və mədəniyyətin inkişafına geniş şərait yaratdı. Təbriz, Gəncə, Naxçıvan və s. Azərbaycan şəhərləri Yaxın Şərqin iri ticarət mərkəzlərinə çevrildi.

**Məlik şah Əbu-l-Fəth, Cəlal əd-din** (1055–1092). Yaxın və Orta Şərq ölkələrində hökmranlıq etmiş Böyük Səlcuqilər sülaləsindəndir. Onun dövründə Səlcuqilər dövləti daha da güclənmiş, ərazisi xeyli genişlənmişdi. Elm və incəsənəti sevən və ona himayədarlıq edən Məlik şah Ömər Xəyyamın hazırladığı təqvim islahatını («Tarixi-Maliki», yaxıd «Cəlali dövrü» adlanır) həyata keçirmişdir.

**Qazan xan, Qazan Mahmud** (1271–1304). Elxani hökmdarı [1295–1304]. Qazan xan gəncliyində Xorasan, Mazandaran və Rey hakimi olmuşdur. 1295-ci ildə keçirilən monqol əyanlarının qurultayında elxan elan edilmişdir. Buddizm ruhunda tərbiyələnmiş Qazan xan hakimiyyətə keçəndən bir qədər sonra yerli müsəlman zadəganlarının və ruhanilərinin, habelə köçəri monqol əyanlarının müsəlman hissəsinin yardımına arxalanmaq üçün İslam dinini qəbul etmiş və özünü Mahmud adlandırmışdır. Qazan xanın dövründə İslam dini yenidən rəsmi dövlət dininə çevrildi.

Dövrünün görkəmli şəxsiyyəti olan Qazan xan elm və sənəti yüksək qiymətləndirirdi. O, təbabət, astronomiya, kimya, həmçinin xalq sənəti ilə maraqlanırdı. Fars, türk və s. dilləri yaxşı bilən Qazan xan alimlərə himayədarlıq edirdi. Rəşidəddin «Cami ət-təvarix» əsərini yazarkən Qazan xanın məlumatlarından faydalanmış, onun köməyindən istifadə etmişdir. Qazan xan Elxanilər dövlətini möhkəmləndirmək məqsədilə torpaq mülkiyyəti, vergi, pul, ölçü, çəki və s. islahatlar həyata keçirmişdir. O, əhalinin vəziyyətinin nisbətən yaxşılaşmasına, iqtisadiyyatın dirçəlməsinə şərait yaratmışdır.





**Rəşidəddin, Rəşid əd-Din Fəzlullah Əbu-l-Xeyr Həmədani** (1247–1318). Tarixçi və dövlət xadimi, həkim. Qazan xanın vəziri olmuşdur. Ölkənin iqtisadi həyatını dirçəltmək məqsədilə keçirilmiş Qazan xan islahatlarının təşəbbüsçüsü idi. Rəşidəddin Elxani hökmdarı (1304–1316) Ölcaytunun ölümündə günahlandırılaraq edam edilmişdir.

Görkəmli tarixçi olan Rəşidəddinin «Cami ət-təvarix» (1310–1311), «Məkatibat» («Məktublar») əsərləri Elxanilər dövlətinə daxil olan ölkələrin, o cümlədən Azərbaycanın XIII–XIV əsrlər siyasi və sosial-iqtisadi tarixinin öyrənilməsində mühüm mənbələrdəndir. O, tibb, təbiyyat, fəlsəfə, fiqh və s. elm sahələrinə aid əsərlər yazmışdır.

**Osman I Qazi** (1258–1324). Türk sultanları sülaləsinin banisidir. Bu sülalə 1299-cu ildən 1922-ci ilədək (əslində 1924 ilədək) davam etmişdir. Təqribən 1281-ci ildə Konya sultanlığının şimal-qərbində sərhəd ərazisində yerləşən, atası Ərtoğruldan irs qalmış mülkləri sonralar müstəqil əmirliyə çevirmiş və I Osmanın adı ilə adlanan Osmanlı imperiyasının özəyini təşkil etmişdir. XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başladı. XI–XVI əsrlərdə Asiya, Avropa və Afrikadakı türk istilaları nəticəsində Osmanlı imperiyası dünyanın ən böyük dövlətlərindən birinə çevrildi.

Osman oğullarının – türk sultanlarının görkəmli nümayəndələri: I Qazi, I Murad [1362–1389] İldırım Bayazid [1389–1402]; II Məhəmməd Fateh [1444 və 1451–1481]; I Səlim Yavuz [1512–1520]; I Süleyman Qanuni [1520–1566]; III Səlim [1789–1807]; II Mahmud [1808–1839]; II Əbdülhəmid [1876–1909] və axırıncı Osmanlı sultanı VI Məhəmməd Bahidəddin [1918–1922].

**Məhəmməd II Fateh,** Mehmet II Fateh (1429–1481). Osmanlı Sultanı [1444–1446; 1451–1481].

Fateh Sultan Mehmet ilk dəfə 13 yaşında hakimiyyətə keçmiş və bir müddət sonra hakimiyyəti əlindən alınmışdır. 1451-ci ildə yenidən taxta çıxan Sultan Mehmetin dövründə Os-

manlı imperiyasının ilk qanunvericilik məcəlləsi tərtib edilmişdir. Ana dilindən başqa yunan, italyan, fransız, ərəb və fars dillərini bilən Sultan Mehmet elmi sevmiş və elm adamlarına arxa olmuşdur. «Sahni Səman» adında tikdirdiyi ilk mədrəsə ilə bu günün universitetinin əsasını qoymuşdur.

2 imperatorluğu, 4 krallığı, 6 knyazlığı, 4 əyaləti tutaraq 17 dövləti dünya xəritəsindən silmiş və torpaqlarını, həmçinin bütün Balkan yarımadasını öz imperatorluğuna – türk dövlətinə qatmışdı. Qara dənizi bir türk dənizi etmiş, boğazlarda hakimiyyətini möhkəmlətmiş, Çanaqqala və İstanbul boğazlarını tutmuşdur.

Osmanlı imperatorluğunu möhkəmlədən Mehmet II Fateh bir dövrü qapayıb, yeni bir dövr açmış, İntibah dövrünə atalıq etmişdir.

Mehmet II Fatehin xocası – müəllimi Ağşəmsəddinin islam peyğəmbərlərinin «Konstantinopolu, əlbəttə, fəth edən sərkərdə nə yaxşı sərkərdədir, onun əsgərləri nə yaxşı əsgərlərdir» müjdəsinin məhz ona, Mehmet xana aid olacağını söylədi. Bu inancla 29 may 1453-cü il sərşənbə axşamı günü İstanbul fəth edildi. İstanbulun fəth olunması həm türk tarixi, həm də dünya tarixi üçün mühüm hadisədir. İstanbulun fəth olunması ilə II Mehmet xan «Fateh» titulu aldı. İstanbul 467 il (1453–1920) Osmanlı dövlətinin paytaxtı oldu.

**I Süleyman Qanuni** (1495–1566). Türk sultanı [1520–1566]. Onun siyasəti nəticəsində Osmanlı imperiyası dövrünün ən qüdrətli dövlətinə çevrilmiş və ərazisi xeyli genişlənmişdir. Süleyman Qununinin dövründə ölkənin daxili vəziyyətini nizama salmaq məqsədilə qanunlar məcəlləsi (qanunnamə) tərtib edilmişdir.

**Əmir Teymur, Teymurləng** (1336–1405). Dövlət xadimi, sərkərdə, Teymurilər imperiyasının banisi.

Qaşqadərya vilayətinin hakimi olmuşdur. Sağ dizindən və çiynindən yaralandığına görə ayağı qatlanmırdı. Ona görə də ona «Teymurləng» (Topal Teymur) ləqəbi verilmişdi. 1361-ci ildə Toğluq Teymurun yanında xidmətə girən Teymur, sonralar Səmərqənd və Bəlx hakimi Hüseynlə ittifaq bağlayıb, Toğluq Teymura və oğlu İlyas Xocaya qarşı mübarizə aparmışdır. O, Hüseynlə birlikdə Səməpqənddə başlanmış üsyanı yatırdır. Hakimiyyət uğrunda mübarizə aparan Teymur 1370-ci ildə Hüseynə qalib gəlir və əmir titulu alır.





İşğalçılıq yürüşlərinə başlayan Teymurləng 1386-cı ildə Təbrizə, Naxçıvana, Qarsa, Tiflisə, Şəkiyə, Qəbələyə, Qarabağa hücum etmişdi. «Beşillik» (1392-ci ildən) və « yeddiillik» (1399-cu ildən) yürüşlər zamanı Azərbaycana da hücum etmişdi... 1404-cü ildə Səmərqəndə qayıdan Teymur orada xəstələnib ölmüşdür.

«Erməniləri bir millət kimi Yer üzündən silmədiyim üçün gələcək xalqlar ya məni alqışlayacaq, ya da ki, lənətləyəcək» (Əmir Teymur).

Əmir Teymurun vəsiyyətlərindən:

«Birincisi, öz səltənətimi İslam dini əsasında qurdum, xeyiri və ehsanı əskik olmayan şəriətə bağladım, hörmət-izzət bəslənilməsi zəruri olan peyğəmbərlərin övladlarına və əshabələrinə məhəbbət əsasında qaydaya saldım. Səltənətimin mərtəbələrini qanun-qayda əsasında o cürə saxladım ki, bir kimsənin səltənətin işlərinə qarışmağa, ona ziyan yetirməyə ixtiyarı çatmadı.

İkincisi, hərbiçiləri və rəiyyəti ümid ilə qorxu əsasında saxladım, dost-düşməni güzəştlə barışıq mərtəbəsində tutdum. Tutduqları əməlləri, dedikləri sözləri bəzən səbirlə, hövsələ ilə, bəzən də bildiyimi bilməməzliyə vurmaqla yola verdim. Mənim boynumda bir kimsənin haqqı vardırsa, o haqqı heç vaxt unutmadım. Bir kimsə ilə tanış oldumsa, o kimsəni heç vaxt diqqətimdən kənara qoymadım.

Üçüncüsü, heç kəsdən intiqam almaq niyyətində olmadım. Çörəyimi yeyib, əvəzində pislik edənləri pərvərdigari-aləmə tapşırdım. İş bacaran, şücaətli ər igidləri öz yanımda saxladım. Saf ürəkli adamların, seyidlərin, alimlərin və fazillərin üzünə qapım həmişə açıq oldu. Bədnəfəsli xəsisləri, könlüpozuq qorxaqları məclisimdən çıxarıb qovdum.

Dördüncüsü, xalqı özümə xas üzlə, rəhm və şəfqətlə ram elədim. İşimi ədalət ilə yetirdim, cəbirdən, zülmdən uzaq olmağa can atdım..!» («Əmir Teymurun vəsiyyətləri», özbəkcədən çevirəni Məti Osmanoğlu, Bakı, 1991)

**Şah İsmayıl Xətai** (1487–1524). Azərbaycan Səfəvilər dövlətinin banisi, dövlət xadimi, sərkərdə, şair. İlk dəfə Azərbaycan türkcəsini dövlət dili səviyyəsinə yüksəltmişdir. 1501-ci ilin payızında Ş.İ.Xətai paytaxtı Təbriz olan Azərbaycan Səfəvilər dövlətinin əsasını qoydu. Sonrakı illərdə Şah İsmayıl Xətai bütün İranı, Xorasanı, İraqı Səfəvilər dövlətinə qatır. Şah İsmayılın Səfəvilər dövləti Yaxın Şərqin qüdrətli dövlətlərindən birinə çevrilir. Şah İsmayıl Xətai şiəliyi rəsmi dövlət dini mövqeyinə qaldırdı. O, şiəliyi həm də sünni olan Ağqoyunlulara, Şirvanşahlara, Şeybanilərə və osmanlılara qarşı mübarizə bayrağına çevirmək məqsədi güdürdü və buna nail olmuşdu. Qonşuluqda Səfəvilər kimi qüdrətli bir dövlətin yaranması Osmanlı dövlətini çox narahat edirdi. 1514-cü ildə Sultan I Səlimin [1512–1520] başçılıq etdiyi Osmanlı ordusu ilə Çaldıran düzündə baş vermiş döyüşdə qızılbaşlar məğlubiyyətə uğradılar.

Şah İsmayıl Xətai 37 yaşında, həyatının, yaradıcılığının, arzularının ən qaynar bir çağında dünyadan köçdü. Lakin o, tarixə istedadlı bir sərkərdə, şair kimi həkk olundu. Şah İsmayılın yüksək hərbi istedadı haqqında K.Marks yazmışdır: «Səfəvilər xanədanının banisi Şah İsmayıl fateh idi. O, 14 illik hakimiyyəti dövründə 14 əyalət fəth etmişdi.» O, elmə, mədəniyyətə, hətta idmana həvəs göstərən bir şəxs idi. Şah İsmayıl Uzun Həsənin Təbrizdə yaratdığı məşhur kitabxananın nəzdində yeni tipli geniş bir kitabxana açmışdı ki, buradan nəinki öz ölkəsinin əhalisi və alimləri, hətta qonşu ölkələrin alimləri də istifadə edirdilər. Şah İsmayıl məğrur, azad fikirli, öz qüdrətinə inanan bir sərkərdə, həqiqət yolundan zərrə qədər kənara çıxmayan, nəcib insan idi. Rəvayətə görə, Şah İsmayıl dərviş paltarı geyərək məmləkəti gəzib dolaşar və xalqın dərd-səri ilə maraqlanarmış.





Ş.İ.Xətai az yaşamasına, vaxtının çoxunu dövlət işlərinə sərf etməsinə baxmayaraq çoxcəhətli bir irs yaratmışdır. Onun poeziyası çox vaxt ictimai-siyasi fəaliyyəti ilə birləşmişdir. Bu poeziya qəhrəmanlığa, gözəlliyə, mənəvi saflığa məhəbbətlə, şərə, eybəcərliyə, dönüklüyə, sədaqətsizliyə, cılızlığa nifrətlə doludur. Dünyagörüşü etibarilə panteist (aləmi Allahla eyniləşdirən fəlsəfi təlim) olan şair, Mənsur Həllac və İmadəddin Nəsimi kimi, «ənəlhəq» («mənəm Allah») şüarına, ideyasına tərəfdar çıxıb, özünü «vəhdət gülüzarının bülbülü» adlandırır.

Çün Xətaidir bu gün gülzari-vəhdət bülbülü,
Dəxi ol, zaği-siyəh gülzarə gəlməsin.

Şairin sufi olması onun poeziyasına da güclü təsir göstərmiş, onu daha cəsarətli etmiş, humanist ruh vermişdir. Lakin bu cəsarət Xətainin yaradıcılığını sırf təriqət poeziyasına çevirməmişdir. O, bütün məqamlarda real həyat və real insan haqqında düşünmüş, real insana müraciətlə yazıb-yaratmış, onun hisslərindən, qayğılarından söhbət açmışdır.

Xətainin şeirlərində xeyir və şər anlayışları ilə bağlı fikirlər də vardır. O da dahi Nizami kimi belə hesab edir ki, insan yaxşı-yaman nə iş tutsa, onun bəhrəsini görəcək, pis əməl sahibi öz əməlləri üçün xəcalət çəkəcəkdir. Xətainin şeirlərində insan, lirik qəhrəman, məğrur, azad fikirli, öz qüdrətinə inanan bir varlıq kimi tərənnüm olunur. Onun ölməzliyi, əbədiliyi, ağıllı, düşmənlərin canına vəlvələ salmağa qadir bir şəxs olması dönə-dönə nəzərə çatdırılır.

Dahi Nizami yolunu davam etdirən Xətai də sufiləri halal və haram yola gedənlər adı ilə iki yerə ayırır. O, ən yüksək insanı keyfiyyətləri əsl sufilər arasında axtarır, öz müridlərini əsl sufi kimi hərəkət etməyə, sufi – insan adını uca tutmağa çağırır.

Sufi isən, alıb-satma,
Halalına haram qatma,

Yolun əyrisinə getmə,
Doğru yola nəzər eylə.

**Nadir şah Əfşar,** Nadirqulu xan (1688–1747). Dövlət xadimi, sərkərdə. Nadir şah tarixdə qətiyyətli hökmdar, bacarıqlı hərbiçi və sərkərdə kimi tanınmışdır. Onun hakimiyyətə gəlməsi Azərbaycanın taleyində mühüm rol oynamışdır. Belə ki, ölkə daxilində türk tayfalarının bir dövlət halında birləşməsinə nail olmuş, hərbi sahəni yeniləşdirmiş və möhkəmləndirmişdir. Müasir tarixçilər onu Makedoniyalı İsgəndər, Çingiz xan, Əmir Teymur, Şah İsmayıl, Napoleon kimi dövlət xadimləri və sərkərdələrilə bir sıraya qoyurlar. Nadir şahın əsas məqsədi və arzusu Böyük Turan, İslam-Türk dövləti yaratmaq olmuşdur. O, həmişə Osmanlı türkləri ilə azəri türklərinin eyni bir millət kimi birləşməsinə səy göstərmiş, iki nəhəng türk dövləti xalqlarının yalnız məzhəbə görə bir-biri ilə düşmənçilik etməsinin qəti əleyhinə olmuşdur. Nadir şahın dahiliyi onda idi ki, o bəzən münaqişələri müharibəsiz həll etməyi bacarırdı. Nadir şah «hər şey Vətən üçün», «hər şey Azərbaycan üçün» kəlamlarını çox işlədərmiş.

Nadir şah ilk dəfə hərbi dəniz donanması yaratmışdır. O, 1743-cü ildə Xəzərdə gəmiqayırma zavodu tikdirmişdi. Onun səyi ilə top istehsal edən zavodlar inşa edilmiş, yeni şəhərlər salınmışdı. Nadir şahın bilavasitə səyi ilə milli kadrlar hazırlamaq üçün hərbi məktəblər açılmışdı. Erməni hiyləsi Nadir şahdan da yan keçməmişdir. Onun görüşünə gələn erməni katolikosu Abram Nadir şahdan xahiş edir ki, bir fərman versin, bütün alban kilsələri ermənilərə tabe olsun. Həmin kilsələrdə erməni kahinləri xidmət etsin. Hiyləgər katolikos onu da xahiş edir ki, Qarabağa bir neçə erməni ailəsi köçürülsün. Əlbəttə ki, Nadir şah kimi dahi dövlət xadimini aldatmaq o qədər də asan deyildi.

***Nadir şahın kəlamlarından:***

Doğrusu, şiə və sünni adı eşidə bilmirəm. Gərək bu iki məzhəb birləşə. Çünki ədavət bilmərrə götürülər, mədəniyyət artar, millət qüvvətlənər.

***

...xəzinədə pul olmasa, qoşun saxlamaq olmaz. Qoşun olmazsa, vətən saxlamaq olmaz. Vətən gedərsə, məscid də olmaz və bəlkə din də əldən gelər...

***

Bir dövlətin ki, fəqiri çox oldu, o dövlətin tez puç olmağına ehtimal var...

**Ağa Məhəmməd şah Qacar** (1742–1797). Dövlət xadimi, hərbi sərkərdə. 1794-cü ildə çətin və ağır mübarizələr nəticəsində İranda hakimiyyəti ələ alan, 1796-cı ildə isə özünü şah elan edən Ağa Məhəmməd şah Qacar azərbaycanlı, daha doğrusu, Qacarlar tayfasından olan Azərbaycan türkü idi. İstər xan, istərsə də şahlıq edərkən onun döyüşən ordusunun xeyli hissəsini Azərbaycan türkləri təşkil etmişlər.

Bu bir tarixi həqiqətdir ki, Səfəvilər dövründən başlayaraq bütün aran və dağ Qarabağda, xüsusən Gəncədə, fasilələrlə, təxminən 300 il Qacarlar sülaləsindən olanlar hakimiyyətə başçılıq ediblər. Ağa Məhəmməd şah Qacar da həmin nəslin yetişdirməsi idi.

Hakimiyyət başına gələn Qacarı o vaxt 3 məsələ xüsusilə narahat edirdi:

1. İlk növbədə, Azərbaycanın qədim və tarixi torpaqlarının Rusiya tərəfindən işğal olunması və həmin ərazilərdə yerli əhalinin sıxışdırılması hesabına xristianların məskunlaşdırılması.
2. Bir ovuc, ermənininin nəyin hesabına olursa-olsun, Qarabağı Rusiyanın tərkibinə daxil, etdirib bu yerlərdə əl-qol açaraq erməni məskənləri yaratmaq niyyətləri.
3. Gürcüstanın hər yerində müsəlmanları sıxışdıraraq, Rusiyaya baş əyən və bütün Qafqazı Rusiya imperiyasının ayağına verməyə can-başla hazır olan, bütün bunlar da az imiş kimi, Qarabağ hakimi İbrahim xanın nə yolla olursa-olsun, mütəmadiyən digər Azərbaycan xanlıqlarından uzaqlaşmasına, onu yalnız öz tərəfinə çəkməyə can atan II İraklinin çoxbaşlı siya-

səti.

Bunlardan başqa qətiyyətlə demək lazımdır ki, Qacar Qafqaza hücum planı hazırlayarkən, əsasən, vaxtilə mövcud olmuş Səfəvilər dövlətinin sərhədlərini bərpa etmək məqsədi güdürdü.

Hörmətli oxucu! Deyilənləri nəzərə alaraq qeyd etməliyik ki, Ağa Məhəmməd şah Qacarla bağlı Azərbaycan tarixşünaslığında, bədii ədəbiyyatımızda mövcud olan əsərlərin çoxu dövrün siyasi süzgəcindən keçdiyi üçün, heç də obyektiv qələmə alınmayıb.

Dərin düşünsək, görərik ki, bu gun Qarabağda baş verən faciələrin, onun işğalının bir qolu məhz həmin dövrlərə gedib çıxır.

**Bəhmən Mirzə Qacar** (1811–1884). Dünyada hələ heç kimə verilməmiş «Qəhrəman ata» fəxri adına layiq görülmüş yeganə şəxsdir. Tarixçi, Abbas Mirzənin oğlu, «Məhəmməd şah təzkirəsi» (1832) və s. əsərlərin müəllifidir. 1842-ci ildən Cənubi Azərbaycanın hakimi olmuşdur. 63 övladının hamısına ali təhsil verib, onların 21-i zabit olub, 8 nəfəri general rütbəsi alıb.

**Şeyx Şamil** (1797–1871). Dağıstan və Çeçenistanda çar-rus müstəmləkəçilərinə qarşı mübarizənin rəhbəri, imamlığın başçısı. 1835-ci ilin yayında imam seçilən Şamil o vaxtdan dağlıların azadlıq mübarizəsinə başçılıq etmişdir. Şəxsi igidliyi, sərkərdəlik bacarığı, gözəl natiqliyi Şamilə geniş şöhrət qazandırmışdır. Azad kəndlilərə və ruhanilərə arxalanan Şamil – teokratik dövlət – imamlıq yaratmışdır. İmamlıqda dünyəvi və dini hakimiyyət Şamilə məxsus idi. 1859-cu ilin avqustunda Şamil çar ordusu tərəfindən mühasirəyə düşmüş, fəxri şərtlərlə təslim olmuşdur. 1870-ci ildə Şamilə Məkkəyə ziyarətə getməyə icazə verilmişdi. Lakin o, Məkkəyə çatmamış, Mədinədə vəfat etmişdi.

**Mustafa Kamal Paşa Atatürk** (1881–1938). Dövlət xadimi, böyük sərkərdə. Tanınmış naşir-jurnalist «Müdrik Atatürk» (Bakı, 2006) əsərinin müəllifi Səfalı Nəzərli yazır: «Şəxsən mənim Atatürkün şəxsiyyətinə vurğunluğumun ilk səbəbi yaxşı yadımdadır. Bir dəfə Türkiyədən «Göytürk» nəşriyyatına) qonaq gəlmiş bir türk ziyalısı Atatürkün qəhrəmanlığından danışaraq, onun müharibənin ən gərgin bir vəziyyətində öz əsgərlərinə: «Mən sizə ölməyi əmr edirəm!» – deyərək hücuma səsləndiyini söyləyəndə tüklərim biz-biz oldu. Dünya müharibə tarixində analoqu olmayan belə bir əmri kim verə bilərdi? Ancaq Atatürk! Vətənini canından artıq sevən Atatürk!»





***Mustafa Kamal Atatürk:***

«Mən hər şeydən əvvəl türk milliyyətçisiyəm. Belə doğuldum. Belə öləcəyəm. Türk birliyinin bir gün həqiqət olacağına inancım vardır. Sabahın tarixi yeni səhifələrini türk birliyi ilə açacaqdır. Dünya asudəliyini bu səhifələr içərisində tapacaqdır.»

Bəli, bu müdrik kəlamlar türk millətinin mərd, cəngavər oğlu, qeyrətli sərkərdə, Türkiyə Respublikasının yaradıcısı, marşal Qazi Mustafa Kamal Atatürkə məxsusdur.

***Heydər Əliyev Atatürk haqqında:***

Mustafa Kamal Atatürk nə qədər müdrik adamdır... Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir.

***

Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan dostluğunun və qardaşlığının gələcək yoluna parlaq işıq saçır.

***

Türkiyə islam ölkəsi olsa da, heç vaxt dünya demokratiyasından, Şərq aləmindən, İslam aləmindən ayrı düşməmişdir. Bunun da əsasını, təməlini unudulmaz öndərimiz Mustafa Kamal Atatürk qoymuşdur.

***

Azərbaycan xalqı öz milli azadlığı uğrunda mübarizə aparırkən, milli istiqlaliyyətinə nail olmağa, milli dövlətçiliyini ya-

ratmağa çalışarkən daim Türkiyə xalqının dəstəyinə, dayağına arxalanmış, Mustafa Kamal Atatürkin qoyduğu yolla gedən Türkiyə Cümhuriyyətinin təcrübəsindən bəhrələnmişdir.

**Nuru Paşa** (1889–1949). Türk generalı, sərkərdə. Nuru Paşa Trablis-Qərb cəbhəsində italyan qoşunlarına qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlıq və sərkərdəlik qabiliyyətinə görə tarixi ədəbiyyatda «Trablis qəhrəmanı» kimi şöhrətləndirilir.

1918-ci ilin yazında Osmanlı Türkiyəsi Azərbaycanı və Dağıstanı xilas etmək üçün qərargah yaradanda, Qafqaz İslam Ordusunun komandanı vəzifəsinə, 29 yaşı olmasına baxmayaraq, böyük döyüş təcrübəsi olan və cəsur hərbçi kimi tanınan Nuru Paşa təyin edildi. Ona növbədənkənar general rütbəsi verildi.

Nuru Paşa bir hərbiçi kimi uğurunu Azərbaycanda əldə etdi. Burada qazandığı qələbələrlə təkcə Osmanlı dövlətinin deyil, Azərbaycanın da hərb tarixinə və ümumən Türkiyə–Azərbaycan tarixinə parlaq səhifələr yazdı. 1918-ci ilin mayında Azərbaycana gələn Nuru Paşa Qafqaz İslam Ordusunun yaradılmasında və təşkilatlanmasında, Azərbaycana türk qüvvələrinin vaxtında gətirilməsində, nəhayət, Azərbaycanın düşmənlərdən təmizlənməsində əvəzsiz rol oynamışdır. Nuru Paşanın qoşunları 1918-ci il iyunun 17-dən sentyabrın 14-dək bir-birinin ardınca uğurlu döyüş əməliyyatları apararaq, Azərbaycan torpaqlarını bolşevik-daşnak qaniçənlərindən təmizlədi və həmin ilin 15 sentyabrında Bakı azad edildi. Bakının azad olunması ilə əlaqədar Osmanlı Türkiyəsinin hərbi naziri Ənvər Paşanın Xəlil Paşa və Nuru Paşaya göndərdiyi təbrik teleqramında deyilirdi: «Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir yeri olan Bakı şəhərinin fəthi xəbərini böyük sevinc və məmnunluqla qarşıladım. Türk və İslam tarixi bu xidmətləri unutmayacaqdır. Qazilərimizin gözündən öpür, şəhidlərimizə fatihələr ithaf edirəm».

**Məhəmməd Nuru Hacı İlyas oğlu Sarıkərimli, Mehmet Nuri Bərköz** (1889–1975). Qurtuluş savaşının iştirakçısı, peşəkar





hərbçi, general-polkovnik. O, Türkiyə Silahlı Qüvvələri Baş Qərargah rəisinin əməliyyat məsələləri üzrə müavini, Türkiyə Jandarmeriyasının Baş komandanı olmuşdur. Əslən azərbaycanlıdır. Şəkidə anadan olmuşdur.

**Mahmud Nuru Hacı İlyas oğlu Sarıkərimli, Mahmud Bərköz** (1895–?). Mehmet Bərközün kiçik qardaşı – ordu generalı. Hazırda Türkiyə ordusunun Ərzincan ərazisindəki təlim mərkəzlərindən birinin azərbaycanlı (əslən şəkili) ordu generalı Mahmud Bərközün adını daşıması onun türk milləti və dövləti qarşısındakı xidmətlərinin unudulmadığını göstərir.

**Həsən Behçət** (?–?). Türk ordusunun generalı, azərbaycanlı (əslən şəkilidir).

**Əliağa İsmayıl Ağa oğlu Şıxlinski** (1865–1943). Azərbaycanın görkəmli hərb xadimi, çar Rusiyası və Azərbaycan ordusunun generalı, tanınmış hərbiçi alim. O, 1904–1905-ci illərdə Rusiya – Yaponiya müharibəsində iştirak etmiş, göstərdiyi igidliyə görə 4 ordenə, podpolkovnik rütbəsinə, qiymətli hədiyyələrə layiq görülmüşdür. Ə.Şıxlinski 1914-cü ilin sentyabrında Petroqradın artilleriya hücumundan müdafiəsinin rəisi təyin edilmişdir. 1917-ci ilin aprelində general-leytenant rütbəsinə layiq görülmüşdür. O, 1917-ci il dekabrın 11-dən təşkilinə başlanan Müsəlman Korpusunun komandiri təyin edilmişdir. 1920-ci ilin iyununda bolşevik həbsinə məruz qalsa da, N.Nərimanovun müdaxiləsi ilə azad edilmişdir. 1920-ci ilin avqustunda S.Mehmandarov ilə birlikdə Ə.Şıxlinski Baş Qərargahda işləmək üçün Moskvaya göndərilərkən N.Nərimanov V.İ.Leninə yazmışdır: «... Biz onları Qərargahda işləmək üçün Sizin sərəncamınıza göndəririk, çünki bir hərbi mütəxəssis kimi onlar əvəzedilməzdirlər. Onlardan biri – Şıxlinski Nikolay ordusunda «artilleriyanın Allahı» hesab olunurdu...»

Şıxlinski artilleriya nəzəriyyəsinə yeniliklər («Şıxlinski üçbucağı», «Şıxlinski formulu») gətirmişdir.

O, «Cəbhədə səhra toplarının işlədilməsi», «Rusca-türkcə müxtəsər hərbi lüğət» kitablarının və bir çox hərbi-nəzəri məqalənin müəllifidir.

1942-ci ildə görkəmli Azərbaycan filosofu, SSRİ EA Azərbaycan filialının sədr müavini Heydər Hüseynovun təklifi ilə Ə.Şıxlinski öz xatirələrini yazmağa başlamış, 1943-cü ildə tamamlayaraq rus dilində çap etdirmişdir. «Xatirələrim» 1984-cü ildə Azərbaycan dilində nəşr olunmuşdur.

**Cavad bəy Məmmədağa oğlu Şıxlinski** (1875–1959). Hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun general-mayoru, Əliağa Şıxlinskinin qardaşı oğludur. O, 1918-ci ilin sentyabrın 3-də Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət olan Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa tərəfindən Türkiyənin hərbi medalına təqdim olunmuşdur. C.Şıxlinski Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1919-cu il 25 iyun tarixli qərarı ilə general-mayor rütbəsinə layiq görülmüşdü.

Cavad bəy Şıxlinski Gəncə üsyanının (1920) rəhbərlərindən biri olmuşdur.

**Səməd bəy Sadıq bəy oğlu Mehmandarov** (1857– 1931). Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, görkəmli hərbi xadim, tam artilleriya generalı (general-polkovnik) S.Mehmandarov 1904–1905-ci illər Rusiya–Yaponiya müharibəsində iştirak etmiş, Port-Arturun Şərq cəbhəsinin artilleriya rəisi olmuşdur. Birinci dünya müharibəsində (1914–1918) diviziya komandiri olan S.Mehmandarov şəxsi igidlik göstərməklə fərqlənmişdir.

1918-ci il dekabrın 25-də o, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri təyin edildi. Zabit kadrlarının sayının artırılmasını S.Mehmandarov ordu quruculuğunun milli zəmin üzərində təkmilləşdirilməsinin mühüm şərti sayırdı. Məhz onun təşəbbüsü ilə Gəncə hərbi məktəbinin bazasında əvvəlcə praporşiklər, sonra isə hərbiyyə məktəbləri açıldı. Eyni zamanda İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi, Şuşa hərbi-feldşer məktəbi fəaliyyətə başladı.

S.Mehmandarov orduda rəsmi dilin Azərbaycan dili olduğunu elan edərək, azərbaycanlı döyüşçülərin Qurani-Kərimin altından keçməklə, Vətənə sədaqət andı içmələrini vacib





sayırdı. Azərbaycan dilinin öyrənilməsinə göstəriş verən S.Mehmandarov, əsgər marşlarının Azərbaycan dilində oxunmasını tələb edirdi. O, milli və tarixi rəmzləri özündə əks etdirən döyüş bayraqlarının və geyim formalarının layihələrini təsdiq etdi. Azərbaycan xalqının zəngin hərbi tarixinin öyrənilməsinə və hərbi qulluqçular arasında yayılmasına, hətta əsgərlərin qida rasionunda milli xörəklərin üstünlük təşkil etməsinə çalışırdı.

1920-ci ildə aprel işğalı ilə əlaqədar S.Mehmandarov vəzifəsindən istefa verdi. Azərbaycan müstəqilliyinin qənimi olan bolşevik-daşnak başkəsənləri Mehmandarovu Gəncə üsyanının təşkilində günahlandıraraq Ə.Şıxlinski ilə birlikdə həbs etdilər. Yalnız N.Nərimanovun işə qarışması sayəsində hər iki vətənpərvər hərbiçi bolşevik-daşnak terrorundan azad oldu.

S.Mehmandarov xalqın maariflənməsini son dərəcə vacib sayırdı və dövri mətbuat orqanlarında bu mövzuda bir sıra yazılar çap etdirmişdi. Onun ictimai narahatlığını əks etdirən: «Müsəlmanların geriliyinin səbəbləri», «Nə etməli», «İbtidai qiraət dərsləri», «Müsəlman mühafizəkarlıq əleyhinə», «Şiələrin dini şəbihləri», «Müsəlmanların öz-özlərinə işgəncə verməməri haqqında» və s. məqalələri Tiflisdə nəşr olunan «Novoye obozreniye» qəzetinin səhifələrində dərc olunmuşdu.

**Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə** (1884–1955). Görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində «Müsavat» və bitərəflər fraksiyasının sədri, publisist. Gənc yaşlarından inqilabi hərəkata qoşulmuş, «Müsəlman Gənclik Təşkilatı» adlı gənc azərbaycanlı inqilabçılar dərnəyi yaratmış və ona başçılıq etmişdir (1902–1903). 1904-cü ildə o, Rusiya Sosial-Demokrat Fəhlə Partiyası Bakı Komitəsi nəzdində «Müsəlman sosial-demokrat «Hümmət»» qrupunun yaradılmasında iştirak etmişdir.

M.Rəsulzadə mətbuatda millətlərə, tayfalara, siniflərə, insanlara hüquq bərabərliyi, azadlıq tələb edən yazılarla çıxış

edir və zaman keçdikcə bu siyasi tələbləri «insanlara hürriyyət, millətlərə istiqlal» çağırışı kimi formalaşırdı. O, məqalələrində Rusiyanın Azərbaycanda yeritdiyi milli qırğın siyasətini kəskin tənqid edirdi. «Türkləşmək, islamlaşmaq və müasirləşmək» («Türk qanlı, İslam imanlı, Avropa qiyafəli») məfkurəsi M.Ə.Rəsulzadənin milli-siyasi görüşlərinin formalaşmasına güclü təsir göstərmişdir.

1917-ci ilin oktyabrında «Türk ədəmi – mərkəziyyət firqəsi Müsavat»ın I-ci qurultayında M.Ə.Rəsulzadə partiyanın Mərkəzi Komitəsinin sədri seçilmişdi. O, qurultaydakı çıxışında partiyanın mübarizə istiqamətini müəyyən edərək bildirmişdi: «Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal.»

Zaqafqaziya seymi dağıldıqda, M.Ə.Rəsulzadə Batum konfransında iştirak etdiyinə görə gizli səsvermə nəticəsində qiyabi olaraq Azərbaycan Milli Şurasının və Parlamentinin sədri seçilir (27 may 1918-ci il). Milli Şura Azərbaycanı müstəqil dövlət elan edir.

M.Ə.Rəsulzadə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Türkiyə, Almaniya və başqa xarici ölkələrdə mühacirətdə yaşamışdır. 1947-ci ildə Almaniyadan Türkiyəyə qayıdan M.Ə.Rəzulzadə Müsavat mühacirətinə başçılıq etmiş, milli-siyasi fəaliyyət göstərmişdir.

M.Ə.Rəsulzadə Azərbaycan mətbuatı tarixində siyasi publisistikanın ən görkəmli nümayəndələrindən biridir. O, ədəbi-publisistik fəaliyyətini, Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda istiqlal mübarizəsini siyasi mühacirət illərində də dönmədən davam etdirmişdir.

**Fətəli xan İsgəndər xan oğlu Xoyski** (1875–1920). Görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk baş naziri.

1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda keçirilən «Türk ədəmi – mərkəziyyət partiyası «Müsavat»ın I-ci qurultayının iştirakçısı olan F.Xoyski çıxış edərək irəli sürülən «Azərbaycana muxtariyyət» şüarını qızğın müdafiə etmişdir. O, 1917-ci ilin dekabrında yaranan Zaqafqaziya seyminin üzvü və müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətinin Ədliyyə naziri olmuşdur.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Təkcə türkdilli xalqlar arasında deyil, bütün İslam aləmində ilk dəfə olaraq respublika üsul-idarəsinə qədəm qoyan Azərbaycan xalqının ilk müstəqil hökumətini təşkil etmək bitərəf Fətəli xan Xoyskiyə tapşırıldı.

F.Xoyski 1919-cu il mart ayının sonuna kimi Nazirlər Şurasının sədri, həmçinin daxili işlər, ədliyyə və xarici işlər naziri idi. F.Xoyski 1919-cu ilin dekabrından 1920-ci ilin mart ayınadək xarici işlər naziri işləmiş, Azərbaycan Parlamentinin üzvü olmuşdur.

1918-ci il sentyabrın 15-də Bakı türk və Azərbaycan hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu tərəfindən azad olundu, sentyabrın 17-də isə Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdü. Bakının daşnaklardan, eser-menşevik qüvvələrindən ibarət olan və ingilislərə arxalanan mürtəce «Sentrokaspi diktaturası»nın ağalığından qurtulması ilə əlaqədar olaraq alovlu nitq söyləyən Fətəli xan Xoyski baş vermiş hadisələri qiymətləndirərək deyirdi: «Bizim də yaşamaq, azad yaşamaq hüququmuz var. Nə zirehli maşın, hidroplan, karonerka, tikanlı məftil, mina və digər texniki qurğular, nə ingilislər və onların əlaltıları, nə də ümumiyyətlə, hər hansı bir qüvvə tarixin təbii gedişini dayandıra bildi, onların əlli minlik orduya və texnikaya malik olmasına baxmayaraq, kiçik qüvvənin həmləsinə tab gətirməyib Bakını tərk etmələri öz rifahı və səadətini başqasının fəlakəti və bədbəxtliyi üzərində qurmağa çalışanlar üçün ibrət dərsi olmalıdır.» (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, Bakı, 2005, s. 23–29)

**Heydər Əlirza oğlu Əliyev** (1923–2003). Azərbaycanın böyük siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının Prenzidenti, Ümummilli Lider (1993–2003). Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə (1969–1982-ci il-

lər, Azərbaycan KP MK-nin I-ci katibi) ictimai-iqtisadi inkişafın və milli-mədəni oyanışın bütün sahələrində müstəqilliyə doğru böyük dönüş başlanmışdır. O, 1982-ci ilin noyabrında Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilmiş, eyni zamanda SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilmişdir. Türk-müsəlman xalqlarına qarşı ayrı-seçkilik siyasətinin yeridildiyi şəraitdə SSRİ kimi nəhəng bir dövlətin ali rəhbərliyinə ucalmaqla Heydər Əliyev misilsiz dövlət idarəçiliyi istedadı və bacarığı nümayiş etdirmişdir.

Heydər Əliyev sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törətdiyi qanlı qırğınla əlaqədar, ertəsi gün, Kreml rejiminin təqiblərinə və səhhətinin ağır olmasına baxmayaraq, Azərbaycanın Moskvadakı nümayəndəliyində verdiyi cəsarətli bəyanatında Azərbaycan xalqına qarşı silahın işlədilməsini qətiyyətlə pisləmiş, Azərbaycan xalqının qurtuluş mübarizəsinin önünə keçmişdir. 3 oktyabr 1993-cü ildə Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri təşkil edirdi. Heydər Əliyev türk dövlətləri arasında iqtisadi, siyasi, ədəbi, mədəni əlaqələrin möhkəmləndirilməsi sahəsində gərgin, səmərəli fəaliyyət göstərmişdir.

***Heydər Əliyevin müdrik kəlamlarından:***

Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır.

***

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

***

Vətənpərvərlik insanın daxilindəki duyğularıdır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır.





***

Tarix həmişə hər şeyi öz yerinə qoyur.

***

Tarix heç nəyi silmir... Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.

Əziz oxucu! Beləliklə, qədimdən müasir dövrə qədər Ön və Yaxın Şərq tarixinə, onun dövlətçiliyinə, siyasi və dövlət xadimlərinin, sərkərdələrin fəaliyyətinə qısa bir səyahət etdik. Bu coğrafi ərazi, ərəblərin, farsların və türklərin dövlətçiliyi bəşər tarixində xüsusi bir yer tutur. Onu da qeyd etmək lazımdır ki, dünyada ilk islam dövlətinin başçısı sevimli Peyğəmbərimiz Məhəmməd (s.) olmuşdur. Danılmaz bir həqiqətdir ki, türklər onlarla qüdrətli dövlət yaradıb onu idarə etmişlər. Bu qüdrətli dövlətlərin sərhədləri Avrasiya, Mesopotamiyadan Şimal Buzlu okeana, Dunaydan Çin imperiyasına, əzəmətli Çin divarlarına qədər uzanmışdır. Tarixdən məlumdur ki, Çin imperiyası əzəmətli Çin divarlarını türk qəbilələrindən qorunmaq üçün inşa etmişdir. Türklər İran, Hinsdistan, Misir, İraq, Suriya kimi qeyri-türk ölkələrini yüzillərlə idarə etmişlər. Axırıncı min ildə İran – Azərbaycan dövlətini türklər idarə etmişlər. Orta Asiya, Əfqanıstan, Pakistan və b. ölkələr əsrlərlə bu imperiyanın tərkibində olmuşlar.

Bütün tarixi faktlar göstərir ki, türk oğlü türk gündoğandan günbatanadək bütün qarlı-qarsız zirvələrə, düzlərə, çaylara, göllərə, şəhərlərə, ölkələrə ad vermiş, dünyada xanlıq, xaqanlıq, sultanlıq etmiş, şahlar şahı kimi, dahilər kimi tarixlər yaratmışlar.

Tanınmış fransız şairi, siyasi xadim, tarixçi Alfons Mari Lui de Lamarin yazır: «Türk xalqının düşməni olmaq bütün insanlığın düşməni olmaq deməkdir. Allah məni belə bir günah işlətməkdən qorusun.»

Əsas mövzudan bir qədər kənara çıxaraq, türk xalqının qədim tarixinə səyahət etmək qərarına gəldik.

Tarixdən məlumdur ki, türk millətinin qədim əcdadların-

dan olan hunlar eramızdan əvvəlki dövrlərdə Baykal gölü və Monqolustan ərazisində yaşamışlar. Böyük Hün – Türk dövlətinin əsası e.ə. 220-ci ildə qoyulmuşdur. Məhz bu vaxtdan etibarən qədim türklərin əsl dirçəlişi, dünyanın siyasi və coğrafi xəritəsində tutduqları hakim mövqe getdikcə artmağa başlamışdır. Hunların – türklərin bir xalq kimi dünya miqyasında tanınması Metenin adı ilə bağlıdır.

Meteni tarix boyu bəşər övladlarına sevdirən xüsusiyyətlərindən biri onun vətənpərvərliyidir. O, bir türk övladı kimi Vətən torpağının, əcdadlarımız tərəfindən bizə irs qoyulmuş bu torpağın qorunub saxlanmasına əsl qəhrəman, layiqli övlad münasibəti bəsləmişdir. Metenin torpaq ilə əlaqədər əfsanələşmiş rəvayəti min illər boyu nəsildən-nəslə ötürülür, ən müqəddəs ərməğan kimi xalqın qan yaddaşında qorunub saxlanır. Bu rəvayət tarixin dolaylarında saysız-hesabsız igidlər tərbiyələndirmiş, yurduna dönük çıxanları daim düz yola səsləmişdir.

«Torpaq dövlətin təməlidir, onu heç kimə vermək olmaz. Torpağı əcdadlarımız bizə irs qoyub getmişdir, orada babalarımızın sümükləri uyuyur. Torpaq mənim deyil, xalqındır. Xalqın torpağını verməyə heç kimin ixtiyarı çatmaz. Mən öz atımı, yaraşıqlı kənizimi tunqhulara ona görə verdim ki, onlar mənim özümün idi. Amma torpağı verə bilmərəm, bu torpaq gələcək nəslə çatdırılmalıdır. Ya xalq məhv olmalı, ya da torpağını öz qanı hesabına qorumalıdır...» (Mete)

Çox ibrətamiz tarixdir. Ulu babası Metenin torpaq haqqındakı müqəddəs fikirlərinə sadiq qalan böyük xalq şairi Bəxtiyar Vahabzadə 1959-cu ildə yazdığı «Gülüstan» poemasında:

...Hanı bu ellərin mərd oğulları...
Belə saxlayarlar bəs əmanəti?
Qoy ildırım çaxsın, titrəsin cahan!
Ürəklər qəzəbdən coşsun, partlasın,
Daim haqq yolunda qılınc qaldıran
İgid babaların goru çatlasın!..
Bir deyən olmadı, durun, ağalar!





Axı bu ölkənin öz sahibi var...

Hunların – türklərin, bizim əcdadlarımızın kim olduğunu gələcək nəslə çatdırmaq üçün fəlsəfə elmləri doktoru Vəli Həbiboğlunun «Mete» məqaləsindən bəzi məqamları diqqətinizə çatdırmağı özümüzə borc bildik: «Hunlar hələ Metedən çox-çox əvvəl özlərini dünya meydanında qəhrəman – döyüşkən bir xalq kimi göstərmişlər. Təsadüfi deyildir ki, 300 il Çində, 350 il Orta Asiyada imperiya qurmuş, 700 il bütün Türk dünyasında «Şanyu («Ulu xaqan») titulunu yaşatmış Hun imperatorluğu dünyanın ən qüdrətli və böyük dövləti kimi müxtəlif xalqları öz bayrağı altında birləşdirdi. Böyük Okeandan Xəzər dənizinə, Tibetdən, Kəşmirdən Şimali Sibirə qədər olan torpaqlar bu qüdrətli Hun imperatorluğuna – türklərə tabe idi... Böyük Hun– Türk imperatorluğunun yaradılması dünya miqyasında türklərin qüdrətini açıq-aşkar nümayiş etdirdi. Mete təkcə Asiyada 26 dövləti öz imperiyasına qatmışdır.

Çin salnaməçisi bu haqda yazmışdır: «Metenin vaxtında Hun imperiyası həddindən artıq möhkəmləndi və yüksəldi. O, Şimalda və Cənubda bütün köçəri tayfaları özünə tabe etdirdi.» («Hərbi and» qəzeti, 1-15; 16-31 mart, 2004)

Böyük Hun imperiyası dağıldıqdan sonra hunların 24 tayfası əsrlər boyu yaşadıqları yerləri tərk edirlər. Qərbə doğru irəliləyən bu tayfalar IV əsrdə Volqa və Don çayları ərazisində məskunlaşaraq Qərbi Hun və ya Avropa Hun dövləti kimi tanınan güclü dövlət yaradırlar. Hun tayfalarının Qərbə doğru hərəkəti dünyada böyük dəyişikliklərə səbəb oldu. Hunların yolu üstündə yaşayan tayfalar onların təzyiqinə davam gətirməyib, yaşadıqları əraziləri tərk edir, Qərbə – Avropanın içərilərinə doğru çəkilirdilər. Tarixdə «xalqların böyük köçü» adlanan bu proses bir neçə əsr çəkdi, təsəvvür edin, bir neçə əsr.

445-ci ildə bütün Hun imperiyasında hakimiyyəti ələ alan Attila, ilk növbədə, ölkə daxilində vəziyyəti nizama salmağa başladı. Bu dövrdə Hun dövlətinin tabeliyində 45-ə yaxın xalq

yaşayırdı. Attilanın apardığı siyasət nəticəsində onun hakimiyyəti dövründə bir dəfə də olsun üsyan baş vermədi.

Tarixi araşdırmalar göstərir ki, Attila Avropanı yalnız qılıncı ilə deyil, həm də alicənablığı, dühası ilə fəth etmişdi. O, mənəvi qələbə qazanmışdı. Öz hərəkətləri ilə Attila romalıların barbar saydıqları hunların mənən onlardan daha yüksəkdə durduğunu göstərmişdi. Yəqin elə buna görə Avropanın bir çox xalqları Attilanı öz milli qəhrəmanları hesab edirlər...

Attilanın ölümündən (15 mart 453-cü il) sonra oğulları onun yerini tuta bilmədilər. Ölkədə hərc-mərclik, hakimiyyət uğrunda müharibələr başladı və Hun dövləti dağıldı.

Hunların bir hissəsi əcdadlarının V əsr əvvəl gəldiyi yolla geri qayıtdılar, digərləri isə Avropada qalıb, yerli tayfalara qarışdılar.

Hindistanın görkəmli siyasi və dövlət xadimi, ölkənin ilk baş naziri Cəvahirləl Nehrunun (1889–1964) «Ümumdünya tarixinə nəzər» kitabından bir maraqlı faktı nəzərinizə çatdırmaq istərdik: «Avropada hunların ən görkəmli başçısı həm Romanı, həm də Konstantinopolu uzun illər dəhşətə gətirən Attila olub. Təqribən həmin illərdə Hindistana gəlmiş Hun tayfaları və ağ hunlar (eftalitlər) o tayfalarla qohumluq əlaqəsində idilər. Onlar da Mərkəzi Asiyadan gəlmə idilər... Hunların yeni axını Mərkəzi Hindistanı bürüdü və nəticədə onların başçısı Taramana padşah kimi taxtda möhkəmləndi... Hunların xeyli nəsli Hindistanda qalıb, tədricən ari əhalisinə qaynayıb-qarışdı. Mərkəzi Hindistandakı və Racəputandakı bəzi qəbilələrin qanında ağ hunların qanı vardır.» (Bakı, 1986, s. 157)

Professor Vaqif Abbasovun «Liderlik fəlsəfəsi» (Bakı, 2004) əsərində verdiyi məlumata görə, Uess Robert 1988-ci ildə ABŞ-da «Hun Attilanın sirləri» adlı kitab yazmışdır. Bu kitab haqqında dünyanın bir çox görkəmli şəxsiyyətləri olduqca yüksək fikirlər söyləmişlər.

«General Motors Corporation»un eks-prezidenti Pol Q.Zaletski demişdir: «Mən onu 20 dəfə oxudum və hər dəfə





özüm üçün yeni bir şey kəşf etdim. Hesab edirəm ki, bu, nadir işdir, çoxlu sayda adamlar üçün məsuliyyət daşıyan hər kəs onu oxumalıdır.»

«Success» jurnalının baş redaktoru Skott De Qarmo yazmışdır: «Kitab çox gözəldir» fikri oyadır. Cəlbedici və aydındır, amma bununla yanaşı, hər bir rəhbər üçün olduqca aktualdır... bir çox planlarla, müdrikliklə doludur.»

Əziz oxucu, «Hun Attilanın sirləri» kitabından Attilanın bir sıra fikir və tövsiyələrini sizin nəzərinizə çatdırmağı vacib bildik.

Hunlar bütün həyatları boyu oxumalıdırlar, yeni ideyaları, novatorluq prosedurlarını və metodları öyrənməli və imkanı heç vaxt əldən verməməlidirlər.

***

Xidmətin ilk başlanğıcından bizim rəhbərlərimiz müəyyən, əsas keyfiyyətləri əldə etməli və onlarla təkmilləşməlidirlər.

***

Hunlara rəhbərlik edən qorxu bilməməlidir. O, cəsarətə və güclü ruha malik olmalıdır ki, rəhbər olmaqdan qorxmasın.

***

Hunlara öz vəzifələrinin ağır yükünü çəkə bilən rəhbər lazımdır. Rəhbər öz bədənini sadə və sağlam şeylərlə qidalandırmalıdır. Rəhbər yataqda əmr verə bilməz. Öz qarnını artıq qida və ya içki ilə nəşələndirməklə, o, bədənini zəiflədər. Romalıların bihuşedici tütünü ancaq ağlı başdan çıxarır. Ondan istifadə edən bədən ağırlaşır. Hücuma başçılıq etmək üçün bizim rəhbərlərimiz bədəncə möhkəm olmalıdırlar.

***

Başçı hökmən ruhən qələbəyə can atmalıdır. Heç də məcburi deyil ki, hər dəfə qalib gələsən, amma ən vacib döyüşləri udmaq lazımdır. Rəhbər başa düşməlidir ki, rəqabət həm bizim xalqın arasında, həm də ondan xaricdə çox qüvvətlidir, onu nəzərə almamaq olmaz. Məhz azğın rəqabət ruhu döyüş meydanında, danışıqlar masası arxasında və daxili nifaqlar

dövründə qalib gələnləri hərəkətə gətirir. Rəqabət ruhu olmayan rəhbər zəifdir, xırda çətinliklər qarşısında geri çəkilir.

Siz, hətta müqavimət və əks fəaliyyət qarşısında geri çəkilməməlisiniz.

***

Mürəkkəb problemləri həll edərək, siz, ilk növbədə, sağlam düşüncəyə əsaslanmalısınız.

***

Siz nə şöhrət, nə də təşəkkür gözləmədən xidmət etdikləriniz və sizə xidmət edənlərin naminə könüllü qurban verməlisiniz.

***

Sizi müvəffəqiyyət qazanmaq ehtirası incitməlidir – özünüzü və hunlarınızı zirvəni fəth etməyə tələsdirən ehtiras.

***

Siz həvəslə belə bir adi həqiqəti etməlisiniz ki, özünüz qüsurlardan xali deyilsiniz. Və bu gün dünənkindən yaxşı başçı olmaq üçün hər gün çalışmalısınız.

***

Hunun xeyrinə nə varsa, bütün xalq üçün də xeyirli olmalıdır. Və əksinə, tayfa və xalq üçün nə faydalıdırsa, hun üçün də faydalı olmalıdır.

***

Hun olmaq üçün millətə sadiq və sədaqətli olmaq lazımdır. Adətlərimizi gözləmək bizim irsimizə, keçmişimizə və gələcəyimizə hörmətdir.

***

Bütün hunlara istisnasız olaraq şəxsi və milli qeyrət xasdır. Bu, vacib qəhrəmanlıqdır. Əgər söz vermisənsə, o, bütün istənilən fikirlərdən, hətta siyasi məqsədəuyğunluqdan da üstündür. Amma eşidilən vədi verməzdən əvvəl düşünmək lazımdır.

***

Asiyalı və avropalı əcdadlarımızdan bizə irs qalan irqi, mədəni, əxlaqi və sosial konsepsiyalar həmvətənlərimizə, onların





istedad və rifahına hörmətdən keçməklə hər şeyi qəbul etməli və ehtiram göstərməlidir.

***

Piramidanı öz şəxsi şərəfin üzərində qurmaq yolverilməzdir. Nə qədər ki, biz şəxsi və milli adətlərimizi möhkəm saxlayırıq, bizim həyat enerjimizi sümürən təmtəraqlı özünüsevmə oyunlarının qurbanı olmamalıyıq.

***

Biz vahid hun xalqı kimi özünüdərketməni möhkəmlədən mahnılarımızı, rəqslərimizi, oyunlarımızı, zarafatlarımızı və bayramlarımızı qorumalıyıq.

***

Mərd əcdadlarımıza ehtiram əlaməti olaraq bizim mahnılarımız və rəqslərimiz, bir növ, vahid olmalıdır. Onlara istənilən kənar ləkələri daxil etmək olmaz, yoxsa bizim irsimiz itib-batar.

***

Əxlaq və intizamsız birlik də ola bilməz.

***

Başçı var gücü ilə çalışmalıdır ki, həyatda intizam və əxlaq formalaşsın, sonra isə yorulmadan onu möhkəmləndirməlidir.

***

Əxlaq bizim hun olmağımızın qürurundan axır. İntizam isə əxlaqdan yaranır.

***

Başçıya əxlaqın və ya intizamın zəifləməsi ilə barışmaq yolverilməzdir. O, əxlaq və intizama söykənir, elə özü də onları yayır.

***

Hunlar intizama can atır və həvəslə öz başçılarının arxasınca gedirlər, çünki özləri də intizamlıdırlar.

***

Başçı heç vaxt üstünlüklərin qayğısına qalmamalıdır, həmişə birinci yerdə məsuliyyət olmalıdır. Yalnız üstünlüklərə görə vəzifə axtarmayan başçı hörmətə layiq olur.

***

Həmişə sizə tabe olan rəhbərlərə lazımi hörmət göstərin, onlara hörmət göstərməsəniz, onların tabeliyində olanlar da sizdən nümunə götürəcəklər.

***

Rəqiblərinizə də hörmət etməlisiniz. Əgər siz onların qabiliyyətini, təsirini və potensialını nəzərə almasanız, onlar sizin qarşınızda üstünlük əldə edəcəklər.

***

Əgər başçının xarici görünüşü nəciblikle doludursa, hunlar da, düşmənlər də ona nəcib kimi münasibət bəsləyəcəklər.

***

Yenilməz və rəhmsiz düşmənlə razılaşmaya cəhd edərkən gücə arxayın olmayın. Yaxşısı budur ki, onu daha güclü vasitələrlə ram edəsiniz.

***

Əgər bir işi başqasına tapşırmısınızsa, onu öz əlinizə almayın, yaxşı işdən kənarlaşdırılmış, tabeliyinizdə olan adamı özünüzə düşmən edərsiniz.

***

Böyük və ya kiçik olmasından asılı olmayaraq, sabah sizə qarşı çıxış edəcək düşmənin gücünü qiymətləndirməmək olmaz.

***

Seçdiyiniz düşmənin hansısa üstünlük əldə etməsinə heç vaxt imkan verməyin.

***

Düşmənin zəifliyindən öz xeyrinizə istifadə etmək imkanını əldən verməyin. Digər tərəfdən, onun çox təhlükəli olduğunu bildikdə, geri çəkilin və onu aradan qaldıra biləcəyiniz vaxt qayıdın.

***

Rəhbər, tabeliyində olan komandirlər arasında, əxlaq, düzlük və ədaləti sözlə yox, əməli ilə yayır. Sözün əməldən fərqlənməsi yolverilməzdir.





***

Rəhbər tabeliyindəkilərin, ona bərabər olanların və rəislərin yüksək qarşılıqlı inam ruhuna nail olmağa çalışmalıdır.

***

Rəhbər tabeliyindəkilərin təhsil və təcrübə qazanmaq hesabına daim kamilləşməsinə nail olmalıdır.

***

Rəhbər öz hunlarını hər saatda idarə etməlidir ki, onlar məqsədsiz dolaşmasınlar.

***

Başçı hər bir halda hakimiyyətdən sui-istifadə etməməlidir. Belə hallar ciddi ixtilaflar yarada bilər, tayfada və millətdə qiyama gətirib çıxara bilər.

***

Başçı tabeliyindəkilərin arasında sağlam rəqabəti həvəsləndirməli, amma tayfanın və ya millətin məqsədlərinə ziyan vurduqda qarşısını almalıdır.

***

Başçı başa düşməlidir ki, qanun tələbi həmişə onun özündən yüksəkdir.

***

Başçıların hamısı bilməlidirlər ki, qələbə yalnız nəyin edilməli olduğunu bilənlərə yox, həm də nə vaxt etməyi bilənlərə qismət olur.

***

Müdrik başçı mahiyyətə varmadan heç vaxt qərar qəbul etmir. Qərar qəbul edənin şücaəti ağıldır.

***

Başçı tabeliyindəkilərə onların öz məsuliyyətləri daxilində qərar qəbul etmək səlahiyyətləri verməlidir. O başçı zəifdir ki, hakimiyyətini itirmək qorxusundan bütün məsələlər haqqında qərar çıxarmaq səlahiyyətlərini yalnız özündə saxlayır.

***

Bəlkə də qərar qəbul etmək üçün hər şeydən əhəmiyyətlisi onun zamanında qəbul olunmasıdır.

***

Qərarı təkmilləşdirməyə zaman və imkan olduğu halda, tələsik qərar çıxarmaq yolverilməzdir.

***

Başçı başa düşməlidir ki, ağıllı hesab olunan qərar müəyyən müddətdən sonra bir o qədər də uğurlu olmaya bilər. Odur ki, qəbul etdiyiniz qərarlar üzərində öyrənməklə gələcək qərarlarınızı yaxşılaşdırmaq üçün hər cür zəhmətə qatlaşın.

***

Sizin şəxsi diqqətinizi tələb edən vəzifələri heç bir halda başqasına həvalə etməyin.

***

Birbaşa başçının qayğısını tələb etməyən fəaliyyətləri qazanmaq olmaz.

***

Müdrik başçı xalqa xidmətini və qabiliyyətini yalnız səlahiyyətlərin verilməsi məharəti ilə genişləndirir.

***

Bütün danışıqlarda mütləq diplomatik təşəbbüsü ələ alın. Bir an belə düşmənlə təmasdan ayrılmadan həmişə hücum edin ki, onu pis vəziyyətə slasınız və qalib gələ biləsiniz.

***

Danışıqlarda ciddi ölçülüb-biçilmiş riskə getmək lazımdır. Çalışın ki, bütün mümkün olan nəticələri qabaqcadan görə və arzu olunan nəticəni əldə edə biləsiniz.

***

Heç vaxt qorxutmağa əl atmayın.

***

Vaxtı diqqətlə izləyin. Danışıqlar anında rəqibin vəziyyətini başa düşərək cəlbedici alternativ təkliflər verin, yoxsa o sizin bütün təkliflərinizi rədd edəcək.

***

Danışıqlar zamanı öz üzərinizə götürdüyünüz öhdəlikləri yerinə yetirin, yoxsa gələn dəfə düşmən sizin sözünüzə inanmaz.





***

Özünüzün ruhi dözümlülüyünüzün bir hissəsini düşmənçilik vəziyyətlərinin sizdən bütün gücün son damlalarına qədər tələb etdiyi şərait üçün qoruyub saxlayın. Əgər, hətta olduqca az geri çəkilmək və yenidən qruplaşma riski varsa, heç vaxt bütün gücünüzü hücuma sərf etməyin.

Doğrudan da, hələ 1500 il əvvəl deyilmiş bu ibrətamiz fikirlər, Attilanın, ümumiyyətlə, türkun tarixə həkk olunmuş kəlamları (biz onun bir hissəsini təqdim etmişik) dərk edilməyə, hər bir fərdin şəxsi həyatından başlamış, dövlət səviyyəsinə qədər təbliğ olunmağa layiqdir. 1500 illik bəşər tarixini araşdırsaq, Attilanın bu müdrik fikirlərinin hər bir sosial formasiyada təsdiq olunduğunu görərik.

**Unutmayın!** Türk xalqı Tanrının mərd, igid, dosta və inanca sədaqətli, məğrur övladıdır. Bir daha tanınmış fransız şairi, siyasi xadim, tarixçi Alfons Mari Lui de Lamartın dediklərini yada salmaq istərdik: «Türk xalqının düşməni olmaq, bütün insanlığın düşməni olmaq deməkdir...»

***Cəfər Xəndan:***

Hər bir türk bilməlidir türk olduğunu,
Bilməsə, bilməz ulu olduğunu.

***Fikrət Qoca:***

Türkəm, bu yer üzündə
Neçə yol köçmüşəm,
Şərqdən Qərbə getmişəm.
Səhrada daş içində
Cücərmişəm, bitmişəm,
Batmaz, yanmaz, alınmaz,
Adayam mən, bir ada,
Hər bir türkün dünyada

Nəfəsi Türkiyədir.
Durduğu yer Vətən,
Qibləsi Türkiyədir.

## ANA- İNSANİYYƏTİN MƏŞƏL APARANI, ONUN AYAQLARI ALTINDADIR CƏNNƏT

Qadın hüququ müqəddəsdir.
*Məhəmməd peyğəmbər (s.)*

Bəşəriyyətin islamaqədərki dövrdə necə bir vəziyyətdə olduğunu aydınlaşdırmaq üçün insanlığın yarısı olan qadınların vəziyyətinə, qismən də olsa, nəzər salaq.

Tarixi araşdırmalar göstərir ki, qadınların ictimai vəziyyəti ərəblərdə olduqca acınacaqlı vəziyyətdə olub. İstər Avropada və istərsə də Asiyada qadına əşya kimi baxıblar. İslam dininə qədərki dövrdə, qadınlar, demək olar ki, tam hüquqsuz idilər. Hətta bəzi ərəb ailələrində qız uşaqlarını doğulan kimi diri-diri torpağa basdırırmışlar. Allah-Təala bununla bağlı Quranda belə buyurur: «Diri-diri torpağa gömülən körpə qızdan: «Axı o hansı günaha görə öldürüldü?» – deyə soruşulacağı zaman...» (ət-Təkvir surəsi, ayə 8-9)

Həmin dövrdə yaşayan ərəblərin cahil xüsusiyyətləri Quranın ən-Nəhl surəsi 57–60-cı ayələrində belə təsvir edilir: «Onlar Allaha qızlar isnad edirlər. (Mələklər Allahın qızlarıdır, deyirlər). Allah pakdır, müqəddəsdir (Onun oğula-qıza ehtiyacı yoxdur). Özlərinə isə istədiklərini (oğlan uşaqlarını) aid edirlər. Onlardan birinə qızı olması ilə müjdə verdikdə qəzəblənib üzü qapqara qaralar. Verilən müjdənin pisliyi üzündən tayfasından qaçıb gizlənər. (Allah bilir!) Görəsən, onu (o körpəni) zillət içində saxlayacaq, yoxsa torpağa göməcək? (Diri-diri basdıracaq?) Bir görün onlar necə pis mühakimə yürüdürlər! (Oğlanları özlərinə götürüb, qızları Allaha isnad edirlər). Ən pis sifət (evlənmək üçün qadınlara ehtiyac hiss etdikləri halda, qız uşaqlarını diri-diri torpağa basdırmaq) axirətə inanmayanlara,





ən yüksək sifət (vəhdaniyyət) isə Allaha məxsusdur. Allah yenilməz qüvvət (qüdrət) sahibi, hikmət sahibidir.»

İslamaqədərki dövrdə qız uşaqlarının öldürülməsini Elşad Miri belə izah edir: «Qız uşaqlarının ailənin və qəbilənin imkanlarını məhdudlaşdırmaması, döyüşlərdə başqa qəbiləyə əsir düşməməsi və ya böyüyəndən sonra pis yola müraciət etməməsi üçün öldürüldüyü anlar da olurdu...»

Qadının ictimai vəziyyəti heç də başqa millətlərdə ərəblərdən yaxşı deyildi. Məsələn, yəhudi ailələrində qız uşağı xidmətçi kimi idi, yeri düşəndə onları hətta satırdılar. İranda məzdəkilik təriqəti (bu haqda əvvəlki bölmələrdə geniş məlumat verilib) bacı və hətta ana ilə evlənməyə icazə verirdi. Azərbaycanda, İranda və bəzi Asiya ölkələrində geniş yayılmış zərdüştilik bacı ilə evlənməyi qəbul edirdi.

Qədim Çində və Hindistanda da vəziyyət ürəkaçan deyildi. Bu ölkələrdə, xüsusilə məbədlərdə rəqs edən qadınlara zövq aləti kimi baxırdılar. Bu barədə hətta F.Engels yazmışdır: «Erməni qul və kənizləri, Korinf, Afrodita kənizləri, habelə Hindistanın məbədlərində xidmət edən dini rəqqasələr ilk fahişələr idilər». Ölən ərinin cəsədi üstündə özünü yandıraraq həyatını qurban edən sadiq zövcə, ən nəcabətli və ən yaxşı qadın adlandırılaraq bütün hind məbədlərində təbliğ edilirdi.

Qədim Bizansda qadın bir şəhvət əşyası idi. Ən mədəni olan afinalılar arasında belə arvad bazarda satıla, hərraca qoyula bilərdi. Qədim romalılarda ata arvadı və uşaqları istəsə qovar, satar və hətta öldürə bilərdi. Qədim Fransada da vəziyyət ürəkaçan deyildi.

Həzrət İsa (ə.) qadınlara qarşı çox xeyirxah olsa da, xristian Avropasında da qadın köləlikdən azad olmadı.

Əziz oxucu. Dediklərimizdən görünür ki, İslamdan öncə dünyada qadının sosial-ictimai vəziyyəti çox ağır və dözülməz idi. Belə bir vəziyyətdə qadının ana hüququnu tanıyan və bəşəriyyətə təbliğ edən islahatçı bir dinə ehtiyac vardı. O da Allah-Təala tərəfindən göndərilən İslam dini idi.

Bəşər tarixində ilk dəfə (1400 il əvvəl) İslam cinslər arasın-

dakı fərqi birdəfəlik ləğv etdi, istər oğlan və istərsə də qız uşağının dünyaya tər-təmiz gəldiyini elan etdi.

Təkcə onu demək kifayətdir ki, Quranda ən böyük surələrdən birinin adı «Qadınlar» mənasını verən 176 ayədən ibarət ən-Nisa surəsidir. Başqa bir surə isə Həzrət İsanın (ə.) anasının adı ilə «Məryəm» (98 ayə) adlandırılmışdır. Bir daha qeyd etmək istərdik ki, qadın və kişi sözlərinin Quranda eyni sayda – 23 dəfə zikr edilməsi də İslamda qadın-kişi bərabərliyinə ən gözəl sübutdur.

Qurani-Kərimdən başlamış müasir müdriklərin də kəlamlarında ana, qadın məhəbbəti, onların mərdliyi, aqilliyi, şəfqətliliyi, vətənpərvərliyi öz əksini tapmışdır. Qadın Qurani-Kərim nazil olduqdan sonra İslam aləmində öz qiymətini tapmış və bir çox hallarda onların hüquqları kişilərlə eyniləşdirilmiş, yüksəklərə qaldırılmışdır. Bu münasibətlə Qurani-Kərimdə buyurulur: «Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyini biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır.» (əl-Hucurat surəsi, ayə 13)

Şərqin türk qadınları həmişə mərd və namuslu, qəhrəman olmuşlar. Bu, ulu Tanrının bu millətə bəxş etdiyi ən ülvi xüsusiyyətdir.

Allah-Təala qarşısında qadın və kişinin dini məsuliyyəti eynidir. Qurani-Kərimdə buyurulur: «...İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram. Siz (hamınız) bir-birinizdənsiniz (dində kişi, qadın eynidir)...» (Ali-İmran surəsi, ayə 195)

Elşad Mirinin «İslamda qadının ictimai həyatda rolu» əsərindən bir faktı nəzərinizə çatdırmaq istərdik: «Unutmamaq lazımdır ki, İslam tarixinin sonrakı dövrlərində olduğu kimi, ilk dövrlərində də qadınlar siyasətdən uzaq deyildilər. Həzrət Peyğəmbərin (s.) müxtəlif vaxtlarda səhabələrdən dini-siyasi





əhd mənasında olduğu beyətlərdə qadınlar da iştirak edirdi. Tarixi mənbələr «Ədəbə» və «Beyatur Ridvan» beyətlərində qadınların da olduğunu təsdiq edir. Hətta 2-ci xəlifə Həzrət Ömərin (ə.) vəfatından sonra kimin xəlifə olacağı ilə bağlı Mədinənin nüfuzlu şəxsləri ilə görüşən və bunun nəticəsində də xəlifəni müəyyənləşdirən Əbdürrəhman bin Əuf kişilərlə yanaşı, qadınların da fikrini öyrənmişdir (İbn Kəsir, «Təfsirul-Qurani-aztı», VII, 146). Qadınların bu sahədəki aktivliyinə Həzrət Peyğəmbərin (s.) xanımlarının siyasi həyatdakı rolunu, İslamın yayılmasında qadınların səyini, onların döyüşlərdə, elmdə, şəfqətdə iştiraklarını nümunə kimi göstərmək olar.» (Bakı, 2006. Kitab BMT-nin Əhali Fondunun dəstəyi ilə hazırlanmışdır)

**Həzrət Xədicə (r.a.).** Məhəmmədin (s.) ilk həyat yoldaşı. Məhəmmədə (s.) ilk dəfə vəhy gələndən sonra ilk müraciət etdiyi və ona ilk iman gətirən, İslamı qəbul edən ilk qadın olmuşdur. Həzrət Xədicə (r.a.), eyni zamanda dini təbliğ edərək İslamın yayılmasında fəal iştirak etmişdir. Peyğəmbər (s.) Həzrət Xədicə (r.a.) haqqında belə buyurmuşdur: «Allah mənə Xədicədən daha xeyirli qadın bəxş etməmişdir. Bütün insanlar inanmadığı halda, o, mənə inanmışdı. Hamı məni təkzib edərkən, o, məni təsdiq etmişdi. İnsanlar məndən qaçarkən, o, məni var-dövləti ilə dəstəkləmişdi...»

**Həzrət Aişə (r.a.).** Onun həyatı qadının siyasi roluna ən gözəl nümunələrdən biridir. Elşad Miri yazır: «Qadın alimlərin rəhbəri Allah Rəsulunun (s.) həyat yoldaşı Həzrət Aişə (r.a.) hesab edilir. Həzrət Peyğəmbərin (s.) xanımları arasında elm öyrənməyə ən həvəsli qadın Həzrət Aişə (r.a.) olmuşdur. Gənc yaşlarından etibarən Peyğəmbərin (s.) evində olması və suallarını rahatlıqla soruşması burada əsas rol oynamışdır. Hətta Həzrət Aişə (r.a.) bir məsələni onu tam qavrayana kimi soruşardı.» (Elşad Miri, göstərilən əsəri, s. 62)

«Aişə (r.a.) yaşadığı dövrdə təkcə qadınların deyil, səhabə böyüklərinin də bir çox məsələlərdə müraciət etdikləri şəxs olmuşdur. Bəzən xəlifələr məsələlərin izahı üçün Həzrət Aişənin (r.a.) yanına adam göndərib onun fikrini də soruşmuşlar.» (El-

şad Miri, göstərilən əsəri, s. 62)

Həzrət Aişə (r.a.) və Ümmü Sələmə (r.a.) ən çox hədis əzbər bilən səhabələrdən sayılırdılar. Həzrət Aişənin (r.a.) Allah Rəsulundan (s.) rəvayət etdiyi hədislərin sayının 2210 olduğu qeyd edilir. O, buna görə ən çox hədis nəql edən «muksirun» səhabələrdən sayılır.

Həzrət Əlinin (ə.) xəlifəliyinin ilk illərində Cəməl müharibəsi ilə nəticələnən hadisələrdə Həzrət Aişənin (r.a.) siyasi rolu çox aydın şəkildə görünür. 3-cü xəlifə Həzrət Osman (ə.) şəhid olduqdan sonra Mədinədən Məkkəyə gedən Həzrət Aişə (r.a.) ordu hazırlamış və özü də orduya başçılıq etmişdir. Tarixdə «Cəməl döyüşü» adlandırılan bu hadisədə Həzrət Aişə (r.a.) həm ordunun rəhbəri, həm də siyasi lider idi.

**Lubabə bintul Haris (r.a.).** Həzrəti Xədicədən (r.a.) sonra Məkkədə İslamı qəbul edən ilk qadınlardan biri olduğu bildirilir. Əksər qadınların İslamı qəbul etməsinə səbəb olmuşdur.

**Fatimə bintul Xəttab (r.a.).** Həzrət Ömərin (ə.) bacısıdır, İslamın 2-ci xəlifəsi olan qardaşının İslamı qəbul etməsinin səbəbkarıdır. İslamdan əvvəl oxumağı, yazmağı bacaran az şəxslərdən biri olmuşdur.

**Şifa bintul Abdullah (r.a.).** Həzrət Peyğəmbərin (s.) xanımlarından birinə oxumağı və yazmağı öyrətmişdir. İslamın yayılmasında böyük xidmətləri olmuşdur.

**Sadə bintul Kurayz (r.a.).** İslamın 3-cü xəlifəsi Həzrət Osmanın İslamı qəbul etməsinə vasitəçi olmuşdır.

**Suməyyə (r.a.).** Ammar bin Yasinin anasıdır. Əbu Cəhlin fiziki təzyiqlərinə baxmayaraq dini inkar etməmiş, nəticədə kəskin mübahisələrdən sonra Əbu Cəhl nizəsi ilə onu qətlə yetirmişdir. Bununla da İslam ilk şəhidini vermişdir ki, o da məhz qadın olmuşdur.

**Ümm Vəraqa (r.a.).** Quranı əzbərdən bilirmiş. Rəsulullah (s.) onun bu dərrakəsini görərək, namaz qıldırmaq üçün yaşadığı yerə imam təyin etmişdir. Həzrət Peyğəmbər (s.) səhabələri ilə birlikdə tez-tez bu qadına baş çəkməyə gedərmiş.

**Fatimeyi Zəhra (r.a.).** Məhəmməd peyğəmbərin (s.) qızı.





Anası Peyğəmbərin (s.) birinci həyat yoldaşı Xədicədir (r.a.). Məkkədə doğulmuş, Mədinədə şəhid olmuşdur. Dəfn olunduğu yer, siyasi cəhətdən gizli saxlanılır. 5 övladı olmuşdur: İmam Həsən (ə.), İmam Hüseyn (ə.), Zeynəb (r.a.), Ümmügülsüm (r.a.) və Möhsün (ə.).

Peyğəmbər (s.) buyurmuşdur: «Qızım Fatimə dünya qadınlarının peyğəmbər nəslindən olan ilk və son ən əziz qadındır».

Ə.Musazadə «Ziyalı və ictimai məsələlər» kitabında yazır: «İslamda müsəlman qadınının əxlaqi iffəti onu ictimai məsuliyyətdən çəkindirmir... Kim Zeynəbi (r.a.) Kərbəlada Hüseynin (ə.) şəhadətindən sonrakı ağır dövrdə, Şamda Yəzidin qarşısında etdiyi alovlu çıxışında, Kərbəladan Şama qədər əsir kimi boynu boyunduruqlu, əli qandallı nitq edərək görüb, onu cəmiyyət rəhbəri və həmişəlik mütərəqqi qadın qəbul etməyə bilər? Bizdə qadın belədir. Bizim dinimiz də öz keçmişimizə uyğundur...» (Bakı, 1992, s. 29-30)

Həzrət Peyğəmbərin (s.) dövründə qadınlar İslamın ən çətin anları olan döyüşlərdə kişilərlə birgə cihadda iştirak edərək onlara köməklik göstərmişlər. Onlar yemək hazırlayır, su paylayır, yaraları müalicə edir, şəhid olanların Mədinəyə aparılmasına yardımçı olur, hətta müharibələrdə belə döyüşürdülər.

Elşad Mirinin məlumatından: «Uhud və Huneyn müharibələrində iştirak edən Ümmü Süleym (r.a.), Ümmü Haram (r.a.), Ümmü Salit (r.a.), Xeybər döyüşündə iştirak edən Ümmü Sinan əl-Əsləmiyyə (r.a.) və bir çox müharibədə iştirak edən Rubeyyi bint Muavvizi (r.a.) misal olaraq göstərmək olar. Bu qadınlardan biri olan Atiyyə (r.a.) əri ilə birlikdə altı dəfə müharibədə iştirak etmişdi. Həzrət Fatimə (r.a.) Peyğəmbərin (s.) Uhudda qanını saxlamağa çalışmışdı. Nəsibə (r.a.) adlı səhabə qadın da Uhud döyüşündə iştirak etmiş, hətta özünü qalxan kimi Peyğəmbərin (s.) qarşısına ataraq onu düşmən oxlarından qorumuşdu. Ərini və övladlarını müharibədə şəhid verən bu qadın «Peyğəmbər öldü» deyə xəbər yayılanda öz ölülərinin cəsədlərini qoyaraq Rəsulullahın (s.) harada olduğunu

axtarmışdı. Peyğəmbərin (s.) sağ olduğunu görəndə: «Bundan sonra başıma gələcək bütün müsibətlər mənim üçün heç nədir», - demişdi.

Qadınlar hətta dəniz müharibələrində də iştirak edirdilər. Həzrət Peyğəmbərin (s.) bibisi Ümmü Haram (r.a.) dəniz döyüşlərində şəhid olmağı arzulayırdı. Bununla bağlı Rəsulullahdan (s.) dua etməsini istəmişdi. Nəticədə Ümmü Haram (r.a.) Kipr adasının fəthi əsnasında şəhid olmuşdu. (Elşad Miri, göstərilən əsəri, s. 23-24)

Tarixi faktlar göstərir ki, müsəlman qadını din yolunda ilk şəhiddir, kişilərlə bərabər məslək yolunda vuruşmağı bacarır. Hələ 1400 il bundan əvvəl müsəlman qadını bəşər tarixində ilk şəfqət bacısı olmuşdur.

«Kitabi-Dədə Qorqud» dastanında təsvir edilən mərd, əyilməz qadınlardan Qazan xanın qadını Burla xatun igidlikdə ərindən geri qalmır, döyüş meydanında hünər göstərir. Banuçiçək, Selcan xatun və başqaları da namuslu, tədbirli, ağıllı, təmkinli və dözümlüdürlər. Dastanda ana obrazı vətən rəmzi kimi ümumiləşdirilir, Tanrı haqqı kimi qiymətləndirilir.

Əl-Muxtadir xəlifənin hakimiyyəti dövründə [908–932] bütün dövlət işlərinə onun anası nəzarət edirdi və o, saray naziri vəzifəsinin icrasını Suməyya adlı qadına tapşırmışdı. Suməyya bütün mübahisəli məsələlərə baxaraq onlar haqqında qərar çıxarmaq hüququna malik idi.

**Səidə xatun** (997–1029). İranın Reya-Mac-ad-Daul vilayətinin kiçikyaşlı hökmdarının anası. O, uzun illər hökmdarı əvəz etmişdir.

**Türkan xatun.** Səlcuq sultanı Məlik şahın arvadı. 12 min atlıya malik şəxsi qvardiyaya rəhbərlik etmişdir. 1092-ci ildə sultan Məlik şah öldükdən sonra Türkan xatun kiçikyaşlı oğlunun əvəzinə hökmdar elan olundu və elə həmin il də Səlcuq dövlətində hakimiyyət uğrunda mübarizədə öldürüldü.

**Mömünə xatun.** Eldəgəz hökmdarı [1136–1175], Azərbaycan Atabəyləri – Eldəgəzlər sülaləsinin və Eldəgəzlər dövlətinin banisi, görkəmli dövlət xadimi, sərkərdə Şəmsəddin El-





dəgəzin zövcəsi, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın anasıdır. Mömünə xatun ərinin və oğlanlarının hakimiyyəti dövründə böyük siyasi nüfuza malik olmuş, sultanla Atabəylər arasında normal münasibətlərin qurulmasına çalışmış, bir sıra ara müharibələrinin qarşısını almışdır. Naxçıvanda dahi Əcəminin ucaltdığı möhtəşəm Mömünə xatun türbəsi (1186) bu qadının şərəfinə tikilmişdir.

**Terken xatun.** Xarəzm şahı Məhəmməd II Əlaəddinin [1200–1220] anası. Hərbi aristokratiyanın müdafiəsinə arxalanan Terken xatun yüksək hərbi və mülki vəzifələr tutan məmurlardan olan şikayətlərə baxar və günahkarlar haqqında qərar çıxarardı. Bu, ona «Dünyanın hökmdar qadını» titulunu qazandırıb.

**Raziyə xatun.** Dehli türk-müsəlman dövlətinin– sultanlığının hökmdarı Şəmsəddin İltutmuşun [1211–1236] qızı. Şəmsəddin İltutmuş qızını öz taxt-tacının varisi təyin etmişdir ki, bu da tarixdə hakimiyyəti vərəsəlik yolu ilə alan yeganə müsəlman qadınıdır. Raziyə xatun 1236–1240-cı illərdə hakimiyyətdə olmuş, ədalətli və qüdrətli hökmdar kimi tanınmışdı. Onun dəfn olunduğu yer insanların ziyarətgahına çevrildi.

**Fatimə xatun.** Çingiz xanın oğlu Ugedey öldükdən sonra dövləti 4 il Çingiz xanın gəlini Turakina idarə etmişdir və onun baş vəziri müsəlman qızı Fatimə xatun olmuşdur.

**Mehrican xatun** (XIII əsr). Sultan Toğrulun qızı, görkəmli dövlət xadimi, Atabəylər dövlətinin axırıncı hökmdarı Müzəfərəddin Özbəyin arvadı. Xarəzmşah Cəlaləddin Azərbaycana girəndə Özbək Əlincə qalasına qaçmışdı. Təbrizdə qalan arvadı Mehrican xatun Xoy, Səlmas və Urmiyəni öz idarəçiliyində saxlamışdır. Bu igid qadın Təbrizin müdafiəsini təşkil etmiş (1225), qonşu dövlət başçıları ilə ittifaq bağlayıb düşmənə qarşı ardıcıl mübarizə aparmışdı. Təbriz, Xoy, Naxçıvan şəhərlərinin işğalçılardın azad edilməsində böyük igidlik göstərmişdir.

**Sara xatun.** XV əsrdə Ağqoyunlu dövlətinin sultanı Uzun Həsənin [1468–1478] anası. Həm də diplomat olan Sara xatun Ağqoyunlu dövlətinin möhkəmlənməsində yaxından iştirak et-

miş, ağqoyunluların xarici siyasətinin müəyyənləşdirilməsində əsas rol oynamışdır. Uzun Həsənin ən məsul diplomatik tapşırıqlarını uğurla yerinə yetirən Sara xatun 1461-ci ildə Osmanlı sultanı II Mehmetlə müqavilə bağlamışdır. Yassıçəmən adlanan bu müqavilə ağqoyunluların dövlət müstəqilliyinin saxlanmasında mühüm rol oynamışdır. Sultan II Mehmet Trabzon imperatorluğuna son qoyduqda, Sara xatun gəlini Dəspinə xatunun (I Şah İsmayılın nənəsi) vərəsəliyini irəli sürmüşdür. Bununla o, Trabzon xəzinəsini bölüşdürməyə nail olmuşdur.

Sara xatun Osmanlı sultanı II Məhəmməd Fateh (II Mehmet) dövründə səfir olmuş və səfirlik missiyasını uğurla həyata keçirmişdir. Sara xatunun adı tarixə ilk səfir qadın və diplomat kimi düşmüşdür. Osmanlı sultanı ona həmişə hörmətlə yanaşmış, Sara xatunu ana adlandırmışdır.

Tarixi araşdırmalar göstərir ki, türk qadınları at belində qılınc oynatmaqda, vuruşmaqda heç də kişilərdən geri qalmamışlar.

1514-cü ildə Sultan I Səlimin [1512–1520] başçılıq etdiyi Osmanlı ordusu ilə Çaldıran düzündə baş vermiş döyüşdə qızılbaşlar məğlubiyyətə uğradılar. Sultan Səlimin əlinə keçmiş əsirlər arasında Şah İsmayılın döyüş paltarı geyinmiş arvadları Bəhruzə xanım və Taclı xanım da vardı. Döyüşlərdən sonra Çaldıran düzündə kişi paltarı geyib öz ərləri ilə birlikdə vuruşan xeyli qadın meyiti tapılmışdır. Azərbaycan qadınlarının vətənpərvərlik və igidliyindən heyran olmuş Sultan Səlim onların döyüşçüyə xas ehtiramla basdırılması üçün əmr vermişdir.

**Tuti Bikə** (?–1786). Quba xanı Fətəli xanın arvadı, Qaraqaytaq hakimi Əmir Həmzənin bacısı, dövlət xadimi. 1766-cı ildən Dərbənd şəhərinin idarəsi Tuti Bikəyə tapşırılmışdı. Gavduşan vuruşmasında Əmir Həmzə və onun müttəfiqlərinə məğlub olan Fətəli xan geri çəkildikdə, Tuti Bikə Dərbəndin müdafiəsini öz üzərinə götürmüş və şəxsən rəhbərlik etmişdir. Ərinin həlak olması şayiəsinə inanmayan Tuti Bikə qardaşının müdafiədən əl çəkmək təklifini rədd etmişdir. O, döyüşə girərək qala müdafiəçilərini ruhlandırmış, başçılıq etdiyi Dərbənd süvariləri ilə düşməni 9 ay Dərbəndə yaxın buraxmamış, şəhərdən uzuqlaşdırmışdır.





**Rüstəmə** (XIX əsr). 1850-ci ildə Azərbaycanın Zəncan şəhərində baş vermiş böyük xalq üsyanının başçılarından biri olmuşdur. Rüstəmə qılınc oynatmaqda, sərrast güllə atmaqda ad çıxarmışdır.

**Nigar.** Xalq qəhrəmanı Koroğlunun silahdaşı, sədaqətli həyat yoldaşı olmaqla yanaşı, həm də ən yaxın məsləhətçisi idi.

**Həcər** (XIX əsr). Xalq qəhrəmanı Qaçaq Nəbinin arvadı. O da əri kimi 25 il at belində çarizmə qarşı mübarizə aparmışdır.

Belə misallar çox çəkmək olar. Araşdırmalar göstərir ki, insanlıq tarixində qadın liderliyinin beşiyi qədim Şərqdir. Şərqin bir hissəsi olan müsəlman dünyasında, qadın nüfuzu, qadın zəkası, qadın müdrikliyi yüksək qiymətləndirilib. Onların cəmiyyətin inkişafında, elmin çiçəklənməsində, əmin-amanlığın bərqərar olmasında iştirakı danılmazdır. Qadın zəkası müsbət intellektual amillərin yaradıcısıdır. Qoca Şərqin müsəlman qadınları ağbirçək anaların müqəddəs yolu ilə gedərək neçə-neçə nəsillər böyütmüş, dünyaya dahilər bəxş etmişlər. Qədim əsrlərdən keçib gələn bu yolda Məhsəti xanım Gəncəvinin könül təravətləndirən rübailəri klassik Şərq poeziyasının ən yaxşı incilər kimi dünya ədəbiyyatı xəzinəsinə daxil olmuşdur.

**Məhsəti Gəncəvi.** XII əsr Azərbaycan şairi. Tədqiqatlar göstərir ki, Gəncədə mükəmməl təhsil almış, Şərq ədəbiyyatına və musiqisinə yaxından bələd olmuşdur. Məhsəti Gəncəvi fars dilində, əsasən, rübai janrında yazmışdır. Məhəbbət lirikası Məhsəti yaradıcılığında əsas yer tutur. Onun rübailəri dünyəviliyi, humanizmi, nikbinliyi ilə seçilir. Ədəbi irsi dövrümüzə tam halda gəlib çatmamışdır. XIII–XV əsrlərə aid cüng və təzkirələrdə 200-ə yaxın rübaisi və bir neçə lirik şeiri saxlanılmışdır.

Məhsəti Gəncəvi rübailərində insanın mənəvi azadlığını müdafiə etmişdir. Şeirlərində xalqın, xüsusilə Şərq qadınının azad və xoşbəxt həyat haqqında romantik arzuları əks olunmuşdur.

**Heyran xanım** (XVIII əsrin sonu). Azərbaycan şairi. XVIII əsrin sonlarında Naxçıvanda Kəngərli xanlarının ailəsində doğulmuşdur. Təhsilini Naxçıvanda almış, ərəb və fars dillərini, klassik Azərbaycan və fars ədəbiyyatını öyrənmişdir. XIX əsrin əvvəllərində İrana köçmüşdür. Azərbaycan və fars dillərində yazdığı şeirlərində saf, fədakar, nəcib insani məhəbbəti tərənnüm etmişdir. O, əsərlərində zülm və ədalətsizliyə qarşı çıxmış, həyatın qədrini bilməyə çağırmışdır.

**Xurşidbanu Mehdiqulu xan qızı Natəvan** (1832–1897). Azərbaycan şairi. İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Musiqini, şeiri, rəsmi sevən Natəvan Şərq dillərini öyrənmişdir. Natəvan Firdövsi, Nizami, Sədi, Hafiz, Nəvai, Füzuli kimi klassiklərin əsərlərini oxumuşdur. Qəzəlləri məhəbbət və təbiətin gözəlliklərinin tərənnümü ilə seçilir. Yüksək sənətkarlıq nümunələri olan şeirlərində bədii vasitələrdən məharətlə istifadə etmişdir. 16 yaşlı oğlunun ölümündən sonra bədbinliyə qatılmış, «Ağlaram», «Sənsiz», «Ölürəm» kimi şeirlər yazmışdır.

Natəvan 1858-ci ildə Bakıda A.Düma (ata) ilə görüşmüş, öz əl işlərindən ona hədiyyə vermişdir. 1872-ci ildə Şuşada «Məclisi-üns» ədəbi məclisini təşkil etmişdir. 1873-cü ildə Şuşaya «Xan qızı bulağı» adı ilə məşhur olan su kəməri çəkdirmişdir.

**Şəfiqə Məhəmməd qızı Əfəndizadə** (1882–1959). Azərbaycanın ilk maarifpərvər qadın publisisti, yazıçısı və ana dili müəllimi. Darülmüəllimatda dərs demişdir. Mətbuat səhifələrində xalqın maariflənməsindən, qadın azadlığından bəhs edən məqalələri dərc edilmişdir. Hekayələr yazmışdır.

**Həmidə xanım Əhməd bəy qızı Cavanşir-Məmmədquluzadə** (1873–1955). Cəlil Məmmədquluzadənin ömür yoldaşı. Azərbaycanın ilk maarifpərvər qadınlarındandır. 1907-ci ildə Ağcabədi rayonunun Kəhrizli kəndində qadınlar üçün ilk təhsil ocağı – məktəb açmışdır. Qafqaz müsəlman qadınları xeyriyyə cəmiyyətinin yaradıcılarından biri olan Həmidə xanım Azərbaycanın ictimai-mədəni həyatında fəal iştirak etmişdir. «Molla Nəsrəddin» jurnalının nəşrində xidmətləri olmuşdur.





**Səkinə Axundzadə** (1865–1927). Müəllim və yazıçı. Azərbaycanlı qadınlar içərisində ilk dəfə səhnə əsərləri yazmış, rus-müsəlman qız məktəbində dram dərnəyi yaratmışdır. Məktəbli qızlarla birlikdə teatr tamaşaları hazırlayıb, qadın tamaşaçılarına göstərmişdir. Pyesləri Azərbaycanın sovetləşməsindən əvvəlki dövründə səhnədə göstərilmişdir. Bakıda H.Z.Tağıyevin qız məktəbində dərs demişdir.

**Hənifə xanım Məlikova-Abayeva** (1856–1929). Azərbaycanın ilk maarifçi qadınlarından biri. Həsən bəy Zərdabinin həyat yoldaşıdır. «Əkinçi» qəzetinin nəşrində fəal iştirak etmişdir. Bakıdakı «Nicat» cəmiyyəti qadın bölməsinin yaradıcılarından olan Hənifə xanım öz mənzilində məktəb açmış (1880), yaşlılara dərs demişdir (1904–1908). O, Bakıdakı ilk müsəlman qız məktəbinin (1901–1905), 1-ci rus-tatar (rus-Azərbaycan) qız məktəbinin (1909–1919) müdiri işləmişdir.

**Şövkət Həsən qızı Məmmədova** (1897–1981). Azərbaycanın ilk professional qadın müğənnisi. 1910-cu ildə Tiflis musiqi məktəbini bitirdikdən sonra təhsilini davam etdirmək üçün 1911-ci ildə Milana getmiş, burada məşhur müğənni D.Ambroziodan dərs almışdır. O, ikinci dəfə Milanda 1927–1929-cu illərdə təhsilini davam etdirmişdir. Şövkət xanımın təşəbbüsü ilə 1923-cü ildə Bakı Teatr Texnikumu açılmışdır. 1923–1925-ci illərdə həmin təhsil ocağına Şövkət xanım rəhbərlik etmişdir. Eyni zamanda Şövkət xanımın təşəbbüsü və köməkliyi ilə Bakıda not nəşriyyatı təsis edilmişdir. Şövkət xanım Azərbaycan opera səhnəsində rus və dünya vokal sənətinin ən yaxşı ənənələrini milli musiqi xüsusiyyətləri ilə əlaqələndirmişdir. O, 1945–1981-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyət göstərmişdir.

**Sona İbrahim qızı Vəlixan** (1883–1982). Oftalmoloq, azəbaycanlı qadınlar arasında ilk tibb elmləri doktoru, professor. Elm sahəsində Nobel mükafatına namizədliyi irəli sürülmüş ilk azərbaycanlı alimdir (1941). Peterburq Qadın Tibb İnstitutunu bitirmişdir. Xarkov Universitetində, Azərbaycan Tibb İnstitu-

tunda, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda işləmişdir. Oftalmologiyanın müxtəlif sahələrinə aid tədqiqatlar aparmışdır.

**Xədicə Osman qızı Qayıbova** (1893–1938). İlk azərbaycanlı pianoçu qadınlardan biridir. Tiflisdə «Müqəddəs Nina» qız məktəbində oxumuşdur. Azərbaycan muğamlarının fortepianoda ilk ifaçısı və Azərbaycanda musiqi məktəbi yaradılmasının ilk təşəbbüsçülərindən biri olmuşdur.

**Ağabacı İsmayıl qızı Rzayeva** (1912–1975). Azərbaycanın ilk bəstəkar qadınlarındandır. Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Dahi Üzeyir bəy Hacıbəylidən dərs almışdır. Mahnı və romansları neçə illərdir ki, müğənnilər tərəfindən həvəslə ifa olunur.

**Şəfiqə Qulam qızı Axundova** (d. 1921). Azərbaycanın ilk bəstəkar qadınlarındandır. Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Yaradıcılığında mahnı janrına üstünlük verən Şəfiqə xanım yalnız mahir mahnı bəstəkarı olaraq qalmır. O, ilk azəri və Şərq qadınıdır ki, opera janrına müraciət etmişdir. İstedadlı bəstəkar «Ev bizim, sirr bizim» operettasının, «Gəlin qayası» operasının musiqisini bəstələmişdir. «Şərəf nişanı» ordeni ilə təltif edilmişdir.

Əziz oxucu! Tarix araşdırılsa, görərik ki, həyatın hər bir sahəsində Şərq qadını dan ulduzu kimi parlayıb və bəşər nə qədər ki var, bu ziya hər yerə şəfəq salacaqdır. Unudulmaz alim, yazıçı Əzizə Cəfərzadə çox gözəl demişdir: «...qadın qocaldıqca «ağbirçək» adlandırılıb, bir evin, bir nəslin, obanın cavanları «ağbirçək nənə» məsləhətindən bəhrələnib, qadın – ana baş açıb, yaylıq atdığı yerdə gözüqanlı dəliqanlılar belə qan tökməyib, yarağını qınına qaytarıb qoyub. Yüzilliklər boyu Azərbaycan poeziyasında gözəllik, qadın, ana kultu olub, Xaqanidən, Nizamidən bəri poeziyamızda müqəddəs ana surəti tərənnüm edilib».

Dahi Nizami anası Rəisə xanımı, həyat yoldaşı Afaqı böyük məhəbbətlə təsvir etmiş, Nüşabənin simasında azəri qadınının öz ağlı, gözəlliyi, tədbiri və mərdliyi ilə, hətta dünyanı





lərzəyə gətirən İsgəndərdən yüksəkdə durduğunu göstərmişdir. Tarix boyu xalqımızın görkəmli şəxsiyyətlərinin ömür yoldaşları, ərlərinin sadiq məsləkdaşları olmuşlar.

Əziz oxucu! Bir qədər də Sizə şəfqət haqqında məlumat vermək istərdim.

Şəfqət! Bu söz nə qədər müqəddəs və şərəflidir. Məhəmməd peyğəmbər (s.) buyurmuşdur: «Siz yer üzündə olan insanlara qarşı şəfqətli olsanız, göydəki Allah da sizə qarşı şəfqətli olar».

«Bizim ziyalımız özümüzdəki ülviliyi görmədən bağırır ki, Amerika qadını birinci beynəlxalq müharibədə dünyada ilk dəfə olaraq şəfqət bacısı olub və bu böyük işin banisi olmuşlar. Halbuki İbn Yəmini Fəryumədinin divanına baxın. Səbzəvavar hakimi Əlaidinin mədhinə yazdığı qəsidədə deyir: «Sən bağın ortasında bir xəstəxana qayırıbsan ki, mələkə kimi qızlar orada çalışır və bu mehriban bacılar xəstələri dərmanla müalicə edirlər». Bəli, bu isə 700 il qabağa qayıdır.» (Ə.Musazadə, «Ziyalı və ictimai məsələlər», Əmir kəbir nəşriyyatı, 1-ci nəşr 1992, s. 30)

Əvvəlki bölmələrdə təqdim etdiyimiz araşdırmalardan məlumdur ki, Şərqin müsəlman qadınları hələ Həzrət Məhəmmədin (s.) sağlığında, onun iştirak etdiyi müharibələrdə yaralılara şəfqət bacısı kimi ilk yardım göstərmiş, Həzrət Fatimə (r.a.), Həzrət Aişə (r.a.) belə bu müqəddəs işi həyata keçirmişlər. Deməli, müsəlman Şərqində qadınların şəfqət bacısı missiyasını həyata keçirməsi 1400 ildən çox bir tarixə malikdir.

Birinci və xüsusilə İkinci dünya müharibəsində şəfqət bacısı, həkim işləyən və bu yolda şəhid olan azərbaycanlı qızlarımız az olmamışdır. Nigar Şıxlinskaya, Dürrə Məmmədova, Cəvahir Abbasova, Rəşidə Qasımzadə, Pakizə Manafova, Züleyxa İsmayılova, Şura Əlizadə, Səkinə Əliyeva, Suğra Paşayeva, Lyudmila Kərimova, Səfiyyə Rüstəmbəyova, Zərifə Camalbəyova, Səlimə Əlizadə, Furfanda Camalova, Böyükxanım Mircavadova, Lora Abdullayeva, Nəcibə Məmmədova, Zəhra Səlimova, Qönçə Qaragözova, Aliyə Tağızadə, Tahirə

Fəttahova, M.Ə.Sabirin nəvəsi Naibə Əfəndiyeva, Gülxanım Babayeva, Maya Bayramova, Mədinə Əhmədova, Səkinə Bayramova və b., saymaqla qurtaran deyil. (Ə. Metenin «Loğmanlar» kitabında onlar haqda geniş məlumat verilmişdir)

Əziz oxucu, sizə Nigar Şıxlinskaya haqqında qısa məlumat vermək istərdik.

**Nigar Hüseyn qızı Şıxlinskaya** (1878–1931). İlk azərbaycanlı şəfqət bacısıdır. Atası Qayıbov Hüseyn Əfəndi Zaqafqaziya müftisi idi. O, M.F.Axundzadə, İ.Çavçavadze ilə yaxından dostluq etmiş, böyük maarifpərvər olmuşdur. Nigar xanım artilleriya general-leytenantı Əliağa İsmayıl ağa oğlu Şıxlinskinin həyat yoldaşı idi. 1889-cu ildə Tiflisdə Zaqafqaziya Qızlar İnstitutunu qızıl medalla bitirən Nigar xanım ilk alitəhsilli azərbaycanlı qadındır. O, rus, fransız, ərəb, fars dillərini yaxşı bilirdi. Nigar xanım Birinci dünya müharibəsində iştirak etmiş, 1914–1918-ci illərdə zabit arvadlarının yaratdığı «Qırmızı xaç» hərbi xəstəxanasına başçılıq edən komitənin sədri seçilmişdir. Bu hərbi xəstəxanada yüzlərlə yaralı şəfa tapmışdır. Nigar xanım 1914-cü il avqustun 1-də «Russkiy invalid» qəzetində Birinci dünya müharibəsi əleyhinə qadınlara öz müraciətini çap etdirmişdi. Nigar xanım mətbuatda ədəbiyyata, mədəniyyətə və tarixə aid məqalələrlə çıxış etmişdir.

Bu bölmədə Ön və Orta Şərqdə qadının müqəddəsliyindən, islamda qadın-kişi bərabərliyindən, onların mərdliyindən, qəhrəmanlığından, şəfqətindən, intellektindən... söz açdıq. Qadın Şərq dünyasında müqəddəs olub və bu ənənə həmişə davam edəcəkdir. Çünki qadın anadır. Ana isə insaniyyətin məşəl aparanı, müsbət intellektual yol göstərənidir. Bəşər yalnız qadın, ana xeyir-duası ilə zülmətdən, mənfi intellektual bəlalardan xilas ola bilər.

O, sox sevimli, gözəl, incə, nazlı bir xilqət,
Onun ayaqları altındadır cənnət.

*Hüseyn Cavid*





## SOYUQ MƏZARA DA ZİNƏTDİR İNSAN...

Bütün səmavi dinlərə görə təbiətin tacı sayılan insan Allah-Təala tərəfindən xəlq edilmiş və torpaqdan yaradılmışdır. Deməli, insanın yaranması barədə fikirlər həm iudalizmdə, həm də xristian və islam dinlərində eynidir.

Əziz oxucu, «İxvan əs-Səfa»nın («Saflıq qardaşları», Bakı, 2008, s. 93-94) 9-cu risaləsində deyilir: «Allah-Təalanın övliyalarından biri məşəqqətin və müsibətlərin mənası haqqında düşünəndə, onları fikirləşib tapa bilmədi. O, dua edən zaman Uca Tanrı ona vəhy etdi, öz sirrindən onu xəbərdar etdi, ilhamlandırdı və dedi: «... Səni Mən xəlq etdim, elə isə deyilən pis məxluq olma. Mən sənə incə eşitmə, iti göz, duyan hisslər, zəkalı qəlb, kəskin fəhm, saf zehin, incə düşüncə, səlis dil, sağlam əql, mükəmməl quruluş, sabit can, gözəl sifət, sağlam əzalar, mükəmməl vasitələr, itaətkar ətraflar (qollar, ayaqlar) bəxş etdim. Sonra da sənə danışıq qabiliyyəti ilham etdim. Sənə faydalı olanı və zərərlini, sənə vəziyyətlərdə, sənətlərdə və əməllərdə işin keyfiyyətini öyrətdim. Sənin baxışlarından pərdəni qaldırdım, gözlərini açdım ki, Mənim mülkümə baxsan, işimin qəribəliklərini görəsən, gecə və gündüz baş verənləri, dövr edən fələkləri, gəzən ulduzları düşünəsən. Sənə vaxtların, zamanların, ayların, illərin hesabını öyrətdim. Quruda və dənizdə olan mədənləri, bitkiləri, heyvanları sənin ixtiyarına verdim ki, gücünün yetdiyi qədər onlardan ağalar kimi istifadə edəsən. Səni təcavüzkar, ədalətsiz, zalım, haqsız, həddi və miqdarı aşan görəndə, sənə qanun və hökmləri, müqayisəni, miqdarı, ədaləti, insafı, haqqı, savabı, xeyiri, faydalını, ədalətli davranmağı öyrətdim. Sənin üçün fəzilət, nemətlər kəsilməsin, səndən əzab və intiqam uzaq olsun deyə sənə onun niyə daha xeyirli, daha fəzilətli, daha şərəfli, daha əziz, daha hörmətli, daha ləziz, daha gözəl olduğunu öyrətdim.»

«Qabusnamə»də deyilir: «Yaradan insanı bütün məxluqatın ən şərəflisi yaratmış və onu 10 xüsusiyyətə görə (5 bədənin

daxilində, 5 isə xaricində), başqa canlılardan üstün yaratmışdır.

Daxildə olan 5 xüsusiyyət: təfəkkür, hafizə, təxəyyül, təsəvvür və danışıqdır. Xarici 5 xüsusiyyət: eşitmə, görmə, qoxu bilmə, toxunma və dad bilmədir. Bu xüsusiyyətlərdən heyvanlarda da olanları insanlardakı kimi deyil, ayrı cürdür. Buna görə də insan heyvanlara üstün gəlmiş və onların üzərində hökmranlıq əldə etmişdir.»

F.Əkbərov, N.Camalov hesab edirlər ki, insan istedad və qabiliyyətləri baxımından güclüdür. O, şüur və ağıl sahibidir. O bu gücü – şüuru, ağlı, istedad və qabiliyyətləri ilə bütün canlı və cansız aləmlə münasibət qura bilir, özünə lazım olanları əldə edir və onlardan öz xeyri üçün istifadə edə bilir. («İnsan mənəviyyatı və əxlaq», Bakı, 2003)

Bununla yanaşı, insan möhtac varlıqdır. O, digər canlılardan fərqli olaraq dünyaya qədəm basar-basmaz, ehtiyaclar dəryasına qərq olur. Doğrudan da, insan uzun müddət qayğıya, mərhəmətə, şəfqətə, başqa sözlə, tərbiyə edilməyə möhtacdır.

İnsan xeyrə və şərə meyillidir. İnsanın mahiyyətinin digər bir xüsusiyyəti də onun yaxşılıqlara və pisliklərə, başqa sözlə, xeyrə və şərə meyilli olaraq yaradılmasıdır ki, bunlar da ən qədim zamanlardan bəri fəlsəfə, psixologiya, sosiologiya kimi fənlərin meydana çıxmasına səbəb olmuşdır, bu fənlər insanı məhz bu yönləri ilə öyrədir. İnsan öyrənməyə və tərbiyə edilməyə əlverişli varlıqdır. İnsan varlığının ümumi xüsusiyyətlərindən biri də məhz budur – o, dünyaya gələrkən heç bir şey bilməyən, lakin öyrənməyə və tərbiyə edilməyə əlverişli bir varlıq olaraq gəlir. Bu barədə Qurani-Kərimdə belə buyurulur: «Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz (dərk etmədiyiniz) halda çıxartdı. Sonra sizə qulaq, göz, qəlb verdi ki, (Allahın əmrlərini eşidib, qüdrətini və əzəmətini görüb, vəhdaniyyətini duyub) şükr edəsiniz.» (ən-Nəhl surəsi, ayə 78)

İbn Sina deyir: «Mən» – cism deyil, çünki bədəni meydana





gətirən parçalar daima böyümək və çürüməkdədir. Halbuki, mənlik ilə işarə edilən ruh cövhəri bu halların hamısında baqidir, əbədidir. Onda dəyişkənlik yoxdur. Belə isə cism və cəsəddən ayrı nəfsi-natiqə bir ruh var. Ruhun funksiyaları maddi cəsəddə aranmaz.»

Peyğəmbərimiz (s.) insan üçün şərəfli sayılan iki keyfiyyətdən birini inam, digərini isə insanlar üçün faydalı ola bilməkdə gördüyünü bəyan etmişdir. Bu, hər kəsin öz insanlığını dərk etməsinin əlifbasıdır.

İnsan adıyla deyil, əməlləriylə, keçdiyi yolla, həyat tərzi ilə tanınır. Kamil insanın böyüklüyü, əzəməti qədərdir. Kamil, elmli insanlar – alimlər xalqın, dövlətin, bəzən bəşəriyyətin sərvəti kimi qiymətləndirilir. Cəmiyyətə, vətənə, bəşəriyyətə yararlı insanlar heç vaxt unudulmur. Həmişə böyük hörmət və məhəbbətlə yad edilir. Belə bəşəri insanlardan Məhəmməd peyğəmbər (s.), İsa (ə.), Nyuton, Nizami, Nəsirəddin Tusi, Konfutsi və b. göstərmək olar.

Köksüz ağac olmaz. İnsan da belədir. Kök insanı minilliklərin dərinliyindən götürüb gətirir. İnsan nəslinə, kökünə möhtac və minnətdardır.

İnsan ömrü onun doğumu, ölümü ilə yox, gələcək nəsillərin onu yada salması ilə ölçülür. Çinar ağacı torpağa atdığı köklərlə əzəmətli olduğu kimi, insan da xalqına, vətəninə bağlılığı və bəşəri qanunlara, o cümlədən – ekologiya qanunlarına riayət dərəcəsi ilə kamil və məğrur olur. Bu bəşəri qanunları pozan insan məşəqqətlə üzləşir. Həyatda düzgün davranmaq, təbiətə, bəşəriyyətə hörmət etmək üçün Allah-Təala insana şüur vermişdir.

İnsandan ulu bir məxluq varsa da, o, yenə insandır.

***Qurani-Kərimdə buyurulur:***

Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz

ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik...

*əl-İsra surəsi, ayə 70.*

And olsun (Allah-Təalanın Musa ilə danışdığı) Tur dağına; and olsun bu təhlükəsiz (qorxusuz-xətərsiz) şəhərə (Məkkəyə) ki, Biz insanı ən gözəl biçimdə yaratdıq.

*ət-Tin surəsi, ayə 2–4.*

Tövrata əməl etməyə mükəlləf olduqdan sonra, ona əməl etməyənlər (Tövrata yükləndikdən sonra onu daşımayanlar, Tövrata iman gətirdikdən, onu oxuyub öyrəndikdən sonra hökmlərini lazımınca yerinə yetirməyənlər) belində çoxlu kitab daşıyan (lakin onların içində nə yazıldığını bilməyən, onlardan faydalanmağı bacarmayan) ulağa bənzərlər...»

*əl-Cumuə surəsi, ayə 5.*

(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə (bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə). Çünki qulaq, göz və ürək– bunların hamısı (sahibinin etdiyi əməl, dediyi söz barəsində) sorğu-sual olunacaqdır.

*əl-İsra surəsi, ayə 36.*

İnsanlara bir mərhəmət (firavan həyat, sağlamlıq, cah-calal) dadızdırdığımız zaman ona sevinərlər. Onları öz əlləri ilə etdikləri əməllərə (qazandıqları günahlara) görə bir müsibətə düçar etdikdə isə birdən-birə məyus olarlar (hər şeydən ümidlərini üzərlər).

*ər-Rum surəsi, ayə 36.*

O, göyləri və yeri haqq-ədalətlə (yerli-yerində) xəlq etdi, sizə surət verdi, surətlərinizi də gözəl yaratdı. (İnsan bütün canlıların ən gözəli və ən kamilidir). Axır dönüş də Onun hüzurunadır!

*ət-Təğabun surəsi, ayə 3.*





Hansınızın əvvəlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, bağışlayandır.

*əl-Mulk surəsi, ayə 2.*

Əziz oxucu! Qurani-Kərimdən nəzərinizə çatdırdığımız ayələrdən məlum olur ki, Allah-Təala bu müqəddəs kəlamlarla insanları düzlüyə, müdrikliyə, ədəb-ərkana, sahib olduqları ruzilərin qədrini bilməyə dəvət edir. Bəşəriyyəti faciədən, fəlakətdən qoruyan bu qanunların əsası 1400 il əvvəl qoyulmuşdur. Yaşamaq istəyən insan irqindən, milliyyətindən və inancından asılı olmayaraq bu tövsiyələrə əməl elməlidir. Dünyanı öz şüursuzluğu ilə məhvə aparan insan, öz şüuru və intellekti sayəsində də çıxış yolu tapmalıdır.

İndi də dahilərin insan haqqında söylədikləri hikmətli kəlamlara nəzər salaq:

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Allahı sevirsinizsə, birinci növbədə insanları sevməlisiniz.

***

Allah başqasına rəhm etməyən insana rəhm etmir.

***Həzrət Əli (ə.) buyurmuşdur :***

İnsanların öz ata-babalarından zəmanələrinə daha artıq oxşarlıqları var.

***Nizami Gəncəvi:***

İnsan, insana qatış hər zaman,
İnsanla yaşayar hər zaman insan.
Əlçatmaz xəzinə olsan da, ancaq,
Çox belə xəzinə gizləmiş torpaq.

***

Otlara yaraşar başını əymək,
İnsanın başıysa ucada gərək.
***
İnsan yem dalınca qaçmasın gərək,
Quşdan ayıq olsun, zirəkdən zirək.
Çalış öz xalqının işinə yara,
Geysin əməlinlə dünya zər-xara.

*Mövlana hikmətləri:*

Bədəninə yağlı, ballı şeyləri az ver, çünki onu gərəyindən artıq bəsləyən (kimsələr) nəfsani arzulara düşür və sonunda rəzil olub gedirlər.

***

Ruhuna mənəvi qidalar ver. Kamil düşüncə, incə anlayış və ruhi qidalar təqdim et ki, gedəcəyi yerə sonsuzluq səyyahı olaraq güclü, qüvvətli getsin.

***

İnsanın varlığında hansı xasiyyət qalibdirsə, şəxsiyyət ona görə təşəkkül edər. Bir mədən qazıntılarında qızıl misdən artıqdırsa, o məhsul artıq qızıl sayılır.

***

Allah buyurdu ki, ey insan, diqqətlə bax və gör: sənin torpaqdan yaradılmış bədəninə ruhumdan bir toxum əkdim, səni ucaltdım. Sən bu torpağın bir tozu ikən səni üstün bir varlıq elədim. Sənə ağıl verdim, eşq verdim. Həyat, hər canlı varlıq torpaqla başlar və yenə onda bitər.

*Fəzrullah Nəimi kəlamlarından:*

Kamil insan günəşdən, aydan, ulduzlardan da əzəmətlidir. Bütün varlıq insanın vücudundadır.





*Sədi Şirazi hikmətləri:*

İnsana insanlıq verməyir camal,
Büt gözəl görünür, ancaq olur lal.
İnsanlıq deyildir sümüklə, ətlə,
İnsan gözəl olmaz gözəl surətlə.
Şehin hər damlası olsaydı gövhər,
İncidə, gövhərdə olmazdı dəyər.
***
Bir ata oğluna onu etmədi,
Ki, sən səxavətlə etdin insana.
Allah əvəzində qaldırdı səni,
Hökümran eylədi bütün cahana.
***
Bir bədən üzvüdür bu bəni-adəm,
Eyni bir cövhərdən yaranmış aləm.
Bir üzvü dərdlərə salsa ruzigar,
Tutmaz başqa üzvü yerində qərar.
Özgənin dərdinə əgər qalmasan,
Yaraşmaz adına deyilsin insan.

*Məhəmməd Füzuli kəlamlarından:*

Əsl insan hər elmdən, hər məktəbdən dərs alıbdır,
Könül-uşaq, can məktəbi bu məktəbdən dərs alıbdır.

*Eynəlqüzat-Abdulla ibn Məhəmməd,*
*Ömər Xəyyamın tələbəsi:*

Əsl və həqiqi insan odur ki, başqaları onun əlindən, dilindən və əməlindən ziyan görməsin.

*Əbdürrəhman Yusifpur, İslam alimi:*

Söz və kəlam ağlın təzahürüdür, göz yaşları da eşqin və məhəbbətin nişanəsidir.

*Mirzə Fətəli Axundzadə:*

Sağlığında xalqın sevimlisi və öldükdən sonra adı tarixin

bəzəyi olmaq dünyada ən böyük səadətdir.

*Aşıq Veysəl:*

İnsan bir dəryadır – elmində mahir,
Elmsiz insanın şöhrəti zahir....

***Abbasqulu ağa Bakıxanov:***

Gərək insan həmişə yaxşılıq etməyə çalışsın və bilsin ki, əxlaqı təmizləyib islah etməkdə məqsəd yaxşılıqdır. Çünki onsuz əməl meyvəsiz ağac kimi əhəmiyyətsiz olar.

***

Şərafətə çatar insan artarsa onda şüur,
İnsan idrak sayəsində günəş kimi verər nur.

***Həsən bəy Zərdabi:***

Hər kəs öz vücudunun qədrini bilib insaniyyət, ixtiyar və borclarını əda etmək ilə insan olur.

***Cəfər Cabbarlı:***

Dilək ilə nəticə arasında keçilməz bir uçurum var ki, onu ancaq qüvvətli simalar keçmişlər... Onlarla da tarix fəxr edir.

***Səməd Vurğun:***

Əzəldən böyükdür insanın adı,
Yorulmaq bilməmiş əqlin qanadı.

***Süleyman Rüstəm:***

Dünyaya bir dəfə gəlsə də insan,
Yenə əbədiyyət onundur, fəqət.

***Bəxtiyar Vahabzadə:***

Ləyaqət – insanın ikinci adı,
Ləyaqət – insana ən doğru ünvan.
İnsan bu ad ilə dördayaqlıdan
İkiayaqlıya bir tarix keçdi.





İnsan qətrə-qətrə insanilaşdi
Yalnız öz insanlıq ləyaqətilə...
Yalnız başqasını düşünən zaman,
Qalxır insanlığın fövqünə insan.

***

İnsanın insanlıq dəyəri onun mənsub olduğu vətənə və xalqa münasibət dərəcəsi ilə ölçülür.

***Qədim Şərq aforizmi:***

Yalnız qınağa və yalnız tərifə layiq insan olmamışdır, yoxdur və olmayacaqdır.

***Osman Nuri Topbaş:***

Qəlbi qırıq insanların Allah-Təalanın nəzərindəki etibar və mövqeləri yüksəkdir. İlahi rizasına qovuşmaq istəyənlər belə məhzun könülləri sevindirməlidirlər. Necə ki, Həzrət Musa (ə.) bir gün: «Ya Rəbb! Səni harada arayım?» – deyərkən, Allah-Təala da ona cavab vermişdir: «Məni qəlbi qırıqların yanında ara!»

***Dr.Aydın Topaloğlu:***

İnsanın əxlaqı və psixologiyası Tanrının varlığının sübut olunması üçün əhəmiyyətli bir dəlildir. İnsan yalnız fiziki və bioloji funksiyalardan ibarət olan bir varlıq deyildir. O, beyni olan kompyuter kimi bir maşın da deyildir. Yaradan insana ağıldan və hisslərdən başqa düşüncə, təsvir, röya, təxəyyül, ilham kimi xüsusiyyətlər də vermişdir. Eyni zamanda insanın qəlb, vicdan, könül kimi mənəvi cəhətləri vardır. İnsan bunlarınköməyi ilə eşq, sevgi, yaxşılıq, şəfqət, ülfət kimi hisslər qazanmışdır. Bunları insana uca bir varlıq vermişdir. İnsan bu xüsusiyyətləri başqa cür əldə edə bilməz.

***

İnsan gözəl və zəngin yaradılmışdır. Mərhəmət, şəfqət, yaxşılıq, sevgi və eşq onun xislətində var.

*Vaqif Abbasov*:

Biz Yer üzərində yalnız qısa anlar yaşayırıq. Biz şam kimi alışırıq, müəyyən müddətdə yanırıq və sönürük. Nə üçün bu qısa müddəti elə keçirə bilmirik ki, ölüm adlanan Böyük Karvan Yer üzündəki ömrümüzün sona çatdığını elan edərkən onun ardınca qorxusuz və titrəmədən gedək.

*N.Süleymanoğlu, K.Asifqızı:*

İnsan kainatın ən qiymətli əsəridir. Kainatın yaradılmasında elə məqsəd də insandır, daha dəqiqi insan ruhudur. Kainat da, insan bədəni də bu ruha xidmət edir. İnsan – başına kainatdakı bütün incəlikləri tanıya biləcək ağıl tacı qoyulmuş, köksü incə hissiyyatlar, duyğularla bəzədilmiş bir məxluqdur.

***

İnsanın böyüklüyü ondakı «mən»-in böyüklüyü – əzəməti qədərdir. İnsan «mən» şüurunda bir varlıqdır. «Mən»lik insan varlığının mərkəzidir.

***

İnsan əzabları ilə yüklənməlidir. Əzabı düşünmək insanı sıxırsa, əzabların içinə düşmək daha dəhşətli olar. Halbuki, düşünmək dəhşət içinə düşməkdən daha asan və sadədir.

Araşdırmalardan belə nəticəyə gəlmək olar ki, yaşadığımız Yer planetində istər müsbət, istərsə də mənfi ekoloji mühitin yaranması insan və onun intellektinin məhsuludur.



# III FƏSİL
# Müsbət intellektual ekoloji tarazlığı yaradan amillər

(Ya Rəsulum!) Bəndələrimə de: «Danışdıqları zaman... gözəl sözlər söyləsinlər. Şeytan onların arasına fitnə-fəsad sala bilər...»

***Qurani-Kərim,***
***əl-İsra surəsi, ayə 53***

# SÖZÜN UCALIGI

Mən aləm sədəfində insandan qiymətli bir gövhər görmədim.
İnsan gövhərində isə sözdən şərəfli cövhər tapmadım.
*Məhəmməd Füzuli.*

Hörmətli oxucu! Biz birinci bölmədə intellektual ekologiyanın yaradıcı amili sözün əzəli olması, müqəddəsliyi haqda geniş məlumat vermişdik. Bu bölmədə də Füzulinin söz haqqında dediklərini epiqrafda bir daha təkrarlamaq qərarına gəldik. Söz haqqında deyilən bu kəlam o qədər qiymətli və hikmətlidir ki, onu əvəz edən başqa kəlam tapmaq, bəlkə də, qeyri-mümkündür. İndi də sözü qiymətləndirən bir çox kəlam və hikmətlərə nəzər yetirək.

***Qurani-Kərimdə buyurulur:***

Allah pis sözün açıq (ucadan) deyilməsini sevməz. Yalnız zülm olunmuş şəxslər müstəsnadır...

*əl-Nisa surəsi, ayə 148.*

***Məhəmməd peyğəmbər (s.):***

Allah bağışlasın o şəxsi ki, yaxşı söz deyib faydalanır və ya susub salamat qalır.

***

Sədəqə verməyin yaxşısı odur ki, dilini (bəd sözlərdən) hifz edəsən.

***İmam Əli (ə.):***

Danışın ki, tanınasınız, çünki insan öz dili altında gizlənmişdir.





***

Ağıllı adamın dili onun qəlbində, axmağın qəlbi isə onun dilindədir.

***Əbu Bəkr (ə.):***

Sirrin sənin qanındır, onu axıtma.

***

Nə söyləyəcəyini və nə zaman söyləyəcəyini yaxşı düşün.

***İmam Sadiq (ə.):***

Danışanın özünə yox, sözünə daha çox diqqət et.

***Nizami Gəncəvi:***

Ağıllı adamın söylədikləri
Yer altına düşsə, itməz dəyəri.
Söz deyən düşünüb söyləsə əgər,
Pis söz də söyləsə, yenə xoş gələr.

***

Xoşbəxtlik xəzinəsi əldə etmək üçün sözün qüdrətinə müraciət et.

***

Yeniliklər törədən bu qoca kainatda,
Sözdən kəskin və incə bir şey tapılmaz hətta.
Düşüncənin əvvəli bütün sayların sonu,
Sözdür, yadında saxla, unutma əsla bunu.

***

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar,
Bir inci saflığı varsa da suda,
Artıq içilərsə dərd verər o da.

***

Sözdür həm təzə şey, həm də köhnə şey,
Sözdən bəhs edilir zaman-zaman hey…

***

İnci tək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.
Az sözün inci tək mənası solmaz,
Çox sözün kərpic tək qiyməti olmaz.

***Məhəmməd Füzuli kəlamlarından:***

Söz ucaldıb, söz yüksəldib səcdəsində duranı da,
Əzəl sirrin hökmünü də, alqışı da, Quranı da.

***

Hər şeydən yüksəkdir sözün məqamı,
Hər yerdə sevərlər sahib-kəlamı.
Sözün vəsfi mənim hünərim deyil,
Sözün qiymətinə söz yox, yəqin bil.

***

Söz mənadan asılıdır, məna sözdən hər zaman,
Bir-birindən asılıdır necə ki, cism ilə can.

***

Söz sərrafı heç bilirsən nə biliklə ucalıbdır?
Davud gözəl səslə deyil, nəbiliklə ucalıbdır.

***

Gözəl yaranmışdır söz əzəl başdan,
Düzlükdür ondakı hüsnü axtaran.
Düzlüklə artmışdır sözün qiyməti,
Düzlükdür hər şeyin ilk məziyyəti.

***Sədi Şirazi hikmətləri:***

Hər sözün, ey alim, baş-ayağı var,
Sözün arasına söz qatma zinhar.
Ağıllı sakitlik görməsə bir an,
Dil açıb bir söz də söyləməz, inan.





***

Əgər söz olarsa incə və şirin,
O sözü eşidən deyər afərin.
Bir dəfə dedyini təkrar etmə sən,
Xoş olar halvanı bir kərə yesən.

***

Dünya görmüş qoca söz ustadı, bil,
Əvvəlcə fikr edər, sonra açar dil.
Tələsik söyləməz sözünü bir dəm,
Fikrini kamil de, gec olsa, nə qəm?!
Düşünüb sonra de sözü müxtəsər,
O qədər danışma, «bəsdir» desinlər.

***

Sözünü o zaman söylə ki, yəqin,
Nəticə verəcək sənin sözlərin.
Səndən ağıllılar bir söz deyəndə,
Etiraz eləmə yaxşı bilsən də.

***İmadəddin Nəsimi kəlamlarından:***

Abi-həyat kimi sözüm həyat verər insanlara,
Arif olan feyz aparar, nadan isə dodaq büzər.
Məsləksizə hikmət dərsi, nadanlara öyüd neylər,
Ulağın da qabağına gövhər töksən, mat-mat süzər.

***

Bu mətləbi sən də eşit, sən də anla, faydası var,
İbrətli söz sırğa olar, güman etmə zəhlə tökər.

***Saib Təbrizi:***

Dil qılıncı şəmşirdən iti olar.

***

Sözün mənasındadır söz deyənin qüdrəti,
Çün ətrindən bələnər hər gülün lətafəti.

***

Söz yalnız səmimi olduğu təqdirdə təsir edə bilər.

***

Doğru söz ox kimidir, düz dəyəcəkdir nişana,
Oğul istər kişitək tab gətirə bilsin ona.

***

Kim ki, söz ağrısından xəbərdardır, sözün barmağına üzük geydirməz.

### Qətran Təbrizi:

Söz ruhun ölçüsüdür, ağıl isə tərəzisidir,
Ölçü sözə lazımdır, ancaq miqdarı tərəzi təyin edir.

***

Hər sözü dilə gətirmək mümkündür, lakin
Hər sözü ağla qandırmaq çətin və müşküldür.

***

Hikmətə bax gör nə demiş atalar,
«Qısa sözdə olar dərin mənalar».

***

Sözü ölçüb-biçərək söylə, ucuzlaşmasın o,
Yolu düz seç ki, sənə vurmaya axırda ziyan.

### Əvhədi Marağayi Rüknəddin:

Söz, bilik zəkaya əsaslanırsa, hamı onu inci kimi qulağına taxar.

***

Öz halına uyğun deməsən sözü,
İstəyin qəbula yetişməz, düzü...
Sənin öz qəlbinə yatmayan sözü,
Yaxşı hesab etməyir hikmətin özü.

***

Düz söz – o zəhərdir, axırı şəkər,
Əyri söz ağacı acı bar verər.





### Əbdürrəhman Cami:

Demədiyim sözdən heç vaxt peşman olmamışam, lakin çox olub ki, dediyimdən qan və torpaq içində yatmışam.

### Əbül Fərəc:

Gil qabın möhkəmliyini səsi ilə yoxlayan kimi, insanı da ağzından çıxan sözlə yoxlayırlar.

### Səməd Vurğun:

Nə məna varsa, bil, sözdə, könül doymaz bu mənadan,
Bəşərdən şöhrətin yalnız, əməllərdən yarandın sən!
Sənin fəxrin də, şənin də zamanla, əllə ölçülməz,
Xeyir söz! Şad xəbər! Sənsiz könüllər şad olub gülməz!

### Mir Mehdi Seyidzadə:

Fikir aləmində söz kimi yetkin bahar olmaz,
Dəryaları axtar, sözə bənzər gövhər olmaz.
Söz əqlə məhəg olduğuna söz ola bilməz,
Hər xəzinəni gəz, söz kimi qiymətli zər olmaz.
Daşdan da keçər, sözdə əgər olsa həqiqət,
Fikr olmasa, almaz kimi sözdə kəsər olmaz...

### Mirzo Tursunzadə:

Zərbəni sözlə də yetirmək olar,
Zəhəri balla da yedirtmək olar.

### Nəbi Xəzri:

Söz ucaldar bu cahanda insanı,
Əzizləyər bu cahan da insanı.

Vaxt olar ki, bircə anda insanı,
Əlli ilin hörmətindən salar söz.

*Tofiq Bayram:*

Babalar yaşardı doxsan il, yüz il,
Biz çata bilmirik əlli yaşına.
Yarpaq tökümünə düşüb bir nəsil,
Min bəla, müsibət gəlir başına.
Cavanla ağsaqqal, şagirdlə usta,
Ata oğul kimi qoşa gəzdilər.
Atıb söz gülləsi işdə, iclasda,
Onlar bir-birini öldürməzdilər.

*«Qabusnamə»dən:*

Böyük və ağıllı adamları sözlərinə görə tanıyarlar, sözləri adamlara görə yox. Hər adam öz sözünün altında gizlənmişdir. Əli əmirəlmöminin belə demişdir: «Hər kəs öz dilinin altında gizlənmişdir. Söz var bir cürə deyərsən, insanın ruhu təzələnər, başqa cür desən, adamın qəlbi kədərlənər.»

***

Söz daxilən yaxşı olsa da, xaricən onu pisə yoza bilərlər, çünki insanların çoxu bir-birindən bədgüman olar. Hər işdə sözün, əməlin, vəziyyətin imkanına münasib olmalıdır. Hər nə desən, elə de ki, hamı sənin sözlərinin doğruluğunu təsdiq etsin.

***

Hikmətə bax, gör nə demiş atalar:
«Qısa sözdə olar dərin mənalar».

*«Kəlilə və Dimnə»dən:*

Əsl hünər yaxşı iş görə bilməkdir. Yaxşı işi heç bir yaxşı söz əvəz edə bilməz. Çünki yaxşı iş gözəl, bəlağətli söz olmadıqda da öz səmərəsini göstərər və hamı tərəfindən təriflənər. Lakin gözəl və bəlağətli söz, görüləcək işləri daha təmtəraqlı bir şəkildə canlandırıb xalqın gözü qarşısında daha parlaq bir şəkildə cilvələndirər...





*Azərbaycan atalar sözləri:*

Dil yarası qılınc yarasından itidir.
Dildən çıxan söz yaxşı olmazsa, sinədə ölsə yaxşıdır.
Sözü at, yiyəsi götürər.
Sözü yaxşı anla, sonra qızıb banla.
Sözün də qanadı var.
Sözün doğrusunu de, min atını çap.
Sözün yaxşısı baldan şirin olar.
Söz sözü açar, kilid də qapını.
Söz var el içində, söz var ev içində.
Söz ki, var, dəmirdir, vurduqca uzanar.
Sözü məqamında deyərlər.

*Qaraqalpaq atalar sözü:*

Qılınc bədəni, pis söz qəlbi yaralayar.

*Özbək atalar sözü:*

Öküzü buynuzu, insanı dili pis vəziyyətdə qoyar.

*Kərkük atalar sözü:*

Dil əql xəzinəsinin qılıncıdır.

# Qiymətli incidir hikmətli kəlam

Hikmət bu dünyanın vücudunda qan,
Hikmətdir dünyada əbədi qalan.
*Şəhriyar.*

Səmavi kitablardan və elmin son araşdırmalarından məlum olmuşdur ki, varlığın təzahür forması səsdir. Səslərin kamil forması, insan təfəkkürünün, onun intellektinin məhsulu olan kəlamlardır. Qədim ərəb fəlsəfəsinin əsas cərəyanlarından biri kəlam və sufilik olmuşdur. O dövrdə kəlam rəsmi islam dinini məntiqi dəlillərlə əsaslandırmağa cəhd edirdi. Əsl kəlamı Əbu-l-Həsən Əşəri və Mətrubi (?–944) yaratmışlar. Sonrakı kəlamın ən böyük nümayəndələri Qəzali, Qüseyri Fəxrəddin ər-Razi olmuşlar. Kəlam tərəfdarlarının məqsədi Allahın varlığını, onun birliyini və əbədiliyini sübut etmək idi. Fərabi, İbn Sina Allah ilə dünyanı iki növ varlığa bənzətmiş və dünyanın əbədi mövcudluğu və materiyanın, məkanın, zamanın, hərəkətin isə daimi şərh olması ideyasına gəlib çıxmışlar.

Bir daha yada salmaq istərdim ki, Fərabi «Elmlərin siyahıya alınması» traktatında dövrünün bilik sahələrini 5 bölməyə, onları da müxtəlif qisimlərə ayırmış, 5-ci bölməyə idarəetmə haqqında elmi, hüquqşünaslıq və kəlamı daxil etmişdir. Bunları xatırlamaqda məqsəd, bəşər cəmiyyətinin qədim elmi sayılan fəlsəfənin həmişə kəlamlarla inkişaf etdiyini və insanların mənəvi saflığına, tərbiyəsinə təsirinin böyüklüyünü bir daha oxucuların nəzərinə çatdırmaqdır. Bu cəhətdən Qurani-Kərim daha çox diqqəti cəlb edir. Bu müqəddəs kitabın ayələrində elmi məsələlərə yalnız işarə edilmiş, bəşəriyyətin bugünkü ekoloji fəlakət qarşısında olacağı barədə xəbər verilmişdir. Bax, buna görə də Qurani-Kərimin və dahilərin kəlamlarının III minilliyin insanlarının mənəvi tərbiyəsində rolu böyükdür. Bu minillikdə ekoloji fəlakətdən xilas Yer planetindəki insanların hikmətli kəlamlarla düz yola dəvət olunması ilə mümkün olacaqdır.





Artıq insanın kəlamlarla müsbət intellektual ekoloji qaydalara riayət etməyi öyrənməyinin, öz şüursuzluğunu, öz intellektinin məhsulu olan kəlamlarla müalicə etməyinin vaxtı çatmışdır.

İndi isə Qurani-Kərimdə, Ön və Orta Şərqdə yaşayıb-yaradan dahi insanların kəlamlara verdikləri qiymətə nəzər salaq.

***Qurani-Kərimdə buyurulur:***

...Allah sənə Quranı və hikməti nazil edərək bilmədiklərini öyrətdi. Allahın sənə lütfü böyükdür.

***ən-Nisa surəsi, ayə 113.***

Xoş bir söz və günahları bağışlamaq, əziyyətlə (minnətlə) verilən sədəqədən daha yaxşıdır.

***əl-Bəqərə surəsi, ayə 263.***

Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəryaya da arxasından daha 7 dərya (mürəkkəb) qatılsaydı, yenə də Allahın sözləri (yazılmaqla) tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət sahibi, hikmət sahibidir!

***Loğman surəsi, ayə 27.***

...Həqiqətən, bu (ayələr) bir öyüd-nəsihətdir. Kim istəsə, ondan öyüd alar. (Bu Quran Allah dərgahında) çox möhtərəm (mötəbər) səhifələrdə – (şanı) uca (qədir-qiyməti yüksək), pak səhifələrdədir (Şeytan onlara toxuna bilməz).

***Əbəsə surəsi, ayə 11–14.***

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Biri soruşdu: «İslam nədir?» Peyğəmbər buyurdu: «Kəlam paklığı və ehsan».

***

Hədiyyələrin ən qiymətlisi hikmətli kəlamlardır.

***

Böyüklərlə oturun, alimlərdən soruşun.

***

Hikmət əhli ilə oturun-durun.

***

Hikmət imanın itmiş dəvəsidir, tapdığınız yerdə onun boynundan yapışın.

*İmam Əli (ə.) buyurmuşdur:*

Hikmət hər bir insanın, mömininin yaşaması üçün vacibdir.

***

Çirkin şəhvətlə (mal-pula bel bağlamaqla) hikmət bir yerdə olmaz.

*Nizami Gəncəvi:*

Kimin ki, qəlbində vardır hikməti,
Onun da yaxşılıq olar neməti.

*Sədi Şirazi:*

Zarafatyana da deyilsə bir söz,
Ağıllı o sözdən götürər ibrət.
Əgər anlamaza yüz hikmət desən,
Oyuncaq görünər ona bu hikmət.

*Nəsirəddin Tusi:*

Yalnız sözdə deyil, həm də işdə hikmət sahibi ol!

***

Uşağı körpəlikdən tərbiyə etmək lazımdır. Sonra dərs öyrətməyə, təlimə başlayırlar, hikmətli kəlamlar, tərbiyəvi şeylər əzbərlədirlər ki, öyrənmək istədikləri şeylər yadında qalsın, mənasını unutmasın.





*İmadəddin Nəsimi:*

Hər bir zərrə yaranmışdır bircə nurun şöləsindən,
Bir dəryanın suları da yağış olar, dürrə dönər.

*Hafiz Şirazi:*

Quluyam öylə kəlamın ki, cana od vursun!
Nəyə lazım su tökə buz kimi söz gözlərinə?!

Qiymətli incidir hikmətli kəlam,
Onun qiymətini nə bilir avam.

*Əmir Xosrov Dəhləvi:*

O kəs sahib olar ağla, kamala,
Hikmətdən, öyüddən yaxşı dərs ala.
Duyğusuz ürəklə, duyğusuz qulaq,
Ya eşşək gəzdirər, ya da ki, ulaq.

*Əvhədi Marağayi Rüknəddin:*

Düz görən fikirdən yaranar hikmət,
Dini gözləməkdən güc alar hikmət...
Kitabdan, qaydadan gen düşsə hikmət,
Onda nə nur olar, nə də kəramət.

*Abbasqulu Ağa Bakıxanov:*

Get, bala, elm öyrən, qulaq ver hər hikmətə,
Elmlə bu dünyada hər iş əqlə batandır.

*Mirzə Şəfi Vazeh:*

Qələm bir ağacdır ki, yemişi nəfdir və fikir bir dəryadır ki, mirvarisi hikmətdir.

***Ərəb atalar sözü:***

Quş öz qanadı ilə uçduğu kimi, adam da öz hikməti ilə uçur.

Kəlamın qüdrətini əyani göstərmək üçün XVI əsrdə peyda olmuş dünya şəri – iezuitliyin 250 ildən sonra dahi Paskalın qələmi sayəsində ləğv edilməsini xəbər verən Saleh bəyin yazdıqlarına müraciət edək: «Fizik Paskalı on illərlə tanıdığım halda, xəcalətlə deməliyəm ki, ədib Paskal barədə heç nə bilmirdim... Təsadüfən «Məşhur şəxslərin həyatı» (Moskva) seriyasından «Paskal» kitabına rast gəldim. Onu oxuyandan sonra əlavə ədəbiyyatla da (Hans Künq, Existiret Qott. Antwort auf die Qottesfrage der Neuzeit. R.Pieper und Co Verlaq. Munchen – Zürich, 1978, 878 s.; Blez Paskal, Misli – Moskow; Ref. – book, 1994, 524 s.) tanış oldum. (Dünyanın taleyi, Bakı, 1998, s. 675–680)

Nə qəribə həyat!

Riyaziyyat (12 yaşından), fizika (16 yaşından) və mühəndislik sahələrində hələ gəncliyində Avropanın diqqətini cəlb edən cavan – xəstə, zəif – yorulmaz bir fransız Blez Paskal XVII əsrin və tarixin dahisi olub. Fiziki parametrlərdən birinin, təzyiqin ölçü vahidi onun şərəfinə «Paskal» adlanır.

Təbiyyat elmləri sahəsində klassik səviyyəli, geniş və son dərəcə maraqlı elmi işlərinin müvəffəqiyyətlə getdiyi bir vaxtda Blezin diqqəti tamamilə başqa bir sahəyə – ilahiyyata, daha doğrusu, ilahiyyat sahəsində peyda olmuş bir məsələyə, iezuitizmə cəlb olunur. Onun insanlıq üçün şər olduğunu, ideologiyasının məkr, əməllərinin təhlükə gətirdiyini dərk edən Blez iezuitizmi öyrənməyə və ifşa eləməyə başlayır. Bu missiyanın nə





qədər mürəkkəb, ağır və qorxulu olduğunu getdikcə daha aydın görən Blez həm də dərk edir ki, onu yerinə yetirməyə qadir şəxs məhz odur və deməli, məhz o da yerinə yetirməlidir. Paskal tədricən fizikadan ayrılır və nəhayət, tamamilə ilahiyyat – ədəbiyyat sahəsinə qayıdır.

O vaxt 100 illik yubileyi keçirilən iezuit ordeni (təşkilatı) 1540-cı ildə Loyolo adlı bir ispan tərəfindən yaradılmışdır. İezuitizm barədə təsəvvür yaratmaq üçün bu iqtibasları gətirirəm:

İezuit ordeninin generallarından biri etiraf etmişdir: «Bu otaqdan mən Parisi idarə edirəm, tək Parisi yox, Çini də, tək Çini yox, bütün dünyanı da idarə edirəm və heç kim bilmir ki, bu necə edilir. (Boris Tarasov. Paskal. Moskva, «Молодая гвардия», 1979, s. 334 )»

Müasir erməniliyə bənzəyiş, heybətlidir!

«Ümumiyyətlə, iezuit cəmiyyəti, ilk növbədə, dağıtmaq üçün yaradılmışdır, nəinki yaratmaq üçün...

...Krallar onları həvəslə özləri üçün dini rəhbər seçirdilər, çünki onlara da iezuitlər kimi dinlə siyasəti qarışdırmaq prinsipi yaxın idi...» (Boris Tarasov, göstərilən əsəri, s.233-234)

Müasir ilahiyyat alimi, alman Hans Künq «Allah varmı?» əsərində Blez Paskala bütün bir fəsil həsr etmişdir.

Künq Paskalı «dahi riyaziyyatçı», «dahi fizik», «dahi mühəndis», «müasir cəmiyyət adamı», «dərin fikirli mütəfəkkir», «parlaq yazıçı» kimi qiymətləndirir.

Bütün bunlardan mən yalnız Paskalın yazıçılığı barədəki şərhdən bir abzası iqtibas gətirirəm.

«...Paskalın yığcam, obrazlı dili, əlbəttə, eyni zamanda həm alim, həm də şair dili idi. O, səlisliklə ritmi, dəqiqliklə poeziyanı birləşdirir və həm beyinə, həm də ürəyə müraciət edir... Onun fikirləri dünya ədəbiyyatının ən mühüm əsərlərindəndir. Xüsusilə isə o, istehzanın, zarafatın, satiranın bütün vasitələri ilə öz dövrünün misilsiz təsiredici, çox vaxt amansız mübahisəçisi və pamfletçisi kimi – onun «Əyalətliyə məktublar»ını «nəsrin dahisi tərəfindən yazılmış ilk kitab» adlandıran Volter üçün

nümunə oldu. (Hans Künq, göstərilən əsəri, s.67)

«Məndən soruşurlar, – Paskal deyir, – nə üçün mən xoşagələn, istehzalı və əyləndirici üslubdan istifadə etmişəm. Mən cavab verirəm ki, doqmatik üslubda yazsa idim, kitabı yalnız alimlər oxuyardı, onların isə buna ehtiyacı yoxdur, çünki bu barədə mən nə qədər bilirəmsə, onlar da o qədər bilirlər. Ona görə də düşündüm: elə yazmaq lazımdır ki, mənim yazdığımı qadınlar və kübar adamlar oxusunlar və təhlükəni hiss etsinlər. (Hans Künq, göstərilən əsəri, s.259)

«XVIII əsrin axırlarında Papanın bullasında (müraciətnaməsində) iezuitlər ordeninin (təşkilatının) buraxılmasının əsas səbəblərindən biri kimi iezuit kazuistlərinin ziyankar təsiri göstərildi...» (göstərilən mənbə, s. 262). Beləcə, XVI əsrdə peyda olmuş dünya şəri – iezuitlik 250 ildən sonra ləğv edildi, Paskalın qələmi sayəsində. Görəsən, XIX əsrdə peyda olmuş erməni şəri nə vaxt ləğv olunacaq?!

«O, (Paskal) hesab edir ki, bu dünyada yaxşılıq və ədalət «təqdim edənlər»in, pislik və haqsızlıq isə «alanlar»ın hesabına mövcuddur.» (Boris Tarasov, göstərilən əsəri, s. 310)

Nə qədər sadə və dərin, ibrətamiz və həqiqi fikirdir. Xeyr, bu adi bir fikir deyil, qanundur, insan cəmiyyətinin bəlkə də ən vacib – pislik və yaxşılıq, şər və xeyir barədə qanunu. Yadınıza salın: Ermənistan dünyaya – başqa ölkələrə, xalqlara, millətlərə nə «təqdim edib?» Demək olar ki, heç nə. Əksinə, «alıb» həmişə, hamıdan, hər şey...

Fizik Paskalın açdığı cəmiyyət qanunu 300 il sonra peyda olacaq «effekt»i, yeni tipli pisliyi təəccüblü dərəcədə sərrast izah edir; ermənilik bəşərə məlum olan klassik «pislik və haqsızlıq» deyil, pisliyin daha yüksək (daha alçaq!) pilləsidir. Bu, yeni «effekt»dir, pisliyin pisliyi, ermənilik – superpislik, superfaşizmdir... Bu, Paskal qanununa əsasən pisliyin pisliyidir.

Dövrünün şərini anlamış, onun məkrinin insaniyyət üçün təhlükəsini dərk etmiş Blez Paskal iezuitizm ideologiyasını açıb Avropaya anlatdı və onun varlığına son qoyuldu.





XX əsrin əvvəllərində rus alimi, Qərb ədəbiyyatı tarixçisi N.Storojenko demişdir: «...Tarixdə hərdən bir elə insanlar peyda olurlar ki, onlar ümumdərdi öz çiyinlərində daşıyırlar və buna görə də bütün bəşəriyyət adından danışmaq ixtiyarına malik olurlar. Bu seçilmişlər sırasına Paskalı da daxil etmək lazımdır.» (Boris Tarasov, göstərilən əsəri, s.305)

Əziz oxucu, intellektual ekoloji faktorların insan cəmiyyətinə olan təsirini daha dərindən duymaq üçün müasir dövrün bir tarixi həqiqətinə nəzər salaq. ABŞ-da hələ XX əsrin ortalarına qədər qaraların bu dövlətdə nəinki heç bir hüququ yox idi, hətta onları insan belə saymırdılar. Bu ədalətsizliklər Səməd Vurğunun «Zəncinin arzuları» poemasında öz əksini tapmışdır. Poemadan bir hissəni sizə təqdim edirik:

Bir aşxana qapısını ötənlərdən xəbər alsam, «Sən qarasan...» sözlərini oxuyuram nəzərlərdə...
Amerika – Yeni dünya mənim doğma vətənimdir...
Fəqət mənim bu torpaqda yaşamağa haqqım varmı?..
Qoy ağlar da, qaralar da
Səadətlə nəfəs alsın,
Qoy ürəklər sirdaş olsun.
Alqışlayın bu niyyəti!
Qoy dünyanın min milləti
Bir and içib, qardaş olsun...
Dəyişsin insanın, ömrün mənası!..
Gəlin qanunları yazaq yenidən!..

Qısa bir dövrdə, XX əsrin ikinci yarısından Amerika cəmiyyətində, inqilabsız, üsyansız, qırğınsız... elə bir intellektual sfera yarandı ki, nəinki qaraların hüquqları tanındı, hətta III minilliyin başlanğıcında qaradərili Barak Obama bu superdövlətin prezidenti seçildi. Vaxtilə ağların restoranlarına girməyə belə hüququ olmayan qaradərili Obamanın ailəsi Ağ evdə yaşadı.

Bax budur, insan intellekti və onun məhsulu olan kəlamların qüdrəti. İnsan öz ağlı, qələminin gücü, kəlamlarının qüdrəti

ilə əsrlərlə hökm sürən qəddar ideologiyaya son qoydu. İnsan şüuru, müsbət intellektual ekoloji mühit yaratmaqla insanları inandırdı və şərə qalib gəldi.

Müasir dövrdə insan daha çox müxtəlif fəlakətlərlə üz-üzə dayanıb: ümumi ekoloji tarazlığın pozulması, qlobal istiləşmə, atmosferdə karbon qazının durmadan artması, Şimalda buzlaqların əriməsi, atmosferin ozon təbəqəsində kilometrlərlə diametrli dəliklərin əmələ gəlməsi, içməli su problemi, qida keyfiyyətsizliyi, ekoloji terrorizm, terrorçuluq, nasizm, neofaşizm və s.

BMT-nin Ərzaq Proqramının direktoru Cozef Şiranın məlumatına görə, 2009-cu ildə dünya üzrə daimi və ya müvəqqəti aclıq keçirən insanların sayı 1 milyard nəfəri keçib. («Pravda.ru»)

2010-cu ildə dünyada hökm sürən anomal istilər, sunamilər, daşqınlar, torpaq sürüşmələri, ümumiyyətlə, təbii fəlakətlər nəticəsində nəinki aclıq keçirən insanların sayı çoxaldı, hətta bununla paralel olaraq insan tələfatı da durmadan artmaqdadır. Bir faktı göstərək: «Exo Moskvı» radiosunun məlumatına görə, hökumət 2010-cu ilin iyul və avqust aylarında anomal istilər nəticəsində baş verən meşə yanğınları ilə bağlı araşdırmalar aparmışdır. Həmin yanğınlar zamanı ağaclar və torf yanıb, şəhərlər insan sağlamlığı üçün zərərli tüstüyə bürünüb. Rusiya Səhiyyə Nazirliyinin məlumatına görə, iyul-avqust aylarında keçən ilin eyni dövrü ilə müqayisədə ölənlərin sayı 56 min nəfər çoxdur, ötən illə müqayisədə, faktiki olaraq, 5 dəfə artıb. 2010-cu ildə Rusiyada mədə-bağırsaq və qan dövranı ilə bağlı xəstəliklərdən ölənlərin də sayı xeyli artmışdır.

2010-cu ildə dünyada son yüz il ərzində baş vermiş ən dəhşətli zəlzələlərin siyahısı dərc olunub (Bax: cədvəl səh. 231). APA-nın RBK agentliyinə istinadən verdiyi məlumata görə, siyahıda birinci yerdə 2010-cu il yanvarın 13-də Haitidə Rixter cədvəli üzrə 7 bal gücündə baş vermiş zəlzələdir. Bu zəlzələ nəticəsində azı 270 min nəfər ölüb.





İkinci yeri 1976-cı il iyulun 28-də Çinin Tanşan şəhərində 8,2 bal gücündə qeydə alınmış zəlzələ tutur. Bu təbii fəlakət nəticəsində 242 min nəfər insan dünyasını dəyişib. 2004-cü il dekabrın 26-da İndoneziyada 9,2 bal gücündə baş vermiş zəlzələ də Asiyadakı ən dəhşətli təbii fəlakətlərdən sayılır və siyahıda 3-cü yerdədir. Bu zəlzələ sunamiyə səbəb olub və ümumiyyətlə, təbii fəlakət zamanı ölənlərin sayı 230 minə çatıb.

Dediyimiz ekoloji faktorlardan başqa, dünya əhalisinin tələf olmasında qida faktoru da əsas səbəblərdən biridir.

Məlumat üçün bildiririk ki, 2000-ci ildə dünyada 1,1 milyard insan təmiz içməli sudan məhrumdur.

BMT-nin Ərzaq və Kənd Təsərüfatı Komissiyasının Dünya Ərzaq Günü ilə bağlı «Böhran dövründə ərzaq təhlükəsizliyi» mövzusunda keçirdiyi toplantıda qeyd edilib ki, iqlim dəyişikliyi nəticəsində havaların quraq keçməsi əhalinin ərzaqla təminatına təsir edən əsas amillərdən biridir. Digər tərəfdən isə demoqrafik artım təhlükəli problem yaratmaqdadır. Bu gün planetdə 6,8 milyard insan yaşadığı halda, 2050-ci ildə onların sayı 9,1 milyarda çatacaq. Əhali arasında ət və ət məhsullarından istifadə halları geniş yayılıb. 1970-ci ildə adambaşına 25 kq ət istifadə olunurdusa, hazırda bu rəqəm 38 kq-a çatıb. Ona görə də kalorisi yüksək olan məhsulların yetişdirilməsi zərurəti meydana çıxıb. («Palitra» qəzeti, 20 oktyabr, 2009)

17 ölkə başçısının iştirakı ilə Londonda keçirilən toplantıda Böyük Britaniyanın baş naziri Qordon Braun bəyan edib: «2080-ci ildə dünya üzrə 1,8 milyard insan içməli sudan məhrum olacaq. Eyni zananda 2003-cü ildə 35 min insanın həyatına son qoyan isti hava dalğaları daha güclü formada yenidən qayıda bilər. Bunun qarşısını almağın ən doğru yolu ozon qatını deşən kimyəvi qazların məhdudlaşdırılmasıdır.» («Səs» qəzeti, 20 oktyabr, 2009)

Məlumata görə, 2,6 milyard insanın normaya uyğun sanitariyaya ehiyacı var. Bundan başqa, 90%-i 5 yaşdan aşağı olan uşaqlar daxil olmaqla, dünyada hər il ishal mənşəli xəstəliklərdən 1,8 milyon nəfər dünyasını dəyişir.

BMT-nin baş katibi Pan Ki Mun 5 iyun 2009-cu il Ümumdünya Ətraf Mühit Günü ilə əlaqədar dünya ictimaiyyətinə ənənəvi müraciətində bildirib ki, dünyanı bürüyən iqtisadi və maliyyə böhranı köhnə inkişaf metodlarını yaxşılaşdırmaq və yeni, daha yaşıl, daha təmiz inkişaf erasına keçmək üçün oyanışa səsləyən əsl çağırışdır. Builki Ümumdünya

## SON YÜZ İLİN ƏN DƏHŞƏTLİ ZƏLZƏLƏLƏRİ

Cədvəl. 1.

| № | Tarix | Ölkə | Epicentr | Zəlzələnin gücü (ball) | Ölənlərin sayı |
|---|---|---|---|---|---|
| 1. | 13.01.1976 | Haiti | | 7,0 | 270 000 |
| 2. | 28.07.1976 | Çin | Tyanşan | 8,2 | 242 000 |
| 3. | 26.12.2004 | İndoneziya | Sumatra | 9,1-9,3 | 230 000 |
| 4. | 27.12.1939 | Türkiyə | Ərzincan | - | 100 000 |
| 5. | 08.10.2005 | Pakistan | Kəşmir | 7,6 | 84 000 |
| 6. | 12.05.2008 | Çin | Sıçuan | 7,8 | 69 000 |
| 7. | 31.05.1970 | Peru | - | - | 67 000 |
| 8. | 21.06.1990 | İran | Gilan | 7,7 | 40 000 |
| 9. | 26.12.2003 | İlran | Bəm | 6,3 | 35 000 |
| 10. | 15.08.1950 | Hindistan | Əssam | - | 30 000 |
| 11. | 24.06.1939 | Çili | - | - | 30 000 |
| 12. | 07.12.1988 | Ermənistan | Spitak | 6,9 | 25 000 |
| 13. | 19/20.09.1985 | Meksika | Mexiko | 8,1 | 25 000 |
| 14. | 16.09.1976 | İran | Təbəs | - | 25 000 |
| 15. | 04.02.1976 | Qvatemala | - | - | 23 000 |
| 16. | 26.01.2001 | Hindistan | Bhuc | 7,7-7,9 | 20 000 |
| 17. | 17.08.1999 | Türkiyə | İzmit | 7,4 | 17 000 |
| 18. | 05.01.1970 | Çin | Yuan | 7,7 | 15 621 |
| 19. | 29.02.1960 | Mərakeş | Əqabir | - | 12 000 |
| 20. | 30.09.1993 | Hindistan | - | 6,0 | 10 000 |
| 21. | 17.08.1976 | Filippin | Mindanao | - | 8 000 |
| 22. | 27.05.2006 | İndoneziya | Yava | 6,2 | 6 000 |





Ətraf Mühit Gününün mövzusu olan «Planetin sənə ehtiyacı var» şüarı hər birimizi öz üzərimizə düşən öhdəlikləri yerinə yetirməyə həvəsləndirmək məqsədi daşıyır.

Dünyanın ciddi iqlim dəyişikliyi təhlükəsi ilə qarşı-qarşıya olduğunu deyən P.K.Mun bütün ölkələrin bundan zərər çəkəcəklərini, lakin bu zərərin əsas ağırlığının yoxsulların payına düşəcəyini bildirib: «Buna baxmayaraq bizim də hadisənin gedişini dəyişdirmək imkanımız var.»

Qeyd olunub ki, dünya yenidən istehlak üçün bərpa oluna bilən enerji ehtiyatlarına, ekoloji baxımdan müvafiq infrastrukturlara və enerji ehtiyatlarından səmərəli istifadəyə sərmayə qoyan «Yeni Yaşıl Sazişə» ehtiyac duyur. Bu, yeni imkanlar yaratmaq, habelə yaxşılaşmaya təkan verməklə bərabər, qlobal istiləşmə ilə bağlı məsələlərin həllinə də kömək edəcək: «Yeni təkanverici iqtisadi tədbirlər paketinin, hətta müəyyən bir hissəsini belə yaşıllaşma iqtisadiyyatına sərmayə yönəltsək, bu günün böhranını sabahın davamlı inkişafına çevirə bilərik. Bundan havaya daha az karbon qazı buraxılması siyasətini seçmiş cəmiyyətləri olan ölkələr ətraf mühit baxımından yüksək əhəmiyyətli faydalar əldə etməkdən başqa, öz yeni texnologiyalarını digərləri ilə paylaşmaq əzmində olacaqdır.»

Bəşəriyyət bu dediyimiz fəlakətlərdən xilas olmaq üçün yollar axtarır. Müasir insan hətta başqa planetlərə köçmək haqqında düşünür, 2030-cu ildə Marsda olacağımızı planlaşdırır.

NASA-nın kosmik proqramları artıq insanları Yer kürəsindən kənardakı planetlərə yerləşdirmək strategiyası üzərində qurulub.

Lent.az-ın CNN-ə istinadən verdiyi məlumata görə, bu plan daxilində NASA və Pentaqonun DARPA adlı qurumu Yüzillik Kosmos Uçuşu adlı layihəni həyata keçirməyə hazır-

laşır. Layihənin əsasında insanları yad planetlərə aparıb orada buraxmaq durur. Yəni insanların geri qaytarılması mümkün olmayacaq. İnsan yerləşdirilməsi nəzərdə tutulan ilk planet Marsdır. NASA İdarə Heyətinin üzvü Simon Vorden deyib ki, layihə qarşıdakı 20 ildə həyata keçiriləcək: «2030-cu ildə Marsda olacağımızı düşünürəm». İndiyə qədər NASA bu layihəyə 100 min dollar, Pentaqon 1 milyon dollar ayırıb. Layihə haqqında detallı məlumat verilmir. («Olaylar» qəzeti, 28 oktyabr, 2010)

Deyirlər, tarix təkrar olunur. Tarixdə ümumi dərdi öz çiyinlərində daşıyıb ona əlac axtaran insanlar olub. Onlar cəmiyyəti öz kəlamları ilə tərbiyələndirib, haqq yoluna çağırıblar. Biz əminik ki, III minillikdə həyat «olum, ya ölüm» həddinə çatanda, ümumbəşəri dərdə dərman tapan loğmanlar peyda olacaq və insanlar onların dediklərinə əməl edəcəklər. Bu, yeganə çıxış yoludur.

## İslam mütləq həqiqətlərdən gələn göyün yerə müjdəsidir

Dində məcburiyyət (zorakılıq) yoxdur.
*Qurani-Kərim, əl-Bəqərə surəsi, ayə 256.*

Allahın yanında (haqq olan) din, əlbəttə, İslamdır.
*Qurani-Kərim, Ali İmran surəsi, ayə 19.*

İslam ərəbcə «silm» kökündən gəlir və mənası da «barış» deməkdir. İslam özündə iman, elm və əməli tam ahəng içində bütünləşdirən İlahi bir qanundur.

1977–1981-ci illərdə ABŞ prezidenti C.Karter: «Əgər ABŞ qanunları ilə Rəbb kəlamları arasında ziddiyyət olarsa, siz hansı qanunları tətbiq edərdiniz?» – sualına «Əgər belə hal olarsa, biz Allah qanunlarını tətbiq edərik.» – cavabını vermiş-





dir. İslama görə, mütləq ədalət və onun tərkib hissəsi olan sosial-ədalət Allaha məxsusdur.

«(Ya Peyğəmbər!) Biz sənə (Quranı) oxudacağıq və sən (onu) unutmayacaqsan, yalnız Allahın dilədiyindən (hökmünü ləğv etdiyiniz və ya digər ayədən) başqa! Şübhəsiz ki, O, aşkarı da, gizlini də bilir! Biz sənə ən asan olanı (İslam şəriətini) müyəssər edərik. (Ya Peyğəmbər!) Əgər nəsihət etmək fayda versə, (ümmətinə Quranla) öyüd-nəsihət ver! (Allahdan) qorxan kimsə mütləq öyüd-nəsihət qəbul edəcəkdir! Bədbəxt (kafir) isə ondan (öyüd-nəsihətdən) qaçacaqdır.» (əl-Əla surəsi, ayə 6-11)

İnsan və cəmiyyət dinə möhtacdır. Dinin əmr və tövsiyələri insanın insan kimi yaşaması, ailəsinə, cəmiyyətinə, millətinə və hətta bütün bəşəriyyətə faydalı olması məqsədini daşıyır.

Din cəmiyyətləri ucaldan, onların inkişafını təmin edən əxlaqi bir qanundur. Dini hisslərin zəifləməsi əxlaqi və hüquqi cinayətkarlığın artmasına səbəb olur, inancsızlıq isə insanları böyük fəlakətlərlə üzləşdirir.

Müasir dövrdə Yer üzərində haqq din İslam dinidir. Xristianlıq və yəhudilik Allah tərəfindən göndərilmiş, ancaq əsl şəklini qoruyub saxlaya bilməmişdir.

İnsanlara təbliğ edilmək məqsədilə Allah tərəfindən peyğəmbərlərə kitablar və səhifələr göndərilmişdir. Səhifələr: 10 səhifə – Adəm əleyhissəlama; 50 səhifə – Şit əleyhissəlama; 30 səhifə – İdris əleyhissəlama; 10 səhifə – İbrahim əleyhissəlama nazil olmuşdur.

Böyük kitablar: Tövrat – Musa əleyhissəlama; Zəbur – Davud əleyhissəlama; İncil – İsa əleyhissəlama; Qurani-Kərim - Məhəmməd əleyhissəlama nazil olmuşdur.

Musa əleyhissəlama göndərilmiş Tövratın əsl nüsxəsi mövcud deyildir. Hazırda əldə olan Tövrat sonralar müxtəlif insanlar tərəfindən yazılmış, əlavələr və ixtisarlar edilmişdir. Qurani-Kərim də Tövratın dəyişdirildiyini bildirir.

Davud əleyhissəlama göndərilən Zəbur hal-hazırda mövcud deyildir. Onun bir neçə surəsi qalmışdır.

İsa əleyhissəlama göndərilən İncilin də dəqiq nüsxəsi yoxdur.

Quranı-Kərim son nazil olan kitabdır. Qurani-Kərimdə əvvəlki səmavi kitabların da qısa məzmunu var. Qurani-Kərimdə əxlaqi, əməli, ictimai cəhətlərdən tutmuş, insanı və cəmiyyəti maddi-mənəvi xoşbəxtliyə aparan hər şey bildirilmişdir. Qurani-Kərim, insanlar üçün bir hidayət (doğru yol) günəşidir.

Qurani-Kərim ailə həyatı, ər-arvadın hüquq və vəzifələrindən beynəlxalq münasibətlərə, ədəb-ərkana qədər ictimai həyatın bütün qaydalarını göstərən bir müqəddəs kitabdır.

Qurani-Kərim təkəbbür, nəfs, nadanlıq, qəzəb, tənbəllik, sərxoşluq, qumar, xudpəsəndlik, xəsislik, şöhrətpərəstlik, lovğalıq, hiyləgərlik, ikiüzlülük, yalançılıq, riyakarlıq, qəddarlıq, əxlaqsızlıq, oğurluq, iftira, haqsızlıq, xəyanət, zina, fahişəlik, homoseksualizm və s. kimi cəmiyyəti sarsıdan və mənfi intellektual ekologiyanı yaradan amilləri pisləyir, qadağan edir və lənətləyir.

Qurani-Kərimdə buyurulur: «Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir).

*əz-Zilzal surəsi, ayə 7-8.*

«...Sən (onunla insanları) düz yola yönəldirsən (İslam dininə dəvət edib, haqqa qovuşdurursan)».

*əş-Şura surəsi, ayə 52.*

Bir daha Qurani-Kərimin ayələrinə və başqa kəlamlara müraciət edək:

(Ya Peyğəmbər!) Sənə özündən əvvəlkiləri təsdiqləyici olaraq vəhy etdiyimiz Kitab (Quran) haqdır...

*Fatir surəsi, ayə 31.*





(Ya Peyğəmbər! Bu (Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!

*Sad surəsi, ayə 29.*

Kitabın (Quranın) nazil edilməsi yenilməz qüvvət sahibi, hikmət sahibi (olan Allah) tərəfindəndir...Bu (Quran) bir hidayətdir. Rəbbin ayələrini inkar edənləri çox şiddətli, ağrılı-acılı bir əzab gözləyir.

*əl-Casiyə surəsi, ayə 2,11.*

Bu (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) heç bir şəkk-şübhə olmayan, müttəqilər (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) doğru yol göstərən Kitabdır...».

...Allahın sizə verdiyi nemətləri, öyüd-nəsihət üçün göndərdiyi Kitabı (Quranı) və hikməti xatırlayın.

*əl-Bəqərə surəsi, ayə 2, 231.*

Bu, (Quran) olduqca böyük hikmətdir.

*əl-Qəmər surəsi, ayə 5.*

...Bu (Quran, vəhylər) Rəbbiniz tərəfindən (göndərilmiş) aşkar dəlillərdir, həm də iman gətirən bir tayfa üçün hidayət və mərhəmətdir.

*əl-Əraf surəsi, ayə 203.*

Yaxşı işə vasitəçi olana (onun savabından), pis işə vasitəçi olana (onun günahından) bir pay düşür...

*ən-Nisa surəsi, ayə 85.*

Günahın aşkarından da, gizlisindən də əl çəkin! Günah qazananlar etdikləri əməllərə görə cəzalandırılacaqlar.

*əl-Ənam surəsi, ayə 120.*

Hər bir kəs (hər bir canlı) ölümü dadacaqdır. (Dözüb-dözməyəcəyinizi, şükür edəcəyinizi, yaxud nankor olacağınızı) yoxlamaq məqsədilə Biz sizi şər və xeyirlə (xəstəlik, yoxsulluq, ehtiyac və sağlamlıq, var-dövlət və cah-calalla) imtahana çəkərik. Və siz (qiyamət günü əməllərinizin əvəzini almaq üçün) ancaq Bizim hüzurumuza qaytarılacaqsınız!...Quran nazil etdiyimiz mübarək (isanlara daim xeyir-bərakət gətirən) bir kitabdır.

***əl-Ənbiya surəsi, ayə 35, 50.***

Ey iman gətirənlər! Sahib olduqlarınız həddi-büluğa çatmayanlar (yanınıza daxil olmaq istədikdə) bu 3 vaxtda sizdən icazə alsınlar: sübh namazından əvvəl, günorta (yatıb dincəlmək, istirahət etmək üçün) paltarınızı çıxartdığınız zaman və gecə namazından sonra. Bu 3 vaxt sizin üçün xəlvət vaxtdır (paltarsız ola bilərsiz).

***ən-Nur surəsi, ayə 58.***

İman gətirib yaxşı işlər görənləri tükənməz (minnətsiz) ruzi gözləyir!

***Fussilət surəsi, ayə 8.***

Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) günahdır. (Bir-birinizin eybini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir). Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir!

***əl-Hucurat surəsi, ayə 12.***

Tərəzini düz tutun, çəkini əskiltməyin... Yaxşılığın əvəzi ancaq yaxşılıqdır.

***ər-Rəhman surəsi, ayə 9, 60.***





Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə veriləndə də sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən, (özü ilə) fəxr edən heç bir kəsi sevməz!

***əl-Hədid surəsi, ayə 23.***

(Ya Peyğəmbər!) İtaət etmə (yalan yerə) hər and içənə, alçağa; qeybət edənə, söz gəzdirənə; xeyrə mane olana, (zülm etməkdə) həddi aşana, günaha batana; daş ürəkliyə, (bütün) bunlardan sonra da əsli-nəsəbi bilinməyən haramzadaya – o, mal-dövlət, oğul-uşaq sahibi olsa belə! Biz (tezliklə) onun burnuna damğa basacağıq.

***Nun və ya Qələm surəsi, ayə 10–14, 16.***

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Bacardığınız qədər onun ədəb qaydalarını öyrənin.

***

Aranızda ən xeyirliniz Quranı öyrənən və öyrədəndir.

***

Kim Allahın kitabından bir ayəyə qulaq asarsa (dinlərsə), onun üçün qat-qat savab yazılar.

***

Kim onu (Allahın kitabından bir ayəni) oxuyarsa, qiyamət günü onun üçün bir nur olar.

***

Kim Quranı oxuyar, əzbərləyər, halal buyurduğu şeyi halal qəbul edər, haram buyurduğu şeyi haram qəbul edərsə, Allah həmin şəxsi Cənnətə salar.

***İmam Əli (ə.) buyurmuşdur:***

Quran haqqında düşünün və onu yaxşı başa düşün, çünki Quran qəlblərin baharıdır.

***

Allah-Təala bizi öz əxlaqına doğru yönəltmiş, onu öyrən-

məyi və insanları ona rəğbətləndirməyi bizə əmr etmişdir.

*Məhsəti Gəncəvi*:

Hər iki dünyanın kərimi sənsən,
Qocaya, cavana kömək edənsən!
Sənin rəhmətinə, əminik, Allah,
Könlümüz şad olur sənin feyzindən.

*Əbülfəzl Əllami:*

Varlıq aləmində heç bir kitab fəzilət və üstünlükdə Quran dərəcəsinə çatmaz. Çünki Quran bütün ilahi peyğəmbər təlimlərinin xülasəsi və çöhrəsidir. Bəlkə Quran bundan üstün, yaranış aləmindəki bütün mövcudlardan ucadır. İslam Peyğəmbəri (s.) buyurmuşdur: «Quran Allahdan savayı hər şeydən üstündür».

***

Pak olun, gül xəyal bir aləm kimi,
Pak olun, gül üstə tər şəbnəm kimi.
Bax islama, necə həqiqi təmiz,
Pak olun, necə ki, pakdır dinimiz.

***

Mütləq gözəllik Allah-Təaladır və bütün gözəlliklər Ondan başlanğıc götürür. O, bütün gözəlliklərin mənbəyidir. Bu cəhətdən Onun kəlamı da ən gözəl kəlamdır. Heç bir danışıq gözəllikdə Qurana çatmaz. Belə ki, Quranın ən sərt müxalifləri də bu həqiqəti etiraf edirlər.

***

Ey qəlbi imanla münəvvər insan,
Dodağında irfan çiçəyi taban.
Peyğəmbər buyurdu: həqiqətən də,
Səsin səfasında bəzəndi Quran.





*Dr. Aydın Topaloğlu*:

Quran qeyri-insani hərəkətləri müsəlmanlara da qəti qadağan edir. Ədaləti, bərabərliyi, fəziləti və sevgini hamıya tövsiyə etmişdir. Dili, dini, rəngi, ölkəsi bir-birindən fərqli minlərlə insanın, xüsusilə də istismar edilmiş, sürgünə göndərilmiş, xor baxılmış, ədalətsizliyə məruz qalmış insanların qəlblərinin fəth olunmasının səbəbi məhz islamın ümumbəşəri dəyərləridir.

***

İslamiyyətdə işləmək, ticarət, halallıqla pul qazanmaq təşviq edilmiş, hiyləbazlıq, yalançılıq, istismar və borclunu incitmək qəti qadağan edilmişdir. Elmdə tədqiqatlara və təcrübəyə əhəmiyyət verilmiş, xurafatın, batil inancların əleyhinə çıxış edilmişdir. İqtidar xalqın xidmətçisi kimi görülmüş, məsləhət və seçkilərə əhəmiyyət verilmişdir. Xalqına zülm edən hakimlərə, krallara, sultanlara, diktatorlara lənət yağdırılmış, onlardan mərhəmətli olması tələb edilmişdir. Qocaların, kasıbların, sahibsizlərin və zəiflərin qorunması tövsiyə olunmuşdur.

*Misbah Yəzdi:*

Bəzən iddia edirlər ki, İslam iqtisadi inkişafa müxalifdir... Onlar din haqqında dərin məlumata malik olmayan insanları «ya din, ya da inkişaf» seçimi qarşısında qoyurlar. Guya, dindar insan çalışqanlıq və zəhmətdən uzaq bir varlıqdır... İslam dini dünyagirliyi, dünyaya qul olmağı pisləyir. Heç bir ayə və hədis iqtisadi inkişafı qadağan etmir... Ən gözəl surətdə yaradılmış dünya məzəmmətə layiq deyil və məzəmət olunan dünyaya əsir olmaqdır. İslam dini tərki-dünyanı pisləyir və haram buyurur. Bəşəriyyəti İslam dini qədər elmə, zəhmətə, paklığa, quruculuğa çağıran ikinci bir din yoxdur.

Hörmətli oxucu! Qurani-Kərimdən təqdim etdiyimiz ayələrdən məlum olur ki, bu qanunlar, tövsiyələr qəlbləri iman nu-

ru ilə işıqlandıran, insanlara paklıq, xoşbəxtlik bəxş edən ilahi kəlamlardır. Bu, Allah-Təalanın yalnız öz Kitabına bəxş etdiyi qüdrətdir. Allah-Təalanın bəşəriyyət üçün hidayət çırağı olaraq göndərdiyi Qurani-Kərimin gələcəkdə bəşəri fəlakətdən xilas etməyin yeganə istinad nöqtəsi olacağına heç bir şübhə yoxdur.

Biz bu bölməni Saleh bəyin bir fikri ilə yekunlaşdırmaq istədik: «...Dövlət xadimləri, xüsusən Qərb dövlət başçıları dərk etməlidirlər ki, bu gün çiçəklənən dövləti sabah süquta aparacaq ən güclü vasitə məhz əhalinin tərbiyəsinin pozulması ola bilər. Əxlaqsızlığın, rəzalətin zorakılığın, sadizmin nümayiş və təbliğ edilməsi ölkəni total zorakılığa, amansız terrorizmə, «azad» əxlaqsızlığa və... məhvə aparır. Bir vaxt Qərb bunu başa düşəcək və müsəlman mənəvi saflığının saxlanmasına qibtə edəcəkdir. Müsəlman dininin misilsiz üstünlüklərindən biri də məhz budur – əxlaqsızlıq, zorakılıq və qanunsuzluq arzuda, yaxud sözdə yox, işdə, həyatda qadağan edilir. Bu isə bütün vicdanlı və təmiz adamlar üçün, ümumiyyətlə, bəşər üçün vacibdir».

## Kamilliyə, inkişafa meyil insan xislətinin ilahi nemətidir

...Rəbbim hər şeyi elmlə (Öz əzəli elmi ilə) ehtiva etmişdir. Məgər düşünüb ibrət almırsınız?

*Qurani-Kərim,*
*əl-Ənam surəsi, ayə 80.*

...Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-





şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahdan və elmdə qüvvəti olanlardan) başqa heç kəs bilməz.

*Qurani-Kərim,*
*Ali-İmran surəsi, ayə 7.*

Beşikdən qəbrə qədər elm öyrənin.

*Məhəmməd peyğəmbər (s.).*

İslamşünas İbn Məsud: «Quranda hər şeyə aid elm nazil edilmişdir, lakin bizim elmimiz Ondakı hər şeyi anlamağa yetməz», –deməkdə yanılmamışdır. Araşdırmalarımız göstərir ki, İslam alimləri bütün elmlərin Quranda yer aldığını sübuta yetirmişlər. Onların bu fikirləri və dəlilləri ilə tanışlıqdan sonra, doğrudan da, aydın olur ki, bu gün elmin hansı sahəsinə, əldə edilən hansı nəticəyə, hansı kəşfə baxsaq, onun 1400 il bundan əvvəl Quranda bəyan edildiyini görərik. F.Ələkbərov, N.Camaloğlunun bu barədəki fikirləri daha obyektivdir: «...İnsan hər hansı bir məsələni yalnız kəşf etdikdən sonra anlayır ki, bu və ya başqa qanunun, qanunauyğunluğun səbəbləri Quranda artıq təsbit edilmişdir. Demək, insan ağlının fövqündə olan Allah bəyanıdır. Yalnız insan təkamül nəticəsində bunları mərhələ-mərhələ anlaya bilir.»

İslamşünas alimlər belə hesab edirlər ki, Qurani-Kərim kainatı və insanı izah edən bir kitab olmaqla, hər şeydən xəbər verməklə heç nəyi nəzərdən qaçırmamışdır. Qurani-Kərimin əl-Ənam surəsinin 59-cu ayəsində buyurulur: «Qeybin açarları Onun yanındadır. Onları ancaq O bilir. Suda və quruda nə varsa, O bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, O onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, (kainatda) yaşquru elə bir şey yoxdur ki, açıq-aydın Kitabda (lövhi-məhfuzda) olmasın!» Dr. Aydın Topaloğlunun dediyi kimi: «Qurani-Kərim dəfələrlə insanları səyahət etməyə, səmanı və təbiəti seyr

etməyə, canlılar aləmini izləməyə, aləmin işləmə mexanizmini araşdırmağa və bu mövzular üzərində fikirləşməyə dəvət etmişdir.»

Beləliklə, Quran müəyyən bir dövrün deyil, bütün zaman və məkanların, bütün insanlığın Kitabıdır. Elmlər isə hər bir dövrlə əlaqədar inkişaf etmiş və nə qədər ki, insan cəmiyyəti var, elm də var, onun inkişafı da labüddür. Əfsuslar olsun ki, elmi inkişaf etdirən insan intellekti, ağlı çox vaxt onun nəticələrindən təbiəti məhv etməkdə, insanların kütləvi qırılmasında və s. istifadə edir. Bunlara misal, kütləvi qırğın və bakterioloji silahları, AES-lərdə partlayışları, atmosferin, torpağın, içməli suyun vəhşicəsinə məhv edilməsini və s. göstərmək olar. Qurani-Kərim isə təbiəti, bütün canlıları, insana bəxş edilən bütün ruziləri qorumağı təbliğ edir. Məhz buna görə həm inanc və həm də elm alimlərinin III minillikdə bir yolu olmalıdır: Yer kürəsini və bəşəriyyəti birlikdə fəlakətdən xilas etmək. Bir daha təkrar edirik ki, bu, yalnız insan mənəviyyatının, daha doğrusu, ümumi və intellektual ekologiyanın sağlamlaşdırılması ilə mümkün olacaqdır. Buna şübhəmiz yoxdur.

Əziz oxucu! Bir vaxtlar, daha doğrusu, sovetlər dövründə ictimai yerlərdə K.Marksın divardan asılmış aşağıdakı sözlərinə rast gələrdik: «Din xalqın tiryəkidir». Məhz insanlara və insanlığa qarşı yönəlmiş bu sərsəm fikir bizi vadar etdi ki, filosof, islamşünas alim Harun Yəhyanın «Quran möcüzələri» kitabından, əsası 1400 il əvvəl qoyulan elmi dəlilləri, illər keçdikdən sonra alimlərin kəşfilə təsdiqlənən bir neçə faktı sizin nəzərinizə çatdıraq. Harun Yəhyanın əsərləri ABŞ, Böyük Britaniya, Hindistan, İndoneziya, Polşa, İspaniya, Braziliya, Malaziya, İtaliya, Fransa, Bolqarıstan, keçmiş sovet respublikaları və s. ölkələrdə maraqla qarşılanır. Bu əsərlər ingilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, uyğur, indoneziya, malay, benqal, bolqar, yapon, Çin və Azərbaycan dilinə tərcümə edilmişdir. Dünyanın dörd bir tərəfində böyük rezonans doğuran bu diqqətəlayiq əsərlər insanların çoxunun iman gətirməsinə, əksər adamların da öz imanını kamilləşdirməsinə





səbəb olmuşdur. Beləliklə, bir neçə həqiqəti izhar edən dəlillərə müraciət edək.

«Böyük partlayış» və ya orijinal adı ilə desək, «Biq banq» nəzəriyyəsi bütün kainatın təxminən 15 milyard il əvvəl bir nöqtənin partlaması nəticəsində yoxdan var olduğunu sübut etmişdir. Müasir fizikanın elmi şəkildə sübuta yetirdiyi bu böyük həqiqət Quranda bizə hələ 1400 il bundan əvvəl xəbər verilib! Qurani-Kərimin əl-Ənam surəsinin 101-ci ayəsində buyurulur: «O, göyləri və yeri (yoxdan) var edəndir.»

XX əsrin əvvəllərində rus fiziki Aleksandr Fredman və belçikalı astrofizik George Lemaytr kainatın fasiləsiz hərəkət halında olduğunu və genişləndiyini demişdilər. Bu həqiqət 1929-cu ildə müşahidələrlə sübut olunmuşdur. 1400 il əvvəl göndərilən Qurani-Kərimdə kainatın genişlənməsindən belə bəhs edilir: «Göyü qüdrətimizlə (qüdrət əlimizlə) biz yaratdıq və Biz onu genişləndirməkdəyik.» (əz-Zariyat surəsi, ayə 47)

Alimlər bildirirlər ki, kainatın kütləsi kifayət edəcək miqdara çatanda genişlənmə prosesi cazibə qüvvəsinə görə dayanacaq və bu da kainatın öz daxilinə çəkilməyə, büzülməyə səbəb olacaq. Kainatın büzülməsi prosesinin isə axırda «Biq Kranc» («Böyük büzülmə») deyilən çox yüksək bir istilik və sıxılma ilə nəticələnəcəyi qeyd edilir. Bu isə həyatın yox olması mənasına gəlir.

«Biq Kranc» adlı bu elmi nəzəriyyəyə Quranda belə işarə edilir: «Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü (qiyamət gününü) yadınıza salın. (O gün insanları) ilk dəfə (yoxdan) yaratdığımız kimi qaytarıb (dirildib) əvvəlki halına salarıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik...» (əl-Ənbiya surəsi, ayə 104)

Kainatdakı milyardlarla ulduz və qalaktika onlar üçün mükəmməl tarazlıqda təyin edilmiş oxları ətrafında, həm də bağlı olduqları sistemlə birlikdə daim hərəkətdədir. İçində 200-300 milyard ulduz olan qalaktikalar bir-birinin arasından keçib-gedir, heç bir toqquşma baş vermir.

Qurani-Kərimin əl-Mulk surəsinin, 3-4-cü ayələrində buy-

urulur: «Yeddi göyü» (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq (çatdaq, nöqsan) görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada (axtardığını tapmayıb) zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!»

Göy cismlərinin bir xüsusiyyəti onların öz orbitləri ilə yanaşı bir də öz oxları ətrafında hərəkət etməsidir. Dolayısı ilə Qurani-Kərimin əz-Zariyat surəsinin 7-ci ayəsində buyurulur: «(Gürbəcür ulduz) yolları olan göyə and olsun ki...»

Günəşin sabit və ya statik olmaması, onun müəyyən orbitdə hərəkət etməsi Quran ayələrində belə qeyd edilir: «Gecəni və gündüzü də, Günəşi və Ayı da yaradan Odur. Onların (həmçinin ulduzların) hər biri (özünə məxsus) bir göydə üzür (öz hədəqəsində, öz dairəsində hərəkət edir)» (əl-Ənbiya surəsi, ayə 33). Və yaxud: «Günəş də (qüdrət əlamətlərimizdən biri kimi) özü üçün müəyyən olunmuş yerdə seyr edər...» (Yasin surəsi, ayə 38)

Quran ayələrində kainat haqqında verilən məlumatlardan biri də göyün yeddi təbəqə olaraq təşkil edilməsi ilə bağlıdır. «Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onun yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)!» (əl-Bəqərə surəsi, ayə 29)

«Məgər görmürsünüz ki, Allah yeddi göyü (bir-birinin üstündə) qat-qat necə yaratdı.» (Nuh surəsi, ayə 15)

«Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən...» (əl-Mulk surəsi, ayə 3)

Müasir coğrafi nəzəriyyəyə görə, atmosferin yeddi qatı belə tərtib edilib: 1. Troposfer. 2. Stratosfer. 3. Mezosfer. 4. Termosfer. 5. Ekzosfer. 6. İonosfer. 7. Manyetosfer.

XX əsrdə elmi tədqiqatlarla sübut edilmişdir ki, Yer kürəsinin hər tərəfini əhatə edən atmosfer həyatın davam etməsi nöqteyi-nəzərdən çox mühüm funksiyaları yerinə yetirir. Belə ki, atmosfer Yerə doğru yaxınlaşan irili-xırdalı bir çox meteo-





riti əridib yox edir, onların Yer üzərinə düşərək canlılara zərər verməsinin qarşısını alır və həmçinin kosmosdan gələn, canlılar üçün zərərli olan şüaları, bir növ, filtrdən keçirərək təmizləyir. Quranda göy üzünün bu xüsusiyyətinə belə işarə edilir: «Göyü (yerdən ötrü və onun üstünə düşməsin deyə) qorunub saxlanılan bir tavan etdik...» (əl-Ənbiya surəsi, ayə 32)

Əfsuslar olsun ki, insan öz əməlləri ilə bu müqəddəs tavanın pozulmasına və bəşəriyyətin fəlakətlərlə üzləşməsinə səbəb olmuşdur. Müasir elm isbat etmişdir ki, əgər bu qoruyucu tavan olmasaydı, Yerdə həyat olmazdı. Bir daha Quran ayəsinə müraciət edək: «O Allah ki, sizin üçün yer üzünü döşədi, göyü isə tavan yaratdı, göydən yağmur endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi. İndi siz də Allaha (onun heç bir oxşarı və bənzəri olmadığını) bilə-bilə şəriklər qoşmayın!» (əl-Bəqərə surəsi, ayə 22)

Quranda Yerlə bağlı verilən məlumatlardan biri Yerin yeddi qat olan göyə oxşarlığıdır. ət-Talaq surəsinin 12-ci ayəsində buyurulur: «Yeddi (qat) göyü və bir o qədər də yeri yaradan Allahdır... Allahın hər şeyi elm (Öz əzəli elmi) ilə ehtiva etdiyini biləsiniz deyə, (Allahın) əmri onların arasında nazil olar.»

Yer kürəsi təbəqəsinin göy üzü ilə oxşarlığı XX əsrdə elmə məlum olmuşdur. Yerin alimlər tərəfindən qeyd edilən həmin qatları bunlardır: 1.Hidrosfer. 2.Litosfer. 3.Astenosfer. 4.Üst mantiya. 5.Alt mantiya. 6.Xarici nüvə. 7.Daxili nüvə.

Elmdən məlumdur ki, zamanın nisbilik nəzəriyyəsini ilk dəfə məşhur alim Albert Eynşteyn irəli sürmüşdür. Ancaq Quranda 1400 il əvvəl zamanın nisbi olduğunu göstərən məlumatlar var. Bir qədər təfsilatı ilə.

Qurani-Kərimdə dəfələrlə qeyd edilir ki, kainat Allah-Təala tərəfindən 6 gün ərzində yaradılmışdır.

«Ya Peyğəmdər! De: «Doğrudanmı, siz yeri iki gündə yaradanı inkar edir və Ona şəriklər qoşursunuz? O ki, aləmlərin Rəbbidir!»» (Fussilət surəsi, ayə 9)

«Allah onları (səmaları) yeddi (qat) göy olaraq iki gündə əmələ gətirdi. (Beləliklə, iki gün ərzində yer, sonra isə iki gün

ərzində göylər xəlq edildi. Kainatın yaradılması altı gün ərzində başa çatdı.» (Fussilət surəsi, ayə 12)

Göründüyü kimi, kainatın təbii şəkildə, mərhələ-mərhələ yaradılması bu ayədə çox gözəl əks olunmuşdur. Altı gün dedikdə, şübhəsiz ki, bizim 24 saat hesabladığımız gün nəzərdə tutulmur. Belə ki, müxtəlif sistemlərdə zaman vahidləri müxtəlif kəmiyyətli ola bilər. Bu, müasir fizikada, A.Eynşteynin nisbilik nəzəriyyəsində zamanın «yavaşıması», yaxud nisbiliyi kimi ifadə edilmişdir. Nisbilik nəzəriyyəsinə əsasən, hər hansı bir sistem sükunət qəbul edilə bilən sistemə nəzərən nə qədər sürətlə hərəkət edirsə, bu sistemdəki zaman axını bir o qədər zəif olacaqdır. Ona görə də hərəkət edən hər hansı bir sistemdə zamanın nisbi ölçüsünü müəyyənləşdirmək üçün həmin sistemin periodik hərəkətliyini xarakterizə edən amillərdən istifadə edilir. Məsələn, Yerin Günəş və öz oxu ətrafında hərəkəti, yaxud Ayın Yer ətrafında dönməsi və s. Qurani-Kərimin əl-İsra urəsinin 12-ci ayəsində buyurulur: «Biz gecə və gündüzü (qüdrətimizə dəlalət edən) iki əlamət müəyyən etdik. Rəbbinizdən ruzi diləməniz, illərin sayını və hesabı (vaxt ölçülərini) bilmədiyiniz üçün gecənin əlamətini (qaranlığı) silib (yerinə) gündüzün işıqlı (görünən) əlamətini gətirdik. Biz (ehtiyac hiss etdiyiniz) hər şeyi (Quranda) müfəssəl izah etdik.»

Əgər kainatın kürə şəklində olduğu fikrini qəbul etsək, onda bu kainatdakı qalaktikaların hər hansı bir «vahid nöqtə» ətrafında dönməsi faktı ilə qarşılaşmalı oluruq. Kainatın «vahid nöqtə» ətrafında hərəkəti, onda mütləq zamanın da mövcud olduğu və bu kosmik təqvimə görə «vahid nöqtə» məkanındakı bir günün min ilə bərabər götürülməsi Quranda açıq-aşkar verilmişdir. Qurani-Kərimin əl-Həcc surəsinin 47-ci ayəsində buyurulur: «(Ya Rəsulum!) Onlar səni tələsdirib əzabın tez gəlməsini istəyərlər. Allah Öz vədinə əsla xilaf çıxmaz! Rəbbinin dərgahında bir gün sizin saydığınızın (hesabladığınız vaxtın) min ili kimidir.»

Amerika Elmlər Akademiyasının rəhbəri Frank Pressin dünyanın əksər universitetlərində dərs kitabı kimi tədris edilən





«Earth» («Dünya») adlı əsərində dağların dirək formasında olması və Yerin dərinliklərinə qədər uzanması bildirilir. Quranın ayələrində dağların bu vəzifəsinə işarə edilmişdir: «Yer onları silkələməsin (atıb-tutmasın) deyə, orada möhkəm (durmuş) dağlar yaratdıq; onlar (istədikləri yerə) rahat gedib çata bilsinlər deyə, orada geniş yollar əmələ gətirdik. (əl-Ənbiya surəsi, ayə 31)

«Məgər Biz yeri döşək etmədikmi?! Dağları da dirək?!» (ən-Nəbə surəsi, ayə 6-7)

XX əsrin əvvəllərində alman alimi Alfred Veqner Yer kürəsində qitələrin dünyanın yaradıldığı ilkin dövrdə bir yerdə olduqlarını, onların sonradan ayrılaraq müxtəlif istiqamətlərə doğru uzaqlaşdıqlarını iddia etmişdi. Ancaq geoloqlar Veqnerin iddiasının doğruluğunu onun ölümündən yalnız 50 il sonra, yalnız 1980-ci illərdə başa düşə bildilər.

Quranın ən-Nəml surəsinin 88-ci ayəsində buyurulur: «(O gün) dağlara baxıb, onları donmuş (hərəkətsiz durmuş) zənn edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər.»

Alimlər Yerin xarici təbəqəsinin maddə itkisi ilə üzləşməsini ilk dəfə 1998-ci il sentyabr ayının 24-25-də müşahidə etmişlər. XX əsrdən başlayaraq Yer səthində hərarətin yüksəlməsi qeydə alındı. Hərarətin son dövrlər daha da artması müşahidə edilir. Müşahidələr nəticəsində Şimal qütbünün hərarətinin çoxaldığı, buna münasib olaraq, buz kütlələrinin əriməyə meyilliyinin daha da artdığı qeydə alınmışdır. ABŞ-ın Qoddard Kosmik Elmlər İnstitutunun alimləri 1950–1960-cı illərin dənizaltı müşahidələrə dair raportlarının 1990-cı illərin müşahidələri ilə müqayisəsini apararaq Şimal qütbündəki buz təbəqəsinin 45%-ə qədər nazikləşdiyini sübut edirlər. Kosmosdan çəkilmiş şəkillər də həmin bölgəni əhatə edən buzların əvvəlki illərə nisbətən daha da azaldığını göstərir. Bununla okeanlarda suyun səviyyəsi artır və çoxalan sular quru təbəqəsinin üzərini örtür. Diqqətəlayiq məsələ odur ki, XX əsrin axırlarındakı kəşflər Qurani-Kərimin ayələrindəki hikmətləri başa düşməyə kömək edir.

Əvvəlki bölmələrdə də məlumat vermişdik ki, bütün bu fəlakətlərə səbəb atmosferdə karbon qazının dəfələrlə çoxalması, ozon təbəqəsində dəliklərin əmələ gəlməsi və s.-dir. Bu mənfi faktorlar da insanın mənfi intellektual ekoloji fəaliyyəti ilə əlaqədardır.

Müasir astronomiya elmi Yerdəki dəmir mədənlərinin kosmosdakı böyük ulduzlardan gəldiyini sübut etmişdir. Qurani-Kərimin əl-Hədid surəsinin 25-ci ayəsində buyurulur: «...Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də nazil (icad) etdik ki...»

1827-ci ildə ingilis alimi Broun yağış damlalarının torpağa düşəndə torpaq molekullarında silkələnmə və titrəmə yaratdığını kəşf etmişdir. Qurani-Kərimin əl-Həcc surəsinin 5-ci ayəsində buyurulur: «...Sən yer üzünü qupquru görərsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə (cana) gəlib qabarar (yaxud xəmir kimi acıyar) və hər növ gözəl (meyvədən, bitkidən) bar gətirər.»

Dənizdə apardığı tədqiqatları ilə dünyada böyük şöhrət qazanmış Jak Kusto, daha geniş yayılmış adı ilə desək, Kapitan Kusto: «Bəzi tədqiqatçıların müxtəlif dəniz kütlələrini bir-birindən ayıran manеələrin mövcudluğu ilə bağlı irəli sürdükləri mülahizələri nəzərdən keçirirdik. Tədqiqatlar nəticəsində bizə məlum oldu ki, Aralıq dənizinin özünəməxsus temperaturu, duzluluğu və sıxlığı var. Eyni zamanda bu dənizdə həmin şəraitə uyğun canlılar var. Sonra isə Atlantik okeanda olan su kütləsini tədqiq etdik və onun Aralıq dənizindən tamamilə fərqli olduğunu gördük. Bu iki su kütləsi Cəbəllütariq boğazında birləşir və bu birləşmə min illərdir ki, davam edir. Buna, əsasən, iki dənizin bir-birinə qarışması və nəticədə onların duzluluqda, sıxlıqda, özlərinə ehtiva etdikləri maddələrin nisbətində bərabər və ya buna yaxın bir vəziyyətin olması lazım gəlirdi. Halbuki belə bir vəziyyətin mövcud olmadığını, yəni su kütlələrinin bir-birinə qarışmadığını və hətta hər iki dənizin yaxın hissələrində də fərqli quruluşlara malik olduğunu heyrətlə müşahidə etdik...» (Məryəm Selcan, İlahi möcüzələr, Bakı, 2008)





Professor Maurice Bucaille yaxın dostu Kapitan Kustoya dənizlərdəki belə su manеələri ilə bağlı açıqlamasından (belə bir hal 1962-ci ildə Ədən körfəzi ilə Qırmızı dənizin birləşdiyi Bab-əl-Mənbəd boğazında alman alimləri tərəfindən aşkar edilmişdir) dərhal sonra bu kəşflərin yeni bir şey olmadığının Qurani-Kərimdə açıq-aşkar bildirildiyini demişdi.

«Birinin suyu çox şirin, digərininki olduqca şor (acı) olan iki dənizi qovuşduran, aralarında (bir-birinə qarışmamaq üçün) manеə və keçilməz sədd qoyan Odur!» (əl-Furqan surəsi, ayə 53)

«İki dəniz eyni deyildir. Birinin suyu çox şirin, dadlı və içməyə rahat (boğazdan rahat keçən) digərininki isə həddindən artıq şor və acıdır...» (Fatir surəsi, ayə 12)

Bu sözlər Kapitan Kustonu heyrətə gətirmiş və o, Qurandakı müvafiq ayələri böyük heyranlıqla dinlədikdən sonra aşağıdakıları demişdir: «Mən şahidlik edirəm ki, müasir elmi XIV əsr qabaqlayan Quran Allah kəlamıdır.» (Məryəm Selcan, göstərilən əsəri)

Bu hadisədən sonra Jak Kusto İslamı qəbul etmişdir.

Quranda insanın ana bətnində üçmərhələli bir prosesdə yarandığı bildirilir.

«...O, sizi analarınızın bətnində «üç zülmət içində» olaraq» tərcümə edilmiş ərəb dilindəki «fi zulumatin səlasin» ifadəsi embrionun inkişafı dövründə üç qaranlıq mərhələnin olmasına işarə edir. Embriologiya elminə sonra məlum olmuşdur ki, həmin mərhələlər bunlardır:

a) birinci qaranlıq mərhələ: yumurta hüceyrəsinin fallop (salpenks) kanallarında mayalandıqdan sonra keçirdiyi ilk mərhələdir;

b) ikinci qaranlıq mərhələ: mayalanmış yumurta uşaqlığın iç qatına düşür və uyğun bir yerə (uşaqlığın iç divarına) yapışır və yumurta ilk dəfə burada bölünməyə – inkişafa başlayır və rüşeym əmələ gəlir;

c) üçüncü qaranlıq mərhələ: inkişaf edən rüşeym ətrafını içərisində xüsusi maye ilə dolu olan bir kisə təşəkkül edir. So-

nra bu kisə içərisində, yəni üçüncü qaranlıq yerdə növbə ilə orqanlar və sistemlər ardıcıllıqla inkişaf edir.

Yenə də Qurani-Kərimə müraciət edək: «Həqiqətən, Biz insanı (sonrakı mərhələdə ata-anasının toxumundan ibarət) qarışıq bir nütfədən yaratdıq... Biz onu eşidən və görən yaratdıq.» (əl-İnsan surəsi, ayə 2)

«O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı (Adəmi) yaratmağa palçıqdan başladı, sonra onun nəslini nütfədən – bir qətrə zəif (dəyərsiz) sudan əmələ gətirdi...» (əs-Səcdə surəsi, ayə 7-8)

«Sonra nütfəni laxtalanmış qana (rüşeymə; bağlı qalan hər şeyə) çevirdik, sonra laxtalanmış qanı bir tikə (çeynənmiş) ət halına saldıq, sonra o bir tikə əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa (yeni) bir məxluq olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!» (əl-Muminin surəsi, ayə 14)

Bir sözlə, insanın Quranda təsvir edilən əmələ gəlmə mərhələləri müasir embriologiyanın kəşfləri ilə tam uyğunluq və harmoniya içindədir.

Biz bölmənin bu hissəsini Fransanın nüfuzlu və aparıcı alimlərindən təşkil olunmuş elmi konfransda professor Maurice Bucaillenin «Quran və embriologiya» mövzusundakı çıxışında dinləyicilərə dediyi sözlərlə yekunaşdırırıq: «Bütün bu qeyd olunanlardan sonra Quranın Allah dərgahından gəlməsinə dair bir izahat, bir şərh, bir açıqlama verə bilərsinizmi? Yaxud da bu mövzu ilə bağlı hər hansı bir dəliliniz varmı?»

«Xeyr» cavabını eşitdikdən sonra Bucaille gülümsəmiş və sanki bir əsli-səadət müsəlmanı ədası ilə belə demişdir: «O zaman mən deyirəm ki, Quran, şübhəsiz ki, Allahın kəlamıdır.» (Məryəm Selcan, göstərilən əsəri)

Professor Maurice Bucaille İslam dinini qəbul etmişdir.

İslamşünas alimlərin əsərlərinin araşdırılmasından məlum olur ki, hər keçən gün Quranın daha canlı və əbədi olması həqiqəti ortaya çıxmaqdadır. Onun elmi hikmətləri, əmin-amanlıq və barışa, dostluq və ədalətə, gözəllik və xoşbəxtliyə, mərhəmət və şəfqətə, ən əsası isə elmə aparan müqəddəs bir vasitədir.





«Qurani-Kərim bir fənn kitabı deyil, insanları doğru yola, düzgün istiqamət və qulluğa dəvət edən ilahi fərmandır. Bu səbəbdən də müqəddəs ayələrdə elmi məsələlərə yalnız işarə edilmişdir. Bu ilahi fərmanda bugün olan mədəniyyət sahələri haqqında açıq olaraq xəbər verilsəydi, bəşəriyyət əsrlərlə bu həqiqətləri ağlına sığışdırmayacaq, bəlkə inkar etmək yoluna gedəcəkdi. Bu isə əsl ilahi yola və ilahi buyuruğa, əmr və dövlətə pərdə çəkmək olardı.» (Məryəm Selcan, göstərilən əsəri)

Q.Kərimovun bir maraqlı məlumatını sizin diqqətinizə çatdırmaq istərdik: «Müasir şəraitdə şəriət göstərişlərinin yerinə yetirilməsi üçün astronomiya elminin məlumatından istifadə olunur. İddia edilir ki, əgər astronomiya alimləri, hətta kafir olsalar da, Günəşin və ya Ayın tutulması və ya zəlzələ başlanması tarixini qabaqcadan bildirirlərsə, dindarlar ayət namazına hazırlaşmalıdırlar. Bu fakt şəriəti və İslam ehkamlarını müasir elmi nailiyyətlərə uyğunlaşdırmaq təmayülünü göstərir. Bununla əlaqədar olaraq kosmosun öyrənilməsi və insanın Aya uçuşu barəsində bəzi müsəlman ideoloqlarının rəyini misal göstərmək olar. Bu barədə müsəlman ilahiyyatçılarının sociyyəvi mülahizələri 1959-cu ilin oktyabrında disputlarda söylənilmişdir. Qahirədəki Ali İlahiyyat Universiteti olan əl-Əzhar Universitetinin rektoru Şeyx Şaltut (1964-cü ildə vəfat etmişdir) demişdir ki, son vaxtlar bir çox ölkələrin müsəlmanları ondan soruşurlar: «Kosmosun öyrənilməsi və insanın Aya uçmağa hazırlaşması ilə əlaqədar olaraq Haqq-Təalanın sirlərinə müdaxilə edilmir ki?» Şeyx Şaltut bu suala belə cavab vermişdir ki, Quran insanlara kosmosu öyrənməyi məsləhət görür və müsəlmanlar kosmosun öyrənilməsində Qərbdən əsla geri qalmamalıdırlar. Sonra Şeyx demişdir ki, əgər səhhəti imkan versə, o, Aya uçmağa hazırdır və əgər böyük Allahın yaratdığı planetin torpağına qədəm basmaq ona nəsib olsa özünü xoşbəxt sayar...»

İranın üç məşhur ilahiyyatçısı – Ayətullah Mir Seyid Məhəmməd Bəxbəxani, şeyx Bəhaüddün Nuri və Hacı Mirzə Xəlil

Kəmran Şeyx Şaltutun fikrini təsdiq etmişlər. Şeyx Bəhaüddün Nuri Quranın 16-cı surəsinin 12-ci ayəsini misal gətirmişdir.»

Qurani Kərimin ən-Nəhl surəsinin 12-ci ayəsində buyurulur: «O gecəni və gündüzü, Günəş və Ayı sizə ram etdi (sizin xidmətinizə verdi). Ulduzlar da Onun əmrinə boyun əymişdir. Doğrudan da, bunda ağılla düşünənlər üçün ibrətlər vardır!»

Bəs müqəddəs və dahi şəxslər elm haqqında nə demişlər? Bir daha yada salmaq istərdik: Məhəmməd peyğəmbərdən (s.): «Ya Rəsulallah! Hər peyğəmbərin bir möcüzəsi var. Bəs sizin möcüzəniz nədir?» deyə soruşulduqda: «Kəlamətullahdır» demişdir. Kəlam yaşayan bir həqiqətin kəlmə ilə ifadəsidir.

Araşdırmalarımızdan məlum olur ki, elm İslamın ən çox əhəmiyyət verdiyi mövzuların ilkini təşkil edir. Allahın Qurani-Kərimdə insanlara ilk əmri də «oxu» olmuşdur. Allah buyurur: «(Ya Peyğəmbər! Qurani-Kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) oxu! O, insanı laxtalanmış qandan yaratdı.(Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi.» (əl-Ələq surəsi, ayə 1-5)

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Bir alimin mürəkkəbi bir şəhidin qanından daha müqəddəsdir.

***

Ömrünü elmə sərf edən adam heç vaxt ölmür.

***

Alimin sözünə qulaq asıb, yavaş-yavaş özgələrə elm öyətmək dini vacibatdan yaxşıdır.

***

Alimlər yer üzündə göylərdəki ulduzlar kimidirlər. Onun köməyi ilə yerin zülmətində və dənizdə yolu taparlar. Ulduzlar göydə itəndən sonra yol tapanların təzədən azması mümkündür.





***

Elmindən faydalanan alim min abiddən xeyirlidir.

***

Bir saat elm öyrənmək altmış illik ibadətdən xeyirlidir.

***

Alim öldü, aləm öldü.

***

İnsanlar elə bir sədəqə verə bilməzlər ki, öyrənilən, yayılan elmdən üstün ola.

***

Qiyamət günü şəhidlərin qanı alimlərin mürəkkəbi ilə bərabər tərəziyə qoyular və alimlərin mürəkkəbi şəhidlərin qanından ağır gələr.

***

Elmin fəziləti ibadətin fəzilətindən əfzəldir.

***

Alimləri eşidin, çünki onlar dünyanın çırağı, axirətin nurudurlar.

***

Elm öyrənən zaman birisini ölüm haqlayarsa, o, şəhid sayılar.

***

Elm hər bir müsəlmana – istər kişi olsun, istər qadın – vacibdir.

***

Elm Çində də olsa, onun dalınca gedin.

***

Ən xeyirli sədəqə odur ki, bir müsəlman elm öyrənə və sonra onu öz müsəlman qardaşına öyrədə.

***

İki şəxs doymaq bilməz: elm təşnəsi və dünya malı hərisi.

***

Alimlər və elm öyrənənlər savabda şərikdirlər, sair camaat isə xeyir və sədafdan məhrumdurlar.

***

Elm Allahın yer üzündə qoyduğu əmanət, alimlər isə Allah elminin əmanətdarlarıdır, hər kəs öz elminə əməl etsə, həqiqətdə əmanəti layiqincə sahibinə qaytarmışdır.

***

İnsanın öyəndiyi bir elm toplusu Əbu Qübeys dağı qədər qızıla, mal-dövlətə malik olub, onları Allah yolunda ehsan etməsindən daha fəzilətlidir.

***

Dünya və axirət xeyri elm ilə yanaşıdır.

***

Elm öyrənən şəxs gündüzləri oruc tutan, gecələri isə səhərə kimi ibadətlə keçirən şəxs kimidir.

***

Süleyman peyğəmbəri (ə.) elm, mal, mülk seçimi arasında sərbəst buraxdılar və o, elmi seçdi, elə buna görə də mal və mülk də ona verildi.

***

Elm öyrənmək Allah yanında namazdan, orucdan, həcdən, cihatdan daha fəzilətdir.

***

Bir saat elm öyrənmək bir gecə ibadətdən xeyirlidir. Gündüz elm öyrənmək isə üç ayın orucundan yaxşıdır.

***

Elmlə yatmaq cəhalətlə namaz qılmaqdan xeyirlidir.

***

Hər alim başqa bir elmin acıdır.

***

Səhər və axşam elmlə məşğul olmaq Allah yanında cihad etməkdən fəzilətdir.

*Zərdüşt:*

Çalışın alim ilə cahil arasında fərq qoyasınız. Alimlər həyatın yol göstərənləridir.





*Həzrəti Loğman:*

Elm sahibləri ilə söhbət et. Yağış torpağı canlandırdığı kimi, Allah-taala da hikmətlə, elmlə qəlbləri işıqlandırar.

*İmam Əli (ə.):*

Hər bir elmin kamilliyi, o elmin tələb etdiyi işə əməl etməklikdir.

***

Anlamaz, cahil o şəxsdir ki, öz elminə əməl etmir.

***

Elm misli olmayan qiymətsiz qənimətdir (mirasdır). Ədəb gözəl, qəşəng şəxsə münasib olan paltardır, ağıllı fikir təmiz, saf güzgüdür, dünyanın gəlişindən-gedişindən ibrət almaq insanı xeyirxahlığa, yaxşı işlər görməyə dəvət edən bir qorxudur...

***

Hər bir insanın qiyməti onun elminin dəyəri qədərdir.

***

Mal-dövlət yığanlar diri ikən ölürdülər. Alimlər isə dünya durduqca diridir (və bəşəriyyət onların elmi əsərlərindən istifadə edir), cəsədləri torpaqlara qarışır, özləri isə qəlblərdə yaşayır.

***

Hər qab dolduqca daralar. Ancaq elm qabı dolduqca genişlənər.

***

Elm qiymətli miras, ədəb yenilməz zinət və fikir isə təmiz bir güzgüdür.

***

Elm mal-dövlətdən bir neçə cəhətdən yaxşıdır. Elm səni qoruyar, amma mal-dövləti lazımdır ki, özün qoruyasan. Mal-dövlət xərcləməklə, bağışlamaqla azalar, amma elmi təlim etdikcə təcrübəsi artıb inkişaf edər. Hər bir şeylər ki, mal-dövlət-

lə ələ gəlib (hörmət, məqam), mal-dövlət qurtarandan sonra aradan gedər.

Elm cahilin (nadanlığın) qatilidir.

*İmam Sadiq (ə.):*

Elm kəsb edin və onunla birlikdə elmlə, vüqarla zinətlənin.

***

Alim elminə əməl etmədikdə, yağışın sərt qayaların üzərindən axıb getdiyi kimi, onun da nəsihətləri qəlblərin üzərindən əsərsiz sürüşüb gedər.

*İmam Həsən (ə.):*

Öz elmini başqalarına öyrət və çalış ki, digərlərinin də elmini öyrənəsən.

*İmam Hüseyn (ə.):*

Elmin üstünlüyü ibadətin üstünlüyündən daha yaxşıdır.

***

Hikmət və bilik mömin bir şəxsin itirdiyidir. Hətta müdrikin yanında olsa da, onu axtarın ki, hikmət əhli olub, ona daha çox layiq olasınız.

***

Elm bəhs və müzakirələr, mərifət toxumudur. Uzun və çoxlu təcrübələr əqlin çoxalmasına səbəb olur.

***

Elm imanın, helm isə biliyin layiqli vəziridir.

*İmam Bağır (ə.):*

Elmindən faydalanan alim, yetmiş min abiddən xeyirlidir.

***

Elmin zəkatı onu Allahın bəndələrinə öyrətməkdir.





***

Elm öyrənməkdə çalışın, çünki elm öyrənmək gözəl əməl, onu axtarmaq isə ibadətdir.

*İmam Cavad (ə.):*

Din izzət və şərəf, elm xəzinə, sükut isə nurdur.

*Nizami Gəncəvi:*

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz.
Hər uca zirvədən bilinir, fəqət
Alimin rütbəsi ucadır əlbət.

***

Bir elm öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.

***

Elmlə, ədəblə tanınar insan,
Mirvari olmazsa, nə lazım sədəf?!

*Nuşirəvan Adil:*

Elmi olub, ağlı olmayan adama elm əziyyət verər.

*Hafiz Şirazi:*

Hər kəs öz biliyi qədər aləmi dərk edər,
Hər mətni oxuyan mənasını dərk edə bilməz.

*Sədi Şirazi:*

Elm əqidəli olmaq üçündür, dünya malı yığmaq üçün yox.

***

Alim avamların səhvlərinə göz yummamalıdır. Cahil adam heyvərəlik və uzunçuluqda alimə üstün gəlsə, təəccüblü deyildir, çünki həmişə daş cəvahiri sındırır.

*Məhəmməd Füzuli:*

Bilik qazan, töhfə odur yaşadığın gözəl gündən,
Dünya evi arifə də qalan deyil əzəl gündən.
Biliyinlə öyünməyən alim adı daşı eldə...
Lovğalığı hər alimi edər avam, naşı eldə.

***

Olma qane, elmdə hər rütbəyə çatsan da, bil,
Səyin artdıqca, bu yolda artacaqdır qiymətin.

*Əvhədi Marağayi Rüknəddin:*

Əhsən o peşəkar yoxsul insana,
Qanedir dünyanın azı-çoxuna!..
Ən işıqlı günəş elmdir, ancaq,
Elmsiz yaşama ömrünü nahaq.
Çıraq yandırmasan əgər elmdən,
Varlığın təndirdə yanacaq həmən.

***

Elmi oğru apara bilməz, əcəl də öldürə bilməz. Elm zamanın gərdişindən nə xarab olandır, nə də seldə-suda batıb qərq olan.

***

Elmin cövhəri qızıl kimidir, köhnəldikcə təzələnir.

***

Nursuz göz kimidir elmsiz ürək,
Nadan insanlıqdan uzaqdır gerçək.





*Nəsirəddin Tusi:*

Bilik – o adam ki, bilir və biliyi ilə başqalarını heyran edir, o alimdir, ona ehtiram edin... O adam ki, bilmir və öyrənməyə cəhd edir, o zəhmətkeşdir. O adam ki, bilmir və öyrənmək də istəmir, o ağılsızdır, ondan uzaq olun.

***

Elm əməlsiz məhv olar, əməl isə elmsiz mümkün deyildir. Deməli, elm başlanğıc, əməl son, elm səbəb, əməl nəticədir.

***

Elm sahiblərini elmlərinin çoxluğu ilə deyil, əməllərinin faydalılığı, əxlaqının saflığı və özlərinin xeyirxahlığı ilə sınaqdan keçirmək lazımdır.

*Şah İsmayıl Xətai:*

Bu gün ələ almaz oldum mən sazım,
Ərşə dirək-dirək çıxır avazım.
Dörd şey vardır bir qarındaşa lazım,
Bir elm, bir kəlam, bir nəfəs, bir söz.

*Əbül Fərəc:*

Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan, ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz.

Əqli-kamalı olmayan qəlb – ölüdür. Onu əgər elm ilə zənginləşdirsən, üstünə yağış yağmış xam torpaq kimi canlanar.

*Əmir Xosrov Dəhləvi:*

İnsan bir-birindən əskik yaranmaz,
Bilikdir insanı yüksəldən hər an.
Fəxr et öz elminlə, öz hünərinlə,
Əsil-nəsəb ilə yüksəlməz insan.

*Nakam:*

Alimdən, elmdən və hünərdən zövq almayan kəs bəşəriyyətin yaramaz övladlarıdır.

*Məhəmməd Tağı Sidqi:*

Fəzilət, elm və mərifətdən məhrum olanlar üçün ölüm nemətdir.

***

Dünyada elmdən daha yaxşı dost yoxdur. Elm dövlətdən də yaxşıdır, çünki dövləti sən saxlamalısan, elm isə səni saxlayır.

*Nasir Xosrov:*

Hər kəs elmi özünə qalxan etsə,
Dünya zərbələrindən zərər görməz.
Kişinin gözəlliyi elmindədir,
İnsanın kamalı elmdədir.

*Şeyx Şamil:*

Elmli adamı doğru bir şeyə inandırmaq üçün çox danışmağa ehtiyac yoxdur.

*Əbdülqəni Xalisəqarızadə Nuxəvi:*

Tərəqqi üçün elm öyrənin.

*Abbasqulu ağa Bakıxanov:*

Elm və kamalı hər şeydən daha əziz tut, çünki hər şeyi onların vasitəsilə əldə edirlər.





***

Dünyada olan şeylərin hamısı, bütün fəzilətlərin dövləti olan elmə bağlıdır.

*Seyid Əzim Şirvani:*

Elmdir əhli-sənətin hünəri
Elmsiz sənətin nədir səməri?

*Mirzə Ələkbər Sabir:*

Hər kəs elm oxur, bəxtiyar olur;
Millət elm ilə bərqərar olur.

***

Nəsihət al, nəsihət,
Qıl kəsbi-elmə qeyrət!
Elmsizlik bəlası müşkül,
*Müşkül olur həqiqət...*
Elm öyrən, imtahan ver,
Öz fəzlini nişan ver,
Qədrin bil elmü fəzlin
Elmin yolunda can ver...

*Abbas Səhhət:*

Elmdir cümlə sənətin dəyəri,
Elmsiz sənətin nədir səməri?

*Nəriman Nərimanov:*

Hansı millət ki, qabağa gedib tərəqqi edibdir, ancaq elmin gücünə xoşbəxt olubdur.

*Mustafa Kamal Atatürk:*

Mənim mənəvi mirasım elm və ağıldır.
Ağıl və məntiqin həll edə bilməyəcəyi məsələ yoxdur.

*Abdulla Şaiq:*

Hər bir millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır.

*Məhəmməd Hadi:*

Elm və mərifətlə müsəlman olmayanlar bundan sonra bədbəxt bir halda yaşayacaqlar, yaşayacaqlar deyil, sürünəcəklər... Həyat mübarizəsində müvəffəq və müzəffər ola bilmək üçün elm və ürfan silahları ilə müsəlləh və mücəhhəz ola bilməlidir...

***

Elmin, hünərin, mərifətin varsa, buyur gəl!
Yoxsa bu həyat aləminə olma bir əngəl.
Ərbabi-kamalın yeridir bil ki, bu meydan,
Bədbəxt yaşayar torpağın üstündəki nadan.

*«Qabusnamə»dən:*

Sokrat demişdir: «Bilikdən daha zəngin xəzinə, pis xasiyyətdən daha rəzil düşmən ola bilməz, bilikdən daha böyük izzət, həyatdan daha qəşəng zinət ola bilməz».

*Misbah Yəzdi:*

Kamilliyə, inkişafa meyil insanın daxilində qoyulmuş böyük ilahi nemətdir. Bu meyil olmasaydı, insan yerindən tərpənməzdi, hərəkətsiz qalardı. İnsanı hərəkətə gətirən mühərrik məhz bu daxili istəkdir. Kainatı yaratmaqda Allahın məqsədi





budur ki, insan öz iradə və istəyi ilə kamilliyə ucalsın. Elə bu səbəbdən də insanın fitrətində belə bir meyil yerləşdirib.

*Dr. Aydın Topaloğlu:*

Elm hadisələri və dünyanın qaranlıq sirlərini aydınlaşdırır. Elmi işlərdən və kəşflərdən ən çox sevinən, inacsızlığın məhz cəhalətdən əmələ gəldiyini bildirən dindir. Çünki dinə görə, görünən və sınaqdan çıxarılan dünya, görünməyən və sınaqdan çıxarılmayan bir aləmin işarəçisidir. Bir sözlə, bütün elmi tədqiqatlar insanı daima Tanrıya aparacaq və onu xatırladacaqdır.

*Vasif:*

Elm ilə olar xəlqdən yüksək mədəniyyət,
Elm ilə tutar düz yolu insan əbədiyyət,
Elm ilə çatar məqsədinə, bil, bəşəriyyət,
Dünyanı tamamilə çırağban qələm eylər.

*Şahlar Əsgərov:*

Bilik – zaman və məkandan asılı olmayaraq, bəşəriyyətin tarix boyu topladığı elmi nəticələrin toplumudur.

***

Təhsil – milli və bəşəri, elm isə bəşəri və milli hadisədir. Təhsil ətalətli, elm dinamik sahədir. Təhsil gec qocalan, elm isə tez qocalan sahədir. Təhsildən fərqli olaraq elmin inkişaf modeli «estafet» modellidir. Təhsil elm üçün bünövrədir. Elm – haqqın, gerçəkliyin axtarılması yolunda alim fəaliyyətidir. Alim yüksək tərbiyə və mənəviyyatın daşıyıcısıdır.

*Qoşqar Əliyev:*

Elm – cəmiyyətin mənəvi-intellektual həyatında mühüm

sferadır. Bu gün elm ictimai şüur forması kimi bəşəriyyətin sosial-mədəni tərəqqisinin əsas mənbəyinə çevrilmişdir. İnsanlar elm sayəsində dünyanın, insan və cəmiyyətin dəqiq dərk olunması və mənimsənilməsinin ən səmərəli vasitələrini əldə etmişlər.

### *Azərbaycan atalar sözləri:*

Alimi gözdən salan, el-obasını da üzdən salar.
Alimin boş vaxtı olmaz, olsa da ondan alim olmaz.
Alim işlədikcə bar verər, işləmədikcə ar.
Alim inamlı olanda, kəşfi davamlı olar.
Alim odur ki, ömrü boyu öyrənsin.
Alimin əməli onun kamalındadır.
Alim elmə söykənər, cahil kinə.
Alimin kəşfi ağıllı mübahisədən doğar.
Alim biliklə, cahil kötəklə danışar.
Alim öldü ağlama, elmi öldü ağla.
Alim elmi yaşadar, elm alimi.

### *Ərəb atalar sözləri:*

Alimin paltarı olmasa da, elmi eybini də örtər.
Kitab sənə fayda verər, səndən bir şey aparmaz.
Bədənlərin qidası yemək, ağlın qidası elmdir.

### *Hikmətli kəlamlar:*

Çalışırsınızsa, bacaracaqsınız, oxuyursunuzsa, öyrənəcəksiniz.

***

Faydalı elm insanı yaxşı niyyətə və ixlasa qovuşdurar.

***

Elmin – dinin əsası gözəl dinləmə, yadda saxlama, əməl etmə və onu yaymadır.





Hörmətli oxucu! Qurani-Kərimin bəzi ayələrini, Ön və Orta Şərq alim və mütəfəkkirlərinin kəlamlarını araşdırdıqdan sonra belə bir nəticəyə gəlmək olar ki, elm zaman və məkan daxilində yerləşən şeylərin quruluşunu, hadisələrin başvermə xüsusiyyətləri və qanuna uyğunluqlarını tədqiq və təsdiq edən, insan ağlının, intellektinin məhsuludur. Dr. Aydın Topaloğlunun dediyi kimi, elm təcrübəyə əsaslanaraq ayrı-ayrı nümunələrdən hərəkətlə bir prinsipə doğru getməyə çalışır. Din isə istər fərdi, istərsə də ictimai baxımdan insana lazım olan əsas dəyərləri – inanc, əxlaq, davranış prinsiplərini və s. müəyyənləşdirir və varlığımızla əlaqədar olan bir dünyagörüşü təqdim edir. Beləliklə, istər din və istərsə də elm, inanc növündən (İudizm, Xristian, İslam və qeyriləri) asılı olmayaraq, insanın sahib olduğu ən əhəmiyyətli və müqəddəs dəyərlərdir. Bəşəriyyətin gələcəkdə fəlakətdən xilası, insanın mənəvi saflığı, yaşadığı Yer planetində ümumi və intellektual ekoloji qaydaların qorunması bu iki dəyərə hörmətlə yanaşılmasından asılıdır. Bu dəyərlərə əməl edilmədikdə insanın həyatında dəhşətli fəlakətlər baş verir.

İslam alimləri, dahilərin və mütəfəkkirlərinin kəlamlarından, apardığımız araşdırmalardan sonra qəti bir qərara gəlmək olar ki, elm və din istər məqsəd və istərsə də nəticə etibarilə bir-birini inkar etmir, əksinə, onların son nəticələri eynidir. Din kainatı Tanrının yaratdığını, kainatda müəyyən qanunların olduğunu, hər şeyin bir nizam-intizam içində baş verdiyini bildirir. Əvvəlki bölmələrdə sizə təqdim etdiyimiz faktlar sübut edir ki, Qurani-Kərimdə bəyan edilən bir çox qanunauyğunluqlar elmə 1400 il sonra məlum olmuşdur. Bu, danılmaz bir həqiqətdir. Qurani-Kərim ayələrində, hədis və kəlamlarda elm, bir qayda olaraq, təbliğ edilir, insanları Kainatın sirlərini öyrənməyə çağırır.

Bir sözlə, istər din (İslam) və istərsə də elm cəmiyyətin mənəvi-intellektual həyatında mühüm sferadır – hava və sudur. Din fəzilət və əmanətdir, elm-təhsil onun açarıdır.

# Tərbiyə cəmiyyətin həyat və inkişafı üçün əsas amildir

Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz.

*Məhəmməd peyğəmbər (s.).*

Sürüklənən bəşəriyyət qadınla yüksələcək.

*Hüseyn Cavid.*

Şərq xalqları tarixinin ən qədim qatlarından qadına kübar gözlə baxılıb. Ata-anaya məhəbbət bəsləmək Şərq əxlaqına xas olan əsas keyfiyyətlərdən biri olmuşdur. Böyüklərə və böyüklüyə sədaqət, insan mənəviyatının təkamülü uşaqların ailədə, ata-anadan aldığı tərbiyədən başlayır. Yaxşı tərbiyə nəinki ailənin, o cümlədən millətin, dövlətin, hətta bəşəriyyətin xoşbəxtliyi, pis tərbiyə isə fəlakətidir.

İnsan övladının tərbiyəsi dünyaya gəldiyi gündən başlamalıdır, sonradan gec olar. Həzrət Əli (ə.) övladı İmam Həsənə (ə.) buyurmuşdur: «Cavanın qəlbi xam torpaq kimidir: ona hər nə səpsən bitər. Buna görə də mən qəlbin daşlaşmamış, zehnin cürbəcür fikirlərə aludə olmamış sənin tərbiyənə təşəbbüs göstərdim...»

Həzrət Əli (ə.) deyir ki, hansı adamın oğlu olursan-ol, tərbiyə, ədəb öyrən. Bu gözəllik səni əsil-nəcabətə möhtac etməz.

İnsanlıq tərbiyə və ədəbdən ibarətdir. Bu, insan üçün ən böyük nəcabətdir. Qurani-Kərim başdan-başa bəşəriyyətə tərbiyə və ədəb haqqında öyüdlər verir. Hər ayə bir tərbiyə örnəyidir. Tanrının hər əmr və qadağasında bu tərbiyəni axtarmaq və asanca tapmaq mümkündür. Buna görə də bir çox Qərb şərqşünasları islamı tərbiyə, ədəb dini adlandırmışlar. İnsanın kamalı onun ədəb və tərbiyəsinin kamilliyidir. Bu baxımdan Məhəmməd peyğəmbər (s.) ədəb və əxlaqda ən uca insandır.

Dünya hər an dəyişməkdədir. Bəşər övladı həmişə tərəqqiyə can atmışdır. Tərəqqidən faydalanmayan tənəzzülə uğrayar. Həzrət Peyğəmbər (s.), Həzrət Əli (ə.), dahi mütəfəkkir və alimlər, filosoflar daima tərəqqini təbliğ etmiş, uşaqları yaşayacaqları zamana görə tərbiyə etməyi, elm, irfan və sənət baxımından hər övladın atasını ötüb keçməsini buyurmuşlar.





Deməli, uşağın yaxşı tərbiyəsi vacibdir. Müsəlman ilahiyyatçısı, sufizmin nümayəndəsi Qəzalinin dediyi kimi: «Uşaq yumşaq bir mumdur, onu öyrədənin əlində formaya düşür». Uşağa yaxşı bir «forma vermək» ana və atanın üzərinə düşən ən müqəddəs bir vəzifədir. Əks halda durğunluq və geriləmə cəmiyyəti sona, məhv olmağa gətirib çıxarar. Bu baxımdan uşaqlarını gələcək zamanın ehtiyacına görə tərbiyə edib hazırlamayan atalar cəmiyyətin ən böyük xəyanətçisidir.

Beləliklə, insanın tərbiyəsi onun böyüdüyü şəraitdən, ailədən, mühitdən və ən çox onun iradəsindən asılıdır. Əsl-nəcabətin də rolu az deyildir. Uşağın tərbiyəsi ilə az məşğul olan valideyn və müəllimlər onda kamilliyə və bütün insani sifətlərə maraq oyatmalıdır. Allah-Təala da bu yola meyli olanları hidayət edər. Qurani-Kərimdə buyurulur: «(Ya Rəsulum!) Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri (öz əzəli elmi ilə) daha yaxşı O bilir!» (əl-Qəsəs surəsi, ayə 56)

Hansı mövzuya müraciət edirsənsə, yenə mənfur qonşumuz erməniləri yada salmamaq mümkün olmur. Erməni ailəsində doğulan uşaqların valideynləri ilk gündən onların beyinlərinə yeridirlər ki, türk sənin əbədi düşməynindir, onlara nifrət etməlisən, imkan düşəndə, məhv etməlisən. Əlbəttə, belə uşaqlar da gələcəkdə terrorist, neofaşist, nasist kimi yetişir, istər-istəməz erməni xəstəliyinə yoluxurlar. Bax, budur mənəviyyatsız tərbiyənin nəticələri...

Qurani-Kərimdə buyurulur: «Onlar kar, lal və kordurlar (haqqı eşitməz, danışmaz və görməzlər). Buna görə də (öz pis adətlərindən, yaramaz əməllərindən) dönməzlər.» (əl-Bəqərə surəsi, ayə 18)

Mətləbdən bir qədər uzaqlaşdıq. Ailədə uşaqların tərbiyə-

sində ən «kiçik» günah belə diqqətdən yayınmamalı, öz vaxtında qarşısı alınmalıdır. Unutmaq olmaz ki, həyatda kiçik günah yoxdur, onun böyüyü də, kiçiyi də günah adlanır. Böyük günahlar kiçik günahlardan başlayır. İnsan özü bilmədən adətkar olur. Çox günahların əzabını sonra həm ata-ana və həm də uşaq özü çəkir. Ən böyük günah dil günahı və ondan törəyən bəlalardır. Belə günahlar mənfi intellektual ekologiyanın inkişaf səbəbidir.

Uşaq ailədən başlayaraq elə tərbiyə edilməlidir ki, gələcəkdə «mərifətli» tituluna sahib ola bilsin. Mərifət – qəlbdə doğan bir nurdur. İnsan mərifətə ağıl, təhsil, gözəl əxlaq, zəhmət nəticəsində nail olar. Mərifət elə bir əxlaqi keyfiyyətdir ki, onu yalnız ətrafdakılar hiss edər və deyərlər: «Mərifətli insandır». Bu adı qazanan şəxs həyatda ən xoşbəxt insan sayıla bilər. Məhz belə insanlar müsbət intellektual sferanın yaranmasında yaxından iştirak edərlər.

«İnsan Allahın məbədidir» kəlamı İsa peyğəmbərə (ə.) aiddir. Deməli, fərdlərdən təşəkkül tapan cəmiyyət də canlı orqanizm kimi Rəbbin məbədidir. Bu məbədin bütün əza və üzvləri eyni dərəcədə mühüm və əhəmiyyətlidir.

Deyilənlərdən bir daha aydın olur ki, bəşər övladının ilk tərbiyəsi ailədə valideynlər tərəfindən başlayır. Valideyn övladını elə tərbiyə etməlidir ki, gələcəkdə həyata atılan insan keçən günlər üçün heyifsilənməsin.

Dahi italyan rəssamı, alim və filosof Leonardo da Vinçi demişdir: «Həyatı qiymətləndirməyən adam yaşamağa layiq deyil.» Qədim yunan filosofu Demokrit isə həyatı belə qiymətləndirmişdir: «Pis, ağılsız ömür sürmək yaşamaq deyil, tədricən ölməkdir.»

Həyat dediyiniz o gözəl məna,
Tale dediyiniz müqəddəs dünya,
Yaranır insanın arzularından,
Hər təmiz vicdanın ilk baharından.

***Səməd Vurğun.***





İnsanın bir vətəndaş kimi formalaşmasında, əlbəttə ki, məktəbin, müəllim tərbiyəsinin rolu danılmazdır. Qədim Şərqdə həmişə müəllimə böyük qiymət verilmişdir.

Pədərin bir mənəm, bir ustadın,
Cəhd qıl yaxşı çıxmağa adın.

***Seyid Əzim Şirvani.***

Tanrının haqqı, valideynlərin haqqı və müəllimin haqqı həmişə müqəddəs olmuşdur. Ana haqqı isə ən qədimdən daha müqəddəs olmuşdur. Bəzi başqa etiqadlardan fərqli olaraq islam dini həm oğlan, həm də qız uşağının dünyaya günahkar olaraq deyil, tər-təmiz gəldiyini elan etdi. Qeyd etdiyimiz kimi uca Allahın sözlərindən ibarət olan Quranda ən böyük surələrdən birinin adı «qadınlar» mənasına gələn «Nisa», başqa bir surə isə Həzrət İsanın (ə.) anasının adı ilə «Məryəm» adlandırılmışdır.

Ana insan mənəviyyatının tərbiyə edilməsində əsas bünövrədir. Qızların tərbiyəsi çox mühüm məsələdir. Çünki millətin gələcəyi anaların əlindədir (Balzak). İlk olaraq ana tərbiyəsi sayəsində insan özünü, millətini tanıyır. Bu, çox vacib məsələdir, insan məsləklə yaşamalıdır. N.Nərimanov demişkən: «Bir millətə məxsus məslək ümumideal üçün bir yoldur. Məsələn, ümumideala çatmaq üçün, yəni insaniyyətə xidmət etmək üçün, millətə lazımdır özünü tanısın. Bir millət özünü tanımaz isə, özü ilə qeyrisinin fərqini düşünməyə qadir olmaz isə, xüsusi məsləkin dalınca yeriş edə bilməz. Bu yolda yeriş etməz isə, ümummüqəddəs məslək nə olmadığını da düşünməz.

İndi biz İslama qulluq edən bir çox tayfalardan biriyik: məlum bir qanun altında yaşayıb, özümüzə türk deyib də xüsusi bir məslək dalınca getməliyikmi? Getməliyik desəniz, özümüzü gərəkdir tanıyaq. Fəqət tanımaq üçün nə lazımdır? Milli dil, milli məktəb, milli mətbuat və qeyri-qeyri şeylər, deyilmi?»

İnsanın özünü tanımaqda yol göstərəni mütləq millətin ziyalısı olmalıdır. Ziyalı millətin beynidir.

Əgər bir müəllim olsa bədəsil,
Yetişdirə bilməz bəxtiyar nəsil.

*Sədi Şirazi.*

Bəli, bütün bu deyilənlər insan intellektinin inkişafında, müsbət intellektual ekologiyanın yaranmasında ziyalıların rolunun danılmaz oldğunu bir daha sübut edir.

İndi isə Qurani-Kərimə və Şərqin dahilərinin hikmətli kəlamlarına müraciət edək:

***Qurani-Kərimdə buyurulur:***

(O zaman) Zəkəriyya Rəbbinə dua edərək dedi: «Ey Rəbbim! Mənə də Öz tərəfindən pak bir övlad bəxş et! Sən həqiqətən duaları eşidənsən!»

***Ali-İmran surəsi, ayə 38.***

...Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin... Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeyə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun.

***ən-Nisa surəsi, ayə 19.***

Biz insana ata-anasına yaxşılıq etməyi (...) tövsiyə etdik. Çünki anası onu (doqquz ay bətnində) zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onun (ana bətnində) daşınma və (süddən) kəsilmə müddəti otuz aydır. Nəhayət, (insan) kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: «Ey Rəbbim! Mənə həm mənim özümə, həm də ata-anama əta etdiyin nemətə şükür etmək və Sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi əməlisaleh et...»

***əl-Əhqaf surəsi, ayə 15.***





Biz insana ata-anasına yaxşılıq etməyi (onlarla gözəl davranmağı) tövsiyə etdik. (Ey insan!) Əgər (valideynlərin) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, onlara itaət etmə.

***əl-Ənkəbut surəsi, ayə 8.***

Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır.

***ər-Rum surəsi, ayə 21.***

Xeyr, bu (Quran) bir öyüd-nəsihətdir. İstəyənlər ondan öyüd alar.

***əl-Muddəssir surəsi, ayə 54-55.***

***Məhəmməd peyğəmbərdən (s.):***

Bir nəfər Rəsulallahın (s.) yanına gəlib soruşdu: «Ya Peyğəmbər, mən kimə daha çox yaxşılıq etməliyəm?» Cavab verdi: «Anana». O adam soruşdu: «Sonra kimə?» Peyğəmbər (s.) buyurdu: «Anana». Həmin adam yenə soruşdu: «Sonra kimə?» Peyğəmbər (s.) yenə: «Anana» – dedi. O adam bir də: «Bəs sonra kimə» – soruşduqda, Rəsul-əkrəm (s.) buyurdu: «Sonra atana».

Bir nəfər rəsulallahın (s.) yanına gəlib dedi: «Mən cihad etmək istəyirəm, amma buna gücüm çatmayır». Peyğəmbər (s.) soruşdu: «Valideynlərindən sağ olan varmı?» O adam: «Anam var» dedi. Peyğəmbər (s.) həzrətləri buyurdu: «Onun qulluğunda durmaqla Allahın hüzuruna yetiş. Bunu etsən həm həcc və ümrə ziyarəti, həm də cihad etmiş olarsan.

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz.

***

Allahın rizası (razılığı) valideynin rizasıyla, Allahın qəzəbi də valideynin qəzəbiylədir.

***

Ataya itaət Allaha itaət, ataya üsyan Allaha qarşı üsyan deməkdir.

***

Üç duanın qəbul olunacağına şübhə yoxdur: məzlumun duası, qonağın duası və ata-ananın övladına etdiyi dua.

***

Ata-ananıza ehtiram edin ki, övladlarınız da sizə hörmət qoysunlar. Həyalı və namuslu olun ki, qadınlarınız da həyalı və namuslu olsunlar.

***

Allah-Təala rəhmət etsin o ata-anaya ki, övladlarının inamlı, əxlaqlı, xoşbəxt olmaları üçün çalışır.

***

Ana ilə balanın, iki qardaşın, (bacının, dostların, hər bir şəxs ilə olur-olsun) aralarında olan mehribançılığı, onları bir-birindən ayıran şəxslərə Allah lənət etsin.

***

Öz valideynlərinizə yaxşılıq edin ki, öz övladlarınız da sizə yaxşılıq etsinlər. Bir də ev və ailə işlərində güzəştiniz olsun ki, həyat yoldaşlarınız da sizə güzəşt etsinlər.

***İmam Səccad (ə.) buyurmuşdur:***

Ananın sənin boynundakı haqqı budur, biləsən ki, o, səni elə bir müddətdə və elə bir yerdə – öz bətnində saxlamışdır ki, heç kəs sənə qarşı bu işi görməzdi. Anan səni öz qəlbinin meyvəsi ilə qidalandırmışdır, halbuki, başqaları bu işi görməzdi. O,





səni bütün var-qüvvəsi və bütün vücudu – qulağı, gözü, əli, ayağı və s. ilə qoruyub saxlamışdır.

***

Atan barədə bilməlisən ki, o, sənin vücudunun başlanğıcı və əslidir. Sən isə onun budaqlarısan. Əgər o olmasaydı, sən də olmazdın. Sənin vücuda gəlməyin ona bağlıdı.

***Nizami Gəncəvi kəlamlarından:***

İnsan bu dünyada daimi yaşar,
Yurdunda bir övlad qalsa yadigar.

Oğul, sözlərimə yaxşı qulaq as,
Ata nəsihəti faydasız olmaz...
Gecəni, gündüzü gəl vermə bada,
Yaxşı ad uğrunda çalış dünyada.

Ey oğul, ayıq ol, kamalla yaşa,
Vurma əyləncəylə ömrünü başa...

Dünyada ataya varmıdır, gerçək,
Ağıllı oğuldan başqa bir istək.

***Məhsəti Gəncəvi:***

Ana məhəbbəti bütün hisslərdən və dünya nemətlərindən ən ucasıdır.

***Sədi Şirazi hikmətləri:***

Kiçik ikən hər uşaq edilməzsə tərbiyət,
Böyüyəndə görünməz onda ədəb, nəzakət.
Yaş çubuğu istəsən hər bir şəklə salarsan,
Od qurudub düzəldər o çubuğu nəhayət.

***

İllər keçir, lakin güzər etmirsən,
Öz atanın məzarına heç zaman.
Sən atana nə hörmətlər etdin ki,
O hörməti gözləyirsən oğlundan.
***
...İstəsən ki, adın yaxşı çəkilsin,
Oğluna elm öyrət, hər şeyi bilsin.
Olmasa oğlunun əgər kamalı,
Korlayar qoyduğun dövləti, malı.
Oğlunu bolluğa öyrətsə ata,
Dözməz bir an belə çətin həyata.
Qoy oğlun öyrənsin hər bir zəhmətə,
Yaxşı yiyələnsin elmə, sənətə...
Övlada yaxşıca tərbiyə versən,
Asılı qalmaz o, bir ayrı kəsdən...

*Əvhədi Marağayi Rüknəddin:*

Ey oğul, bu yolu asta get görək,
Qoy iti gedərək qızmasın ürək...
Nəfsin şulux etsə, cəza ver ona,
O cəhl qılıncıdır, qoy onu qına...
Çox ata hünərə sahib olsa da,
Pis övlad ömrünü tez verir bada...
Yüksək bir ad üçün çalış hər zaman,
Hamıya xoş gələn bir sifət qazan...
Nadanlıq camından məst olma gəl sən,
Yoxsa birdəfəlik əldən gedərsən...
Mey içib ağlını gəl vermə yelə,
Özünü özgəyə tapşırma belə...
***
Qadına əsas şey həya, ismətdir,
Bunlar qadın üçün böyük sərvətdir.





***
Oğluna pis deyib, söymə dünyada,
Onda söyüş söyən olacaq o da...
Nazla böyüməsin qoy çox da övlad,
Onu iş-gücdən də eyləmə azad.
Sonra çətinliyə düşərsə əgər,
Bu möhnət, bədbəxtlik onu məhv edər.

*Nəsirəddin Tusi:*

Uşağı körpəlikdən tərbiyə etmək lazımdır. Sonra dərs öyrətməyə, təlimə başlarlar, hikmətli kəlamlar, tərbiyəvi şeirlər əzbərlədərlər ki, öyrənmək istədikləri şeylər yadında qalsın, mənasını unutmasın.

***

İlk növbədə uşağın təbiətinə, nəyə qadir olduğuna nəzər yetirmək, ağıl, fərasətinə fikir vermək, müşahidə nəticəsində onun fitrətində hansı sənətə və elmə meyil olduğunu müəyyənləşdirmək, sonra isə haman işlə də məşğul etdirmək vacibdir.

***

Kimin nəyə qabiliyyəti varsa, onunla məşğul olsa, tez nəticə verər, böyük sənətkar olar, əks təqdirdə, zəhmət hədər gedər, ömür puç olar.

*Mövlana:*

Mənə əhli ilə otur-qalx ki, onlardan həm lütflər, ehsanlar əldə et, həm də mənəvi güc qazan, ilahi məhəbbətlə gənc, canlı və dinc qalasan.

*Mirzə Ələkbər Sabir:*

Həqiqi ananın ən şərəfli bəzəyi ədəbli, tərbiyəli çocuqdur.

***

Ataya hörmət etməyən çocuğun,
Anaya hörmət etməyən çocuğun,
Nə olur kəndi nəfsinə xeyri?
Nə də ondan vəfa görər qeyri!

***Yusif Vəzir Çəmənzəminli:***

Ev bir məmləkətə bənzəyir, evdar qadın da onun padşahına.

***

Ana nikbindir, əqidəli, həyatpərvər və dünya tərəfdarıdır.

***

Analar böyük vəzifələrini ifa etdikdə heç bir əvəz almaq fikrində olmurlar.

***Məhəmməd Hadi:***

Ey qadın, mənbəyi-nəzakətsən,
Sən təcəssüm edən lətafətsən.

Əməl səndən, oğul, məndən nəsihət,
Edər bədbəxt insanı ətalət.

Ana bir bağ, çiçək açaq qucağı,
Canlı güllər yaşar o cənnətdə.

***

Ailə tərbiyəsi və səhhəti-bədən, vücud sağlamlığı həyatı – bəşəriyyətin ən mühüm əsasını təşkil edir.

***

Qadın günəş, çocuq ay, nuru ay günəşdən alır,
Qadınsız ölkə çavuq məhv olur, zavallı qalır.





***Məhəmmədhüseyn Şəhriyar:***

Mən onun sayəsində boya-başa çatmışam,
Anam məni yaratmış, mən aləm yaratmışam.

***

Bir şairə döndərən, bir məşələ döndərən,
Anam oldu! Anamdır mənə hər şeyi verən!
O, mənim məbədimdir, ölməzdir, əbədidir!

***Üzeyir Hacıbəyli:***

Uşağı bütə döndərmək olmaz, böyüdükdən sonra o, qurbanlar tələb edər.

***Məmməd Səid Ordubadi:***

Ana! Hələ dünyada sənin müqəddəsliyini təyin edə biləcək heç bir ölçü yoxdur, hələ sənin əzəmətini təsvir edə biləcək heç bir kitab yazılmamışdır.

***Cəfər Cabbarlı:***

Cəmiyyət qadınsız çürüdüyü kimi, qadın da cəmiyyətsiz çürüyər.

***

Ana! Ana! O adın qarşısında bir qultək
Həmişə səcdədə olmaq mənə fəxarətdir;
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm, bəzmi-istirahətdir.

N.Nərimanovun oğlu Nəcəfə məktubundan: «Əzizim Nəcəf! Vəzifə – mənsəb dalınca qaçma, çünki o, insanı korlayır. Əgər bir adamı yaxşı tanımaq, onun bütün daxili aləminə bələd olmaz istəyirsənsə, onu bir müddətə vəzifə başına qoy. Tezliklə həmin adamın müsbət və mənfi cəhətləri üzə çıxacaq.

Bu baxımdan əgər sən kütlələri hiyləsiz-yalansız öz arxanca aparmağa hazır deyilsənsə, yaxşısı budur, ondan imtina edəsən...»

*Səməd Vurğun:*

Bu qoca dünyada bir adət də var,
Qadın olan yerdə ədalət də var.
***
Ananın qəlbinə toxunmaq olmaz,
Ana nəfəsində çiçək də solmaz.
İnsanlıq süd əmmiş ana döşündən,
Soyuq bir məzardır anasız Vətən.
***
Adın şərəflidir sənin, ey qadın,
Dahilər anası çağrılır adın.

*Süleyman Rüstəm:*

**Duz-çörəyi itirmə**

İnsanın şərəfi, bəzəyi, məncə,
Deyildir nə ipək, nə tirmə, oğlum.
Yaxşıdan yaxşı ol ellər içində,
Dostuna bir ziyan yetirmə, oğlum.

Yersiz gülümsəmə, yersiz ağlama,
Bir könül də qırma, sinə dağlama.
Sirrini ellərdən gizli saxlama,
Dilinə yalan söz gətirmə, oğlum.

Yel qanadlı illər ömürdən gedir,
İnsan zəhmətilə kamala yetir.
Bağında nərgizlər, lalələr bitir,
Tikanlar, qandallar bitirmə, oğlum.





Ürəyim arzuyla doludur, dolu,
Hünər meydanıdır bu həyat yolu.
Bilmədiyin işi gözü yumulu
Söz verib öhdənə götürmə, oğlum.

Oxu öyüdümü sən sətir-sətir,
Dilindən məclisə səpilsin ətir.

Qazancını itir, malını itir,
Ancaq duz-çörəyi itirmə, oğlum.

*Nigar Rəfibəyli:*

Analıq bir şərəfdir insanlığa...
Dünyada bir səs varmı,
Ana səsi qədər doğma, mehriban?..
İlk laylanı dinləmişik,
İlk şəfəqi görmüşük analardan.

*Bəxtiyar Vahabzadə:*

İstərəm bir «ana», bir «bala» sözü,
Lüğətdə sözlərin önündə gedə.
Uca olduğundan ananın özü,
Ucadır, böyükdür hədiyyəsi də.

*Sabir Rüstəmxanlı:*

Təbiət azərbaycanlı anaların ən savadsızına da qeyri-adi bir müdriklik, daxili mədəniyyət və dünyalarla dözüm verib. Daş-qaya səbri var analarda. Biz kişilərin bacaracağı iş deyil bu!

*Şahlar Əsgərov:*

Ana hər ailənin ürəyi, beyni, dayaq nöqtəsidir. Ailədə anaların yeri necədirsə, xalqın mənəvi həyatında da elədir. Yəni ana azərbaycanlının Tanrısıdır. «Ana haqqı, Tanrı haqqı!» Bu, min illəri aşıb gələn bir inamdır.

*«Kəlilə və Dimnə»dən:*

Arvadın hörməti ərinə görə, oğlun izzəti atasına görə, şagirdin biliyi müəlliminə görə, ordunun gücü sərkərdəsinə görə müəyyən edilir.

*«Qabusnamə»dən:*

Ana və ataya ən azı ona görə hörmət etmək lazımdır ki, onların hər ikisi səninlə Yaradan arasında vasitədir.

*Hikmətli kəlamlar:*

Deyirlər, ana ömrünü yaşamaq, onun iztirablarına qatlanmaq üçün gərək ana olasan. Çünki qadın ana olandan sonra analıq hissini daha güclü dərk edir.

***

Ailədə uşaq genetik amillərin gücündən asılı olaraq ya ataya, ya da anaya oxşayır. Sonralar ailədən, sosial və ictimai quruluşdan asılı olaraq insan mənəviyyatı formalaşır və gələcəkdə intellektual ekologiyanın formalaşmasına təkan verir. Məhz bu cəhətdən də istər din alimləri, istərsə də dahi insanlar övladlarına, daha doğrusu, bəşərin yetişməkdə olan nəslinə nəsihət tərzində müraciət etmişlər (kitabın əvvəlində bu barədə məlumat vermişik).

Əziz oxucu, bu ənənə, hətta Qurani-Kərimdə də öz əksini tapmışdır. Fikrimizin əyani olması üçün Qurani-Kərimin





«Loğman» surəsinə müraciət edək və bununla da bu bölməni yekunlaşdıraq: «(Ya Rəsulum!) Yadında olsun ki, bir zaman Loğman oz oğluna nəsihət edərək belə demişdi: «Oğlum! Allaha şərik qoşma. Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür! (Ağır günahdır!)» Biz insana ata-anasına yaxşılıq etməyi (valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı) tövsiyə etdik. Anası onu (bətnində) çox zəif bir halda daşımışdı. Uşağın (süddən) kəsilməsi isə iki il ərzində olur. (Biz insana buyurduq:) «Mənə və ata-anana şükr et. Axır dönüş Mənədir!» Əgər (ata-anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, (bu işdə) onlara itaət etmə. (Qalan) dünya işlərində onlarla gözəl keçin (onlara itaət et). Tövbə edib Mənə tərəf dönənlərin (İslamı qəbul edənlərin) yolunu tut. Sonra (qiyamət günü) Mənim hüzuruma qayıdacaqsınız. Mən də (dünyada) nə etdiklərinizi (bir-bir) sizə xəbər verəcəyəm!» (Loğman öyüd-nəsihətinə davam edərək) dedi: «Oğlum, (dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın (daşın) içində, yaxud göylərdə və ya Yerin təkində olsa da, Allah onu (qiyamət günü) ortaya gətirər (onun haqq-hesabını çəkər). Həqiqətən, Allah lətifdir (bütün incə, nazik işləri biləndir, lütfkardır), (hər şeydən) xəbərdardır! Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir! Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz! Yerişində müvazinət gözlə (nə çox yeyin, nə də çox asta get) və (danışanda) səsini qaldırma. Çünki ən çirkin səs uzunqulaq səsidir!» (ayə 13-19)

# İslamda ailə həyatı, qadın və kişi münasibətləri[1]

...İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram. Siz (hamınız) bir-birinizdənsiniz (dində kişi, qadın eynidir).

*Qurani Kərim, Ali-İmran surəsi, ayə 195.*

Ən xeyirliniz xanımlarına qarşı ən xeyirli olandır. Mən, xanımlarına qarşı sizin ən yaxşınızam.

*Məhəmməd peyğəmbər (s.).*

Bundan əvvəlki bölmədə övladların ata-anaya olan məhəbbəti, onların ailədə aldıqları tərbiyənin cəmiyyətdə rolu haqda söhbət açdıq. Bütün bunlar ailədə formalaşır. Məlumdur ki, ailə cəmiyyətin əsasıdır. İctimai qurum ailə üzərində təşkil olunur. Bu əsas nə qədər möhkəm olarsa, üzərindəki qurum da bir o qədər davamlı olar. Əvvəlki bölmədə qeyd etdiyimiz kimi, ailə ilk tərbiyə ocağıdır. Düzgün tərbiyə cəmiyyətin müsbət intellektual ekologiya mənbəyidir. Əgər ailədə düzgün tərbiyə olmazsa, mənfi intellektual ekologiyanın başlanğıcının bünövrəsi qoyulmuş olur. Belə ailələrin çoxluğu cəmiyyəti tənəzzülə, cəhalətə, qanun pozuntularına, tənbəlliyə, kasıblığa, oğurluğa, cinayətə və s. yönəldəcəkdir.

Şübhəsiz ki, ailə tərbiyəsinin bünövrəsi, ilk öncə ər-arvad münasibətlərinin əsasında qoyulur və bu da gələcək nəslin inkişafına təsir edən əsas amillərdən biridir. Bəs ailədə qadın-kişi

[1] Hörmətli oxucu, bu bölmədə əvvəlki fəsillərdə verilən bəzi ifadələr, kəlamlar bilərəkdən təkrarlanır. Buna səbəb həmin ifadələrin təkrarına ehtiyac olduğundandır.





münasibətləri necə olmalıdır?

Ailənin böyük üzvlərinin və ailə həyat tərzinin uşağa müntəzəm, məqsədəuyğun təsiri ailə tərbiyəsini formalaşdırır. Ailə tərbiyəsinin əsas və ümumi vəzifəsi uşaqları mövcud ictimai şəraitdə həyata hazırlamaq, daha məhdud və konkret vəzifəsi isə onlara ailə şəraitində şəxsiyyətin normal şəkildə formalaşması üçün zəruri olan bilik, bacarıq və vərdişlər aşılamasıdır. Ailə tərbiyəsi ictimai-iqtisadi quruluş, mədəniyyətin inkişaf səviyyəsi və ər-arvadın qarşılıqlı münasibət ilə sıx əlaqədardır. Bütün bunlarla bərabər, inancın, ailədə müsbət intellektual ekoloji faktorlar tarazlığının sabitliyi də əsas amillərdən biridir.

Qeyd etmək lazımdır ki, sabit ictimai birlik kimi, ailə Neolit dövrünün axırlarında qəbilə quruluşunun dağılması, xüsusi mülkiyyətin, izafi məhsulun və siniflərin meydana gəlməsi ilə yaranmışdır. Hər bir ictimai formasiya, inanclar ailəyə, ər-arvad münasibətlərinə təsir etmiş, əksər hallarda qadın hüquqları məhdudlaşdırılmış, çox hallarda qadınlara qul münasibəti tətbiq edilmişdir.

«Dünya dinlərinin, xüsusilə xristianlığın yayılması ailəni möhkəmləndirən ideoloji əlaqələri qüvvətləndirdi. Kişinin zorakılığı müqəddəsləşdirildi, qadının itaətkarlığı və fədakarlığı yüksək ləyaqət səviyyəsinə qaldırıldı. İqtisadi qayğılardan azad hakim sinif elə mənəvi və əxlaqi inkişaf mərhələsinə çatdı ki, bununla da «qadına alicənab münasibət» və «alicənab məhəbbət» yarandı. Lakin xüsusi mülkiyyət ailə-nikah münasibətlərinin əsası olaraq qaldığına görə, bu münasibət və sevgi nikaha əsaslanmır, onun antipodları kimi təzahür edirdi.» (ASE, 1-ci c., s. 187)

Apardığımız araşdırmalar göstərir ki, yalnız İslam dini qadını kişi ilə bərabərləşdirmiş, onun hüquqlarını bərqərar etmiş, bəzi hallarda onu müqəddəsləşdirmişdir.

Yalnız onu demək kifayətdir ki, Qurani-Kərimin iki ən böyük surəsi: ən-Nisa surəsi 176 ayədən, Məryəm surəsi isə 98 ayədən ibarətdir. Və yaxud, Məhəmməd peyğəmbərin (s.)

«Cənnət anaların ayaqları altındadır.» – kəlamı, Qurani-Kərimdə eyni bərabərdə 23 dəfə kişiyə və qadına müraciət edilməsi bütün bunlar əyani sübutlardır. Bir faktı nəzərinizə çatdırmaq istərdik. Elşad Nurinin BMT-nin Əhali Fondunun dəstəyi ilə hazırladığı «İslamda qadın-kişi bərabərliyi» (Bakı, 2006), «İslamda qadının ictimai həyatdakı rolu» (Bakı, 2006), «İslam dini zorakılığı qadağan edir» (Bakı, 2006) materiallarında qeyd edilir: «Birləşmiş Millətlər Təşkilatının (BMT) «Qadınlara qarşı ayrı- seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» Beynəlxalq Konvensiyanın (CEDAW) maddələrinin islamın əsas prinsipləri ilə üst-üstə düşdüyü dediklərimizi bir daha sübut edir.

Əgər biz Həzrət Məhəmmədin (s.) dövründəki qadınların vəziyyətini, İslamdan sonra onlara verilən hüquqları düzgün qiymətləndirə bilsək, qadınlara 1400 il əvvəl verilən dəyərin nə dərəcədə əhəmiyyətli olduğunu dərk edə bilərik.

İslam dini ailə ocağının təşkilini tövsiyə edir və tənhalıqdan çəkindirir. Ailə qurmaq sakitlik, paklıq kimi tanıtdırılır. Ailə qurmaqdan imtina insanın səadəti üçün təhlükəli sayılır. İslam ən yaxşı bağlılıq evlənməni, ən pis ayrılıq boşanmanı hesab edir. Ailə qurmaq nəslin davamı, ictimai tarazlıq, nəfs istəklərinin təminindən əlavə bir məqsəd, ünsiyyət və ülfətdir. Qurani-Kərimin ər-Rum surəsinin 21-ci ayəsində buyurulur: «Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!»

Allah-Təala öz zikrini və yuxunu sakitlik səbəbi bildiyi kimi, ailə və həyat yoldaşını da sıxıntıların əlacı kimi təqdim edir. Müsbət intellektual ekologiya hökm sürən mehriban ailədə çox iztirabların qarşısı alınır və bu da uşaqların mənəvi yetkinliyinə təsir edir. Şübhəsizdir ki, bu əxlaqi keyfiyyətlər cəmiyyətdə nizam-intizamın bərqərar olmasına səbəb olur. Dahi Attila dediyi kimi, intizam əxlaqdan yaranır.

Əziz oxucu! Qadın-kişi bərabərliyi, qadının ailədə və icti-





mai həyatda, gələcək nəslin mənəvi tərbiyəsində, bəşərin intellektual ekoloji tarazlığının bərpasındakı rolunu araşdırmaq çox müqəddəs, məsuliyyətli və geniş mövzudur. Bu məsələnin tarixi qədim köklərə malikdir. Məsələyə bir qədər də obyektiv yanaşsaq, bu köklər Adəmin (ə.) Həvva anamızla olan münasibətlərindən başlayır desək, məncə səhv etmərik.

«Ey insanlar! Sizi tək bir kəsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!..» (ən-Nisa surəsi, ayə 1.)

İnsan yarandığı və «nəfs» deyilən bir bəlaya düçar olduğu gündən bunlar özünü büruzə vermişdir. Qurani-Kərimdə bu haqlar ən xırda incəliklərinə qədər təhlil edilmiş, hər bir fərdin öz haqq və vəzifələri tam göstərilmişdir, necə deyərlər, ədalətlə.

Hörmətli oxucu! Bu müqəddəs vəzifələrin əyani nümayişi üçün Qurani-Kərimə və kəlamlara, islamşünas alimlərin araşdırmalarına müraciət edək.

***Qurani-Kərimdə buyurulur:***

...Onlar sizin, siz də onların libasısınız (bir-birinizə həddindən artıq yaxınsınız).

***əl-Bəqərə surəsi, ayə 187.***

Qadına verilən mehrlə kişi ailə həyatının başlanğıcında qadının mülkiyyət haqqını tanıdığını göstərir. Hətta boşanma nəticəsində də kişinin qadına verdiyi mehri tələb etməyə ixtiyarı yoxdur. Qurani-Kərimdə buyurulur: «Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan birinə (birinciyə) çoxlu mal vermiş olsanız da, onlardan heç bir şey geri almayın! Məgər bu malı böhtan atmaq və aşkar bir günah iş görməklə cərimi alacaqsınız?»

(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif (vasitəçi) təyin edib, (onların

yanına) göndərin. Əgər onlar (bu iki vasitəçi, ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların köməyi olar. Həqiqətən, Allah hər şeyi biləndir, (hər şeydən) xəbərdardır.

Əgər bir qadın öz ərinin qaba rəftarından, yaxud ondan üz çevirməsindən qorxarsa, onların öz aralarında bir növ barışıb düzəlişmələrindən (ər-arvada) heç bir günah gəlməz. Çünki barışmaq daha xeyirlidir. Ancaq nəfslərdə xəsislik (qısqanclıq) həmişə mövcuddur. Əgər siz yaxşı dolanıb (dava-dalaşdan, kobud rəftardan) çəkinsəniz (bu sizin üçün daha yaxşı olar). Şübhəsiz ki, Allah etdiyiniz hər bir işdən xəbərdardır!

*ən-Nisa surəsi, ayə 20, 35,128.*

(Ya Peyğəmbər!) Övrətləri boşadığınız zaman onları gözləmə müddətlərində (heyzdən pak olduqdan sonra) boşayın. Gözləmə müddətini (iddəti) sayın. Rəbbiniz olan Allahdan qorxun. Onları açıq-aşkar bir pis iş (zina) etməyənə qədər (gözləmə müddəti qurtarmamış) yaşadıqları evlərdən çıxarmayın və onlar özləri də çıxmasınlar. Bu, Allahın hədləridir (hökmləridir). Allahın müəyyən etdiyi hədləri aşan kimsə özünə zülm etmiş olar. Nə bilirsən, ola bilsin ki, Allah bundan sonra bir iş icad etsin (ərin ürəyinə yenidən zövcəsinə məhəbbətini salsın və onlar barışsınlar).

*ət-Talaq surəsi, ayə 1.*

Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (hayandırlar). Onlar (insanlara) yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allaha və Peyğəmbərinə itaət edərlər. Allah, əlbəttə ki, onlara rəhm edəcəkdir. Allah, həqiqətən, yenilməz qüvvət sahibi, hikmət sahibidir!

*ət-Tovbə surəsi, ayə 71.*

Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Və ya





gördükləri yaxşı işlərin müqabilində onlara daha yaxşı mükafatlarını verəcəyik)!

*ən-Nəhl surəsi, ayə 97.*

Mömin olmaqla bərabər, yaxşı işlər görən kişilər və ya qadınlar Cənnətə daxil olarlar. Onlara xurma çərdəyi qədər haqsızlıq edilməz.

*ən-Nisa surəsi, ayə 124.*

Hər kəs bir pislik etsə, o ancaq pisliyi qədər cəza alar. Amma hər kişi, yaxud qadın mömin ikən bir yaxşılıq etsə, beləları Cənnətə daxil olub saysız-hesabsız ruziyə çatar.

*əl-Mumin surəsi, ayə 40.*

Allah münafiq kişiləri və qadınları, müşrik kişiləri və qadınları əzaba uğratsın, mömin kişilərin və qadınların da tövbələrini qəbul buyursun deyə (əmanəti öz razılığı ilə Adəm övadına tapşırdı). Allah (möminləri) bağışlayandır, rəhm edəndir!

*əl-Əhzab surəsi, ayə 73.*

Sizi tək bir nəfərdən (Adəmdən) xəlq edən və onunla ünsiyyət etmək (sakit, rahat olmaq) üçün özündən (qabırğasından) zövcəsini (Həvvanı) yaradan Odur. (Adəm) zövcəsi ilə yaxınlıq etdikdə o, (Həvva) yüngül bir yüklə yükləndi (hamilə oldu) və (bir müddət həmin yükü) daşıdı, (onunla oturub-durdu). (Həvva) ağırlaşdığı vaxt onların hər ikisi Allaha dua edib: «Əgər bizə saleh (sağlam, ağıllı, hər şeyi yerli-yerində) bir uşaq versən, (bu nemətə görə Sənə) şükür edənlərdən olarıq» – dedi.

*əl-Əraf surəsi, ayə 189.*

Göylərin və yerin hökmü Allahın əlindədir. O, istədiyini yaradır, istədiyinə ancaq qız, istədiyinə də ancaq oğlan verir.

*əş-Sura surəsi, ayə 49.*

(Ey möminlər!) Aranızda olan subay kişiləri və ərsiz qadın-

ları, əməlisaleh (yaxud evlənməyə qabil) kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər. Allah (lütfü, mərhəmətilə) genişdir, (hər şeyi) biləndir.

*ən-Nur surəsi, ayə 32.*

Qadınlarınızın mehrlərini könül xoşluğuyla verin! Əgər onlar qəlbən, öz razılıqları ilə bundan sizə bir şey bağışlasalar, onu halal olaraq nuşcanlıqla yeyin!

Yetimləri nikah yaşına çatıncaya qədər sınayın. Əgər ağla dolduqlarını (həddi-büluğa çatdıqlarını) hiss etsəniz, mallarını özlərinə qaytarın.

...ərli qadınları almaq Allahın yazısı (hökmü) ilə sizə (haram edildi). Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək (mehrlərini verərək) evlənmək üçün sizə halal edildi.

*ən-Nisa surəsi, ayə 4, 6,24.*

*Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:*

Allahın Rəsulu Xədicə haqqında belə buyurmuşdur: «Allah mənə Xədicədən daha xeyirli qadın bəxş etməmişdir. Bütün insanlar inanmadığı halda, o mənə inanmışdı. Hamı məni təkzib edərkən, o məni təsdiq etmişdi. İnsanlar məndən qaçarkən, o məni var-dövləti ilə dəstəkləmişdi...»

***

Mən də qız övladlarının atasıyam və anaları da qiymətli həyat yoldaşıdır.

***

Qızlara nifrət etməyin, çünki onlar qiymətli can yoldaşlarıdır.

***

İnsanların ən xeyirlisi qadınlarına və qız uşaqlarına qarşı ən xeyirli olanlardır.





Həzrət Peyğəmbər (s.): «Allahdan qorxun, övladlarınızın arasında ədalətə riayət edin» – buyurmuşdur. Başqa bir hədisdə: «Ey səhabələrim və ümmətim, övladlarınızın arasında eyni cür davranın. Mən övladlardan birini üstün tutsaydım, qadınları daha üstün qəbul edər və onları seçərdim... Övladlarınızın arasında ədalətli olun.»

Subay qadın özü haqqında valideynlərindən daha çox haqq sahibidir.

Həzrət Əli (ə.) siğənin haram edilməsini bizə belə bildirir: «Həzrət Peyğəmbərin (s.) vəzifələndirdiyi carçı Heybər günü bunları bizə eşitdirdi: «Diqqət edin, Allah və Rəsulu (s.) siğəni sizə qadağan etmişdir.»

***İbn Abbas** (Həzrət Peyğəmbərin (s.) əmisi oğlu):*

Siğə leş, qan və donuz əti kimidir.

Səhabələrdən Muğıra b. Şubə (ə.) bir qadınla ailə həyatı qurmaq istədiyini Həzrət Peyğəmbərə (s.) söyləyəndə Rəsulullah (s.) həmin qadını görüb-görmədiyini ondan soruşmuşdu. Muğıra (ə.) görmədiyini söyləyəndə isə Peyğəmbər (s.): «Get gör, çünki bu bir-birinizi başa düşüb uyğunlaşmağınız üçün ən uyğun davranışdır» – demişdir. (Nəsai, Nikah, 17)

Həzrət Peyğəmbərin (s.) dövründə qız istəmək məsələsi müasir dünyanın bugünkü insanlarını belə təəccübləndirəcək qədər azad idi. Həzrət Əli (ə.) Peyğəmbərin qızı Fatiməni (r.a.) şəxsən Rəsulullahın (s.) özündən istəmişdir... Hətta namusu ilə tanınan bəzi qadınlar ərə getmək istəklərini şəxsən özləri bildirərdilər. Bu həmin şəxslərin səmimiyyəti ilə əlaqədar idi (Əhməd bin Həmbəl, 1, 80).

Allahın Rəsulu (s.) bəzi səhabələrin dünya nemətlərindən uzaqlaşaraq özlərini ibadətə həsr etmələrinə razı olmamışdır. Səhabələrdən Osman bin Mazun (ə.) dünyadan və qadından əl çəkib özünü ibadətə həsr etmək arzusunu reallaşdırmaq istəyəndə Həzrət Peyğəmbər (s.) icazə verməmişdir. (Buxari,

Nikah, 8)

İslam dinində evlənmək ibadət sayılır. Kəbin lüğətdə «əlavə etmək», «topalamaq» və «müqavilə imzalamaq» deməkdir. İslam hüququnda isə «evlilik müqaviləsi» mənasında işlədilir. Dini istilahda kəbin belə ifadə edilir: «Evlənmələri qadağan olmayan bir oğlanla bir qızın arasında bağlanan, müştərək həyat və nəsli davam etdirmək üçün bir əlaqə meydana gətirən müqavilədir.»

İslam alimlərinin əksəriyyətinə görə, kəbinin 6 şərti vardır:

1. Hər iki tərəfin qəbulu.
2. Qadın.
3. Kişi.
4. Şahidlər.
5. Mehr.
6. Elan (toy).

Bugünkü İslam alimləri dövlət qeydiyyatından keçməyi və kəbinin rəsmiləşdirilməsini də əsas şərt kimi qəbul edirlər. Hər iki tərəf evlənmək istədiklərini kəbin kəsilən yerdə açıqlamalıdır. Təklifdən dərhal sonra cavab verilməlidir. Təklif və qəbul hər iki tərəf və şahidlər tərəfindən eşidilməli və başa düşülməlidir. Ancaq lal və karlar xüsusi işarələrlə istəklərini yerinə yetirə bilərlər.

İslam dini zinanı (kəbinsiz cinsi əlaqə) qadağan etmiş, kişi ilə qadın arasındakı əlaqələrin yeganə yolu olaraq daimi evliliyi qəbul etmişdir. İslam dinində evlilikdə əsas məqsəd təkcə təbii ehtiyacları təmin etmək deyil. Bu məqsədlərin ən başlanğıcı ruh və bədən sağlığı ilə təmiz nəsillər yetişdirməkdir.

Həzrət Peyğəmbərin (s.) belə dediyi bildirilir: «Ey insanlar! Qadınlardan siğə ilə istifadə etməyi Allah qiyamət gününə qədər haram etmişdir. Hər kimin yanında belə bir qadın varsa, onu tərk etsin və onlara verdiklərinizdən də heç nə almayın.» (Muslim, Nikah, 21, 22, 23)

Siğə qadının heysiyyəti, qüruru ilə oynamaqdır. Burda qadın icarəyə götürülən mal hökmündə olur. Kişidən aldığı mal vəsaiti hesabına bütün bədənini ona təslim etməsi qadını alçal-





dır. Belə hallarda qadın kişinin həvəslərinə qurban rolunu oynayır. Siğənin İslamda qadağan olunan zinadan – kəbinsiz cinsi əlaqədən nə fərqi var? Zinada məqsəd şəhvətin söndürülməsidir. Kəbində məqsəd isə nəslin çoxalması və ailə səadətidir.

Quranda da bildirildiyi kimi, insanların qadın-kişi fərqi qoyulmadan həm dünya həyatındakı imtahanları, həm də axirətdəki mükafat və cəzaları qadın və kişi üçün eynidir.

Dörd qız atası olan, nəsli qızı Həzrət Fatimə (r.a.) ilə davam edən və özünü «qızlar atası» kimi tanıdan Həzrət Məhəmməd (s.) İslamdan əvvəlki oğlan-qız ayrı-seçkiliyini, öz həyatından da göründüyü kimi, aradan qaldırmışdır. Həzrət Aişəyə (r.a.) dünyaya bir körpə gəldiyi xəbər veriləndə: «Tam yaradılıb?» – deyə, soruşardı. «Bəli» cavabı alanda «aləmlərin Rəbbinə şükür olsun» – deyə dua edərdi.

«Oda giriftar olanların çoxu subaydır. Allah yanında evlənmədən əziz bir bağlılıq yoxdur. Ən mənfur ayrılıq ailə əsasının dağılmasıdır.» (Həbibullah Əhmədi)

Beləliklə, araşdırmalarımız və təqdim etdiyimiz məlumatlardan aydın olur ki, İslam qədim cahillik cəmiyyətinin qeyri-insani vəziyyətindən çıxararaq müasir dünyanın yeni verdiyi haqları 1400 il əvvəl bəxş edərək cins arasındakı uçurumu aradan qaldıran yeganə dindir. İslam dinində qadın və kişilərin hüquqları eyni dərəcədə ədalətlə mühafizə edilir. Əvvəllər qeyd etdiyimiz kimi, qadın və kişi sözlərinin Quranda eyni sayda 23 dəfə zikr edilməsi də islamın qadın-kişi bərabərliyinə ən gözəl sübutdur. Qurani-Kərimdə və müqəddəslərin kəlamlarında qadına, onun sağlamlığına olan qayğı müasir dövr üçün də bir örnəkdir. İnsan dünyaya gələndən bu günə qədər qadına verilən qiymət təkrarolunmaz və müqəddəsdir. «Cənnət anaların ayaqları altındadır.» kəlamından müqəddəs həyatda nə ola bilər? Bugünkü qız gələcəyin anasıdır. Uşağın ilk tərbiyəçisi də məhz anadır. Bəşəriyyət yalnız ana tərbiyəsi ilə yüksələcək. Planetimizdə intellektual ekoloji tarazlıq yalnız ana dühası ilə qorunacaq.

Anadır varlığın, həyatın canı,
Dünyada anadan şirin şey hanı?!

Ananın xislətində mərhəmət, şəfqət, inam, sevgi, səxavət, mərdlik vardır. Bunları qadına Tanrı bəxş etmişdir.

Bir daha İslam tarixinə nəzər salaq. Həzrət Peyğəmbərin (s.) dövründə müsəlman qadınlar ictimai həyatda çox aktiv olmuşlar. Qadınlar öz həyat yoldaşları ilə birgə İslamın ən çətin anları olan döyüşlərdə cihadda iştirak edərək onlara kömək göstərirdilər: yemək hazırlayır, su paylayır, yaraları müalicə edir, şəhid olanların Mədinəyə aparılmasına yardımçı olur, hətta döyüşdə belə iştirak edirdilər. (Buxari, Cihad, 1243-1244)

Bu qadınlardan biri – Atiyyə (r.a.) əri ilə birlikdə 6 dəfə müharibədə iştirak etmişdi. Həzrət Fatimə (r.a.) Peyğəmbərin (s.) Uhudda qanını saxlamağa çalışmış, Nəsibə (r.a.) adlı səhabə qadın da Uhud döyüşündə iştirak etmiş, ərini və övladlarını müharibədə şəhid verən bu qadın hətta özünü qalxan kimi Peyğəmbərin (s.) qarşısına ataraq onu qorumuşdur.

Biz əvvəllər də İslam, türk-Azərbaycan qadınları, onlarm qəhrəmanlığı, idarəçilik xüsusiyyətləri və s. haqda qısa məlumat vermişdik. Onu da qeyd etmək lazımdır ki, İslamı ilk qəbul edən məhz qadın – Həzrət Xədicə (r.a.) olmuş, bu yolda ilk şəhid də qadındır. Belə ki, Ammar bin Yasinin anası Suməyyə (r.a.) Əbu Cəhlin fiziki təzyiqlərinə baxmayaraq dini inkar etmədi. Nəticədə kəskin mübahisələrdən sonra Əbu Cəhl nizəsi ilə onu öldürdü. Beləliklə, İslam ilk şəhidini verdi.

Umm Vəraqa binti Abdullah b. əl-Haris (r.a.) hücrətin ikinci ilində baş verən Bədr müharibəsində yaralılara kömək etmişdir, Quranı əzbərləmiş, Rəsulullah (s.) onu yaşadığı yerə namaz qılmaq üçün imam təyin etmişdir. Umm Vəraqa (r.a.) ilk imam təyin olunan qadındır.

Tarixi mənbələrdən məlum olur ki, Azərbaycan qadınları da ən qədim dövrlərdə (bizim eramızdan əvvəl) ölkəmizin həm idarəçilik və həm də hərb tarixində ərləri ilə çiyin-çiyinə vuruşublar. Oğullarına, qardaşlarına və ərlərinə çətin məqamlarda





arxa olublar. Onların içində qadın sərkərdələr də var idi. Bələrindən biri Araz çayından şimalda, indiki Azərbaycan ərazilərində yerləşən Massaget hökmdarlığında əri öləndən sonra taxt-taca sahib olan Tomris idi. Onun e.ə. 529-cu ildə İran şahı Kiri qanlı döyüşdə məhv etməsi Herodotun «Tarix» əsərində geniş əksini tapmışdır. Tomris yolunu davam etdirən azəri qadınlar haqqında əvvəllər məlumat verilmişdir.

***Məhəmməd Hadi:***

Ey qadın, mənbəyi nəzakətsən,
Sən təcəssüm edən lətafətsən.

***Həsən bəy Zərdabi:***

Qadın bəşəriyyətə ana və ilk tərbiyəçidir.

***Yusif Vəzir Çəmənzəminli:***

Ana insaniyyətin məşəl aparanıdır.

Ana! Hələ dünyada sənin müqəddəsliyini təyin edə biləcək heç bir ölçü yoxdur, hələ sənin əzəmətini təsvir edə biləcək heç bir kitab yazılmamışdır.

Hörmətli oxucu! Bu bölməni Məhəmməd peyğəmbərin (s.) təkrarolunmaz bir kəlamı ilə yekunlaşdırırıq: «Qadın hüququ müqəddəsdir.»

# Yer planeti əcdadımızın məskunlaşdığı məkandır

Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)!..

*Qurani-Kərim,*
*əl-Bəqərə surəsi, ayə 29.*

Yer üzünbə bir-birinə yaxın (qonşu) qitələr (münbit, qeyri-münbit, şirin-şoran, dağlıq-aran yerlər, müxtəlif iqlimli torpaq sahələri), eyni su ilə sulanan üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Halbuki, Biz yemək baxımından onların birini digərindən üstün tuturuq. Şübhəsiz ki, bunda da anlayıb dərk edən insanlar üçün (Allahın qüdrətinə və vəhdaniyyətinə dəlalət edən) əlamətlər vardır.

*Qurani-Kərim,*
*ər-Rəd surəsi, ayə 4.*

Astronomik olaraq Yer Günəş sistemindən məsafəsinə görə üçüncü, ölçü və kütləsinə görə beşinci planetdir. Yerin Günəş sistemindəki başqa planetlərdən fərqi onda həyatın, canlıların və o cümlədən insanların mövcudluğudur. Yer səthinin çox hissəsini (70,8%) Dünya okeanı, 29,2%-ni isə quru təşkil edir. Göründüyü kimi, Yer planetinin torpaq sahəsi o qədər də çox deyildir. ASE-nin (5-ci c., s. 125) bir məlumatına nəzər yetirək: «Müasir dövrdə bəşəriyyətin ən mühüm problemlərindən biri əhalinin sürətli artımı problemidir. Eramızın əvvəllərində dünya əhalisinin sayı təqribən 250-270 mln., 1000-ci ildə – 300 mln., XVII əsrin ortalarında – 500 mln., 1900-cü ildə təqribən 2,5 mlrd., 1970-ci ildə – təqribən 3,6 mlrd., BMT-nin məlumatına görə, 1978-ci ilin ortalarında – təqribən 4,44 mlrd. nəfər





olmuşdur. Ehtimal ki, XXI əsrin sonunda 11-12 mlrd. nəfər olacaqdır. Əhalinin artımı bir çox ölkədə, o cümlədən inkişaf etməkdə olan ölkələrdə əhalinin ərzaqla təmin olunması problemini qarşıya qoyur. Dünya əhalisinin təqribən yarısı ərzaq korluğu çəkir.»

İctimai istehsal prosesində insan ətraf mühitə təsir göstərir. Məhsuldar qüvvələr inkişaf etdikcə, təbii ehtiyatlara tələbat artır və insanın ətraf mühitə təsiri getdikcə güclənir. Bununla əlaqədar bəşəriyyət qarşısında ətraf mühitin çirklənməsinin qarşısını almaq kimi son dərəcə mühüm vəzifə durur.

Son bir neçə yüz ildə meşələrin sahəsi yanğınlar, vəhşicəsinə qırılma nəticəsində dəfələrlə azalmışdır. Ötən yüz ildə eroziya və aşınmadan kənd təsərrüfatına yararlı torpaq sahələrinin təqribən 27%-dən çoxu sıradan çıxmışdır. Urbanizasiya və sənayeləşdirmə prosesində təbii mühitin çirklənməsinin mənbəyi, əsasən, məişət və sənaye tullantılarıdır. Torpağa çoxlu zəhərli kimyəvi maddələrin verilməsi flora və faunaya zərərli təsir göstərməkdədir. Torpağın radioaktiv maddələrlə çirkləndirilməsi insan sağlamlığı üçün xüsusi təhlükə törədir.

Atmosferin ozon təbəqəsində kilometrlərlə sahədə dəliklərin əmələ gəlməsi, karbon qazının ($CO_2$) dəfələrlə çoxalması, içməli su ehtiyatlarının durmadan azalması, qlobal istiliyin ildən-ilə artması, şimalda buzlaqların əriməsi və bunun nəticəsində yararlı torpaqları su basması və s. insanlığın gələcəyinin necə təhlükələrlə üzləşəcəyini demirmi?

İnsanlar arasında ürək-qan damar xəstəliklərinin, xərçəngin, şəkərli diabetin, sümüklərdə kalsium duzunun azalması (osteoporoz), vərəmin və başqa xəstəliklərin durmadan artması bəşəriyyəti fəlakət qarşısında qoyur. İkinci dünya müharibəsindən sonra «soyuq müharibə»nin vüsət alması, terrorizm, neofaşizm, nasizm, ekoloji terrorizm, mənfi intellektual ekoloji mühitin genişlənməsi bəşəriyyəti fəlakətə sürükləyən amillərdir. Bütün bunlar haqda əvvəlki bölmələrdə geniş məlumat vermişik. Bu faktorları yada salmaqda məqsədimiz nədir?

*Qurani-Kərimdə buyurulur:*

Ey Adəm oğulları! Hər ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz.

***əl-Əraf surəsi, ayə 31.***

Allah ona (şeytana) lənət etdi (rəhmətindən kənar edib dərgahından qovdu). O isə dedi: «Əlbəttə, mən Sənin bəndələrindən müəyyən bir qismini ələ alacağam. Onları hökmən (doğru yoldan) sapdıracaq, (puç) xülyalara salacaq, heyvanlarının qulaqlarını kəsməyi və Allahın yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm!»

***ən-Nisa surəsi, ayə 118-119.***

Yeri (insanların və başqa canlıların yaşaya bilməsi üçün) döşəyən (uzadıb genəldən), orada möhkəm durmuş dağlar, çaylar yaradan, bütün meyvələrdən (erkək-dişi, yaxud şirin-acı, turş-meyxoş və s. olmaqla) cüt-cüt yetişdirən, gecəni gündüzlə (gündüzü də gecə ilə) örtüb bürüyən Odur.

***ər-Rəd surəsi, ayə 3.***

And içirəm ataya və onun övladına (Adəmə və onun nəslinə, yaxud İbrahimə və onun oğlu İsmailə) ki, Biz insanı məşəqqətdə yaratdıq! (İnsan doğulduğu gündən qəbir evinə gedənə qədər əzab-əziyyət içində çalışıb-çapalayır, həyat boyu müxtəlif çətinliklərlə üzləşir. Bu, ilahi bir hikmətdir, həyatın qanunudur!) Məgər insan(Vəlid bin əl-Müğirə) heç kəsin ona gücü çatmayacağını zənn edir? Və: «Mən (Peyğəmbərlə düşmənçilik yolunda) xeyli mal-dövlət sərf etmişəm!» – deyir?! Məgər biz ona iki göz vermədikmi?! Eləcə də bir dil və qoşa dodaq (vermədikmi?!) Lakin o, ədəbəni (manеəni) keçə bilmədi (özünə verilən bu qədər nemətlərə şükür etmədi).

***əl-Bələd surəsi, ayə 3–6, 8-9,11.***





İnsana gəldikdə, nə zaman Rəbbin onu imtahana çəkib ehtiram etsə, ona bir nemət versə, o: «Rəbbim mənə ehtiram göstərdi!» – deyər. Amma nə zaman (Rəbbin) onu imtahana çəkib ruzisini əskiltsə: «Rəbbim məni alçaltdı (mənə xor baxdı)!» – söyləyər. Xeyr! (Belə deməyin). Doğrusu, siz özünüz yetimə hörmət etmirsiniz (yetimin haqqını vermirsiniz). Bir-birinizi yoxsulu yedirtməyə rəğbətləndirmirsiniz. Mirası (halal-harama) varmadan yeyirsiniz (qadınların, uşaqların paylarını vermirsiniz). Mal-dövləti isə lap çox sevirsiniz. Xeyr! Yer dağılıb parça-parça olacağı, Rəbbinin əmri gəlib mələklər səf-səf duracağı və Cəhənnəmin (məhşər meydanına) gətiriləcəyi gün - məhz o gün insan (öz günahlarını) xatırlayacaqdır. Lakin bu xatırlamağın ona nə faydası?! O: «Kaş, mən əvvəlcədən (axirət) həyatım üçün (yaxşı əməllər) edəydim!» – deyəcəkdir. O gün (Allahın) edəcəyi əzabı heç kəs edə bilməz!

***əl-Fəcr surəsi, ayə 15–25.***

Qurani-Kərimin bu ayələrindən məlum olur ki, Allah Yeri bütün insanlar üçün yaradıb, onun bütün nemətləri də bəşəriyyətə məxsusdur. Allah-Təala insanları yaratdı, onlara ağıl, iradə və güc verdi. İnsan öz ağlı və iradəsi ilə yaxşını seçməli və pisdən uzaq olmalıdır. Bunun üçün insan öz ağlından, gücündən və elmindən istifadə etməlidir. Bizim istədiyimiz Allahın əmrinə, elmin müsbət nailiyyətlərinə, insanların və insaniyyətin xeyrinə uyğun olarsa, bu işdən xeyir və savab qazanarıq. Əgər əməllərimiz, gördüyümüz işlər Allahın əmrlərinə uyğun olmazsa, insanlar əzab-əziyyət çəkərlərsə, bu işdən məsuliyyət daşıyırıq. Yer planetinin fəlakətə doğru getməsi, mənfi intellektual ekoloji faktorların gündən-günə artmasını və bir çox qırğınların, xəstəliklərin, aclığın, susuzluğun, saymaqla qurtaran deyil, səbəbkarı kimdir?! İnsan və yenə də insan!

Əvvəllərdə də demişdik, XX əsrdə təbii sərvətlərin istifadəsi, miqdarı, əvvəlki minilliklərdə istifadə olunana bərabərdir. Axı hər şeyin bir sonu var. İnsanın yaşadığı evinə – vətəninə,

Yer planetinə bu qədər amansız olmağını necə qiymətləndirmək olar: biganəlikmi, laqeydlikmi, nəfsin çoxluğumu? Nankorluqmu, ağılsızlıqmı?! Bu qəddarlığa ad tapmaq mümkün deyil. Bəlkə də III minillikdə leksikonumuza bütün bu deyilənləri ifadə etmək üçün yeni bir ad daxil olacaq. Necə ki, XX əsrdə bir çox yeni adların şahidi olduq: kommunizm, imperializm, sosializm, idealizm, materializm, atom bombası, hidrogen bombası, bakterioloji və kimyəvi qırğın silahları, SPİD, quş qripi, nasizm, faşizm, terrorizm, soyuq müharibə, kosmodrom, kosmonavt və s...

İnsan bir şeyi yaddan çıxarmamalıdır ki, Yer planeti orda yaşayan bütün insanların, canlıların müqəddəs evidir, onun hər bir guşəsində baş verən fəlakət bütün insanları düşündürməlidir. Axı Yer planeti də canlı bir orqanizm kimidir. Bir orqanın xəstəliyi bütün orqanlara ümumilikdə təsir edir. Keçmiş təbiblər deyərdilər ki, həkim təkcə xəstə orqanı yox, bütün orqanizmi müalicə etməlidir. Bu o vaxt mümkün olacaq ki, Yer planetini hər bir sakin «vətən» kimi qəbul edəcək, onun qeydinə qalacaq, gələcəyini düşünəcəkdir. Necə ki, Qurani-Kərimdə Tanrı irqindən, millətindən, dərisinin rəngindən, coğrafi mənsubiyyətindən asılı olmayaraq hamıya «Ey insanlar!» deyə müraciət edir.

Hörmətli oxucu! Öz mənəviyyatınıza, sağlamlığınıza, ailənizə və yaşadığınız cəmiyyətə, nəhayət, bəşəriyyətə ziyan gətirən işlərdən nəinki çəkinin, heç onlara yaxınlaşmayın. Əgər bilmərəkdən günaha batsanız, səmimi-qəlbdən tövbə edin. Tövbə edənləri Allah da, insanlar da bağışlayar. Qurani-Kərimdə buyurulur: «O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) günahlarının bağışlanmasını istəyərlər... Və onlar etdiklərini (gördükləri işin pis olduğunu) bildikdə (tövbədən sonra) bir daha ona qayıtmazlar.» (Ali-İmran surəsi, ayə 135)

Şəxsiyyətsiz insanlar isə, əlbəttə ki, istisna təşkil edərlər. İnsan üçün ən böyük hikmət, onun öz şəxsiyyətinə verdiyi qiymətdir. Şəxsiyyət olmaq üçün, ilk növbədə, öz qədrini bilməli-





sən. İmam Həsən (ə.) buyurub: «Məni təəccübləndirir o şəxslər ki, yedikləri şeylərə fikir verirlər (təmizliyinə, çürüklüyünə, köhnəliyinə...), amma öz mənəviyyatlarına lazım olan işlərə isə fikir vermirlər.»

Loğmandan soruşdular: «Adamların pisi, ləyaqətsizi hansı adamdır?» O, belə buyurdu: «O şəxslər ki, etdiyi günahı və ya ləyaqətsiz işlər qarşısında camaatdan nə utanır, nə də çəkinir, özünü şəxsiyyətli kimi camaat arasında nişan edir.»

Biz bu bölməni Qurani-Kərimin ayələri ilə yekunlaşdırırıq: «Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda (lövhi-məhfuzda) yazılmamış olsun...» (əl-Hədid surəsi, ayə 22)

«Şübhəsiz ki, onlar (müşriklər) onu (o əzabı) uzaq görürlər (ona inanmırlar). Biz isə onu yaxın görürük (ona inanırıq). O gün göy göyərmiş mis kimi olacaq; dağlar da didilmiş (rəngbərəng) yun kimi olacaqdır. Və dost dostu arayıb axtarmayacaqdır (hərə öz hayına qalacaqdır). Onlar bir-birinə göstəriləcəklər (lakin bir-birini tanısalar da, özlərini tanımamazlığa vurub, bir-birindən qaçacaqlar). O günün əzabından qurtarmaq üçün günahkar istərdi ki, fəda etsin (fiqyə versin) öz oğullarını; övrətini və qardaşını; (çətin günlərdə) ona sığınacaq verən əşirətini (qohum-əqrəbasını); və yer üzündə olanların hamısını – təki özünü (Allahın əzabından) qurtarsın. Xeyr (bu mümkün deyildir). Həqiqətən, o (Cəhənnəm) alovlu atəşdir.» (əl-Məaric surəsi, ayə 6-15)

«Ay tutulacağı, Günəşlə ay birləşəcəyi (hər ikisinin qərbdən çıxacağı, nurunun gedəcəyi) zaman – məhz o gün insan: «Qaçıb can qurtarmağa yer haradadır?» – deyəcəkdir. Xeyr, (o gün) heç bir sığınacaq olmayacaqdır! O gün (ey insan) duracaq (pənah aparılacaq) yer ancaq Rəbbinin hüzurudur. Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) buraxılacaq?!» (əl-Qiyamə surəsi, ayə 8-12, 36)

Həqiqətən də belədir. Qurani-Kərimin ayələri hələ 1400 il bundan əvvəl bəşəri gözləyən fəlakətlər haqda məlumat vermişdir. Bu, inkaredilməz bir həqiqətdir.

# İnsan ağlı, təmiz qəlbi, təvazökarlığı, əxlaqı və mənəviyyatı sayəsində yüksəlir, müdrikliyi ilə tanınır

...Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıl sahibləri düşünüb dərk edərlər.

*Qurani-Kərim, əl-Bəqərə surəsi, ayə 269.*

Bizi doğru (düz) yola yönəlt!

*Qurani-Kərim, əl-Fatihə surəsi, ayə 6.*

Allah ağlın mahiyyətini insanlardan gizli saxlayıb, qalan şeylərə isə insan öz ağlı ilə yol tapa bilər, bir şərtlə ki, ağıl onları dərk etməyə qadir olsun.

*Nizami Gəncəvi.*

Ağıl obyektiv gerçəkliyin inikasının ali forması, insanın ətraf mühitə münasibətinin dəqiq və məqsədəuyğun surətdə tənzimetmə qabiliyyətidir. Fizioloq İ.P.Pavlova görə, ağıl orqanizmlə mühit arasında ən incə münasibətlərdir. Ağıl hadisələri qiymətləndirmək, müvafiq nəticə çıxarmaq, bilikdən yerində istifadə etmək bacarığı, yaxşı təşkil edilmiş biliklər sistemidir. Ağlın inkişafı hər bir fərdin düşdüyü şəraitdən, təhsilindən və aldığı tərbiyədən asılıdır, lakin hər kəs onu tam formalaşdıra bilmir. Belə ki, nə çox görmək, nə çox gəzmək, nə yüksək elmi dərəcə, nə də vəzifə ağlın çoxalmasına dəlalət etməz. Ağlın mənəviyyatsız inkişafı mümkün deyil. Mənəviyyatsız alimin cəmiyyətə nə faydası ola bilər?.. Deməli, mənəviyyatımız ağla istinad edir. Atalar əbəs yerə deməyiblər ki, hər oxuyandan Molla Pənah olmaz.





F.Əkbərov, N.Camaloğlunun təbrincə desək, mənəviyyatımızın nəzəri qaynağı olan Qurani-Kərimdə diqqətimizi teztez bir məsələ cəlb edir. «Ağlı olanlar üçün onda ibrətlər vardır», «Ağlı olan kəslər üçün onda (kainatda) nələr vardır?», «Hələ ağıllanmadınızmı?» və s. bu kimi sual və istiqamətləndirmələrlə Allahı dərk etməkdə ağlın əhəmiyyəti nəzərə çarpdırılır. Sanki Allah bu ağıl adlanan «cihazı» unutmamağımızı, ondan istifadə etməmizi dönə-dönə xatırladır, bizi düşünməyə, aldığımız məlumatları təhlil etməyə, doğru nəticəyə gəlməyə istiqamətləndirir. Ağıl insanda mövcud olan elə bir mənəvi düşüncə, təhlil cihazıdır ki, onsuz insan öz dəyərini itirir. Ağlın qidası nurdur, nurun məkanı isə qəlbdir. Ağıl, ilk növbədə, fikirlə, elmlə təmin edilərək, qəlbdən qida alır.

Həzrət Əli (ə.) buyurub: «Ağıl kimi mal, gözəl xasiyyət kimi dost, ədəb kimi miras, ilahi qadağa kimi rəhbər, elm kimi şərəf yoxdur.»

Beləliklə, ağıl tükənməz bir sərvətdir. Bəşər övladı ancaq bu cövhərlə yaranmışların əşrəfi olmuşdur. İlahi əmrlər də ağıl sahiblərinədir. İnsan ancaq ağlı ilə insandır. Buna görə müqəddəslər, müdriklər ağlı ən böyük sərvət hesab etmişlər.

Bəşər həyatının müxtəlif sahələrinə rəhbərlik, mənəviyyatı ilə tanınmaq, müdrik tituluna sahib olmaq üçün həmin şəxsin ağıl nuru bütün dəyərlər üçün güzgü olmalıdır. Ağıl nuru və müdrik baxış başqalarının dəyərlərini qiymətləndirməyə, quruculuğa həvəs oyadır, ictimai qüvvələrə təkan verir. Nəhayət, ağıl nuru təxribatların, ədalətsizliyin qarşısını alır. Bir sözlə, ağıl nuru, müsbət intellektual ekologiyanın əsasıdır, desək yanılmarıq.

Həzrət Əli (ə.) buyurur: «Ağıllı bir adam kasıb ola bilər, amma heç vaxt şərəfsiz ola bilməz.» Şərəf insanın «şəxsiyyət vəsiqəsi»dir. İnsan bundan məhrum olduqda, ağıldan və onu vətəndaş kimi tanıdan «vəsiqə»dən də məhrum olur. Müasir dövrdə var-dövlət, vəzifə ağlın deyil, bəlkə şansın, əksər hallar-

da yaltaqlığın meyvəsidir. Hər vəzifə, var-dövlət sahibində ağıl axtarmaq düzgün deyil. Amma hər ağıl sahibində şərəf axtarırıq. Şərəfini itirən ağlını da itirər.

Həyatda bir məqamı da nəzərə almaq vacibdir. Məlum olduğu kimi, İslamda «əqli naqis» ifadəsi işlədilir. Bunun mənası ağlın təkbaşına haqqa və xeyrə çatmağa kifayət etməməsidir. Bu səbəbdən ağıl digər səlim ağıllarla qüvvətləndirilməlidir. El arasında zərbi-məsəl olan «ağıl ağıldan üstündür» düsturu, mənəviyyat və ləyaqət sahibi insanlarla nə isə müzakirə etməyin lüzumunu göstərmişdir. Fərd və toplum həyatındakı təkamülə yardım olmaq cəhətindən məsləhətləşmə Qurani-Kərim tərəfindən də müxtəlif ayələrlə əmr edilmişdir. «...işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et!..» (Ali-İmran surəsi, ayə 159)

«O kəslər üçün ki, Rəbbinin dəvətini qəbul edər (iman gətirər), namaz qılar, işlərini öz aralarında məsləhət-məşvərətlə görər, onlara verdiyimiz ruzidən (Allah yolunda) sərf edərlər.» (əş-Şura surəsi, ayə 38)

Beləliklə, hələ 1400 il əvvəl İslam tərəfindən təbliğ edilən məsləhətləşmə-müşavirə insanı formalaşdıran, həqiqətə çatdıran ən nurlu bir yoldur. Ona görə ki, hər həqiqətə çatmağın sirri müşavirədədir. Buna görə də «fikir mübadiləsindən həqiqət doğar» deyilmişdir.

Bundan əvvəlki bölmələrdə dünya şöhrətli dövlət başçıları, sərkərdələr haqqında məlumat verərkən də qeyd etmişdik ki, onlar həmişə ordu başçıları, elmli adamlarla məsləhətlər, müşavirələr aparmış, sonra bir qərara gəlmişlər. Sonuncu peyğəmbər, ilk İslam dövlətinin başçısı Həzrət Məhəmmədin (s.) həyat və fəaliyyəti buna canlı misaldır. Əfsuslar olsun ki, müasir demokratiyanın əsasını təşkil edən və islami bir ruh daşıyan bu prinsip bəzi dövlətlər tərəfindən unudulmuş və formal xarakter (gözdən pərdə asmaq!) daşıyır, xalqın müşavirəsi yerinə, fərdin sözü hakim olmuşdur. Xalq elçilərinin və dövlət məmurlarının sözləri fərdin sözlərinin analoquna çevrilmişdir. Belə hal isə milyonlarla insanı durğunluğa, əsarətə sövq edir,





manqurtlaşmaya yol açır. Məşrəvətdən, müasir dildə demokratiyadan faydalanmayan cəmiyyətlər, fərdlər fəlakət içində can vermişlər. Bu baxımdan Həzrət Əlinin (ə.) «Müşavirəni tərk edən həqiqətə çata bilməz» sözü dünya durduqca yaşayacaq və insanlığı yaşadacaq bir prinsipdir. İnsanlığın sağlamlığı, müsbət intellektual mühitin yaranması, əmin-amanlıq və ədalət üçün bu prinsipə əməl etmək böyük əhəmiyyət kəsb edər və bu, çox vacibdir.

Çox vaxt insanlar başqasını layiqincə qiymətləndirəndə, «ağıllıdır, qəlbi çox təmizdir» - deyirlər. Qəlb maddi varlıq deyil. Qəlb ağlın güzgüsüdür. Təmiz qəlb o insanlara məxsusdur ki, orada sevgi,məhəbbət, mərhəmət, şəfqət, səxavət, xeyirxahlıq, mehribanlıq, sadəlik, sülhsevərlik, doğruluq, mərdlik və s. məskən salmışdır. Belə insanlar müsbət intellektual ekoloji sferanın yaranmasında iştirak edirlər. Əksinə, qəlbi təkəbbürlük, tamahkarlıq, paxıllıq, namərdlik, kin, nifrət, hərislik, xudpəsəndlik, ikiüzlülük, fitnəkarlıq, zülmkarlıq və s. kimi mənfiliklərlə dolu olan insanlar mənfi intellektual ekoloji sferanı yaradan iblislərdir. Bu göstərilən əlamətlər isə ən çox erməni xalqı içərisində özünü daha qabarıq göstərir. Bu şeytani əlamətlər onlarda o qədər inkişaf etmişdir ki, qəlblərində dostluq, mərhəmət, mərdlik, ədalət, xeyirxahlıq kimi gözəl hiss və duyğulara yer qalmamışdır. Hüseyn Cavidin dediyi kimi: «Mələklər çıxan yerə şeytan girər».

Allahı bütün nemətlərin sahibi bilən ağıllı insan başqalarının yanında özünü sadə və təvazökar aparır. «Mən» sözünü dilinə gətirmir, öz üstünlüklərini gözə çəkmir, özünü başqalarından üstün tutmur. Məhz bu cəhətdən Məhəmməd peyğəmbər (s.) təvazökarlıq və sadəlik nümunəsidir. Çünki o, ilahi kamilliklərin ifadəsidir və bütün insani dəyərlər onun şəxsiyyətində təcəssüm olunmuşdur. Təvazökarlıq yalnız əxlaqlı insanda ola bilər. Əxlaq sözü ərəbcə «xülq» (yaradılmaq) sözünün cəmi olub, xasiyyət, davranış və keyfiyyətləri əhatə edir. Filosof alim Qoşqar Əliyevə görə, şəxsiyyətin insanlarla münasibətlərində mədəni səviyyəsini müəyyən edən əxlaqi qaydalar, prinsi-

plər sistemi aşağıdakı əxlaqi-etik tövsiyələrə söykənir:

– həmişə şəxsi ləyaqətini qoru;
– heç zaman və heç kəsin qarşısında alçalma;
– heç nədə və heç zaman başqalarına paxıllıq etmə;
– heç kəsə və heç zaman yuxarıdan aşağı baxma;
– hamıya və həmişə ehtiram və hörmətlə yanaş;
– tərifə layiq olana öz payını ver;
– başqa əqidələrə və fikirlərə dözümlü ol;
– başqalarına zorakılıq etmə və özünə qarşı da dunu rəva bilmə;
– böhtançılara, qorxaqlara, xainlərə nifrətini gözlərinin içinə de;
– mənsəbpərəstlər və intriqaçılarla iş görmə;
– pis adamlarla heç bir münasibətdə bulunma;
– əgər səndən xahiş etmirlərsə, heç kəsə öyüd-nəsihət vermə;
– yersiz danışma, danışmaq məqamında susma;
– başqasına yardım etməyə hazır ol;
– söz vermisənsə, yerinə yetir;
–həmişə öz «mən»ini əxlaqi saflıqda saxla.

Bu bölmənin əvvəlində qeyd etmişdik ki, insan mənəviyyatı, təmiz qəlbi və ağlı sayəsində yüksəlir, müdrikliyi ilə tanınır.Müdrikliyin ən səciyyəvi xüsusiyyətlərindən əsası gözəl əxlaq, ədəb-ərkandır. İnsan öz səviyyəsində olan insanlar əhatəsində yüksələ bilməz. Müdriklər əhatəsində olanlar, onlardan görüb-götürər və əxlaq sahibi olarlar. Məhz buna görə, əxlaqın səciyyəvi xüsusiyyəti insan hərəkətini qiymətləndirməkdir. Əxlaq insanların dünyabaxışı, əqidə və inamı ilə sıx bağlıdır. Dünyagörüşünün tərkib hissəsi olan əxlaqi şüur şəxsiyyətin əməli fəaliyyətində mühüm rol oynayır. Əxlaq siyasət, hüquq, incəsənət, din, fəlsəfə və elmin qarşılıqlı təsiri nəticəsində formalaşır.

Beləliklə, insan Yer planetini və bəşəriyyəti fəlakətdən ağlı, müdrikliyi, təvazökarlığı, sülhsevərliyi, xoş niyyəti, gözəl xasiyyəti, inancı, elmi və əxlaqı ilə xilas edəcəkdir. Məhz belə insanlar Yer adlı doğma məkanımızda müsbət intellektual ekoloji faktorların yaradıcısı və qoruyucusudurlar.





İndi isə Qurani-Kərimə və müdriklərin kəlamlarına müraciət edək:

***Qurani-Kərimdə buyurulur:***

Əgər yaxşı bir əməli aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və yaxud bir pisliyi əfv etsəniz (Allah onları bilər). Həqiqətən, Allah bağışlayandır, qüdrət sahibidir!

***ən-Nisa surəsi, ayə 149.***

Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!

***əl-Əraf surəsi, ayə 199.***

...Allah pak olanları (özlərini cismən təmizləyənləri, mənəvi qüsurlardan, çirkinliklərdən qorumağa çalışanları) sevər!

***ət-Tovbə surəsi, ayə 108.***

Allah (bəndələrini) əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola salır.

***Yunus surəsi, ayə 25.***

«...Məgər siz (bu yaxşılıq müqabilində) Allahın sizi (günahlarınızı) bağışlamağını istəmirsiniz? Allah (bəndələrini) bağışlayandır, rəhm edəndir!»

***ən-Nur surəsi, ayə 22.***

***«Məhəmməd Peyğəmbərə 40 sual» kitabından:***

«Qarışqa Süleyman peyğəmbərdən (s.) soruşur: – Allahın peyğəmbəri, sən adın Süleymanın nə mana verdiyini bilirsənmi? Süleyman: – Salim, doğru, faydalı, bərəkətli, dünya deməkdir. Qarışqa: – Allah sənə dünyanı bağışlayıb, sən isə Alla-

hın məzlumlarını zülmətdən, avamlıqdan çıxarıb, onların arasında əmin-amanlıq, asayiş yaratmısan. Lakin külək sənə üstün gəlir. Demək istəyirəm ki, bütün dünya və onun xoşbəxtliyi külək kimi ötəridir, sürətlə gəlir və sürətlə gedir... Nə qədər ömrün var, Allaha xidmət elə, Allahdan xahiş et ki, səni bağışlasın. Əməllərindən son məqamda Allahın razı qalması üçün bu dünyada təkəbbürlü olma, ədalətli ol, hakimiyyətinin mərhəmətini göstər».

Qurani-Kərimin ən-Nəml surəsinin 19-cu ayəsində buyurulur: «(Süleyman qarışqanın) bu sözündən gülümsəyib dedi: «Ey Rəbbim! Mənə mənim özümə və ata-anama ehsan buyurduğun nemətə şükür etmək, Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham (qüvvət) ver! Və məni öz mərhəmətnlə saleh bəndələrinin zümrəsinə daxil et!»

## Məhəmməd peyğəmbərin (s.) əxlaqi xüsusiyyətlərindən

Peyğəmbərimizin (s.) ilk günlərində Rəsuli-Əkrəmə (s.) təsəlli verərkən, Həzrəti Xədicə (r.ə.) anamız Onun gözəl xasiyyətlərini bir-bir saymışdır: «Mən bilirəm ki, sən qohumlarımızın haqqını gözləyir və sözün doğrusunu söyləyirsən. Öz işlərini görməyənlərin əvəzinə onların da işini görürsən. Kasıblara yardım edir, hamıya əl tutursan. Qonşularla nəzakətlə və şəfqətlə davranırsan. Kimsəsizlərə evinin qapısını açıb qonaq edirsən. Fəlakətə uğrayanın yardımına tələsirsən.»

Peyğəmbərimizin (s.) digər həyat yoldaşı Həzrət Aişə (r.a.) Rəsuli-Əkrəmin (s.) əxlaqını öyrənmək istəyənlərə bu cavabı vermişdir: «O, insanların ən gözəl əxlaqlısı idi. Heç bir çirkin söz söyləməz və heç bir çirkin hərəkət etməzdi. Küçə-bacada səsini çox ucaltmaz, yamanlığa yamanlıqla cavab verməzdi. Əfv edər və bağışlayardı.»

«Peyğəmbərimizin (s.) əxlaqı Quran əxlaqıdır. Başqa sözlə, onun mənəvi və xarici gözəlliyi indiyədək gəlib-keçmiş insanların heç birində görünmədi.»





«Onun təmizliyi üzündən bəlli olurdu. Gülərüzlü idi. Onu bir dəfə görənlər, bir daha yanından ayrılmaq istəməzdilər. İnsanların ən gözəl və təmiz geyinəni idi. Comərdlik timsalı idi. Kasıblıqdan qorxmadan əlində olanı ehtiyacı olanlara paylayardı.»

Həzrət Əli (ə.) Peyğəmbərimizi (s.) bizə belə tanıdır: «Allahın elçisi gülərüzlü, aydın çöhrəli, yumşaq xasiyyətli, təvazökar, mərhəmətli bir insan idi. Sərt təbiətli, daşürəkli deyildi. Heç bir zaman ağzından pis söz çıxmazdı. İnsanlarda nöqsan axtarmaz, onların qəlbini sındıracaq heç bir söz söyləməzdi. Onun əxlaqına bələd olanlar Onun nə istədiyini halından anlayardılar.»

Peyğəmbərimizin (s.) sevimli nəvəsi Həzrət Hüseyn (ə.) isə belə söyləmişdir: «Səhabələrini tez-tez soruşar, onlardan birisini görməyəndə, onunla maraqlanardı. Gözəl olan şeyləri tərifləyər, çirkin olan şeyləri isə pisləyərdi. Bütün bunlarda qayda-qanuna ciddi əməl edərdi. Haqqı müdafiədən qorxmaz, haqq və həqiqət nəyi tələb edirdisə, həmişə onu müdafiə edər, ədalətdən bir qarış da olsa kənara çıxmazdı. Onun iştirak etdiyi məclis bir həya, səbir və əmniyyət məclisi idi. O, insanları alçaldan bu üç əsas davranışdan da uzaq idi – kimsəni qınamaz və eyibləməzdi, kimsədə eyib axtarmazdı, savabını ummadığı sözü danışmazdı.»

Səhabələrdən Hind bin Əbu Halə (ə.) Peyğəmbəri (s.) belə tanıdırdı: «Yumşaq xasiyyətli idi, sərt deyildi. Heç kəsi alçaltmazdı, nemətin azına da böyük hörmət göstərərdi. Heç bir şeyi qınamazdı. Yeyiləcək bir şeyə qarşı heç vaxt bəyənməzlik etməzdi, amma tərifləməzdi də. Haqq tapdalandığı zaman onu bərpa edənəcən kimsə onu sakitləşdirə bilməzdi. Amma şəxsi işi üçün heç kəsə hirslənməz, intiqam almağı düşünməzdi. Qəzəbləndiyi zaman qəzəbini boğmağı bacarırdı.»

On il Allahın Rəsuluna (s.) xidmət edən Həzrət Ənəsin (ə.) isə Peyğəmbərimizin (s.) əxlaqı ilə bağlı bunları demişdir: «Rəsulullah insanların ən lütfkarı idi. Birisi ondan bir şeyi soruşanda onu diqqətlə, cani-könüldən dinləyər, Ona müraciət

edən adam ayrılıb getməsə, ondan ayrılmazdı. Birisi əlindən tutsa, o, əlini çəkmədikcə, Rəsulullah (s.) da onun əlini buraxmazdı. Birisi ilə üz-üzə gəldikdə, qarşısındakı dönüb ayrılmayınca, O da ondan üzünü çevirməzdi. Heç kəsin yanında ayaqlarını uzadıb oturduğunu görən olmadı. Bir uşaq belə ondan kömək istəsəydi, tez qalxıb lazım olan yerə gedərdi.»

*Məhəmməd peyğəmbərin (s.) kəlamlarından:*

Pərvərdigara, bədənimizi gözəl yaratdığın kimi, əxlaqımıza da gözəl qərar ver.

***

Aranızda əxlaqı gözəl olanları fərqləndirin.

***

Ağlın qüdrəti Allaha iman gətirəndən sonra xalqı sevməklə ölçülür.

***

Qənaətçilik güzəranın, camaatla mehriban rəftar ağılın, ağıllı sual isə elmin yarısıdır.

***

Tələsmək şeytan işidir, ağıllı, ehtiyatlı hərəkət etmək, rəhmli Allahın buyruğudur.

***

Kişinin kəraməti onun dininə, mürvəti ağlına, şərəfi isə xoş xasiyyətinədir.

***

Övladlarınızla xoş rəftar edin və onlara gözəl tərbiyə verin.

***

Həya imanın bir qismidir, həyası olmayanın imanı da olmaz.

***

İmanın kamala yetməsi gözəl əxlaqla mümkündür.

***

Gözəl əxlaq dinin yarısıdır.

***





Ədəbi olmayanın ağlı da olmaz.

***

Gözəl əxlaqa malik olan və yaxın adamlarına münasibətdə xoş rəftarı ilə seçilən iman sahibi möminlərin ən kamilidir.

***

...Təvazökarlıq başucalılıq və alnıaçıqlıq vasitəsidir. Təvazökarlıq edin. Qoy Allah məqamınızı ucaltsın.

***

Salam verməklə də olsa, özünüzlə qohumlarınız arasında mehribanlıq yaradın.

*Həzrət İmam Əli (ə.) buyurmuşdur:*

Ey insan, sən özünün kiçik bir cism olduğunu sanırsan, amma ən böyük aləm sənin içində gizlənir.

***

Yüksəkliyi istədim, onu təvazökarlıqla tapdım.

***

Öz əxlaqını tərbiyə etməyən şəxs, camaata tərbiyə verib, ədəb öyrədə bilməz.

***

Ədəbli, ərkanlı olmağın son mərtəbəsi odur ki, şəxs öz nəfsi qarşısında utanıb xəcalət çəksin.

***

Heç bir var-dövlət, sərvət insanın ağlı kimi insan üçün faydalı ola bilməz.

***

Ağıllı, kamallı o şəxsdir ki, öz qədrini, qiymətini bilib, hər bir işi öz yerində yerinə yetirər. Öz qədrini, qiymətini bilməyib şəxsiyyətini itirən şəxs isə cahil və nadandır.

***

Ağıllı insana layiqdir ki, var-dövlətin, məqamın, qüdrətin, elmin, cavanlığın, şan-şöhrətin məstliyindən, tərifindən özünü hifz edib qorusun. Ona görə ki, bu məstliklərin hər birinin zəhərləyici, çirkin (məstedici) əsən küləyi var ki, insanın ağlını

aradan aparıb, şəxsi süst və şəxsiyyətsiz edər.

***

Yüksək səviyyəli şəxsiyyətə malik olan şəxs həmişə təvazökar, sadə təbiətli olar.

***

Təvazökarlı, sadə təbiətli olmaq insanın şəxsiyyətini, əzəmətini yuxarı qaldırar.

***

Təvazökar olmağın nəticəsi şərafətli, mərifətliyə çatmaqlıqdır.

***

Ağıllının sinəsi sirrinin sandığıdır. Gülərüzlülük dostluğun açarıdır. Dözümlülük eyiblərin məzarıdır.

***

Özbaşına hərəkət edən fəlakətə uğrayar. İnsanlarla məsləhətləşən isə onların ağlına şərik olar.

***

İnsan sükut ixtiyar etməklə heybətə yüksələr, insafa riayət etməklə dostlarını çoxaldar, bəxşişlə qiyməti yüksələr (hörməti çoxalar), təvazökarlıqla neməti çoxalar, xərclədiyi ilə böyüklüyü sübut olar, tutduğu ədalət yolu ilə müxalifləri məğlub edər və özünün mülayim rəftarı ilə ağılsız insanların qarşısında tərəfdarlarını çoxaldar.

***

Ədəb-ərkanı əzab-əziyyətlə əldə etmək olar. Hər bir şəxs ədəbli olmaq üçün əzab-əziyyətlərə (cismani, ruhani, ictimai...) qatlaşıb dözsə, onu əldə edə bilər.

***

İnsanda iki cür ağıl olur: onun birini insan dünyaya gələndə Allah-Təala ona verir, digərini isə insan özü dünyada yaşadıqca təcrübə yolu ilə əldə edir. İnsan əldə etdiyi hər iki ağlın vasitəsilə dünyanın xeyir və səadətini əldə edə bilər.

***

Hər bir şəxsin doğru, düzgün olan sağlam fikri, düşüncəsi onun qəlbini nurani edər.





***

İnsanların ağıl baxımından ən kamili, əxlaqı ən gözəl olanlardır.

***

Ağlın qatilgahı, tamah şimşəklərinin altındadır.

***

Ən böyük dövlət ağıldır. Yəni ağıllı kimsə həqiqətdə möhtac deyil, bəlkə də, artıq dövlətlidir.

***

Ağıllı kimsənin dili ürəyinin dalında olar. Yəni ağıllı adam qabaqca sözünün yaxşı və pisini fikirləşib, sonra danışar.

***

Gözəl davranışlar (ədəblər) insana həmişə təzə zinətlərdir.

***

Üzrü təkrar etmək, günahı təzələməkdir.

***

Ən böyük əsl-nəcabət ədəbli olmaqdır.

***

Ədəb ağlın surətidir, yəni ədəbi olan kimsənin ağlı olar.

***

Ağlı kamil olan kimsə az danışar.

***

Möminin ən gözəl zinəti təvazökarlıqdır.

***Həzrət Ömər (ə.) buyurmuşdur:***

İnsanlarla yaxşı rəftar etmək ağlın, gözəl düşünülmüş sual vermək elmin, gözəl idarə etmək rəftarın yarısıdır.

***İmam Həsən (ə.) buyurmuşdur:***

Qarşılaşdığın hər bir insana salam vermək və məclisin girəcəyində oturmaq təvazökarlıqdır.

***

Həqiqətən gözəl əməllərin, xasiyyətlərin yaxşısı, qəşəngi gözəl xasiyyətli olmaqdır.

**İmam Hüseyn (ə.) buyurmuşdur:**

Ağıllı adam çətinliyə düşdükdə onu tədbir ilə aradan qaldırar və çıxış yolu tapmaq üçün ağlını işə salar.

**İmam Sadiq (ə.) buyurmuşdur:**

İnsanın şəxsiyyətinin əsas sütunu onun ağlıdır. Belə ki, onun dərk etməsi, elmi başa düşməsi ağıldan sərçeşmə alır. Bütün xeyirli işlərinin yol göstərəni şəxsin ağlıdır. Onun vasitəsilə insan kamilləşir.

***

Bir tayfanın, qəbilənin ölümünə dözmək asandır, amma bir alimin ölümünə dözmək çox çətindir.

***

Üç şey (xalq arasında) məhəbbətə (hörmətə) səbəb olar. Din (dindarlıq), təvazökarlıq və bəxşiş.

***

Camaatla yaxşı davranmaq ağlın üçdə biridir.

***

Ağıl möminin höccətidir (bələdçisidir).

**İmam Kazımi (ə.) buyurmuşdur:**

Həqiqətən, toxumun düzənlikdə cücərib, bərk yerdə cücərmədiyi kimi, hikmət də təvazökar qəlbdə dirilər, təkəbbürlü qəlbdə isə yox. Allah-taala təvazökarlığı ağlın, təkəbbürü isə cəhalətin aləti olduğu qərarını vermişdir.





**İmam Səccad (ə.) buyurmuşdur:**

...İlahi! Səndən istəyirəm ki, məni bəndələrin qarşısında təvazökarlıq əlaməti olaraq mülayim edəsən.

**Nizami Gəncəvi kəlamlarından:**

Ağlın olsun sənə hər işdə rəhbər,
Hər şeyi ondan sor, o deyən yetər.

***

Əlbət ki, əqilli bir qulaq asan,
Yaxşıdır həmişə yüz şüursuzdan.

***

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti-varı.

***

Ağıllı tərbiyə, hünər, nəzakət,
Ağıla nur verər, ürəyə qüvvət.

***

Ağıl bir yerdə ki, xəzinə tapar,
Allahın adını eyləyər açar.
Allah ağıllıya nəvazişkardır,
Ağılsızlara da əlacı vardır.

***

Ağıllı adamla dostluq bağlasan,
Bilik və mərifət alarsan ondan.

**Əfzələddin Xaqani kəlamlarından:**

Ağıldan daha gözəl rəhbər ola bilərmi?
Dünyada ağıltək bir ustad varmı?
O nadan yanında şagird olarmı?

*Sədi Şirazi hikmətləri :*

Ağıllı adamın axmaq qarşısında susması təəccüblü deyildir, çünki nağara səsi tar səsinə, sarımsaq iyi ənbər qoxusuna həmişə üstün gələr.

***

Meyvəsi bol ağacın budaqları yerə endiyi kimi, ağıllı insanlar da təvazökar olurlar.

***

Abrını alıb dirilik suyu versələr, ağıllı adam onu almaz, çünki zillətlə yaşamaqdansa, izzətlə ölmək yaxşıdır.

***

Ağıllı adamlar qızıl kimidir,
Haraya getsələr olar hörməti.
Böyük adamınsa səfeh övladı,
Saxta pul kimidir, olmaz qiyməti.

*Fəzlullah Nəimi:*

İnsan olan kəsə ipək paltar deyil, kamal gərək,
Gör sədəfin sinəsinə necə dalmış inci-gövhər.

*Nəsirəddin Tusi:*

Zəka ona deyilir ki, çoxlu hadisə və xüsusiyyətlər içərisindən ilk baxışda, dərhal, ani surətdə, özünə lazım olanı seçib asanlıqla düzgün nəticə çıxara bilsin.

***

İnsanın xoşbəxtlik və bədbəxtlik açarı, kamillik və naqislik sükanı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir.

*Əbülqasim Firdövsi:*

...Ağıl nur saçar, qəlbə zinət verər,
Çətin gündə iqbala yol göstərər,





Ağıl ağladandır, ağıl güldürən,
Ağıl qaldırandır, ağıl güldürən.
Ağıldan bəhər görməsə bir kişi,
Keçər ahü fəryad ilə hər işi.

*Əmir Xosrov Dəhləvi:*

O kəs sahib olar ağla, kamala,
Hikmətdən, öyüddən yaxşı dərs ala.
Duyğusuz ürəklə, duyğusuz qulaq,
Ya eşşək gəzdirər, ya da ki, ulaq.

*Əvhədi Marağayi Rüknəddin:*

Hər kimin yol göstərən ağıl çırağı olsa o, qaranlıq gecədə də yolunu azmaz.

*Əbdürrəhman Cami:*

Ağıllı, səxavətli adamlar mallarını dostlarla yeyərlər, ağılsız xəsislər isə yeməyib, düşmənlərə saxlayarlar.

*Məhəmməd Tağı Sidqi:*

Ağılla idarə olunan insan həyatı ən xoşbəxt, ən yüksək əxlaqlı həyatdır.

*Mirzə Şəfi Vazeh:*

Müdrik şəxs vəzifəli adamlara möhtac olmaya bilər, amma vəzifəli şəxslər müdrik adama möhtacdır.

*Firidun bəy Köçərli:*

İnsanı özünə bağlayan və hüsn-camalı kamala yetirən ağlın ruhu və mərifətin ziyasıdır.

Əsl gözəllik surətdə deyil, ağıl və kamaldadır.

*Məhəmmədhüseyn Şəhriyar:*

Sahibi ağıllı olan ev tez abad olar.

***

Kim ədəb gözləsə öz əməlində,
Qalmaz ədəbsizin çirkin əlində.

*Cəvahirləl Nehru:*

İnsan, görünür, başqalarının malik olmadığı nə isə bir şeyi öz varlığında daşıdığına görə daha çox maraqlıdır. Bu ağıldır, yetkinlikdir, bilmək və öyrənmək həvəsidir. İnsan öz axtarışına ən erkən vaxtdan bəri belə başlamışdır.

*Məmməd Səid Ordubadi:*

İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır.

*Məmməd Araz:*

Ağıl hökm eləyir dünyada, ağıl!
Bir ağlın barıdır bəzən bir ölkə.
Deyirəm çaylar da ağıldır – axır,
Dənizlər, ümmanlar ağıldır bəlkə.

*Azərbaycan atalar sözləri:*

Ağıllı adam əkdiyini yeyər, bədbəxt adam yığdığını məsrəfsiz qoyub gedər.

Ağılsız alim olmaqdansa, ağıllı rəncbər olmaq yaxşıdır.

Ağılla tanınan eldə sanılar.

Ağıllı adam elmə qaçar, ağılsız həlimə.

Ağıllı gözündən, axmaq sözündən tanınar.

Ağıllı ağlına, ağılsız varına güvənər.

Ağıllı adam başla, ağılsız daşla danışar.

Ağıllı olmaq azdır, abırlı da olmaq lazımdır.

Ağıl ilə həya əkiz qardaşdır, birini itirsən, o birini tapa bilməzsən.

*Türk atalar sözü:*

Ağıllı gördüynü, ağılsız eşitdiyini söyləyər.





*Ərəb atalar sözləri:*

Ağıllı uşaq nadan qocadan yaxşıdır.

Ağıllının bir günü sarsağın bütün həyatına dəyər.

Ağıllı zəhmətinə bel bağlayar, ağılsız ümidinə.

*Əfqan atalar sözləri:*

Ağıl təbiətin vergisi deyil, təcrübənin nəticəsidir.

Ağıl olan yerdə şərəf də olar.

*«Qabusnamə»dən:*

Mal-dövlət cəhətdən yoxsul olsan, çalış ağıl və kamalca dövlətli ol, çünki ağıl-kamal zənginliyi var-mal dövlətliliyindən daha yaxşıdır. Ağıl ilə dövlət əldə etmək olar, dövlətlə ağıl qazanmaq isə olmaz. Cahil adam tez yoxsullaşa bilər, lakin ağlı oğru apara bilməz, su və od məhv edə bilməz.

***

Müdrik adamlardan başqa heç kimlə ünsiyyət saxlama, çünki yaxşılarla ünsiyyət saxlayanın adı da yaxşıya çıxar. Görmürsənmi, yağı küncütdən alırlar, lakin küncüt yağını bənövşə, ya qızılgüllə qarışdıranda və ya bir müddət onlarla bir yerdə saxladıqda yaxşıların kəraməti sayəsində artıq ona küncüt yağı deyil, qızılgül yağı və ya bənövşə yağı deyirlər.

# Vicdan insanın daxili məhkəməsidir, o, həqiqətə güvənir. Ədalət dövlətin xəzinəsidir

Allah bəndələrinin ən yaxşısı bilikli və ədalətli başçılar, ən pisi zalım və cahil rəhbərlərdir.

*Məhəmməd peyğəmbər (s.).*

İradənə hakim, vicdanına əsir ol!

*Mövlana.*

Yer üzərində cənnət mümkündür, hərgah rəhm olsa, insaf, mürvət olsa, vicdan olsa.

*Nəcəf bəy Vəzirov.*

Vicdan dedikləri bir həqiqətdir,
Beşiyi, məzarı əbədiyyətdir.

*Səməd Vurğun.*

Nəsirəddin Tusi yazmışdır: «Heç bir sənət bir-birinə oxşamadığı kimi, heç bir xasiyyət də başqa xasiyyətə oxşamaz. Ona görə də tərbiyə və təlimdə ehtimallıq göstərilməlidir. Hər bir insan özünün daxili vicdan səsinə malikdir.» (A.Quliyev. N.Tusinin siyasi-hüquqi görüşləri, Bakı, 1995, s. 85)

İnsanın müsbət mənəvi keyfiyyətlərinin yaradıcısı vicdan, onun məhsulu isə ədalətdir. Vicdan qanunlar qanunu və ədalətli hakimdir. Vicdan insanda anadangəlmə olmayıb, həyat şəraitinin, tərbiyənin təsiri ilə formalaşır, daha doğrusu, onun əsası ailədə qoyulur. Bir daha erməni məsələsinə toxunmaq məcburiyyətində oluruq. Erməni ailəsində uşaq dil açandan beyninə zorla yeridilir ki, türk sənin düşmənindir, onları qırmaq, məhv etmək lazımdır. Belə təqdirdə, bu mühitdə böyüyən uşaqda vicdan əlaməti olarmı? Beləlləri vicdanın, ədalətin, insafın nə olduğunu anlayarlarmı? Əsla! Terroristlər, nasistlər,





neofaşistlər, yalnız var-dövlət düşkünü olanlar, təki mən salim olum prinsipi ilə yaşayanlar, təbiətə qəddarcasına qəsd edənlər, müsbət intellektual ekologiya qanunlarını vəhşicəsinə pozanlar, vicdanın, insafın nə olduğunu bilərlərmi?

«Qabusnamə»də deyilir: «Yaxşı adamlar bu dünyada aslan təbiətli olarlar, pis adamlar isə it təbiətli. İt tapdığı şeyi oradaca yeyər, aslan isə ovladığını başqa yerdə. Bu dünya bir ovqatdır, sən isə ovçu, sənin ovun da – yaxşı əməllərin. Çalış indi yaxşılıq elə ki, sonra xeyrini görəsən.... Yaxşılıq etməkdən peşman olma, çünki yaxşılığın sənə hələ bu dünyada, o dünyaya getməmişdən əvvəl çatacaqdır...

İstəyirsən sənin xalqa sərf etdiyin əmək hədər getməsin, xalqın sənə sərf etdiyi əməyi hədəf etmə... İstəyirsən sənin dediyinə əməl etsinlər, özün dediyinə əməl et...»

Ədalət qanununa görə, hər kəs cəza, ya mükafat olaraq əməlinin bəhrəsini alır.

Məhəmməd peyğəmbər (s.) buyurur: «Müsəlman olsun, ya kafir, yaxşılıq edən hər kəs mütləq etdiyinin savabını alır.»

İnsan o vaxt vicdanlı, ləyaqətli, ədalətli olur ki, o insaflıdır. A.Bakıxanov demişdir: «İnsaf insan ləyaqətinin zinətidir.»

Son dövrlər insaf məfhumu, elə bil ki, cəmiyyətimiz üçün yabançı olub. Çoxları bu insani keyfiyyətləri itirmiş, bir qismi isə onun nə olduğunu başa düşmür, ona artıq bir şey kimi baxır. Hətta bəziləri düşünürlər ki, hörmətli olmaq istəyirsənsə, insaflı və ədalətli olmağı unut. Bəzi insan cildində olan şeytanlar, insaflı və ədalətli adamları maymaq adlandırmaqdan belə çəkinmirlər.

Görkəmli jurnalist, mərhum Nurəddin Babayevin fikirləri müasir dövr üçün çox xarakterikdir: «Axı, insaf hamıya – əkinçiyə də, neftçiyə də, dərziyə də, alimə də, müəllimə də, vəzifəliyə də, vəzifəsizə də hava, su kimi lazımdır. Savadsız, diplomsuz yaşamaq olar, insafsız, vicdansız yaşamaq olmaz... İnsaf bizim daxili aləmimizin güzgüsüdür. Gəlin, elə yaşayaq ki, bu güzgüdə eybəcər görünməyək, qəlbən, ruhən təmiz və gözəl görünək.» («Kommunist» qəzeti, 21 mart, 1989)

Yaxşı fikir elə, qafil dolanma,
Qəlbini şeytandan yad elə, insan!
Halal yaşa, bir kimsədən utanma,
Yıxma könülləri, şad elə, insan.

*Xəstə Qasım.*

Bu insani sifətlər, yuxarıda dediyimiz kimi, düzgün tərbiyənin məhsuludur. İnsan istər ailədə, istərsə də cəmiyyətdə başqalarına o vaxt hörmət edir ki, o öz ata-anasına, ailə üzvlərinə, qohum-əqrəbasına, millətinə və nəhayət, bəşəriyyətə hörmət edir. Fərman İsmayılovun dediyi kimi: «...yaxşı ünsiyyət qaydaları hazır şəkildə nəsildən-nəslə verilir: ataya sitayiş, anaya hörmət və məhəbbət, ailə piramidasının qaydalarına əməl etmək, kiçiklərə qayğıkeşliyi, böyüklərə tabeçiliyi, böyüklərin kiçiklərə qayğıkeşliyi, böyüklərdən abır-həya saxlamaq və s. bizim milli və mənəvi sərvətimiz, varlığımızın müqəddəsliyidir... İnsan tərbiyənin məhsuludur, bu, onu sübut edir ki, insan gənclikdə aldığı tərbiyənin təsirindən heç vaxt xilas olmur.» («Azərbaycan gəncləri» qəzeti, 24 oktyabr, 1989)

Valideynlərinə ehtiramla yanaşan müəllimlərini də sevər, qocalara və uşaqlara qarşı qayğıkeş olar, vətəni sevər, yaşadığı Yer planetini, bəşəriyyəti sevər. Buradan belə qərara gəlmək olar ki, insan təfəkkürünün, mənəviyyatının müsbət formalaşması, müsbət intellektual ekoloji faktorların güclənməsi, onun mərhələ-mərhələ aldığı tərbiyədən və ictimai-siyasi mühitdən asılıdır. Belə ki, ictimai-siyasi mühit insan mənəviyyatını formalaşdırır. İctimai-siyasi mühitin sağlamlaşdırılması isə insan və onun intellektindən asılıdır.

Bəli, insan öz ömrünün binasını yaradan memardır. İnsan öz enişli-yoxuşlu, ağrılı-acılı, fərəhli-qəmli, insaflı-ədalətsiz həyat yolu simfoniyasını yaradan bəstəkardır. Bu sənət abidəsini yaradan memar, həyat simfoniyasını yazan bəstəkar özü-özünü başa düşəndən son mənzilinə köçənə qədər, təsiri altında olduğu hadisələrdən, kəlamlardan, ağsaqqal-ağbirçək xeyir-





duasından, müəllim dühasından, inanc nəsihətlərindən istifadə etməli və öz mənəviyyatını saflaşdırmalıdır. Məhz belə olduqda ədalətli cəmiyyət yarana bilər.

XIII əsrdə yaşamış böyük Azərbaycan filosofu və mütəfəkkiri Siracəddin Urməvi demişdir: «Ədalət ictimai mahiyyət daşıyır. Ona görə də, başçının ömrü onun ədalətilə ölçülür». Məhz bəşəriyyətin iftixarı Məhəmməd peyğəmbəri (s.) XIV əsr yaşadan amillərdən biri də onun ədalətidir.

***Qurani-Kərimdə buyurulur:***

(Ya Peyğəmbər!) Məgər Biz (haqqı bilmək, elm və hikmət dəryası etmək üçün) sənin köksünü (qəlbini) açıb genişlətmədikmi?!

***əl-İnşirah surəsi, ayə 1.***

(Ey kafir insan! Bu qədər öyüd-nəsihətdən) sonra səni dini (haqq-hesab gününü) yalan saymağa vadar edən nədir? Məgər Allah hakimlər hakimi (ən ədalətli, ən üstün hakim) deyilmi?!

***ət-Tin surəsi, ayə 7-8.***

***Məhəmməd peyğəmbərdən (s.):***

Biri Allahın Peyğəmbərindən (s.) soruşdu: «İmanın nişanəsi varmı?» Məhəmməd peyğəmbər (s.) buyurdu: «Əgər yerinə yetirdiyin yaxşı əməldən ləzzət almısansa və etdiyin xəta işdən kədərlənmisənsə, deməli, həqiqi möminsən». O şəxs ərz etdi: «İnsanın günahı nədə gizlənir?» Məhəmməd peyğəmbər (s.) buyurdu: «Vicdanı incidən şeydə.»

***İmam Əli (ə.):***

Haqsızlığın qarşısında əyilmə, çünki namusunla bərabər haqqını da itirərsən.

*Nizami Gəncəvi:*

Dəmiri aynatək parladan insan,
Pası silməlidir öz vicdanından.

*Nuşirəvan Adil:*

Ədalətli ol ki, ədalət məhkəməsinə işin düşməsin. İstəyirsən ki, ədalətlilər sırasında adın çəkilsin, sənə tabe olanları imkanın daxilində yaxşı saxla.

*Əfzələddin Xaqani:*

Ağlın varsa, gücə, qızıla, nüfuza tabe olma! Qoy sənə rəhbərlik edən ancaq təmiz vicdanın olsun.

*Sədi Şirazi:*

Düz yol istəyirsən – ədalətli ol,
Xalqına, elinə sədaqətli ol.

Varlıda insaf, yoxsulda qənaət olsaydı, dünyada dilənçilik qalmazdı.

*Nəsirəddin Tusi:*

Ədalət ona deməzlər ki, kim olursa-olsun, heç kəsə zülm etməyəsən, ona deyərlər ki, hamı ilə insafla rəftar edəsən. O yerdə ki, insaf yoxdur, deməli, insanlıq da yoxdur.

*Əbdürrəhman Cami:*

Ağıllı adamlar deyiblər ki, dünya ədalətlə abad, zülmlə bərbad olar.





*Ömər Xəyyam:*

Ədalət kainatın ruhudur.

*Əbül Fərəc:*

Özünü ləyaqətlə aparan adam, vicdan əzabından azaddır.

*Əvhədi Marağayi Rüknəddin:*

Evi ədalətlə, dinlə, tik ancaq,
Yoxsa bünövrəsi suda olacaq.

*Şah İsmayıl Xətai:*

Sufi isən alıb-satma,
Halalına haram qatma.
Yolun əyrisinə getmə,
Doğru yola nəzər eylə.

*C.Dəvvani:*

Vicdan itirilərkən, fəzilət də, gözəllik də itirilir. Vicdanın itirilməsi gözəlliyi çirkinliklə əvəz edir.

*Saib Təbrizi:*

Heç vaxt ədalət tərəzisini əldən vermə, hər kəsi öz ağırlığı ilə çək.

*Nasir Xosrov:*

Ağıl könülün günəşidir, ədalət onun ziyası.

*Abbasqulu ağa Bakıxanov:*

Vicdan insan təbiətinin bəzəyidir.

***

İnsaf elə bir aynadır ki, insan öz işlərinin yaxşı və yamanını onda görə bilər.

*Şeyx Şamil:*

Böyüksənsə, kiçik görsən, qayğı göstər, qüvvətlisənsə, insaflı ol.

*«Kəlilə və Dimnə»dən:*

Harda bir fəryad eşitsən, ora get, fəryada çat,
Ol ədalət məşəli, məzlumlara imdada çat.

## Xülasə:

Vicdanının səsini eşitməyən dünyanın ən kar adamıdır.

İnsafla yaşamaq – şəfqətli, mərhəmətli, səxavətli, xeyirxah, təvazökar, ədəb-ərkanlı, əxlaqlı olmaq, haqqı nahaqa qurban verməmək deməkdir.

Vicdanla ömür sürmək – ədalətlə, düzgünlüklə, mərdliklə, xoş niyyətlə, məhəbbətlə yaşamaq, yalandan, riyadan, hərislikdən, pislikdən, namərdlikdən, xudbinlikdən, özünə pərəstişdən, ikiüzlülükdən (münafiqlikdən), pis niyyətdən, əxlaqsızlıqdan, qəddarlıqdan uzaq olmaq deməkdir.

Vicdan, ədalət, insaf insan ləyaqətinin zinətidir.

Yalnız, ağıl, inanc, elm, vicdan, insaf və ədalət insan mənəviyyatının müsbət intellektual ekoloji təkanverici qüvvələridir. İnsan yalnız bunların sayəsində ucalır və onda bəşəriyyətə sevgi hissləri əmələ gəlir.





# Doğruluq dost qapısıdır, həqiqət ağlın günəşidir, etiraf və tövbə insanın mənəvi paklığıdır

Hər kəs tövbə edib yaxşı iş görsə, o, şübhəsiz ki, Allaha tərəf yaxşı bir dönüşlə (Allahın rizasını qazanmış halda) dönər.

*Qurani-Kərim,*
*əl-Furqan surəsi, ayə 71.*

Dünyada kişi üçün ən gözəl libas doğruluq libasıdır.

*Nizami Gəncəvi.*

Həqiqət yolundan dönməsə hər kəs,
Çatar arzusuna, diləyi sönməz.

*Sədi Şirazi.*

Doğruluq insan mənəviyyatının ən vacib və dəyərli əlamətlərindən biridir. Cəmiyyətdə düzgün, ləyaqətli adamlar əksər hallarda əməllərinin və sözlərinin doğruluğu ilə tanınırlar. Son əsrlərdə istər insanlar arasındakı ünsiyyətdə və istərsə də dövlətlərarası siyasətdə doğruluq durmadan azalmaqda, inamsızlığa çevrilməkdədir.

Bir neçə faktı yada salaq. 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında «Atəşkəs» müqaviləsi bağlanıb, bu müqavilə hələ də qüvvədədir. Lakin keçən dövr ərzində Ermənistan dəfələrlə bu müqaviləni pozmuş, yüzlərlə dinc əhali və əsgərlərimiz atəşlə öldürülmüş və yaralanmışlar. Məgər budur erməni doğruluğu?! Və yaxud BMT ermənilərin Azərbaycan torpaqlarını azad etməsi haqda dörd qətnamə qəbul edib. Ermənistan bu vaxta qədər buna məhəl qoymur. BMT-nin əməl və qərarlarının doğruluğuna inanmaq mümkündürmü?! İraqda, Əfqanıstanda dinc əhalinin «sülh or-

duları» tərəfindən məhv edilməsi, müsəlmanların tarixi mədəni, təbii sərvətlərinin məhv edilməsi... – onlarla belə misal çəkmək olar – doğruluğunmu əlamətləridir?! Yox! Yox! Və bir daha yox! Məgər dünyada mənfi intellektual ekologiyanın durmadan vüsət alması, səbəbi isə doğruluğun azalması deyilmi?

Elmdə, inancda doğruluq var və daim də qalıb inkişaf edəcək. Müsbət intellektual ekologiyada doğruluq durmadan azalır və bu proses hələlik davam edəcəkdir. Vaxt gələcək, bəşəriyyətin fəlakətlə üzləşəcəyi bir dövrdə bu proses insan mənəviyyatının inkişafı və həm də cəza qanunları ilə dayanacaq və sahmana salınacaqdır.

Bu proses o vaxt baş verəcək ki, bəşəriyyət «olum və ya ölüm» təhlükəsi ilə üzləşəcək və tövbə etməyə məcbur olacaqdır. İnsanlar başa düşəcəklər ki, terrorizm, neofaşizm, nasizm, ekoloji faktorların durmadan pozulması bəşəriyyəti yalnız fəlakətə aparır.

Qurani-Kərimin əl-Əraf surəsinin 153-cü ayəsində buyurulur: «Pis əməllər etdikdən sonra tövbə edib iman gətirənlərə gəldikdə, Rəbbin tövbədən sonra (onları) bağışlayandır, rəhm edəndir!» Hər bir dərdin dərmanı vardır, günahların da dərmanı etiraf və tövbədir. Etiraf insan mənəviyyatının paklığıdır. Elədiyi pis əməlləri vaxtında etiraf, tövbə etməyib, bu günün tələbatını sabaha qoyub səhlənkarlıq etmək özü də bir günah olub inadkarlığa dəlalət edir. Qurani-Kərimə görə, insan günaha küfr və inadkarlıq üzündən yox, öz cəhaləti və nadanlığı səbəbindən batmış olarsa və günaha batandan sonra vaxt itirmədən peşman olub dərhal tövbə edərsə, tövbəsi qəbul olunar. Qurani-Kərimdə bu barədə buyurulur: «Allah yanında yalnız o kəslərin tövbəsi qəbul olunar ki, onlar nadanlıq ucundan pis bir iş gördükdən sonra dərhal tövbə edələr: Allah belələrinin tövbəsini qəbul edir... Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: «Mən indi tövbə etdim» – deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq!» (ən-Nisa surəsi, ayə 17-18).

«İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan (Quran) üçün yumşalması vaxtı gəlib çatmadımı?!» (əl-Hədid surəsi, ayə 16)





Tövbə insanın nicat tapmasına, rifahda yaşamasına səbəb olar. Tövbə insanın günahlarını savaba çevirər. Bu gün ermənilərin torpaqlarımızı zəbt etməsi, bir milyondan çox dinc əhalinin doğma ev-eşiyindən didərgin düşməsi, Xocalı faciəsi, Fələstində, İraqda, Əfqanıstanda törədilən soyqırımı, Xirosima və Naqasakidə kütləvi qırğın, Çernobıl faciəsi və s. – bunların da hamısı bir həqiqətdir.

*Bəxtiyar Vahabzadə:*

Həqiqətdir zülm əliylə
Məzlumların axıdılan al qanları.
Həqiqətdir həqiqətin müc olması,
Həqiqətdir dərimizin soyulması.
Həqiqətdir ağ yalanın haqq adından danışması.
Həqiqətdir haqq bağıran ürəklərin
Ağ yalanla barışması.
Həqiqətdir, həqiqətlə yalanların
Bir-birinə qarışması.
Həqiqətdir tonqallarda yanmağımız,
Həqiqətdir ölüm hökmü qabağında həqiqəti danmağımız...
Biz güvənək sərt əllərə, tunc qollara,
Bu əllərlə, bu qollarla, olmayanı yaradaq biz.
Budur bizim bu dünyada ən müqəddəs vəzifəmiz.

İnsanın ən müqəddəs vəzifəsi Tanrının bəxş etdiyi nemətləri və doğma evimiz olan Yer planetini qorumaq və onları sağlam halda gələcək nəsillərə çatdırmaqdır. Bəşəriyyət bunun həqiqət olmasına çalışmalıdır.

***Qurani-Kərimə və müdrik kəlamlara müraciət edək:***

Mən ancaq tövbə edənləri, yaxşı işlər görənləri və (Tövratda buyurduqlarını) bəlli edənləri əfv edərəm. Mən tövbələri qəbul edənəm, mərhəmətliyəm.

***əl-Bəqərə surəsi, ayə 160.***

Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar.

***əs-Səff surəsi, ayə 2-3.***

...Ey mənim özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar... (Tövbə edib) Rəbbinizə dönün. Əzab sizə gəlməmişdən əvvəl Ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz!

***əz-Zumər surəsi, ayə 53-54.***

Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən (bir daha günaha qayıtmamaq şərtilə) tövbə edin...

***ət-Təhrim surəsi, ayə 8.***

...Ey möminlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız! (Mətləbinizə çatasınız!)

***ən-Nur surəsi, ayə 31.***

Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qıymaz (onu öldürməz), zina etməzlər. Hər kəs bunu (bu işləri) etsə, cəzasını çəkər. Qiyamət günü onun əzabı qat-qat olar və (o, əzab) içində zəlil olub əbədi qalar. Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayandır, rəhm edəndir.

***əl-Furqan surəsi, ayə 68–70.***





Və Rəbbinizdən bağışlanmağınızı diləyiniz. Sonra Ona tövbə edin ki, müəyyən bir müddət (ömrünüzün sonunadək) sizə yaxşı gün-güzəran versin və hər bir əməl sahibinə (əməlinin) mükafatını ehsan buyursun...

***Hud surəsi, ayə 3.***

Bəndələrinin tövbəsini O qəbul edir, günahları O bağışlayır və sizin nə etdiyinizi də O bilir. İman gətirib yaxşı işlər görənlərin duasını qəbul edən, öz nemətini onlara artıran da Odur.

***əş-Şura surəsi, ayə 25-26.***

Ayələrimizə iman gətirənlər yanına gəldikdə onlara de: «Sizə salam olsun! Rəbbiniz Özünə (bəndələrinə qarşı) rəhmli olmağı yazmışdır. Belə ki, sizlərdən hər kəs pis iş görsə, sonra tövbə edib düzəlsə (Allah onun günahından keçər). Şübhəsiz ki, Allah bağışlayandır, rəhm edəndir!»

***əl-Ənam surəsi, ayə 54.***

Şübhəsiz ki, Mən həm də tövbə edib iman gətirəni yaxşı işlər görüb, sonra da doğru yolu tutanı çox bağışlayanam!

***Taha surəsi, ayə 82.***

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Tövbə edən şəxs günahı olmayan şəxs kimidir.

***

Hər bir dərdin dərmanı vardır, günahların da dərmanı tövbə etməkdir.

***İmam Əli (ə.) buyurmuşdur:***

Namaz qılmaq, oruc tutmaq və sədəqə vermək (təklikdə) mühüm deyildir, əhəmiyyət kəsb edən məsələ təmiz qəlbə, doğru niyyətə və xalis əmələ malik olmaqdır.

***

Nə çox (tövbə) və yaxşı əməlləri təxirə salanlar olub ki, qəflətən əcəl onları haqlayıb.

***İmam Sadiq (ə.) buyurmuşdur:***

Allahın Rəsulu (s) hər gün yüz dəfə tövbə edər və Allahdan bağışlanmaq istəyərdi, hansı ki, heç bir günaha sahib deyildi.

*Nizami Gəncəvi:*

Yaxşılığın əyandır, qulluğunda qocal sən,
Ağ olsan da üzünə, etirafla ucal sən.

***Yunus Əmrə:***

Şəriət, təriqət – yoldur gedənə,
Həqiqət, mərifət ondan içəri.

Şəriət bir gəmidir,
Həqiqət dəryasıdır.

***Əbülqasim Firdövsi:***

Canda bütün nur və işıq düzlükdən yaranır,
Əyrilik zülmətindən qaçmaq lazımdır.

***İmadəddin Nəsimi:***

Həqiqətin nuru zahir olur insan varlığında,
«Mən bir gizli xəzinəyəm» – deyən vermiş bunu xəbər.





***Abbasqulu ağa Bakıxanov:***

Doğruluğa adət etmiş adam təşviş və qorxudan həmişə arxayın olar.

Düz iş yoxlanarsa, nə qorxusu var,
Düşmən də düz işi eyləməz inkar.
Düzlükdən qüdrətli bir dövlət yoxdur,
Ey Qüdsi, düzlükdə səadət çoxdur.

***Heydər Əliyevin müdrik kəlamlarından:***

Həqiqi mənəviyyatı milyonlarla, milyardlarla da almaq mümkün deyildir. Amma milyonları, milyardları olan mənəviyyatsız adamlar cəmiyyətdə heç bir şeydirlər.

Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar üstündür.

İnsan mənəviyyat üçün yaşamalıdır, mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır.

***Bəxtiyar Vahabzadə:***

İndi seçmək çətindir yalandan həqiqəti,
Gör, necə də qırışmış bu dünyanın sifəti.
Diplomatiya, siyasət – çatıb bir əndazəyə,
Qaç deyirlər dovşana, tut deyərlər tazıya.
Hər şey çaşbaş olubdur siyasət dumanında

# Mərhəmət, şəfqət, yaxşılıq, eşq-məhəbbət... insanın ilahi xislətləridir

Əgər Allahın sizə neməti və mərhəməti olmasaydı, Allah şəfqətli, rəhmli olmasaydı, (halınız necə olardı)!..

*Qurani-Kərim, ən-Nur surəsi, ayə 20.*

Mərhəmət edənlərə Allah da mərhəmət edər. Yerdəkilərə mərhəmət ediniz ki, göydəkilər də sizə rəhm etsin.

*Məhəmməd peyğəmbər (s.).*

Mehrabı eşqdir uca göylərin
Eşqsiz, ey dünya, nədir dəyərin?
*Nizami Gəncəvi.*

Eşqsiz məqsədə yetişmək olmaz,
Eşq ilə tapılar düzlük, həqiqət.
*Məhəmməd Füzuli.*

«Bismillahir-Rəhmanir-Rəhim! Mərhəmətli, rəhmli Allahın adı ilə! Həmd (şükür və tərif) olsun Allaha (və ya: Həmd məxsusdur Allaha) – aləmlərin Rəbbinə. (Bu dünyada hamıya) mərhəmətli, (axirətdə isə ancaq möminlərə) rəhmli olana...» Müqəddəs Qurani-Kərimin əl-Fatihə surəsi bu kəlamlarla başlayır – insanlara, canlılara rəhm və mərhəmətlə.

Mərhəmət varlığın ilk mayası, xeyirxahlıq nurdur. Bu cəhətdən islamşünas alim Dr. Aydın Topaloğlunun fikirləri daha xarakterikdir: «Din (islamiyyət) insana, ən kiçik canlıya (məsələn qarışqaya) belə zərər verilməməsini bildirmişdir. İnsanların ayağına batmaması üçün bir tikanın yoldan qırağa atılması belə fəzilət qəbul edilmişdir. İslam dinində susuzluqdan çöldə ölmək üzrə olan bir heyvana su verilməsi Cənnətə girmək üçün bir savab olaraq qiymətləndirilmiş, ata-anaya hörmət etmək, Allah yolunda getmək, uşaqları sevmək isə bir mərhəmət nümunəsi kimi səciyyələndirilmişdir. Çox çətin şəraitdə belə insanın ətrafı yaşıllandırmağı, qonşunu qohumdan ayırmamağı, bir-birlərinə kömək etməsi, işləyən insanların haqqının vaxtında ödənməsi əmr edilmişdir. Dili, dini və rəngindən asılı olmayaraq bütün insanlara, cinsindən asılı olmayaraq bütün canlılara və bütün təbii sərvətlərə sevgi, hörmət, mərhəmət və qənaətlə münasibət göstərilməsi tövsiyə edilmişdir.»

«Rəhmanın (əsl) bəndələri o kəslərdir ki, onlar Yer üzündə təmkinlə (təvazökarlıqla) gəzər, cahillər onlara söz atdıqları (xoşlarına gəlməyən bir söz dedikləri) zaman (onları incitməmək üçün) salam deyərlər.» (Qurani-Kərim, əl-Furqan surəsi, ayə 63)

Dilini yalandan, qeybətdən, böhtandan, kobudluqdan, iftiradan, tənədən, boş çərənçilikdən, dost və ya düşmənlə tərəfdar və ya müxalifətlə savaşdan qorumaq, nifrətdən, yalançılıqdan, xətadan, həsəddən, kindən, təkəbbürdən, tamahkarlıqdan, hirsdən, hiylədən, nifaqdan, riyakarlıqdan və ona oxşar pis xüsusiyyətlərdən uzaq olmaq; dünya sevgisinə aludə olub ona uyan, onu istəyən kəslərin qəlblərini dolduran şeylərdən özünü salamat saxlamaq mərhəmətin əlamətləridir. Bu əlamətlər isə müsbət intellektual ekologiyanın təməl daşlarıdır. Məhz bu əlamətlərlə insan göylərə yüksəlir, dahiləşir, sevilir, yad edilir. Yenə onlara xas olan əlamət və keyfiyyətlərdən – mərhəmət duyğusu, şəfqət, ruhi kədərdən əzab çəkən hər kəsə qarşı ürəyi yümşaq olmaq, nəzakətli davranmaq, mülayimlik, istiqanlılıq, lütfkarlıq, rəhbərlik etdiyi cəmiyyətə atalıq qayğısı göstərmək, dövlətlər arasında və hətta yaşayış yerlərində mehriban qonşuluq... Bunlar hamısı mərhəmətdən bəhrlənir...

«Mərhəmətli olmayınca, mömin sayılmazsınız» buyuran

Məhəmməd peyğəmbərə (s.) səhabələrindən biri deyir: «Hamımız mərhəmətliyik». Həzrət Peyğəmbər (s.) cavab verir: «Xeyr. Təkcə öz əhlinizə deyil, yaradılan bütün məxluqata (*insan, heyvan və s.*) mərhəmətli olmalısınız. Yaradana görə yaradılanı sevmək təkallahlıq dinlərinin hamısının tövsiyə və tələbi olmuşdur.»

Bütün canlılarda eşq, sevgi, sədaqət və vəfa hisslərinin mənbəyi Tanrı sevgisidir. Tanrı insan xarakterinə bu xüsusiyyətləri daxil etmişdir. İnsanın bunları başqa yerdən alması mümkün deyildir.

«Sevməyən, Allahı dərk etməyib, çünki Allah məhəbbətdir», «Allahı heç kim, heç vaxt görməyib. Əgər biz bir-birimizə mərhəmətliyiksə və bir-birimizi seviriksə, deməli, onun mərhəmət və məhəbbəti bizdə tamam olur.» (İncildən)

«Mən gizli bir xəzinə idim. Bilinmək istədim və məxluqatı yaratdım» – Rəbbin kəlamı, kainatın ən ləziz və xeyirli meyvəsi olan bəşərə Onun məhəbbətinin izharıdır. İnsan da öz növbəsində onu yaradıb, maddi-mənəvi dəyərlərlə təchiz edən Allahı sevməlidir. Bu sevgi bəşər üçün bir ehsan sayılır. Belə bir kəlam var: «Məhəbbət xaliqə edilərsə, hörmət, təzim və sayğıdır». Allaha üsyanda xalqa, bəşəriyyətə məhəbbət olmadığı kimi, xalqa zülmdə də Allaha məhəbbət ola bilməz. Kim ata-anasını sevməyib, Allahı sevdiyini deyirsə, bilin ki, o riyakardır. Çünki gördüyü ata-anasını sevməyən, görmədiyi Allahı sevə bilməz (Həzrət İsa). Rəbb isə buyurub: «Ancaq mənim üçün bir-birinizi ziyarət edin». Rizasız məhəbbət ola bilməz. Çünki insan ancaq sevdiyindən razı qalar və razı qaldığını sevər.

Məhəmməd peyğəmbər (s.) buyurub: «Ya Rəbb, mənə öz sevgini, sevdiklərinin sevgisini və məni Sənin sevgini ehsan et. Öz sevgini mənə istidən, susuzluqdan yananların sərin suya qovuşmasım istəmələri kimi ehsan et!»

«Mən sevirəm» deməklə sevgi duyğusu güclənməz. Daha dərin sevmənin yolu daha çox əşyanı, təbiəti, bəşəriyyəti sevməkdir.

Gözəl əxlaq – insanları bağışlamaq, onlarla gözəl davranmaq, onlara Allahdan rəhmət diləmək, insanları sevməkdir.

İnsanları, canlıları sevən səxavətli olar. Səxavət çox bəlaların qarşısını alır, Allahın qəzəbini söndürür, ürəklərdən kin-küdurəti silir. Səxavət gizli edilməlidir. İnsan içindən, qəlbindən xeyirxahlıq etməyə hazır olmalıdır və unutmamalıdır ki, mərhəmət, səxavət intiqamdan daha üstündür.

Məhəmməd peyğəmbər (s.) buyurub: «Suyun kiri yuyub təmizləməsi kimi, yaxşılıqlar da günahları silər.»

Məhəmməd peyğəmbərə (s.) sual verirlər ki, İslamın hansı tövsiyyəsi yaxşıdır? Deyir ki, tanımadığınız adama yemək və salam vermək.

Həyatda doğru və xeyirxah olan insan doğruluq və yaxşılıq görür, əməllərinin qarşılığı ilə rastlaşır.

Məhəmməd peyğəmbər (s.) «Allah sənə bir xeyir qapısı açdığı zaman imkanı qaçırma. Çünki o qapının nə zaman qapanacağı bilinməz» – buyurub.

Kainatda hər şey öz ziddi ilə bilinir. Sevginin ziddi qorxudur. Bu baxımdan F.Əkbərov və N.Camaloğlunun fikirləri çox səciyyəvidir: «Qorxu da sevgi kimi, Allahın bizə bəxş etdiyi bir başqa nemətdir. Qorxu ilə əxlaqı eyni cərgədə təsəvvür etmək ilk baxışdan insana qəribə gəlir. Doğrudan da, qorxu insanın iradəsinə mənfi təsir göstərə bilir, onu bir sıra müsbət addımlar atmaqdan, xüsusilə cəsarət, sücaət kimi yüksək əxlaqi davranışlardan uzaqlaşdıra bilir.»

«Əxlaqımızda qorxu insanı döymək, təhqir etmək, onu iradəsindən məhrum etmək mənasında təbliğ edilmir. Mənəviyyatımızın qaynaqlarından biri olan Quranı-Kərimdə tez-tez «Allahdan qorxun!» xəbərdarlığına, hətta insanların dəhşətli cəza ilə – Cəhənnəm əzabı ilə qorxudulmasma kifayət qədər çox rast gəlirik.»

Sevginin də, qorxunun da yurdu-yuvası insanın qəlbidir. Əgər qəlbdə sevgi bəslənməmişdirsə, insan başqa insanları, əhatəsində olan canlı və cansız aləmləri sevmirsə, qəlbində ailə-valideyn, nənə-baba, bacı-qardaş, qohum-əqrəba sevgisi, vətən məhəbbəti, millət, xalq, bayraq, dövlət sevgisi, bütün bəşə-

riyyətə qucaq açmaq sevgisi yoxdursa, o zaman bu qəlbdə kin, nifrət, düşmənçilik, paxıllıq, qısqanclıq kimi zəhərli tikanlar bitəcək, onlar tədricən artaraq qəlbdəki bütün müsbət keyfiyyətləri sıxışdırıb çıxaracaqdır. İstər-istəməz, yenə də erməni daşnak cəlladlarını yada salmaq məcburiyyətindəyik. Dinc türk xalqını kütləvi qətlə yetirən, insanları diri-diri yandıran, dərisini soyan, divara mismarlayan, su quyularına atıb üstünü daşqalaq edən, uşaqlara, qocalara, hətta ana bətnində olan körpələrə rəhm etməyən, onları borulara doldurub ağzını qapayan, başı kəsilmiş övladın qanını içməyə ananı məcbur edən, azyaşlıları zorlayan... ermənninin qəlbində hansı müsbət sevgi, mərhəmət hissi ola bilər?! Terrorçunun, neofaşistin, nasistin qəlbi var demək mümkündürmü?! Ekoloji terrorla məşğul olanların insani qəlbi varmı?! Yox!!! Bunlara yalnız bir ad vermək olar: «Bəşərin və təbiətin gözə görünən iblis və şeytanları». Allah görünən və görünməyən şeytanlara lənət eləsin.

Dahi Mövlana: «Məhəbbət üzündən mislər qızıla çevrilər. Məhəbbətlə keflər durular. Məhəbbətdən dərmansız dərdlər şəfa tapar. Məhəbbətdən ölülər dirilər. Məhəbbət üzündən padşahlar qul kəsilər. Məhəbbətdən zindanlar gül bağçasına dönər. Məhəbbət üzündən qaranlıq evlər aydınlanar, nurlanar. Məhəbbət üzündən nar nur olar! (Yəni atəş nura çevrilər). Məhəbbət üzündən çirkin belə huri gözəlliyinə qovuşar. Məhəbbətdən kədərlər, üzüntülər nəşə və sevincə dönər. Məhəbbət ucbatından yoldan çıxan, yol kəsən kimsə yol göstəricisi və səadət rəhbəri mərtəbəsinə yüksələr. Məhəbbət üzündən xəstəlik səhhət və salamata çevrilər. Məhəbbətdən qəhr rəhmət alar!..»

Beləliklə, sevgi Allah tərəfindən insana verilmiş ən üstün bir duyğudur. Sevgi xoşbəxtliyin açarıdır, desək yanılmarıq. İnsanın sağlam bir sevgiyə sahib ola bilməsi üçün kimləri necə sevməli olduğunu bilməsi də mühüm xüsusdur. Belə ki:

a) insan, ilk növbədə, özünü sevməlidir. Özünü sevməyən insan başqalarını da sevə bilməz. İnsanın özünü sevməsi maddi və mənəvi cəhətdən ideal, sağlam və xoşbəxt olmasıdır. İnsan





maddi cəhətdən güclü, sağlam, mənəvi cəhətdən bilikli, inanclı və əxlaqlı olmalı, bunun üçün səy göstərməlidir;

b) insan öz ailəsini sevməlidir. Həzrət Peyğəmbər (s.) «Hamınız çobansınız, ailə fərdlərindən məsulsunuz» buyurmuşdur. İnsan öncə həyat yoldaşını sevməlidir... Başqasına olan hirsimizi evdə həyat yoldaşımızdan çıxmamalıyıq. Ona qarşı ədalətli olmalı, onu başqalarının ayağına verməməliyik. Onunla məsləhət edərək planlarımızı paylaşmalı, hər şeyi birlikdə etməliyik. Çünki ər-arvad arasında uzlaşma yoxdursa, o ailədən və orada yetişən uşaqlardan xeyir gəlməz. Ailədə yoldaşımızdan sonra uşaqları sevməliyik;

c) insan öz ata-anasını sevməlidir. Çünki ata-anaya qarşı yaxşı rəftar etmək Allahın əmridir. Bu xüsus Qurani-Kərimdə Allaha itaətlə yanaşı zikr olunur. Qurani-Kərimin əl-İsra surəsinin 23-24-cü ayələrində buyurulur: «Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların bir və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara «Uf» belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: «Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!» – de;

ç) insan qohumlarını və yaxınlarını sevməlidir... Qohumlarla ünsiyyət insan üçün arxadır, dayaqdır;

d) insan öz millətini sevməlidir. İnsan sosial bir varlıqdır. Onun sosial mühitini, ilk növbədə, öz milləti formalaşdırır. İnsanın xoşbəxtliyi millətin xoşbəxtliyinə, millətin xoşbəxtliyi də onu formalaşdıran fərdlərin xoşbəxtliyinə bağlıdır... Milləti sevmək millətin yoxsul və kimsəsiz fərdlərinə yardım etməklə mümkündür, yaşlılara hörmət etməklə mümkündür;

e) insan bütün müsəlmanları sevməlidir;

ə) insan bütün bəşəriyyəti sevməlidir. Müsəlman olan hər kəs bütün insanları sevməlidir. Çünki bizim düsturumuz Mövlananın ifadəsiylə «Yaradılanı sev, Yaradandan ötrü» şəklin-

dədir. Allahı sevmək Onun yaratdığı hər şeyi sevməkdir. Onun yaratdığı ən qiymətli varlıq insan olduğu üçün Allahı sevmək insanı da sevməyi gərəkli qılır. Hətta insanlar içərisindən doğru yolda olmayanları da sevməliyik. İnanc yönündən bizdən fərqli olanları da sevməliyik. Onlarla aramızda olan fərqlilikləri deyil, ortaq tərəflərimizi düşünərək hər kəsə dəyər verməliyik.

Bu barədə Qurani-Kərimdə belə buyurulur: «...hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qalmamış) və yer üzündə fitnə-fasad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur...» (əl-Maidə surəsi, ayə 32). Həzrət Peyğəmbər (s.) də «İnsan oğlu Allahın əsəridir. Bu əsəri yıxan, ona qarşı şiddət göstərən məlundur (lənətlənmişdir)» buyurur.

Bu kiçik araşdırmadan belə qənaətə gəlirik ki, bəşəriyyəti, yaşadığımız Yer planetini ağıl, elm, inanc, mərhəmət, şəfqət, sevgi, məhəbbət, səxavət... fəlakətdən xilas edəcəkdir. Vaxt gələcək, insanlar bu mənəvi keyfiyyətləri tam anlayacaq və bu xüsusiyyətlərin bərqərar olması uğrunda şüurlu mübarizə aparacaqlar. Başqa çıxış yolu yoxdur, nicat yalnız bundadır. Buna tam əminik.

Əziz oxucu, indi də Qurani-Kərimə və müdriklərin hikmətli kəlamlarına müraciət edək:

Allahın insanlara əta etdiyi mərhəmətə (verdiyi nemətə, ruziyə) heç kəs mane ola bilməz. Onun vermədiyi bir şeyi də Özündən başqa heç kəs göndərə (verə) bilməz. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir.

*əl-Fatir surəsi, ayə 2.*

Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən (pisliyi) yaxşılıqla dəf et! (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!) Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən!

*əl-Fussilət surəsi, ayə 34.*





... Rəbbindən qorxanlar doğru yola və mərhəmətə nail olacaqlar.

*əl-Əraf surəsi, ayə 154.*

And olsun ki, Biz Nuhu və İbrahimi (peyğəmbər) göndərdik, peyğəmbərliyi və kitabı (Tövratı, Zəburu, İncili və Quranı) onların nəslinə verdik. Onlardan doğru yolda olan da vardır, çoxu isə (Allahın itaətindən çıxmış) fasiqlərdir! Sonra onların ardınca (Musa, İlyas, Davud, Süleyman, Yunis və başqa) peyğəmbərlərimizi yolladıq. (Onlardan sonra) Məryəm oğlu İsanı göndərib ona İncil verdik. Onun ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq. Onlar özlərindən rahiblik (tərki-dünyalıq) icad etdilər. Biz onu (rahibliyi) onlara vacib buyurmamışdıq. Onlar bunu Allah rizasını qazanmaq üçün etdilər, lakin ona layiqincə əməl (riayət) etmədilər (İncili təhrif edib İsanı Allah bildilər, Məhəmməd əleyhissəlamın peyğəmbərliyini dandılar)...

*əl-Hədid surəsi, ayə 26, 27.*

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Siz yer üzündə olan insanlara qarşı şəfqətli olsanız, göydə olan Allah da sizə qarşı şəfqətli olar.

Ən yaxşı sədəqə odur ki, sağ əlin verdiyini sol əl bilməsin.

Allah-Təala qohum-əqrəbasına maddi cəhətdən kömək edən, yaxud onlarla qohumluq əlaqəsi yaradan şəxsə yüz şəhidin savabını verər, bu yolda götürdüyü hər bir qədəminə görə qırx min savab qazanar, qırx min günahı bağışlanar və o qədər də mərtəbəsi artar, sanki səbir etdiyi halda, Allaha yüz il ibadət etmişdir.

Bir nəfər Rəsuli-əkrəmə (s.) öz qəlbinin bərkliyindən şikayət etdikdə, Həzrət Peyğəmbər (s.) buyurdu: «Yetimin başına sığal çək, fəqiri yedizdir».

Müsəlmanlara görə ən xeyirli ev (ailə) içində yetimə yaxşılıq edilən, ən şərli ev isə yetimə yamanlıq edilən evdir.

Dul qadına və fəqirə yardım göstərən adam Allah yolunda cihad edən, gündüzləri oruc tutub, gecələri isə ibadətdə keçirən kimsə ilə bir tutular.

*Həzrət Aişə (r.a.):*

İnsan qəlbi yaxşılıq gördüyü kimsəni sevər.

*Zərdüşt:*

Öz içimi nurlu işıqla dolmuş gördüm. Sən məndən soruşanda: «Sən kimsən, kiminləsən?» Mən dedim: «Mən Zərdüştəm – düzlük carçısı!» Sənin «Sən nə etmək istəyirsən?» sorğuna belə cavab verdim: «Hər dəfə oda sitayiş edəndə yaxşı şeylər fikirləşmək istəyirəm!»

*İmam Əli (ə.):*

Hər bir insanın qiyməti onun etdiyi yaxşılıqlarla ölçülür.
İnsanlara yaxşılıq et, paxıllıq etmə, Allah-Təala bu işə görə sənə çoxlu savab verər.
Yoldaşlarınla gülər üzlə rəftar et və xidmətçilərinin səhvlərini bağışla və onları ittihamlama.
Sənə tərəf əl uzadan şəxsi əliboş qaytarma, hətta bir xurmanın yarısı qədər verməklə olsa belə.

*Nizami Gəncəvi:*

İnsaflı yaşayan mərddir, kişidir,
İnsaflı olmamaq namərd işidir.
***
Yaxşılıq etməsən əgər insana,
Böyüklük şərəfi veilməz sana.





***
Bir eşq doğruluqda tutarsa qərar,
Dostun yaxşılığı birə on olar.
Sevgi bu kamala çatarsa bir an,
Yaxşı ad qazanar özünə insan.
***
Quyuya salsan da yaxşılığı, bil,
Yenə qayıdacaq, o, itən deyil.
***
Səadətə arxalan, zülmü qoyma yaxına,
Kimsəyə bel bağlama, sığın haqq dərgahına.
***
Geniş ətəkli ol, çünki meyvələr
Geniş ətəklərə daha çox düşər.
***
Yaxşıdır yaxşılığın çox olsa hər nə qədər,
Yaxşılıq et ki, sənə çox yaxşılıq ediblər.
***
Yaxşı adamların göz yum eybinə,
Yaxşı şey öyrətməz yaman göz sənə.
Yamanlıq etməkdən uzaq ol, uzaq,
Pisliyin əvəzi pislik olacaq.
***
Xoş ətirlər saçmaq istəyən adam,
Gül tək xoşxasiyyət olmalı müdam…
Bilir bu hikməti hər arif kişi,
Pis nəticə verməz yaxşının işi.
***
Yaxşılıqla çatdırsa hər kəs işini sana,
Yaxşı üz göstərəcək öz yaxşılığı ona.

*Hafiz Şirazi hikmətləri:*

Məni adla qorxutma, şam tək dayanmışam mən,
Aşiq oddan qaçarsa, aşiq sayılmaz əslən.

***

Can mülkündə şadlıq quşun – məhəbbətdir,
Ülviyyətə hər uçuşun – məhəbbətdir.
Bu dünyada şan-şöhrətin şərəf tacın,
Əbədiyyət qurtuluşun – məhəbbətdir.

### *Sədi Şirazi hikmətləri:*

Bilsən əcdadının qədrini uca,
Adın ləkələnməz dünya durduqca.
Nə qədər ki, vardır əlində qüdrət,
Kərəm sahibi ol, göstər mərhəmət.

***

Varlı vaxtında kömək etməyən, yoxsul zamanında kömək görməz.

***

Ağıllı həm yeyər, həm verər yada,
Həsrətlə can verər xəsis dünyada.

***

Oxşa könülləri, xalqı sal yada,
Təkcə öz halına qalma dünyada.

### *Əbülqasim Firdövsi:*

Hörmət və izzət pula alınmır, onu göstərdiyin xeyirxahlıqla əldə edə bilərsən.

### *Məhəmməd Füzuli kəlamlarından:*

Comərd odur gen süfrəsi qəlbi kimi bəlli, açıq,
Dostuna da, düşmənə də səxavətli, əliaçıq.

***

Ya rəbb, bəlayi-eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi-eşqdən etmə cüda məni.





### *Mövlana hikmətləri:*

Eşq, məhəbbət, dostluq kimi insani xüsusiyyətlərin cümləsi vəfaya bağlıdır. Və daima vəfalı olan kimsəni arayıb axtararlar. Onlar vəfasız bir könülə əsla yaxınlaşmazlar... Dənizə qovuşan bir çayda çay bütünlüklə batıb yox olar, qarışdığı dənizin bir parçasına çevrilər... Yediyimiz bir parça çörək varlığımız içində əriyər və vücudumuzun bir parçası halına gələr. Sevən bir kimsənin varlığı da duyduğu məhəbbətin şiddəti qədər sevdiyində qeyb olar...

***

Eşq olmasaydı, varlıq haradan olardı ki?! Çörək nə təhər özünü sənə verərdi, sənin vücuduna qatılardı və bütünlüklə sənə çevrilərdi?! Çörək özünü sənə verdi, sən oldu! Nədən belə oldu? Eşqdən, istəkdən! Yoxsa çörəyin sənin bədənində can olmasına yol verilərdimi?! Eşq ölü çörəyə belə can bağlayır! Fani olan canını sənə qatır, özünü səndə əbədiləşdirir.

***

Sən elə böyük bir varlığın eşqini seç ki, bütün peyğəmbərlər Onun eşqiylə qüdrət və qüvvət tapdılar, şərəf və səadətə çatdılar.

***

Bil ki, qəlbi (batini) ilahi eşq və məhəbbətlə dolu olmayan insan nə qədər zavallıdır, bəlkə də, heyvandan daha aşağıdır. Zira Əshabi-kəhfin köpəyi dəxi eşq əhlini aradı və tapdı. Ruhani bir mərtəbəyə ucaldı və o xas qullarda fani olaraq cənnəti qazandı.

***

Qızılgül o gözəl qoxusunu tikanla xoş keçindiyi üçün qazanmışdır. Bir bax o nə deyir: «Tikanla bərabər olduğum üçün nədən qəmə düşüm, nədən özümü kədərə salım. Mən ki, gülməyi o mənfi xasiyyətli tikanın bərabərliyinə qatlandığım üçün əldə etdim. Onun vasiləsi ilə aləmə gözəlliklər və xoş qoxular vermək imkanına qovuşdum...»

*Nəsirəddin Tusi:*

Səxavətsiz səadət olmaz.
Bir ürəyi ələ gətirmək, min Kəbə ziyarətindən yaxşıdır.

*İmadəddin Nəsimi:*

Sən özünü dərk eləsən, dərk edərsən tanrını da,
Mənə idrak aləmində yaxşılıqdır yalnız rəhbər.
***
Şəfqət sözü, mürvət sözü yazıq xalqa deyil nəsib,
Bunun halı ondan betər, onun halı bundan betər.

*Əvhədi Marağayi Rüknəddin:*

Kamal sorağında olanlara sən
Çalış ki, varından bir pay verəsən.

*Əhməd Xani:*

Hər kimdə olarsa möhkəm iradə,
Məhəbbət yolunda yetər murada.
Məhəbbət əvəzsiz güzgüyə bənzər,
Sirlər xəzinəsi onda əks edər.

*Abbasqulu ağa Bakıxanov:*

İnsaf qəlbin incəliyindən doğduğu üçün, insaflı adam daşürəkli ola bilməz və ayağını etidal cızığından kənara qoymaz.
***
Yaxşılıq odur ki, onda ümuminin mənfəəti olsun.





*Qasim bəy Zakir:*

Daş daş üstə durmaz aləmdə əsla,
Dəyməsə insana insandan mədəd.

*Mirzə Şəfi Vazeh:*

Bu dünyada kəskinlikdən, zor, gücdən artıq
Səmər verər xeyirxahlıq və mehribanlıq.

*Hüseyn Cavid:*

Çalış, parla, yüksəl! Unutma ancaq,
Yaşamaq bir haqsa, yaşatmaq da haqq.
***
Mənim tanrım gözəllikdir, sevgidir.
***
Mən gözəllikdə gözəl ruh araram,
Ruhu düşkünləri çirkin sanıram.
***
Məhəbbətsiz bütün mənayi-xilqət, şübhəsiz, heçdir,
Məhəbbətdir əvət, məqsəq bu pürəfsanə xilqətdən.
***
Dünyada varsa dövləti – Cavid – o eşqdir,
Olmaz sevib-sevilməyən ömründə bəxtiyar.

*Məhəmməd Hadi:*

İnsana məhəbbət sözü var məzhəbimizdə,
Həqq «sureyi-insan» oxunur hikmətimizdə,
Təkfiri-üməm, büğzi-miləl, nifrəti-əqvam…
Əql eylədi bu sözləri ezamını elan.

*Səməd Vurğun:*

Eşqsiz yaşayan donuq bir insan,
İçini qurd yemiş boş bir ağacdır.
Əsrlər dolanır, dəyişir zaman,
Məhəbbət əbədi bir ehtiyacdır.

***

Məhəbbət! Ömrü sevdasız yaşatmaq bir cinayətdir,
Gözəllik! Canlı bir sənət, əzəldən ömrə zinətdir.

*Nəbi Xəzri:*

Kim sevmir, həyatda ən bədbəxt odur,
Doğulur cahanda o neçin, niyə?
Sevilmək, bəlkə də, ulu arzudur,
Sevmək uzaq yoldur müqəddəsliyə.

*Mirzo Tursunzadə:*

Məhəbbət hökm etsə qətrə çay olar,
Eşqin otağında dünya yurd salar.

*Rəşad Nuri Güntəkin:*

Ayrılıq böyük məhəbbətləri daha da qüvvətləndirir, natamam olanları isə öldürüb məhv edir.

*Osman Nuri Topbaş:*

Məhəbbət sevənlə seviləni eyniləşdirər və ya biri digərini mənliyində yox edər! Məhəbbət artdıqca yönəldiyi varlıqla bütün əlaqələri, hər şeyi içinə almağa başlayar və onlara nüfuz ilə sirayət edər.





***

İnsanlar arasında özünü bilənlər üç vəsfə sahib olan kimsələrdir: ruzigarı belə incitməyənlər, öz ad və sifətlərini söyləməkdən həyalanan kimsələr, xalqın məxluquna mərhəmət və şəfqət ilə nəzər edənlər.

*Dr. Aydın Topaloğlu:*

Bütün canlılarda eşq, sevgi, sədaqət və vəfa hisslərinin mənbəyi Tanrı sevgisidir. Eşq və sevgi ilə dolu olan Tanrı insan xarakterinə də bu xüsusiyyətləri daxil etmişdir. İnsanın bunları başqa yerdən (təbiətdən) alması mümkün deyildir.

İnsan bir şeyə tərəddüdsüz inanırsa, bu inam onun düşüncələrini, duyğularını və davranışlarını dəyişdirir. İnanmaq insana doğru yolu tapmağa kömək edir, böyük uğurlara aparır. İnam nəfsi, qəlbi rahatlığa qovuşduran güclü baxışlar sistemidir. İslamiyyətdə əqidə şəriətlə bağlıdır, inam imanın təməlidir. İnam sahibi sözünü əməli ilə təsdiqləyir. Qəlbinin hökmlərinə əməlləri ilə möhür vurur. İnamın kökü Allaha inamdır.

***

İnsan ona görə Allahı sevməlidir ki, sevgiyə səbəb olan hər gözəllik Ondadır.

***

Sevginin əsli qəlbdə, təzahür və əlamətləri zahirdə, əməldə olur. Sevgi insanlara görə dəyişə bilər. İnsanın ruhunda sevgi ilə bərabər nifrət duyğusu da güclüdür. Amma sevginin miqyası daha böyük olur. Yerində və zamanında sevgidən mərhəmət, şəfqət və insanlara kömək yaranır. Sevginin maddi tərəfinə gözəl sima, xoş səda... səbəb ola bilər. Mənəvi dəyərləri qəlbin və ağlın anlaması da sevgi yaradır. Sevginin başqa bir səbəbi də insana edilən yaxşılıq qarşısında onun qəlbində yaranan minnətdarlıq duyğusudur ki, bu duyğu sevgini bəsləyir. Çünki qəlb yaxşılıq edənə sayqı, sevgi göstərmək qabiliyyətinə malikdir.

***

Sevgi bağlılıq və fədakarlıq istər. Sevgi özünü düşüncə və

davranışlarda göstərir. Sevən sevdiyini daim anır.

*«Qabusnamə»dən:*

Xalqın qəm və kədərinə gülmə ki, xalq da sənin qəm və kədərinə gülməsin. Ədalətli ol ki, ədalət görəsən, xoş de ki, xoş eşidəsən. Şoranlıqda toxum əkmə ki, bar verməz, əməyin hədər gedər, yəni namərd adama yaxşılıq etmək şoranlığa toxum atmaq kimi bir şeydir. Lakin yaxşılığı layiq olan adamlardan əsirgəmə və yaxşılıq öyrədən ol ki, Peyğəmbər (s.) demişdir: «yaxşılıq yolunu göstərən adam, yaxşılıq edən adama bərabərdir».

***

Aynaya baxdıqda özünü kifir görsən, yenə yaxşılıq et, çünki çirkinlik etsən, kifirliyi artırmış olarsan. Bu isə çox pis şeydir. Bir çirkinlik üstünə, bir də çirkinlik gəlsə, bir yerdə iki çirkinlik olar.

*«Kəlilə və Dimnə»dən:*

Yaxşılıq elə, yaxşılıq batmaz,
Yaxşılığa həmişə əl çatmaz.
Pislik isə görünməz kölgə kimi
İzlər o, insanı, o xəbis yatmaz...

*Azərbaycan atalar sözləri:*

Qocaya hörmət elə, sən də qocalacaqsan.
Dəyirman iki daşdan, məhəbbət iki başdan.
İstək gözdə olar, məhəbbət ürəkdə.
Göz görmək üçündür, könül sevmək üçündür.
Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir.

Hörmətli oxucu! Bu bölməni Saleh bəyin dedikləri ilə yekunlaşdırmaq qərarına gəldik: «Həyat nə üçündür?» İnsanların bütün nəsillərini düşündürən bu suala şairlərin cavabı belədir: «Məhəbbət üçün». Görünür, bu həqiqətdir bütün canlılar üçün. Heyvanlar, böcəklər, bitkilər məhəbbətə can atır, məhəbbət məqamı üçün gözəlləşir, xüsusən bitkilər – hamıdan gözəl çiçəklərdir. İnsanlar yalnız canlı deyillər, əlavə onlara dərrakə, hətta yaratmaq qabiliyyəti bəxş edilmişdir. Paskal deyir: «...bütün cisimlərin hamısı, bütün ağılların hamısı və onların yaratdıqlarının hamısı mərhəmətin bircə istəyinə bərabər ola bilməz – bu təzahür müqayisəedilməz qədər yüksək qəbildəndir». Bu sözlər şair ilhamının təzahürü deyil, fizika-riyaziyyat alimi Paskalın dərrakəsinin çıxardığı nəticənin, Blezin insaniyyət kəsəri ilə cilalandırılmış məhsuludur: hər şeydən yüksək mərhəmətdir».





Məhəmməd peyğəmbərin (s.) 1400 il əvvəl dediyi bir kəlamı bir daha təkrar edirik: «...Yerdəkilərə mərhəmət ediniz ki, göydəkilər də sizə rəhm etsin.»

## Mərdlik – qorxuya nifrət, qələbəyə başlanğıc, dost isə çətin və ağır günlərin dayağıdır

Mərd olmaq yaxşıdır dünyada hər an,
Mərdlik ilə çatar arzuya insan...
Mən meydan əriyəm, sən də bir kişi,
Mərdliklə seçilir hər mərdin işi.
*Nizami Gəncəvi.*

Mərd insan istənilən şərt və şərait altında yaxşılıq etmək qabiliyyətindədir. Mərd insan harada olursa-olsun, etibar və cəmiyyətin hörmətini qazanır. Əbəs deməyiblər: «Mərdin ölüsü, namərdin dirisindən şərəflidir». Öz əxlaq və şəxsiyyətinə uyğun olan insanlar arasında dostluq yaranır. Ümumiyyətlə, dostluq şəxslər arasındakı müsbət və ya mənfi bərabərlik və

müştərəklikdən qaynaqlanır. Həqiqi dostluq yüksək şəxsiyyətlərin səmimi ruhlarında qovuşur. Dostluğun zirvə səviyyədə yaranması iki nəfərin, ən yüksək halda iki dövlətin eyni duyğulara sahib olması, adətən, iki bədəndə bir ürək halına gəlməsi ilə mümkündür. Buna Türkiyə – Azərbaycan dostluğunu göstərmək olar: «Bir millət, iki dövlət.»

Osman Nuri Topbaşın dediyi kimi: «Bir kimsəni əbədi səadətə gətirəcək həqiqi dostluq «Haqq ilə qurula bilən dostluqdur.»

Siyasət xatirinə qurulan dostluq əbədi olmaz, tez-gec bu «dostluğun» saxtakarlığı üzə çıxacaqdır. Necə ki, sovetlər dövründə ermənilərlə olan «dostluğumuz» kimi.

Yaxud Osmanlılar dövründə ermənilərin türklərlə «dostluğu». Belə saxta dostluğun sonrakı aqibəti hamıya məlumdur. Daşnaklarla necə dostluq etmək olar ki, onlar bütün bəşəriyyətin düşməni, iblisidirlər. Belələri yalnız öz xislətlərinə uyğun şeytanlarla dostluq edə bilərlər. Belə iyrənc dostluq mənfi intellektual ekologiyanın yaranmasına xidmət edir.

Nanəcib dost öpsə ayaqlarından,
İnanma, aldadır səni hiyləgər.
İbadət edəndə oğru cib kəsir,
Ovçu dən verəndə quşa tor qurur.

***Sədi Şirazi***

Hörmətli oxucu, indi isə Ön və Orta Şərqin hikmətli kəlamlarına müraciət edək:

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Qüvvətli adam güləşdə qalib gələn deyil, qəzəblənən vaxt qəzəbini boğa biləndir.

Allah-Taalanın nəzərində ən yaxşı dost öz dostuna sirdaş olan, ən yaxşı qonşu isə öz qonşusu ilə yaxşı dolanandır.





***İmam Əli (ə) buyurmuşdur:***

Əyninə uyğun geydiyin paltar kimi, dostluq etdiyin şəxs də gərək öz əxlaq və şəxsiyyətinə uyğun olsun.

***Nizami Gəncəvi kəlamlarından:***

Hünər sahibi olan comərd insan dünyada,
Məsləkini dünyaya satmaz, inan dünyada.

***

Mən ölü olsam da, ən mərd bir kəsəm,
Karvanda gedərəm, karvansız şəxsəm.

***

Arpa çörəyinə edib qənaət,
Buğda çörəyinə çəkmərəm minnət.

***

Yemə çörəyini yad süfrələrdən
Öz süfrən üstündə sən çəkmə pərdə.

***

İnsanla yaşayan mərddir, kişidir,
Kimsəni sevməmək namərd işidir.

***

Bərk ayaqda səmimi, ürəyi təmiz yoldaş,
Nə ayağından çəkər, nə səndən qaçırar baş...

***

Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxarar onların əli.
Nifaq olan yerdə fəlakət də var,
Səadət günəşi birlikdə doğar.

Ağıllı adamla dost olsan əgər,
Elmi, mərifəti sənə də keçər.

***

Çox gözəl olsa da eybi gizləmək,
Dost dostun eybini örtməsin gərək.

***

Qəm, qüssə gətirsə də ağıllı düşmən cana,
Mərifətsiz bir dostdan çox yaxşıdır insana.

***Əfzələddin Xaqani kəlamlarından:***

O insan ki, dözüb dərdə, baş əyməz mərdə, namərdə,
Onu diz çökdürə bilməz, tutan dörd əllə dünyanı.

***

Çalış alçaq adamlardan tikə alma dünyada,
Onlar səni rüsvay edər, gedər hörmətin bada.

***

Dostun üz döndərib, kimi etsə rədd,
Qardaşın olsa da, önünə çək sədd.

***Əbu Əli İbn Sina:***

Düşməninlə dost olana sən də bax bir düşmən kimi,
İlan üstə qonan milçək zəhərlidir ilan kimi.

*Mövlana:*

Hər kəsin, hər şeyin ona möhtac olduğu, lakin özünün heç bir şeyə ehtiyacı olmayan Allahın tərtəmiz zatına and içirəm ki, pis ilan pis dostdan yaxşıdır. Pis ilan insanın canını alır. Fəqət pis dost insanı atəşə atar, yaxar, yandırar.

***Məhəmməd Füzuli:***

Rəzilə dost olanın hasili rəzalət olur,
Həzər qıl aqibətindən, rəzilə dost olma.

***Sədi Şirazi:***

Minnətlə alınca alçaqdan təam,
Yeyib kökəlsə də, alçalar adam...
Alçalmaq yoluyla kim tapsa çörək,
Özünü alçaltmış o adam, demək.





***

Mərdlər quyu qazar susuzlar üçün,
Namərd quyu qazar, adamlar düşsün.

***

Bir günah edəndən sən üz döndərmə,
Ona əfv edənlər kimi sal nəzər.
Mən əgər cavan mərd deyiləm işdə,
Sən mərd ol, kərəmlə bir qaygı göstər.

***

O adam mərd deyil aqil yanında
Ki, qızmış fillərə oxuya meydan.
Bəli, mərd odur ki, düzlüyü sevə,
Acığı tutanda deməyə hədyan.

***

Şir yeməz heç zaman it artığını,
Acından ölsə də bir mağarada.
Biçarə, qarnıac yaşasan belə,
Alçağa əl açma, sakın dünyada.

***

Tədbirləri baş tutmayanda düşmən dostluq fikrinə düşər və dostluqla elə işlər görər ki, onu heç bir düşmən bacarmaz.

***

Haqqı yad etməyən min qohumdansa,
Xoşdur bir yad dosta ürək bağlansa.

***

Ona dost demə ki, süfrə başında,
Deyə: «Qardaşın da, dostun da mənəm».
Ona dost deyərəm ki, çətin gündə
Dostun arxasında dayana möhkəm.

***Nəsirəddin Tusi:***

Yaxşı gündə dost tapmağa nə var?!
Əsl dostlar ağır gündə tanınar!

***

Ayıq olun, a dostlar, haray verin haraya,
Qoymayın sözgəzdirən girə bilsin araya!

***

Dostun yoxsulluğa düşəndə gülərüzlə, xoş sifətlə qarşılamalısan.

***

Dost olmaq istəsən birisiylə sən,
Gərək söz anlayan bir dost seçəsən.

***Ömər Xəyyam:***

Mərd adam, adətən, şikayət etməkdən əzab çəkir, zəif adam isə, əksinə, əzab çəkməkdən şikayətlənir.

***Əvhədi Marağayi Rüknəddin:***

İnsanın zinəti hünərdir, hünər,
Onsuz insan oğlu miskin görünər.

***

Dosluqda dost ilə bir ol, səmimi,
Bir qabıq içində cüt ləpə kimi.
Dostluq etibardan, vəfadan törər,
Nə dostluq etibar olmasa əgər?!

***Saib Təbrizi:***

Dostun ayağını qapmayan it, dostluq hüququndan xəbərsiz qara fikirli adamdan yaxşıdır.

***Əbdürrəhman Cami:***

İgidlər yükü qeyrət və cəsarət zoru ilə dartarlar, bədəninin böyüklüyü, cüssəsinin zorbalığı ilə aparmazlar.

Dost deyildir, nakişidir o kəs ki,
Öz dostunu məqsəd üçün edir yad.

Ağıllı, səxavətli adamlar mallarını dostlarla yeyərlər, ağılsız, xəsislər isə yeməyib, düşmənlərə saxlayarlar.





***Əbül Fərəc:***

Düşməni dosta döndərmək xoşbəxtlik isə, dostu düşmən etmək ən böyük bədbəxtlik və ağılsızlıqdır.

***Xosrov Ruzbeh:***

İnsanı məhkum etmək olar, lakin şücaəti, mərdliyi, vətənpərvərliyi, şərəfi və fədakarlığı məhkum etmək olmaz.

***

Dostu düşmənindən seçməyi bacar,
Dost üçün canından keçməyi bacar.

***Məhəmməd Tağı Sidqi:***

Vədəsinə vəfa etməyən adamın dostları da ona düşmən olur.

***

Adamın yaxşı dostları olsa ömrü zindanda da xoş keçər.

***Molla Vəlı Vidadi:***

Mərdlər ilə gəz ki, vəfadar olur,
Nakəslərə yoldaş olan xar olur.

***Molla Pənah Vaqif:***

Mərd igidlər özünə məhbəsi meydan bilir,
Sanma kim, nakəsi namərd bu meydanə düşər...
Hər yaman yer ki, olur – yaxşıların mənzilidir,
Ləl daş içrə, xəzinə dəxi viranə düşər...

***

Dost dostun yolunda düşər ziyana,
İgid gərək tab gətirə, dayana.

***Qasim bəy Zakir:***

Vəfalı bir dost ki, ayrıla dostundan,
Cana ləşkər çəkər qəm qəmin üstdən.

***Abbasqulu ağa Bakıxanov:***

Mərd o insandır ki, öz eybini özgələrininkindən artıq görsün, öz hünərini kiçik şey saysın.

***

Dünya malına və rütbəyə vurulmuş adamla dostluq etmək yaramaz. Çünki belə adam zərurət vaxtında insanlığın bütün şərtlərini pozar.

***Aşıq Ələsgər:***

Mərd oğlun qəhrin çəkər mərd ana,
Mərd igid meydanda durar mərdanə.

***

Bir mərd ilə ağı yesən şirindi,
Yüz namərdlə şəkər yesən dad olmaz.

***

İgid odur namusunu atmasın,
Dost ölüncə dosta yalan satmasın.
Bir baş ki, ilqara qurban getməsin,
Onu bir qarpıza dəyişmək olar.

***Aşıq Abbas Tufarqanlı:***

Canım qurban olsun həmişə mərdə,
Ay yaradan, fürsət vermə namərdə.

***Aşıq Hüseyn:***

Namərd sənə quzu-plov yedirtsə,
Mərdin quru məhəbbəti yaxşıdır.

***Seyid Əzim Şirvani:***

İttifaq eylə dost ilə hər an,
İttifaq ilə ömür olur asan.

***Şeyx Məhəmməd Xiyabani:***

Amal uğrunda ölmək əbədi yaşamaqdır.





***Səməd Vurğun:***

Unutmaz tarixin böyük günləri,
Dünyaya mərd gəlib, mərd gedənləri.

***Rəsul Həmzətov:***

Əsl kişi odur ki, seçsin haqqı nahaqdan,
Keçsin şirin canından azadlıq döyüşündə.

***Bəxtiyar Vahabzadə:***

Qoy ağıl, qeyrətin getsin dalınca,
Qoy yedək olmasın ağıla qeyrət.
Ağlımız qeyrətdən geri qalınca,
Dönür əfsanəyə, nağıla qeyrət.

***«Qabusnamə»dən:***

Dost olsa qardaşım, qardaş yaxşıdı,
Düşmən olsa, qara bir daş yaxşıdı.

***

Qardaşım, əlini üz dostundan,
Ki, düşmənlə durub-otura hər an.

**«Kəlilə və Dimnə»dən:**

Düz və təmiz adamlar arasında dostluq möhkəm olar.

***

Düzgün olar düşmənindən, gər çəkinsən dostların,
Yaxşıdır sən dost olasan dostlarıyla dostların.
İki şeydən bu cahanda əmin olma, ey könül:
Dostlarından düşmənlərin, düşmənindən dostların.

***

Pis adamdır dost-aşnası az olan,
Dost itirən ondan da pisdir inan.
Dostun dönüb olsa əgər bir əğyar,
Elə et ki, yenə olsun sənə yar.

***Azərbaycan atalar sözləri:***

Mərddən bir xəta, namərddən min.
Mərdi qova-qova namərd eləmə.
Mərdin gözü tox olar, namərdin gözü ac.
Mərd mərdi qanar, bərkdə oduna yanar.
Mərd özündən bilər, namərd yoldaşından.
Mərdin ölüsü, namərdin dirisindən hörmətli olar.
Dünya səfasıyla gözəldir, dost vəfasıyla.
Dostun məhək daşı yaman gündür.
Yoldaşları ilə birgə uçmayan quşun səsi havadan yox, tavadan gələr.
Dost yarası sağalsa belə, yerində çapıq qalar.

***Türk atalar sözü:***

Dostluq şüşə kimidir, sındırsan düzəldə bilməzsən.

***Kərkük atalar sözü:***

Qərib dostu olmayandır.

***Fars atalar sözü:***

Dost dar gündə bilinər, süfrə başında düşmən də dost görünər.

***Monqol atalar sözləri:***

Kürkü yağış korlar, dostluğu rişxənd.
İnsan dostluqdan tanınar, həqiqət müqayisədən.
Qurumuş gölün sonası olmaz, hərdəmxəyalın dostu.

Əziz oxucu, bu bölməni dahi Mövlana Cəlaləddin Ruminin inci xəzinəsindən hıkmətlı kəlamlarla yekunlaşdırırıq:

Şəfqət və mərhəmətdə günəş kimi ol,
Qüsurları örtməkdə gecə kimi ol,
Dostluq və qardaşlıqda axar su kimi ol,
Təvazödə torpaq kimi ol,





Hiddət və qəzəbdə ölü kimi ol,
Hər nə olursan-ol, ya olduğun kimi görün, ya göründüyü kimi ol!

## Əmək insanın formalaşmasında, gənc nəslin tərbiyəsində, bəşəri əlaqə və münasibətlərin yaranmasında əsas meyardır

Həyatın cövhəri yalnız əməkdir,
Zəhmətsiz bir insan nəyə gərəkdir.
*Nizami Gəncəvi.*

Özünü əməyə alışdırmaq yaxşı olar, çünki biliyə çatmaq üçün də əmək lazımdır.
*Əbülqasim Firdövsi.*

Əmək insanın məqsədəuyğun fəaliyyətidir. Əmək hər şeydən əvvəl, insanla təbiət arasında baş verən bir prosesdir. Bu prosesdə insan əmək alətlərinin köməyi ilə təbiətə təsir göstərir və ondan öz tələbatını ödəmək üçün zəruri olan istehlak dəyərləri yaratmaq məqsədilə istifadə edir. Əmək insanla birgə yaranmışdır.

İlk insan övladı Adəmdən (ə.) başlamış müasir dövrə qədər zəhmət çəkmək məxluqatı müşayiət etmiş və edəcəkdir. Uşağın ana bətnindən azad olub, ilk nəfəs alması ilə başlanan zəhmət axirət evinə qədər onu müşayiət edir. Hətta atalar demişkən: «Ağlamayan uşağa süd vermirlər.» Ağlamaq özü də zəhmətin bir növüdür. Sonra uşaq ailədə yetkinləşir, tərbiyə alır, zəhmətlə elm və ya sənət sahibi olur, yaşadığı dövlətin vətəndaşlıq statusunu alır, ailə qurur, zəhmətlə ailəsinə ruzi qazanır, uşaqlarını tərbiyə edir... Beləliklə, insanın formalaşmasında əmək

həlledici rol oynayır. Qeyd etmək lazımdır ki, gənc nəslin tərbiyəsində ailənin rolu danılmazdır. Valideynlər övladlarını əməyə alışdırmaq əsasında tərbiyə etməlidirlər. Əmək tərbiyəsi qədim tərbiyə sahələrindən biridir. Bütün dövrlərdə tərəqqipərvər mütəfəkkirlər, dahi insanlar əmək tərbiyəsinin insanda müsbət keyfiyyətlər aşıladığını göstərmişlər. Əmək tərbiyəsi əqli, əxlaqi və fiziki tərbiyə ilə sıx əlaqədardır. Əmək tərbiyəsi uşaqlara elmi qanun və qanunauyğunluqların tətbiqini öyrətməklə bərabər, həm də insan əməyinə, əmək adamlarına, bəşəriyyətə və ekologiyaya hörmət, əmək məhsullarına qayğıkeş münasibət hissləri aşılayır. Əfsuslar olsun ki, həmışə insanların əksər hissəsi – zəhmətkeş sinif hakim sinifdən tam asılı vəziyyətə düşmüş, istismarçılar üçün qazanc mənbəyinə çevrilmişdir. Keçmiş sovetlər məkanında, «sosializm» deyilən bir formasiyada da «hər kəsin əməyinə və qabiliyyətinə görə» şüarı bir cəfəngiyat idi. İstismar quldarlıq dövründən başlamış, müasir dövrdə də davam edir. «Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş» prinsipi ta qədimdən olmuş və davam etməkdədir.

Tarixə nəzər salsaq görərık kı, cahü-cəlal, pul, mal-dövlət hərisliyi əmək qanunlarının pozulmasına, ədalətsizliyə, zülmə, qəddarlığa, daha çox qazanmaq üçün təbiətin ekoloji tarazlığının pozulmasına, terrorizmə, neofaşizmə, nasizmə, mənfi intellektual ekoloji faktorların durmadan genişlənməsinə səbəb oldu. Ta qədimdən humanist mütəfəkkirlər ideal cəmiyyət haqda düşünmüş, öz arzularını əsərlərində tərənnüm etmişlər. Bu cəhətdən dahi Nizaminin ideyaları daha xarakterikdir. Şair öz qəhrəmanı İsgəndəri bilici Bəlinasın dili ilə başa salır ki, dünyada taxt-tac, şöhrət və dövlət hamısı müvəqqətidir, yaxşı ad isə daimidir. İnsan çalışmalıdır ki, özündən sonra yaxşı ad qoyub getsin, buna isə ancaq yaxşı əməllərlə nail olmaq mümkündur

Hələ vaxtilə humanist sənətkar Nizami Gəncəvi tədricən «ədalətli» hakimlərin də bəşər cəmiyyətinə insanların həmişə arzulamış olduğu səadət gətirə biləcək fikrindən əl çəkməyə





başlayır və «İqbalnamə»sində İsgəndəri azad cəmiyyət münasibətləri hökm sürən səadət ölkəsinə gətirir və bununla da təsdiq edir ki, bəşər cəmiyyətinin səadətli gələcəyi ədalətli şah konsepsiyası ilə deyil, ancaq maddi və mənəvi azadıq ideyaları ilə bağlıdır. Nizaminin bu «sosial utopiyası», onun təsvir etdiyi azad cəmiyyət görüşləri o zamankı dünya ədəbiyyatında, çox güman ki, birinci və misilsiz idi.

Əziz oxucu! Bu fikirləri dahi Nizami 850 il əvvəl demişdir. Bu, tarix üçün çox da böyük müddət deyil. Biz əvvəllər də qeyd etmişdik ki, vaxtilə utopiya olan bəzi arzular, sonradan həqiqətə çevrilmişdir. Buna vaxt, zaman və insan intellektinin təkamülü səbəb olmuşdur. Nizaminin bu humanist fikirləri o zaman həqiqətə çevriləcəkdir ki, bəşəriyyət ekoloji fəlakətlə üzüzə dayanacaq: «olum, ya ölüm». Bu proses əvvəllər qeyd etdiyimiz kimi, anbaan inkişaf etməkdədir. Bunlarla paralel insan intellektinin inkişafı, intellektual ekoloji sferanın dəyişməsi, «xırda padşahlar»ın da mövcud vəziyyətlə barışması baş verəcək. Onlar da başa düşəcəklər ki, həyatda daimi bir şey yoxdur. İnsan yalnız ölmək üçün yaranıb. Yunus Əmrə demişkən:

Ananın bətnində gəldik bazara,
Bir kəfən götürüb döndük məzara!

Ey qafil insan, həyatda elə davran ki, məzara dönəndə, heç olmasa, kəfən qismətin olsun.

Nə qədər ağıllı hərəkət edirsiniz-edin, nə qədər çox çalışırsınız-çalışın, zəkanı işlətdiyiniz ölçüdə uğur qazanacaqsınız. Bacara biləcəyinizə, uğur qazanacağınıza nə qədər az inanırsınızsa, o qədər də çox çalışmaq lazımdır.

Hörmətli oxucu, indi isə əməyin insanın başlıca meyarı olması, pul, var-dövlət hərisliyi, zamanın hər anın hökmü haqda Qurani-Kərimdə buyurulanlara, qüdrətli kəlamlara müraciət edək.

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Allahın əmri çalışqanlıqdır. Əzəmətli Xaliqin buyurduğu ancaq çalışmaqla hasil olur.

Allah dilənçiliklə deyil, öz əməyilə dolanana mərhəmət göstərir.

***Nizami Gəncəvi kəlamlarından :***

Quruda, dənizdə kim çəksə zəhmət,
Balıqdan dürr alar, öküzdən sərvət.

***

Bir xaraba görsən qurmağa tələs,
Məsləhət belədir, əməyin itməz.

***

Zəhmətlə açarsan bağlı tilsimi,
Açdın, xəzinə çıxar, aydın gül kimi.

***

Bir gün bar gətirər ağac əkənlər,
Xəzinə aparar əmək çəkənlər.

***

Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər.

***

Hər halda sən çalış, həyat əməkdir,
Cənnət kahıllığı nəyə gərəkdir?
Kim qayğı bəsləsə öz əməyinə,
Özgəyə pis baxsa, o pisdir yenə.

***Əbülqasim Firdövsi kəlamlarından:***

Hasil olur ancaq zəhmət ilə mal,
Zəhmətsiz xəzinə tapmaz boş xəyal.





***

Özünü əməyə alışdırmaq yaxşı olar, çünki biliyə çatmaq üçün də əmək lazımdır.

***

Hər kim əmək çəkməkdən utanırsa, onun həyatı ağır keçər.

***Hafiz Şirazi hikmətləri:***

Zəhmət çəkməyən rahatlıq görməz.

***Sədi Şirazi hikmətləri:***

Qoy səni doydursun çəkdiyin əmək,
Sənə öz hünərin eyləsin kömək.

***Mövlana:***

İnsanın xoşbəxtliyi onun çox çalışmasındadır.

***Nəsirəddin Tusi:***

Kim qarşılıqlı köməyə və əməyə xor baxar, onu kiçik, əhəmiyyətsiz bir iş hesab edərsə, həqiqətdə rəzil və xırda (cılız) adam özüdür.

***Saib Təbrizi:***

Əmək insanın başlıca meyarıdır. İşləməkdən boyun qaçırıb sınıq qol kimi xalqın çiynindən asılmaq alçaqlıqdır.

***Sənan Qəznəvi:***

Tapar zəhmət əhli xəzinə daş-qaş,
Şirin yuxulardır ölümə yoldaş.

*Mirzə Ələkbər Sabir:*

Əmək aclığın atası, qida həzminin babasıdır.

*Həsən bəy Zərdabi:*

Fiziki əmək xəstəlikləri müalicə edir, şərə qalib gəlir, insanda əxlaqi intibah əmələ gətirir.

*Nəriman Nərimanov:*

İnsan ruhunu ucaldan bir çox şey varsa, onun birincisi zəhmətdir.

***

Qabarlı əldə olan hünər, qeyrət, ağ əlcəkli əldə ola bilməz.

*Hüseyn Cavid:*

Yaşamaq istəsən çalış, çapala,
Rəd olub gurla, bərq olub parla!

***

Bilgi saçar hər qaranlıq yurda işıq
Yalnız əmək verir bizə bəxtiyarlıq.

*Səməd Vurğun:*

Bəzən işləyirik ay batanadək,
Müftə yaranmayır torpaqdan çörək.

*Mikayıl Müşfiq:*

Əmək insanlığın tükənməz varı...
Əmək sərf olunan yer cənnətimdir,
Hüsnümdür, eşqimdir, səadətimdir.





*Məhəmmədhüseyn Şəhriyar:*

Dünyada ən gözəl şah əsərləri,
Yaratdı zəhmətin cəsur əlləri.
Zəhmətə arxalan, işə güvən sən,
Budur tərəqqinin yolu əzəldən.

*Abay:*

Əmək sevinc, tənbəllik isə ağır bəladır.

*Nəbi Xəzri:*

Zəhmət çəkib qabar atan əllərə hörmət!
Çəpik çalıb qabar atan əllərə lənət!

*Mir Mehdi Seyidzadə:*

Zəhmətdi bizi şən yaradan, bir də həvəsdi,
Bədbinlərlə, tənbəllərə aləm quru səsdir.
Pay umma sən öz dostlarının mərhəmətindən,
Arif olana zəhmətinin barı da bəsdi.

***

Gənclik və gözəllik kimi bir nemət olarmı?
İnsanın ağıl gövhəritək sərvət olarmı?
Arif olana xalqı üçün zəhmətə düşmək,
El dərdini çəkmək əbədi zəhmət olarmı?

***

El dərdini duymaz elə biganə olanlar,
Hər arifə el zəhməti asan gərək olsun.

*Əvəz Mahmud:*

Əməkdir insanı ucaldan, qardaş,
Zəhmətə həmdəm ol, torpağa sirdaş,
Vətən sarayında çatmasa bir daş
Ora ürəyini qoyasan gərək.

***Azərbaycan atalar sözləri:***

Zəhmətin axırı insan rahatlığıdır.
Zəhməti sevən işdən doymaz.
Zəhmətlə yaşayan, el gözündə uca olar.
Zəhmət çəkməyən bal yeməz.
Zəhmət çəkməyən rahatlığın qədrini bilməz.



# IV FƏSİL

# Mənfi intellektual ekoloji sferanı yaradan amillər

Qurani-Kərimdə buyurulur: «Əgər Allah insanlara xeyri tezliklə istədikləri kimi, şəri də o tezliklə versəydi, şübhəsiz ki, əcəlləri çoxdan tamam olmuşdu»

***Yunus surəsi, ayə 11.***

# Kainatda hər şey ziddi ilə bilinir

Biz ona iki yol (xeyir və şər, küfr və iman yollarını) göstərmədikmi?!

*Qurani Kərim,*
*əl-Bələd surəsi, ayə 10.*

And olsun cütə və təkə (tək olan xaliqə, erkək və dişi olmaqla cüt olan məxluqata, cüt olan hər şeyə, yaxud Qurban bayramına və Ərəfə, yaxud Ərəfə gününə).

*Qurani Kərim,*
*əl-Fəcr surəsi, ayə 3.*

Dünyada istər xüsusiyyətinə və istərsə də nəticəsinə görə hər şey ikili xarakter daşıyır. Yalnız Allah təkdir və bütün səmavi dinlər bunu birmənalı qəbul edib. Dahi Nizami «İsgəndərnamə»də yazır:

Ey Tanrı, dünyaya sənsən padişah,
Biz kiçik bəndəyik, sən böyük Allah.
Tək Sənə sığınır, hər yüksək, alçaq,
Hər varlıq yoxluqdur, Sən varsan ancaq.

Əgər Tanrı yaratdıqlarının əksini də yaratmasaydı, onda inkişaf, mövcud xüsusiyyət və hadisələri qiymətləndirmək qeyri-mümkün olardı.

Gecə olmasaydı, gündüzü, günəşin şəfəqini necə qiymətləndirmək olardı? O cümlədən, xeyir-şər, sevinc-kədər, ağ-qara, acı-şirin, mərhəmətlik-qəddarlıq, yaxşılıq-zülmkarlıq, sadəlik-xudpəsəndlik, xeyirxahlıq-riyakarlıq, mərdlik-xəyanətkarlıq və s.

«Xüsusiyyətinə görə ikiləşən hər şey ya tərkibinə görə ikiləşər – cism kimi, ya parçalanmağına görə ikiləşər – ədəd kimi,





ya cəmlənməsinə görə ikiləşər – sifət kimi, ya təzahürə görə ikiləşər – cövhər kimi, ya mənşəyə görə ikiləşər – əsli və fərdi kimi, ya məkana görə ikiləşər – fəza və boşluq kimi, ya vəhmə görə ikiləşər – ağıl və nəfs kimi, ya müvazinətə görə ikiləşər – təbiət və surət kimi, ya qarşılaşmaya görə ikiləşə bilər maddə və ünsür kimi, ya hadisənin başlanğıcına görə ikiləşə bilər məkan və zaman kimi, ya həddinə görə ikiləşə bilər ehtimal və qətilik kimi, ya qəbul edilmə nöqteyi-nəzərindən iki cür ola bilər: azlıq və çoxluq kimi. Bunlar nə qədər ziddiyyətli və əksli olsalar da, yenə ikilik əlamətinə malikdir və həqiqətdə onları tək adlandırmaq olmaz. İkilik xüsusiyyəti olan nə varsa, onların heç biri Allah ola bilməz.» («Qobusnamə»dən)

Bu fani dünya da ağ-qara təzadını qəbul edib. Belə ki, qara – şər, ağ – xeyirdir. İnsanın xeyrə və şərə aparan iki yolu var. Bu yollardan birini seçmək üçün Allah insana ağıl verib. Əgər insan vicdanının qarşısında hesabat verib birinci yolu – «xeyri» seçirsə, başqalarını da bu haqq yola şövq edirsə, demək, o, Allahın saleh bəndəsidir. Eynilə istər ailə və istərsə də insanın yaşadığı dövlət qurumu bu yolu – haqq yolunu tutursa, deməli, o cəmiyyətdə ədalət hökm sürür – sözdə, konstitusiyada yox, əməldə. Şər, şeytan əməlidir. Çalışın şeytana uymayın.

İnsanın ağılsızlığı isə cəza ilə nəticələnər. Ağılsızlıq və cəza əkizdir, yəni biri digərinin tamamlayıcısıdır, sadəcə, biri öndədir, o biri arxada. Ailə həyatından başlamış, iqtisadiyyat və siyasətə qədər, hər bir cəzanın səbəbi yalnız ağılsızlıqdır, təkəbbürdür.

***Qurani-Kərimdə buyurulur:***

Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqı ayırd edən (bir nur) verər (dünyada və axirətdə çıxış yolu göstərər) günahlarınızın üstünü örtüb sizi bağışlayar.

*əl-Ənfal surəsi, ayə 29.*

Yaxşı deyiblər, həyat sonsuz keçmişdən sonsuz gələcəyə doğru uzanan, Allahına sınaq silsiləsilə dövrələnən əbədiyyətə gedir. Xeyir və Şər arasında daima mübarizə gedib və gedəcək. İnsanların içində də bu mübarizə davam edir. Bu mübarizə Həzrət Adəm (ə.) övladlarından Qabili qardaşı Habilin qatili etdi. Təkəbbür İblisi öz yüksək mərtəbəsindən saldı. Nəfs Həzrət Adəmi (ə.) Cənnətdən çıxardı.

Qədim Çin filosofu Konfutsi dövlətin ayaq üstündə durması üçün üç amil göstərib: «çörək, ordu və mənəviyyat». Bunların içərisində ən vacibi dövlətin əsas dayağı olan mənəviyyatdır. Saleh bəyin qeyd etdiyi kimi, tərbiyə cəmiyyətin həyat və inlişafı üçün birinci dərəcəli amildir və onu bu səviyyəyə rəsmən, qanun üzrə qaldırmaq lazımdır. Tərbiyənin məzmun və forması dövlətin ən vacib işi hesab edilməlidir. İnsanın anadan olan gündən, axirət evinə qədər tərbiyəyə ehtiyacı vardır. Onlardan ən əsası yaşadığımız cəmiyyətdə müsbət intellektual ekoloji sferanın bərqərar olmasıdır. Bu yolda sözün, kəlamın, inancın, dövlət qanunlarının, millətlərarası iqtisadi, elmi və mədəni əlaqələrin və s. böyük rolu vardır. Bu barədə əvvəlki fəsillərdə geniş məlumat verilmişdir.

Kainatda hər şeyin ziddi olduğu kimi, əvvəllər qeyd etdiyimiz kimi, istər ailədə, istər yaşadığımız cəmiyyətdə, istər dövlətlərarası münasibətlərdə və ümumiyyətlə, yaşadığımız Yer planetində də istər ümumi ekoloji və istərsə də intellektual ekoloji tarazlığı pozan amillər mövcuddur və durmadan inkişaf etməkdədir. Bu şeytani xislətlər bəşəriyyəti məhvə aparan əlamətlərdir. Müasir dövrün əsas şəri terrorizm, superfaşizm, nasizm, «qisas» ideologiyası, milli (dini və etnik) üstünlük ideologiyası ilə silahlanmış və bəşəriyyəti düşmən adlandıraraq ona qarşı mübarizəyə başlamış qüvvələrdir.

Təbiətin əşrəfi olan insan öz əqli, vicdanı, mənəviyyatı və şücaəti ilə bu iblis xislətlərə qarşı mübarizə aparmalı və həqiqəti dərk etməlidir. Atalar demişkən: «Ağı qaradan, xeyri şərdən» seçməlidir.





## İblis bütün pisliklərin baş təmsilçisi və təhrikçisidir

Məhəmməd peyğəmbər (s.) buyurub: «Pisliyin kökünü tapmaq çətindir, əgər o sənin içindədirsə». İnsanı Allah yolundan uzaqlaşdıran hər şey şeytanlıqdır: hiylə və yalan vəd, azğınlıq və fırıldaq, pisliyə dəvət, qorxu hissi yaratmaq, şübhə və tərəddüdə salmaq, azğın əməlləri cəlbedici göstərmək, yoxsulluq qorxusu yaratmaq, lovğalıq və təkəbbür, özünü gözə soxmağa sövq etdirmək, unutdurmaq və fikir dalğınlığı yaratmaq, hissə qapılmağa və xırdaçılığa təlqin etmək, israfa yönəltmək, inkarçılığa sürükləmək, kin-nifrət, xudpəsəndlik, biganəlik, ikiüzlülük və münafiqlik, riyakarlıq, qəddarlıq, əxlaqsızlıq, nasizm, faşizm, neofaşizm, terrorizm, sionizm, militarizm, fanatizm, alkoqolizm, narkomaniyaya və s. yuvarlanmaq və s. Bütün bunlar gözlə görünən şeytanların təlqin etdiyi qeyri-insani xislətlərdir və bu şeytani xislətlər cəmiyyətdə mənfi intellektual ekoloji faktorların törədiciləridir.

İnsanlar nəyin yaxşı, nəyin pis olduğunu ağlı və vicdanı ilə ayırd edirlər. Zəiflər bu şeytani xislətlərə uyur, iradəli insanlar isə onu rədd edirlər. Allah heç nəyi hikmətsiz yaratmayıb, bu baxımdan şeytanı da. Həzrət Bədiüzzaman (s.) buyurub: «Şərin yaradılması şər və çirkin deyil, şərin işlənməsi şər və çirkindir. Yaratma və icad etmə nəticəyə baxar. Bir işi etmək isə xüsusi bir iş olduğuna görə xüsusi nəticəyə baxar. Yəni şeytanın yaradılması pis deyil, onun oyuncağı halına gəlib şeytanlaşmaq pisdir». N.Süleymanoğlu, K.Asifqızı qeyd edirlər ki, şeytan insanın dünyada daha diqqətli və təmkinli həyat sürməsinə səbəb olub və olacaq. Şeytan insanı Allaha qarşı inkara çağırır, onlara ikiüzlülüyü, nankorluğu, sözdən dönməyi, mənəviyyatsızlığı, qəddarlığı bə s. təlqin edir, amma fitrətində gözəllik olan insanın yaxşı olması Allahın istədiyi istiqamətə yönəlməsinə bağlıdır. Buna görə insan pisliyə uymamaq üçün ira-

dəsini pisliyə qarşı gücləndirməlidir. Bu mübarizədə insan inkişaf edir, duyğuları arınır, şərə qarşı çıxır, insani məqamlara yüksəlir. Yəni şeytana müxalif olmaqla Allaha tabe olur. Mübarizəsində nə qədər uğur qazanırsa, Allahın nəzərində də o qədər ucalır.

Hansı şeytani, qeyr-insani bir xisləti xatırlayırsansa, mənfur erməni məsələsindən yan keçmək mümkün olmur. Bu cəhətdən Saleh bəyin fikirləri daha xarakterikdir: «Dünyanı düzəltmək» mümkün deyil (hələlik mümkün deyil – *Ə.M*), düz işi əyən, rahatlığı pozan şər həmişə olub və olacaq. «Əksliklərin vəhdəti və mübarizəsi» dialektik qanununu yaradan ona görə yaradıb ki, məhz belə lazımdır – müsbət və mənfisiz, xeyir və şərsiz hərəkət mümkün deyil, inkişaf yoxdur. Məsələn, ermənilik şər Allahın bizə göndərdiyi bəladır. Nə üçün, bizim günahımız nədir? Anlamaq lazımdır ki, bəlanı göndərməkdə Allahın məqsədi türkü cəzalandırmaq olmayıb, əksinə, məkrli ermənini göndərib ki, biz oyanaq, ayağa duraq və erməninin başına ağıl qoyaq. Ola bilsin, bu, hətta şərin ümumdünya hücumunun başlanması barədə Allahın dünyanı xəbərdar etməsidir. Mənim «Şər əsri» adlandırdığım XX əsrin şər qüvvələri – bolşevizm və faşizm xeyrə qalıb gəlib onu məhv etmək istədi. Alınmadı. Xeyir üstün gəldi (hələ tam yox!). Dünyanı şərin qələbəsindən hifz etmək tarixən get-gedə ağırlaşıb, verilən qurbanların miqdarı hər dəfə artıb. Mübarizənin getdikcə ağırlaşmasına səbəb nə olub?

1.Sivilizasiyanın – dağılma və öldürmə «səriştəsi», texnologiyanın təkmilləşməsi və artması.

2.İnsanların düşüncəsinin heyvan instinktindən, demək olar ki, fərqlənməməsi, davranışının (savaşa həvəsin) heyvanlarınkına bənzəməsi.

3.Ən əsası isə xeyrin (əksəriyyətin) birliyinin olmaması, hazırlıqsız və qeyri-mütəşəkkillik.

XXI əsrdə bəşəriyyət anlamalıdır ki, bu qədər yüksək sivilizasiya şəraitində insan daha heyvan instinkti və davranışı ilə yaşaya bilməyəcəkdir. Bu əkslik artıq o həddə çatıb ki, bəşərin





özü-özünü heç etməsinə gətirib çıxara bilər».

***Qurani Kərimdə buyurulur:***

Ey iman gətirənlər! Şeytanın yolunu tutub getməyin! Kim şeytanın getdiyi yolla getsə o, (insanlara) çirkin, pis işlər görməyi (zina etməyi, yalan danışmağı, özgələrə böhtan atmağı) əmr edər! Əgər Allahın sizə neməti və mərhəməti olmasaydı, sizdən heç kəs, heç vaxt (günahdan) pak olmazdı. Lakin Allah dilədiyini (cünahdan pak edər. Allah (hər şeyi) eşidən və biləndir.

***ən-Nur surəsi, ayə 21.***

Biz (sizə) ən yaxın olan göyü üzünü (dünya səmasını) ulduzlarla bəzədik... itaətdən çıxmış hər bir şeytandan qoruduq.

***əs-Saffat surəsi, ayə 6-7.***

...Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də (varından yoxsullara, qohum-əqrəbaya xərcləməklə) yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!

***əl-Qəsəs surəsi, ayə 77.***

(Ey müşriklər!) Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıyla, günahkara nazil olarlar.

***əş-Şuəra surəsi, ayə 221-222.***

Ey Adəm övladı! Məgər Mən sizdən əhd almadımmı ki, Şeytana ibadət etməyin, o sizin açıq-aşkar düşməninizdir?

***Yasin surəsi, ayə 60.***

Şeytanın hökmü yalnız ona itaət edib Allaha şərik qoşanlar üzərindədir!

***ən-Nəhl surəsi, ayə 100.***

*Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:*

Bədnəzər haqdır, onun mənşəyi şeytan və bəni-adəmin həsədidir.

*İmam Əli (ə.) buyurmuşdur:*

Həqiqətən, onu bilmək lazımdır ki, Allah-taala buqələmun (öz rəngini, cildini mühitə görə uyğunlaşdıran kərtənkələ) sifətli, xasiyyətli adamlara qarşı şiddətli qəzəbli olur.

*İmam Sadiq (ə.) buyurmuşdur:*

Təkəbbür yolunda öndə gedən, yol göstərən iblisdir: çünki hamıdan üstün olmaq tələsinə ilk düşən, ovlanan kimsə odur.

Bu xəstəlik iblis xəstəliyidir, iblis mənliyə qapılmışdır və «Mən Adəmdən daha çox xeyirliyəm!» – demişdi. Əslində, bu xəstəlik hər məxluqun, hər insanın nəfsində vardır.

*Mövlana kəlamlarından:*

Ey təvazökarlıq pərdəsi altında mənlik xəstəliyini gizləyən kimsə! Birisi sınamaq qəsdi ilə səni əsəbiləşdirmək, coşdurmaq, özündən çıxarmaq istəyirsə, içində pislik olan su kimi bulanar və pisliyin rəngi meydana çıxar.

Bunu yaxşı bil ki, bu təkəbbür və özünü üstün tutma halı məhvedici bir zəhərdir. Axmaqlar bu zəhərli şərabı içərək sərxoş olurlar.

*Misbah Yəzdi:*

Əgər insan doğru yoldan azmasa, onun təkamülü üçün hər bir şərait yaradılmışdır. Şeytanın hiyləsinə uymayan insan həm dünya, həm də axirət səadətinə nail ola bilər. Təkamül və mənəvi yüksəlişin həddi-hüdudu yoxdur. İnsan üçün son təkamül nöqtəsi müəyyənləşdirilməmişdir. Məqsəd Allaha yaxınlaşma-





qdır. Təkamül yolu sonsuzdur.

Şeytana itaət etmək küfrdür. Şeytan insanı təkrar-təkrar günaha şövq edir və tədricən küfrə aparır. Günaha tələsən insan küfrə tez çatır.

*Mir Mövsün Nəvvab:*

Hiyləgərliyə adət etmək iblislərin adətidir.

*Əbülfəzl Əllami:*

Pənah aparıram o bir Allaha
Həmin şeytandan ki, həsrət dərgaha.

***

Quran oxuyası olsan, ilk qədəm,
İblisdən Allaha pənah apar sən.
Amma, əlbəttə ki, yalançı şeytan,
Hakim ola bilmir qəlbə o zaman.
Həmin qəlb Allaha çevirə üzün,
Təvəkkül eyləyib, tapşıra özün.

*Hüseyn Cavid:*

Röya kimi hər an olacaq zahiri qaib,
Mən Şərqdə abid oluram, Qərbdə rahib.
Bir qazi olub, gah edirəm fitnələr icad,
Bir mürşüd olub, gah edirəm Aləmi bərbad.
Bəzən oluram bir papa, cənnət satıram mən,
İsa dirilib gəlsə də qorxar qəzəbimdən.
İblis nədir?
Cümlə xəyanətlərə bais.....
Ya hər kəsə xain olan insan nədir?
– İblis...

# Təkəbbür və lovğalıq

İnsanda təbii cəhətdən kamillikləri özünə aid etmək istəyi var. Çox vaxt isə insan tamam puç şeyləri kamillik kimi başa düşür və onda təkəbbür meydana gəlir. Hər bir millətdə belə hal olur. Lakin bəzi millətlərdə bu hal pandemiya (kütləvi) halını alır, qarşısıalınmaz pataloji hala, irsi xəstəliyə keçir. Bu cəhətdən mənfur qonşumuz ermənilər buna canlı misaldır. Ermənilər öz qonşuları ilə yola getməyən, onlara pataloji nifrət bəsləyən, gözləri daim özgə torpaqlarında olan və bu hissləri gələcək nəsillərinə də təbliğ edən bir millətdir. Buqələmun xislətli bu millət qədim dövrlərdən bəri qonşu dövlətlərə, xüsusən Türkiyə və Azərbaycana qarşı dəfələrlə ən alçaq və rəzil xəyanətlərə əl atmışdır. Lakin belə bir «əxlaq»ın daşıyıcısı olan millət, çox təəssüf ki, «əzabkeş» cildinə girərək bütün dünyada ictimai fikri çaşdıra bilmişdir. Dahi şəxsiyyət Sədi Şirazi demişkən:

Ermənidir bu dünyanın Əhrimənі,
İnsanlığın düşmənidir, düşməni.

Ermənilər Allah-Təalanın insandan qabaq yaratdığı, Yer planetində mənfi intellektual ekoloji sferanın yaradıcısı İblisə xas olan iyrənc xislətləri özündə cəmləşdirən şeytan cəmiyyətidir. Təkəbbür və lovğalıq, yekəbaşlıq erməni xalqının xislətindədir.

Təkəbbür özündən başqasına xor baxmaq və həqir görmək, lovğalıq isə özünü bəyənmək və şəxsini başqalarından üstün tutmaqdır. Təkəbbür ilə lovğalıq bir-birindən ayrılmayan iki çirkin xislətdir. Bu iyrənc xasiyyətlər şəxsin qəlbi ilə gözəl əxlaq arasına çəkilən bir mənəvi afət pərdəsidir.

Təkəbbür və lovğalıq sahibi olan kimsə hər kəsi özündən aşağı görmək xəstəliyinə mübtəla olduğundan qeyz, kin, yalan, iftira və qəzəb kimi hər cür nəfs qəbahətlərini sinəsində toplayır və nəticədə özü-öz ruhuna zərbə saçır. Digər tərəfdən, onların ziddi olan təvazökarlıq, mərhəmət, səmimiyyət, doğruluq və qənaət kimi insani gözəlliklərə mənfiliklərdəki şiddəti





nisbətində əlvida deyir.

***Qurani-Kərimdə buyurulur:***

Yer üzündə təkəbbürlə gəzib dolanma. Çünki sən nə yeri yara bilər, nə də (boyca) yüksəlib dağlara çata bilərsən. Bütün bunlar rəbbinin dərgahında bəyənilməyən (məkruh), pis şeylərdir.

*əl-İsra surəsi, ayə 37-38.*

Allah özünü bəyənənləri, fəxarət (lovğalıq) edənləri sevməz!

*ən-Nisa surəsi, ayə 36.*

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Təkəbbür, haqdan gələnə saymazyanalıq və insanlara biganəlik deməkdir.

Təkəbbür etməkdən uzaq olun. Ona görə ki, təkkəbbürün vasitəsilə şeytan Allah-Təalanın əmrinə itaət etməyib, Adəmə (ə.) səcdə etməkdən imtina etdi.

Hər bir insanın həlak olmasına 3 xasiyyət səbəb olar:

1. Təkəbbür – necə ki, təkəbbür şeytanın böyük məqamından xaric olmasına səbəb olur.
2. Tamahkarlıq – necə ki, tamah Adəm peyğəmbərin (ə.) behiştdən çıxmasına səbəb oldu.
3. Həsəd – necə ki, həsəd Qabilin öz qardaşı Habili öldürməsinə səbəb oldu.

***İmam Əli (ə.) buyurmuşdur:***

Təkəbbürlü adamı heç kəs tərif etməz.

***

Şərəfsiz, şəxsiyyətsiz, alçaq təbiətli şəxs həmişə təkəbbür edir.

***

Qorxunun və nifrətin daha artığı xudpəsənd olmaqdır. Şəxs nə qədər təkəbbürlü olursa, başqa adamlar ona o qədər nifrət edər.

***İmam Sadiq (ə.) buyurmuşdur:***

Öz nəfsində bir zillət tapan kəsdən başqa kimsə təkəbbür etmir.

***

Təkəbbürlü şəxs gözləməsin ki, ona yaxşılıq öyrədəcəklər.

***

Təkəbbürdən daha çox ziyanverici bir cəhalət yoxdur.

***

3 şey düşmənçilik gətirər: təkəbbür, nifaq və zülm.

***İmam Səccad (ə.) buyurmuşdur:***

Əvvəl nüftə olub səhər öləndən sonra murdar olacaqlarını bildikləri bir halda, başqalarına təkəbbür edən şəxslərə təəccüb edirəm.

***Əfzələddin Xaqani kəlamlarından:***

İstəsən güzgütək saf olsun ürək,
Sinəndən on şeyi atasan gərək,
Haram, qiybət, kin, paxıllıq, tamah,
Kibr, riya, həsəd, ədavət, kələk.

***Mövlana kəlamlarından:***

Ey dünya malı üçün çırpınan və dünyaya sitayiş edən qafil! Fironda olan murdar əxlaq tamamilə səndə var! Sən də təkəbbürlüsən, sən də özünü bəyənirsən, sən də mal və şəhvət arxasınca qaçırsan!





***

Təkəbbürün və kinin başlanğıcı hər cür nəfsani arzulardan, xüsusilə Harun kimi bir zənginliyə və dünyəvi istəklərə qarşı duyulan aşırı sevgidəndir. Bu aşırı arzuların könlünə yerləşib qalması, kök salması da adət və alışqanlıqdır.

***

Ey doğruluqdan, doğru yoldan sapmış kimsə! Özündə böyüklük hiss etmək, təkəbbürə, lovğalığa qapılmaq, odun üzərinə atəş tökmək kimidir. Belə bir atəş üzərinə sən necə gedib özünü oda atırsan?!

***

Ey könül! Nəfsin təkəbbür və lovğalıq çuxurundan qurtul ki, sən də mis kimi iksirə xidmət edib bir qızıl halına gəl!

***Sədi Şirazi hikmətləri:***

Torpaqdan yaranan insan övladı,
Yel kimi təkəbbür göstərməz bir an.
Belə ki, odlusan, təkəbbürlüsən,
Bilmirəm oddansan, ya ki, torpaqdan.

***

Lovğalıq, uşaqlıq söhbəti etmə,
Bu, sərxoş yoludur, onunla getmə!

***Məhəmməd Füzuli:***

O kəs ki, lovğadır, onda hünərdən olmaz əsər.

***Əvhədi Marağayi Rüknəddin:***

Hər kəs ki, lovğalıq və məğrurluq yolu altındadır, o, mərifətdən kəmdir.

***Əbül-Əbbas Müstəqfəri:***

Təkəbbür elə bir haldır ki, insanın nəfsinə təsir göstərir və onu vadar edir ki, özünü yüksək tutaraq digərlərini təhqir edib həddi keçsin. Daha aydın desək, təkəbbür öz nəfsini yüksək tutub, digərlərindən yuxarıda görməkdir.

*Şeyx Şamil:*

Xeyrin toplandığı evin açarı təvazökarlıq, şərin toplandığı evin açarı isə lovğalıqdır.

***

Yalnız özünü düşünən insan hər pisliyi edər.

*Üzeyir Hacıbəyli:*

Lovğalıq tərəqqinin düşmənidir.

*Cəvahirləl Nehru:*

Öz şəxsi ləyaqətlərindən çox danışan insanlar heç vaxt yaxşılıq etməzlər.

## İnsanın ən qorxulu düşməni onun nəfsidir – tamahkarlıq, haram, oğurluq

Nəfs üçbucaqlı bir tikandır. Hansı tərəfə qoysan, o tərəfə batar.

*Mövlana Cəlaləddin Rumi.*

Həzrət Adəm (ə.) tövbə edib günahdan qurtuldu, amma bəşər övladına nəfs miras qaldı. Nəfs Həzrət Adəm (ə.) övladı Qabili qardaşı Habilin qatili etdi.

Şeytanların əxlaqından birincisi İblisin təkəbbürü, sonra Adəmin (ə.) nəfsi – tamahkarlığı və Qabilin həsədi bəşər övladına bir miras, bəla olaraq həmişəlik qaldı. Bunların hər üçü zaman və məkandan asılı olaraq, insan cəmiyyətini fəlakətlərə sürükləyən şeytani xislətdir. Digər şeytani xislətlərin mayası, ilk növbədə, nəfsdən – tamakarlıqdan başlayır. Qeyd etdiyimiz, kimi nəfs – tamah, təkəbbür – həsəd bütün günahların başı, pisliklərin – mənfi intellektual ekologiyanın təməlidir. Onların özlərinə bənzər oxşarları, bölmələri, onlardan qidalanan budaqları var. Biz isə dediklərimizin və təsvir etdiklərimizin həqiqət olduğunu sübut etmək üçün onlardan bir qədər bəhs etməyə məcburuq. Bunun üçün Rahil Nəcəfovun ərəb dilindən tərcümə etdiyi «Saflıq qardaşları»nın («İxvan əs-Səfa», Bakı, 2008) 9-cu risaləsindən bir hissəni (s.72-73) sizə təqdim edirik: «Bunlar kişinin özünü öyməsi, haqqı qəbul etməməsi, nüfuzun əmrinə boyun əyməsi, vacib itaəti qadağan etməsi, vacib həddi və haqqı aşması və ondan kənara çıxması, dövlətlərin qüdrəti ilə olan zülmü və zilləti, vacib hökmlərə əhəmiyyət verməməsi, lazımi hüquqlardan uzaqlaşması, haqqın ödənilməsində və şahidlikdə, zərurətlərdə arsızlığı və sərtliyi xitabda və mübahisədə zalımlığı və rəzilliyi, düşmənçilik və axmaqlıqda inad, məişətdə səbirsizlik, təsərrüfatda hiddət və qərarsızlıq, davranışlarda xəyanət və hiylə, öz həmcinslərini alçaltması və təhqir etməsi, onlara qarşı ədalətsizlik göstərməsi, qabiliyyətlərə bağlı işlərdə özündən razılığı, ona fəzilətli davrananın fəzilətini rədd etməsi, düşmənçilik, ədavət və onlara bənzər mənfur xislətləri, pis əxlaq, pis işləri, qəbahətli əməlləridir. Acgözlüyün bənzəri olan tamah, şiddətli istək, qərar və cəhddə tələskənlik, kasıblıq qorxusundan malı artırmaq və toplamaq, yaxud azaltmaq, paxıllıq etmək, əngəl törətmək, alçalmaq, tərslik, bunların davamı olan uğursuzluq, ifratçılıq, mövcud qazancdan az faydalanmaq, hesabatda mübahisə çıxarmaq, etimad olunan və inanılan şəxsləri günahlandırmaq, əmanətə xəyanət etmək, harama əl uzatmaq, namusu ləkələmək, çirkin işlər törətmək, sirri saxlamadan ötəri yalan danışmaq, alver zamanı hiyləyə əl atmaq, sənətkarlıqda az öyrətmək, hakimiyyət işlərində yalan yerə and içib inandırmaq, boş şayiələrlə düşmənçiliyi qızışdırmaq, əda-

vəti qabartmaq və həddi aşmaq, eləcə də ona bənzər mənfur xislətlər, pis əxlaqi davranışlar, boş danışıqlar, qəbahətli işlər və pis əməllər tamahkarlıqdan və ona bənzər xüsusiyyətlərdən, eləcə də saxta sevgidən irəli gəlir. Bu xislətlər açıq-aşkar düşmənçiliyə, bir-birinə nifrət etməyə, zülmə, əsəbiliyə, qızğınlığa, həddi aşmağa, ədavətə, ürəyin qəddarlığına, mərhəmətsizliyə, qabalığa, kobudluğa, əyyaşlığa, əxlaq pozğunluğuna sövq edir ki, münaqişəyə, şərə, müharibəyə, döyüşə səbəb olur... O da bütünlüyün dağılması, cəmin parçalanması, mərhəmətin kəsilməsi, qardaşlığın, dostluğun qopması, yalqızlığın dəhşəti, hüzn, kədər, ürək yanğısına, yaşayışın çətinləşməsi, mənfi nəticələnən sonluq, dünya və axirətin itirilməsi üçün səbəbə çevrilir...»

Əziz oxucu, bax budur mənfi intellektual ekologiyanın bəşəriyyətə bəxş etdiyi fəlakətlər. Bu mənfur xislətlərə qarşı yalnız insan intellekti mübarizə apara bilər. Biz əminik ki, Xeyir Şərə qalib gələcəkdir.

Müdriklərdən biri buyurur ki, insanlara başqalarından keçən pisliklərin müalicəsi asandır. Amma pislik nəfsdən qaynaqlanıb qəlbdə möhkəmlənirsə, bu xəstəlik, hətta gizli bir ölüm kimidir. Buna görə də diktatorlar, nasistlər, neofaşistlər, daşnaklar... zilləti və pis xislətləri insanların qəlbində yerləşdirirlər. Müasir dövrdə buna ən canlı misal mənfur erməni quldur daşnakların türklərə və ümumiyyətlə, bəşəriyyətə qarşı yeritdikləri iyrənc siyasət və təbliğatdır. Bu iyrənc xəstəlik dünyada «erməni xəstəliyi» adı ilə hamıya məlumdur. Özündən əmin, sülhsevər, mənəviyyatlı insan o insandır ki, bəşəriyyətə nifrət etmir, canlılara və təbiətə insafla yanaşır.

Bəs bu iyrənc xislətlər Qurani-Kərimdə və müdrik kəlamlarda necə lənətlənir?





***Qurani-Kərimdə buyurulur:***

De: «Ey kitab əhli! Dininizdə haqsız yerə ifrata varmayın. Əvvəlcə yolunu azmış, bir çoxlarına da azdırmış və doğru yoldan çıxmış bir tayfanın nəfsinin istəklərinə uymayın!

Ey iman gətirənlər! Nəfslərinizi qorumaq sizin borcunuzdur. Siz doğru yolda olsanız, (haqq yoldan) azanlar sizə heç bir zərər yetirə bilməzlər. Hamınızın axır dönüşü Allahadır. Allah etdiyiniz əməllər barəsində sizə xəbər verəcəkdir.

***əl-Maidə surəsi, ayə 77, 105.***

Əgər sənə (sənin bu təklifinə) cavab verməsələr, bil ki, onlar öz nəfslərinə uymuşlar. Allahdan bir dəlil (hidayət) olmayınca, öz nəfsinə uyandan (Rəbbinə şərik qoşandan, küfr edəndən) haqq yolu daha çox azmış kim ola bilər! Allah zalım tayfanı doğru yola müvəffəq etməz!

***əl-Qəsəs surəsi, ayə 50.***

And olsun nəfsə (insana) və onu yaradana (ona biçim verənə), sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır! Onu günaha batıran isə, əlbəttə ki, ziyana uğrayacaqdır.

***əş-Şəms surəsi, ayə 7–10.***

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Ən yoxsul adam tamahkar olan kimsədir.

***

Bir işi görmək istəsən sonunu düşün, sonu xeyirdirsə, ondan yapış, şərdirsə, fikrindən daşın.

***Həzrət Əbu Bəkr (ə.) buyurmuşdur:***

Kim nəfsinə uyarsa, Allah qəzəbinə düçar olar.

*İmam Əlinin (ə.) kəlamlarından:*

İnsanın ən qorxulu düşməni onun nəfsidir.

Sənin ən yaxın düşmənin nəfsdir.

Sənin nəfsin döyüşkən düşmən və misilsiz hücumçudur. Əgər ondan qafil olsan, səni öldürəcək.

Hər bir şəxs öz çirkin nəfsinə malik ola bilməzsə, öz ağlına da malik ola bilməz.

Ədəbli olmağın axırıncı mərhələsi odur ki, şəxs öz nəfsi qarşısında həyalı olub xəcalət çəksin.

Tamahkar adam haramdan əl çəkməz.

Tamahkar adam yaramaz olar.

Tamah olan başda ağıl olmaz.

Xar etdi o kimsəni nəfsi ki, dilinə malik olmayıb, dilini özünə əmir və hakim etdi.

*Əfzələddin Xaqani:*

Tamahını azalt ki, hörmətin artsın.
Tamah zəncirini ancaq sağlam adam qıra bilər.
Tamahın dalınca gedərsə hər kəs,
Xalqın hörmətini qazana bilməz.

*Nizami Gəncəvi:*

Ayı göydə fətir eyləyib güman,
Çoxları quyuya düşüblər, inan.
Tək birсə fətirə, gəl qane ol sən,
Düşün, günəşdən ki, artıq deyilsən.

*Məhsəti Gəncəvi:*

Özgədən heç zaman gözləmə kömək
Quru budaq kölgə salmaz, ey ürək!
Qənaət əzizlər, tamah xar edər,
Az olan şeylərə qənaət gərək.





*Mövlana kəlamlarından:*

Nəfsini alçaq görən kimsə nə xoşbəxtdir! Dağ kimi özünü üstün görən şəxsin də vay halına!

*Abbasqulu ağa Bakıxanov:*

Çox yazıqdır öz nəfsinə əsir olan dünyada,
Axır onun gedəcəkdir ömrü, həyatı bada.

Nəfsin elə bir ağacdır, zəhərlidir hər barı,
Cəhənnəmdən gətirilmiş, bil ki, onun tumları.
Ondan qaçıb öz canını qurtar, əgər ağlın var,
Unutma ki, zəhərlidir verəcəyi bəhər-bar.

*Məhəmmədhüseyn Şəhriyar:*

Mən aza qailəm, çoxda gözüm yox,
Nəfsimin gözünə batırmışam ox.

*Nəriman Nərimanov:*

Yırtıcı heyvan şikarını edib, qarnı tox olanda qeyri-şikar dalınca getməyir. Yoxsa insan yırtıcı heyvan insafında da olmadı? Çox heyif!

*Bəxtiyar Vahabzadə:*

Bəli, dəbə düşüb indi oğurluq,
Mənəvi yoxsulluq, mənəvi korluq.
Torpaq oğrusu,
Tarix oğrusu,
Millət oğrusu,
Zəhmət oğrusu,
Beyin oğrusu,

Şöhrət oğrusu,
Qeyrət oğrusu...
Bilmək çətindir,
Hara gedir bu?
Birində zəiflik, birində zorluq.
Yeməyə çalışır insanı insan,
Ana təbiətdə yoxdur oğurluq,
Onun övladında bu sifət hardan?

## Həsəd, paxıllıq, pislik, kin, nifrət, hərislik... insan əzabının səbəbləridir

Nə qədər tənha olsan da, pislik edərkən heç kimin görmədiyini düşünmə. Bil ki, səni görən var və bu da Allahdır.

*Həzrət Əli (ə.).*

Ölümlərin, qəzaların, bədbəxtliklərin və təsadüf kimi görünən dərdlərin çoxunun arxasında haqsız qazancların geri ödənilməsi durur. Nə əkərsən, onu da biçərsən. Arpa əkib, buğda biçmək mümkün deyil. Namərdin, zülmkarın, qəddarın... qisməti əzab olmalıdır. Həyatda azmı görmüşük ölümü çıraqla axtaran, onu Allahdan arzu eləyən qəddar insanları? Atalardan misal var, xoşbəxt adam ağlını itirmədən, qəfil, əzabsız rəhmətə gedir, bədbəxt isə ağlını itirir, ölüm tez ona qismət olmur, əzab çəkir, Allahdan ölüm arzulayır, lakin asan ölüm ona qismət olmur. Hətta el arasında belə bir misal da var: «ölümü çıraqla axtaran». Bəli, erməni xislətli adamlar və ermənilər zaman yetişəndə ölümü çıraqla axtaracaqlar. İnsan hər şeyə ancaq ibrət üçün baxmalıdır. Əzabı düşünmək insanı sıxırsa, əzabın içinə girmək daha dəhşətli olar. Halbuki, düşünmək içinə düşməkdən daha asan və sadədir. Bunun üçün insan bioloji varlıqdan insanlıq şəxsiyyətinə ucalmalı və vicdanına müraciət





etməlidir. Vicdan sosioloji varlıq olan insanın daxili, ilahi bir məhkəməsidir. Vicdanına müraciət etməyən məsuliyyətsiz bir ağıl sahibi, nəfsi qarşısında məğlub olur, başqalarına həsəd aparır, namərdlik edir, görünən şeytana çevrilir, ermənilər kimi vicdanını itirmiş terroristlər, nasistlər, neofaşistlər... kimi. Vicdan dediyimiz bu insani xüsusiyyət insan qəlbinin dərinliyindən bir fəryad edir: «Allahı unutmayın!»

Ərəstun deyir: «Hər dürlü dəyişikliyi etməyə qadir əzəli bir varlıq vardır. Bu zatın qeyri-maddi olması ortadadır. Heç bir şey özlüyündən hərəkət etməz. Hərəkəti təmin edən bir səbəbin varlığı gərəkdir».

Şübhəsiz ki, bu varlıq Tanrıdır. Ancaq hərəkəti, mənəviyyatı hərəkətə gətirmək üçün Allah insana ağıl, danışıq, ünsiyyət, bir sözlə, intellekt bəxş etdi. Ey qafil insan, bəs niyə bu gözəl, nadir vasitələrdən istifadə edib, öz həyatını, gələcəyini düşünmürsən?! Nədəndir səndə bu şeytani xislətlər? Əvvəllər biz qeyd etmişdik ki, Həzrət Adəm (ə.) tövbə elədi, lakin övladlarından Qabil bu şeytani xislətləri gələcək nəsillərə miras qoydu. Lakin dünya elə bir ekoloji fəlakət həddinə çatacaq ki, insan intellekti bu şeytani xislətləri öz ağlı ilə aradan qaldıracaq, həyat bunu tələb edəcək, başqa çıxış yolu yoxdur!

Bunun üçün insan, ilk növbədə, bağışlamağı bacarmalıdır. Şəxsi günahlara görə əfv diləyəni bağışlamaq islamın şüarıdır. Allah əl-Əraf surəsinin 199-cu ayəsində buyurur: «Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər». Bu baxımdan, əfv diləyənləri bağışlamayan insani və islami hisslərdən uzaqdır. Məhəmməd peyğəmbər (s.) da daima şəxsə aid pislikləri bağışlamış, ancaq cəmiyyətin hüququna təcavüz edənləri cəzalandırmışdır. Çünki cəmiyyətə edilən pislik ümumidir. Ümumi olan şeyi də bir fərdin bağışlaması düzgün deyildir. Ancaq toplumun qərarı ilə onun bağışlanmasına və ya cəzalanmasına qərar verilə bilər.

Hər pislik insanın sanki özbaşına buraxılmış düşüncəsindən yaranır. Lakin Qurani-Kərimin əl-Qiyamə surəsinin 36-cı ayəsində buyurulur: «Məgər insan elə güman edir ki, o, başlı-

başına (cəzasız) buraxılacaq?!»

İstər fərdlər və istərsə də cəmiyyətlər bu sirrə bələd olmaqla, pisliyə yaxınlaşmazlar. İnsan unutmasın ki, heç bir zalım Tanrının qəzəbindən qurtulmaz. Ey şüurlu insan, bunun üçün bir tarixə nəzər sal və tövbə elə...

Əziz oxucu! İnsana əzab verən xislətlərin lənətlənməsinin əyani şəraitdə təsdiqlənməsi üçün Qurani-Kərimə, Yaxın və Orta Şərq dahilərinin kəlamlarına müraciət edək.

***Qurani-Kərimdə buyurulur:***

...Allah yalnız fasiqləri zəlalətə düçar edir.

...Bir-birinizin qanını tökməyin, bir-birinizi yurdunuzdan çıxarmayın.

***əl-Bəqərə surəsi, ayə 25,84.***

Allah kimi doğru yoldan sapdırsa, ona yol göstərən olmaz. (Allah) onları öz azğınlıqları içində şaşqın bir vəziyyətdə qoyar!

***əl-Əraf surəsi, ayə 186.***

...Köpük heç bir şey olmadığı üçün uçub gedər. İnsanlara fayda verən bir şey isə yer üzündə qalar.

***ər-Rəd surəsi, ayə 17.***

...Şeytan insanı (yoldan çıxardıqdan, bəlaya saldıqdan sonra) yalqız buraxar (zəlil, rüsvay edər).

***əl-Furqan surəsi, ayə 29.***

(Ya Peyğəmbər!) İtaət etmə (yalan yerə) hər and içənə, alçağa, qeybət edənə, söz gəzdirənə, xeyrə mane olana, (zülm etməkdə) həddi aşana, günaha batana, daş ürəkliyə, (bütün) bunlardan sonra da əsli-nəsəbi bilinməyən hararamzadaya, o, mal-dövlət, oğul-uşaq sahibi olsa belə! Biz (tezliklə) onun burnuna damğa basacağıq.

***Nun surəsi, ayə 10-14, 16.***





Şübhəsiz ki, onlar (müşriklər) onu (o əzabı) uzaq görürlər (ona inanmırlar). Biz isə onu yaxın görürük (ona inanırıq). O gün göy göyərmiş mis kimi olacaq. Dağlar da didilmiş (rəngbərəng) yun kimi olacaqdır. Və dost dostu arayıb-axtarmayacaqdır (hərə öz hayına qalacaqdır). Onlar bir-birinə göstəriləcəklər (lakin bir-birini tanısalar da, özlərini tanımamazlığa vurub bir-birindən qaçacaqlar). O günün əzabından qurtarmaq üçün günahkar istərdi ki, fəda etsin (fiqyə versin) öz oğullarını; övrətini və qardaşını; (çətin günlərdə) ona sığınacaq verən əşirətini (qohum-əqrəbasını); və yer üzündə onların hamısını – təki özünü (Allahın əzabından) qurtarsın xeyr (bu mümkün deyildir)...

***əl-Məaric surəsi, ayə 6–15.***

(Ya Peyğəmbər) De: «Pənah aparıram sübhün Rəbbinə!..Və bir də paxıllığı tutanda paxılın şərindən!»

***əl-Fələq surəsi, ayə 5.***

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur :***

Bir-birinizə nifrət bəsləməyin, paxıllıq etməyin, bir-birinizə arxa çevirməyin, ey Allahın bəndələri, qardaş olun.

***Həzrət Əli (ə.) buyurmuşdur:***

Paxıl adam heç vaxt qəm və qüssədən rahat ola bilməz.

***

Paxıl adamla dostluq etməkdən uzaq ol. Çünki paxıl şəxs möhtac olduğun şeyi səndən əsirgəyər.

***

Paxıl adamın rahatlığı olmaz.

***

Bütün yaramaz, əxlaqsız işlərin, əməllərin bünövrəsi başqalarına həsəd etməkdir. Eyibli, günahkar adam həmişə başqalarının eyiblərini axtarıb tapmağa çalışır.

***

Həsəd elə bir öldürücü xəstəlikdir ki, paxılın və paxıllığı çəkilənin ölümündən başqa bir şeylə sağalmaz.

***

Həyatda insanların ən pisi paxıldır.

***

Qəzəb insanı məhv edib pisliklərini üzə çıxarır.

***İmam Sadiq buyurmuşdur:***

Həsədə düçar olan şəxs qəlb yəqinliyini gözləməsin.

***

Həsəd həmişə nəfəs çəkir və qəlbi kədər və qəmlə doldurur. O, çoxlu həsrət çəkir və pislikləri bir neçə dəfə artırır. O insanın bədəni sağlam olsa da, qüssə yeyir.

***

Atəş odun parçasını yeyən kimi, həsəd də imanı yeyər.

***

Həris iki şeydən məhrumdur: qənaətdən – buna görə rahatlığı yoxdur və ilahi qəzaya razı olmaqdan – çünki yəqini yoxdur.

***

Həsəd edən şəxs heç vaxt şad olmaz.

***

Səxavətli olanlar Allaha xoşgüman olduqları üçün səxavətli olurlar, amma paxıllıq edənlər Allaha bədgüman olduqları üçün paxıllıq edirlər.

***

Həsəd aparan şəxs, paxıllıq etdiyi şəxsdən qabaq özünə zərər vurur.

***

Başqasına həsəd edən şəxs, həsədi öz vücudunda istehsal edər. Belə şəxs o xəstəyə bənzər ki, həkimin verdiyi dərmanı qəbul etməyib dərdini bədənində saxlayar.





***İmam Məhəmməd Baqir (ə.) buyurmuşdur:***

Qəzəb insan qəlbində alışdırılan şeytan alovunun bir parçasıdır.

***Nizami Gəncəvi:***

Qardaşın qanını alma qardaşdan,
Tamam ayrı şeydir çünki südlə qan.

***

Yamanlıq eləsə özgəyə hər kəs,
Çıxar qabağına, hədərə getməz.

***Əfzələddin Xaqani:***

Sözüm bal kimidir, paxıllar amma,
Bal yeyib ağzından tökdü zəhrimar.

***

Nakəsdən görmədim mən bir yaxşılıq,
Yoxladım mən bunu sədaqətimlə.

***

Paxıllar zəkalıların düşməni, riyakarlar ecazkarların qənimidir.

***

Yaxşı adam pislik görür bu dünyaya gələndən,
Neyləsin bu dünya, ancaq pislik gəlir əlindən.
Çalış alçaq adamdan tikə alma dünyada,
Onlar səni rüsvay edər, gedər hörmətin bada.

***Mövlana:***

İnsanı incidən kimsənin Allahı incitdiyindən xəbəri yoxdur. O bilmir ki, bu küpün suyu Haqq irmağının suyu ilə birləşmişdir.

***

İnsanlar bir-birinə həsəd etmədikcə, daimi bir feyzi-bərəkət içində yaşayacaqlar.

***

Bir-birinizə kin bəsləməyin, həsəd etməyin. Bir-birinizə arxa çevirməyin, bir-birinizlə münasibətinizi kəsməyin, ey Allahın qulları, qardaş olun!

***

Həsəd – digərlərinin əlində olan neməti əldə etməkdən ibarətdir. Həsədi olan şəxs Allahın bəndələrə verdiyi nemətlərdən xəbər tutduqda narahat olub halı pisləşir.

***

Mənəvi böyüklərə həsəd edərək, onları kiçiltmək istəyənlərin həsədi, özləri üçün əbədi, sonsuz bir ölüm olmazmı?! Bu səbəbdəndir ki, hər həsəd onun etdiyi yaxşılıqları, ibadəti yıxar.

***

Ey həsəd edən kimsə! Ağlını başına yığ ki, sən də bir kamillik, bir kamal, bir ucalıq qazanasan!.. Beləcə, başqalarının kamilliyini boş-boşuna qısqanmayaraq, özünü qəm və kədərin pəncəsindən qurtar!

***

Bədən həsəd evidir, amma Allah kamil insanların bədənlərini tərtəmiz etmişdir.

***

İçində həsəd bulaşığı olmayan kimsəyə həsəd edərsənsə, hiylə etmiş olarsan. Həsəd üzündən könlünə qaraltılar çökər, ləkələnər.

*«Qabusnamə»dən:*

Ziyankarlığın səmərəsi məhrumiyyət, məhrumiyyətin meyarı ehtiyac, ehtiyacın bəhrəsi alçalmaqdır.





*«Kəlilə və Dimnə»dən:*

Kim sitəm qılıncı qaldırsa əgər,
Həmin qılıncla da məhv olub gedər.

***

İnsan zəhərli ağac əkdiyini o zaman bilir ki, onun meyvəsini özünə yedirirlər.

*Sədi Şirazi:*

Paxıl, Allahın başqasına verdiyi nemətindən paxıllıq edər və günahsız adamlardan zəhləsi gedər.

***

Paxıla istəmə bəla, o yazıq
Olmuşdur əbədi bəlaya düçar.
Nə lazım olasan paxılla düşmən,
Onun paxıllıq tək öz düşməni var.

***

Mürşüd də, mürid də, cavan da,
Xülasə, hər kəs ki, qoca cahanda
Bu alçaq dünyaya bir həvəs saldı,
Milçək kimi bala yapışıb qaldı.

***

Arpa qədər zərər görməsə paxıl,
Yenə çalışar ki, bitməsin taxıl.

*Nəsirəddin Tusi:*

Tənhalıq pis olsa da, paxıl adamlarla bir yerdə olmaqdan qat-qat yaxşıdır.

*Məhəmməd Füzuli:*

Comərdliyə güvənsən də, sadiq sanma sirdaşları,
Paxıllıqdan nələr etdi gör Yusifə qardaşları.

**Əbdürrəhman Cami:**

Paxıl rahat olmaz, başqalarını gözü götürməz, özünə isə layiq olmadığı hər şeyi istər.

**Saib Təbrizi:**

Kim paxıllıq tozunu silsə ürəyindən əgər,
Gözlərində yer üzü tazə gülüstana dönər.

**Əbül Əbbas Müstəqfəri:**

Həsəd paxıllıqdan da pis xəstəlikdir. Çünki paxıl öz malından başqalarına verməkdə paxıllıq edir. Amma həsəd Allahın bəndələrə verdiyi nemət və maldan narahat olur və başqalarına qismət olan bu şeydən əziyyət çəkir. Beləliklə, o, dəlilsiz bir düşmən və başqalarının nemətinin aradan getməsini istəyəndir.

**Abbasqulu ağa Bakıxanov:**

Paxıllıq qabiliyyətsizlik əlamətidir. Öz hünərinə inananlar başqalarından çox müvəffəqiyyət əldə edər. Hünərsiz tərəqqiyə çatmağı bacarmadığı üçün başqalarının tənəzzülünü arzulayar ki, onunla bərabərləşsin.

***

Paxıllıqdan daha betər yandırıcı od yoxdur. Paxıl adamlar heç vaxt rahat yaşaya bilməz. Ona öz dərdi və başqalarının şadlığı birlikdə müsibət olar.

***

Həsəd qərarı kəsər qayçıtək, aman verməz,
Paxılların çörəyi zəhər olar, tavan verməz.





**Seyid Əzim Şirvani:**

Həsəddən qətl edib Habili Qabil,
Batıb qanə təni-biçarə Habil.
Həsəd viranə eylər xanimanı,
Həsəddir eyləyən viran cahanı.

**Əbül Fərəc:**

Hərislik mərhəmətsizliklə əkizdir, mərhəmətsizlik hərisliyi doğurur.

**Osman Nuri Topbaş:**

Həsədi bir binaya bənzətsək, onun ən mühüm tikinti materialları fəsad və nifaqdır. Təməlində isə mənçilik, hər kəsdən baş olma sevdası, mənfəət, ehtiraslar, özünü göstərmə arzusu, təkəbbür və xudbinlik kimi qaba əxlaqsızlıqlar dayanır.

**Azərbaycan atalar sözü:**

Paxılın odu özünü yandırar.

**Ərəb atalar sözü:**

Hər yanğını söndürən tapılar, lakin paxıllıq odunu söndürən olmaz.

**Yapon atalar sözü:**

Ağcaqanadı vızıltısına görə yox, adamların qanını sorduğuna görə öldürürlər.

Ermənilərin bir məsəli var: «Özgəsinə quyu qazmaq istəyən onu öz boyuna görə ölçməlidir». Deyirlər ki, insan çaşanda

sözün düzünü danışar. Çox maraqlıdır, görən, müasir dövrdə ermənilər quyuları qazanda öz boylarını nəzərə alırlarmı?! Ağcaqanadın boyu kiçik olsa da, xisləti alçaq və qəddardır, ona görə ki, qan sorur. Qan sormağı cəhənnəm, xəstəlik yayır, epidemiya törədir. Əlac yalnız onları məhv etməkdir!

## Qəzəb, mübahisə, dalaşqanlıq – bütün pisliklərin açarıdır

Qəzəb şəxsiyyətin inamına, səyinə, haqsızlığa qarşı duran, onun istəyinə çatmaq üçün fəaliyyətini sıxışdıran hadisələrin doğurduğu emosional hisslərdir. Qəzəb hadisəyə mənfi münasibəti bildirməklə əlaqədar olan hərəkətlərdə, mimikanın, səsin, ifadə tərzinin dəyişməsində təzahür edir. Qəzəb insana xas olan ilkin emosiyalardan biridir. Tarixi hadisələr qəzəbin intiqamla nəticələnməsini sübut etmişdir. Qəzəbin səbəblərindən biri zülmdür. Şübhəsiz, ən həssas insanlardan tutmuş, ən duyğusuzuna qədər hər kəs zülmə düşmən olmuşdur. Vaxtilə məzlumların qanları bahasına qurulmuş səltənətlərin necə çökdüyü tarixdən məlumdur. SSRİ deyilən dövlətin dağılması buna canlı misaldır. Xırda padşahlar, harınlamış məmurlar, zəhmətkeş xalqın hesabına böyük sərvət sahibi olanlar, millətin qanını soranlar, vətənin torpağını, göllərini, dənizini, dağlarını, meşələrini sərhədə alanlar– mənfi intellektual ekologiyanı yaradan ikiayaqlı makroviruslar unutmasınlar, məzlumların zalımlara qarşı üsyanı çox şiddətli və amansız olur. Bu baxımdan, Həzrət Əli (ə.): «Zülm görənin üsyanı zalımın məzluma ağalığından daha şiddətlidir», – buyurmuşdur. Zalımlar üçün bu ibrət dərsi tarixdə dəfələrlə olmuşdur. Gec-tez məzlumların ahı zalımları boğmuş, Allahın şiddətli qəzəbi nəticəsində yerləyeksan olmuşlar. Zalımların Həzrət Əlinin (ə.): «Allahın qəzəbindən qurtulan bir zalım yoxdur», sözünü nəzərə alıb tövbə etmələrini tövsiyə edirik. Gec-tez siz ya haqq yoluna qayıtmalı, ya da qəzəb alovunda yanıb məhv olmalısınız. Çünki patogen





(xəstəlik əmələ gətirən) mikrobları məhv edən ən tutarlı – etibarlı üsul alovdur. Unutmayın ki, İblis də alovdan yaranmış, lakin qiyamət gününə qədər Allah tərəfindən lənətlənmişdir.

Beləliklə, insanı qəzəbləndirən amillərdən, həmçinin qəzəb hissinin təzahür formalarından asılı olaraq, «qəzəb» ictimai əhəmiyyətli və ictimai zərərli, intellektual ekologiya kimi müsbət və mənfi ola bilər.

Qəzəb zamanı insanlar arasında emosional vəziyyət– «affekt» müşahidə olunur. Affekt zamanı baş-beyinin qabıqaltı mərkəzlərinin fəaliyyəti güclənir, beyinin qabıq və qabıqaltı sahələrində adi qarşılıqlı əlaqə pozulur, rəftar və davranışa şüurlu nəzarət zəifləyir, insan bəzən düşünülməmiş, qeyri-insani hərəkətlərə yol verir. Hər bir millətdə, cəmiyyətdə, hətta ailədə belə insanlara rast gəlmək mümkündür. Lakin belə patoloji halın, ümumiyyətlə, bir millətə daha çox mənsub olması, yalnız mənfur ermənilərə xas olan bir xəstəlikdir. Hansı sahəyə müraciət etsən, mənfiliklər, vəhşiliklər və s. qeyri-insani sifətlərdən söhbət açılanda, mütləq Tanrının insan cəmiyyətinə bəla göndərdiyi mənfur erməni cəlladlarını yada salmamaq mümkün olmur.

Erməni vandalizmini, alçaqlığını, qəddarlığını, vəhşiliyini, faşizmini, nasizmini, sadizmini, heyvani qəzəbini bütün təsəvvüratı ilə əks etdirən tarixi dəlillərdən bir neçəsini yada salaq. Erməninin bu xislətləri «İblis xislətli erməni» (Ənvər Mete, Nadir Əhmədov, Bakı, 2009) kitabında çox geniş verilmişdir.

1. 1918-ci il martın 31-i və aprelin 1-də Bakıda 30 min insan qətlə yetirildi, S.Şaumyanın erməni-bolşevik dəstələri Bakı əhalisinin 400 milyon manatlıq əmlakını talan etdilər.

2. 1918-ci il martın 30-dan aprelin 2-dək sürən qırğınlarda Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8027 azərbaycanlı (onlardan 2560-ı qadın, 1277-si uşaq idi) qətlə yetirildi.

3. Həmin dövrdə Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insanın həyatına son qoyulmuşdur.

4. Dağlıq Qarabağda ermənilər 150 Azərbaycan kəndini

tamamilə dağıtmış, insanları kütləvi surətdə qətlə yetirmişlər. Həmin dövrdə Lənkəranda, Muğanda minlərlə soydaşımızı erməni vəhşiləri qırmışlar.

5. «Səs» qəzetinin analitik qrupunun məlumatından: «1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 500 min azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdular. Təkcə Bakıda 30 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülmüşdür. Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə yeksan olunub, əhali üzərində yaş və cinsə məhəl qoymadan qətliam həyata keçirilmişdir. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərinin birində («Əməkçi» qəzeti, № 231, 2 noyabr 1919-cu il) göstərilirdi ki, azərbaycanlıların bu tarixi şəhərində və onun ətrafında qısa zaman ərzində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131 min 970 nəfər isə öldürülmüşdür.

6. Ermənilərin vəhşilikləri barədə təsəvvür yaratmaq üçün texnik Vladimir Sokolovun Bakının «Kərpicxana» adlanan ərazisində çəkdiyi fotoşəkillərə baxmaq kifayətdir. Birinci şəkildə başında güllə yarası, bədənində 5 süngü yarası olan və sağ körpücük sümüyünə qılınc zərbəsi endirilmiş qadın meyiti təsvir olunub. Onun sağ döşü üzərində hələ sağ olan körpə uzanıb. Anasının döşünü əmən bu körpənin ayağında süngü yarası var. İkinci şəkildə iri mismarla divara vurulmuş 2 yaşlı uşaq təsvir edilib. Mismarın başından aydın görünür ki, onu divara daşla vurublar. Daş elə orada idi. Üçüncü şəkildə isə 13-14 yaşlı qız uşağının meyiti verilib. Biçarənin bədənindən görünür ki, onu bir dəstə alçaq «kişi» zorladıqdan sonra qətlə yetirib. Bu sadaladıqlarımız erməni canilərinin xalqımıza qarşı terrorçu siyasətinin yalnız cüzi bir hissəsidir. Belə faktları saymaqla qurtaran deyil. Bunlar 90 il əvvəl baş vermişdir. Bəs Xocalı?! Şahidlər ki, sağdır. Bu faciəni görüb, dəhşətə gələn qeyri-azərbaycanlılar ki, sağdır.

7. Rusiya jurnalisti Y.Romanov Qarabağa həsr etdiyi «Mən müharibəni çəkirəm» kitabında yazmışdır: «Lentə aldığım 37 saniyə əllərimi yandırır. Başı sarıqlı 6 yaşlı qızın gözünü siqaret kötükləri ilə yandıraraq onu kor etmişlər. Onun gözlərindən siqaret kötüklərinin qalıqları sallanmışdır. Axşam bu fəsli yazdıqdan sonra ertəsi günü gicgahlarımda ağarmış tüklərin çoxaldığını gördüm.





8. İnsanlığın ən qəddar düşməni Zori Balayan «Ruhumuzun canlanması» kitabında yazır: «Mən Xaçaturla ələ keçirilmiş evlərdən birinə daxil olanda orada bizim əsgərlər 13 yaşlı türkü pəncərənin çərçivəsinə mıxlamışdılar. Sonra Xaçatur bu öldürülmüş uşağın cəsədini parçalayıb itlərə atdı. Axşam bir daha 3 uşağın başına eyni oyunu gətirdik. Erməniləri sevən bir insan kimi mən öz borcumu yerinə yetirdim».

9. 1999-cu ilin 21 noyabrında ermənilərə əsir düşmüş bakılı qadın Roza Bektaşi və onun 2 qızını – 14 yaşlı Fəridəni və 9 yaşlı Kəmaləni vəhşicəsinə qətlə yetirmişlər. Həmin qətlin şahidi olan hərbi həkim Armen Kasaboqlyan bu vəhşiliyi gördükdən sonra orduda xidmətdən imtina etmişdir. O, xaricə gedərək orada İslam dinini qəbul etdikdən sonra həmin vəhşiliyi belə xatırlayır: «Erməni hərbiçiləri (onların arasında qadınlar da vardı) Roza Bektaşini 2 qızı ilə birlikdə içərisində gürzələr olan çalaya atdıqdan sonra bu mənzərəyə gülə-gülə tamaşa etdilər. Qadının və qızların 3 dəqiqə davam edən dəhşətli qışqırıq səsləri gürzələrin onlara hücumundan sonra dərhal kəsildi. Bəli, bu vəhşilik tale deyil, ermənilik və erməni eksperimenti idi». Budur ermənilərin iç üzü, məkrli erməni xisləti, erməni vandalizmi... Nifrət və ar olsun bu cür məkrli xislətə, vəhşiliyə və serapatçılığa (Ədalət Ələsgərov və b. «Xalq qəzeti», 1 aprel, 2008).

10. Bir müraciət (bütün bəşəriyyətə):

«Mən, Şərəf Mədinə Mahmud qızı, ailə tərkibim:

1. Ərim – Məmmədzadə Elçin Həsən oğlu, 1948-ci il təvəllüdlü, sovet ordusunun polkovniki, Ermənistan SSR hərbi komissarının keçmiş müavini.

2. Oğlum – Məmmədzadə Anar, 1978-ci il təvəllüdlü.

3. Oğlum – Məmmədzadə Aruz, 1980-ci il təvəllüdlü.

4. Qızım – Məmmədzadə Aygün, 1982-ci il təvəllüdlü.

Biz, 1988-ci ilin noyabr ayınadək Spitak şəhəri, Şaumyan küçəsi, 25 saylı evdə yaşamışıq. 1988-ci ilin 12 noyabrında təxminən gecə saat 23-də Spitak rayon PK-nin 1-ci katibi Norik Qriqoryeviç Muradyan, rayon İK-nin sədri Fərhad Abuçyan, rayonun baş həkimi Rafiq Baqdaryan, hakim Elavik Nazaryan, milis rəisi V.Sarkisyan, prokuror Arakisyan və başqaları, saqqallı erməni ekstremistləri ilə birlikdə gələrək, bizi öz evimizdən qovub çıxardılar (onlar: «turki» deyə bağırırdılar).

Odlu silah işlədilməsi və fiziki zorakılıq nəticəsində azərbaycanlılardan 36 nəfər yerindəcə həlak oldu. 70 nəfər azyaşlı azərbaycanlı uşaqlarını (5 yaşdan 12 yaşadək) əlimizdən alaraq qabaqcadan hazırlanmış 1,5 metr diametrli, 20 metr uzunluğunda boruya qovub saldılar. Ağızlarını diri-diri qapadılar. Onların arasında mənim 2 uşağım: Aruz və Aygün də vardı. Şərəfsiz ermənilər bu dəhşətləri bizim, anaların və ataların gözü qarşısında törətdilər. 27 azərbaycanlı uşağını sonra Amerikaya göndərmək üçün avtobusla aeroporta apardılar. 25 nəfər məsul vəzifəli azərbaycanlını girov götürdülər, onların taleyi indiyəcən məlum deyil, xəbərsiz itkin düşmüşlər. Biz bütün sağ qalmışlar bu faktlar əsasında SSRİ Baş prokuroruna, SSRİ MTN-nə və prezident M.S.Qorbaçova müraciət etmişik, ancaq indiyəcən bir cavab yoxdur...

1988-ci il noyabrın 12-də genosidə uğramış 62 ailədən cəmi 8 azərbaycanlı ailəsi dağlarla bir həftə ərzində piyada Gədəbəy rayonuna gəlib çıxdıq.

...Bütün bu dəhşətlər xalqdan və tarixdən gizli qala bilməz. Yaddaşıma şəhadət verərək gözlərim qarşısında məhv olmuşların bəzilərinin şəxsiyyətlərini sizə bildirirəm:

1. Mustafayev Kamal – Spitak qaz kontorunda işləyirdi. Arvadı Nailə, evdar qadın, 6 uşaq anası, uşaqlarını boruya saldılar, özlərini güllələdilər.

2. Ağayev Nazir – 25 saylı məktəbin rus dili müəllimi. Arvadı – Lalə, 6 uşaq anası, uşaqlarını boruya saldılar, özlərini güllələdilər.





3. Ləzgiyev Surxay – şikəst, təqaüdçü. Arvadı – Səmayə, 7 uşağına boruya saldılar, özlərini güllələdilər.

4. Məmmədzadə Abdulla – RİK-də iqtisadçı işləyirdi. Arvadı – Maysəfa, 4 uşağını boruya saldılar, özlərini güllələdilər.

5. Həbibi Aslan – İdman Komitəsində müəllim. Arvadı – Fatma, 4 uşağını boruya saldılar, özlərini güllələdilər.

6. Məhərrəmi Sultan – diş həkimi. Arvadı– Günay, 5 uşağını boruya saldılar, 1-ni isə ABŞ-a yollamaq üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

7. Sultanov Rəsul – hüquqşünas. Arvadı – Çiçək, 3 uşağını boruya saldılar, 2-ni isə ABŞ-a yollamaq üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

8. Lalayev Ərzuman – inşaatçı-mühəndis. Arvadı – Sevda, 5 uşağını boruya saldılar, 1-ni isə ABŞ-a yollamaq üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

9. Gözəlov Polad – riyaziyyat müəllimi. Arvadı - Gülsabah, 6 uşağını boruya saldılar, özlərini güllələdilər.

10. Paşayev Hacı – inşaatçı. Arvadı - Həbibə, 1 uşağını boruya saldılar, 3-nü ABŞ-na göndərmək üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

11. Hacıyev Mərzi – rəssam. Arvadı – Səriyyə, 2 uşağını boruya saldılar, 3-nü ABŞ-a göndərmək üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

12. Həsənov Qorxmaz – kinomexanik. Arvadı – Mənzər, 2 uşağını boruya saldılar, 3-nü ABŞ-a göndərmək üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

13. Abdulov Ramiz – inşaatçı. Arvadı – Nazilə, 4 uşağını boruya saldılar, 3-nü ABŞ-a göndərmək üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

14. Mahmudov Nazir – uşaq həkimi. Arvadı – Sevinc, 4 uşağını ABŞ-a göndərmək üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

15. Səmədzadə Hicran – praporşik. Arvadı – Gülşən, 2 uşağını boruya saldılar, 2-ni ABŞ-a göndərmək üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

16. Mobil Məhəbbət – şərqşünas, ərəb dili tərcüməçisi. Arvadı– Hədiyyə, 1 uşağını boruya saldılar, 4-nü ABŞ-a göndərmək üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

17. Həmidov Həmid – inşaatçı. Arvadı – Aləmzar, 4 uşağını boruya saldılar, 2-ni ABŞ-a göndərmək üçün avtobusa mindirdilər, özlərini güllələdilər.

18. Məmmədzadə Aruz Elçin oğlu – 1980-ci il təvəllüdlü, Məmmədzadə Aygün Elçin qızı – 1982-ci il təvəllüdlü – hər ikisi mənim uşağımdır, onları diri-diri boruya salıb ağzını qapadılar.

Yuxarıdakı faktların həqiqiliyinə mənimlə birgə Həbibi Fatma, Mustafayeva Tovuz şəhadət verirlər.

Bütün tərəqqipərvər insanları bu ana fəryadını eşitməyə çağırıram.

O qadir Allah bu faciədə barmağı olan bütün günahkarları cəzasına çatdırsın. Amin!

Mədinə Şərəf, Bakı, 1988–1990».

Əziz oxucu, dünya bilməlidir ki, bu cinayətlər, erməni vandalizmi, vəhşiliyi, qeyri-insani xisləti, neofaşizmi, nasizmi, alçaqlığı, qəddarlığı cinayəti təkcə Azərbaycan xalqına deyil, bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəlmişdir. Cinayət cəzasız qalmamalıdır. «Həqiqətən, Şeytan sizin düşməninizdir, onu (özünüzə) düşmən tutun...» (Qurani-Kərim, Fatir surəsi, ayə 6).

Həzrət Əlinin (ə.): «Allahın qəzəbindən qurtulmuş heç bir zalım yoxdur» kəlamını bir də yada salmaq yerinə düşərdi.

İnsan unutmamalıdır ki, dünya bir mücadilə və müharibə meydanıdır. Dəniz dalğasız olmadığı kimi, dünya da qovğasız deyildir. Sadə ailədən başlamış saraylara qədər, dövlətlər və millətlər, hətta dinlər arasında özünəməxsus qovğalar, mübahisələr, narazılıqlar və bunlar səbəbli kin, qəzəb olmuş və bu hal ibtidai tayfa birliklərindən ən mədəni cəmiyyətlərə qədər qəm, narazılıq, kin, qəzəb, mübahisə yaratmışdır. İnsan bu mənfi xislətlər arasında geniş ürəyə sahib olmazsa, yolunu çaşdırıb





özünü fəlakətə sürükləyər. Buna görə də müdriklər buyurmuşlar: «İlk işiniz o olsun ki, qəlbinizi bulandırmayın». Beləliklə, bizə bu qovğalı dünyada həyata keçiriləcək ilk qaydanı göstərmişlər. Qəlb bulanarsa, xəstəlik əmələ gələr. Hər dalaşqanın könlü qaradır. Qəlbi geniş olanın davranışı yerində olar. Həzrət Əlinin (ə.) buyurduğu kimi: «Hər kəslə yaxşı davranmaq qəlbi genişləndirir». Lakin bu şəfaverici nəsihət tövbə etməyi bacaran insan üçündür. Vaxtaşırı beyin qabığı mərkəzlərinin iflic olub, yalnız heyvan kimi qabıqaltı mərkəzlə davranan, daha doğrusu, vəhşiləşən erməniyə belə kəlamların nə təsiri olar?!

Yenə də tarixi faktlara müraciət etməli olduq. Erməni tarixinin «atası» Horenatsinin «Hər türkü anadan olduğu anda ölümə məhkum edin. Onlara doğulma şansı verməyin. Cünki doğulmuş hər türk bizə faciə gətirir» sözü, eyni zamanda erməni yazıçısı Silva Kaputikyanın 1988-ci ildə İrəvanda keçirilən bir mitinqdə söylədiyi: «...yeni doğulan hər erməni uşağının qulağına – «Ey Aram! Türklər sənin düşmənindir» demək lazımdır ki, düşmənin kim olduğunu tanısın» ifadəsi, yenə yaxın keçmişdə türk diplomatlarını öldürən qatillərin ermənilər tərəfindən bir qəhrəman olaraq tanınması və buna bənzər daha bir çox xüsusiyyətlər ermənilərdəki türk düşmənçiliyinin çox bariz işarəsidir» (Aydın, «Hər türkü anadan olduğu an ölümə məhkum edin». Sərsəm erməni ideoloqları gəncliyi belə tərbiyə edir. «Olaylar» qəzeti, 30 iyun, 2010).

Dünyanı mənfi intellektual ekologiya dəryasında çaxnaşdıran, kütləvi ixtişaş və qırğınlara səbəb olan başqa bir amil. Bu gün «beynəlxalq terrorizm» kimi gündəmi tutan məsələ vaxtilə iki fövqəlbəşər gücün – ABŞ və SSRİ-nin qarşıdurmasından meydana gəlib. Düzdür, siyasi qətillərə, terrora «soyuq müharibə» illərindən («soyuq müharibə»nin əsasının qoyulması haqda əvvəlki bölmələrdən birində geniş məlumat vermişik) əvvəl də rast gəlinirdi. Lakin keçən əsrin 60-cı illərindən etibarən bu, özünü daha qabarıq göstərməyə başladı.

«Versiya» qəzetinin (17-23 may, 2010) «Şər imperiyası beynəlxalq terrorizmi Lyubyankada yeniləyib» məqaləsinin

Azərbaycan dilində çap olunmuş («Kaspi» qəzeti, 1 iyul, 2010) variantından bəzi məqamları oxucuların diqqətinə çatdırmaq istərdik: «...Rumıniya kəşfiyyatının general-leytenantı Sekuritate İon Mixay Paçera (sovet blokuna daxil olan ölkələrin düşmən tərəfinə keçmiş ən yüksək rütbəli kəşfiyyatçısı) hesab edir ki, «bugünkü beynəlxalq terrorizm anlayışı 1967-ci ildə Yaxın Şərqdə 6 günlük müharibədən sonra DTK-nın Lyublyankadakı mənzil-qərargahında hazırlanıb. Daha dəqiq desək, 1967-ci ildə bu termin artıq formalaşmışdı. Belə ki, bu istiqamətdə ilk təcrübə artıq həyata keçirilmişdi. 1964-cü ildə Ernesto Çe Gevaranın yaxından köməkliyi ilə DTK Boliviyadakı Milli Azadlıq Hərəkatı ordusunu dəstəkləyirdi. 1965-ci ildə isə Fidel Kastronun yaxından iştirakı ilə DTK Kolumbiya Milli Azadlıq Ordusunu yaratdı. Bu qurum isə çox qısa zaman kəsiyində insanların oğurlanması, təyyarələrin qaçırılması, partlayışlar və partizan müharibəsini həyata keçirməyə başladı. Az sonra sovet xüsusi xidmət orqanlarının yaxından iştirakı ilə Fələstin Azadlıq Demokratik Cəbhəsi yaradıldı. Bu qurum da İsrailin işğal etdiyi Fələstin ərazisində çoxsaylı terror aktları həyata keçirməyə başladı. Bütün bu aksiyaların arxasında isə Sovet Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) generalı Aleksandr Saxarovski dururdu. Məhz bu şəxs 50-ci illərdə rumın xüsusi xidmət orqanlarının tərkibində mürəkkəb, çoxsəviyyəli struktur formalaşdırmışdı. Sonralar isə sovet Rusiyasının xarici kəşfiyyat idarəsinə rəhbərlik edib. Saxarovski hesab edirdi ki, müasir dünyada nüvə silahı hərbi qüvvənin tətbiqini qeyri-mümkün edir. Eyni zamanda hesab edilirdi ki, beynəlxalq münaqişələri, eləcə də iki dövlətin «maraqlarının toqqusması»nı terrorun köməyi ilə həyata keçirmək olar. «Terror müharibəsi öz-özlüyündə 1968-ci ilin sonlarında başlayıb», – deyə Paçera öz xatirələrində qeyd edirdi. «Məhz o zaman DTK 11 sentyabr terror aktları üçün əsas silah olan təyyarələrin qaçırılmasını terror alətinə çevirdi. Yalnız 1969-cu ildə DTK-nın maliyyələşdirdiyi Fələstin Azadlıq Təşkilatı 82 təyyarə ələ keçirmişdir...DTK-nın məxfi sənədlərinin əks olunduğu hesabat





açıqlananda hamını şoka saldı...ekspertlər Papaya atəş açmış Ağca ilə erməni ASALA arasında əlaqənin olduğunu heç cür təsəvvür etmirdilər. Axı bu iki struktur ideyaca bir-biri ilə düşmən olmalı idilər. Lakin bu gün aydındır ki, «boz qurdlar»ı məhz erməni terrorçuları idarə edir. Onların fəaliyyətlərini isə Lyubyankadan olan generallar nəzərdə saxlayıblar. Ötən əsrin əvvəllərində yaranmış Daşnaksutyun partiyasının varisi hesab edilən ASALA 1975-ci ildə məhz DTK-nın köməyi ilə yaradılıb. Bu təşkilat qarşısına sovet Ermənistanının Türkiyədəki «hissəsi» ilə birləşmək məqsədini qoymuşdu... Ötən əsrin 70-ci illərində ASALA ABH və Qərbi Avropanın bir sıra yerlərində terror aktları, eləcə də türk diplomatlarının qətli həyata keçirildi (bu günə kimi ASALA tərəfindən 30-a yaxın türk diplomatı qətlə yetirilib)... Beləliklə, bu günün gündəmini «beynəlxalq terrorizm» adı ilə tutan məsələ vaxtilə iki fövqəldövlətin ABŞ və SSRİ-nin qarşıdurması nəticəsində yaranıb. Siyasi qətllər, terror, «soyuq müharibə» illərindən əvvəl baş versə də, ötən əsrin 60-cı illərindən etibarən bu özünü daha qabarıq göstərməyə başladı. Və burada birincilik çələngi, həqiqətən də, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinə deyil, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinə məxsusdur». Məhz bu səbəbdən ABŞ SSRİ-ni «Şər imperiyası» adlandırır. Lakin bu yerdə bir Azərbaycan atalar sözü yada düşür: «Kor kora kor deməsə, bağrı çatlayar». Atalar onu da deyiblər ki, «ilanın ağına da lənət, qarasına da». Müdriklər onu da deyiblər ki, «Allah görünən və görünməyən şeytanlara lənət eləsin». Allah qəzəbli yırtıcılara, zülmkarlara, pislik, kin, küdurət sahiblərinə, fitnə-fəsad törədənlərə, terroristlərə, nasistlərə, neofaşistlərə, günahsız insanları kütləvi qıranlara lənət eləsin. Dünyanı məhvə aparan şeytanlar unutmasınlar, vaxt gələcək günahsız qanların hesabını onlardan tələb edəcəklər.

Zalımlıq, vəhşilik simvolu olan bir tarixi hadisəni yada salaq.

1945-ci il avqustun 6-sı və 9-da dünya tarixinin cəzasız qalmış ən dəhşətli cinayətlərindən biri baş verdi. Avqustun 6-sı sa-

at 2:45. Tinian adasının aeroportundan Amerikanın strateji bombardmançı «VVS ABŞ B-29» «Superfortress № 82» ekipaj komandiri, polkovnik Pol Tibbetsin anasının adını daşıyan «Enola Gay» təyyarəsi havaya qalxır. Onu 6 təyyarə müşayiət edir: ehtiyat «B-29 Strait Flash» – mayor Kold İzerli, 3 kəşfiyyatçı və iki müşahidəçi təyyarə. Səhər saat 8:18 dəqiqə 15 saniyədə «Körpə» adlı bomba Xirosimaya buraxılır. Maraqlıdır, Xirosimaya bomba atan təyyarəçi Pol Tibbets təyyarəsinə doğma anasının adını vermişdi. Bombardmançıdakı bombanı isə «Körpə» adlandırmışdır. Beləliklə, «Ana» «Körpə»sini 100 minləri külə çevirmək üçün yollayırdı. Faciəli partlayışdan sonra Yaponiya qeyri-şərtsiz Amerikaya təslim olmuş, Günəşin oğlu adlandırılan yapon imperatoru Hirahito amerikalı general Duqlas Makarturun qarşısında İkinci dünya müharibəsinin sona çatmasını rəsmiləşdirən müqaviləni imzalamışdı.

Hörmətli oxucu, Azər Mirzəyevin «Dünyanın ən dəhşətli cinayətindən 65 il ötür» («Kaspi» qəzeti, 11 avqust, 2010) məqaləsindən bəzi məqamları sizə təqdim etmək qərarına gəldik:

«Yaponiya tərəfinin rəsmi məlumatına görə, o 2 bombadan indiyədək həyatını itirənlərin sayı 413 min nəfəri ötüb. Əksəriyyət hesab edir ki, bu bombardman yersiz hərəkət, hərbi cinayət və dövlət terrorizmi idi. Müharibədə Yaponiyanın məğlubiyyəti sözsüz idi. Sadəcə, ABŞ bu addımla SSRİ-nin gözünü qorxutmaq, onu nüvə şantajına cəlb etmək istəyirdi. Belə ki, Naqasakidən 1 həftə sonra Trumen Stalinə ultimatum yolladı: Kuril adalarının birində hərbi baza yerləşdirməyə razılıq versin. Stalin isə nüvə şantajına getmədi. Və «soyuq müharibə» də əslində Çörçillin məşhur çıxışından yox, Stalinin o imtinasından başladı.

«B-29» təyyarəsinin pilotu Kold İzerli bir düyməciyi basmaqla Xirosimanı, avqustun 9-da isə Naqasakini külə döndərir. Yüz minlərlə insan həlak olur, yaralanır, bədbəxt vəziyyətə düşür. Şəhərin 60%-i partlayış nəticəsində tamamilə məhv olmuş, partlayış, yanğınlar və güclü şüa xəstəliyi nəticəsində 200 mindən çox insan həlak olmuşdu. «Qəhrəman» Kold bu hadisədən sonra vətəni Texasa qayıdarkən onu milli qəhrəman kimi qarşılayırlar. Lakin o özünü qəribə aparmağa başlayır. Dağıdılmış Xirosima beynindən çıxmır, hər zaman onu təqib edir. Tezliklə ağır depressiyaya düşür və 1947-ci ildə tərxis edilir. Ona müəyyən olunmuş müavinətdən də imtina edir. Təyyarəçi danışıq zamanı onu «müharibə qəhrəmanı» deyərək çağıranda isə dözə bilmir, acıqlanır. O nə pul, nə şan-şöhrət istəmir. O, mükafatlarla dolu formasını geyinməkdən belə imtina edir. Gününü içməklə və qəlb xəstələrinin klinikasında başa vurur. Özünü günahkar sayan Kold cəzalanmasını hökumətdən tələb edir. Şəhər bələdiyyəsinə məktub yazaraq özünü cinayətkar adlandırır. Amerika hakimiyyəti isə onun cinayətkarlığını tanımır. Belə olduqda, o, cəzalanması üçün cinayət törətməyi qərara alır. 1955-ci ildə İzerli qanqsterlərə qoşulub bir neçə dəfə qurdurluq və oğurluq edir. Tutulub məhkəməyə çıxarılanda isə öz hərəkətlərini belə izah edir: «Mən yüz minlərlə insanın ölümünə bais olmuşam. İstəyirəm ki, məni tutub cəza versinlər». Buna baxmayaraq «müharibə qəhrəmanı»nı həbs etmirlər. 1960-cı ilin oktyabrında isə hökumət onu dəlixananın xüsusi coşqun və müalicəedilməzlər üçün olan palatasında ömürlük dustaq etmək qərarına gəlir. Xirosimada isə həmişə xatırlanması üçün şəhərdə qorxulu faciənin toxunulmamış bir hissəsi olduğu kimi saxlanılır. Orada hər şey külə dönüb. Xatirə muzeyində bombalamada ölənlərin abidəsinin üzərində isə bunlar yazılıb: «Rahatca yatın – səhv təkrarlanmır».

Kolddan fərqli olaraq ekipaj komandiri Tibbets isə heç bir vicdan əzabı çəkmədiyini xüsusi vurğulayırdı. Bu şəxs çox uzun ömür sürdü – 2007-də 92 yaşında öldü. Qəbrinin dağıdılacağından qorxduğundan yandırılıb külünün La-Manşa səpilməsini vəsiyyət etdi. «Mən fəxr edirəm ki, işimi xətasız yerinə yetirdim. Mən hər gecə sakit yatıram» – bu, onun müsahibəsindəndir. Ölməzdən 2 il əvvəl isə o demişdi: «Əgər mənə yenə həmin tapşırığı versələr, lənət şeytana, onu yenə icra edərəm».

Bu il Xirosimada təşkil edilən anım mərasiminə ilk dəfə olaraq ABŞ da qatılıb. Xirosima faciəsi zamanı sağ qalan min-

lərlə insan və dünyanın 75 ölkəsindən nümayəndələr Xirosimadakı Sülh Xatirə Kompleksinə toplaşıblar. Rahiblər təbil çalıb, yerli sakinlər xatirə kompleksinə çiçəklər düzüblər.

Faciədən sağ çıxanlar deyiblər ki, Amerikaya qəzəbləri zəifləyib, indi istədikləri bir şey var – sülh».

Belə bir əfsanə var: Çay kənarında bir ilan o biri sahilə keçmək istəyir, lakin suya girməkdən qorxur. Bir tısbağa ona yaxınlaşır, işdən agah olandan sonra ilanı belinə alıb o biri sahilə üzməyə başlayır. Birdən tısbağa belində «tak-tak» səs eşidir. Deyir: «İlan qardaş, bu nə səsdir?» İlan deyir: «Səni sancmaq istəyirəm, lakin dişim batmır». Tısbağa deyir: «İlan qardaş, axı mən sənə yaxşılıq edirəm, belimdə aparıram ki, suda batıb, tələf olmayasan». İlan deyir: «Neyləyim, qardaş, bu mənim xasiyyətimdir. Kimliyindən asılı olmayaraq sancmalıyam». Bunu eşidən tısbağa suyun dibinə baş vurur. İlan qışqırır: «Tısbağa qardaş, neyləyirsən, axı mən boğuluram!» Tısbağa cavabında: «Qardaş, suya baş vurmaq da mənim xasiyyətimdir». Beləliklə, ilan boğulur.

Maraqlıdır, indi istər ABŞ, istər Rusiya və onun sadiq tulası Ermənistan və bir çox inkişaf etmiş dövlətlər sülhdən danışırlar. Yuxarıda söylədiyimiz əfsanədəki kimi, müasir ilanlara necə inanmaq olar? «Dovşana qaç, tazıya tut» – deyən bu ağalar yalnız müsəlman dövlətlərini müxtəlif yollarla məhv etməklə məşğuldurlar. İraq, Əfqanıstan, Pakistanda sönmək bilməyən terror aktları, İrana qarşı blokada, Azərbaycanın torpaqlarının işğalı, Fələstində dinc əhalinin gecə-gündüz qırılması, indi də bəzi ərəb ölkələri – Misir, Suriya, Liviya və s. «Xeyr! Xeyr! Siz tez keçib gedəni (fani dünyanı) sevirsiniz. Axirəti isə tərk edirsiniz. O gün neçə-neçə üzlər sevinib güləcək. Öz Rəbbinə baxacaqdır! O gün neçə-neçə üzlər tutulub qaralacaq, (sahiblərinin) bel sümüklərinin (dəhşətli bir əzabla) qırılacağını anlayacaqdır! Xeyr! (Can) boğaza gəlib yetişəcəyi, «(onu bu bəladan) kim xilas edə bilər?» – deyiləcəyi, (can üstə olan kimsə) ayrılıq dəminin gəlib çatdığını anlayacağı və (ölüm qorxusundan) qıçı-qıçına dolaşacağı zaman, aparılacağı yer Rəbbinin





hüzuru olacaqdır – ey insan! (Qurani-Kərim, Qiyamət surəsi, ayə 20-30).

Mövlana Cəlaləddin Ruminin dediyi kimi: «İnsan oğlunun xəmiri torpaqdandır. Əgər insan torpaq kimi təvazökar olmasa, insan deyildir».

Əziz oxucu, indi isə Qurani-Kərimə, müqəddəs və hikmətli kəlamlara müraciət edək.

***Qurani Kərimdə buyurulur:***

...Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin. Allahdan qorxun.

***əl-Maidə surəsi, ayə 1.***

Həqiqətən, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər!

***Yunus surəsi, ayə 44.***

Cəza ancaq insanlara (haqsız yerə) zülm edənlərə, yer üzündə fitnə-fəsad törədənlərə verilər. Məhz bələlərini şiddətli əzab gözləyir.

***əş-Şura surəsi, ayə 42.***

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

İnsanın buraxdığı səhvlərin əksəriyyəti onun dilindədir.

***

Peyğəmbər salavatullahdan soruşdular: «Müsəlmanların ən yaxşısı kimdir?» Həzrət Peyğəmbər (s.) buyurdu: «O adamdır ki, dilindən və əlindən müsəlmanlara xətər toxunmaz».

***İmam Əli (ə.) buyurmuşdur:***

Dil elə bir yırtıcıdır ki, əgər başını buraxsan, quduzlaşıb insanı qapar.

***

Kişi gərək öz dilini saxlasın, çünki ram olmayan dil öz sahibini həlak edər.

***

Dili şirin olan kimsənin qardaşları çox olar.

***

Hər bir adam öz dilinin arxasında gizlənmişdir.

*İmam Sadiq (ə.) buyurmuşdur:*

Qəzəb bütün pisliklərin açarıdır.

***

Hər kəs öz hirsinə malik olmasa, öz ağlına malik deyil.

***

Hər kimin qəzəbi aşkarlanarsa, hiyləsi aşkarlanar. Hər kəsin nəfsi güclü olsa, ehtiyatı zəifləyər.

*Nizami Gəncəvi:*

Dilini bağla ki, əldə qalsın baş,
Dil quru olarsa, boğaz olmaz yaş.

***

Dünya tikanlıdır, kirpiyik biz də,
İynə var, tikan var xislətimizdə.

*Əfzələddin Xaqani:*

Bir kimsə yarpaq qədər könülləri qırarsa,
Öz ömrünün yarpağı qırılar, yeməz bəhər.

*Sədi Şirazi:*

Qəzəblənəndə özünü saxlaya bilən adam, başqalarının da günahını bağışlaya bilər.





***

Kim tez qılınc çəkib etsə yamanlıq,
Əlini dişləyib çəkər peşmanlıq.

*Əbdürrəhman Cami:*

Yumruq vurmağa adət etmiş adamlar zəiflərin təpiyi altında məhv olarlar.

*Məhəmməd Riza Məhdəvi Kani:*

Qəzəb alovlanmış bir tonqal kimidir. Hər kim onu yatırarsa (öz qəzəbinə üstün gələrsə), o alovu yatırmış və hər kim öz qəzəbinin qarşısını almazsa, o alovda birinci olaraq özü yanmış olar.

Peyğəmbərimiz (s.) buyurur: «Ölülərə söyməyin, çünki onlar dünyada etdiklərinə qovuşmuşdur. Onların əqrəbaları olan diriləri incitməyin!» «Şeytana söyməyin, onun pisliyindən Allaha sığının!» «Zəmanəyə söyməyin, çünki zəmanə Allahındır!» Allah: «Adəm övladları dövrə söyür, halbuki dövr mənimdir. Gecə-gündüz mənim əlimdədir» – deyir.

Hədislərdə deyilir: «Edilən, görülən bir işə söymək, onun sahibinə söymək deməkdir. Ruzigara söyməyin, çünki o, uca Allahın rəhmətindədir. O, rəhmət və əzab gətirir. Ancaq Allahdan ruzigarın xeyrini istəyin, şərindən Allaha sığının. Xəstəliyə söyməyin! Mömin başına gələn bir şeyin ancaq Allahın bir nəməti olduğuna inanır... Söyülənlər lənətlidir. Sən söyənə də söymə, çünki babalı onadır».

*Türkmən atalar sözü:*

Qəzəb qabaqda gələndə, ağıl arxada olar.

# Xudpəsəndlik varlığın yoxsulluğudur

Xudpəsəndlik insanı cəmiyyətə və adamlara münasibəti baxımından xarakterizə edən həyat prinsipi və əxlaqi keyfiyyətdir. Dahi Nizami Gəncəvi isə «Mən» məfhumuna belə münasibət bildirmişdir:

Çıxarkən bir sənlik, mənlik ortaya,
Ah, necə doymasın cana bu dünya?!

Yəni dünyanın işləri ona görə düzəlmir, insanlar ona görə cana gəlmişlər ki, mən və sən bir zamanda yaşayırıq, heç birimiz bir-birimizi bəyənmirik, xudbinlikdən əl çəkmirik. Deməli, xudpəsəndlik insanın öz davranışında yalnız xüsusi mənafeyini rəhbər tutmasında, cəmiyyətin və başqalarının mənafeyi ilə hesablaşmamasında ifadəsini tapır, fərdiyyəçiliyin təzahür forması kimi özünü göstərir. Onu da qeyd etmək lazımdır ki, xudpəsəndlik ibtidai-icma münasibətlərinin dağılması və xüsusi mülkiyyətin yaranması ilə meydana gəlmişdir. Xudpəsəndlik – eqoizm konkret-tarixi anlayış olub, cəmiyyətin inkişafının müxtəlif mərhələlərində xüsusi məna kəsb etmiş və amoral xarakter daşımışdır. Bu proses müasir dövrdə də davam etməkdədir.

Tarixə nəzər salaq: xristianların müsəlmanlara qarşı üç səlib yürüşü (bu barədə əvvəllər məlumat verilib), Qərbin inkişaf etmiş dövlətlərinin Əfqanıstanda, İraqda müsəlmanlara qarşı separatist, nasist, faşist, təbliğat və işğalları, minillik tarixi abidələrin, elmi əsərlərin məhv edilməsi, rusların sovetlər dövründə başqa azlıqlara qarşı «böyük qardaş» siyasəti, mənfur ermənilərin «Böyük Ermənistan» siyasəti və sərsəm arzuları... saymaqla qurtaran deyil, bütün bunlar «milli xudpəsəndlik – eqoistlik» əlamətlər deyilmi?! Yalnız Qurani-Kərim bütün zorakılıqları, xudpəsəndliyi, qəddarlığı və s. lənətləyir, insanlar arasında mehribançılıq, şəfqət, mərhəmət təbliğ edir, hətta balaca qarışqanı belə öldürməyi, təbiətə zülm etməyi lənətləyir.





Bir daha Qurani-Kərimin Loğman surəsinin 18-19-cu ayələrinə müraciət edək: «Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!».

İslamiyyət eqoizmi və irqçiliyi qəbul etməmiş, bu məqsədlə də öldürməyi, zülm etməyi, başqasının malına, ailəsinə, inancına və şəxsi həyatına qarışmağı qadağan etmişdir. Müsəlmanların başqalarının inancına hörmət etməsi tövsiyə edilmiş, inanc mövzusunda məcburiyyətə yol verməməsi istənilmişdir.

Həzrət Əli (ə.) buyurmuşdur: «Hər bir kimsə özündən razı olsa, onun düşməni çox olar. Çünki təkəbbürlü həmişə başqaların nəzərində zəlil olar».

***Əfzələddin Xaqani:***

Xudpəsənd olmasan xalq səni sevər,
Təvazökar olan daim yüksələr.

***Sədi Şirazi:***

Yarasa sevmirsə nurlu günəşi,
Günəşin əskilməz bundan atəşi.

***Abbasqulu ağa Bakıxanov:***

Dəniz özü üçün dalğalanır, çöpə elə gəlir ki, dəniz onun üçün dalğalanır.

## Riyakarlıq, hiyləgərlik, ikiüzlülük, yaltaqlıq, xəyanət, qeybət, fitnəkarlıq, bədnamlıq, ləyaqətsizlik şeytani xislətlərdir

Məhəmməd Riza Məhdəvi Kaniyə görə riyakarlara aşağıdakı xüsusiyyətləri aid etmək olar:

1. Münafiq və ikiüzlüdürlər.
2. Xalqın gözü qarşısında həvəslə, böyük ruhiyyə ilə ibadət edirlər.
3. Təklikdə düşkün və halsızdırlar.
4. Bütün işlərdə hamının onları təriflməsini sevirlər.
5. Onları tərifləyəndə əməllərini artırırlar.
6. Təriflənməyəndə əməllərini azaldırlar.
7. Hiyləgər və kələkbazdırlar.
8. Etdikləri yaxşı əməlləri başqalarının üzünə vurarlar.
9. İnsanların boynuna minnət qoyurlar.
10. İnsanların əlinə göz dikib, Allaha təvəkkül etmirlər.
11. Allahı qəlbdən yox, dildə zikr edirlər.
12. Xudpərəst və lovğadırlar.
13. Qarınqulu və rahatlıq sevəndirlər.

Hiyləgərlik hər yaradılmışın fitrətində müəyyən qədər vardır. Bəla bu fitrətin mütləq hala keçməsindədir. Açıq-aşkar düşmən hiyləgər dostdan daha fərzdir. Əfsuslar olsun ki, bu şeytani xislət müasir dövrdə istər bəzi ailələrdə, cəmiyyətdə, hətta dövlətlər arasında daha çox nəzərə çarpır. İkiüzlülük hiyləgərliyin iyrənc nəticəsidir. İnsanları bir-birindən uzaqlaşdıran, onların arasında soyuqluq yaradan şeytani xislətlərdən hiyləgərlik, ikiüzlülük, yaltaqlıq, fitnəkarlıq və bütün bunların nəticəsi olan ləyaqətsizlikdir. Hər bir başçının, dövlət məmurlarının ən gözəl əxlaqa sahib şəxslərdən seçilməsi vacib məsələdir. Layiqli rəhbər ətrafına elə insanları yığmalıdır ki, yuxarıda qeyd etdiyimiz xislətlərdən uzaq olsunlar. Belə cəmiyyətdə müsbət intel-





lektual sfera yaranar, doğru kimi görünüb, hiylə işlədənlər öz mənfur hərəkətlərindən uzaqlaşdırılar.

Həzrət Əli (ə.) buyurur: «Şər insanlara arxa duran və şərik olanlar, sənin ən zərərli müşavirlərindir».

Riyakar, ikiüzlü, yaltaq, fitnəkar, ləyaqətsiz bir insanı özünə yaxın və ya şərik edən rəhbər və məmur məmləkətə ən böyük xəyanət edir. Bunlar qədər insanları məhv edən mikrob yoxdur. Onlar cəmiyyətin vəba mikroblarıdırlar.

Başçı mədh edənlərin alqışlarından qürurlanmamalı, belə hala nifrət etməlidir. Çünki mədh, alqış məmurun mənəviyyatını öldürür. Onu insanlıqdan çıxarır, zalımlaşdırır. Yaxşı adam insanı yaxşılığa, pis adam pisliyə aparır. Ləyaqətsiz adamlar iş başına gələndə, özlərinə oxşayanları ətraflarına toplayıb, vicdanlı insanların talelərini onlara tapşırırlar. Hərcmərclik, ədalətsizlik, narazılıq və s. elə buradan başlayır. Qanun və ədalət naminə şərin və pisliyin aradan qaldırılması üçün ləyaqətsiz adamlar hakimiyyətdən uzaqlaqdırılmalıdır. İnsan öz ağlı, intellekti ilə şərə qalib gəlməlidir.

Əziz oxucu, məsələnin mahiyyətini açmaq üçün Qurani-Kərimə və dahilərin hikmətli kəlamlarına müraciət edək.

***Qurani-Kərimdə buyurulur:***

(Ya Peyğəmbər!) Münafiqlər (riyakarlar) sənin yanına gəldikləri zaman: «Biz sənin, doğrudan da, Allahın Peyğəmbəri olduğuna şəhadət veririk!» – deyirlər. Allah sənin Onun həqiqi Peyğəmbəri olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir.

***əl-Munafiqun surəsi, ayə 1.***

Ey iman gətirənlər! Əgər bir fasiq sizə (pis) bir xəbər gətirsə, dərhal (onun doğruluğunu) yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!

***əl-Hucurat surəsi, ayə. 6.***

(Dalda) qeybət edib (üzdə) tənə vuran hər kəsin vay halına!
*əl-Huməzə surəsi,* ayə 1.

...Fitnə (müşriklərin hiyləsi) qətldən daha şiddətlidir.
*əl-Bəqərə surəsi, ayə 191.*

...Əgər Allahın lütfü (mərhəməti) üzərinizdə olmasaydı, şübhəsiz ki, az bir qisminiz müstəsna olmaqla, Şeytana uyardınız.
*ən-Nisa surəsi, ayə 83.*

Hər kəs bir xəta və ya günah edib onu günahsız bir adamın boynuna atarsa, şübhəsiz ki, öz boynuna böhtan və açıq-aşkar günah görmüş olar (günah üstündən günah qazanar).
*ən-Nisa surəsi, ayə 112.*

Qorxun o gündən ki, (Allahın izni və köməyi olmayınca) heç kəs, heç kəsin karına gələ bilməsin, heç kəsdən şəfaət bu və ya digər şəxsin günahlarının bağışlanması barədə xahiş, iltimas) qəbul olunmasın, heç kəsdən (günahlarının təmizlənib əzabdan xilas olması üçün) fidyə (əvəz) alınmasın və onlara (günahkarlara) heç bir kömək göstərilə bilməsin.
*əl-Bəqərə surəsi, ayə 48.*

Allah kimi doğru yoldan sapdırsa, ona yol göstərən olmaz. (Allah) onları öz azğınlıqları içində şaşqın bir vəziyyətdə qoyar!
*əl-Əraf surəsi, ayə 186.*

Allah yanında (yer üzündə) gəzən (yürüyən) canlıların ən pisi küfr edənlərdir. Onlar artıq iman gətirməzlər.
*əl-Ənfal surəsi, ayə 55.*





Onların əksəriyyəti ancaq zənnə uyar, zənn isə əsla həqiqət ola bilməz. Allah nələr etməkdə olduğunuzu biləndir!
*Yunus surəsi, ayə 36.*

...Köpük heç bir şey olmadığı üçün uçub gedər. İnsanlara fayda verən bir şey isə yer üzündə qalar...
*ər-Rəd surəsi, ayə 17.*

Pis söz yerdən qopardılmış, kökü olmayan pis bir ağaca bənzəyir.
*İbrahim surəsi, ayə 26.*

(Allah buyurdu: ...Sən qiyamət gününə qədər lənətlənmişsən!
*əl-Hicr surəsi, ayə 35.*

Ey insanlar! Şübhəsiz ki, Allahın (qiyamət barəsindəki) vədi haqdır. Dünya həyatı sizi aldatmasın. O tovlayan (Şeytan) da sizi tovlayıb yoldan çıxartmasın!
*Fatir surəsi, ayə 5.*

Ey iman gətirənlər! Əgər bu fasiq sizə (pis) bir xəbər gətirsə, dərhal (onun doğruluğunu) yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!
*əl-Hucurat surəsi, ayə 6.*

...Hər kəs öz əməlinin girovudur!
*ət-Tur surəsi, ayə 21.*

Onlar (yalan) andlarını özlərinə sipər edib (xalqı) Allahın yolundan döndərirlər. Həqiqətən, onların törətdikləri əməllər necə də pisdir.
*əl-Munafiqun surəsi, ayə 2.*

*Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:*

Millətimin içində xəyanət olmasa, düşmən qarşımızda tab gətirə bilməz.

***

Riyakar adam iki sürü arasında dolaşan qoyuna bənzər, gah birinə, gah da o birisinə qoşular.

***

Qeybətə qulaq asan şəxs, qeybəti edən iki nəfərdən biridir.

***

Riyakar təklikdə süst və halsız, xalqın gözü qarşısında isə fəal və çalışqandır. Onun bütün işləri başqalarının tərifinə həris, bütün əməlləri insanlar arasında özünü gözəl və xeyirxah cilvələndirmək üçündür.

***

İnsanların ən fənası birinə bir üz, başqasına başqa üz göstərən ikiüzlü adamdır.

***

Ey dildə iman gətirib, qəlbi ilə iman gətirməyənlər! Müsəlmanların qeybətini edib gizli eyiblərini aramayın. Çünki hər kim öz din qardaşının gizli eyiblərini arayarsa, Allah-Təala onun gizli sirlərini faş edib onu öz ailəsində rüsvay edər.

***

Bir kəsin yanında din qardaşının qeybəti edilərsə və o, imkan daxilində onun köməyinə yetişərsə (onu himayə edərsə), Allah-Təala dünya və axirətdə onun köməyinə yetişər.

***

Bir kəs məclisdə din qardaşının qeybətini eşidib onu inkar etsə və müdafiəsinə qalxsa, dünya və axirət bəlaları ondan uzaqlaşar.

***

Qəsdən və açıq-aşkar günah edənin qeybəti haram deyildir.

***





Qeybət insanın dinini puç etməklə, onun bədənində olan xora xəstəliyindən daha güclüdür.

***

Qeybəti tərk etmək Allahın yanında on min rükət müstəhəb namazdan daha əzizdir.

***

Çobanın ağacı silkələyib yarpaqları tökdüyü kimi, qeybət də insanın imanını qolsuz-budaqsız edər.

***

Qeybətdən çəkinin, qeybət zinadan daha pisdir, çünki zinakarın tövbə edib günahının bağışlanması mümkündür, qeybət sahibindən hallallıq alınmamış günahın bağışlanması isə qeyri-mümkündür.

***

Qeybətin müsəlmanın dininə qoyduğu təsir, bədənindəki yaranın təsirindən (yaranın daha dərinə işləməsindən) daha güclüdür.

*İmam Əli (ə.) buyurmuşdur:*

İkiüzlü münafiq sifətli şəxslərdən uzaqlaşın. Onların yalan danışığı, cilvəli, hiyləli əməlləri sizləri aldatmasın. Onu bilin ki, onlar insanları düz, haqq olan yoldan uzaqlaşdıran, özləri xəta edən, başqalarını da xəta etməyə məcbur edənlərdəndirlər.

***

Qeybətə qulaq asan kimsə, qeybəti edənlərdən betərdir.

***

Ən pis adam odur ki, başqalarının eybini axtarsın, amma öz eybini görməsin.

*Əbu Bəkr (ə.) buyurmuşdur:*

Qonşunun qeybətini eləmə. Gördüyün insanların hamısı çəkilib gedər, sənə qonşular qalar.

*Nizami Gəncəvi:*

Kiçikdən ən böyük bir fitnə doğur,
Hər qurdun sümüyü ayağa oxdur.

*Əfzələddin Xaqani:*

Fitnə törətmə, ey fitnəkar cavan,
Fitnədir elləri dərd-şərə salan.
Cana məlhəmsə də vəfa, etibar,
Fitnəkarlıq edər onu tarimar.
***
Yaxşılığa yamanlıq istəyən bir adamın,
Yaxşı baxsa, özünün qarşısına çıxar şər.
Dostlarına dünyada zəlillik istəyənin,
Özü zəlil bir halda dünyadan köçüb gedər.
***
Çalış alçaq adamlardan tikə alma dünyada,
Onlar səni rüsvay edər, gedər hörmətin bada.
***
Bir piyada olub düz getmək xoşdur,
Bir vəzir olub əyri getməkdən.

*Nuşirəvan Adil:*

Özündən aşağı adama möhtac olmaq böyük müsibətdir, suda boğulmaq, alçaq adamdan kömək ummaqdan yaxşıdır.

***

Sənə pis deyəni onu sənə xəbər gətirəndən tez bağışla.

***

Ləyaqətsiz adamları diri hesab etmə.

***

Əclaf adamın çörəyi ilə dolanmaqdansa acından ölmək yaxşıdır.





*İbn Sina:*

Hər kəsi özünə dost bilmə, dostum,
Hər kəsə sirrini verib inanma!
Hiyləgər, bədəsil bir nanəcibi,
Özünə vəfalı köməkçi sanma!
***
İstəsən getməsin hörmətin əldən,
Alçaq adamların oduna yanma!
Abrını, həyanı yaxşı qoru sən,
Başını dik tutub eldən utanma!

*Nəsirəddin Tusi:*

Qeybət, böhtan, iftira və yalançılıqdan çəkinməli, heç vaxt belə şeyə yol verməməli, o cür xasiyyətli adamlarla ünsiyyət saxlamamalı, onlara qulaq asmaqdan çəkinməlidir. Ümumiyyətlə, az danışmalı, çox eşitməlidir.

***

Adamların alçaqlığını bilmək istəyirsənsə, onların lazım olmayan sözlər danışmasına, məsuliyyət daşımadığı şeylər haqqında şayiəyələr yaymasına fikir ver! Bil ki, başqaları haqqında bəd niyyətdə olan adam fitrətən bədxah olar!

*Məhəmməd Riza Məhdəvi Kani:*

Niyyət insanın şəxsiyyətini nümayiş etdirməkdən əlavə əqidəvi, ictimai və milli bağlılıqlardan da bizə xəbər verir.

***

Qeybət etmək kimi, qeybətə qulaq asmaq da haram və günahdır.

*Əvhədi Marağayi Rüknəddin:*

Özgə minnətilə çörək yeyincə,

Yemə o cörəyi, zəhər ye, məncə.

**Əbdürrəhman Cami:**

Dişinlə didərək poladı əzmək,
Dəmir dırnağınla qayanı kəsmək,
Başınla od dolu kürəyə girmək,
Kirpiklə kürədə atəş süpürmək,
Yüz dəvə yüküylə bel bükə-bükə,
Dünyanı dolaşmaq tər tökə-tökə,
Asandır Camiyə, inan buna sən,
Alçaq adamlardan minnət çəkməkdən!
***
Özü ləyaqətsiz olan adam heç kəsə ləyaqət öyrədə bilməz.

**Şeyx Şamil:**

Dünyada mənfəət üçün sevgi göstərənlərdən alçağı yoxdur.

**Mirzə Fətəli Axundzadə:**

Pis və çirkin adətləri insanın qəlbindən tənqid, istehza və məsxərədən başqa heç bir şey qoparıb çıxara bilməz.

**Əbül Fərəc:**

Hiyləgər alim siyrilmiş qılınca bənzər.

**Qasım bəy Zakir:**

Bir adam ki, qoya hiylə binası,
Aqibət özünə dəyər xətası.





**Abay:**

Hiylə ilə yaşamaq, yaxud ağlayıb yalvarmaq yaşamaq deyil, gün keçirməkdir.

**Hüseyn Cavid:**

Bəzi dostlar da var ki, üzləri şən,
İçi lakin daşır zəhərli tikan.
Qəlbi kin püskürüb də üzdə gülən,
Daha qorxunc olur köpəklərdən.
***
Qorxun azğın ləkələrdən, qorxun,
Ev yıxan təhlükələrdən qorxun.
***
Zahirin pək gözəl, fəqət nə çıxar,
Oynaşır bətnində şeytanlar.

**Səməd Vurğun:**

Xəyanət durduqca yenə dünyada,
Bütün yer üzünü verəcək bada.

**Nəbi Xəzri:**

Məğrurdur igidtək çinar – çinarsa,
Yaltağın söyüdtək düz qəddi yoxdur.
Dünyada ağlın tək sərhədi varsa,
Yalnız axmaqlığın sərhədi yoxdur!

**Nəriman Həsənzadə:**

Asılı yaşama, özündən asıl,
Yıxılsan özünə söykən azacıq.
Olsan da axırda özünə qul ol,
Yazıq... qulxasiyyət olana yazıq.

*«Kəlilə və Dimnə»dən:*

Hiylə və xəyanət ağacının barı müsibət və fəlakət olar.

*Azərbaycan atalar sözləri:*

Söz gəzdirən adam bir ömürlük yaxşılığa qayçı vurar.
İkibaşlı dostluq, dostluq sanılmaz.
İblisə qul olunca, məsləkinə qul ol.
İnsan qulağından, heyvan boğazından rahat olur.
İtə bir sümük versən sülhə gələr, namərdə canını versən də vəfa etməz.
Hiylə ilə iş görən, möhnət ilə can verər.

## Yalan zalımın dinidir, lənət qisməti

Məhv olsun yalançılar! Allah onlara lənət eləsin!
*Qurani-Kərim,*
*əz-Zariyat surəsi, ayə 10.*

Yalan həqiqətin təhrif olunmuş ifadəsidir. Psixoloji baxımdan yalan qəsdən, yaxud bilməyərəkdən ola bilər. Qəsdən yalan zamanı insan həqiqəti başa düşərək təhrif edir və başqalarına bu barədə yanlış məlumat verir. Bilməyərəkdən deyilmiş yalan insanın özünün anlamadığı həqiqətin təhrifidir.

Tarixdən məlumdur ki, ibtidai icma quruluşu üçün istehsal vasitələrinə münasibətin və ictimai məhsuldan pay almağın cəmiyyət üzvləri üçün eyni olması səciyyəvi idi. İbtidai icma quruluşu sonrakı ictimai inkişaf mərhələlərindən, xüsusi mülkiyyətin, siniflərin və dövlətin olmaması ilə fərqlənir. Tədricən xüsusi mülkiyyət formalaşmağa başladı, sosial antoqonizmlər və siniflər arasında ziddiyyətlər yarandı. Dövlət təşəkkül tapmağa başladı. Dövlətin təşəkkül tapması səbəblərindən ən əsası soyğunçuluq məqsədilə aparılan müharibələrin daha geniş vüsət alması idi. Bütün bunlar nisbətən daha iri etnik birləşmələrin və xalqların meydana gəlməsinə səbəb oldu. Sinifli cəmiyyətin təşəkkül tapması ictimai şüura da təsir göstərdi. İctimai icma quruluşunun əxlaq normaları getdikcə aradan qalxdı və sinfi əxlaqla əvəz olundu. Sinifli cəmiyyətdə insanın insan tərəfindən istismarı möhkəmləndi. Bunun nəticəsində əmtəə istehsalı durmadan genişləndi. Cəmiyyətdə müəyyən hüquqlu təbəqə və silklər meydana gəldi. Beləliklə, ictimai icma quruluşunu quldarlıq, sonra feodalizm, kapitalizm, bir dövr isə SSRİ və bəzi dövlətlərdə müvəqqəti olaraq sosializm deyilən bir quruluş əvəz etdi. Sivilizasiya inkişaf etdikcə, zəhmətkeş təbəqənin istismarı durmadan artmağa başladı. Haqsızlığı, zülmü müdafiə edən yalan bütün hakim siniflərin, dövlətlərin silahına çevrildi. Bəşəriyyət ümumi və intellektual ekoloji tarazlığın pozulması ilə üz-üzə qaldı. Müasir dövrdə isə bəşəriyyət məhv olmaq təhlükəsi ilə qarşılaşmaqdadır. Bu bir həqiqətdir. Lakin hələlik həqiqət zorakılıqla, yalanla qəfəsə salınır. Lakin bu müvəqqətidir. Hindistanın dövlət gerbində «Ancaq həqiqət qələbə çalır» sözləri yazılıb. Bəxtiyar Vahabzadə yazır:

Mayasında haqq durur hər anılan zəfərin,
Zorla, zorakılıqla qazanılan zəfərin
Adı zəfərdir, özü zəfər sayıla bilməz.
Əbədi ola bilməz, haqla zorakılığın əbədi döyüşündə,
Məğlubiyyət – qələbə! Bir əbədi silsilə!
Keçəcək əldən-ələ.
Haqsız qalib sabahın məğlubuna çevrilər,
Zəncirvari: bu ona, o da buna çevrilər.
Sən ey zorakılıqla həqiqəti tapdayan,
Həqiqətin gücündən xəbərsizsən, bir oyan!
Öyünmə qazandığın «şanlı» zəfərinlə sən,
Öz içində boğduğun həqiqətin səsini.

Öz içində dinlə sən!
Bu qələbən boyda da qazanmısan, ay yazıq,
Zorakılıq yalanın eybəcər sifətini
Gizlədib örtə bilər.
Onu həqiqət kimi gözlərə dürtə bilər,
Haqqı öldürə bilməz,
Yalan qapı sındırar, bir qəlbə girə bilməz.
Mayasında haqq deyil, yalan duran bir zəfər
Yalanın özü boyda sənə nifrət gətirər.
Nifrət susar, o dinməz...
Onun ürəklərdəki boy artımı,
Zoğları gözlərə də görünməz.
Qeyrət olar o qanda, öz məqamı çatanda,
Zora zorun özüylə cavab verər bu anda.
Bu zora, bu nifrətə, bu qeyrətə min əhsən!
Zorakılıq demərəm zoru yıxan zora mən.

Müasir dövrdə hansı səmtə dönürsən, zorla, yalanla qarşılaşırsan. Dövlətlər arasındakı münasibətlərin əksəriyyəti yalanlara söykənib. Qərbin super dövlətləri yalan iftiralarla İraq kimi bir dövləti viranə qoydu, milyonlarla günahsız sakin qırıldı, insan sivilizasiyasının inciləri olan tarixi abidələr, qədim əlyazmaları, sənədlər məhv edildi. Belə bir fəlakətə Əfqanıstan da məruz qaldı. Sovetlər məkanında yalançı qardaşlıq ideyası tərənnümçüsü olan «böyük qardaşımız» ruslar Krım türklərini öz tarixi yurdlarından, azərbaycanlıları dədə-baba yurdu İrəvandan, Göyçədən, Məhsəti türklərinin Gürcüstandan deportasiya etdilər, öz konstitusiyasında yalandan «hər bir respublika suveren hüquqa malikdir» maddəsini əks etdirən Sovet dövləti, bu hüquqdan istifadə etmək istəyən çeçenləri bir neçə dəfə deportasiya etdi, qalanlarının da çoxunu qətlə yetirdi. Öz hüquqlarını tələb edən, müstəqil dövlət qurmaq istəyən Vyetnam xalqı yalançı demokratik islahatlar carçısı ABŞ dövləti tərəfindən kütləvi qırğına məruz qaldı. Tarixdən belə misallardan nə qədər çəkmək olar?! Yalan insanları manqurta çevirdi.





Dövlətlərarası münasibətlərdə, xüsusən böyük dövlətlərin və onların rəhbərlərinin dünya işlərində, başqa dövlətlər barəsindəki qərarları, əməliyyatlarındakı «ikili standart», üzgörənlik, yalançılıq bəşəriyyətə qarşı cinayət deyilmi? Yalançılıqla, ədalət bir yerə sığmaz – bunu hamı bilir, ədalət olmayan yerdə həqiqət və inam ola bilməz! BMT-nin Dağlıq Qarabağın erməni faşistləri tərəfindən azad edilməsi haqda dörd qətnaməsi əgər icra olunmursa, bu, yalan deyilmi? Saleh bəy: «Heç vaxt (!) müsəlmanlar birləşib, bir neçə dövlətin birgə ordusu ilə xristianların (və digər dinlərin nümayəndələrinin) üstünə müharibəyə, dini müharibəyə (!) getməyiblər. Xristianlar, avropalılar isə məhz belə, bir neçə dövlət birgə, ordular yaradaraq Şərqə, müsəlman ölkələrinin üstünə yerimişlər. 8 (!) səlib (din!) müharibəsi yapmışlar, on minlərlə müsəlmanı qətlə yetirmişlər. İndi hamı bilir ki, həmin o səlibçilər üçün din bir pərdə kimi istifadə edilib, xaç bəhanə imiş, o müharibələrdə də əsl məqsəd qəsbkarlıq olub.»

Bax budur tarixi yalanın əsl nümunəsi. Tarixin hansı səhifəsini vərəqləyirsən, erməni alçaqlığı, erməni superfaşizmi, erməni yalanı ilə qarşılaşırsan. Ermənilərin torpaq iddiaları, tarixi saxtalaşdırmaları və s. başdan-başa superyalan deyilmi? Əfsuslar olsun ki, Qərbin inkişaf etmiş dövlətləri bu «erməni yalanını» hələ də bilərəkdən müdafiə etməkdədirlər. Onda hansı bəşəri ədalətdən söhbət gedə bilər? Məgər öz daxilimizdə yalançılar ordusu azdır? Məclislərdə, rəhbərlik etdikləri sahələrdə vətən məhəbbətindən ağızdolusu danışan «cırtdan qəhrəmanlar»dan hansı öz övladını əsgəri borcunu yerinə yetirməyə göndərib? Əksəriyyəti dənizkənarı bağlarda istirahət edib, kağızda vətənə «qulluq» edirlər. Məgər bu, iyrənc yalan deyilmi? Yalan insanı hər şeyə vadar edər: alçaqlıq, oğurluq, xəyanətkarlıq, satqınlıq, vətənə xəyanət, qatillik, biqeyrətlik və s.

Belələrini gündəlik həyatımızda görürük, müşahidə edirik, əfsuslar olsun ki, müəyyən səbəblər ucbatından hələlik dözmək, səbir etmək lazımdır.

Əziz oxucu! Biz bu kitabın əvvəlində bəyan etmişdik ki, Ön və Orta Şərq dahilərinə və Qurani-Kərimə müraciət edəcəyik. Lakin müasir dövrün superyalançılığı, superalçaqlığı, superbiganəliyi, superqorxaqlığı... bizi vadar etdi ki, dünya ədəbiyyatının nəhəng nümayəndəsi Aleksandr Soljenitsinə də müraciət edək. Bundan əvvəl rus yazıçısı, Nobel mükafatı laureatı İvan Buninin bir fikrini sizə təqdim etmək istərdik: «Mən şəxsən qəti əminəm ki, bəşər tarixində, hətta ən rəzil və qanlı dövrlərdə belə, bu (bolşevik) fəaliyyətindən alçaq, yalançı, qəddar və rəhmsizi olmayıb» («Lit.qazeta», 5 mart, 1997). Aleksandr Soljenitsin: «...Adamlığımızı o dərəcədə itirmişik ki, bütün prinsipləri, mənəviyyatımızı, ata-babalarımızın bütün elədiklərini, nəvələrimizin eləyə biləcəklərinin hamısını bir qarın çörəyə qurban veririk – təki vücudumuza xətər toxunmasın. Bizdə nə qətiyyət, nə qürur, nə də ürək yanğısı qalıb. Biz bütün bəşəriyyətin axırına çıxa biləcək atom ölümündən və üçüncü dünya müharibəsindən də qorxmuruq (bəlkə, dəlmədeşikdə yer tapıb gizlənə bildik?), biz yalnız cəsarətli vətəndaş addımı atmaqdan qorxuruq. Ömür boyu beynimizə möhkəm yeridiblər ki, ... varlıq şüuru müəyyən edir, yəni bizlik bir iş yoxdur, biz heç nə eləyə bilmərik. Ancaq biz hər şey eləyə bilərik! Yalandan özümüzə toxtaqlıq veririk... Biz gecə-gündüz indiki yaşayışımızı tərifləyib daha da möhkəmləndirəcəyiksə, heç olmasa, onun ən yaralı yerindən (yalandan!) qaçmayacağıqsa, yalan heç vaxt öz-özünə bizdən əl çəkməyəcək. Zorakılıq adamların dinc həyatına soxulanda lovğa-lovğa, qırmızı-qırmızı bayraq qaldırır: «Mən zorakılığam! Dağılın, çəkilin – əzərəm!» Ancaq zorakılıq tez qocalır, o, özünə uzun müddət güvənə bilmir, özünü yaşatmaqdan, yaxşı görünməkdən, gözə kül üfürməkdən ötrü əlüstü yalanı köməyə çağırır. Çünki zorakılıq yalandan başqa heç nəyin arxasında gizlənə bilmir, yalansa yalnız zorun hesabına yaşayır. Zorakılıq bizə qarşı çox vaxt açıq hücuma keçmir. O, bizdən yalnız yalana boyun əyməyi, hər gün ona şərik çıxmağı tələb edir – kölənin sədaqəti də elə bundadır. Azadlığa çıxmağın indiyəcən məhəl qoymadığımız





ən adi, ən sadə açarı elə buradadır – şəxsən yalana qoşulmamaq!.. Kiçik bir şeydə möhkəm duraq – yalanın hakim kəsilməsində mənim əlim olmasın! Bizdən ötrü ən asanı – yalanı yoxa çıxarmağın ən sadə yolu da elə budur! Çünki adamlar yalandan iyrənib üz döndərəndə, o, sadəcə olaraq, aradan çıxır. Yalan mikrob kimi ancaq adamlarda yaşaya bilir. Ortaya çıxan həqiqəti car çəkməyə, düşündüyümüzü ucadan deməyə yetişməmişik – lazım deyil, qorxuludur. Heç olmasa, düşünmədiyimizi danışmaqdan əl çəkək! İçimizdə qat bağlamış mütiliyin fonunda yalnız budur ən rahat yol. Yalanın sərhədini (onu hərə bir cür görür) anlayıb o iltihab xəttindən geri çəkilmək gərəkdir! Və nəhayət, itaətkarlığımızdan çıxış yolunu qoy hər kəs özü seçsin: ya bilə-bilə yalana nökərçilik eləsin, ya da müasirlərə, gələcək nəslə layiq adam olsun. Çətin yoldur, ancaq mümkün yolların ən asanıdır. Can üçün çətin olsa da, ruh üçün yeganə yoldur.» («Kaspi» qəzeti, 26–28 iyul, 2008)

Əziz oxucu, tarixi faktlar göstərir ki, bütün bəşəri fəlakətlərin kökündə əsas iki amil durur: nəfs və yalan. Uşaq anadan olanda, onda yalan xisləti olmur. Bu xisləti o, ailəsində, məktəbdə, yaşadığı mühitdə kəsb edir. Məhz yalanın baş alıb getdiyi intellektual mühitdə insan qorxaq, yalançı... kimi yetişir. Yalançılıq bəşəriyyətin ən qorxunc yoluxucu xəstəliyi, yalançılar isə məhvi olduqca çətin olan mikroblarıdır. Hələ 1400 il bundan əvvəl müqəddəs Quranda buyurulub: «Onlar düşməndirlər, sən onlardan həzər et! Allah onları öldürsün...» (əl-Munafiqun surəsi, ayə 4)

Təbabətdə bir çox xəstəliklərin coğrafi məkanları var. Bu, sosial coğrafiya elmində «Tibbi coğrafiya» adlanır. Hansı məsələyə müraciət edirsənsə, yenə də mənfur ermənilər yada düşür: «Erməni xəstəliyi», «erməni superfaşizmi», «erməni terroru»... bizcə, bir əlavə də olmalıdır – «erməni superyalançılığı». Əgər desək ki, yalanın ocağı ermənilər arasındadır, heç də səhv etmərik. Harda erməni var, orada yalan baş alıb getməlidir. Allah onlara lənət eləsin!

İndi də Qurani-Kərimdə və kəlamlarda yalançılığın necə

lənətlənməsi faktlarına müraciət edək.

*Qurani-Kərimdə buyurulur:*

Əgər yalan damşanlardandırsa, Allah ona lənət eləsin!
*ən-Nur surəsi, ayə 7.*

...Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz.
*əz-Zumər surəsi, ayə 3.*

Yalana dadanmış, günaha düşkün hər kəsin vay halına.
*əl-Casiyə surəsi, ayə 7.*

Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar.
*əs-Səff surəsi, ayə 3.*

...Allahın lənət etdiyi kimsəyə isə heç bir kömək edən tapa bilməzsən!
*ən-Nisa surəsi, ayə 52.*

Ey iman gətirənlər! Şeytanın yolunu tutub getməyin! Kim şeytamn getdiyi yolla getsə, o, (insanlara) çirkin pis işlər görməyi (zina etməyi, yalan danışmağı, özgələrə böhtan atmağı) əmr edər. Əgər Allahın sizə neməti və mərhəməti olmasaydı, sizdən heç kəs, heç vaxt (günahdan) pak olmazdı...
*ən-Nur surəsi, ayə 21.*

*Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:*

Həqiqətən, ən böyük günah dilin yalana adət etməsidir.

***

Yalanın əsas səbəbi alçaqlıq və şəxsiyyətsizlikdən başqa bir şey deyildir.





*İmam Əli (ə.) buyurmuşdur:*

Bu dünyada yalançı adamın şəxsiyyəti, mərifəti, mənliyi, həsəd, paxıllıq edən şəxsin isə rahatçılığı olmaz.

***

Yalançı şəxsin rəhm və mürvəti olmaz.

***

Yalan ən pis xəstəlikdir.

*İmam Həsən Əskəri (ə.) buyurmuşdur:*

Bütün çirkin əməllər bir evə yığışsa, o evin açarı yalan olar.

*Nizami Gəncəvi:*

Doğru danışmağa var madam imkan,
Neyçün gərək gəlsin ortaya yalan.
Sözləri qiymətdən salıb yalanlar,
Doğrunu danışan hörmətli olar.

***

Kimsənin dalınca demərəm yalan,
Utanım üz-üzə gəldiyim zaman.

***

Yox, əgər görsəniz yalançıyam mən,
Baş məndən, teşt ilə qılınc da səndən.

*Sədi Şirazi:*

Yalan da xəncər yarası kimi bir şeydir, özü sağalsa da, izi qalar.

*Əbülqasim Firdovsi:*

Əgər istəyirsən işin tərəqqi tapsın,
Heç vaxt dilinə yalan gətirmə.

*Məhəmməd Tağı Sidqi:*

Yalançılıq insanın vücudunda bir ensiz örtüyə bənzər. Çünki bir tərəfini örtsə də, bir tərəfi örtülməz, açıq qalar.

*Əmir Xosrov Dəhləvi:*

Yalana inanmaz idrakı olan,
Şübhəsiz yerimaz dünyada yalan.

*«Kəlilə və Dimnə»dən:*

Lal olmaq yalan danışmaqdan, pəltək olmaq söyüş söyməkdən, yoxsulluğa dözmək oğurluqla mal toplamaqdan yaxşıdır.

***Azərbaycan atalar sözləri:***

Yalan ayaq tutar yeriməz.
Yalan danışan hamını qanmaz bilər.
Yalan ilə dünyam gəzmək olar, qayıtmaq olmaz.
Yalan ki, var, doğrunun quludur.
Yalan söz üz qızardar.
Yalanı mənzilindən qov.

***Ərəb atalar sözü:***
Yalan danışmaq bütün xətaların əsasıdır.

Bir daha dahi ustad Bəxtiyar Vahabzadənin kəlam xəzinəsinə müraciət edib, bu bölməni yekunlaşdırmaq qərarına gəldik:

Qorxu kölgəsinə sığınmış bu gün
Sədaqət, dəyanət, məhəbbət, Allah.
Yalan hakim olub, böhtan gözətçi,
Çürüyür zindanda həqiqət, Allah.





# Zülm, qəddarlıq küləyi əsən dənizdən intiqam dalğası qalxar

Həzrət Loğmanın oğluna etdiyi nəsihətlərdən birində belə buyurulur: «Ey oğul! O vaxt ki, qüdrət, qüvvət (mal-dövlət, vəzifə-məqam) tapdın və bu tutduğun məqam səni başqasına qarşı zülm etməyə məcbur etsə, Allah-Təalanın sənə və bütün aləmə olan qüdrətini yadına salıb, öz acizliyinə diqqətlə fikir et (yəni əgər ağlın ilə yaxşı düşünüb dərk etsən, Allahın qüdrət-qüvvəti altında başqasına zülm etməzsən).

Allah-Təala İsa peyğəmbərə (ə.) xitablarından birində belə buyurub: «Ey İsa! Ağlınla yaxşı təfəkkür edib, yer üzündə olan hər bir şeyə diqqətlə nəzər salsan, zalımların, fitnə-fəsad törədənlərin aqibətlərinin necə zəlilliklə sona yetdiyini görərsən».

***Qurani-Kərimdə buyurulur:***

Həqiqətən, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər!

***Yunus surəsi, ayə 44.***

...İntiqam almaq məqsədilə birinə cəza verəcək olsanız, sizə nə cəza verilibsə, eynilə həmin cəzanı verin.

***ən-Nəhl surəsi, ayə 126.***

Əgər biz onlara rəhm edib düşdükləri müsibətdən qurtarsaq, onlar şaşqın vəziyyətdə yenə də azğınlıqlarında davam edərlər...

***əl-Muminun surəsi,ayə 75.***

Zülmə məruz qaldıqdan sonra (həddi aşmadan) əvəzini çıxanlara heç bir cəza verilməz (onların heç bir günahı yoxdur, uğradıqları haqsızlığın əvəzini çıxmışlar).

***əş-Şura surəsi, ayə 41.***

*İmam Əli (ə) buyurmuşdur:*

Hər bir şəxs xalqına zülm etsə, öz düşməninə kömək etmiş olar.

***

Zülm edən şəxs özünü məhvə aparır.

*Nizami Gəncəvi:*

Qocaman ağaca mişar çəkmə sən,
Zöhhak bunun üçün düşdü təxtindən.
***
Acizlik ürəyi ağrıdar, bilsən,
Bir alçaqlıq olar hər zülmə dözsən.
***
Zülm ilə bu dünyanı almaq deyildir mümkün,
Ancaq ədalət ilə alarsan hər bir mülkü.
***
Zülmü birdəfəlik eylə sən kənar,
Çünki zülmkarlıq ömrü azaldar...

*Sədi Şirazi:*

Gücsüzə göstərmə öz gücünü sən,
Bir zərbə yeyərsən başqa güclüdən.
Xalqa ziyan versən bir canavartək,
Nəhayət, səni də parçalar pələng.
***
Xalqına zülm edən zalım, dünyada
Həmişə lənətlə salınar yada.
***
İncitsən bir qəlbi arxayın olma
Ki, sənin öz qəlbin asudə qalar.
Hasarın bürcünə daş atsan, bil ki,





Bir daş da hasardan sənə atılar.
***
Gücsüz uşaqları incitmə, bala,
Sən də bir güclüdən çəkərsən bəla.
Olsan ömür boyu bədxah, zülmkar,
Sanma ellər səni xeyirxah sanar.
Sənə bu sözlərim gəlirsə ağır,
Sən öz vicdanını köməyə çağır.

*Nəsirəddin Tusi:*

Dövlətlilikdə qudurub yan-yörəni qapma, yoxsulluqda ruhdan düşüb yazıq-yazıq baxma.

*Qətran Təbrizi:*

Zülmdə, pislikdə, ey mahir olan,
Zülmdən ürəyin doymur heç zaman.
Bir ürək əhlindən eşitmişəm mən,
Yamanlıq eyləyən görəcək yaman.
***
Zülm ilə az oyna, gəl, ey zülmkar,
Zülmünlə aləmi etmə tarimar.
Sən də dərdimizdən dərdə düşərsən,
İnan, zülm edənə bir gün zülm olar.

**Əbdürrəhman Cami:**

Yumruq vurmağa adət etmiş adamlar,
Zəiflərin təpiyi altında məhv olarlar.

*Şeyx Məhəmməd Xiyabani:*

Zor haqdan irəli keçə bilər, lakin onu əvəz edə bilməz.

Əziz oxucu, bizim qənaətimiz belədir ki, zor, zülm, nəfs, həsəd insan övladı ilə birgə əmələ gəlib. Lakin həmişə, hər bir dövrdə, istər sadə, istismar olunan insanlar və onlara rəhbərlik edən xalq qəhrəmanları, istərsə də mütəfəkkirlər, alimlər zülmə qarşı çıxmış və çıxış yolları axtarmışlar. Məhz belə dahilərdən biri Nizami Gəncəvi olmuşdur.

Əvvəlki bölmələrdən birində qeyd etdiyimiz kimi, bütün ömrü boyu inam bəslədiyi «ədalətli şah», «ideal hökmdar» ideyasını təbliğ edən dahi sənətkar, tədricən «ədalətli» hökmdarın da bəşər cəmiyyətinə insanların həmişə arzulamış olduğu səadət gətirə biləcək fikrindən əl çəkməyə başlayır, yaradıcılığının zirvəsi sayılan «İsgəndərnamə»nin ikinci hissəsi – «İqbalnamə»də İsgəndəri azad cəmiyyət münasibətləri hökm sürən səadət ölkəsinə gətirir və bununla da təsdiq edir ki, bəşər cəmiyyətinin səadətli gələcəyi ədalətli şah konsepsiyası ilə deyil, ancaq maddi və mənəvi azadlıq ideyaları ilə bağlıdır. Dahi Nizaminin bu fikri müasir dövrdə reallıqdır. İnsanların mənəvi azadlıqları cilovlanan, mənəviyyatsız rəhbərlərin başçılıq etdikləri bir cəmiyyətdə yalnız yalan, onun nəticəsi olan zorakılıq və zülm inkişaf edə bilər. Biz yaxın, müasir tarixə bir səyahət edək. XX əsrin əvvəllərində həqiqət olan bir möcüzə baş verdi: «proletar diktaturası» yaradıldı, sonra «sosializm», «inkişaflı sosializm», «kommunizmin ilk mərhələsi» yaradıldı. Sov.İKP Mərkəzi Komitəsinin Baş katibi N.Xruşşov vəd etdi: «Xalqımızın indiki nəsli kommunizmdə yaşayacaqdır», sonra onu əvəz edən L.Brejnev isə dedi: «Kommunizm üfüqdə görünür». İnkişaf etmiş sosializm kommunizmin ilk mərhələsidir, fikri siyasi avantüra idi. Yalan vədlər, yalan ifadələr... Lakin 70 ildən sonra bütün bu vədlər «sosializm» ilə birlikdə tarixə qara hərflərlə yazılmış bir cəfəng nağıla çevrildi...Səbəbi nə idi? Kommunizm ideologiyasına görə: «Hər kəs qabiliyyətinə görə işləyəcək və tələbatına görə alacaq» («Bolşaya Sovetskaya Ensiklopediya», Moskva, 24-cü c.,1953, s.176). Beləliklə, kommunizm ideoloqları bu dünyada hamıya cənnəti vəd edirdilər. Yenə yalan və onu idarə edən zorakılıq. Təkcə bunu xatırlamaq kifayətdir ki, Stalin öləndən sonra, sovetlərin süqutuna qədər dünyanın altıda birini idarə edən bir nəfər ağıllı adam tapılmadı: Xruşşov, zorla danışan, Bakıda olarkən Odesseya gəldiyini güman edən Brejnev, xəstə Andropov, yenə xəstə Çernenko, avantürist, ekstremist, qatil Qorbaçov... və Sovet Sosialist Respublikaları İttifaqının gülünc sonu.





Gəlin bir neçə fakta nəzər salaq. Leninin «insani» mənəviyyatı və artıq Sovet hökumətinin başçısı vəzifəsində necə «işlədiyi» barədə Anatoli Latışevin «Leninin yırtıcılaşma məktəbi» məqaləsindən: «Budur hökumət başçısının (Leninin) RSFSR inqilabi hərbi sovetinin sədr müavini Sklyanskiyə 1920-ci ilin avqustunda göndərdiyi sənədin mətni: «Əla plandır. Onu Dzerjinski ilə birgə qurtarın. «Yaşıllar» adı altında (biz sonra elə onların da üstünə yıxarıq) 10-20 verst gedərik və qolçomaqları, keşişləri, mülkədarları asarıq, mükafat hər bir asılana görə 100000 (yüz min) rubl». İkinci sənəd: «Hərbi ölçülər götürməli, yəni Latviyanı və Estoniyanı hərbi qaydada bir verst keçməli və orada olanların 100-1000 məmurunu və varlısını asmalı.» («Moskovskiye novosti» jurnalı, № 21, 1996)

Məlumdur ki, proletar diktaturası (!) dövründə istər Rusiyada, istərsə də ruslar tərəfindən işğal olumuş respublikalarda milyonlarla günahsız insan – alim, ziyalı, din xadimi «proletar diktaturası»nın təşkil edtdiyi «üçlük» tərəfindən istintaqsız, mühakiməsiz amansızcasına qətlə yetirildi. Proletar diktaturası tam bərqərar olduqdan sonra repressiyalar başladı. Bu amansızlıq İkinci dünya müharibəsi dövründə bir qədər səngidi. Qalib sovet dövləti zülmün başqa növlərinə başladı. Krım türkləri, Məhsəti türkləri, çeçenlərin çoxu, Qərbi azərbaycanlılar öz dədə-baba yurdlarından deportasiya edildilər. Onların əksəriyyəti yeni şəraitə uyğunlaşmayıb kütləvi surətdə qırıldı. Sovet quruluşu süqut etdikdən sonra da çeçenlərin «böyük qardaşımız» ruslar tərəfindən öz torpaqlarında kütləvi məhv edilməsi. Bosniya müsəlmanlarının serblər tərəfindən kütləvi qırğını başladı. Təkcə bir faktı nəzərinizə çatdırmaq istərdik: «Serblər 11 iyulda Srebrenitsanı tutandan sonra 13000

adam itkin düşmüş, 30000-dən çox, əsasən, qadınlar və uşaqlar isə Tuzlaya qaçmağa məcbur olmuşlar» («Günay» qəzeti, 27 iyul, 1995). Qazaxıstan, Gürcüstan və Azərbaycanda – Bakıda dinc əhalinin ruslar tərəfindən kütləvi qətlə yetirilməsi, 1990-cı il 19-20 yanvar qanlı faciəsi. İraq əhalisinin indi də Qərbin super dövlətləri tərəfindən qırılması, Misirdə, Tunisdə, Livanda, Suriyada, Yəməndə və b. müsəlman ölkələrində kütləvi qırğınlar, dövlət çevrilişləri – bütün bu saydığımız və yada salmadığımız hadisələr son dövrlərin vəhşilikləri, cinayətləri, zorakılıq və zülmün müasir, «sivil» növləri deyilmi?!

Əziz oxucu! Saleh bəyin «Dünyanın taleyi» (Bakı, 1998) kitabından bir hissəni sizin nəzərinizə çatdırmaq istərdik: «Böyük Pyotrdan, Böyük Yekaterinadan və hətta onlardan əvvəlki qorxunc İvandan bu yana yüz illər ərzində Rusiyanın ənənəvi məqsədi və əsas işi hərbi gücün durmadan artırılması və qonşu ölkələri istila etməklə ölkə ərazisinin daima genişləndirilməsi, yəni militarizm və qəsbkarlıq olub. Tatarlara (və digər yerli etnoslara) mənsub olan Sibirin («Sibyer» – o diyar türklərin dilində «Böyük torpaq» deməkdir) Yermak tərəfindən istila edilməsini təsvir edən şəkillər bəzi Sibir şəhərlərində hələ də nümayiş etdirilir!

Rusiya çarlarının əsas yürüş istiqaməti türk torpaqları, qırdıqları, qovduqları, tabe etdikləri xalqlar, əsasən, türk xalqları olmuşdur. Yakutiyadan Sibirə, Altaya, Başqırdıstana, Tatarıstana, oradan Orta Asiyaya, oradan Qafqaza, Zaqafqaziyaya – bu ucsuz-bucaqsız torpaqların, demək olar ki, hamısı türk xalqlarına mənsub olmuşdur. Hətta «xalqlar dostluğu və qardaşlığı»nı bəyan eləyən keçmiş Sovetlər İttifaqında belə türklərə, müsəlmanlara qarşı, yumşaq desək, ayrı-seçkilik siyasəti işləyirdi. Bircə fakt göstərirəm: SSRİ-də elə bir müttəfiq xristian respublikası yox idi ki, orada avtomobil zavodu olmasın və pambıq əkilsin (dörd belə respublikada pambıq üçün şərait, məsələn, Qırğızıstandakından pis deyildi) və əksinə, elə bir müsəlman müttəfiq respublikası yox idi ki, orada avtomobil zavodu olsun və pambıq əkilməsin!..





Bunları deməkdə mənim məqsədim müsəlman, türk torpaqları «problemini» qaldırmaq deyil. Mən başqa sual verirəm: bütün bu istilalar nəticəsində əldə edilmiş ucsuz-bucaqsız ərazilərin rus xalqı (məhz xalqı!) – rus fəhləsi, kəndlisi ziyalısı üçün xeyri çox olub, yoxsa ziyanı? Dünyanın altıda birini tutmaq nə üçün idi? Yarımaclar diyarına çevirmək üçünmü? «Ana Rusiya böyükdür, həyat üçün darısqaldır» («Lit.qazeta», 14 fevral, 1996). Rusiyanın bütün tarixinə aid olan bu klassik ifadə kommunistlərin dövründə tam reallığa çevrilmişdi. Xalqın, məhz xalqın (!) həyatı və inkişafı üçün bu geniş ölkədə sanki yer çatışmırdı, dünya bir məngənə kimi sıxıntılı idi, ona görə ki, insan üçün ən vacib amil – azadlıq, yox idi.»

Əziz oxucu! Rus imperiyasının, daha doğrusu, bu xalqa tarix boyu rəhbərlik edənlərin, yırtıcı, qəsbkar, zülmkar xüsusiyyətlərini nəzərə alaraq belə demək mümkündürmü: «Rus, zülmkarlıq və zorakılıq» xəstəliyi. XX əsrdə Rusiya vətəndaşlarının heç bir nəslinə müharibəsiz yaşamaq müyəssər olmamışdır.» («Lit.qazeta», 1 may, 1996)

Hər bir millətin müəyyən qədər özünə xas olan xüsusiyyətləri var. «Erməni xəstəliyi» buna misal ola bilər.

Yenə də mənfur ermənidən, erməni-rus birliyindən danışmamaq mümkün deyil. Bu birlik 1920-ci ildən sonra Rusiya – Ermənistan bloku adlandırılsa, daha doğru səslənər.

Eynşteynə görə, işıq sürətindən böyük sürət yoxdur. Var! İnsan intellektinin sürəti. Gəlin bu amilin qanadlarında erməni tarixinin keçmişinə və müasir dövrünə qısaca səyahət edək:

Erməni əsilli Cəhl İbn Sumbatın xəyanəti nəticəsində ərəblər Babəki ələ keçirirlər. 4 oktyabr 837-ci ildə Babək və qardaşı Abdulla Samirə şəhərinə aparılır, xəlifə Mütəsim Babəki işgəncə ilə edam etdirir.

Əmir Teymur: «Erməniləri bir millət kimi Yer üzündən silmədiyim üçün gələcək xalqlar ya məni alqışlayacaq, ya da ki, lənətləyəcəklər.»

Jurnalist Oktay Eldəgəz rəzil bir qanunauyğunluğu müəyyən edib («Təzadlar» qəzeti, 28 fevral, 1997):

«Spartakın (yüz minlərlə qul döyüşçüləri ilə birgə) məhvini Sumbat ayamalı erməni, dəniz qulduru təşkil edib. Xəyanət miladdan əvvəl 737-ci il oktyabrın 4-də baş verib.»

«Babəkin tutulub edam edilməsini Cəhl Sumbat adlı erməni rəis (Babəkin «dostu») təşkil edib. Xəyanət 837-ci il oktyabrın 4-də edilib.»

«Hüseyn Cavidin həbsi sənədinə Sumbat – Sumbatyan-Topuridze adlı erməni NKVD generalı qol çəkib. Xəyanətkar «iş» məhkəməyə 1937-ci il oktyabrın 4-də verilib.»

Görəsən, 2037-ci il oktyabrın 4-də baş verəcək növbəti – XXI əsrin ölüm xəyanəti üçün erməni Sumbat kimi seçəcək?!

V.L.Veliçko: «Əgər erməni tarixinin üzqabığı üçün «uydurma» sözündən başqa onun məzmununu daha dolğun ifadə edən söz axtarsaydıq, «xəyanət» sözünün üstündə dayanmalı olardıq.»

«Qabusnamə»dən: «Ermənінin eybi: bədfel, kündəbədən, oğru, gözü götürməyən, bir ayağı qaçmaqda olan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüş söyən, ürəyi xıltlı, ağasına düşmənçilikdir.»

Aleksandr Düma: «Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir, niyyət və duyğularını gizli saxlayan, hiyləgər və kələkbaz adamlara çevrilmişlər.»

A.S.Puşkin: «Sən kölələsən! Sən qorxaqsan! Sən ermənisən!»

İsveç şərqşünası Adam Mets: «Dərisi ağ qulların ən pisi ermənidir. Abır-həyaları yoxdur, oğurluqları olduqca məşhurdur. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər.»

İngilis Vilson: «Ermənilər acgöz və tamahkardırlar, fitnəkar və araqarışdırandırlar... Heç kəsi bəyənmirlər... Onlar xırda bir işi şişirtməkdə istedad sahibidirlər.»

Saleh bəy: «Hər xalqda sadədillik və hiyləgərlik var. Fəqət bir o qədər yox və o şəkildə yox. Ermənilərdə bu xüsusiyyətlər digər xalqlardakından kökündən fərqlənir. Hər şeydən əvvəl ona görə ki, bunlar ermənilərdə əsas xüsusiyyətlərdir.»

«Erməniliyin «hörmət» etdiyi bircə şey var – güc.»

Alfred Körte, alman səyyahı: «Bu zərbi-məsəl hər yerdə





özünü doğruldur: bir yunan iki yəhudini aldadır, bir erməni isə iki yunanı.»

Mirələkbər Həsənov: «Erməni faşistdir, qatildir, cəlladdır, qaniçəndir.»

Hörmətli oxucu! «İblis xislətli erməni» (Bakı, 2009) kitabında erməni xisləti, xəstəliyi, terroru, superfaşizmi, qəddarlığı haqqında geniş məlumat verilmişdir. Bəs nədir rusları ermənilərlə birləşdirən?! Əlbəttə, ilk növbədə, onların xislətlərindəki qəddarlıq, zülmkarlıq, başqa millətlərin dədə-baba torpaqlarını zəbt etmək xüsusiyyəti. Məhz bu birlik XX əsrin əvvəllərində 2 milyondan çox türkün soyqırımına səbəb oldu. Azərbaycanda yüz minlərlə günahsız insan qətlə yetirildi. Bakıda, Qubada, Şamaxıda, Lənkəranda... dinc əhali vəhşicəsinə qırıldı. XX əsrin ən dəhşətli faciəsi Xocalı soyqırımı həyata keçirildi. Azərbaycanda bir milyondan çox əhali doğma yurdundan didərgin düşdü və torpaqlarının 20%-dən çoxu məhz rus ordusunun köməyi ilə erməni faşistləri tərəfindən işğal olundu. Bax, budur bu iyrənc blokun törətdiyi cinayətlərin nəticələri.

XX əsrin sonlarından, Azərbaycan müstəqillik əldə etdikdən sonra bu bloka yeni bir dövlət də birləşib – İran dövləti. Daha doğrusu, Ermənistan-Rusiya-İran (fars) bloku əmələ gəlib. Ermənilərin yuxarıda adlarını sadaladığımız qeyri-insani, iblis xislətlərinin, müsəlmanlara etdikləri zülm və qəddarlığın əvəzində İran İslam Ruspublikası – fars rejimi ermənilərə daim yardım göstərir və müdafiə edir. Cənubi Azərbaycanda 35 milyondan çox azərbaycanlının öz ana dilində oxumağa, hətta ibtidai məktəbi belə olmadığı halda, İran İslam Respublikasında yaşayan yarım milyona yaxın erməni öz dillərində təhsil alır, hətta universitetləri vardır. Ticarətin ən gəlirli yerləri onların əlindədir. İran Ermənistanı qazla təmin edir, elektrik stansiyası tikir, dəmir yolu çəkir, İrəvanda məscid tikir. Şuşada və Azərbaycanın işğal olunmuş başqa yaşayış məntəqələrində məscidləri, tarixi abidələri viran edən ermənilər, İrəvanda məscid tikilməsində fars qardaşları ilə razılığa gəliblər. Maraq-

lıdır, Yer planetində yeganə monomillətli dövlət olan Ermənistanın paytaxtı İrəvanda tikilən məsciddə kimlər namaz qılıb, Tanrını yad edir? Çox «maraqlı» və acınacaqlıdır. Bəs onları birləşdirən nədir?! Bu sualın cavabını Ermənistanın başqa bir birliyindən – blokundan bəhs edən Saleh bəy belə izah edir: «Ermənistan–İran–Suriya–Livan. Bu qeyri-rəsmi, lakin tam real və hamıya məlum dövlətlər birliyi. Soruşmaq lazımdır, özlərini «İslamın təməlinin dünyada mühafizi» adlandıranlar müsəlman ölkələrinin, o cümlədən Azərbaycanın, Türkiyənin qəddar düşməni olan, İslama qarşı kafir, Xristianlığa qarşı yeretik daşnaklar ölkəsi Ermənistanla öz müttəfiqlik yaxınlığını, ona İslama qarşı müharibədə can-başla köməklik göstərməsini necə izah edirlər? 5-6 yaşlı uşaqların gizlənqac oyununa bənzəyən İran – Ermənistan oyunu müsəlman aləmi üçün gülməli və rüsvayçıdır.

Təkrar edirəm, mən istərdim ki, bütün bunlar olmayaydı. İran İslam Respublikası Ermənistana elədiyi köməyi Azərbaycana edəydi, fəqət, təəssüf ki, mənim, Azərbaycanın, islam dünyasının, o cümlədən İran əhalisinin çoxunun arzumuz, hələ ki, doğrulmaqdan uzaqdır. Aydındır ki, özünü «islam» adlandıranlarla, özünü «xristian» adlandıran, erməniliyi birləşdirən nə Quran ola bilər, nə xaç. Görünür, onları birləşdirən həm Quranın, həm də Bibliyanın qadağan etdiyi iblis əməli, terrorizm «məsləki»dir. Başqa cür izah yoxdur, varsa, riyadır.» («Dünyanın taleyi», Bakı, 1998, s. 648)

Əziz oxucu, deyilənlər heç bir izah tələb etmir. Biz bir amili də sizin nəzərinizə çatdırmaq istərdik. Şimali Azərbaycanda şiə qardaş-bacılarına ermənilər tərəfindən edilən amansızlıq, soyqırımı, qəddarlıq, zülm, işğalçılıq, vəhşi işgəncələr... (oxu: «İblis xislətli erməni», Bakı, 2009). Əsasən, şiələrdən ibarət olan İran İslam Respublikasının rəhbərləri tərəfindən necə qəbul edilir? Bəs hanı məntiq?! Qurani-Kərimin əl-Bəqərə surəsinin 84-cü ayəsində buyurulur: «Bir-birinizin qanını tökməyin, biri-birinizi yurdunuzdan çıxarmayın.»





İran İslam Respublikasına rəhbərlik edən cənab din xadimləri, əgər siz insaniyyətin və insanlığın zirvə qanunu olan Qurani-Kərimin tələblərinə əməl etmirsinizsə, buna nə ad vermək olar?! Əgər siz Azərbaycanda Ermənistan–Rusiya blokunun vəhşiliklərini, şiə ana-bacılarımızın namuslarının təhqiri müqabilində, ermənilərə kömək etməkdə davam edirsinizsə, bunu necə başa düşmək olar?! Tarixdə misli görünməmiş bu vəhşiliklər: Türkiyədə, Qərbi Azərbaycanda, Bakıda, Qubada, Lənkəranda, Şamaxıda, Dağlıq Qarabağda, Xocalıda, Cənubi Azərbaycanda və s. yerlərdə törədilən soyqırımı. Uşaqların, qadınların, qocaların vəhşicəsinə qətlə yetirilməsi, həddibüluğa çatmamış qız uşaqlarının erməni saqallıları tərəfindən zorlanması, insanların, o cümlədən uşaqların diri-diri dərilərinin soyulması, gözlərinin çıxarılması, odda yandırılması, tikə-tikə doğranması, divara mismarlanması, diri-diri su quyularına salınması, quyularda basdırılması, hamilə qadınların qarınlarının bıçaqla yırtılması və müasir dövrün tarixdə görünməyən superfaşizmi, supervəhşiliyi. Qərbin inkişaf etmiş dövlətləri tərəfindən İraqın dinc əhalisinin qırılması, tarixi-dini abidələrin dağılması, tarixi sənədlərin, milli mədəniyyətin məhv edilməsi, Fələstində törədilən soyqırımı, əhalinin dilənçi halına salınması..... Bütün bunları inkişaf etmiş ərəb dövlətləri və İran İslam Respublikası görmürmü?! Bəs nədir onları susmağa vadar edən?!

Terrorizm və riya görünən şeytanların məsləkidir. Bu şeytani məslək insanların ümumi evi olan Yer planetində intellektual ekoloji tarazlığın pozulmasının əsas və şeytani amilidir. Bu amili dünyanın pandemiyası adlandırsaq, səhv etmərik. Tibbi tarixə səyahət etsək, elmin gücü ilə insan qırğınına səbəb olan epidemiya və pandemiyaların qarşısının alındığını görərik. Biz əminik ki, vaxt gələcək insan intellekti bu bəlanı da aradan qaldıracaqdır.

«Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə hər kəs (pislik edəni) bağışlasa və (onunla) barışsa, onun mükafatı Allaha aiddir. Həqiqətən, O, zalımları sev-

məz!» (əş-Şura surəsi, ayə 40)

Bu dünya qalmamış ulu şahlara,
Zülm də, zalım da var ola bilməz.

*Səməd Vurğun.*

Zalımlıq, zülm toxumu səpən ağalar və cənablar! Tarixi, müqəddəs kitabları oxuyun, hikmətli kəlamlardan, zülmkarların son aqibətindən nəticə çıxarın.

Sonda dahi Nizami Gəncəvinin müdrik bir kəlamını nəzərinizə çatdırmaq istərdik:

Qorx ki, boyun vuran qılıncın bir gün
Vursun öz boynunu nahaq qan üçün.

## Nadanlıq nifaqın başlanğıcıdır

Cahillər arasında olan alim, ölülər arasında olan dirilər kimidir.

*Məhəmməd peyğəmbər (s.)*

Qurani-Kərimin əl-Əraf surəsinin 179-cu ayəsində buyurulur: «...Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla (öyüd-nəsihət) eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də (ondan) daha çox zəlalətdədirlər. Qatil olanlar da məhz onlardır!»

İnsanı heyvan səviyyəsinə, hətta ondan da aşağı səviyyəyə endirən səbəb nədir? Əqlə əsasən deyə bilərik ki, insan yalnız öz insanlığını unutduğu zaman belə alçala bilər.

Xalq şairi Bəxtiyar Vahabzadə gözəl deyib: «İnsanlar öz təbiətlərinə görə böyük və kiçik olurlar.» Hazırkı dövrdə elə kiçik təbiətli, cılız, mənəviyyatsız, yalnız danışmaq xüsusiyyəti ilə





heyvandan fərqlənən insan növü yaranıb ki, o, yalnız öz qarnını fikirləşir. Bələlərinin heyvanlardan fərqi cəmiyyətdə təhlükə yaratmaqlarındadır. Onlar cəmiyyət üçün hər cür dərmana qarşı dözümlü vəba mikroblarıdır.

Dahi qırğız yazıçısı Çingiz Aytmatov bələlərini «manqurt» adlandırır. Bəs kimdir manqurt? Ç.Aytmatov yazır: «Manqurt kim olduğunu, hansı nəsildən, qəbilədən olduğunu, adını, uşaqlığını, atasını, anasını xatırlaya bilmirmiş. O, dilsiz-ağılsız heyvan kimi bir şey olduğu üçün təmamilə müti və təhlükəsiz idi... Manqurt sadiq it kimi bircə öz sahibini xatırlayırdı, başqa adamlara baş qatıb-qarışmazdı. Bircə fikri-qayğısı vardısa, o da qarnını doyurmaqdı...»

Müasir dövrdə, dünyada kasıb təbəqəni manqurtlaşma təhlükəsi gözləyir. Müsəlman ölkələrinin əksəriyyətində bu təhlükə daha çox özünü göstərir. Bax, budur əsrlərlə aparılan mənfi intellektual təbliğatın nəticəsi.

Qurani-Kərimin Loğman surəsinin 6-cı ayəsində buyurulur: «...İnsanlar içərisində eləsi də vardır ki, nadanlığı üzündən (tutduğu işin günahını anlamadan xalqı) Allah yolundan (islam dinindən) döndərmək və bu minvalla onu məsxərəyə qoymaq üçün mənasız (oyun-oyuncaq ) sözləri satın alar...»

Hörmətli oxucu, indi də dahi şəxsiyyətlərin hikmətli kəlamlarına müraciət edək.

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Alimin yuxusu cahil, nadan şəxsin namazından, ibadətindən yaxşıdır.

***Həzrət Əli (ə.) buyurmuşdur:***

Nadanlıqdan betər dərd yoxdur.

***

Nadan adamın xoşbəxtliyi zibillikdə olan bağ-bağça kimidir.

***

Alim ölsə də, diri hesab olunur. Cahil diri olsa da, ölü hesab olunur.

***

Alçaq adamlarla mübahisə etmə, hətta sənə nalayiq sözlər desələr də belə. Səbirli ol və Allah-taalanın «cahil adam onunla mübahisə etdikdə, o cavabında salam verər» –deyə buyurduğu şəxslərdən ol!

***İmam Sadiq (ə.) buyurmuşdur:***

Nadanlıq üç şeydən yaranır: münaqişənin çoxluğundan, təkəbbürdən və Allaha cahil olmaqdan.

***Nuşirəvan Adil:***

İstəyirsən ki, ürəyinə heç bir məlhəmlə sağalmayan yaralar vurulmasın, nadan adamla höcətə girişmə.

***

Nadandan hər şeyi qorumaq, özünü öz nadanlığından qorumaqdan daha asandır.

***Əbülqasim Firdövsi kəlamlarından:***

Nə vaxt özünü kamil hesab edərək
«Dünyada mənə yol göstərən lazım deyil» desən,
Bilikli adamların nəsihətinə qulaq asmasan,
O zaman bil ki, sən ən nadan adamsan.

***Əfzələddin Xaqani kəlamlarından:***

Nacins adam sənin yaxşı əməlini pis edər,
Sənin yaxşı sözlərinlə yaxşı olmaz o nadan.





***

Məntiqsiz, dəlilsiz yalan danışmaq,
Nadan adamların işidir ancaq.

***

Nemətçin bir tərif yazma nadana,
Elm, himmət əhli layiqdir ona.

***Nizami Gəncəvi kəlamlarından:***

Bilikli adam uzağı görər,
Cahilin zəhməti hədərdir, hədər.

***Əvhədi Marağayi:***

Nursuz göz kimidir, elmsiz ürək,
Nadan insanlıqdan uzaqdır gerçək.

***İmadəddin Nəsimi kəlamlarından:***

Məsləksizə hikmət dərsi, nadanlara öyüd neylər,
Ulağın da qabağına dövlət töksən mat-mat süzər.

***

Bir əbləh yüksəlsə göylərə qədər,
Nə insanlıq bilər, nə dostluq bilər.

***Sədi Şirazi hikmətləri:***

Bir çörək taparsa mömin, düz adam,
Yarısın paylayıb, yarısın yeyər.
Nadan bir ölkə də aldıqda, yenə,
İkinci ölkəni almaq istəyər.

***

Biliklə artsaydı insanın varı,
Acından ölərdi aləmdə nadan.
Qanmaza o qədər dövlət çatır ki,
Qalır bu əmələ yüz alim heyran.

*Şah İsmayıl Xətai:*

Könül vermə nadana,
Haqqı inkar edənə.
***
Cahil olan söylər, sözünü bilməz,
Meydana gəlincə özünü bilməz.

*Xəstə Qasım:*

Üz vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə.
Ot bitər kökü üstə, əsli nə isə,
Yovsan bəsləməklə çəmənzar olmaz.

*Məhəmməd Hadi:*

Elmin, hünərin, mərifətin varsa, buyur gəl!
Yoxsa, bu həyat aləminə olma bir əngəl.
Ərbabi-kamalın yeridir, bil ki, bu meydan,
Bədbəxt yaşar torpağın üstündə nadan.

*Şeyx Şamil:*

Özünü bilikli sayan cahili məntiqlə yola gətirmək qeyri-mümkündür.

*Abbasqulu ağa Bakıxanov:*

Cahillərə əsər etməz nəsihət də, tədbir də,
Doldursan da havayıdır, su qalarmı xəlbirdə?!
***
Nakam yaşasa da şüurlu insan,
Yaxşıdır xoşbəxt bir nadan olmaqdan.





*Nuşirəvan Xosrov:*

Ariflər səadət, iqbal gətirər,
Nadanın xeyri də zərər yetirər.
***
Qohumun da olsa, cahil adamdan qaç,
Onun ziyanı xeyrindən çox olar.
***
Cahil adam kamala çatmaz,
Necə ki, yetişməmiş meyvənin ətri və ləzzəti olmaz.

*Bəxtiyar Vahabzadə:*

Qanmazın qandığı bir şey var ancaq:
Özünü hər yerdə düz, doğru saymaq!
***
Dil qabar bağladı, bir nadana dönnəm mən özüm,
Bir kiçik mətləbi bir nadana qandırmaq üçün.

*«Qabusnamə»dən:*

Nadan adamı adam hesab etmə, əməlsiz alimi isə alim. Elmsiz pəhrizkarı zahid bilmə, cahil adamla isə dostluq etmə. Xüsusilə özlərini ağıllı hesab edən və öz avamlığı ilə lovğalanan axmaqlarla oturub-durma.

***

Axmağın əli altında işləyən ağıllı, gücsüzə tabe olan qüvvətli, xəsisə möhtac olan səxavətli yazıq sayılır.

***

Ürəyi möhkəm, beyni küt olan adamların səsi gur, mühakiməsi dayaz, hay-küyü çox, xeyri az olar.

*Azərbaycan atalar sözləri:*

Alimin sözü, cahilin qızılından yaxşıdır.

Bilikli adamın bir günü nadan adamın bütün ömrünə bərabərdir.

Alim olub zillətdə yaşamaq, cahil olub işrətdə yaşamaqdan yaxşıdır.

Nadanlıq elə bir dəvədir ki, ona minən şəxs alçalar və onunla yoldaş olan itib-batar.

*Ərəb atalar sözü:*

Hər kəs özünü ağıllı hesab etsə, xalq onu nadan sayar.



# V FƏSİL
# Qəbahət dünyada deyil, ona aldanandadır, gələn qalmaz, gedən gəlməz

«(Ey insanlar!) Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul – uşağı çoxaltmaqdan ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, onun yetişdirdiyi bitki (məhsul) əkinçilərin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb-solduğunu, daha sonra çör-çöpə döndüyünü görərsən... Dünya həyatı aldanışdan (yalandan) başqa bir şey deyildir»

*Qurani-Kərim*
*əl-Hədid surəsi, ayə 20.*

«... Yenə bilməyəcəyiniz şeyləri yığmayın, içərisində yaşamayacağınız evlər tikməyin, sabah tərk edib gedəcəyiniz şeylərdən ötrü başqaları ilə çəkinməyin, hüzuruna qovuşub hüzurunda toplanacağınız Allahdan qorxun, gedəcəyiniz və orada əbədi qalacağınız yer üçün hazırlıq görün».

*Məhəmməd peyğəmbər (s.)*

# Hansı yerdə xəzinə var, keşiyini ilan çəkər

Mal çoxluğu acı əzab verir insan həyatına,
Əvvəlinin dadı şəkər, axırının dadı zəhər.
*İmadəddin Nəsimi.*

İnsanda qəflət doğuran əsas səbəblərdən biri var-dövlət hərisliyidir. Qurani-Kərimin əl-Munafiqun surəsinin 9-cu ayəsində buyurulur: «... Nə mal-dövlət, nə də oğul-uşağınız sizi Allahın zikrindən yayındırmasın! Hər kəs bunu etsə, beləlöri əsl ziyana uğrayanlardır.» «Bilin ki, mal-dövlətiniz və övladınız sizin üçün (Allah qarşısında) ancaq bir imtahandır...» (əl-Ənfal surəsi, ayə 28) «Ehtiyatlı olun ki, dünya həyatı sizi aldatmasın...» (Loğman surəsi, ayə 33)

Həzrət Əli (ə) buyurmuşdur: «Dünya ona ibrət gözü ilə baxanları bəsirət sahibi, onun zinətlərinə aldananları isə kor etdi.» Lakin Həzrət Əli (ə.) onu da buyurmuşdur ki, zənginlik qürbəti vətən, kasıblıq da vətəni qürbət edər. Doğurdan da, sinifli cəmiyyət yarandıqdan sonra kasıblıq, yoxsulluq, məhrumiyyət həmişə olmuşdur. Kasıbın həyatı iztirablar, sıxıntılar, əsarətlər içində keçmiş və keçir.

Vaxtilə dahi Füzuli «salam verdim rüşvət deyildir deyə almadılar» –deyə zəmanədən şikayətlənmişdi.

Nuri-çeşmanımmısan, ey pul, ya canımmısan?
İsmətim, namusum, irsim, qeyrətim, qanımmısan?
Hörmətim, fəxrim, cəlalım, şöhrətim, şanımmısan?
Müsafim, Məkkəm, Mədinəm, qibləm, ərkanımmısan?
Məzhəbim, dinimmi, ayinimmi, imanımmısan?

Kim deyə bilər ki, dahi Sabirin bu ildırım sürətli misralar müasir dövr üçün əhəmiyyətini itirmişdir?! Əsla yox!





Kasıblıq elə bir bəladır ki, insan azadlığını, zövqünü itirir, onda həyata nifrət yaranır.

Fəhlə, özünü sən də bir insanmı sanırsan?!
Pulsuz kişi, insanlığı asanmı sanırsan?!
İnsan olanın cahü-cəlalı gərək olsun,
İnsan olanın dövləti-malı gərək olsun,
Hümmət demirəm, evləri ali gərək olsun,
Alçaq, ufacıq daxmanı samanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!
Dövlətliyik, əlbəttə, şərafət də bizimdir,
Əmlak bizimdirsə, əyalət də bizimdir,
Divan bizim, ərbabi-hökumət də bizimdir,
Ölkə dərəbəylik deyə xan-xanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!
Heç bir utanırsan?!
Ya bir usanırsan?!

Allah sənə rəhmət eləsin, unudulmaz ustad! Hələ bir əsr əvvəl Sabirimiz demişdir ki, kasıblıq dünyada üz qaralığıdır.

Bir arifin dediyi kimi, qürbət kasıblara ikiqat zindandır. Faciə onda baş verər ki, öz vətənində həm kasıb, həm də qərib olasan.

Gecə vaxtı insan sıxıntı içində gedəcəyi yolu görmədiyi kimi, hər şeydən məhrum olan, vətənində özünü qərib hiss edən kasıb şübhə içində gedəcəyi yolu görməyən «axmağa» bənzəyir.

Yemək, geymək və mənzil ən zəruri şeylərdir. Əgər bütün dünyanı bir adama bağışlasalar, bundan yalnız öz ehtiyaclarını ödəyəcək qədər sərf edə bilər, yerdə qalan nemətlərin və sərvətlərin hamısı ürəyə təsəlli, gözə sevinc vermək üçün yarayar və başqaları tərəfindən istifadə edilər.

«Qabusnamə»də deyilir ki, amandır, miras xatirinə ana və atanın ölümünü arzulama. Ata-anan ölməsə də, sənin ruzin yetişəcəkdir, çünki hər kəsin qisməti özünə çatacaqdır. Artıq ruzi əldə etmək üçün özünü çox da ora-bura vurma, ora-bura so-

xulmaqla ruzi artmaz, ona görə deyiblər: «Zəhmət çəkməklə yaşa, özünə əziyyət verməklə yaşama.»

Həyatın o qədər də rəvan keçmədiyini başa düşən qədim yunan materialist filosofu Epikür (e.ə. 341–270) gələcək nəsillərə çox müdrik bir kəlam qoyub getmişdir: «Nəyə qadirsənsə, nəyin varsa, onunla kifayətlən.» (Qoşqar Əliyev, Təbabət fəlsəfəsi, Bakı, 2000, s. 139)

Qədim yunan materialist filosofu, atomistikanın banilərindən biri Demokrit (e.ə. 460–370) də buna bənzər maraqlı fikir söyləmişdir: «Ağıllı o kəsdir ki, malik olmadığı şey üçün fikir çəkmir, nəyi varsa, ona sevinir.» (yenə orada, s. 139). Onu da qeyd edək ki, Demokrit quldarlıq demokratiyasının ideoloqu olmuş, bəşər tarixinin hərəkətverici qüvvəsini ehtiyac, yəni insanların maddi tələbatı ilə əlaqələndirmişdir. Demokritə görə, siyasət quldarlıq demokratiyası şəraitində azad vətəndaşların ümumi mənafeyinə xidmət etməlidir. Quldarların mənafeyinə uyğun əmək bölgüsünü Demokrit ictimai həyatın vacib şərti hesab edirdi. (ASE 3-cü c., s. 374-375)

Qəribədir, ibtidai icma quruluşu dağıldıqdan sonra, hakim təbəqənin yaranması ilə siyasət onlara – quldarların mənafeyinə xidmət etməyə başladı. Müasir dövrdə də bu siyasət davam edir. İstismarçının və istismar olunanın adı dəyişib, lakin ünvan eynidir. Cəmiyyətin ictimai formasiyaları dəyişdikcə bu ədalətsizlik bu və ya digər formada davam etmiş və etməkdədir. Forma başqa, məzmun eynidir, intellektual ekologiya tarazlığının pozulma prosesi davam edir.

Fırlandıqca bu dünya, yox da dönüb var olur,
Quruyan çeşmələrdən sular yenə car olur.
Bu dünyanın xeyri də, şəri də təkrar olur,
Niyə təkrar olmasın? Axı dünya fırlanır.

***Bəxtiyar Vahabzadə.***

«Pul əl çirkidir» – demək də düzgün deyil. Pul tədavül vasitəsidir. İnsanın əməyi pulla qiymətləndirilir, çox vaxt obyektiv olmasa da. Pulun, sərvətin çox olması dövlətin qüvvəsi deməkdir. Hər zənginlik işıq və qüvvətdir. Hər rahatlıq və zəfərə zənginliklə nail olmaq mümkündür. Qurani-Kərimin əz-Zuha surəsinin 8–11-ci ayəsində Məhəmməd əleyhissalama xitabən buyurulur: «Səni yoxsul ikən tapıb dövlətli etmədimmi?! Elə isə yetimə zülm etmə! Dilənçini də (qapıdan) qovma! Və (həmişə) Rəbbinin sənə olan nemətindən söhbət aç!»

İnsan Allah yolunda sevdiyi şeylərdən sədəqə verməklə dünya malına məhəbbətdən yaxa qurtarmalıdır. Qurani-Kərimin Ali İmran surəsinin 92-ci ayəsində buyurulur: «Sevdiyiniz şeylərdən (haqq yolunda) sərf etməyincə savaba çatmazsınız...»

Deməli, böyük insanlar böyük işləri bütün qüvvəti özündə toplayan var-dövlətlə həyata keçirmişlər. Həzrət Əbu Bəkr (ə.) kimi varlı müsəlmanlar var-dövlətlərini Allah yolunda sərf etməklə İslamın güclənməsinə və inkişafına səbəb olmuşlar.

Məhəmməd peyğəmbərin (s.) doğru adamın malını mədh edərək: «Doğru kimsənin malı da doğrudur» – buyurması çox ibrətamizdir.

Arzu edirik ki, müasir «xırda padşahlar»ın tükənməz var-dövlətləri xalqın rifahına, elmə, torpaqlarımızın azad olunmasına, sağlamlığa, əmin-amanlığa sərf olunsun. Unutmayın:

Bu dünya qalmamış ulu şahlara,
Zülm də, zalım da var ola bilməz.

***Səməd Vurğun.***

Əziz oxucu, indi də Qurani-Kərimin ayələrinə, müqəddəs şəxslərin və müdrik insanların kəlamlarına müraciət edək. Əvvəlki iki ayəni bilərəkdən bir də təkrar etmək qərarına gəldik.

*Qurani-Kərimdə buyurulur:*

Bilin ki, mal-dövlətiniz və övladınız sizin üçün (Allah qarşısında) ancaq bir imtahandır. Ən böyük mükafat isə məhz Allah yanındadır!

*əl-Ənfal surəsi, ayə 28.*

Şeytan sizi yoxsulluqla qorxudaraq alçaq işlərə sövq edər, Allah isə (əksinə) sizə bağışlanmaq və bərəkət vədəsi verər...

*əl-Bəqərə surəsi, ayə 268.*

Həqiqətən, (malını əbəs yerə) sağa-sola səpələyənlər şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur!

*əl-İsra surəsi, ayə 27.*

Allah istədiyi bəndənin ruzisini bol da edər, azaldar da. (Məkkəlilər) dünya həyatı (bol ruzi) ilə sevindilər. Halbuki dünya həyatı axirətin yanında çox cüzi (əhəmiyyətsiz) bir şeydir (dünya neməti müvəqqəti, axirət neməti isə əbədidir).

*ər-Rəd surəsi, ayə 26.*

Həqiqətən, mal-dövlətiniz və oğul-uşağınız (sizin üçün) ancaq bir imtahandır. Ən böyük mükafat (Cənnət) isə Allah dərgahındadır!

*ət-Təğabun surəsi, ayə 15.*

Sizə verilən hər hansı bir şey fani dünya malıdır. Allah yanında olan (axirət mükafatları) isə daha yaxşı və daha baqidir.

*əş-Şura surəsi, ayə 36.*

(Sərvətinizin) xalqın mal-dövləti hesabına artması üçün sələmlə (faizlə) verdiyiniz malın Allah yanında heç bir bərəkəti (artımı) olmaz. Allah rizasını diləyərək verdiyiniz sədəqə (zəkat) isə belə deyildir. Bunu edənlər (dünyada mallarının bərəkətini, axirətdə isə öz mükafatlarını) qat-qat artıranlardır.

*ər-Rum surəsi, ayə 39.*





İnsan öz Rəbbinə qarşı çox nankordur. Və o özü də buna şahiddir. Həqiqətən, insan var-dövlətə çox hərisdir. Məgər o bilmirmi ki, qəbirlərdə olanlar (dirildilib) çıxarılacağı, ürəklərdə olanlar faş ediləcəyi zaman, həmin gün Rəbbi onları (özlərinin bütün əməllərindən) xəbərdar edəcəkdir (cəzalarını verəcəkdir).

*əl-Adiyat surəsi, ayə 6–11.*

(Ey qafil insanlar!) Çoxluq (mal-dövlət, oğul-uşaq və qohum-əqrəba çoxluğu) ilə öyünmək sizi o qədər şirnikləndirdi (başınızı o qədər qatdı) ki, hətta (məzarlıqda yatan ölülərinizi sayıb, onların da çoxluğu ilə fəxr etməyiniz üçün) qəbirləri ziyarət etdiniz.

*ət-Təkasur surəsi, ayə 1-2.*

Öz mallarını xalqa göstərmək (şöhrət qazanmaq) xatirinə xərcləyənləri, Allaha və axirət gününə inanmayanları da (Allah sevməz). Şeytanla yoldaşlıq edənlərin yoldaşı necə də pisdir! Əgər onlar Allaha və axirət gününə inanıb, Allahın onlara verdiyi ruzidən (yoxsullara) sərf etsəydilər nə olardı (nə zərər çəkərdilər)?!

*ən-Nisa surəsi, ayə 38-39.*

***Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:***

Elə bir zaman gələcək ki, adam bilməyəcək aldığı halal maldır, yoxsa haram mal.

***İmam Əli (ə.) buyurmuşdur:***

Allah-Təala mal-dövləti infaq etmək üçün xəlq edib, cəm edib saxlamaq üçün yox! Allah elmi əməl etmək üçün xəlq edib, mübahisə edib fəxr etmək üçün yox! Adəmi ibadət etmək üçün xəlq edib, xoşgüzaranlıq, əyyaşlıq etmək üçün yox!..

***

Dünya ona ibrət gözü ilə baxanları bəşərin sahibi, onun zinətlərinə aldananları isə kor etdi.

*Nizami Gəncəvi kəlamlarından:*

Dəli o şəxsdir ki, dünya varını,
Çox sevib bərkidir ev hasarını.
***
Qəlbini çalmasın bu mal, bu dövlət,
Azı bir zillətdir, çoxu fəlakət.
***
Sevinmə əlinə çox dövlət düşcək,
Çünki çirkinlikdir pulçün sevinmək.
***
Ürəklə çalışmaz varı olanlar,
Əlindən var-yoxu getməkdən qorxar.
***
Bu dünya malına uyma çox, zinhar,
Hər sadə keçinən asudə yaşar.
***
Var-dövlətə qul olmaq bihudə bir həvəsdir,
Həyatının bəhrəsi bircə anlıq nəfəsdir.

**Əfzələddin Xaqani kəlamlarından:**

Xaqani, sən uyma vara, dövlətə,
Dövlət bir kölgədir, deyil payidar.
***
Kimin qızıldadır gücü, yəqin, bil,
O quldur, qızılın sahibi deyil.
***
Baxma ki, dövlətə çatdıqca xoşsan,
Ondan da kül qalar sonda yadigar.
Dövlətin əvvəli qürur olsa da,
Ortası ləhvdir, sonu tarimar.





***
Hünər sahibləri, ağıllılar da
Dərdi-sər içində edir ahü-zar.
Şahlıq tacı qoyan kədərsiz olmaz
Xəzinə üstündə yatır şahimar.

Ağlın varsa, gücə, qızıla, nüfuza tabe olma! Qoy sənə rəhbərlik edən ancaq təmiz vicdanın olsun.

Qızıl həm oğrudur, həm də gülbədən,
Üz döndər bu kimi ikiüzlüdən.
***
Hər kim qızıl yığıb töksə kisəyə,
Kisə tək boğazı keçər ilməyə.
***
Uşağa xoş gələr qırmızı, sarı,
Kişi cummaz lələ, qızıla sarı.
***
Xaqaniyəm, sərvət eşqi ağlı başdan ala bilməz,
Sərvət – dövlət bir kölgədir, çıxar yoxa, qala bilməz.
Dövlətinə qürrələnən kamillikdən, bil, uzaqdır,
Od içində qarğı atla cövlan edən bir uşaqdır.

***Əbülqasim Firdövsi kəlamlarından:***

Hasil olur ancaq zəhmət ilə mal,
Zəhmətsiz xəzinə tapmaz boş xəyal.

***Sədi Şirazi hikmətləri:***

Kimin səxavəti az, sərvəti çoxdursa, o, zahirdə varlı, əslində yoxsuldur.
***
Bir çörək doldurar bağırsaqları,
Dar gözü doydurmaz dünyanın malı.

Var-dövlət olmasa dərd çəkər insan,
Olanda, rahatlıq yox olur ondan.
Xülasə, belədir bu qoca dünya,
Əzabdır olsa da, ya olmasa da.
***
İtaət olsaydı pul ilə əgər,
Çoxları ulağtək batardı gilə.
Yüz dəfə əlhəmd oxuyar, amma
Zərərə qatlaşmaz bir dinar belə.
***
Biliklə artsaydı insanın varı,
Acından ölərdi aləmdə nadan.
Qanmaza o qədər dövlət çatır ki,
Qalır bu əmələ yüz alim heyran.

*Mövlana:*

Mala, mülkə həddindən artıq sarılma ki, vaxtı gəlincə asanlıqla onu əlindən verməyi bacarasan! Həm asanlıqla verib gedəsən, həm də savab qazanasan! Sən, səni belə möhkəm tutana sarıl ki, əvvəl də odur, axır da odur! Onu tapmaq istəyirsənsə, könül gəmini batıracaq nə qədər nəfsani varsa, içindən çıxarıb at ki, muradına nail olasan.

*İmadəddin Nəsimi:*

Başa keçən tacdan ötrü başdan keçər şalla soltan,
Tac sövdası daşımasan, başın qalxıb ərşə dəyər.
Dövlət fikri gecələr də qoymayır ki, uyuyasan,
Sən ölərsən, dövlətindən varislərin keflər çəkər.

Öyünmə ki, Harun kimi xəzinələr sahibisən,
Hansı yerdə xəzinə var – keşiyini ilan çəkər.





İpək üstə, atlas üstə can verənin vay halına,
Torpaq üstə, tikan üstə can çəkişən asan ölər.

Qafil olub öz ömrünü var yığmağa sərf eyləyər,
Öləndəsə Əzrailin hüzurunda boyun bükər.

İşin qalsa Əzrailə, qızılının nə faydası,
Gərək nağdı can verəsən, qızıl orda çətin keçər.

Ağlın varsa, gəl gömülmə qızıl üçün torpaqlara,
Mal hərisi məhşər günü siçan kimi çox sürünər.

Zər eşqini başdan çıxart, qəbrindəki sandıq ki, var,
İtaətlə haqqı anmaq yeridir o, nəinki zər.

*Əbdürrəhman Cami:*

Malın nə qədər çox olursa-olsun, onunla qürrələnmə, çünki gec-tez zamanın gərdişindən puç olub gedəcəkdir.

*Saib Təbrizi:*

Dövlətin çoxluğundan məst olmamaq kişilikdir.

*Əbül Fərəc:*

O adam ki, özünə lazım olduğundan artıq pul yığmağa can atır, o, pulu özgəsi üçün yığır.

*Məmmədbağır Xalxali:*

Qızıla, gümüşə uyma dünyada,
Vermə pul yığmaqla ömrünü bada.
Nəfəsin sönməmiş, dostlarınla ye,
Öldün, düşmən yeyər, bunu sal yada.

*«Qabusnamə»dən:*

Kim pulu canından əziz tutsa, o, tezliklə əzizlikdən zəlilliyə düşər.

## Dünya – sonu ölüm, həyat – sınaqlar içində sevgi, haqsızlıqlar aləmində əzab-işgəncə

Lakin siz, (ey insanlar!) dünyanı üstün tutursunuz! Halbuki axirət daha xeyirli və daha baqidir. (Çünki orada Cənnət vardır). Həqiqətən, bu deyilənlər (Qurandan) əvvəlki kitablarda mövcuddur. İbrahimin və Musanın kitablarında!

*Qurani-Kərim,*
*əl-Əla surəsi, ayə 16-19.*

Dünyada Allah yolunda bütün çətinliklərə səbir etdiyinizə görə sizə salam olsun!

*Qurani-Kərim,*
*ər-Rəd surəsi, ayə 24.*

Dünya sevgisi bütün günahların başlanğıcıdır.

*Məhəmməd peyğəmbər (s.).*

Dünyanın çox qəribə, hələ də sirri məlum olmayan möcüzələri var. İnsan dünyaya gələndə ağlayır, ətrafdakılar isə sevinir, şadyanalıq edirlər. İnsan son mənzilinə gedəndə isə sakit gedir, ətrafdakılar ağlayır, yas qururlar. İnsan doğulan kimi ağlamalıdır ki, ilk nəfəsini alsın. Əgər uşaq doğulan kimi ağlamırsa, oturacağına yüngül bir sillə vurub ağlamağa və nəfəs almağa məcbur edirlər. İnsan can verəndə isə dərindən axırıncı nəfəsini verib dünyasını dəyişir. Belə desək daha doğru olar: «İnsan bir nəfəsdə həm doğulur, həm də bir nəfəs dayanması anında ölür».





İnsanın nəfəs alması ilə dayanması arasındakı zaman onun həyat yoludur. İnsan övladı yaranandan indiyə qədər, gələn qalmır, gedən gəlmir. Dr. İbrahim Bazın təbirincə desək: «Dünyanın hər qarışı doğum evi və məzarlıqdır. Unutma ki, «ol» əmrinə layiq olmaq üçün «öl»məyi bilmək lazımdır... Aqibət ölümdür. Ölümlü dünyada ölümsüz həyata hazırlaş. Özünü görmədən, eşitmədən, bilmədən yaranan həyat həqiqət deyil, həqiqətdən qaçışdır... Sənin kimi dünyanın da qəlbi bir gün dayanacaq. Bu dünyadan insana əsa olmaz. Səni, dünyanı və ən aydın həqiqət olan ölümü xülas edən iki beyt:

Qismətindir gəzdirən yer-yer səni,
Ərşə çıxan aqibət yer, yeyər səni...

Onun üçün onun adı yer oldu,
Öncə bəslər, sonra yeyər yer səni.

Bəli, yer səni bəslər, sonra yeyər. Ona görə ki, səni Xaliq torpaqdan yaratdı, sonra torpağın yaratdığı istər bitki mənşəli və istərsə də yenə də torpağın bəslədiyi heyvan mənşəli qidalar səni bəslədi.

«Bütün maddi nemətlər, o cümlədən də şəhvət yalnız insanın fiziki bədəninə xoş təsir bağışlaya bilər. İnsan bədəni isə təkcə fiziki bədəndən ibarət deyil və fiziki bədənin də xidmət göstərməli olduğu bir ruh bədən var. İnsan öz ruhunu qidalandıra bilməklə daha əsas yaşam səmərəliliyi əldə etmiş olar. Bu isə, təbii ki, mədəyə xidmətlə yaranmaz.»

Dünyanın aldadıcı bir məkan, ölümün mütləq mənasını anladan bir gözəl nəsihəti xatırlamaq yerinə düşərdi: Peyğəmbər (s.) əshabına hikmət sahibi olan Quss bin Saidədən danışa-

raq belə buyurmuşdur: «Quss bin Saidənin Ukaz bazarında bir dəvənin üstündə insanlara belə dediyini görmüşdüm: «Ey insanlar! Gəlin, dinləyin, yaxşı düşünün və ibrət alın. Yaşayan ölər, ölən fani olar, olacaq da olar. Yağış yağar, otlar bitər, uşaqlar doğular, analarının, atalarının yerini tutar. Sonra da hamısı məhv olub gedər. Hadisələrin ardı-arası kəsilməz. Bir-birini təqib edər. Göydə xəbər var, yerdə ibrətli şeylər var. Yer üzü sərilmiş bir döşək, göy üzü yüksək bir tavandır. Ulduzlar hərəkət edər, dənizlər yerində dayanar. Gələn qalmaz, gedən gəlməz. Görəsən, getdikləri yerdən razı olduqları üçün orada qalırlar, yoxsa yorulub yatırlar...

Atalarınız və babalarınız hanı? Hanı bəzəkli kaşanələr, hanı daşdan evlər tikən Ad və Səmud? Hanı dünya həyatından məğrur olub öz qövmünə üz tutaraq: «Mən sizin ən böyük Rəbbinizəm!» – deyən Firon və Nəmrud?

Bu yer onları dəyirmanında üyütdü, toz etdi. Sümükləri belə çürüyüb dağıldı, evləri də yıxılıb xaraba qaldı. Yerlərində indi köpəklər oynayır. Əsla onlar kimi qafil olmayın! Onların yolu ilə getməyin. Hər şey fanidir, ancaq uca Allah əbədidir! Ölüm bulağının girəcək yerləri çoxdur, ancaq çıxacaq yeri yoxdur...» (Lokman Helvaçı, «İrfan» jurnalı, № 28, 2009, s.24-25)

Ey insan, ölümü özündən çox da uzaq hesab etmə! Əzrailin qapımızı nə vaxt döyəcəyi hələ bu vaxta qədər heç kimə məlum olmayıb. Axirətə gedən yol ölümdən keçdiyinə görə ondan qaçmağın heç bir mənası yoxdur, ondan yayınmaq da mümkün deyil.

B.Vahabzadə: «Bizim xəbərimiz olmadan dünya boşalır. Bəzən biz deyirik ki nakamdı, amma bir saat yaşasa da, insandır. 50 yaşında, 200 yaşında, neçə olursa-olsun, ölüm acısını hər kəs dadacaqdır...»

Qurani-Kərimin əl-Ənbiya surəsinin 34-35-ci ayələrində buyurulur: «(Ya Rəsulum!) Səndən əvvəl də (dünyada) heç bir bəşərə əbədiyyət (ölməzlik) vermədik... Hər bir kəs (hər bir canlı) ölümü dadacaqdır...»





Dünyaya gələn getmək üçündür, bu nə qəmdir?
Bir fikir eylə, bu xilafəti-aləm nə üçündür?

*Seyid Əzim Şirvani.*

Beləliklə, Həzrət Adəmdən (ə.) başlamış, istisnasız, hər bir insanın və canlının başına gələcək ölüm mütləq həqiqətdir. Hər bir şüurlu insan həyat və ölümün həqiqi mənasını dərk etməli, dünyanın aldadıcı bir məkan, hər şeyin fani olduğunu anlamalıdır.

Haqq yolunda olan nümunəvi əxlaq sahibləri, dünya kitabının hər hərfini könül gözü və hikmət nəzəriylə oxuyarlar. «Kainatın ülvi bir qayə ilə var edildiyini, heç bir şeyin boş və əbəs yerə yaradılmadığını, hər ötən günün ömür təqvimindən bir yarpaq qoparıb insanı qəbrə bir addım da yaxınlaşdırdığını yaxından idrak edərlər. Həyat nemətinin məna və hikməti nədir? Dünya nə üçün insan oğlunun əmrinə verildi? İki qapılı bir ev olan bu cahana haradan gəldik, səfərimiz haradır?» (Osman Nuri Topbaş, «İrfan» jurnalı № 28, 2009, s. 26-27).

«Dünya nədir?» – sualına müdriklər: «İnsanın gül deyib bağrına basdığı, cazibəsi, təravəti və ya hər hansı parıltısı ilə gözümüzü tutan və Allahdan bəşər oğlunu soyudan şər şeydir» - cavabını vermişlər.

***Həzrəti Mövlananın hikmət xəzinəsinə üz tutaq:***

Bu dünya bir tələdir, yemi də arzular.

***

Dünyada nə ilə nəşələnir, sevinirsənsə, o zaman ondan ayrılığı da düşün.

***

Əslində görünən bu maddi cismimiz, bədənimiz fanidir. Sonda torpaq altına getmək üçün yaradılmışdır. Lakin mənəvi yönümüz sonsuzluğa qədər əbədiyyət nəşəli bir halda yaşayacaqdır.

***

Dünya quru bir istək və faydasız bir oyuncaqdan ibarətdir. Biz də uşaqlarıq.

***

Bu dünya sənin nəzərində nə qədər böyük və sonsuz olsa da, bil ki, ilahi qüdrət qarşısında o, bir zərrə belə deyildir.

***

Dünya köpükdür. Allahın sifətləri də dəniz kimidir. Bu dünya köpüyü dənizin təmizliyinin görünməsinə pərdə olur. Köpüyü acmaq lazımdır ki, suya qovuşsun. Dənizin köpüyünə deyil, içinə bax. Çünki köpük dənizin görünməsinə pərdə olur.

***

Dünya həyatı hər bir şəxs üçün, son mənzilinə qədərki məmnuniyyət, istirab və imtahan meydanıdır. Bu məmnuniyyət və istirabların son qayəsi axirət qazanmaqdır. Hər bir insanın keçdiyi həyat yolunu Məhəmməd peyğəmbər (s.) belə səciyyələndirir: «Dünya axirətin tarlasıdır». Yəni insan övladı bu dünyada nəyi əkərsə, axirətdə də onu biçər.

***

Ey qafil insan! Madam ki, peyğəmbər deyilsən, olandan-keçəndən xəbər almırsan, sənə uyan kimsələr də yox: bu yolda həddini bil, öz səfində qal, irəli getmə! Addımladığın həqiqət yolunda da böyük bir vəlinin arxasınca get ki, bir gün nəfsaniyyət quyusundan çıxıb Yusif kimi bir məna padşahı ola biləsən.

Tanrı dünya həyatını bir imtahan meydanı olaraq yaratmışdır. Bu səbəbdən insan oğlunu xeyrə də, şərə də təmayül edə biləcək bir qabiliyyət, daha doğrusu, onu ağılla təchiz etmişdir.

Loğman həkim qəflətdən ayılması üçün oğluna bu məsləhəti etmişdir:

«Oğlum! Dünya dibsiz bir dəryadır. Arif olmayan alimlər və bir çoxları qəflətə düşərək bu yolda həlak oldular. Bu dəryada sənin gəmin Allaha həmişə bir qəlb ilə iman etmək olsun. Gəminin yar-yaraşığı isə təqva və ibadət olsun. Dənizlərdə seyrü-səfər etdirən bu gəminin yelkəni də təvəkkül olsun! Umulur ki, ancaq bu surətdə qurtuluşa çata bilərsən.





Ey mərifət yolçusu! Bu yolda səbirsizliyi səbirlə, unutqanlığı zikrlə, nankorluğu şükürlə, üsyanı itaətlə, xəsisliyi comərdliklə, şübhəni yaxın ilə, riyanı ixlas ilə, xətadakı israrı tövbə ilə, yalanı doğruluqla, qəfləti təfəkkürlə dəyişdirmədikcə bir məqsədə gedib çata biməzsən» (Mövlana).

Əfsuslar olsun: «...Zavallı insan! Özünü olduğu səviyyədə bilmədi, tanımağa gücü çatmadı. Çox uzaqlardan, ucalardan, əzəl aləmindən gəldi bu nöqsanlar aləminə, bu təkəbbürlü dünyaya düşdü. İnsan özünü ucuza satdı. Halbuki o, çox dəyərli atlas, bir qumaş kimi idi.» (Mövlana)

Qurani-Kərimdə qeyd olunur ki, insan öz maddi varlığının təsiri altında maddi dünya həyatına meyillidir...Qurani-Kərimdə buyurulur: «Lakin siz (ey insanlar!) dünyanı üstün tutursunuz!» (əl-Əla surəsi, ayə 16). Dünya ləzzətləri ağrı-acısız olmur... Dünya nemətləri nə zamansa insanın əlindən çıxır və sona yetir. Ali-İmran surəsinin 185-ci ayəsində buyurulur: «Hər bir kəs (canlı) ölümü dadacaqdır. Şübhəsiz ki, mükafatlarınız qiyamət günü tamamilə veriləcəkdir... Dünya həyatı isə aldadıcı həzzdən (əyləncədən) başqa bir şey deyildir.»

Qoşqar Əliyevin yazdığı kimi, uzaq keçmişin mütəfəkkirləri əmin idilər ki, hər bir insan dəyərincə ölümə hazırlaşa bilər, bu şərtlə ki, canvermə barədə biliklərə malik olsun. Hələ antik dövrün filosofları israr edirdilər ki, insanın ölümünü faciə kimi qəbul etmək lazım deyil. Platon Sokratın adından yazırdı ki, «ölümdən qorxmaq o deməkdir ki, bilmədiyin şey haqqında fikirləşirsən. Axı heç kəs bilmir ölüm nədir, həm də bilmirlər ki, ölüm insan üçün ən ali nemətdir, çoxları bundan qorxur, sanki bilirlər ki, ölüm ən dəhşətli şeylərdəndir.» (Platon, «Sobraniye soçineniy», Moskva, 1990, s. 83)

«...Cinsindən, yaşından, intellektual inkişaf səviyyəsindən, sosial və ailə vəziyyətindən, hər şeydən əvvəl sağlamlığından asılı olaraq ölümü hərə bir cür təsəvvür edir. Ən başlıcası isə hamı hesab edir ki, insanın ölümünün bilavasitə onun həyatı-

nın mənasına aidiyyəti var. Belə ki, ölüm insan həyatının proloqudur...Lakin insandan ötrü ölüm təkcə tənəzzül deyil. L.Tolstoyun fikrincə, ölüm də həyat qədər məna kəsb edir...Əgər insanlar öz ölümünü ləyaqətlə qarşılamağa hazırdırsa, onun üzünə dik baxa bilirsə, ona cəsarətlə sinə gərə bilirsə, yaşadığı həyatın paklığına inanırsa, onda həyatı bütün dolğunluğu ilə dərk edə, onun mənasını ağılla qiymətləndirə bilər. L.Tolstoy israr edir ki, «əgər ölüm dəhşətlidirsə, bunun səbəbi onda deyil, bizim özümüzdədir. İnsan nə qədər nikbindirsə, ölümündən də bir o qədər az qorxur.» (L.N.Tolstoy, «Put jizni», Moskva, 1993, s.377)

«Yaşayırsan, amma həyatın mənasını başa düşmürsən, onda ömrünə son qoy, bu həyatda baş girləmə.» (L.N.Tolstoy, «Sobraniye soçineniy», Moskva, 1960–1965, 16-cı c., s. 126)

Ariflərin dediyi kimi, Allah-Təala dünya həyatını naməlum zamana qədər ötəri və əyləncə adlandırıb. Ona görə ki, insanın dünyada mövcudluğu axirət yolu üzərində ötəridir.

Həzrət Mövlanaya görə, dünya insanı maddi həyata əsir edən, ruhunu yüksəlməyə qoymayan ünsürdür. Dünya insanın can düşmənidir. Dünya özünü təzə gəlin kimi göstərərək insanı aldadan, lakin həqiqətdə sehrbaz bir qarıdır. Ona aşiq olan zəhərdən şərbət içər. Dünya insan aləminin sultanı olsa da, ölüdür. Könlünü dünyaya verən bir tikə çörəyə imanını satan kimidir. Dünyaya aşiq olanlar, divarda əks edən işığın günəşdən gəldiyini görməyib divara aşiq olanlar kimidir. Dünyaya möhkəm sarılan insan, quşu buraxıb, kölgəsini ovlayan ovçu kimidir. Dünya bir röyadır.

Ey insan, ötüb keçən ömür yolunu yada sal, xatirələrini bir kitab kimi vərəqlə, nəyi düz, nəyi səhv etdiyini vicdanının mühakiməsinə buraxmağa çalış. Həyatda elə məsələlər var ki, insan hər gün ondan hesabat tələb edir: yaradana, valideynlərə, vətənə və millətə məhəbbət, ümumi və intellektual ekologiya qarşısında məsuliyyət, mənəviyyatın qorunması və s.

Ey insan, nə qədər ki, bu fani dünyadasan, unutma, daim xatırla bu nəsihətləri:





Peyğəmbər (s.) belə buyurmuşdur: «Sənin, səndən heç vaxt ayrılmayacaq bir yoldaşın olacaq və o, səninlə birlikdə dəfn ediləcək, sən ölü, o isə diri olacaq. Əgər sənin yoldaşın şərəfli olsa, səni əzizləyəcək, yaramaz olsa isə səni hadisələrin öhdəsinə buraxacaq. Sonra həmin yoldaşın səninlə məhşərə gələcək və qiyamətdə səninlə birgə olacaq və sən onun üçün məsuliyyət daşıyacaqsan. Seçdiyin yoldaşın yaxşı olmasına diqqət et. Çünki o, yaxşı olsa sənin ünsiyyət vasitən olacaq, belə olmasa (pis olsa isə) sənin vəhşətinə səbəb olacaq. Həmin yoldaşın sənin rəftarındır.»

İnsan ölümündən sonra öz əməlindən başqa heç bir şeylə yoldaş olmur. Həqiqətən, insan həyatda qonaqdan başqa bir şey deyil, bir az orada qalır və sonra köçüb gedir.

Digər bir hədisdə deyilir: «Bu, əzablar sizin özünüzə qaytarılan əməllərinizdir.» Sədi Şirazi çox gözəl deyib:

Ömürdən gedir hər keçən nəfəs,
Baxıram ətrafa qalmamış bir kəs.
Ey yatan əlli il qəflətdə bütün,
Qoyma ki, boş keçsin bu qalan beş gün.
Utansın o kəs ki, ömrü puç etdi,
Dünyadan köçəndə xəcalət getdi.
Köç vaxtı səhərin şirin yuxusu
Qoyar piyadanı yoldan, doğrusu.
Hər gələn dünyada bir bina saldı,
O getdi, mənzili özgəyə qaldı.
Çoxları dünyaya göstərmiş həvəs,
Tikdiyi mənzildə qalmamış bir kəs.
İndi ki, öləcək pis də, yaxşı da,
Xoş ona ki, çatdı yaxşı bir ada.
Bir yarpaq göndər öz qəbrinə bu gün,
Ki, sonra göndərmək deyildir mümkün.

Necə də ibratamiz sözlərdir. Qoca Şərqin söz ustadları, dahiləri bir-birindən gözəl, təkrarsız kəlamları bəşəriyyətə yadig-

ar qoyub getmişlər. Onlar yaşadıqları cəmiyyətin yüksələn fəryadı, ağlayan, kədərlənən və gülən gözləri, düşünən beyinləri olmuşlar desək, yanılmarıq.

Hacı Yusifin ibrətamiz bir beytini bir daha yada salaq:

Nə qədər cəm edəsən dövlətini dünyanın,
Axırı yoxdur, əzizim, gedəcəkdir zayə.
Nə qədər cəm edəsən, axırı dünyada qalar,
Qəbrin üstündə gəlib salmayacaqlar sayə.
Cəmi dünyanın əgər simü-zəri olsa sənin,
Bir kəfən ondan gedər qəbr evinə sərmayə.

Dünya səni aldatmır, sən dünyaya, var-dövlətə aldanırsan. Dünya onu dərk edənlər üçün sədaqətlidir.

Ey dünyaya, var-dövlətə uyan insan! Sən bitməz, tükənməz arzularla yaşayırsan, dövlətin nə qədər çoxalsa da, gözün doymur. Sərvətin artdıqca, hakimiyyət hərisliyi xəstəliyinə mübtəla olursan. Bu xəstəlik sənin yuxunu ərşə çəkir. O vaxt qəflət yuxusundan ayılarsan ki, ölüm başının üstünü alır. Gedəcəyin yer – məzar, qalan – əməllərindir.

Həyatın anlarına sevinmək lazımdır. İnsan həm sevinib, həm də kədərlənməyi bacarmalıdır. Bir şeyi unutmaq lazım deyil ki, insanı sonradan yaşadan qoyduğu təmiz addır.

Çox gömüldü yer altına mənəm-mənəm deyənlər,
Ki, onlardan bu dünyada bircə ad-san qalmadı.
Torpaq altda yatanlara bir diqqətlə nəzər sal,
Torpaq yedi, sümüyündən belə nişan qalmadı.
Yaxşı addır Nuşirəvanı bu dünyada yaşadan,
Lakin köçdü bu dünyadan, Nuşirəvan qalmadı.
Ey filankəs, xeyirxah ol, bil həyatı qənimət,
Nə qədər ki, deməmişlər filan-filan qalmadı.

*Sədi Şirazi.*





*«Məhəmməd peyğəmbərə 40 sual»dan:*

«Qarışqa Süleyman peyğəmbərdən (s.) soruşur: «Allahın peyğəmbəri sən, adın Süleymanın nə məna verdiyini bilirsənmmi?..» Süleyman: «Salim, doğru, faydalı, bərəkətli, dünya deməkdir.» Qarışqa: «Allah sənə dünyanı bağışlayıb, sən isə Allahın məzlumlarını zülmətdən, avamlıqdan çıxarıb, onların arasında əmin-amanlıq, əsayiş yaratmısan. Lakin külək sənə üstün gəlir. Demək istəyirəm ki, bütün dünya və onun xoşbəxtliyi külək kimi ötəridir, sürətlə gəlir və sürətlə gedir... Nə qədər ömrün var, Allaha xidmət elə, Allahdan xahiş et ki, səni bağışlasın. Əməllərindən, son məqamda Allahın razı qalması üçün bu dünyada təkəbbürlü olma, ədalətli ol, hakimiyyətinin mərhəmətini göstər.»

Mövzudan bir qədər kənara çıxaraq dünya dahilərinin hikmət damlalarına müraciət edək.

*Qədim yunan filosofu Əflatun:*

Dünyanın ləzzətlərindən başını itirib şadlanan, ruzigarın müsibətlərindən ağlını çaşdırıb qəmlənən adamı hikmət sahibi hesab etmə.

***

Yalnız sözdə deyil, həm də işdə hikmət sahibi ol, sözdəki hikmət bu dünyada qalar, işdəki hikmət o dünyaya çatar, əbədi yaşar.

***

Hikmət sevən ol, hikmət sahiblərinin sözlərinə qulaq as, dünyadakı aludəçilikdən uzaq ol.

***

Dövlətlilikdə qudurub yan-yörəni qapma, yoxsulluqda ruhdan düşüb yazıq-yazıq baxma.

*Nuşirəvan Adil:*

Adamların ən yaxşısı olmaq istəyirsənsə, heç nəyi xalqdan əsirgəmə.

***

Nahaq cəza vermə ki, günahsız cəza almayasan.

***

Bağışlanması mümkün olmayan günah yoxdur.

*Sədi Şirazi:*

Diriliyində adamın çörəyini yeməsələr, öləndən sonra adını çəkməzlər.

***

Özündən gücsüzlərə rəhm eməyən, özündən güclülərin zülmünə rast gələr.

***

Səndən sonraya qalan, sənin sayılmaz.

*Keykavus:*

Ədalətli ol ki, ədalət görəsən, xoş de ki, xoş eşidəsən.

***

Hər iki dünyanın neməti sənətdə, bütün sənətlərin açarı elm və tərbiyədədir.

*Sufi midrikliyi:*

Bir saat ədalətlilik, yüz illik ibadətə bərabərdir.

***

Əgər dünyada ədalətlilik hakim olarsa, vəhşi keçi doyduğundan şir kimi olar.

***





Allah bizi yaratmışdır ki, bizim köməyimizlə həqiqət dərk olunsun.

Hörmətli oxucu, yalnız təfəkkürlü məxluq bu mənaları oxuyub dərk edə bilər. Həqiqi insan beyni daim həqiqət axtarışındadır. Belə ki, təfəkkür insanı pillə-pillə mərifətə çatdırıb, onu öz insani vəzifələrindən xəbərdar edir.

Beləcə, insan təfəkkür mərhələsində bu nəticəyə gəlir ki, dünyanın yaranışı əbəs deyil. İnsanın yaranışında son məqsəd onun təkamül yolunu seçib, ilahi nemətlərə nail olmasıdır. Seçim insanın öz istək və iradəsindən asılı olduğu üçün o, azğınlıq yolunu seçib, ilahi qəzəbə də düçar ola bilər.

Dünya pis deyil. Allah hər şeyi gözəl yaratmışdır. Dünyanı pis edən ona qarşı olan yanlış münasibətlərdir. Qurani-Kərimdə, hədislərdə və dahilərin kəlamlarında dünya ona görə məzəmmət olunur ki, o, aldadıcı və müvəqqəti olduğu halda, insanlar ona aldanırlar. İlahi kəlamlar dünyanı məzəmmət etməklə insanı qəflətdən oyatmağa çalışır. Gördüyünə meyil salan insan, Quranın və müqəddəs şəxslərin buyurduqlarından nəticə çıxarmalı, öz mənəviyyatlarını təmizləməlidirlər.

Dünyanı məzəmmət edən sözlərdən insanların səhv nəticə çıxarmaması üçün Allah-Təala buyurur: «(Ya Peyğəmbərim!) De: «Allahın Öz bəndələri üçün yaratdığı (zahirə çıxartdığı) zinəti və təmiz (halal) ruziləri kim haram buyurmuşdur?» De: «Bunlar dünyada iman gətirənlər üçündür...» (əl-Əraf surəsi, ayə 32) Qurani-Kərimin əl-Bəqərə surəsinin 172-ci ayəsində isə belə buyurulur: «Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin (təmiz və) halalından yeyin...»

Onu da qeyd etmək lazımdır ki, insan dünya ləzzətinə meyil etdiyi üçün onu dünyaya qarşı təşviq edən ayələr çəkindirən ayələrdən azdır.

Allah-Təala öz bəndələrini saysız-hesabsız nemətlər içində yaratmışdır. Bu nemətlər təkcə gözümüz qarşısında olan nemətlərlə məhdudlaşmır. Varlıq aləmi bütövlükdə bir nemətdir.

İmam Hüseyn (ə.) Allahın nemətlərini belə qiymətləndirmişdir: «Hansı nemətlərini sayım, hansı nemətlərini xatırlayım? Hansı nemətlərinə görə təşəkkür edim? Bu nemətlər saya biləcəyimizdən daha çoxdur... Bütün bu nemətlər bizə əta olunmasaydı, çətinlik çəkməzdikmi?!»

Əvvəllər qeyd etdiyimiz kimi, insan bədəni torpağa məxsusdur. Bütün canlılar kimi, o da torpaqdan yaradılmışdır. Vücud torpağın yetişdirdiyi qidalarla bəslənir və sonda yenə torpağa dönüb orada faniləşir.

Vaxtın dəyirmanında daş əridi, qum oldu,
Tarixə atdığımız qayıtdı, lüzum oldu.
Dünənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı dünya fırlanır.

***Bəxtiyar Vahazadə.***

Ey insanlar, gəlin mənəvi nemətləri də unutmayaq. Həzrəti Mövlana buyurur: «Bədəni həddindən artıq bəsləyib inkişaf etdirməyə çalışma. Çünki o, sonunda torpağa veriləcək bir qurbandır. Sən əsl könlünü bəsləməyə çalış. Ucalara gedəcək və şərəflənəcək olan odur!.. »

Şəfəq söküləndə, ilk işıqlarıyla əşyam aydınladan Günəş, başlayan yeni günün salamını, adətən, bizə gətirməkdə: «Oyan!» – deməkdə və bizi bir sorğu-sual iqlimi içinə salmaqdadır.

– Bax, sənə bu sabah da həyat dəftərindən yepyeni bir səhifə hədiyyə edildi. Qiyamətdə önünə qoyulacaq bu səhifəni necə dolduracaqsan? «Oxu kitabını, bu gün sənə hesab sorğusu olaraq nəfsin yetər» – deyiləcəyi o dəhşətli gün üçün bugünkü hazırlığın nədən ibarətdir?

Axşam olub, göy üzü öncə qızıla, sonra dalğa-dalğa qaraya boyandığı zaman isə gecə dilə gəlib bir hal lisanı ilə insana gör ki, nələr deməyə hazırdır:

– Bir gün daha keçdi. Ölümə bir addım daha yaxınlaşdın.





Artıq əbəs yerə ahü-fəqan etməyə gərək yox! Nə qədər çalışsan da, keçən günü geri qaytara bilməyəcəksən. İndi sən də ölümün qardaşı olan yuxunun qolları arasında özünü təslim edəcəksən. Hələ bir söylə: nə etdin? Nə etməliydin? Etdiklərini və etmədiklərini önünə qoy və düşün!.. Bəlkə bir daha şəhərin o gözəl işıqlarını görməyəcəksən?..

Əgər Harun kimi olsa xəzinən,
Yenə də dünyadan sən köçəcəksən.

***Sədi Şirazi.***

Hörmətli oxucu! Deyilənlərin əyani sübutu üçün Qurani-Kərimə və hikmətli kəlamlara müraciət edək.

***Qurani-Kərimdən:***

Həqiqətən, (nemətləri, cah-cəlalı ilə fəxr etdiyimiz) dünya həyatı göydən endirdiyimiz yağmura bənzər ki, onunla yer üzündə insanların və heyvanların yeyəcəyi bitkilər yetişib (əlvan çiçəklər və müxtəlif meyvələrlə) bir-birinə qatışar. Nəhayət, yer üzü bəzəklənib süsləndiyi və sakinləri də (onun məhsulunu, meyvəsini) yığmağa qadir olduqlarını zənn etdikləri vaxt gecə, yaxud gündüz əmrimiz (bəlamız) gələr və Biz onu, dünən üzərində bol məhsul olmamış kimi, (yolunub) biçilmiş bir hala gətirərik. Biz ayələrimizi düşünən bir ümmət üçün belə ətraflı izah edirik.

***Yunus surəsi, ayə 24.***

(Bəzi adamların fəxr etdiyi) mal-dövlət, oğul-uşaq (oğullar) bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də (Allahın mərhəmətinə) ümid etibarilə daha xeyirlidir!

***əl-Kəhf surəsi, ayə 46.***

Kim (dünyada) azğınlıq etmişsə, dünyanı (axirətdən) üstün tutmuşsa, şübhəsiz ki, onun məskəni Cəhənnəmdir!

*ən-Naziat surəsi, ayə 37–39.*

Ey insan! Sən (ölənə qədər) Rəbbinə doğru çalışıb-çapalayırsan! Sən Ona qovuşacaqsan! (Sənin qısa ömrün gündən-günə səni Allaha yaxınlaşdırır. Ölümün gəlib çatması Allah dərgahına qovuşmaq deməkdir. Öləndən sonra Allahın hüzuruna gedib dünyada etdiyin yaxşı, pis əməllərin əvəzini tamamilə alacaqsan. Yaxşı əməllər etmisənsə, xoş halına. Pis əməllər etmisənsə, vay halına!)

*əl-İnşiqaq surəsi, ayə 6.*

İnsanların haqq-hesab vaxtı (qiyamət günü) yaxınlaşdı, onlar isə hələ də qəflət içindədirlər və (qiyamətə inanmaqdan) üz döndərirlər. (Qiyamət insanlar üçün nə qədər uzaq isə, Allah dərgahında bir o qədər yaxındır. Fani dünyaya, şan-şöhrətə olan meyil, varlanmaq həvəsi insanların başını elə qatmışdır ki, qiyamət günü barəsində əsla fikirləşmirlər).

*əl-Ənbiya surəsi, ayə 1.*

Zülm edənlərə (rəğbət bəsləməklə, kömək göstərməklə) meyil etməyin, yoxsa sizə atəş toxunar (cəhənnəmlik olarsınız). Sizin Allahdan başqa dostunuz (himayədarınız) yoxdur. Sonra sizə (dünyada da, axirətdə də Onun əzabından heç bir) kömək olunmaz!

*Hud surəsi, ayə 113.*

*Məhəmməd peyğəmbər (s.) buyurmuşdur:*

Xalqla insani meyarlar əsasında rəftar et – istər müsəlman olsun, istərsə dinsiz.





***

Dünyəvi həyat əkin kimidir – onun məhsulu o dunyada yetişir. Buna görə də bu dünyada yaxşılıq edin ki, o dünyada yaxşılıq biçəsiniz. Hər bir yaxşı əməl ehsandır.

***

Adəm övladı qocalar, amma qocalanda onda iki xasiyyət (arzu, istək) cavanlaşar. Biri dünya malına hərislik, məhəbbət, əlaqə, o biri isə uzun-uzadı arzular.

*Zərdüşt:*

Təmizkar dolanışıq uğrunda qeyrətlə çalışmaqla bir-birinizdən qabağa düşün! Bu həyat gücü ilə özünüzü xoş və şad edin!

Həzrət Loğman öz oğluna etdiyi nəsihətlərinin birində belə buyurur: *«Ey oğul! Bu dünyada çəmənlikdə otlayıb kökələn* qoyun kimi olma, onun ömrü və ölümü kökəlməyindədir... Bu dünyaya haradan gəlmişik, haradayıq, haraya gedəcəyik suallarına cavab tapmaq barədə düşün...

Həzrət Loğmandan soruşdular ki, hikməti kimdən öyrənib dərs almısan? Loğman cavab verir ki, gözü görməyən şəxslərdən. Ona görə ki, onlar hərəkət edəndə yerin düz olmasını hiss etməyincə, addım atmazlar.

*İmam Əli (ə.) buyurmuşdur :*

Dünya qəlbi kor olan üçün son nöqtədir. Belə insan dünyadan uzağı görməz. Görən insanın baxışı ilə dünyanı adlayar və bu insan bilir ki, dünyadan sonra həqiqi bir aləm var. Deməli, görən kəs ondan nəzərini çəkir, qəlbi kor olan kəs isə aldanır. Görən kəs ondan azuqə götürür, qəlbi kor olan kəs onun üçün azuqə yığır.

***

Agah olun ki, dünya qalacaq yer deyil və nə də siz onun üçün xəlq olunmusunuz.

***

Ey Allahın bəndələri, sizə sizi atmış dünyadan uzaqlaşmağı vəsiyyət edirəm... Görmürsünüzmü ki, dünya əhli dəyişkən halda gündüzdən gecəyə, gecədən gündüzə çıxır? Biri üstündə yas qurmuş ölü, o biri başsağlığı verilən kəs, digəri giriftarçılıq içində yıxılmış xəstə, bir başqası xəstə yoluxmağa gedən şəxs, kimi can verən adam, kimisi ölüm ardınca gəzən dünyadır, bəzisi də Allahın yaddan çıxardığı qafil!

***

Bu dünya ilan kimidir. Əl vursan, ilan kimi yumşaqdır, amma daxilində öldürücü zəhəri vardır. Cahil adam onun zahiri gözəlliyi və yumşaqlığına aldanıb ona tərəf gedər. Lakin ağıllı şəxslər belə zahiri gözəl, batini əbədilik, bədbəxtçilik gətirən dünyaya bel bağlamazlar.

***

Dünya məhəbbəti (dünya üçün yaşamaq, faydasız, mənasız eşq, əlaqə) insanın ağlını aradan aparıb, qəlbini bərkidib, haqq olan hikmətli nəsihətləri eşidib, haqqı qəbul etməyə icazə verməyib sahibini kar edər.

***

Rəhbəriyyət, böyüklük, ağalıq, ağsaqqallıq böyük bir dünyaya bənzər ki, ondan kiçik çaylar, göllər ayrılar. Əgər dəryanın suyu şirin olsa, çayların və göllərin suyu da şirin olar. Əgər şor olsa, şor olar.

***

Bu dünyada rəhbəriyyət (vilayət) kişilik meydanına bənzər.

***

Dünya (var-dövlət) insanın kölgəsinə bənzər, dayansan, o da dayanar, yox əgər onu tutmaq istəsən, səndən uzaqlaşar.

***





Dünya ilə fərəhlənmək, nadanlıqdır.

***

Dünyanın acılığı, axirətin şirinliyidir, dünyanın (haram) şirinliyi isə axirətin acılığıdır.

***

Səni qorxudanların qorxusundan qorxma, etdiyin günahların cəzasından qorx.

***İmam Sadiq (ə.) buyurmuşdur:***

Allah bəndəsinə xeyir vermək istədikdə, ona dünyada zahid, dində fəqih qərar verər və onun gözlərini öz eyiblərini görməyə açar. Bu xislətlər hər kimə verilsə, sözsüz ki, ona dünya və axirət xeyri verilib.

***İmam Səccad (ə.) buyurmuşdur:***

Özünə hörmət qoyan dünyanı bəyənməz.

Həzrətdən soruşdular: «Ən qiymətli insan kimdir?» Buyurdu: «Öz dəyərini dünyada görməyən şəxs».

***İmam Hadi (ə.) buyurmuşdur:***

Dünya bazardır. Onda biri qazanır, digəri isə uduzur.

***Nizami Gəncəvi:***

Bu dünyadan köçəndə o dünyanın qoynuna,
Dağdan ağır günahın yük olmasın boynuna.

***

Göydə ol, yerdə ol, fərqi yox bunun,
Torpaqsan, yenə də torpaqdır sonun.

***

Ölçüb, biçsən işini bu dünyada sən əgər,
Məhşər tərəzisində qazancın artıq olar.

***

İpək kərxanası bil bu dünyanı,
Bir yanı sudursa, oddur bir yanı.

***

Çıxarkən bir sənlik, mənlik ortaya,
Ah, necə doymasın cana bu dünya?!

*Məhsəti Gəncəvi:*

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər.
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhlənində hazırdır yəhər.

***

Havada, səhrada olan toz, torpaq,
Keyqubad, Firudin torpağıdır bax!
Fələyin təknəsi deyil bu dünya,
O bir qan teştidir, qan tası ancaq.

***

Xərabatdan çıxan bir ay ucaldı,
Fələyin damında bir çadır saldı.
Qəflətən ucaldı hətifdən bir səs:
«Bu dünya bir saman çöpünə dəyməz!»

*Əfzələddin Xaqani:*

Çox möhnətin sonu səadətdir bu dünyada,
Qış gedəndə bahar gələr, bir adətdir bu dünyada.

***

Rəşidim öləndə dedim: «Ay bala,
Nə arzun var isə söylə müxtəsər»
Gülüb dedi: «Arzu həyat üçündür,
Ölərkən bir arzu qalırmı məgər?!»





***

Dünya bir süfrədir, loğması zəhər,
Həyat bir yuxudur, ölümsə təbir.

*İbn Sina:*

Məkrdən, fırıldaqdan uzaq oldum, bilin mən,
Açdım düyünlərini səmanın mən, küllün mən,
Dünyada çox müdrikin sözlərini anladım,
Ancaq aça bilmədim sirrini ölümün mən.

***

İnsan sahib olduğu şeylərin hamısını hər an tərk edə biləcəyini dərk edə bilmir.

*Sədi Şirazi:*

Bu dünya duracaq illər boyunca,
Lakin torpaq olar bizim bu bədən.
Bir xəyal qalacaq bizdən yadigar,
Varlıqla yox olub gedəcək həmən.

***

Qiymətli ömrümüz buna sərf oldu,
Ki, yayda nə yeyim, qışda nə geyim?
Ey qarın, bir parça çörəyə döz ki,
Qulluqda ikiqat olmasın belim.

***

Yaxşı ad qazanar aqil dünyada,
Zalımı nifrətlə salarlar yada.

*Məhəmməd Füzuli:*

Bu dünyaya uymayanın dərddən-qəmdən yox təlaşı,
Günahından, qıl körpüdən, cəhənnəmdən yox təlaşı.

***

Fitnə-fəsad dinclik verməz bu dünyaya uyan kəsə,
Öz aləmi bir aləmdir, tənhalığı duyan kəsə.

***İmadəddin Nəsimi:***

Cahan mülkü karvansara, insanlarsa bir qonaqdır,
Ölüm isə darvazadan asılmış bir əyri çəmbər.

***

Sultan Səncər hökm edərdi bu dünyaya bir zamanlar,
Qəbri üstə bir iydə də çiçək açıb verməz bəhər.

***

Fəna yeli əsən yolda can bir ovuc toz deyilmi,
Ömrümüzsə qar dağıdır, günəş onu tez əridər.

***Əvhədi Marağayi:***

Dünyanın həqiqətinə vaqif olanlar, həyatın zinət və zirvəsinə çətin baş əyərlər.

***Saib Təbrizi:***

Kim ağlının gözüylə bu dünyanı seyr edər,
Torpağın altında da rahat yatıb dincələr.

***Əbülxeyr Əbu Səid:***

Bu dünyanın hər işini xəbər aldım bir arifdən,
Dedi: Cahan qum-torpaqdır, bir küləkdir, əfsanədir.
Dedim: Kimlər hərisliyə, acgözlüyə mübtəladır?
Dedi: Həris insan, bil ki, kordur, kardır, məstanədir.





***Abbasqulu ağa Bakıxanov:***

Həqiqət olmasa, olmaz intizam,
Dünya həqiqətlə dolanır müdam.

***Mirzə Fətəli Axundzadə:***

Dünyada insan üçün ən böyük ləzzət yaxşı ad qoyub getməkdir ki, belə bir adı da yaxşı əməlləri müqabilində əldə etmək olar.

***Məhəmməd Riza Məhdəvi Kani:***

Dünya iki üzü olan kağız vərəqinə oxşayır. Onun bir üzünə baxarkən o biri üzü görünmür. Lakin o biri üzün görünməməsi o demək deyildir ki, kağızın arxasında heç bir şey yoxdur. Buna əsasən yerinə yetirdiyimiz əməllər dünyanın batinində vardır. Dünyanın o biri səhifəsi olan qiyamətdə isə bu, aşkar olacaqdır.

***Aşıq Veysəl:***

Neçə zənginlərin çarxın çevirdin,
Neçə qəhrəmanı tapdın, devirdin,
Bunca fəqirləri kəsdin, qovurdun,
Hər kəsə bir dürlü qədərsən, dünya.

***

Bütün qüsurumu torpaq gizləyir,
Məlhəm çalıb yaralarım düzləyir,
Qolun açmış, yollarımı gözləyir,
Mənim sadiq yarım qara torpaqdır.

*Aşıq Ələsgər:*

Varlıya dost olub yoxsula gülmə,
Çox da havalanıb coşma dünyada.
***
Vaxt olacaq ömür yetəcək bada,
Hörmət qoy hamıya, hörmətlə yaşa.

*Aşıq Abbas Tufarqanlı:*

Bu dünya karvansaradı,
Hər gələn qonaq əylənməz.

Dünya dediyin bir fanidir, fani,
Əzəl Nuh gəlmişdi, görünmür, hanı?

*Xəstə Qasım:*

Yola saldı İsgəndər tək xaqanı,
Bizə də əsəcək bad elə, insan!

*Seyid Əzim Şirvani:*

Dünyaya gələn getmək üçündür, bu nə qəmdir?
Bir fikir eylə, bu xilqəti-aləm nə üçündür?

*Səməd Vurğun:*

Qoyma ki, yerlərdə sürünsün bəşər,
Dünyada qalmasın nə pislik, nə şər.
Yaxşılıq insana bir sənət olsun,
Dünya başdan-başa qoy cənnət olsun.
***





Əzəldən belədir çünki kainat,
Cahan daimidir, ömür amanat.
Əldən-ələ keçir vəfasız həyat,
Biz gəldi gedərik, sən yaşa dünya!

*Bəxtiyar Vahabzadə:*

Gözəldir dünyada məsləklə addım atmaq,
Məslək varsa – O bilir ki, yaşamağın mənası nə,
Məslək yoxsa – O, bir yükdür həm dünyaya, həm özünə.
***
Bir rəngi yox, göylərin min rəngini sevirəm,
Bir gülü yox, güllərin çələngini sevirəm.
Çıxmağa təpə deyil, uca dağ istəyirəm,
Həyatı həyat kimi yaşamaq istəyirəm.
***
Kədərdəki nəşəni, zövqü anlamayanlar,
Həyatın nəşəsindən, fərəhindən nə anlar?
***
Xırda duyğulardan uzaq ol, uzaq,
Böyük duyğularla yaşa, kiçilmə.
Hər şeyin sonu var... Həyata düz bax,
Gecəni, gündüzü əbədi bilmə.
Dünya fırlanır ki, dönsün bu gərdiş,
İdrakın önündə an əyilməsin.
Dünya fırlanır ki, insan ölməmiş,
Dünyadan dünyaya köçə bilməsin.
***
Çox əyilən görmüşəm əyilməyən başları,
Sular duruldu, gördük dibindəki daşları.
Ünvanını dəyişdi dünənin alqışları,
Niyə də dəyişməsin, axı dünya fırlanır.
***

Enişin ardıdır, hər dik, hər yoxuş,
Tufan dediyimiz sükutdan qopmuş.
Atalar düz deyib, tərs qoyulubmuş,
Binədən dünyanın xımı, sən demə.

***

Kimi gəlir bu dünyada, bu dünyanı unutmağa,
Kimi gəlir dünyaya yox, öz qəlbinə züy tutmağa.
Kimi gəlir bu dünyanın nəşəsinə yaşamağa,
Kimi gəlir bu dünyanın dərdlərini daşımağa.
Kimi gəlir bu dünyadan umduğunu götürməyə,
Kimi gəlir bu dünyaya öz odundan nur verməyə.
Kimi gəlir bu dünyada olanlara daş atmağa,
Kimi gəlir bu dünyada olmayanı yaratmağa.
Haqq istədin,
Dedin niyə adı vardır, özü yoxdur?
Dedin niyə bu dünyanın əyrisi var, düzü yoxdur?

*Məmməd Araz:*

Çaydı, dəhnəsində xırsız əjdaha,
Gecəsi salamat çıxmaz sabaha.
İti bazarında atından baha,
Mən belə dünyanın nəyindən küsüm?
Kiminsə dünəni qəbirsiz qalıb,
Kotançı babası dəmirsiz qalıb.
Körükçü atası kömürsüz qalıb,
Xəmrəsi, urvası xəmirsiz qalıb,
Dünya düzəlmir ki, düzəlmir, baba!

Gedir yol davası, sümük davası,
Gedir vurhavurla çəpik davası.
Gedir milyonçunun qəpik davası,





Çürük fikirlərin, çürük davası...
Dünya düzəlmir ki, düzəlmir, baba!

Bu get-gəllər bazarına dəvədi dünya,
Bu ömür-gün naxışına həvədi dünya.
Əbədi qəhqəh çəkər əbədi dünya,
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin.

*Nəbi Xəzri:*

Ömür səadətimdir, ya əbədi zülmümdür?
Tez də ölsən ölümdür,
Gec də ölsən ölümdür!
Tez öləndə hayıf oldu – deyərlər,
Gec öləndə yenə öldü, – deyərlər.

*Misbah Yəzdi:*

Əgər dünya olmasaydı, insanlar hansı savabla behiştə gedərdi? Dünya Allah dostlarının təkamül yeridir. Həzrət Əli (ə) buyurur: «Dünya ona baxan insanı agah, onun zinətinə aldananı kor etdi». Bəli, dünyaya bəsirət gözü ilə baxanlar ondan faydalanır, nəfsinə uyanlar isə zərərə düşürlər. Dünyadan dərs almayan kəs, kamillik mərtəbəsinə ucala bilməz.

*Ərəb atalar sözləri:*

Mən bütün dünyanı fikrimə tapındırmaq istərkən, ölümdəki bir həqiqəti anlamıram?!

Ölüm dırnaqlarını ilişdirsə heç bir dua, tilsim fayda verməz.

*Bayatı:*

Su gələr, axar gedər,
Durnalar qatar gedər.
Dünya bir pəncərədir,
Hər gələn baxar gedər.

Müdriklərdən biri deyib ki, dünya bir səhnə, insanlar isə aktyordur. Hərənin öz taleyi, hər fərdin oynadığı bir rol var: mənfi-müsbət, komik-faciəvi, qəhrəman-qorxaq, millətini, vətənini, dinini sevən-xəyanətkar, müdrik-nadan, mərhəmətli-zalım... Bunlardan bir qismi çox, bir qismi az yaşayır. B.Vahabzadə dediyi kimi, cavana tez öldü deyirlər, qocaya da yenə öldü deyirlər. Əgər insana ömür bəxş eləmək mümkün olsaydı, ondan soruşsaydılar ki, yüz illik, yoxsa sonsuz bir həyatı istəyirsən, nə cavab verərdi? Biz bu suala cavab vermək istəmirdik. Bu sualın cavabını oxucuların ixtiyarına veririk. Öz yaxınlarını, qohumlarını, dostlarını itirən insan, var-dövlət içində olsa belə, necə xoşbəxt ola bilər.

Dəli könül, məndən sənə əmanət,
Demə, bu dünyada qalım, yaxşıdı.
Bir gün olar qohum, qardaş yad olar,
Demə, ulusum var, elim yaxşıdı.

*Xəstə Qasım.*

Çünki bu fani dünyanın əsası belə qoyulub. Gələn getməlidir, getməlidir ki, yadlaşmasın, dirikən unudulmasın. Tanrıya qovuşduqdan sonra hafizələrdə yaşasın, yad edilsin.

Ey insan, çalış bu mənasız dünyada ömür sürdüyün zaman





nakam getməmək üçün bir məna kəsb edəsən. Həqiqi mənəviyyat sahibi olan, cəmiyyətə bacardığı qədər xidmət edən, mənfi intellektual amillərdən uzaq olan insan, hər an düşünməlidir ki, o, dünyaya getmək üçün gəlib. Əsl insan bu dünyanı öz ürəyində dinləməyi bacarmalı və dərk etməlidir ki, ömrün... nəhayəti ölümdür. Şərəfli ölüm, şərəfsiz həyatdan yaxşıdır.

Əziz oxucu! Bütün bu araşdırmalardan sonra belə qərara gəldik ki, fikirlərimizi yekunlaşdırmaq üçün bir daha Bəxtiyar Vahabzadə fəlsəfi xəzinəsinə müraciət edək:

Yaranışdan bilirik, ömrə nəhayətdi ölüm,
Zamanın hökmü budur: hər kəsə qismətdi ölüm.

Hələ dərk etməmişik, amma ölümdən o tayı,
Bizim idrakımıza gör necə sərhəddi ölüm.

Nə imiş hikməti dünyamızı tərk eyləməyin?
Ulular söylədi torpaq ilə vəhdətdi ölüm.

Nə olarmış, görəsən, saxlaya bilsək zamanı?
Kim bilir, bəlkə də insana bir hörmətdi ölüm.
Ölənin qəbrinə qan-yaş axıdıb ağlaşırıq,
Nə bilək, bəlkə şərəf, bəlkə fəzilətdi ölüm.

Bəşər ölməzsə, bu dünya təzələnməz, qocalar,
Bütün insanlıq üçün bir əbədiyyətdi ölüm.

Bir daha dahi sənətkar Bəxtiyar fəlsəfəsinə müraciət edək:

Gəlin özümüzü bir insan sayaq,
Hissdən, həyəcandan gəlin qorxmayaq.
Qorxaq şirin-şirin təbəssümlərin,

Ardında gizlənən min bir kələkdən,
Qorxaq başqasına biganəlikdən.

Qorxaq, əməl qala quru söz kimi,
Qorxmayaq dünyanın puç olmasından,
Qorxaq adamların öz içindəki
Mənəvi dünyanın dağılmasından.

Mənəvi aləmin bazisi hesab edilən hikmətli və mənalı sözlərin insanlar tərəfindən obyektiv qiymətləndirilməsi mənfi intellektual ekoloji faktorların qarşısının alınması və müsbət sferanın əmələ gəlməsinə xidmət edəcəkdir. Şübhəsiz, dünyanı məhv olmaqdan, insan mənəviyyatı, müsbət intellektual ekoloji amillər xilas edəcəkdir. Bəşəriyyət tez-gec bu həqiqəti qəbul edəcəkdir. III minillikdə, uzaq gələcəkdə bu mübarizənin tam qələbəsi labüddür. Buna biz tam əminik, çünki başqa çıxış yolu yoxdur.



# VI FƏSİL

# KAİNATIN AGLI VƏ NİZAMNAMƏSİ QURANİ-KƏRİMDİR

Allah yanında (haqq olan) din, əlbəttə, İslamdır...

*Qurani-Kərim,*
*Ali-İmran surəsi, ayə 19.*

# Etiqad inkişafa əngəl ola bilməz, din və elmin sinergetikası[1] bəşəriyyəti fəlakətdən qorumalıdır

«... Rəbbim hər şeyi elmlə (öz əzəli elmi ilə) ehtiva etmişdir. Məgər düşünüb ibrət almırsınız?»
*Qurani-Kərim, əl-Ənam surəsi, ayə 80.*

«Metron antropos panton («insan hər şeyin meyarıdır»)»
*Protoqor, qədim yunan filosofu.*

Hörmətli oxucu, bundan əvvəlki fəsillərdə bəşəri təkamülə təkan verən elmi, dini, əxlaqi, sosial etik, fəlsəfi təlimlər haqda məlumat vermişdik. Araşdırmalardan məlum olur ki, insanların ruhi aləmini qidalandırmaq üçün həmişə inanclara ehtiyac olmuşdur. Hətta deyərdik ki, təbabət və inanc insanlarla bir yerdə yaranmışdır. İbtidai insan acından ölməmək üçün müxtəlif yollarla qida əldə edərkən həmişə travmalara məruz qalmış və kortəbii müxtəlif üsullurla özünü müalicə etmişdir. Bu instinkt heyvanat aləmində hələ də mövcuddur. İbtidai insan müxtəlif təbiət hadisələrindən qorxuya düşəndə istər-istəməz nəyəsə və harasa üz tutub, xilas olmaq üçün yalvarmış və beləliklə də inancın bünövrəsi qoyulmuşdur. Beləliklə, ibtidai qəbilə dinlərindən başlamış, milli və səmavi qəbul edilən dinlər, müasir insanın təkamül prosesində inandığı dəyərlər sistemidir. Bu dəyərlər sisteminin ən sonuncusu və olduğu kimi, dəyişiksiz müasir dövrümüzə gəlib çatanı islam dinidir.

[1] Sinergetika, yunanca – «*sinergeia*» sözündəndir və mənası əməkdaşlıq deməkdir, adətən, bütün ülvi insani ideallarin: ədalət, bərabərlik, xeyir, gözəllik, həqiqət və s. Birliyinə mənsubluq kimi başa düşülür. Bu, habelə insanın daxili aləminin bütün sahələrinin – elm və fəlsəfənin, din və əxlaqın, incəsənət və təbabətin əməkdaşlığı, lakin hər şeydən əvvəl, varlığın idrakında və yaradılmasında həyati məna kəsb edən yönəlmələrin əxlaqi missiyası ilə əməkdaşlıqdır. Sinergetika insanın və bütövlükdə bəşəriyyətin mənəvi aləmində əvvəllər sirli görünən proseslərin üstündən örtüyü bir qədər açmağa imkan verir. (Qoşqar Əliyev, Təbabətin fəlsəfəsi, Bakı, 2000, s. 72)





Məlumdur ki, Qurana qədərki səhifələr müasir dövrə gəlib çatmamış, kitablar isə dəyişikliyə məruz qalmış, insanlar onlara istədikləri sözləri, əmrvə hökmləri əlavə etmiş, yaxud onlardaki ayələrin məzmunlarını dəyişdirmiş, hətta bəzilərini tamamilə çıxarmışlar. Qurani-Kərim isə, qeyd etdiyimiz kimi ilk olduğu kimi qorunmuş, onu kimsə dəyişə bilməmiş, hətta ona bir kəlmə belə əlavə edilməmişdir.

Qurani-Kərimin əl-Hədid surəsi, ayə 26-27-də buyurulur: «And olsun ki, Biz Nuhu və İbrahimi peyğəmbər göndərdik, peyğəmbərliyi və kitabı (Tövratı, Zaburu, İncili və Quranı) onların nəslinə verdik, Onlardan doğru yolda olan da vardır. Sonra onların ardınca (Musa, İlyas, Davud, Suleyman, Yunus və başqa) peyğəmbərləri yolladıq. (Onlardan sonra) Məryəm oğlu İsanı göndərib, ona İncil verdik. Onların ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq. Onlar özlərindən rahiblik (tərki-dünyalıq) icad etdilər. Onlar bunu Allah rizasını qazanmaq üçün etdilər, lakin ona layiqincə əməl (riayət) etmədilər. (İncili təhrif edib İsanı Allah bildilər)... »

İslam sülh, barış dinidir, insanlardan həmişə yaxşılıq etməyi, pisliklərdən çəkinməyi və çəkindirməyi tövsiyə edir.

***Qurani-Kərimdə buyurulur:*** «Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq-aşkar düşməninizdir!» (əl-Bəqərə surəsi, ayə 208); «Allah (bəndələrini) əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola salır.» (Yunus surəsi, ayə 25)

Adları Qurani-Kərimdə çəkilən 25 peyğəmbərdən heç biri özlərinə sitayiş edilməsini və müqəddəsləşdirilmələrini istəmə-

miş, həqiqi Tanrının yalnız yaradan Allah olduğunu bildirmişdilər. İbtidai inanclardan başlamış, islama qədərki bütün dinlər və onları təbliğ edən peyğəmbər və nəbilər həmişə insanları düz yola, əmin-amanlığa, iqtisadi dirçəlişə dəvət etmişdilər.

Hörmətli oxucu, araşdırmalardan məlum olur ki, antik dövrdən başlamış müasir dövrə qədər, bəşəriyyətin inkişafının bütün mərhələlərində cəmiyyətin mütərəqqi simalarının intellektual bazası insanların rifahı uğrunda mübarizə aparmış, öz müdrik fikirlərini gələcək nəsillərə miras qoymuşdur. Bu cəhətdən fəlsəfənin rolu danılmazdır. Fəlsəfə insanın potensial imkanlarının inkişafına kömək edən intellektual bir açardır. (Qoşqar Əliyev)

Fikirlərimizi əsaslandırmaq məqsədilə Ön və Orta Şərqdən kənarda yaşayan bəzi mütəfəkkir və filosofların yaradıcılığına müraciət etmək qərarına gəldik.

**Demokrit** (e.ə. təqr. 460 – e.ə. 370). Qədim yunan filosofu. O, bəşər tarixinin hərəkətverici qüvvəsini ehtiyac, yəni insanların maddi tələbatı ilə əlaqələndirmişdir.

**Heraklit** (e.ə. təqr. 544 – e.ə. təqr. 483). Qədim yunan filosofu. Kiçik Asiyanın qərb sahilində yerləşən Efes şəhərində dünyaya gəlmiş Heraklit erkən yunan dialektika elminin banisi kimi dünya fəlsəfə və təbiətşünaslıq biliklərinin inkişafına müstəsna təsir göstərmişdir. Özünün siyasi baxışlarına görə aristokrat olan Heraklit demokratiyanı qəbul etməmişdir. Onun dövrümüzə gəlib çatmış yazılarının 104-cü fraqmentində Efes şəhərinin demokratik rəhbərləri barədə belə deyilir: «Bunların ağıl və dərrakəsi nədir axı? Onlar xalq xanəndələrinə inanırlar, müəllimləri isə – qara camaat. Onlar yaxşının, pisin nə olduğunu bilmirlər.» (Qoşqar Əliyev. Təbabət fəlsəfəsi, Bakı, 2000, s. 56)

**Haşiyə.** Unudulmaz ustad Bəxtiyar Vahabzadə yaxşı deyib:

Bu dünyanın xeyri də, şəri də təkrar olur,
Niyə təkrar olmasın, axı, dünya fırlanır.

Məgər müasir dövrdə mahnı oxuyanlar (xanəndə, müğənni sözlərini işlətmək günahdır) cəmiyyətin ən üzdə olan təbəqəsi deyillərmi? Bütün günü televiziyanın kanalları mahnı oxuyanların (əgər mahnı demək mümkünsə) savadsız müsahibə və mübahisələrini, əxlaq normalarından çox-çox uzaq hərəkətlərini, açıq-saçıq geyimlərini, maşınlarını, villalarını nümayiş etdirmirmi? Bu insanlar, hətta televiziya ekranlarında xalqa ailə-məişət, əxlaq dərsi keçir, məsləhət verirlər. Hüseyn Cavid demişkən:

Rəqsi təlim ediyor axsaqlar,
Əzəmət düşkünüdür alçaqlar...
Hər gülən üzdə ölüm, qan görürəm,
Pək yaxın dostları düşmən görürəm.
Yurdu sarmış yaltaqlıq,
Yüksəliş varsa, səbəb alçaqlıq...

**Platon** (e.ə. 428/7 – 348/7). Qədim yunan filosofu. Platonun prinsipinə görə dövləti filosoflar idarə etməlidirlər. Onun dövlət modeli utopik xarakterdən xəbər verirdi.

**Aristotel, Ərəstu** (e.ə. 384 – e.ə. 322). Qədim yunan filosofu və alimi, Makedoniyalı İsgəndərin tərbiyəçisi olmuşdur. K.Marks Aristoteli «qədim dünyanın çox böyük mütəfəkkiri» (Kapital, c. 1., Bakı, 1969, s. 409), onun təlimini isə qədim yunan fəlsəfəsinin zirvəsi hesab etmişdir. F.Engels Aristoteli qədim yunan filosofları içərisində «ən universal zəka» adlandırmışdır (Anti-Dürinq, Bakı, 1967, s. 15). Aristotel dövlətin altı formasını göstərmişdir.

**Alkmeon** (təqr. e.ə. 500-ci il) həkim-mütəfəkkir. Pifaqordan (təqr. e.ə. 580-500) yaşamaq və yaratmaq müdrikliyini, insani ünsiyyət mədəniyyətini öyrənmişdir. Alkmeonun idrak marağının mərkəzində mikrokosmos kimi baxılan insan bədəni durmuşdur.

Alkmeon tibb təcrübəsində ilk dəfə olaraq, insan beynini təfəkkürün mərkəzləşməsi yeri kimi müəyyənləşdirmişdir. (Qoşqar Əliyev, Təbabətin fəlsəfəsi, Bakı, 2000, s. 67)

Bütün bu deyilənlərdən bu qənaətə gəlmək olur ki, hər şeyin meyarı adlandırılan antik dövr fəlsəfəsi korifeylərinin dəyərli fikirləri bu gün də öz aktuallığını itirməmişdir. Filosof Qoşqar Əliyevin qeyd etdiyi kimi, antik dövr fəlsəfi fikirləri müasir dövrdə də insan ruhunun, onların arzularının, bütövlükdə, onun rahatlığı üçün ən şəfaverici incidir.

Məlumdur ki, qədim Şərq ölkələrində quldarlıq quruluşunun yaranması və inkişafı ilə müxtəlif fəlsəfi təlimlər zərdüştiliyin müqəddəs kitabı «Avesta»da öz əksini tapmışdır: «Bütün yaradılana, hər şeydən əvvəl sülh və əmniyyət diləyirəm. Öz içimi nurlu işıqla dolmuş gördüm. Sən məndən soruşanda: «Mən Zərdüştəm – düzlük carçısı!» Sənin «Sən nə etmək istəyirsən?» sorğuna belə cavab verdim: «Hər dəfə sitayiş edəndə yaxşı şeylər fikirləşmək istəyirəm!»»

Ərəb fəlsəfəsi adlanan dövr (VIII əsr) xilafət daxilindəki bir çox xalqların, o cümlədən Azərbaycan xalqının da fəlsəfi fikrini əhatə edir. Orta əsr ictimai fəlsəfi fikir tarixində Biruni, Fərabi, İbn Sina, Nizami Gəncəvi, Bəhmənyar, Nəsirəddin Tusi və b.-nın xidmətləri çoxdur. Onlar qeyri-elmi vasitələrə qarşı mübarizə aparmış, yunan fəlsəfi irsini geniş təbliğ etmiş, müxtəlif elm sahələrinə dair dəyərli fikirlər söyləmiş və əsərlər yaratmışlar (bu haqda əvvəlki bölmələrdə məlumat verilmişdir).

Hörmətli oxucu, Yer planetində yaşayan hər bir sakin başa düşməlidir ki, düşmənçilikdən, ədavətdən, nifrətdən, qərəzçilikdən, riyakarlıqdan... azad olmaq üçün maksimum səy göstərməyin vaxtı çatmışdır. Fəlakətlərdən xilasın yolu xeyirxah olmaqdır. Əgər bəşəriyyət bunu anlamasa, kainatın amansız qanunları insanları buna məcbur edəcək, fəqət onda gec olacaqdır. Gələcək yalnız, istər ümumi və istərsə də intellektual, müsbət amillərə məxsus olacaqdır: mərhəmət, şəfqət, yaxşılıq, sevgi, məhəbbət, ədəb-ərkan, ədalət, elm, intellektual mədəniyyət, insaniyyət, inam... Əfsuslar olsun ki, bunu insanların çoxu qiymətləndirmir, Saleh bəyin qeyd etdiyi kimi, əksinə, sanki onların əsas məqsədi öz gözəl dünyalarını məhv etməkdir.





Gələcəyin Tədqiqi Ümumdünya Federasiyasının fəxri üzvü, akademik İqor Bestujev-Ladanın «Bəşəriyyət XXI əsri yaşayacaqmı?» («Trud» qəzeti 7 may, 1996) məqaləsindən və Saleh bəyin «Dünyanın taleyi» (Bakı, 1998, s. 534-536) əsərindən bəzi məqamlar: «Bu gün Yer əhalisinin sayı 5,5 milyarddan çoxdur. BMT-nin proqnozu üzrə 2000-ci ildə 6 milyard, 2025-də – 8, 2050-də – 10 milyard olacaqdır. Onların 9 milyardını Asiya, Afrika və Latın Amerikasının əhalisi təşkil edəcəkdir. Hətta bu gün (o qitələrdəki) 3 milyard əhalinin yarısı həkimdən, dərmandan, hətta təmiz içməli sudan məhrumdur... Əhalinin, demək olar ki, üçdə biri aclıq keçirir, hər on nəfərdən biri acından ölür... Bir tərəfdən də mafiyanın, terrorçuluğun təsiri...»

««Yoxsul Cənubun» «varlı Şimala» qarşı dünya müharibəsi... ola bilsin, bütün bəşəriyyətin özünü məhv etməsi ilə qurtarsın. Bunun qarşısını almaq üçün geridə qalmış ölkələrin həyat səviyyəsi qabaqcıllarla bərabərləşdirilməlidir. Bu isə hər 5-10 ildə enerji istifadəsini 2 dəfə artırmağı tələb edir. Və belə olsa, bütün dünya əhalisi, məsələn, ABŞ səviyyəsində yaşasa, onda neft ehtiyatı 3, təbii qaz 4, kömür 15 ilə qurtarar. Yanacaq ehtiyatından əvvəl isə oksigen tükənər, bəşər boğulardı...»

Akademik insaniyyət amilinin rolunu da qeyd edir: «Antimədəniyyətin – zorakılığın, seksin, şərin çoxlu digər növlərinin təntənəli hücumu başlamışdır». Nəticədə, demək olar ki, inkişaf edən ölkələrdə gənclərin, hərfi mənada, əxlaqsızlaşdırılması, ictimaiyyətin diri-diri korlanması baş verir.

Bütün bunlar barədə 1970-ci illərdən alimlər xəbərdarlıq edirlər. Yeni elmi istiqamət – «**qlobalistika**» gələcəyi öyrənməklə məşğul olur. Müəllif təəssüflə qeyd edir ki, əhali alimlərin qlobal təhlükələr barədəki harayına adət edir, hərə dəvəquşu kimi başını quma basdırıb, əvvəlki qaydada öz işini davam etdirməkdədir.

Fəqət anlayanlar da var. Onlar yeni **«alternativistika»** fənnini yaradaraq, ənənəvi sivilizasiyadan yeni, alternativ üsullara keçməyin yolları barədə düşünürlər. Bu istiqamətdə ən konstruktiv mülahizələri məqalənin müəllifi (akad. İqor Bestujev-Lada) xilasedici **«alternativ sivilizasiya»**nın beş əsas göstəricisinə bölür:

1. «**Aşağı**» («təmiz») energetika. İstilik və atom mənbələri əvəzinə bərpa olunan (günəş, külək, dəniz) enerji mənbələrinin istifadəsinə keçmək.
2. «**Yüksək sabitlik**» – geniş mənada qlobal enerji, xammal, nəqliyyat, ekoloji və əsasən, demoqrafik balansın bərpası.
3. «**Delimitarizasiya**» «Biz ya hər hansı bir kütləvi qırğın silahını tamamilə qanundan kənar etməli və dünyanın bütün ordularını tərk-silah etməliyik... ya da ola bilsin, ən yaxın zamanda yeni bir dünya müharibəsinə düçar olacağıq, bu isə bəşəriyyətin sonunun başlanğıcı olacaqdır.»
4. «**Ekolojilik**» «Ekoloji meyarların bütün başqa – iqtisadi, sosial, siyasi meyarlar üzərində mütləq üstünlüyü nəzərdə tutulur» .Mühitin korlanmasının indiki sürəti saxlanarsa, onda «bəşərin məhvi XXI əsrin birinci yarısında qaçılmaz olacaqdır – yalnız bu səbəbə görə.»
5. «**Əsl insanlıq.** Təhsilin humanizmi nəzərdə tutulur... Hər bir insanın şəxsiyyətinə tam hörmət əsasında... Bundan əlavə, əsl mədəniyyətin – **Mərhəmətin, Məhəbbətin, Dərrakənin, Ailənin,** ümumiyyətlə, **Xeyrin** əks mədəniyyət üzərində hücumu nəzərdə tutulur.»

Fəqət Bestujev-Lada təəssüflə qeyd edir: «... hətta Qərbdə artıq 15 ilə qədərdir ki, alternativistika öz yolu ilə, bəşəriyyət isə öz yolu ilə gedir. Və onların birləşməsi şübhə altındadır, ta ümumaləm fəlakətin qopacağı ana qədər...»

Hörmətli oxucu, bütün bu deyilənlərin reallığı inancın, elmin, ağlın, tərbiyənin... sayəsində mümkün olacaqdır. İnsanın tərbiyə haqqında təsəvvürü yoxdursa, onun tərbiyələnməsi də qeyri-mümkündür. Qafil insan nəinki öz ilahi məqamından, hətta coğrafi mövqeyindən də xəbərsizdir. Çingiz Aytmatovun təbirincə desək, bələlərini «manqurt» adlandırmaq daha düzgün olardı.





Tərbiyə təmiz əxlaq sayəsində yaranır, insanın doğulandan ölənə gədər ömrü boyu qazandığı keyfiyyətləri ifadə edir. Əxlaq, eyni zamanda sosial, hətta qlobal məsələdir, yəni həm insanlararası və həm də ümumbəşəri bir kateqoriyadır.

Saleh bəy («Dünyanın taleyi», Bakı, 1998) hesab edir ki, tərbiyənin məzmun və forması dövlətin ən vacib işi hesab edilməlidir. Ona görə ki, bəşər mənəviyyatında hər şey tərbiyədən başlayır və tərbiyə hər şeyə qadirdir. Tərbiyə insaniyyət qanunlarının inkişafına təkan verən güvvədir.

İnsaniyyət – ədalət, vicdan insana və onun hüquq və ləyaqətinə hörmət, ən azı, tolerantlıq, qarşılıqlı dözüm arzu edilən xüsusiyyətlər səviyyəsindən ümumbəşəri qanunlar səviyyəsinə qaldırılmalıdır. Bunun üçün, Saleh bəy təklif edir ki, yeni insani hüquq normaları, yeni elm – «insaniyyətşünaslıq» sahələri yaradılmalıdır.

Saleh bəy, eyni zamanda dinlərin qarşılıqlı yaxınlaşması, dünyanın taleyi naminə onların əməkdaşlığına vacib bir ehtiyac halı aldığını bəyan edir. O, yeni bir təklifin həyata keçirilməsini vacib bilir: dinlərin beynəlmiləlliyinin yaradılması. Və hesab edir ki, tarixin indiki məqamında ümumbəşəriyyətin həyatı, gələcəyi, dünyanın taleyi naminə bundan aktual, vacib və əhəmiyyətli məsələ yoxdur. Saleh bəy ümumdünya dinlər beynəlmiləlliyini, belə adlandırmağı təklif edir: «Dinlər birliyi təşkilatı», iqamətgahı Məkkədə, Romada, Yerusəlimdə (və bir neçə şəhərdə növbə ilə) ola bilər.

Saleh bəy bu qənaətə gəlməsini belə izah edir: «Bütün böyük dinlərin, bütün kiçik duaçılarının hər biri Allah önündə öz diləyini öz dilində izah eləyir. Fəqət bir kəlam var ki, onsuz dua eşidilməz, bütün insanların və vahid Allahın ümumi kəlamı – Amin! Bu kəlam dinləri və dindarları birləşdirmişdir, Allahın önündə hamı bərabər və qardaşdır. İnsanlar arasında

dini zəmində ixtilaf yoxdur, onu yaradanlar varsa, onlar dininin düşmənləri, kafirlər və cinayətkarlardır.» («Dünyanın taleyi», Bakı, 1998, s. 5)

Professor, filosof Qoşqar Əliyev hesab edir ki, bu gün sivil dövlətlərin təcrübəsinə istinad edərək «İnsan» İnstitutunu yaratmaq vaxtı gəlib çatmışdır. Filosofa görə, belə bir institut yaradılarsa – buna isə böyük ehtiyac vardır – aparıcı tədqiqat istiqamətlərindən biri bioetika problemlərinin araşdırılması və həlli olmalıdır. Bioetika nədir?

Amerika təbabət etikasının görkəmli nümayəndələrindən V.R.Potter 1969-cu ildə həm tibb elminə, həm də etika sahəsinə yeni termin – «bioetika» anlayışını gətirdi. Bioetikanın geniş anlamına görə o, səhiyyə sistemi ilə bağlı bir sıra məsələləri və nəhayət, insanın heyvanlara və bitkilərə münasibət ilə əlaqəli problemləri cəmləşdirən kateqoriyadır (Qoşqar Əliyev). Bu anlayış meydana gəldiyi ilk günlərdən diskussiyaya səbəb olsa da, zaman keçdikcə insan haqqında elmlər sistemində layiqli yeri və rolu formalaşmışdır.

Bu sahədə elmi biliklər artdıqca, aydın olur ki, bioetikanın hərtərəfli öyrənilməsi müasir elmin ən aktual problemlərindəndir, hər şeydən əvvəl, onun sosial sahədə potensial və əxlaqi, intellektual imkanları kifayət qədər açılmamışdır. Qoşqar Əliyev hesab edir ki, bioetika – yeni mədəniyyət və yeni dünyagörüşü formasıdır.

Kulturoloq professor Fuad Məmmədov bəşəriyyətin fəlakətlərdən xilasını intellektual mədəniyyətdə görür: mədəniyyət ətrafı düzgün dərk edib, dəyişmə prosesidir. Mədəniyyətin iki əsas mənbəyi vardır. Biri anadangəlmə mədəni keyfiyyətdir ki, hər bir uşaq doğulanda ona atadan, anadan keçir. Amma bu keyfiyyət yalnız şansdır. F.Məmmədov obyektiv olaraq qeyd edir ki, valideynlərdən keçən mədəni keyfiyyətlər o zaman gözəl nəticələr verə bilər ki, insanın yaşadığı sosial-mədəni mühit, doğurdan da, əlverişli olsun. Belə bir mühitdə insanın bacarığının, qabiliyyətinin, biliyinin, ağlı keyfiyyətlərinin, davranış qaydalarının hərtərəfli formalaşması şansı yüksəkdir.





F.Məmmədov hesab edir ki, intellektual mədəniyyət aparıcı olduğu zaman şər və kasıblıq azalır, ona görə də müasir dövrdə bəşəriyyətin elmdən çox, tərbiyəyə ehtiyacı var. (Milli.az.informasiya portalı)

Qeyd etmək lazımdır ki, hər bir millətin coğrafi şəraitindən asılı olaraq genetik intellektual mədəniyyəti biri-birindən fərqlənir. Əvvəlki bölmələrdə qeyd etdiyimiz kimi Ön və Orta Şərqin – müsəlman Şərqinin intellektual mədəniyyəti Şumer, Assuriya, Babilistan, Misir mədəniyyətindən bəhrələnir, nəsildən-nəslə keçir. Saleh bəy bu haqda belə qeyd edir: «Şərq – Şərqdir, Qərb – Qərb» aforizminin əsas mənası bundan ibarətdir: dünya Şərqdən və Qərbdən ibarətdir, başqa sözlə desək, məlum tərif üzrə «Şərqin müdrikliyi və Qərbin səmərəliliyi» mədəniyyətin və sivilizasiyanın tərkib hissəsidir. Mədəniyyətin əsasını Şərq qoymuş və ondan xeyli sonra Qərb sivilizasiyası buraya qoşulmuşdur.

İsveç şərqşünası Adam Metsin «Müsəlman renessansı» (Musulmanskiy renessans, Moskva, 1966, s. 458) əsərini yada salmaq kifayətdir. Bu böyük əsərdə İsveç şərqşünası müsəlman Şərqinin, habelə Şərq xalqlarının saysız-hesabsız nailiyyətləri, onların dünya mədəniyyətinin yaranması və inkişafı naminə etdikləri köklü və əvəzsiz töhfələri barədə minlərlə faktlar göstərmişdir.

Şərqin müdriklik simfoniyasından daha bir melodiya: «Mənim Qərbə hörmətim, həmkar dostlarıma – Avropa və Amerika alimlərinə məhəbbətim var, – onların elmdə və texnikada olan, sözsüz, böyük nailiyyətlərinə, öz insani xasiyyətlərinə görə. Və mən şad oluram ki, Mirzə Şəfi Vazehin, minlərlə Şərq şairlərindən, yüzlərlə Azərbaycan şairlərindən heç olmasa, birinin yaratdığı nəğmələr Qərb oxucusunun «ürəyində ən gözəl sığınacaq tapdı». 1994-cü ildə Azərbaycan şairi Nəbi Xəzri Almaniyada «Mirzə Şəfinin nəğmələri»nin əlavə bir nəşrini təşkil edib. 285 min nüsxədə kitab 20 gündə satılıb. Belə bir müvəffəqiyyətə tarixdə heç bir alman və ümumiyyətlə, Avropa şairi nail olmamışdır... Bu isə Bodenştedtin çox qabil, çox gö-

zəl tərcüməsinin sayəsində olub. Heyif ki, bodenştedtlər çox deyil. Halbuki Şərqin hələ nə qədər gözəllikləri, şairlərin, musiqiçilərin, elə kulinar-aşpazların da yaratdıqları əsərlər tərcüməsiz, Qərb üçün anlaşılmaz qalır. Qərbin yüksək zövqlü, zərifqəlbli insanları ləzzətini dadmayıb, təsirini hiss etməyib. Yer üzərində yaşayasan və muğamı anlamayasan, öz ürəyinin simlərində onun incə gözəlliyinin səslənməsindən məhrum olasan – bu, heç nə ilə əvəz olunmaz itkidir...

Sözlərimi ciddi qəbul etmək üçün, düşünürəm ki, avropalının təkcə bunu bilməsi kifayətdir ki, böyük Sebastian Baxın «Tokkata»sının əsas melodiyası «Bayatı-Şiraz» muğamı ilə eynidir, demək olar ki, ikisi də bir şeydir! Nəyə görə, necə? – bilmirəm. Fəqət bu həqiqətdir. Bu da həqiqətdir ki, Baxın «Tokkata»sı Qərb klassik musiqisinin zirvəsidir. Əlavə: Jorj Bize uzun müddət müvəffəqiyyətsizlik qəmindən zillət çəkib. Sonra Şərq musiqisini öyrənməyi qət edib. Öyrənib, dərindən, əsaslı və «Cəmilə», sonra isə «Karmen» operalarını yazıb. Bu əsərləri ona görünməmiş müvəffəqiyyət, «Böyük Bize» şöhrətini gətirib.

Avropa arzu edərdim ki, Şərq mədəniyyətini dərindən öyrənəydi. Bu – dəfinədir. Tükənməz dəfinə. (Saleh bəy, «Dünyanın taleyi», Bakı, 1998, s. 277-278)

Bir daha şəxsiyyətlərin dediklərinə nəzər salaq:

***Maksim Qorki:***

Şəhrizadın nağılları ən monumental abidədir.

***Qilbert Kin Çesterton:***

Heç bir vaxt, hələ heç bir başqa kitabda incəsənətin məğrur qüdrəti bu qədər əsaslı sübut edilməmişdir.

***Vissarion Belinski:***





Müsəlman Şərqinin xasiyyətinin, ictimai və ailə həyatı şəraitinin belə doğru, belə canlı təsvirini sizə səyyahların heç bir hekayəti verə bilməz.

***Aleksandr Düma:***

Biz, istət Şimal, istərsə də Qərb adamları ərəb poeziyasının gözəlliyini heç bir vaxt qiymətləndirə bilməyəcəyik.

**Bir tarixi həqiqət:** Sesilya Bensianovna Banu-Lahutti. Şərq mədəniyyətini Qərbə açan ən böyük xadimlərdən biri... Gənc Sesiliya Orta Asiyaya gəlir, Lahutti orada tacik şairi Əbülqasim ilə tanış olur və ona ərə gedir. Necə? Süd kimi ağ, quş kimi oynaq, ceyran kimi gözəl, ziyalı yəhudi ailəsində böyümüş gənc kiyevli qız necə olur ki, özündən iki dəfə (!) böyük, cənub havasında qaralmış yaşlı bir kişiyə vurulub?

Əbülqasimə məhəbbət, onun dilinə – fars dilinə məhəbbəti doğurdu. Fars dilini sevən isə Firdövsini sevməyə bilməzdi. Az sonra öz Əbülqasimi ilə əbədi vidalaşan cavan gəlin məhəbbətinin hamısını böyük Əbülqasimə, dahi Firdövsiyə bəxş etdi. Hər gün, hər saat, həmişə onunla oldu. Beləcə – 25 il... və o gün, tale günü gəlib çatdı: «Şahnamə»nin tam 6 cildlik mətninin şeirlə rus dilinə tərcüməsi başa çatdı. «Şahnamə» bütünlükdə ikinci dildə səsləndi!..

Alpinistlər deyirlər: «Dağlardan gözəl – yalnız dağlar ola bilər». Bəs fars dilindən yaranmış dördzirvəli poeziya dağından necə? Bu suala cavab verməyə bu gün dünyada yalnız bir şəxsin haqqı və qüdrəti çatar – Banu-Lahuttinin: «Dünyada qədim fars poeziyasından gözəl heç nə yoxdur.» («İzvestiya» qəzeti, 21 oktyabr, 1994)

Sesilya xanım deyir: «Şahnamə – mənim həyatımdır». Nə gözəl, nə ali həyat! Şərq isə onda... 1000 il (!) bundan əvvəl, şah Sultan Mahmud Qəznəvi əmr etdi ki, ustadın hər beytinə bir qızıl – cəmi 55000 qızıl pul verilsin. Lakin gecikdi: qızıl yüklü qatırlar Firdövsi yaşadığı şəhərin darvazasından daxil

olarkən, ustadın cənazəsi şəhərin o biri darvazasından çıxarılırdı...

Sesilya Bensianovna, Qərbin dərrakəli qızı, Firdövsi beytlərinə şah Qəznəvidən yüksək qiymət – həyat verdi (Saleh bəy, «Dünyanın taleyi», Bakı, 1998, s. 236-237).

Bir daha tarixi həqiqətlərə müraciət edək. Dahi alim, mütəfəkkir, filosof, həkim Əbu Əli İbn Sina (980–1037) dünya tibb elminin inkişafı tarixində görkəmli yer tutur. Təsadüfi deyil ki, Şərqin və Qərbin orta əsr mənbələrində onun adı Qalenin və Hippokratın adı ilə yanaşı çəkilir. Təbabətə aid «Tibb qanunu» («Qanun əl-tibb») adlı məşhur əsəri ona, həqiqətən, dünya şöhrəti qazandırmışdır. Avropa «Tibb qanunu» əsəri ilə hələ XII əsrdə tanış olmuşdur. O vaxt bu əsər latın dilinə tərcümə edilmiş, əsrlər boyu Avropa, Yaxın və Orta Şərq ölkələri təbiblərinin masaüstü kitabı olmuş və universitetlərin tibb fakültələrində çox qiymətli dərslik kimi istifadə edilmişdir.

İ.V.Göte Azərbaycanın dahi şairi, mütəfəkkiri və filosofu Nizami Gəncəvidən (1141–1209) dünya ədəbiyyatının korifeylərindən biri kimi geniş bəhs etmiş, xüsusilə onun poeziyasının məğzini təşkil edən məhəbbət, kamil, azad insan şəxsiyyəti idealını yüksək qiymətləndirmişdir.

H.Heyne Nizami Gəncəvini Almaniyanın müasiri olduğu ən böyük şairlərindən üstün saymışdır.

Qoca Şərqin tarixindən onlarla belə misallar çəkmək mümkündür.[1]

Azərbaycanın şərqşünas alimi, maarifçi, rus şərqşünaslığının banilərindən biri Mirzə Kazım bəy (1802–1870) Rusiya kimi qüdrətli bir dövlətin başçısı çar II Aleksandrla görüşündə ona xatırlatmışdır ki, «... Şərqlə dost olmaq lazımdır... müsəlmanlarla mehribancasına dolanmaq lazımdır. Böyük Rusiya bu yolla getməlidir... Bəli əlahəzrət...» (Kamal Talıbzadə, «Ədəbiyyat və incəsənət» qəzeti, 24 avqust, 1989)

[1] Bilərəkdən bəzi məqamlar təkrar oluna bilər, bu, fikirlərimizi tam əsaslandırmaq üçün edilib.





«Şərqi öyrənmək lazımdır, bilmək faydalıdır, dərk etmək səadətdir.» (şair-publisist Banu-Lahutti, «İzvestiya» qəzeti, 21 oktyab, 1994)

Şair Məmməd Aslan: «Türk ədəbiyyatı dərgisindən (jurnalından) bir ibrətli yazı oxumuşdum: Adını unutduğum fransız türkoloq qadın bir bəşər övladı kimi mənəvi yöndə itirdiklərimizin fərqinə üzülürcəsinə vararaq Konyaya – Mövlana dərgahına gəlişində sonsuz kövrəklik içində təxminən belə deyirdi ki: «Biz avropalılar maddənin arxasınca getdik, ölümü tapdıq, siz mənanın arxasınca gedib iman tapdınız! Bu imanı itirməyin ki, biz avropalılar bir gün naçarlıqdan əlləri bomboş qalıb qapınıza məna diləməyə gələndə əlinizdə-ovcunuzda bir şey qalmış olsun ki, bizi də naümid şəkildə geri qaytarmayasınız...»» (Osman Nuri Topbaş, Məsnəvi dərgahından «Abi-həyat qətrələri», Bakı, 2007, s. 7)

Beləliklə, bəşəriyyəti fəlakətdən xilas etmək yolunda «Şərqin müdrikliyi» əsas vasitələrdən biridir. Əvvəllər qeyd etdiyimiz kimi, «Şərq müdrikliyi» müsbət «abi-havanın», «Müsbət intellektual sferanın» əmələ gəlməsində əsas, həlledici amildir. Əvvəllər də qarşıya belə sual qoymuşduq: «Nə etməli?» və qeyd etmişdik ki, bu suala alimlər, din xadimləri, ekoloqlar, filosoflar, ictimai xadimlər birlikdə cavab tapmalıdırlar. Bir qisim bu suala elmi, digərləri isə inanc ilə cavab verməyə çalışır. Lakin hər iki tərəfin məqsədi eynidir: bəşəriyyəti istər ümumi və istərsə də intellektual fəlakətdən xilas etmək.

Ey insan! Tanrının sənə bəxş etdiyi təbiəti, bəşəriyyəti qorumaq üçün həm ümumi və həm də intellektual ekologiyanı pozma, mənfiliklərə meyil göstərmə. Bu məqsədlə təklif etmişdik ki, Yer planetində Ümumdünya Ekologiya Təşkilat – ÜDET yaradılsın.[1]

[1] Bax: kitabın 1-ci fəslində və «Son qənaətimiz» bölməsində ÜDET haqda geniş və hərtərəfli məlumat verilib.

Əziz oxucu, artıq XXI yüzillikdə bəşəriyyət anlamalıdır ki, bu qədər yüksək sivilizasiya şəraitində insan daha heyvan instinkti və davranışı ilə yaşaya bilməyəcək. Bu əkslik artıq o həddə çatıb ki, «annihilyasiya» (lat. *annihilatio* – məhvolma) – bəşərin özü-özünü məhv etməsinə gətirib çıxara bilər.

Apardığımız araşdırmalardan belə nəticəyə gəlmək olar ki, bəşəriyyəti, yaşadığımız yer planetini fəlakətdən ağıl – insanın intellekti, elm, inanc və bunların müsbət intellektual sferanı, abi-havanı yaradan amilləri: mənəviyyat, intellektual mədəniyyət, mərhəmət, şəfqət, sevgi, məhəbbət, səxavət, doğruluq... xilas edəcək, vaxt gələcək insanlar bu mənəvi keyfiyyətlərin bərqərar olması uğrunda şüurlu mübarizə aparacaqlar. Planetimizdə müsbət intellektual sferanın, abi-havanın yaranması üçün başqa çıxış yolu yoxdur.

Mənəviyyatımızın nəzəri qaynağı olan Qurani-Kərimdə də diqqət tez-tez bu məsələyə cəlb edilir: «Ağıllı olanlar üçün onda ibrətlər vardır», «Ağlı olan kəslər üçün onda (Kainatda) nələr vardır?», «Hələ ağıllanmadınızmı?» və s. «Sanki Allah bu ağıl adlanan «cihaz»ı unutmamağımızı, ondan istifadə etməmizi dönə-dönə xatırladır, bizi düşünməyə, aldığımız məlumatları təhlil etməyə, doğru nəticəyə gəlməyə istiqamətləndirir.» (F.Əkbərov, N.Camaloğlu).

Heç də təsadüfi deyildir ki, Qurani-Kərimin 6236 ayəsinin mindən çoxu elmin müxtəlif sahələrinə həsr olunub.

İlk surəsi «oxu», «qələm», «öyrətmək» sözləri ilə başlayan Qurani-Kərim elmə böyük qiymət verir, əxlaqlı olmağı insanın ən böyük üstünlüyü hesab edir.

«Bir vaxt Qərb bunu başa düşəcək və müsəlman mənəvi saflığının saxlanmasına qibtə edəcəkdir. Müsəlman dininin misilsiz üstünlüklərindən biri də məhz budur – əxlaqsızlıq, zorakılıq və qanunsuzluq arzuda, yaxud sözdə yox, işdə, həyatda qadağan edilir. Bu isə bütün vicdanlı və təmiz adamlar üçün, ümumiyyətlə, cəmiyyət üçün faydalı və vacibdir.» (Saleh bəy «Dünyanın taleyi», Bakı, 1998, s. 662)

Hörmətli oxucu, bu kitabda sizə təqdim etdiyimiz araşdırmalardan belə nəticəyə gəlirik ki, islam gələcəyin yeganə dininin əsasını təşkil edəcək ən real namizəddir. Qurani-Kərim Allah-Təalanın bəşəriyyət üçün göndərdiyi hidayət çırağıdır, bu nurlu məşəlin dayağı Tanrının son elçisi Məhəmməd peyğəmbərdir (s.).





Fikrimizi əsaslandırmaq üçün bir daha tarixi dəlilə müraciət edək. Əvvəllər qeyd etdiyimiz kimi, Amerika alimi Maykl Hartın «Sıra ilə sadalanan, tarixdə 100 ən əhəmiyyətli şəxsiyyət» kitabında 1-ci yeri Məhəmməd peyğəmbər (s.) tutur. 2-ci yerdə Nyuton, sonra isə İsa, Budda, Konfutsi.., 52-ci yerdə 3-cü xəlifə Ömər ibn əl-Xattabdır. («XXI əsr» jurnalı, 1993, № 1, s. 62 və ya www.fisechko.ru/100vel/ludei)

Yuxarıda qeyd etdiyimiz internet saytından aşağıdakı dörd məlumatı sizə təqdim edirik.

**Məhəmməd peyğəmbər (s.) insanların ən dahisidir.** Kompyuter proqramı bu cür nəticə verib.

Amerika yazıçısı və alimi Maykl Hart bəşər tarixinin ən dahi yüz şəxsiyyətini seçmək və onlar haqda bir kitab tərtib etmək qərarına gəlmişdi. Alim bu şəxsiyyətlərin tərcümeyi-hallarını onların cəmiyyətdəki çəkilərinin dərəcəsindən asılı olaraq yerləşdirməyi düşünmüşdü. Yüz ən dahi insanın seçimində və onların dahilik dərəcəsindən asılı olaraq yerləşdirilməsində qərəzsiz və obyektiv olmaq üçün Maykl Hart öz köməkçiləri ilə kompyuterdən istifadə etmişdir...

Kompyuterə bütün dahi şəxsiyyətlərin bacarıq, qarşılarına qoyduqları məqsəd, təşəbbüs, əldə etdikləri müvəffəqiyyət və bəşər tarixinə göstərdikləri təsirləri barədə məlumatlar yerləşdirilmişdir. Bu məqsədlə Hart öz köməkçiləri ilə bir neçə ay vaxt aparan, çoxlu səbir və diqqət tələb edən bir iş görmüşdür. Kompyuter təhlil və analiz yolu ilə tarixdə ən çox gözəçarpan iz qoymuş yüz adamı təyin etmişdir. İndi isə kompyuter müəyyənləşdirməli idi: kimdir yaxşıların ən yaxşısı?

Hart böyük həyəcanla lazımi düyməni basır və ekranda bu yazı peyda olur: «MƏHƏMMƏD PEYĞƏMBƏR». Hart və həmkarları heyran olurlar. Onlar güman etdirlər ki, haradasa

səhvə yol verilib, və eksperimenti təkrarlamağa çalışırlar. Lakin kompyuter yenə də eyni yazını göstərir: «Məhəmməd peyğəmbər». Kompyuterin cavabı ilə qane olmayan Hart öz köməkçiləri ilə eksperimenti bir neçə dəfə təkrarlayır, kompyuter isə inadla öz təkidində davam edir. Nəticədə alimlər bu faktı qəbul etməyə məcbur olurlar. Eksperimentin nəticələri əsasında Maykl Hart "Tarixin 100 ən dahi adamı" («The Greatest 100 Men in History») kitabını yazır və birinci yerə məhz Məhəmməd peyğəmbərin (s.) adını təsbit edir. Bu kitab ABŞ-da nəşr olunub. Yeri gəlmişkən onu da qeyd edək ki, bu 100 nəfərin arasında İsa peyğəmbər (s.) üçüncü yeri tutur. «The Greatest 100 Men in History» kitabından bir neçə misranı sizlərə təqdim edirik:

«O (Məhəmməd peyğəmbər), bəşər tarixində həm dini, həm də dünyəvi işlərdə ən çox müvəffəqiyyət əldə edən yeganə insan olmuşdur... Hazırda, ölümündən XIV əsr keçməsinə baxmayaraq, bu insanın bütün dünyaya olan təsiri çox böyükdür.»

Qeyd edək ki, dünyanın bir çox dahi və məşhur şəxsiyyətləri sevimli Peyğəmbərimiz (s.) haqqında xoş sözlər söyləmiş, onun bəşər tarixindəki rolunu son dərəcə yüksək qiymətləndirmişlər. Biz burada Peyğəmbərimiz (s.) haqqında söylənilən fikirlərin bir neçəsi ilə əziz oxucularımızı tanış etmək istərdik.

### *Montqomeri*

«Qərb belə şərəfə nail olmuş başqa bir şəxsiyyət tanımır».

«Məhəmməd öz əqidəsi naminə hər cür çətinliklərə hazır idi. Rəhbər olaraq o, təmkinli və sarsılmaz xasiyyətə malik idi. O, insanları yüksək dəyərləndirir və onlara hörmətlə yanaşırdı. Onun dahiliyinin sübutu müvəffəqiyyətlərindədir. Bu Peyğəmbərin (s.) şəxsiyyətinin dahiliyi onun işinin müvəffəqiyyətini təmin edir. Bu insanı şarlatanlıqda ittiham etmək – çıxış yolu deyil, çarəsizlik olardı. Qərb, belə şərəfə nail olmuş başqa bir şəxsiyyət tanımır».





### *Lamartin*

«O, nadir və əvəzolunmaz insan idi...»

«Düşmənlər ona (Məhəmməd peyğəmbərə) təbliğ missiyasından imtina etdiyi təqdirdə yüksək rütbələr, var-dövlət söz vermişdilər. Peyğəmbər (s.) isə bütün fiziki və mənəvi çətinlikləri öz üzərinə götürərək, bunu qəti surətdə rədd etmişdir. Bir an belə öz işindən çəkinməmişdir. O, cəmiyyətdə nifaq və inamsızlığı yayaraq Allahın adının mahiyyətini alçaldan qüvvələr qarşısında sarsılmaz qala kimi dayanmışdı. Məhəmməd peyğəmbər (s.) o dərəcədə nadir və əvəzolunmaz şəxsiyyət olmuşdur ki, bir çox gözəl şair və natiqlər, o cümlədən onun müasirləri Allahın elçisini təsdiq etməyə məcbur olmuşdular. Ondan əvvəl heç kim Quranda təsvir olunan təbii amil və hadisələrə toxunmamışdır. Hakimiyyət və qüdrətə malik olduqdan sonra nə üçün o, yoxsulluqda yaşamağa və müsibətlərə dözməyə davam edirdi?.. Görəsən, onun dahiliyi müqayisə oluna bilərmi? Həqiqətən də Məhəmməd (s.) dünya yarandıqdan bəri müxtəlif dövrlərdə göndərilən peyğəmbərlərin ən sonuncusudur. Bu şəxsiyyət qarşısına çox böyük məqsədlər qoymuş və cüzi imkanların sayəsində möhtəşəm nəticələrə nail olmuşdur. Belə olduqda onu kiminlə müqayisə etmək olar? Biz elə tanınmış sərkərdələr, dövlət xadimləri və nəhəng imperiyaların hökmdarlarını tanıyırıq ki, onlar ağlasığmaz dağıdıcı qüvvələrə malik olmuşdular. Bəs Məhəmməd peyğəmbər (s.) necə? O, böyük ordular, imperiyalar və qayda-qanunları hərəkətə gətirmək ilə kifayətlənmədi. Bütün planetin üçdə bir hissəsindən çoxu onun ardınca getdi. Möhkəm iradəsi, böyük ideyalar naminə son dərəcə fədakarlığı, yüksək rütbə və taxt-tac qarşısında tamahsılanmamağı, Allahla olan dialoqu, ölümü və işinin zəfər yürüşü bu şəxsiyyətin və onun ideyalarının gücünü təsdiq edən faktlardır. Peyğəmbər, filosof, natiq, qanunverici, mübariz, qəlblərin hamisi, ideyalara yenilik

gətirən, imam, dövlət xadimi, Yer kürəsinin iyirmi bölgəsində mənəvi imperiyaların yaradıcısı – budur Məhəmməd (s.)! Hansı dahi insanla onu müqayisə etmək olar?..»

*Bernard Şou*

«Mən Məhəmmədin (s.) dininin gələcəyi barədə xəbər vermişdim ki, sabahkı Avropa onu qəbul edəcək və müasir Avropa artıq bu dini qəbul etməyə başlayıb...»

«Əgər hansısa bir dinin İngiltərə, bəlkə də elə bütün Avropanı qarşıdakı 100 ildə idarə etmək şansı olsaydı – bu yalnız İslam dini ola bilərdi. Məhəmmədin (s.) dininə yüksək əhəmiyyəti və aktuallığına görə hər zaman böyük hörmətlə yanaşmışam. Mənim fikrimcə, bu, yeganə dindir ki, həyatın dəyişkən şəraitlərinə uyğunlaşma qabiliyyətinə malikdir. Bu da, şübhəsiz ki, hər yaşda olan insanın xoşuna gəlir. Məhəmməd peyğəmbərin (s.) həyatını tədqiq etmişəm; düşünürəm ki, o, çox qeyri-adi bir insandır, qətiyyən antixrist deyil, əksinə, onu bəşəriyyətin xilaskarı adlandırmaq olar. Müasir dünyada belə bir insana hökmranlıq ixtiyarı verilsəydi, o, dünyanın problemlərini elə həll edə bilərdi ki, bu qərarlar insanların arzu olunan əmin-amanlıq və səadətini təmin etmiş olardı».

Dahi şairimiz Nizami Gəncəvinin «İsgəndərnamə»sində Məhəmməd peyğəmbərə (s.) həsr etdiyi bir neçə beyti nəzərinizə çatdırmaq istərdik:

Davuddan yadigar tək bir zireh var,
Məhəmməd yüz zireh qoyub yadigar.

İnsanın beşiyi göyə qovuşdu,
Məhəmmədsə özü göylərə uçdu.
Tur dağı Musaya oldusa eyvan,
Məhəmmədin qəsri yarandı nurdan.





# İslam haqq yoluna çağırışdır. Şəxsiyyətlərin dediklərindən

Vaxtilə qədim yunan alimi Arximed (e.ə. 287–212): «Mənə dayaq nöqtəsi ver, mən Yeri tərpədim» – demişdisə, müasir dövrdə alimlər Yer planetinin yerindən tərpənməsinin, onun məhv olmasının qarşısını almaq haqqında fikirləşməli olublar.

Arximed o zaman dayaq nöqtəsi tapmadı, Allah-Təala isə Yeri və bəşəriyyəti qorumaq üçün dayaq nöqtəsi olaraq Qurani-Kərimi göndərdi.

*Müəlliflər.*

Din Yer planetində yaşamış və yaşayan insanların həyatında mühüm rol oynamışdır, bu təsir bəşərin gələcək tarixində də öz təsirini göstərəcəkdir. Müasir dünyada çox sayda müstəqil dini birliklər olsa da, mahiyyətinin dərinliyi və genişliyi baxımından üç cahanşümul din mövcuddur: Xristian, Buddizm və İslam. Din insanların mənəvi birliyi olub, cəmiyyətdə və məişətdə rolu danılmazdır.

Arif Hüseynovun «Dünya dinləri» məqaləsindən bəzi məqamları diqqətinizə çatdırmaq istərdik: «Dini mənsubiyyətin öyrənilməsi dünyanın ayrı-ayrı regionlarının iqtisadi və sosial coğrafiyasının xüsusiyyətlərinin dərindən anlaşılmasına yardım göstərir. Dinlərin coğrafiyası bütövlükdə dünya sivilizasiyasının, ayrı-ayrı ölkələrin və xalqların mənəvi mədəniyyətinin inkişafı ilə əlaqədar mürəkkəb prosesləri özündə əks etdirir...

Dindarların sayına görə, ən böyük müsəlman ölkələrindən biri İndoneziyadır. Həmin ölkədə 150 milyona yaxın müsəlman yaşayır...

İslamın coğrafiyası xristianlıqla müqayisədə daha yığcam xarakterlidir. İslam dövlətləri, əsasən, Ön və Orta Şərqdə yerlə-

şir. Lakin İslam dini ərəb istilaçılarının gedib çıxmadıqları ölkələrdə də, məsələn, İndoneziyada, Malayziyada, Afrika ölkələrində, Tatarıstanda, Başqırdıstanda və digər ölkə və regionlarda da yayılmışdır. Onu da demək yerinə düşər ki, İndoneziyada əhalinin 90%-i, Malayziyada 60%-i İslam dininə etiqad edir.

Yer kürəsində 1990-cı ildən bəri müsəlmanların sayı 880 milyondan artaraq 1,5 milyard nəfərə çatmışdır (mətbuatın son 2009-cu il məlumatlarına görə, Yer kürəsində 2 milyarddan çox müsəlman yaşayır – *Ə.M., Z.H.*). Deməli, bu, ən yüksək sürətlə artan dünya dinidir. Avropada, əsasən də Fransada müsəlmanların sayı durmadan artmaqdadır.

Asiyada 850 milyon müsəlman yaşayır. Afrikadakı müsəlmanların sayı 400 milyon nəfərdir. Avropada 50 milyon, Amerikada 9 milyon, o cümlədən ABŞ-da 5 milyon müsəlman yaşayır. Müsəlmanların sayı Avstraliya və Okeaniyada 1 milyon nəfərdir.»

Albaniya, Bosniya və Hersoqovinada və qismən Asiyada yerləşən Türkiyə kimi Avropa ölkələrində əhalinin böyük əksəriyyətini müsəlmanlar təşkil edirlər. Avropa ölkələri arasında Rusiya müsəlmanların sayına görə (14 milyon) rekordçudur («Azərbaycan» qəzeti, 21 iyun 2009).

2009-cu il iyun ayının əvvəllərində ABŞ Prezidenti Barak Obama Yaxın Şərqə rəsmi səfəri ərəfəsində Fransanın Canal+ telekanalına verdiyi müsahibədə demişdir ki, ABŞ dünyada ən böyük İslam ölkələrindən biridir. Bəyanat bəzi qəzetçilərin təəccübünə səbəb olsa da, Prezidentin müvafiq kəlamlarını təkzib etməyə çalışmamışlar...

Barak Obama onu da demişdi ki, ABŞ və bütövlükdə, Qərb ölkələri islamla yaxından tanış olmalıdır. Prezidentin fikrincə, bu, xalqlar arasında dialoqun yaxşılaşmasına gətirib çıxara bilər.

Bir sıra Avropa və Amerika alimlərinin konsepsiyasına görə, müsəlman dininin dirçəlişi, İslamın Şərq xalqlarının iqtisadi, siyasi, mənəvi həyatında rolunun kəskin şəkildə artmasının





səbəbi aşağıdakılardır: İslamın cavanlığı, müsəlman dininin həyatiliyi və çevikliyi, totallığı (ümumiliyi), sadəliyi, anlaşıqlığı, fanatizmi və döyüşkən xarakterliliyi, peyğəmbərliyin sonuclanması ideyası, müsəlman şəxsiyyətinin mötəbərliyi.

Müsəlman dini digər dini sistemlərdən xeyli sonra meydana gəlmişdir və buna görə də həyata keçirə biləcəyi imkanları tükənməzdir. İslam həmişə tərəqqidə olduğu üçün müasir dünyamızda fəal rol oynayır.

İslamın həyatiliyi, bir çox Qərb mütəxəssislərinin fikrinə görə, Şərq ölkələrinin uzun müddət müstəmləkə əsarətində qalmasına baxmayaraq, öz mövqeyindən çəkilməməsidir. Onun çevikliyi vaxtı yetişmiş problemlərin gecikdirilmədən həllinə maneə törədə biləcək mərkəzləşdirilmiş ruhani təşkilatının yoxluğu ilə əlaqədardır.

İslamın totallığı dedikdə, Qərb alimləri dindarların həyat fəaliyyətinin bütün sferalarında İslam dininin oynadığı müsbət rolu başa düşürlər. Bu, təkcə din deil, həm də iqtisadi və sosial qurumdur, idarəetmədir, ailədir, məişətdir. Müsəlman hüquq kodeksi olan Şəriət həm hüquqi, həm də əxlaqi münasibətləri müəyyənləşdirir. Bütün bunlar İslamın sağlam həyat tərzinin, yəni adamların dünyagörüşünün və davranışının tənzimləyicisi kimi də ciddi rolundan xəbər verir.

Məhəmməd peyğəmbər (s.) Allahın yer üzündəki axırıncı elçisidir və bəşəriyyətə əsl həqiqətləri o çatdırmışdır. Bütün dünya müsəlmanları eyni hüquqludur. Buna görə də müsəlmanlar yaşadıqları ölkələrdən asılı olmayaraq bir-birlərinə məslək qardaşlığı münasibətləri bəsləyirlər.

Hörmətli oxucu, dünyanın məşhur alimləri, filosofları, mütəfəkkirləri və dövlət xadimləri islam dini, o cümlədən Qurani-Kərim haqqında çox qiymətli sözlər demişlər. Bu qiymətli kəlamların çoxu tanınmış türk filosofu, islam alimi Harun Yəhyanın «Quran möcüzələri» kitabında öz əksini tapmışdır. Onlardan bir neçəsini sizə təqdim etmək qərarına gəldik:

Ərəb dili mütəxəssisi Hamilton Qibb: «Quran nəhəng bir ədəbi abidə olaraq təkbaşına dayanır. Ərəb ədəbiyyatının bən-

zərsiz bir məhsuludur. Sələfi və xələfi yoxdur.»

Edvard Montetin «Quranın fransız dilində tərcüməsi» kitabından: «Ərəb dilindəki Qurana aşina olan hər kəs bu dini kitabın gözəlliyini öymək məsələsində həmfikirdir: içindəki əzəməti o qədər üstündür ki, bu kitab hər hansı bir Avropa dilinə tərcümə ediləndə, lazımi qədər təqdir edilə bilər.»

Con Neyşinin «Quranın hikməti» kitabından: «Orijinal ərəbcədəki Quran insanı hərəkətləndirib şövqə gətirən bir gözəlliyə və cazibəyə malikdir.»

Corc Seylinin «Quran: ilkin mübarizə» kitabından: «Quranın üslubu gözəl və axıcıdır... və bir çox yerlərdə, xüsusilə də Allahın əzəməti və xüsusiyyətləri tərif ediləndə uca və görəmlidir...»

Alfred Quillamenin «İslamiyyət» kitabından: «Quran seçkin gözəllikdə qafiyə və qulağı sehrləyən ahəngə malikdir... Həqiqətən də, həm nəzmdə, həm də nəsrdə dərin və məhsuldar olan ərəb ədəbiyyatının içində onunla müqayisə ediləcək heç bir şey yoxdur.»

Laira Vesi Baqliyerin «İslamiyyət adına bir açıqlama» kitabından: «Bütövlükdə Quranda ən zəkalı insanların, ən böyük filosofların və ən qabiliyyətli siyasətçilərin bizə verə biləcəyi bir ağıl kolleksiyası tapırıq. Lakin Quranın ilahiliyinin başqa bir sübutu da var: onun vəhy edildiyi gündən bu günə qədər, əsrlər boyunca pozulmadan qorunması... Bu kitab hər şeydən əvvəl Allahın kitabıdır...»

Con Uilyam Draperin «Avropanın intellektual tarixinin inkişafı» kitabından: «Quran özündə mükəmməl əxlaqi tövsiyələri ehtiva edir... Orada bütün insanların təsdiq etməsi lazım gələn hikmətlər tapmadan tək bir səhifəsini də keçə bilmirik...»

Məşhur fransız ziyalısı Edvard Montet: «Quran başlanğıc nöqtəsi olaraq özünün dəyişməyən yerini qorumuşdur... nəticə olaraq sadə bir üsluba malik olan Quran insanların vicdanını hərəkətə gətirməyə yönəlik üstün bir gücə də sahibdir.»

Əziz Bosvort Smitin «Muhəmməd və muhəmmədçilik» kitabından: «... Həm qorunması, həm də mahiyyəti etibarilə tamamilə bənzərsiz bir kitab var: haqqında heç kimin ciddi bir şübhə yaratmağı bacarmadığı həqiqi bir nüfuz sahibi...»





Ceyms Miçnerin «İslam: yalnız başa düşülən din» kitabından: «Quran vicdan azadlığını açıq bir şəkildə dəstəkləyir...»

Sarojini Naidunun «Danışıq və yazıları» kitabında qeyd edilən «İslamın idealları» mövzusundakı konfransdan: «...Ədalət anlayışı islamın möhtəşəm əsaslarından biridir, çünki Quranı oxuyanda həyatın bu dinamik prinsiplərini görürəm: bunlar mistika deyil, əksinə, bütün dünyaya uyğun olan, həyatın gündəlik formasına uyğun gələn praktik əxlaq sistemini görürəm.»

Professor Hartviq Hirsfeldin «Quranın quruluşu və təfsiri üzərinə hazırlanan yeni araşdırmalar» kitabından: «Quranı bir mənbə, elmlərin başı olaraq qəbul etmək bizi çaşdırmamalıdır... Quran, həmçinin tibbi çalışmalara da diqqət vermiş, ümumi olaraq təbiət üzərində fikirləşməyi və işləməyi tövsiyə etmişdir.»

Y.Marqolinin «Quran» kitabından: «Quran dünyanın böyük ilahi kitabları arasında mühüm yer tutur... Quran insan düşüncəsində yeni bir dövr, təzə və özünəməxsus bir nizam yaratmışdır...»

T.P.Hyutsun «İslam lüğəti» kitabından: «...Hər dəfə əlimizə alanda qısa bir müddət ərzində bizi cəlb edən, heyrətdən donduran və axırda qarşısında əyiləcək qədər heyran edən bir əsərdir...»

T.V.N.Pirsad, ABŞ, Monitova Universitetinin professoru: «...Quranda çoxlu həqiqət var və dr. Mur (Moore) kimi, mən də bu açıqlamaları etdirənin ilahi ilham olması məsələsinə inanmaqda qəti olaraq çətinlik çəkmirəm.»

Co.L.Simpson, ginekologiya, molekulyar və insan genetikası üzrə professor: «...Məncə, genetika ilə din arasında heç bir ziddiyyət yoxdur, əksinə, bəzi ənənəvi elmi məsələlərə vəhy əlavə edərək elmi istiqamətləndirə bilər ki, bunlar da Quranda mövcud olan sözlərdir. Əsrlərdən sonra qüvvədə qaldığı göstə-

rilmişdir və Qurandakı bu məlumatın dəstəyi Allahdır.»

E.Marşal Conson Tomas, ABŞ, Ceferson Universitetinin anatomiya və *inkişaf edən biologiya üzrə professoru: «Bir elm* adamı olaraq yalnız qəti şəkildə gördüyüm konkret şeylərlə maraqlana bilərəm. Embriologiya və inkişaf biologiyasını başa düşə bilirəm... Əgər özümü o əsrə apara bilsəydim, bu gün bildiklərimlə və tərifini verə bildiklərimlə o vaxt tərif edilmiş olan şeyləri ifadə edə bilməzdim... Elə isə Quranda yazılan hər şeyin ilahi müdaxilənin olması fikrində heç bir ziddiyyət görmürəm.»

Cerald K.Qoringer, ABŞ, Corctaun Universitetinin tibbi embriologiya üzrə dosenti: «Bəzi ayələr (Quran ayəsi) insanın inkişafının, hüceyrənin bölünməsindən əzaların yaradılmasına qədər çox əhatəli izahını verir. İnsanın inkişafı prosesinin bütün mərhələləri ilə, terminologiyası və açıqlanması ilə belə aydın və qüsursuz qeyd edilməsi əvvəllər mövcud olmamışdı... Əksər hallarda bu açıqlama ənənəvi elmi ədəbiyyatda qeyd edilmiş insan embrionunun və insan dölünün inkişafının çoxlu mərhələsini əsrlərlə əvvəldən bildirir.»

Keyt L.Mur, Kanada, Toronto Universitetinin anatomiya və hüceyrə biologiyası professoru, tanınmış embrioloq: «Quran və sünnədəki ifadələrdən istifadə olunaraq yeni bir təsnifat sistemi təklif edilmişdir. Təklif edilən sistem sadədir, çox əhatəlidir və günümüzdəki embriologiya məlumatları ilə tam uyğun gəlir.»

«Son dörd ildə Quranla və hədislərlə bağlı aparılan gərgin çalışmalar nəticəsində insan embrionunu hissələrə ayıran yeni bir sistem ortaya çıxmışdır ki, bu da bizim eranın VII əsrində qeyd edildiyi üçün çox təəccübləndiricidir.»

Alfred Kroner, Almaniya, Mayants Universitetinin geologiya professoru, dünyanın ən məşhur geoloqlarından biri: «Kainatın ortaq mənşəyi kimi məsələləri bilməyimin imkan xaricində olduğunu fikirləşirəm, çünki alimlər bunu son dərəcə inkişaf etmiş texnoloji üsullardan istifadə edərək axırıncı bir neçə il ərzində tapa biliblər... 1400 il əvvəl nüvə fizikası haqqında heç nə bilməyən bir adam, məsələn, Yer üzünün və göy üzünün eyni mənbədən gəldiyini və ya burada müzakirə etdiyimiz başqa sualların cavablarını özü tapa bilməz.

Bütün bunları birləşdirib bir yerə yığsanız və Quranda dunya haqqındakı mövzulara dünyanın əmələ gəlməsi ilə, ümumən elmlə əlaqəli bütün bu ifadələri birləşdirsəniz, əksər hallarda burada açıqlanmış ifadələrin qəti olaraq düzgün olduğunu və indi bunların elmi üsullarla təsdiq edildiyini söyləyə bilərsiniz. Quranda qeyd edilən ifadələrin əksəriyyəti həmin dövr üçün hələ sübut edilməmişdi, lakin müasir elmi üsullar indi Həzrət Məhəmmədin (s.) 1400 il əvvəl söylədiklərini sübut edən bir səviyyədədir.»

Yaşihid Kotsay, Yaponiya, Tokio Rəsədxanasının direktoru: «Quranda düzgün astronomik həqiqətləri tapdığım üçün çox təsirləndiyimi söyləyə bilərəm. Bunu xüsusilə *bizim kimi* kainatın ən kiçik hissələrini incələyən müasir astronomlar üçün deyə bilərəm. Ən xırda hissəni də başa düşmək üçün bütün səylərimizi səfərbər edirik. Çünki teleskoplardan istifadə edərək və bütün kainat haqqında düşünməyərək yalnız göy üzünün ən kiçik hissələrini görə bilirik. Elə isə Quranı oxuyaraq və suallara Quranda cavab taparaq kainat tədqiqatlarım üçün gələcək istiqamətimi fikirləşirəm.»

Durja Rao, Səudiyyə Ərəbistanı, Ciddə, Kral Əbdüləziz Universitetinin dəniz geologiyası professoru: «Belə bir məlumatın hələ o vaxt, yəni 1400 il əvvəl mövcud olduğunu təsəvvür etmək də çətindir. Bəlkə bəzi şeylər bəsit bir fikir şəklində mövcud ola bilərdi, ancaq bunları çox müfəssəl bir şəkildə izah edə bilmək çox müşküldür. Elə isə bu məlumatlar fövqəltəbii bir mənbədən gəlmiş olmalıdır, deyə fikirləşirəm.»

Teyasat Teyasen, Tailand, Çianç Mey Universitetinin embriologiya və anatomiya kafedrasının müdiri: «Mən inanıram ki, Quranda 1400 il əvvəl ifadə edilmiş hər şey doğrudur və elmi yollarla sübut edilmişdir... Bu, bütün elmləri bilən Allahın ilhamıdır. Beləliklə, bunu deməyin vaxtı gəlmişdir: «Allahdan başqa Tanrı yoxdu, və Həzrət Məhəmməd Onun elçisidir.»

Juli Samson, ginekologiya professoru: «Quran bir neçə əsr əvvəl gəlmiş və biz nə kəşf etmişiksə, onu əvvəlcədən təsdiq etmişdir. Bu o deməkdir ki, Quran Allahın sözüdür.»

Palmar, ABŞ-ın geologiya sahəsində tanınmış alimlərindən: «Bu kitab (Quran) keçmişdən, yaxın dövrdən və gələcəkdən bəhs edir. Həzrət Məhəmmədin (s.) dövründə insanların mədəni səviyyəsini bilmirəm və elmi səviyyələrindən də xəbərim yoxdur. Əgər bu, keçmiş dövrdə bildiyimiz aşağı elm səviyyəsi isə və texnologiya da yoxdursa, heç şübhə yoxdur ki, bu günlərimizdə Quranda nə oxusaq, hamısı Allahın işidir.»

Darqa Bernard Rau, okean geologiyası professoru: «Quranda okean elmi və geologiyası haqqında edilən məlumatın 1400 il əvvəlki dövrdə bilindiyini qəbul etmək çox çətindir. Bəzi şeylər ümumi fikirləri ehtiva edir. Ancaq belə müfəssəl və geniş açıqlama vermək çox çətindir. Buna görə də bu, qətiyyən təkcə insan elmi ola bilməz. Hər hansı bir insan bu mühüm məsələləri bu qədər müfəssəl şəkildə izah edə bilməz. Elə isə insanın gücü üzərində fövqəltəbii bir gücün olduğunu fikirləşirəm. Belə dəqiq məlumat fövqəladə bir mənbədən gəlmişdir.»

Yusif İslam (Kət Stevens) keçmiş ingilis estrada ulduzu: «Mən Quranı daha çox oxuyanda duadan, yaxşılıqdan və köməkdən bəhs edilirdi. O vaxtlar hələ müsəlman olmamışdım, ancaq mənim üçün yeganə cavabın Quran olduğunu və Quranı Allahın göndərdiyini başa düşdüm.»

Əli Salman Beroist, fransız alimi, tibb elmləri doktoru: «Mənim öz dinimi dəyişdirərək islamı seçməyimin ən mühüm səbəblərindən biri Qurandır. Mən İslam dinini seçməmişdən əvvəl, Quran üzərində çalışmağa başladım... XIII əsrdən də artıq bir zamanda vəhy edilmiş bu kitabda – Quranda müasir elmi tədqiqatların əksəriyyətinin ehtiva etdiyi fikirləri tam mənası ilə özündə toplayan ayələr var. Bu, qəti olaraq, mənim dinimi dəyişməyimə səbəb oldu.»

Saifudin Dirk Uolter Mosiq: «Mən bütün dinlərin müqəddəs kitablarını oxudum, İslamda rast gəldiyim şeyi – mükəmməlliyi isə heç birində tapa bilmədim. Quran başqa oxuduğum mətnlərlə müqayisə ediləndə, bir kibritin işığı ilə müqayisə edilən bir günəş kimidir. Qəti olaraq inanıram ki, gerçəklərə tamamilə qapalı olmayan bir ağılla Allahın sözlərini oxuyan hər kəs müsəlman olacaqdır.»

Məşhur teoloq Con Esposito, ABŞ: «Quranı güclü edən məsələlərdən biri də budur ki, bir müsəlman və ya hər hansı bir insan Quranı əlinə götürüb hər hansı bir səhifəsini açıb oxuyanda, həyatla bağlı olması lazım olan mesajı alır.»

Fransa imperatoru Napoleon Bonapart: «Dünyadakı bütün alim və mütəfəkkirləri bir yerə yığaraq tək bir vasitə olan Quranın prinsiplərinə əsaslanan müştərək bir rejim quracağım dövrün çox yaxın olduğuna ümid edirəm.»

İngiltərənin sabiq baş naziri Toni Bleyer: «Quran mənə ilham verdi... Quranın dilimizə tərcümə edilmiş formasını oxudum. İslam haqqında əsərlər də oxuyuram. Və bundan çox zövq alıram. Quran haqqında əvvəlcə bilmədiyim və xristianları da çox maraqlandırdığını düşündüyüm çox şeyləri öyrəndim.»

ABŞ-ın sabiq prezidenti Bill Klinton: «Mənim qızım litsey şagirdi olarkən İslam tarixi dərsi almış və Quranın əksər hissəsini oxumuşdur. Hətta məktəbdən gələndən sonra bizi də bu məsələdə maarifləndirir və bizə suallar verirdi...»

ABŞ-nın keçmiş Prezidenti Corc Buş: «Quran aldığım ən gözəl hədiyyədir.»

Başqa mənbələrdən: Orta Asiya və Qazaxıstan Müsəlmanları Ruhani İdarəsinin sədri, SSRİ Ali Sovetinin deputatı, müfti Məhəmədsadıx Məhəmmədyusif demişdir: «Mərhəmət və şəfqət İslamın insan və ətraf mühitə əsas münasibəti kimi qəbul olunmuşdur... Heç təsadüfi deyildir ki, müsəlmanlarda iş günü rəhmliyə və mərhəmətə çağırışla başlayır. Bu bizim dinin ən gözəl xüsusiyyətlərindən biridir. Biz nəinki bir-birimizə qarşı, həm də bütün bəşəriyyətə qarşı, təbiətə, heyvanlara və bitki aləminə qarşı da mərhəmətli və rəhmli olmağa çağırırıq. İnsanı Allah yaradıb, Qurana görə o, yerdə Allahın əvəzidir. Və Allah göstərir ki, biz insanı xeyirxahlığa çağırmalıyıq.»

(«Литературная газета», 13 sentyabr, 1989)

V.F.Panova 1967-ci ildən Məhəmməd peyğəmbərin (s.) həyatı haqqında kitab üzərində işləməyə başlayarkən, «Görkəmli adamların həyatı» seriyasının baş redaktoru U.N.Korofkova göndərdiyi məktubda yazmışdır: «Bu adamın (Məhəmməd peyğəmbər (s.) – *Ə.M., Z.H.*) həyatı çox parlaq olmuş və geniş oxucu kütləsinə az məlum olan bir şəraitdə keçmişdir. Onun özündən sonra gələn nəsillərə təsiri isə həddindən artıqdır. Yəqin ki, L.N.Tolstoyun da bu adamın həyatını təsvir etmək istədiyini unutmamısınız.» («Elm və həyat» jurnalı, № 4, 1989)

Bu deyilənlərə general-topoqraf İbrahimağa Vəkilovun həyat yoldaşı Yelena Yefimovnanın oğlanları Boris və Qlebin İslam dinini qəbul etmək istədikləri münasibətilə məsləhət alması gözəl bir misaldır. Bu münasibətlə L.N.Tolstoy Yelena Yefimovnaya yazır: «Müsəlmançılığın pravoslav qarşısındakı üstünlüyünə və xüsusilə Sizin övladlarınızın xidmət etdikləri məqsədin alicənablığına gəlincə, onların hərəkətlərinə bütün qəlbimlə rəğbət bəsləyirəm. Xristian idealı və təlimini, sözün həqiqi mənasında, hər şeydən üstün tutan bir adam üçün bunu demək nə qədər qəribə olsa da, deməliyəm ki, müsəlmançılığın müqayisəolunmaz dərəcədə yüksəkdə durması məndə heç bir şübhə doğurmur.» («Azərbaycan gəncləri» qəzeti, 10 avqust, 1989)

Məlumata görə, L.N.Tolstoyun məktubu İbrahimağa və Yelena Vəkilovlar ailəsində qanun kimi qəbul edilir və Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin məsləhəti ilə hətta uşaqların adları da dəyişdirilir: Boris – Fariz, Qleb – Qalib olur.

Tarixşünas alimlər V.Klyuçnikov, N.Petrov «İslamla üzüzə» məqaləsində İslam dininin insan cəmiyyətində olan mütərəqqi mövqeyindən bəhs edərək yazırlar: «Biz İslama necə yanaşmalıyıq? Cavab yalnız bir olmalıdır: hörmətlə! Ən azı ona görə ki, bu, təkcə din deyil, bizim qonşumuzun, hətta yaxın qohumumuzun həyat tərzidir. İslam müsəlmanlar üçün, sadəcə, milli özünəməxsusluq deyil, həm də onların milli mədəniyyətlərinin əhəmiyyətli bir hissəsidir... Onun dünya mədəniyyətinə bəxş etdiyi sərvət olduqca böyükdür. Bu sistemdə tərbiyə olunan İbn Sina, Uluqbəy, Biruni, Nizami, Ömər Xəyyam, Rudəki, Nəvai, Əl Əfqani və digər dahi mütəfəkkirlərin adları dünya mədəniyyəti kəhkəşanında ən böyük ədəbi ulduzlar kimi parlayır... Qətiyyətlə demək olar ki, elmi-texniki və sosial inkişaf sahəsində Avropanın yüz illər boyu keçdiyi yolu İslam dünyası son bir neçə onillikdə etmişdir... Müsəlman ölkələrində olmuş, orada yaşamış adamların, demək olar ki, hamısı qeyd edir ki, bu ölkələrdəki ailədə sosial gərginlik yoxdur və bunun səbəbi, hər şeydən əvvəl ondadır ki, orada ailə, deyək ki, bizim savadlı ölkəmizdən fərqli olaraq, daha saf, daha təbiidir. Ailənin hər üzvü öz funksiyasını dəqiq bilir və vəzifəsini yerinə yetirir. Bu işdə ona İslam ənənələri kömək edir.» («Komsomolskaya pravda» qəzeti, 6 may, 1989)

Orta Asiya və Qazaxıstan Müsəlmanları Ruhani İdarəsinin keçmiş sədri Ş.Babaxanov deyir: «Bir müfti kimi, bir din xadimi kimi bütün məsuliyyətlə bildirirəm: «Sovet müsəlmanları, cəmiyyətin sağlamlaşdırılmasına yönəldilmiş bütün xeyirxah işlərdə iştirak etməyə həmişə hazırdırlar. Quranın – «Xeyirlə əlbir çalışan və heç vaxt şərlə əlbir çalışmayan» prinsipinə əməl edərək biz həm mənəvi, həm də maddi cəhətdən insanların xeyri üçün başlanılan hər bir işə kömək edə bilərik.» («Medisinskaya qazeta», 23 noyabr, 1989)

Moskvada yaşamış həmyerlimiz, tanınmış yazıçı Çingiz Hüseynov «Xalqın dinə qayıdışına necə baxırsınız?» – sualına belə cavab vermişdir: «...bizim tariximiz dinin tarixi ilə bağlıdır. Həyat tərziylə, mədəniyyətlə, başqa millətlərlə əlaqə məsələsiylə bağlı cəhətlərdə din lazımdır. Mən «Fətəli fəthi»ni yazanda Qurandan çox istifadə etmişəm. Bunun üçün rusca, türkcə kitabları tutuşdurub tərcümə etmişəm. Və belə hesab edirəm ki, heç olmasa, mədəniyyət naminə dini bilməli, dinlər tarixini öyrənməliyik.» («Azərbaycan gəncləri» qəzeti, 2 fevral, 1989)

Qırğızıstan Yazıçılar İttifaqının sədri və SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi olmuş, Ümumdünya Elm və İncəsənət Akademiyasının həqiqi üzvü, Avropa İncəsənət və Ədəbiyyat Akademiyası Rəyasət Heyətinin üzvü, Beynəlxalq «İssıkkul forumu»nun prezidenti, «İnostrannaya literatura» jurnalının baş redaktoru kimi vəzifələrdə çalışmış Çingiz Aytmatov demişdir: «... uzun illər iki ifşa obyektimiz olub. Biri ruhanilər, o biri ticarətçilər. Yenidənqurma və demokratiya gözümüzü açdı. Gördük ki, yanılmışıq. Rusiyada xristianlığın minillik bayramı sübut elədi ki, etiqad inkişafa əngəl ola bilməz, İslam dini də həmçinin.» («Azərbaycan gəncləri» qəzeti, 1 yanvar, 1989)

İslam haqqında Lev Tolstoy öz fikrini belə bildirmişdir: «İslam özünün zahiri formalarına görə kilsə pravoslavlığından müqayisəyə gəlməyəcək dərəcədə yüksəkdə durur. Əgər xristian etiqadlı şəxs qarşısında məsələ qoyulsa ki, kilsə pravoslavlığının dalınca getmək, yaxud İslamı seçmək yaxşıdır, ağıllı adam, əlbəttə ki, Məhəmmədin (s.) dinini seçməyə üstünlük verər. Çünki İslamda əsas ehkam bir olan Allah və onun Peyğəmbəridir. Xristian dinində isə üç üqnum (troitsa), günahı təmizləmə, dini mərasimlər, övliyalara və onların rəsmlərinə təzimlər və digər mürəkkəb ibadətlər çox çətin və anlaşılmaz məqamlardır». Böyük ədib, onun mühitində yaşayan adamlara xitabən demişdir ki, «əgər mənə xeyirxah Məhəmməd (s.) dininə mənsub adam kimi baxsanız, onda hər şey yaxşı olar.»

Almaniya imperiyasının (reyxinin) birinci kansleri Otto fon Bismark (1815–1898) İslamın banisi Məhəmməd peyğəmbər (s.) haqqında demişdir: «Ay Məhəmməd! Sənin müasirin olmadığıma görə kədərlənirəm. Bəşəriyyət ancaq bir dəfə sənin böyük gücünün sahibi olmuşdur və onu bir daha görməyəcək. Sənə heyran qalmışam.»

Görkəmli ingilis yazıçısı Corc Bernard Şounun da fikirləri diqqətçəkəndir. O demişdir: «Əgər Məhəmməd (s.) kimi bir adama indiki dünyanı təkbaşına idarə etmək imkanı verilsəydi,





onun bütün problemlərinin həllini bacarardı, nəticədə dünyada əmin-amanlıq və xoşbəxtlik hökm sürərdi.»

Böyük rus mütəfəkkiri və publisisti Pyotr Yakovleviç Caadayev İslamı yüksək dəyərləndirmişdir. O demişdir: «İslam qanunun çox yaxşı təzahürlərindən biridir. Məhəmməd (s.) insanların müqayisəolunmaz dərəcədə yüksək ehtimadını qazanmışdır. Çünki o, insanların qəlbinə möhkəm inam sala bilmişdir, insanları həmişə birliyə çağırmışdır. Bu keyfiyyətlər heç bir müdrikə müyəssər olmamışdır.»

Məryəm Selcanın «İlahi möcüzələr» adli kitabından (1- 2-ci c.): «1776-cı ildə anadan olmuş İsveç gimnastikasının banisi kimi tarixə düşən Per Henrix Linqin ilk diqqətini çəkən namaz və dəstəmaz əsnasında yerinə yetirilən hərəkətlər oldu. Tez-tez namaz qılan müsəlmanları seyr etməyə gedən Linq bir müddət sonra bu hərəkətlərin cazibəsinə heyran olmuş və yalnız idman məqsədilə bir ay ərzində namaz hərəkətlərini təkrar etmişdir. Bu gün bütün ölkələrdə tətbiq edilən gimnastika hərəkətlərinin əsasını Henrix Linqin namaz hərəkətlərindən ilham alaraq qurduğu hərəkətlər təşkil edir. Fiziki müalicələrdə də eyni hərəkətlər etdirilir. Bu cür müalicə üsullarına diqqət yetirən vicdanlı insanlar İslam dininə nələri borclu olduqlarını dərhal anlayacaqlar.»

«Karamazov qardaşları», «Cinayət və cəza» kimi əsərlərin müəllifi, məşhur rus yazıçısı F.M.Dostoyevskinin qardaşına yazdığı məktubda: «Mənə Quranı və E.Kantın «Sağlam düşüncənin tənqidi» əsərini göndər» dediyi məlumdur. Lakin F.M. Dostoyevskinin Quranın rus dilində, yoxsa fransız dilində olan tərcümələrini oxuması məlum deyil.

Məlumdur ki, L.N.Tolstoy ciddi şəkildə İslam dinini öyrənmək istəmiş və bununla əlaqədar olaraq Osmanlı padşahı II Əbdülhəmid dövründə İstanbula bir məktub yazmışdır. Lakin ona bir cavab verilməmiş və beləliklə, bəlkə də, böyük bir dahinin müsəlmanların cərgəsində olması fürsəti əldən verilmişdir.

Dahi alman mütəfəkkiri, alman klassik fəlsəfəsinin banisi İmmanuel Kantın əsərlərini öyrənərkən, aşkar edilib ki, onla-

rın bir çoxu Şərq mütəfəkkir-sufiləri İmam Qəzali və Muhyiddin Ərəbinin təlimlərinin təsiri altında yazılıb. Kantı qəbrə onun tələbələri endirirlər. Onun xahişi ilə məzar daşının üstündə bu sözlər yazılıb: «Mənim üzərimdə mənəvi qanunları olan ulduzlu göy durur.»

Tibb elminin tarixi beş min illik qırılmaz bağlarla Mesopotamiya və Misir mədəniyyətlərinə əsaslanır. İlk təhsil verən xəstəxana 707-ci ildə Şam (Dəməşq) şəhərində açılmışdır. İlk Avropa xəstəxanaları yalnız beş əsrlik bir müddətdən sonra – 1222-ci ildə Paduada, 1224-cü ildə Napolidə, 1254-cü ildə isə Parisdə inşa edilmişdir. İlk əczaxana 754-cü ildə Bağdadda tikilmişdir.

492-ci ildə Papa I Celasyus tərəfindən Barnaba İncilinin oxunmasına qəti qadağa qoyulur. Bir rahib, bütün təhdid və təhlükələrə baxmayaraq, Barnaba incillərindən birini qaçırmağa nail olur. Həmin İncil sonradan Vyanadakı İmperator Kitabxanasına çatdırılaraq ingilis dilinə tərcümə olunur. Lakin kilsə yenidən Barnaba İncilinin izinə düşüb onu tapır. Bu incilin bütün nüsxələri məhv edilmək üçün bir həftə ərzində toplanır. Lakin onlardan ikisi qaçırılır, biri Britaniya muzeyinə, o biri isə Amerika Konqresinin Kitabxanasına göndərilir. Həmin incillər göndərildikləri yerlərdə sanki hərbi sirr imiş kimi gizli saxlanılır və xalqdan gizlədilir. Lakin ABŞ-da hərbi attaşe vəzifəsini yerinə yetirən pakistanlı general Əbdülrəhim həmin İncilin mikrofilmlərini gizli şəkildə çəkərək onları Pakistana qaçırmağa nail olur. Bu mikrofilmlər sonradan Pakistandakı Beqam Aişa Bavani Vəqfi tərəfindən kitab şəklinə salınıb bütün islam dünyasına yayılır. Barnaba incili Peyğəmbərimizin (s.) gəlməsini hələ əvvəlcədən xəbər verir və kainatın onun üçün yaradıldığını, onun mübarək adı ilə zikr edərək bildirirdi.

Həmin İncildə Həzrət İsa (ə.) bir qadının «Gözlənilən xilaskar sən deyilsənmi?» – sualına belə cavab verir: «Mən yalnız İsrail oğullarına göndərilmiş bir xilaskar və peyğəmbərəm. Lakin məndən sonra Allah tərəfindən bütün aləmə Muhəmməd adında bir peyğəmbər göndəriləcək. Allah bu kainatı onun üçün yaratmışdır.»

Yeva de Vitra-Meyeroviç, Fransa Milli Tədqiqatlar Mərkəzinin keçmiş rəhbəri: «İslam dinini bir çox axtarışlar apardıqdan sonra tapdım.»

Almaniyanın məşhur pop və kino ulduzu Cudix Hildebrant: «İslam dini Xristianlıq və bütün başqa dinləri özündə birləşdirir. Buna görə də axtardığım bütün dinlərin ən üstününü yalnız İslam dinində tapdım. Əgər müsəlman olmasaydım, işimdə və şəxsi həyatımda müvəffəqiyyətlərə nail olmazdım. İslam dini sayəsində maddiliyi bir kənara qoyub, yalnız daxilimdəki xeyirxahlığın səsinə qulaq asırdım. İslam Ümumdünya dinidir.»

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Quranda və İslam düşüncəsini əks etdirən başqa mənbələrdə bəşəriyyətin bilmədiyi və öyrənməyi vacib olan böyük ilahi həqiqətlər var. Və belə nəticəyə gəlmək olar ki, İslam gələcəyin yeganə dininin əsasını təşkil edəcək ən real mənbədir.

Yenə də deyilənlərə nəzər salaq.

Dünyanın tanınmış mədəniyyət xadimi Riçard Bell: «Avropa böyük tənəzzül qarşısındadır. Üzdən gözəl görünən hər bir şeyin arxasında stress, ağılsızlıq, özünə qəsd, ruhi xəstəliklər, əxlaqsızlıq, narkotiklərdən və alkoqoldan istifadə, quldurluq, zorlama, saatbasaat artan zöhrəvi xəstəliklər gizlənmişdir. Adamlar arasında qarşılıqlı məhəbbət və inam itmişdir. Hamı ölüm təhlükəsindən əndişələnir. Ailələr dağılır, dövlət başçıları yaranmış vəziyyətdən çıxış yolu tapa bilmirlər, intellektuallar mənəvi boşluqda fəaliyyət göstərə bilmirlər. Yeganə xilas yolu İslam yoludur. Başqa xilas yolu yoxdur. («Azərbaycan» qəzeti, 21 iyun, 2009)

Belə də ola bilər ki, bu sahədə daha səriştəsi olanlar, bizim fikirlərimizi elmi, fəlsəfi cəhətdən, daha əsaslı izah etməklə, yeni bir sahənin – «intellektual ekologiya»nın bir elm kimi qəbul edilməsinə nail olacaqlar.

«Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səa-

dət) verilmişdir. Bunu ancaq ağıl sahibləri düşünüb dərk edərlər.» (Qurani-Kərim, əl-Bəqərə surəsi, ayə 269)

Qərb anlamalıdır ki, bəşəriyyəti İslam dini qədər elmə, zəhmətə, paklığa, quruculuğa çağıran ikinci bir din yoxdur. Allah-Təalanın bəşəriyyət üçün hidayət (doğru yol) çırağı olaraq göndərdiyi Qurani-Kərimin gələcəkdə bəşəri və Yer planetini fəlakətdən xilas etməyin yeganə istinad nöqtəsi olacağına heç bir şübhə yoxdur. Allah-Təala isə Yeri və bəşəriyyəti qorumaq üçün dayaq nöqtəsi olaraq Qurani-Kərimi göndərdi.

Bəli, hörmətli oxucu! İnsan öz ömrünün binasını yaradan memardır. İnsan öz enişli-yoxuşlu, ağrılı-acılı, fərəhli-qəmli, mərhəmətli, insaflı-ədalətsiz... həyat yolu simfoniyasını yaradan bəstəkardır. Bu sənət abidəsini yaradan memar, həyat simfoniyasını bəstələyən bəstəkar özü-özünü başa düşəndən axırıncı mənzilinə köçənə qədər təsiri altında olduğu hadisələrdən, kəlamlardan, ağsaqqal-ağbirçək xeyir-duasından, müəllim dühasından, elm çeşməsindən, inanc nəsihətlərindən istifadə etməli və öz mənəviyyatını, o cümlədən, intellektual ekologiyasını saflaşdırmalıdır. Məhz belə olanda ədalətli cəmiyyət yarana bilər. Unutmayaq ki, ədalət kainatın ruhudur.

Bir vaxt insanlar bu deyilənləri başa düşəcək, mənəvi saflığın, müsbət ab-havanın – müsbət intellektual ekologiyanın inkişaf etdirilməsi bir inanc kimi qəbul ediləcək və ümumbəşəri qanunlarla qorunacaqdır. Bu çətin, fəqət vacib sahədə artıq ilk addımlar atılır...

## Son qənaətlərimiz

1. Ekologiya həm şüuru, həm iqtisadiyyatı, həm inkişafı, həm də gələcək nəslin taleyini bilavasitə əks etdirən bir sahə, həm bazisə, həm də üstquruma təsir edən əsas amildir.

2. Bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt reallaşacaq ki, insan əqli hakimi-mütləq olacaq, mövcud cəmiyyətdə yaranan ideyalar, nəzəriyyələr, baxışlar və bunlara müvafiq olan münasibətlər, idarə və təsisatlar üstqurum, ədalətli bazis üzərində





bərqərar olacaqdır.

3. Şübhə yoxdur ki, ümumi və xüsusi ekologiya sistemi və həmçinin cəmiyyətdə tarazlığın istər qorunması və istərsə də pozulması tamamilə insan intellektindən asılıdır. Ədəbiyyatda ilk dəfə biz onu «İntellektual ekologiya» adlandırmışdıq (Ənvər Mete, Loğmanlar, Bakı, 2008). İntellekt – ağıl, idrak, zehin, fikir mənasında işlənir. Bu danılmaz bir faktdır ki, insan əqli, mənəviyyatı sayəsində yüksəlir, müdrikliyi ilə tanınır.

4. Ekologiya canlı orqanizmlə, onu əhatə edən mühit arasındakı münasibətlərdirsə, onda intellektə malik olan ali canlı – insanlar, ayrı-ayrı fərdlər, bəzən millətlər arasındakı münasibətləri və bu münasibətlər nəticəsində baş verən, daha doğrusu, insan intellektinə, onun sağlamlığına və s. təsir edən, hətta müharibəyə, toqquşmalara, terrorizmə, millətlərarası ədavətə, irqçiliyə, separatizmə, bunların əksi olaraq dostluğa, əmin-amanlığa, sülhə, inkişafa səbəb olan amillər intellektual ekologiyadır – el arasındla buna «ab-hava», abi-həyat, abi-rəvan da deyirlər. Bütün dediklərimiz əsasında biz intellektual ekologiyanı «müsbət intellektual ekologiya» və «mənfi intellektual ekologiya» kimi iki hissəyə ayırırıq. Bunların əsasında isə insan, onun intellekti və fikirlər, sözlər durur.

5. Söz intellektual ekologiyanın (istər müsbət və istərsə də mənfi) yaradıcı amilidir.

6. Müsbət intellektual mühiti yaradan faktorlardan: hikmətli kəlamlar, elm, mənəviyyat, mədəniyyət, mərhəmət, şəfqət, sevgi, təvazökarlıq, ədəb-ərkan, sadəlik, sülhsevərlik, gözəl xasiyyət, xoş niyyət və s. göstərmək olar.

7. Mənfi intellektual ekologiyanı yaradan faktorlar: ziddiyyətlər, zülm, zorakılıq, lovğalıq, təkəbbür, həsəd, paxıllıq, namərdlik, qəzəb, dalaşqanlıq, kin, nifrət, oğurluq, haram, qeybət, qəddarlıq, əxlaqsızlıq, cahillik və s.

8. İkinci dünya müharibəsi qurtarandan sonra siyasətçi U.Çörçillin 1946-cı il martın 5-də ABŞ-ın Fulton şəhərindəki davakar nitqindən sonra «soyuq müharibə» deyilən bir ideoloji siyasətin əsası qoyuldu. Daha doğrusu, XX əsrdə mənfi intel-

lektual ekologiyanın yeni forması yarandı.

9. Cəmiyyətin öz daxilində – hər bir insanın yaşadığı ölkədə, işlədiyi təşkilatda da mənfi intellektual atmosfer yaradan ünsürlər az deyil. Həmin ünsürlər, ələlxüsus ixtiyar sahibləri, insanları sözlə yavaş-yavaş məhv edir, əvvəlcə mənəvi, sonra isə tədricən cismani ölümə sürükləyirlər. Əfsuslar olsun ki, heç bir dövlətdə belə insan qatillərini məsuliyyətə cəlb edən bir qanun məcəlləsi yoxdur. Bir adamı qətlə yetirəni qanunla mühakimə edirlər. Yüzlərlə insanı yavaş-yavaş məhv edənlər isə daha da quduzlaşır, harınlaşır və özləri firavan həyat sürürlər. Vaxt gələcək hər bir dövlətin daxilində mənfi intellektual ekologiyanın sağlamlaşdırılması həyatın ən vacib məsələsi olacaq və bu, dövlət qanunları ilə tənzimlənəcək.

10. Unutmaq lazım deyil ki, «Əksliklərin vəhdəti və mübarizəsi» dialektik qanununa görə müsbət və mənfisiz, xeyir və şərsiz hərəkət mümkün deyil, inkişaf yoxdur. Lakin insan şüuru, onun intellekti bəşəri məhvə doğru sürükləyən şər qüvvələrə qarşı kütləvi mübarizə etməlidir.

11. Yer üzərində ləyaqət, mərhəmət, ədəb, rəhm, şəfqət, xeyirxahlıq, mehribanlıq, iman, təvazökarlıq, əxlaq, sülhsevərlik, ədalət yox dərəcəsinə çatanda, alimlərin təlimi və təlimatı öz yolunu azanda, elmə qiymət verilməyəndə insanlar bir-birinə həsədlə yanaşanda, boş şeylər, uydurmalar həqiqət sayılanda, qanun və qaydalar işləməyəndə, insanlar içməli suya, təmiz qidaya, havaya həsrət qalanda, planetimiz yararlı torpaq həsrətində olanda, qlobal istiləşmə ilə əlaqədar daşqınlar, sunamilər çoxalanda, terrorizm artanda, ekoloji terrorizmlə təbiəti məhv etmək vəhşiliyi bütün dünyada baş alıb gedəndə, ekoloji pozuntularla əlaqədar xəstəliklər epidemiya halını alanda, ümumiyyətlə, mənfi intellektual ekoloji faktorlar durmadan artanda haqq olan qiyamət mütləqdir. Qurani-Kərimin əl-Haqqə surəsinin 15-ci ayəsində buyurulur: «Məhz o gün (vaqe olacağına heç bir şübhə olmayan) qiyamət qopacaqdır!»

12. Tarixdən məlumdur ki, bir tayfa və yaxud bir insan cəmiyyəti yolunu azanda, fəlakətə doğru gedəndə Allah-Təala





tərəfindən peyğəmbərlər və inanc göndərilmişdir. Quranın əl-Bəqərə surəsinin 213-cü ayəsində buyurulur: «İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün. O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi... Onun izni (iradəsi) ilə iman gətirənləri Allah doğru yola yönəltdi...» Bəşəriyyətin daha buna ümidi yoxdur. Çünki Qurani-Kərimdə buyurulur ki, Məhəmməd peyğəmbər (s.) Allahın axırıncı elçisidir. Ümid qalır insanın özünə, elminə, şüuruna, intellektinə, intellektual mədəniyyətinə, tərbiyəsinə, nəfsinin cilovlanmasına.

13. Bəs bütövlükdə bəşər cəmiyyətinə necə təsir etmək olar? Bu məsələ haqqında bütün dövlət başçıları, filosoflar ictimai və dini xadimlər düşünməlidirlər. Bəşər mənəviyyatında hər şey tərbiyədən başlayır və tərbiyə hər şeyə qadirdir. Dünyanın düzəlməsində tərbiyənin roluna yenidən çox böyük diqqət və qayğı ilə baxılmaqdan başlanmalıdır. Tərbiyənin məzmun və forması planetimizin hər bir dövlətinin vacib işi hesab edilməlidir. Belə ki, tərbiyə yetişməkdə olan nəslin elmi biliklər, bacarıq və vərdişlər sisteminin formalaşdırılması və bu əsasda onların dünyagörüşünün təşəkkülü, əqli keyfiyyətlərinin inkişaf etdirilməsidir. Əqli tərbiyə insanı elmi biliklərlə silahlandıraraq onun dünyagörüşünü genişləndirir, qabiliyyətini inkişaf etdirir və təbiət hadisələrini elmi əsaslarda dərk etməkdə ona yardım göstərir.

14. Hər bir fərdin tərbiyəsi evdən, ailədən başlayır, məktəbdə, cəmiyyətdə, yaşadığı ölkədə davam edir, insanı formalaşdırır. Dövlət idarələri, incəsənət (ralio-televiziya verilişləri, qəzet, kino, ədəbiyyat və s.) insan mənəviyyatına təsir edən formalardır. Zorakılığı, qəddarlığı, əxlaqsızlığı təbliğ edən filmləri, şouları təbliğ edənlər dərk etməlidirlər ki, bu gün çiçəklənən dövləti sabah süquta aparacaq ən güclü vasitə məhz əhalinin tərbiyəsinin, abi-havanın, intellektual ekologiyanın pozulmasıdır. Belə ki, əxlaqsızlığın, rəzalətin, zorakılığın, qəddarlığın nümayiş və təbliğ edilməsi ölkəni total zorakılığa,

amansız terrorizmə, «azad» əxlaqsızlığa və məhvə aparır.

15. «İnsaniyyət – ədalət, vicdan, insana, onun hüquq və layaqətinə hörmət, tolerantlıq – qarşılıqlı dözüm arzu edilən xüsusiyyətlər səviyyəsindən ümumbəşəri qanunlar səviyyəsinə qaldırılmalıdır. Bunun üçün yeni insani hüquq normaları, yeni elm – insaniyyətşünaslıq sahələri yaradılmalıdır.

Keçmişin «güc hüququ» daha işləməyəcək, daha doğrusu, təkcə güc (və xüsusən əlavə olaraq hiylə) üstünlük yox, təhlükə gətirəcəkdir. Lakin gücsüz də iş keçməyəcək, heç olmasa, «keçid» dövründə ədalət və güc tələb olunacaq. Beynəlxalq əməliyyatlar, qərarlar tam (!) ədalət əsasında və ədalətsizliyə qarşı güc işlətmək yolu ilə icra ediləcəkdir: «Güc ədalətdir» prinsipi üzrə.» (Saleh bəy)

16. Qurani-Kərimin əz-Zumər surəsinin 18-ci ayəsində buyurulur: «O kəslər ki, sözü (öyüd-nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır.»

Beləcə, insan intellekti, şüuru onu mərifətə çatdırır, onu öz insani vəzifələrindən xəbərdar edir. İnsan düşünməli, fəlakətdən qurtarmaq üçün haqq-ədalət yolunu tutmalıdır.

17. Bu, həqiqətdir ki, istər elmi və istərsə də dini xəbərdarlıqlar eyni məqsədi ifadə edir. Ey insan! Ekoloji tarazlıqlarını pozma, səni fəlakət gözləyir. Biri bunu elmi araşdırmalarla, digəri isə Rəbbin vəhyi ilə əlaqələndirir. Ancaq məqsəd eynidir: Tanrının sənə bəxş etdiyi təbiəti və şüurun məhsulu olan intellektual ekologiyanı pozma, mənfiliklərə meyil göstərmə. İstər varlı, istər kasıb, istər alim, istər nadan, hamının bir yolu var, bu yolun sonu qəbirdir. Bəzilərinə o da qismət olsa.

Ananın bətnində bazara gəldik,
Bir kəfən alaraq, məzara döndük.

*Yunus Əmrə.*

Din və elm birlikdə əməkdaşlıq etməli, doğma evimiz Yer planeti və onun əşrəfi olan insanı qorumalıdır.





18. Təkliflərimiz[1]:

Doğma Yer planetimizdə Ümumdünya Ekologiya Təşkilatı – ÜDET yaralılmalıdır. İkinci dünya müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) yaradılmasına zərurət olduğu kimi, müasir dövrdə ÜDET-in yaradılmasına böyük ehtiyac vardır. İkinci dünya müharibəsindən sonra, soyuq müharibənin vüsət alması bunu zəruri etdisə, müasir dövrdə dünyanın ekoloji fəlakət astanasında olması ÜDET-in yaradılmasını zəruri edir. ÜDET iki bölmədən: «Təbiət ekologiyası» və «İntellektual ekologiya»dan ibarət olmalıdır. Bütün dünya dövlətləri mütləq bu təşkilatın üzvü olmalıdır. Nümayəndələrin tərkibini, əsasən, bütün elmlər sahəsində tanınmış alimlər, ekoloqlar, filosoflar, din xadimləri, hüquqşünaslar, kulturoloqlar, dövlət başçıları təşkil etməlidir. Təşkilatın fəaliyyəti üçün «Beynəlxalq Ekoloji Fond» yaradılmalı, hər bir dövlət inkişaf səviyyəsinə uyğun təyin olunan məbləğdə oraya vəsait köçürməlidir. ÜDET-in nizamnamə və tapşırıqlarını yerinə yetirməyə nəzarət məqsədilə «Ekologiya Polisi» – hərbi dəstələri yaradılmalıdır. Bütün dövlətlərin nümayəndələri bu bölmədə qulluq etməlidirlər. ÜDET-in bayrağında bu sözlər həkk olunmalıdır: «Yer planeti hamımızın doğma, əziz evidir, onu birgə qoruyub saxlamalıyıq və yalnız birgə saxlaya bilərik!»

Ekofonda bütün dünya dövlətlərinin nümayəndələri nəzarət etməli, yığılan vəsait yalnız ekoloji amillərin sağlamlaşdırılmasına sərf edilməlidir. ÜDET-in ayrı-ayrı dövlətləri, fərdləri mükafatlandırmaq və cərimə etmək hüququ olmalıdır. Böyük, beynəlxalq əhəmiyyətli ekoloji layihələrin işlənməsi, maliyyələşdirilməsi və həlli də ÜDET-nın çox vacib və irimiqyaslı vəzifəsi olmalıdır. ÜDET-in sərhədlərdən sərbəst keçən, bütün xalqlara fayda gətirən, III minilliyin yeni təşkilatı olmasına tam əminik.

19. ÜDET-in «İntellektual ekologiya» bölməsi elmin yeni

[1] Təkliflərimizə aydınlıq gətirmək üçün bir daha bəzi məqamları təkrar etmək məcburiyyətindəyik.

sahəsidir. III minillikdə «İntellektual ekologiya» elmi elə formalaşdırılmalıdır ki, inancından, irqindən, milliyyətindən, dilindən, sosial vəziyyətindən asılı olmayaraq, Yer planetinin bütün sakinləri tərəfindən «Amin» ifadəsi ilə qəbul edilsin. Necə ki, bütün dinlərdə insanların inandıqlarına etdikləri dua «Amin»lə yekunlaşır. İntellektual ekologiyanın bəşəriyyət tərəfindən qəbul edilən bir əlifbası və bir notu olmalıdır. Necə ki, bütün millətlərin həm oxuyub, həm dinləyib başa düşdükləri bir dil var: musiqi dili. Bu dilin əlifbası olan notun ilk əsaslarını XIII əsrdə Səfiəddin Əbdül Mömin ibn Yusif ibn Fakir əl-Urməvi qoymuşdur.

20. Belə qərara gəlmək olar ki, III minillikdə Yer planetini fəlakətdən insan, onun əqli, intellekti, vicdanı, qəlbi, müdrikliyi, əxlaqı, mərhəməti, özünü dərk etməsi, mənəviyyatı və nəhayət, inancı xilas edəcəkdir. Bu hisslər insan qəlbində elə bir həddə çatacaq ki, onlar müsbət ekoloji qaydalara, ümumi və intellektual ekoloji tarazlığın tənzimlənməsinə müqəddəs bir varlıq kimi sitayiş etmək məcburiyyətində qalacaqlar və sitayiş edəcəklər. Yoxsa dünya məhv olar.

Bütün tarix boyu xeyir şərə qalib gəlmiş, gələcəkdə də insanlar yalnız bu müqəddəs yolu tutmalıdırlar.

21. Biz əminik ki, elə bir dövr gələcək ki, ailədə uşaqların ilkin tərbiyəsi ekoloji qaydalara riayət etməkdən, onun dərkindən başlayacaq və bu, məcburi şəkil alacaqdır. Keçid dövründə inzibati cəzaların da həyata keçirilməsi labüddür. Cəza qanunun qoruyucusudur.

22. Bir zaman gələcək, seçilən dövlət başçıları andiçmə mərasimində həmin ölkənin Konstitusiyasına, inandığı Müqəddəs Kitaba və dünya dövlətləri tərəfindən qəbul edilmiş «Ümumdünya ekologiya qanunları» (bu bizim təklifimizdir, bəlkə başqa ad veriləcək) məcəlləsinə əlini qoyub and içəcəklər. Başqa çıxış yolu yoxdur. Tanrı insana hər şeyi verdi. Ancaq insan... nəticəsi göz qabağındadır. Qurani-Kərimin ət-Təğabun surəsinin 3-cü ayəsində buyurulur: «O, göyləri və yeri haqq-ədalətlə (yerli-yerində) xəlq etdi, sizə surət verdi, surətlərinizi





də gözəl yaratdı. (İnsan bütün canlıların ən gözəli və ən kamilidir)...»

Beləliklə, istər ümumi və istərsə də intellektual ekoloji fəlakətlər dinin, elmin nailiyyətləri, insan şüurunun və intellektinin işığı ilə zərərsizləşdiriləcəkdir. Buna tam əminik.

23. Etibar ediləcək və arxalanacaq bir dövlət varsa, o da hər bir halda elm və ədəbdən ibarətdir (A.Bakıxanov).

24. Bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt mümkün olacaqdır ki, istər Asiyada və istərsə də Avropada insan əqli sənəd və dəlil hesab edilib hakimi-mütləq olacaqdır (M.F.Axundzadə).

25. Kamil, elmli insanlar – alimlər xalqın, dövlətin, bəzən bəşəriyyətin sərvəti kimi qiymətləndirilirlər. Cəmiyyətə, vətənə, bəşəriyyətə yararlı insanlar heç vaxt unudulmur, irqindən, millətindən və inancından asılı olmayaraq həmişə böyük hörmət və məhəbbətlə yad edilirlər. İnsandan ulu bir məxluq varsa da, o yenə insandır. «Metron antropos panton» – insan hər şeyin meyarıdır.

26. Qurani-Kərimdən nəzərinizə çatdırdığımız ayələrdən: əl-İsra surəsi, ayə 36, 70, 97; ət-Tin surəsi, ayə 2-4; əl-Cumuə surəsi, ayə 5; ən-Nəhl surəsi, ayə 90; əl-Kəhf surəsi, ayə 84; əl-Ənbiya surəsi, ayə 37; ər-Rum surəsi, ayə 36; ət-Təğabun surəsi, ayə 3; əl-Mulk surəsi, ayə 2, 16-17; əş-Şura surəsi, ayə 52; əl-İsra surəsi, ayə 97; əl-Qələm surəsi, ayə 4 və s. ayələrdən məlum olur ki, Allah-Təala bu müqəddəs kəlamlarla insanları düzlüyə, müdrikliyə, ədəb-ərkana, sahib olduqları ruzilərin qədrini bilməyə dəvət edir. Bəşəriyyəti faciədən, fəlakətdən qoruyan bu qanunların 1400 il əvvəl əsası qoyulmuşdur. Yaşamaq istəyən insan irqindən, milliyyətindən və inancından asılı olmayaraq tövsiyələrə əməl etməlidir. Dünyanı öz şüursuzluğu ilə məhvə aparan insan öz şüuru və intellekti sayəsində də çıxış yolu tapmalıdır.

27. Qurani-Kərimdə buyurulur: «Bəndələrinə de: Danışdıqları zaman gözəl sözlər söyləsinlər. Şeytan onların arasına fitnə-fəsad sala bilər.» (əl-İsra surəsi, ayə 53)

28. Sözü kiçik sayıb, ucuz bir şey hesab edirsənsə, onu bil ki, Allah-Təala öz peyğəmbərlərini xalqa tanıtdırmaq istədikdə onları qızıl, gümüş ilə tanıtdırmayıb. Bəlkə, hikmətli söz və mənalı danışıq vasitəsilə onları xalqa tanıtdırmışdır. (İmam Sadıq)

29. Varlığın anası doğmamış, inan,
Sözdən gözəl övlad, şahiddir cahan.
*Nizami Gəncəvi*

30. Məsləksizə hikmət dərsi, nadanlara öyüd neylər,
Ulağın da qabağına dövlət töksən, mat-mat süzər.
*İmadəddin Nəsimi*

31. Səmavi kitablardan və elmin son araşdırmalarından məlum olmuşdur ki, varlığın təzahür forması səsdir. Səslərin kamil forması insan təfəkkürünün, onun intellektinin məhsulu olan kəlamlardır.

32. Məhəmməd peyğəmbərdən (s.) «Ya Rəsulallah! Hər peyğəmbərin bir möcüzəsi var. Bəs sizin möcüzəniz nədir?» deyə soruşduqda: «Kəlamətullahdır» demişdir. Kəlam – yaşayan bir həqiqətin kəlmə ilə ifadəsidir.

33. «Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu yalnız ağıl sahibləri düşünüb dərk edərlər.» (Qurani-Kərim, əl-Bəqərə surəsi, ayə 269)

34. Bəşər cəmiyyətinin qədim elmi sayılan fəlsəfə həmişə kəlamlarla inkişaf etmiş və gələcək nəsillərə çatdırılmışdır. Bu kəlamlar insanların mənəvi saflığına, tərbiyəsinə təsir etmişdir. Bu cəhətdən Qurani-Kərim daha çox diqqəti cəlb edir. Quran insanları doğru yola, düzgün istiqamət və qulluğa dəvət edən ilahi fərmandır.

35. Qurani-Kərimin ayələrində elmi məsələlərə yalnız işarə edilmiş, bəşəriyyətin bugünkü ekoloji fəlakət qarşısında olacağı haqda dəqiq xəbər verilmişdir. Bax buna görə də Qurani-Kərim və dahi insanların kəlamlarının III minilliyin insanlarının mənəvi tərbiyəsində rolu böyükdür. Bu minillikdə ekoloji fəlakətdən xilas olmağın yolu Yer planetindəki insanların hikmətli kəlamlarla düz yola dəvət olunması ilə mümkün olacaqdır.





36. Kəlamın qüdrəti böyükdür. O, formaca kiçik olmasına baxmayaraq, insanın şüuruna ildırım surəti ilə təsir etmək qüvvəsinə malikdir. İnsanın zəkasını bir anda işıqlandırıb düşünməyə vadar edir. Düzgün qərar, düzgün həyat tərzi seçməyə, nəhayət, məsuliyyətli anlarda düzgün addım atmağa kömək edir.

37. Bu cəhətdən Əmir Teymurun dedikləri böyük məna kəsb edir: «Mən nə vaxta qədər baş kəsib qan tökməklə qalib gələcəyəm. Bəs hanı sizin kəlamlarınızın qüdrəti?!»

38. Bəli, Yer planeti elə bir fəlakətli hala düşəcək ki, insan məcbur olacaq kəlamlarla müsbət intellektual ekoloji qaydalara riayət etsin. İnsan öz şüursuzluğunu öz intellektinin məhsulu olan kəlamlarla müalicə edəcəkdir.

39. Deyirlər, tarix təkrar olunur. Tarixdə elə insanlar peyda olublar ki, onlar ümumi dərdi öz çiyinlərində daşıyıb, ona əlac axtarıblar. Cəmiyyəti öz kəlamları ilə tərbiyələndirib, haqq yoluna çağırıblar. Biz əminik ki, III minillikdə həyat «olum, ya ölüm» həddinə çatanda, ümumbəşəri dərdə dərman tapan çox loğmanlar peyda olacaq və insanlar onların dediklərinə əməl edəcəklər. Biz buna tam əminik.

40. İnsan və cəmiyyət dinə möhtacdır. Çünki dinin məqsədi insanı xoşbəxtliyə çatdırmaqdan ibarətdir. Dinin əmr və tövsiyələri insanın insan kimi yaşaması, ailəsinə, cəmiyyətinə, millətinə və hətta bütün bəşəriyyətə faydalı olması məqsədini güdür. Din cəmiyyətləri ucaldan, onların inkişafını təmin edən bir əxlaq qanunudur. İnsanlar üçün bir hidayət (doğru yol) günəşi olan Qurani-Kərimdə əxlaqi, əməli, ictimai cəhətdən insanı və cəmiyyəti maddi-mənəvi xoşbəxtliyə aparan hər şey – ailə həyatı, ər-arvadın hüquq və vəzifələrindən beynəlxalq münasibətlərə qədər, salamlaşmaqdan başlamış evlərə icazə alaraq girmək kimi ədəb qaydalarına qədər – göstərilmişdir.

41. Qurani-Kərim təkəbbür, nəfs, nadanlıq, qəzəb, tənbəllik, sərxoşluq, qumar, xudpəsəndlik, xəsislik, şöhrətpərəstlik, lovğalıq, hiyləgərlik, ikiüzlülük, yalançılıq, riyakarlıq, qəddarlıq, əxlaqsızlıq, oğurluq, iftira, haqsızlıq, xəyanət, zina, fahişəlik, homoseksualizm.... kimi cəmiyyəti sarsıdan və mənfi intellektual ekologiyanı yaradan bu amilləri pisləyir, qadağan edir və lənətləyir.

42. «Ya Peyğəmdər! İtaət etmə (yalan yerə) hər and içənə, alçağa, qeybət edənə, söz gəzdirənə, xeyrə mane olana, (zülm etməkdə) həddini aşana, günaha batana, daşürəkliyə, (bütün) bunlardan sonra da əsli-nəsəbi bilinməyən haramzadaya – o, mal-dövlət, oğul-uşaq sahidi olsa belə. Biz (tezliklə) onun burnuna damğa basacağıq.» (Qurani-Kərim, Nun və əl-Qələm surələri, ayə 10-14, 16)

43. «Qurani-Kərim bir ilahi ədəb məktəbidir.» *(Məhəmməd peyğəmbər)*

44. «Bəşəriyyəti İslam dini qədər elmə, zəhmətə, paklığa, quruculuğa çağıran ikinci bir din yoxdur.» *(Misbah Yəzdi)*

45. Allah-Təalanın bəşəriyyət üçün hidayət çırağı olaraq göndərdiyi Qurani-Kərimin gələcəkdə bəşəri fəlakətdən xilas etməyin yeganə istinad nöqtəsi olacağına heç bir şübhə yoxdur.

46. «Müsəlman dininin misilsiz üstünlüklərindən biri də məhz budur – əxlaqsızlıq, zorakılıq və qanunsuzluq arzuda yox, sözdə yox, işdə, həyatda qadağan edilir. Bu isə bütün vicdanlı və təmiz adamlar üçün, ümumiyyətlə, bəşər üçün vacibdir. Bir vaxt Qərb müsəlman mənəvi saflığının saxlanmasına qibtə edəcəkdir.» (Saleh bəy)

47. Kamilliyə, inkişafa meyil insan xislətinin ilahi nemətidir. İslamşünas İbn Məsudi «Quranda hər şeyə aid elm nazil edilmişdir, lakim bizim elmimiz Ondakı hər şeyi anlamağa yetməz.» – deməkdə yanılmamışdır.

48. Elm misli olmayan qiymətsiz qənimətdir (mirasdır). Elm mənəviyyatımızın təməl prinsiplərindəndir. Elm əməlsiz məhv olar, əməl isə elmsiz mümkün deyildir. Deməli, elm başlanğıc, əməl son, elm səbəb, əməl nəticədir.





Elm – cəmiyyətin mənəvi-intellektual həyatında mühüm sferadır. Bu gün elm ictimai şüur forması kimi bəşəriyyətin sosial-mədəni tərəqqisinin əsas mənbəyinə çevrilmişdir.

49. Biliyin olsa da bir ümman qədər,
Nadansan, əməlin olmasa əgər.
Eşşəyə yükləsən bir neçə kitab,
Nə alim olar o, nə də süxənvar.
Başı boş o yazıq heyvan nə bilsin
Dalında odundur, ya kitab-dəftər.

*Sədi Şirazi.*

50. «Kamilliyə, inkişafa meyil insanın daxilində qoyulmuş böyük ilahi nemətdir. Bu meyil olmasaydı, insan yerindən tərpənməzdi, hərəkətsiz qalardı. İnsanı hərəkətə gətirən mühərrik məhz bu daxili istəkdir. Kainatı yaratmaqda Allahın məqsədi budur ki, insan öz iradə və istəyi ilə kamilliyə ucalsın. Elə bu səbəbdən də insanın fitrətində belə bir meyil yerləşdirilib.» *(Misbah Yəzdi)*

51. İslam alimlərinin, dahilərin və mütəfəkkirlərin kəlamlarından göründüyü kimi, elm və din istər məqsəd və istərsə də nəticə etibarilə bir-birini inkar etmir, əksinə, onların son nəticələri eynidir. Din kainatı Tanrının yaratdığını, kainatda müəyyən qanunların olduğunu, hər şeyin bir nizam-intizam içində baş verdiyini bildirir. Aparılan tədqiqatlar və faktlar sübut edir ki, Qurani-Kərimdə bəyan edilən bir çox qanunauyğunluqlar elmə 1400 il sonra məlum olmuşdur. Bu, danılmaz bir həqiqətdir. Qurani-Kərimin ayələrində, hədis və kəlamlarda elm, bir qayda olaraq, təbliğ edilir, insanları kainatın sirlərini öyrənməyə çağırır.

Bir sözlə, istər din (İslam) və istərsə də elm cəmiyyətin mənəvi-intellektual həyatında mühüm sferadır – hava və sudur. Din – fəzilət və əmanətdir, elm- təhsil onun açarıdır.

52. «...Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir, əbədi səadət verilmişdir. Bunu ancaq ağıl sahibləri düşünüb dərk edərlər.» (Qurani-Kərim, əl-Bəqərə surəsi, ayə 269)

53. İnsan öz səviyyəsində olan insanların əhatəsində elə də yüksələ bilməz. Müdriklər əhatəsində olanlar, onlardan görüb-götürər və əxlaq sahibi olarlar. Əxlaq insanların dünya baxışı, əqidə və inamı ilə bağlıdır. Dünyagörüşünün tərkib hissəsi olan əxlaqi şüur şəxsiyyətin əməli fəaliyyətində mühüm rol oynayır. Əxlaq siyasət, hüquq, incəsənət, din, fəlsəfə və elmin qarşılıqlı təsiri nəticəsində formalaşır.

Beləliklə, insan Yer planetini və bəşəriyyəti fəlakətdən ağlı, müdrikliyi, təvazökarlığı, sülhsevərliyi, xoş niyyəti, gözəl xasiyyəti, inancı, elmi və əxlaqı ilə xilas edəcəkdir. Məhz belə insanlar Yer adlı doğma məkanımızda müsbət intellektual ekoloji faktorların yaradıcısı və qorucusudur.

54. Məhəmməd peyğəmbər (s.): «Cəhalətdən çətin yoxsulluq, ağıldan üstün var-dövlət, xudpəsəndlikdən qorxulu tənhalıq, xoş xasiyyətdən uca şərafət və təfəkkürdən böyük ibadət yoxdur. Ağlın qüdrəti Allaha iman gətirəndən sonra xalqı sevməklə ölçülür.»

Sevimli Peyğəmbərimizin (s.) bu fikirləri bir daha sübut edir ki, planetimizi və bəşəriyyəti insan təfəkkürü xilas edəcəkdir.

55. İnsan öz ömrünün binasını yaradan memardır. İnsan öz enişli-yoxuşlu, ağrılı-acılı, fərəhli-qəmli, insaflı-ədalətsiz həyat yolu simfoniyasını yaradan bəstəkardır. Bu sənət abidəsini yaradan memar, həyat simfoniyasını yazan bəstəkar özü-özünü başa düşəndən axırıncı mənzilinə köçənə qədər, təsiri altında olduğu hadisələrdən, kəlamlardan, ağsaqqal-ağbirçək xeyir-duasından, müəllim dühasından, elmdən, inanc nəsihətlərindən istifadə etməli və öz mənəviyyatını saflaşdırmalıdır. Məhz belə olduqda ədalətli cəmiyyət yarana bilər.

56. Elmdə, inancda doğruluq var və daim qalıb inkişaf edəcək. Əfsuslar olsun ki, müsbət intellektual ekologiya amili olan doğruluq durmadan azalır və bu proses hələlik davam edəcəkdir. Vaxt gələcək, bəşəriyyətin fəlakətlə üzləşəcəyi bir dövrdə bu proses, insan mənəviyyatının inkişafı və həm də cəza qanunları ilə dayanacaq və səhmana salınacaq. Bu proses o





vaxt baş verəcək ki, bəşəriyyət «olum və ya ölüm» təhlükəsi ilə üzləşəcək və tövbə etməyə məcbur olacaqdır.

57. «Bismillahir-Rəhmanir-Rəhim! Mərhəmətli, rəhmli Allahın adı ilə! Həmd (şükür və tərif) olsun Allaha – aləmlərin Rəbbinə. Bu dünyada hamıya mərhəmətli, rəhmli olana...» Müqəddəs Qurani-Kərimin əl-Fatihə surəsi bu kəlamlarla başlayır – insanlara, canlılara rəhm və mərhəmətlə. Mərhəmət varlığın ilk mayası, xeyirxahlıq nurudur.

58. Bütün canlılarda sevgi, sədaqət və vəfa hisslərinin mənbəyi Tanrı sevgisidir. Eşq və sevgi ilə dolu olan Tanrı insan xarakterinə də bu xüsusiyyətləri daxil etmişdir. İnsanın bunları başqa yerdən alması mümkün deyildir.

59. İnsanları, canlıları sevən səxavətli olar. Səxavət çox bəlaların qarşısını alır, varın artmasına səbəb olur, Allahın qəzəbini söndürür, ürəklərdəki kin-küdurəti silir. İnsanlar unutmamalıdırlar ki, mərhəmət – səxavət intiqamdan daha üstündür.

60. Eşq, məhəbbət, dostluq kimi insani xüsusiyyətlərin cümləsi vəfaya bağlıdır. Onlar vəfasız bir könülə əsla yaxınlaşmazlar.

61. «Bil ki, qəlbi (batini) ilahi eşq və məhəbbətlə dolu olmayan insan nə qədər zavallıdır, bəlkə də heyvandan daha aşağıdır.» (Mövlana)

62. Qənaətimiz budur ki, bəşəriyyəti, yaşadığımız Yer planetini ağıl, elm, inanc, mərhəmət, şəfqət, sevgi, məhəbbət, səxavət... fəlakətdən xilas edəcəkdir. Vaxt gələcək, insanlar məcburiyyət qarşısında bu mənəvi keyfiyyətləri tam anlayacaq və bu xüsusiyyətlərin bərqərar olması uğrunda şüurlu mübarizə aparacaqlar. Başqa çıxış yolu yoxdur, nicat yalnız bundadır.

63. İnsanda qəflət doğuran səbəblərdən biri var-dövlət hərisliyidir.

64. İnsan sahib olduğu şeylərin hamısını hər an tərk edə biləcəyini dərk edə bilmir.

65. İnsanların mənəvi azadlıqdan cilovlanan, mənəviyyatsız rəhbərlərin başçılıq etdikləri bir cəmiyyətdə yalnız yalan, onun nəticəsi olan zorakılıq və zülm inkişaf edir.

Ey Xaqani, pis rəhbərdən ehtiyat et, qorx ondan,
Rəhbər əgər pis olarsa, yol düz olmaz heç zaman.

66. Yalançılıq bəşəriyyətin ən qorxunc yoluxucu xəstəliyi, yalançılar isə məhvi olduqca çətin olan mikroblardır.
67. İnsanı heyvan səviyyəsinə, hətta ondan da aşağı səviyyəyə endirən səbəblərdən biri də nadanlıqdır.
Nadanlıq nifaqın başlanğıcıdır.
68. İnsan ölümündən sonra öz əməlindən başqa heç bir şeylə yoldaş olmur.

Ömür başdan-başa, beşikdən qəbrə
Həyatın sevinci, qəmi deyilmi.
Ölüm bir ömürlük iztirabların,
Ağrının, acının cəmi deyilmi?
*Bəxtiyar Vahabzadə.*

69. «Agah olun ki, dünya qalacaq yer deyil və nə də siz onun üçün xəlq olunmusunuz.»

Əgər Harun kimi olsa xəzinən,
Yenə bu dünyadan boş köçəcəksən.
*Sədi Şirazi.*

70. «Ya Rəsulum! Səndən əvvəl də (dünyada) heç bir bəşərə əbədiyyət (ölməzlik) vermədik...» (Qurani-Kərim, əl-Ənbiya surəsi, ayə 34)





## Şərhlər

**Adəm** – iudaizmə, xristianlığa və Qurana görə, Allahın yaratmış olduğu birinci adamdır.

**Allahü-Əkbər** – Allah ən böyükdür, Allah uludur deməkdir. Müxtəlif hallarda müsəlmanların təkrar etdikləri möminlik formalarından biridir.

**Alleqorik** – fikirlərin konkret obrazlar vasitəsilə əyani (xüsusilə təmsildə) ifadə forması olub, ədəbiyyat və incəsənətdə (hər hansı bir mücərrəd anlayışı təcəssüm etdirən fiqurlar qrupu və kompozisiya) geniş istifadə edilir.

**Amin** – ibranicə «qoy elə olsun» mənasını verir.

**Amoralizm** – hər cür əxlaq normalarının inkarı, əxlaqsızlığın ictimai davranış prinsipi elan edilməsi. Amoralizm müsbət əxlaqın inkar və əxlaqsız davranışın «əxlaqi» olunması kimi çıxış edir.

**Asketizm** (yunanca *askeo* sözündəndir, cəhd edirəm, zahid, rahib deməkdir) – dini-etik nəzəriyyədir. Dini asketizm hissləri, arzuları boğmağı, ehtirası öldürməklə mənəvi cəhətdən «kamilləşməyi», «Allah adamı» olmağı təlqin edir. Asketizm həm də tələbatın ödənilməsində ifrat qənaətkarlıqla, «nəfsin öldürülməsilə», əxlaqi və yaxud dini ideala çatmaq məqsədilə yerdəki nemətlərdən son dərəcə imtina ilə xarakterizə olunan həyat tərzi, tərki-dünyalığı, evlənməkdən, səmərəli əməldən imtina etməyi, sakit guşəyə çəkilib, Allaha ibadəti təbliğ edən əxlaq normasıdır. Asketizm Şərq dinlərində, xüsusən Hindistanda (brahmanizm, buddizm və s.) inkişaf etmişdir. Orta əsr xristianlığı üçün də asketizm xarakterik idi. İslam dinində asketizm zahidlik adlanır. Asketizm tarix boyu mürtəce rol oynamış, insanları fəaliyyətsizliyə, mütiliyə şövq etmiş, ictimai tərəqqi uğrunda mübarizədən çəkindirmişdir.

**Aşkenazm** – xristinan ölkələrində yaşayan yəhudilərə deyilir, İslam ölkələrində yaşayan yəhudilər isə «sefardin» adlanir.

**Atomizm** – Zəkəriyyə Razinin materiyanın dənəvər, arasıkəsilən (atom və digər mikrozərrəciklərdən ibarət) quru-

luşu haqqında təlim. Bu təlimə əsasən atomlar bölünməz, əbədi və dəyişməz, daim hərəkətdə olan, forma və ölçüsünə görə fərqlənən ən kiçik maddi hissəciklər hesab edilirdi. Atomların miqdarı, çəkisi, hərəkət sürəti və cismlərdə qarşılıqlı düzülüşü ilə bir-birindən fərqlənməsi aləmdəki keyfiyyət müxtəlifliyinin səbəbi hesab edilirdi. Bu təlim Demokritin atomizminə yaxındır. Müasir atomistika materiyanin son, dəyişməz mahiyyətdə olmasını inkar edir, onun kəmiyyət və keyfiyyətcə sonsuzluğunun qəbul edilməsinə əsaslanır.

**Batinilik** (batin – daxili, içi) – İslam dinində təriqətçi dini-fəlsəfi təlim. VIII əsrdə hakim feodal ideologiyasına qarşı müxalifətçi cərəyan kimi yaranmışdır. Batinilikdə manilik və məzdəkilik əlamətləri var, qədim yunan fəlsəfəsinin və buddizmin təsiri olmuşdur. Batiniliyə görə, Quranı hərfi mənada başa düşmək olmaz, onun ayələrindəki gizli məzmunu tapmaq lazımdır. Ziddiyyətli təlim olan batinilikdə ottodoksal islam əleyhinə mütərəqqi ideyalar da var idi.

**Bəktaşiyyə, Bəktaşilik** – türk sufi təriqətidir. XIII əsrdə Kiçik Asiyada yaranmışdır. Təriqətin banisi, güman edildiyinə görə Hacı Bəktaşi Vəli olmuşdur (1242–1337). Bəktaşiyyənin ehkamı və ayinləri islamdan, xristianlıqdan, habelə bütpərəstlikdən əks edilmiş müxtəlif cür ünsürlərin qarışığından ibarətdir.

**Brahmanizm** – Hindistanda sinfi münasibətlərin (xüsusilə quldarlığın) inkişafı dövründə (e.ə. I minilliyin birinci yarısında) Beda dininin dəyişikliyə uğraması nəticəsində yaranmış dinlərdən biri. Təbiət qüvvələri ilə yanaşı, ictimai qüvvələri də ilahiləşdirən Brahmanizm təlimində animistik etiqada da təsadüf edilir.

**Buddizm** – dünyada ən geniş yayılmış dinlərdən (Xristianlıq və İslamla yanaşı) biridir. E.ə. VI–V əsrlərdə Hindistanda meydana gəlmiş və e.ə. III əsrdə rəsmi din elan edilmişdir. Banisi Budda («bəsirətlənmiş – nurlu» deməkdir) adı ilə məşhur olan Siddhartha Qautama hesab edilir. İbtidai icma münasibətlərinin dağıldığı, sinifli cəmiyyətin təşəkkül tapdığı dövrdə yaranmış buddizm brahmanizmə qarşı etiraz ifadəsi olub, ha-





mının bərabərliyini elan etmişdir. Hazırda Yaponiya, Şri-Lanka, Çin, Nepal, Myama və başqa ölkələrdə yayılmışdır.

**Cəfər əs-Sadiq** – şiələrin altıncı imamı, Cəfərilər məzhəbinin banisidir. Təqribən 700-cü ildə Mədinədə anadan olmuş, 765-ci ildə vəfat etmişdir. Atası və babası kimi Cəfər Sadiq də siyasi fəaliyyətdə və müxalifət hərəkatlarında qətiyyən iştirak etməmişdir. Deyilənə görə, imamlığın varlığı və «İlahi nurun» təcəssümü haqqında imamilik doktrinasını Cəfər Sadiq yaratmışdır.

**Cihad, Cahad** (ərəbcə – din uğrunda müharibə, müqəddəs müharibə; hərfi mənası– cəhd etmək, mübarizə etməkdir) – islamın yayılması və təntənəsi naminə göstərilən cəhd. İslam dininin Qurana əsaslanan mühüm təlimatlarından biridir.

**Çarvaka** – qədim və orta əsr hind materialist nəzəriyyəsi. Çarvaka nəzəriyyəsinə görə yalnız birbaşa duyğularla dərk olunan həqiqətdir, təkcə bu dünya mövcuddur, yeganə reallıq materiyadır. İşlədiyi konsepsiyalarda çarvaka nəzəriyyəsi Xeyir və Şər anlayışlarını insan xəyalının yaratdığı illuziya hesab edirdi. Buna görə də bir sıra qədim mətnlərdə bu materializm çarvaka adlanır. Çarvaka nəzəriyyəsinə görə, yalnız hissi varlığın iztirabı və həzzi realdır. Tərki-dünyalıq məhdudiyyətinin zəruriliyini rədd edən çarvaka nəzəriyyəsi həzzi insan varlığının yeganə məqsədi sayırdı. Çarvaka nəzəriyyəsi hind fəlsəfi fikir tarixində nadir hadisədir.

**Davud (ə.)** – peyğəmbər, İsrail-Yəhudi dövlətinin (e.ə. XI əsrin sonu – e.ə. təqribən 950-ci il) padşahı olmuşdur. İsrail tayfalarının ərazilərini Yəhudi padşahlığına birləşdirmiş, kənanilərdən Qüds şəhərini almış və paytaxt etmiş, bir sıra qonşu əraziləri tutmuşdur. Davud mərkəzdəşdirilmiş İsrail-Yəhudi dövlətini yaratmış, əhalini siyahıya almışdı (e.ə. təqribən 973-cü il).

«(Ya Rəsulum!) Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy göndərdik.

Biz Davuda da Zəburu verdik» (ən-Nisa surəsi, ayə 163).

Qurani-Kərimdə buyurulur: «(Ya Rəsulum!) Davudu və Süleymanı da (yad et)! O zaman onlar bir tayfanın qoyunlarının girib xarab etdiyi bir əkin sahəsi haqqında hökm verdilər və biz də onların hökmünə şahid idik. Biz onu (məsələnin hökmünü) dərhal Süleymana anlatdıq. Və onların hər birinə hökm (hikmət, peyğəmbərlik) və elm (şəriəti dərindən bilmək) verdik» (əl-Ənbiya surəsi, ayə 78-79).

**Dar ül-İslam** – müsəlman dünyası, islam torpağı, İslamın hökmran olduğu bütün ərazi deməkdir.

**Determinizm** (latınca təyin etmək sözündəndir)– maddi və mənəvi aləm hadisələrinin obyektiv qanunauyğun qarşılıqlı əlaqəsi və səbəbiyyətlə şərtlənməsi haqqında fəlsəfi təlim. Determinizm ideyaları qədim dövr fəlsəfəsində meydana gəlmişdir. Determinizm azadlığı inkar etmir, çünki azadlıq dərk edilmir, zərurətdir. Yeni dövr materialist fəlsəfəsində daha da inkişaf etdirilmişdir.

**Dəqiqi Əbu Mənsur Məhəmməd ibn Əhməd** (?– təqribən 977) – fars və tacik şairi, doğma adət və ənənələri təbliğ etməklə Xilafət asılılığından xilas olmağa cəhd göstərən şüubiyyə hərəkatının nümayəndəsidir. 958-ci ildə Samani sərkərdəsi Əbu Mənsurun şərəfinə «Guştasbnamə» əsərini yazmışdır. Bir əsər ədəbiyyat tarixində «Şahnameyi-Mənsur» adı ilə də məlumdur.

**Dualizm** (latınca iki deməkdir) – maddi və ruhi substansiyaları bərabərhüquqlu başlanğıclar hesab edən fəlsəfi təlim. Dualizmin əsas motivi materializm ilə idealizmi birləşdirmək cəhdidir. Dualizm psixofiziki paralelizm nəzəriyyəsinin fəlsəfi əsasıdır.

**Etika** (yunanca vərdiş, adət, xasiyyət deməkdir) – öyrənmə obyekti əxlaq olan ən qədim nəzəri fənlərdən biri, fəlsəfi elm. Etika quldarlıq cəmiyyətində siniflərin və əmək bölgüsünün yarandığı dövrdə fəlsəfənin əsas tərkib hissələrindən biri kimi meydana gəlmişdir. Qədim Şərq və yunan mütəfəkkirlərinin etik görüşləri əməli nəsihət xarakteri daşıyan fəlsəfi fikirlərdən





ibarət olmuşdur.

**Ellinizm, Hellinizm** – Aralıq dənizinin Şərq sahili ölkələri tarixində mərhələ, Makedoniyalı İsgəndərin hərbi səfərlərindən tutmuş (e.ə. 334– 323), həmin ölkələrin Roma tərəfindən işğalına qədər olan dövrü əhatə edir.

**Epikür** (e.ə. 341– 270) – ellinizm dövrünün yunan materialist filosof və ateisti. «Epikür bağı» fəlsəfi məktəbini yaratmıdır. (e.ə. 306). O, 300-dək əsər yazmışdır. Epikürə görə, Kainat sonsuz və əbədidir. Epikür allahların dünyanın işlərinə qarışmasını inkar etmiş, materiyanın əbədiliyindən çıxış etmışdir. Ona görə, bədənin ölməsi ilə ruh da ölür. Epikürün fikrincə, dünyanı dərk etmək mümkündür. Duyğular, hisslər və anlayışlar, yaxud ümumi təsəvvürlər idrakın meyarıdır. Duyğular biliklərin mənbəyi, idrakın başlanğıcıdır. İdrak insanı nadanlıqdan və mövhumatdan, Allah və ölüm qarşısında qorxudan azad edir.

**Əbu Hənifə** (699-767) – məşhur müsəlman faqihi və məntiq alimi. Hənifə məzhəbinin banisi və rəhbəri olmuşdur. Əsərlərində ağıl və mühakiməyə üstünlük vermişdir.

**Əhrimən** – «Avesta»da Anhra-Maynyu– şər başlanğıcının ifadəçisi, qədim İran dualist dinlərində, zərdüştilikdə, parslarda şər allahlarının başçısı və şər qüvvələrin (ölüm, xəstəlik, qış, quraqlıq, yırtıcı heyvanlar və s.) yaradıcısı.

**Əqidə** (ərəbcə «inam», «ehkam» özündəndir) – İslam dininin əsas ehkamlarının külliyyatı, onun inam rəmzidir. Sünnilərin əsas ehkamları bunlardır: Allahın varlığına, onun təkliyinə və vahidliyinə, onun əbədiliyinə və hər şeyə qadir olmasına, insanın hərəkətlərinə onun bais olmasına inam, Allahın peyğəmbərlərinə, o cümlədən sonuncu peyğəmbər Məhəmmədə (s.) inam, ölümdən sonra məhkəməyə, ölülərin dirilməsinə (qiyamət günü), Allah məhkəməsinə, cənnət və cəhənnəmin varlığına inam.

Şiə ehkamlarının fərqləndirici cəhəti ondan ibarətdir ki, onlar peyğəmbərlik haqqında ehkama, Əlinin (ə.) nəslindən olan imamlara ilahi lütf bəxş edilməsi, bu imamların qüsursuz-

luğu (məsumluğu) və qiyamət günü ərəfəsində sonuncu imamın zühur edəcəyi ideyasını da əlavə etmişlər.

**Ələvilər** – Əli ibn Əbu Talibin xələfləri. Əlinin müxtəlif arvadlardan çoxlu övladı olmuşdur, lakin ən məşhurları Məhəmmədin (s.) qızı Fatimədən (r.a.) olan Həsən (ə.) və Hüseyn (ə.), həmçinin Məhəmməd ibn Əl-Hənifədir (ə.). İmam şiələrinin iman gətirdikləri 12 imamdan 10-u Hüseyn (ə.) xətti ilə bağlıdır. Şiələrin dini-siyasi ehkamına görə, ali hakimiyyət (imamlıq) da peyğəmbərlik kimi, ilahi göstəriş əsasında müəyyən edilmişdir. «İlahi göstəriş»ə əsasən, imamlıq hüququ yalnız Əliyə (ə.) və onun nəslindən olanlara məxsusdur, vərəsəlik qaydası ilə keçir. İslamın, demək olar, bütün tarixi ərzində Əli (ə.) və ya onun tərəfdarları ali hakimiyyət uğrunda silahlı və ideoloji mübarizə aparmışlar. Mübarizənin gedişində xilafətin müxtəlif guşələrində ələvilərin başçılığı ilə imamlıqlar meydana gəlmişdir.

Hazırda müsəlman ölkələrində ələvilərin çoxlu xələfi yaşayır. Yaşıl çalma gəzdirmək, seyid və ya şərif adlanmaq hüququ onlara məxsusdur.

**Əliallahilər** – Əlini (ə.) ilahiləşdirənlər deməkdir, özlərini əhli-həqq (həqiqət adamları) adlandırırlar. Orta əsrlərdə İran, Azərbaycan və başqa ölkələrdə geniş yayılmış dini-mistik cərəyanın, şiəlik təriqətinin tərəfdarlarıdırlar. Məzhəbin dini ehkamına görə, Allah ilə Əli (ə.) qırılmaz surətdə bağlı olmuş və olmaqdadır. Əli (ə.) bütün peyğəmbərlərdə, imamlarda və müqəddəslərdə təcəssüm etmişdir. Gün gələcək ki, Allah və Əli (ə.) yenidən «gizli» imamda – Mehdidə təcəssüm edəcəklər.

Məzhəbin müqəddəs kitabları sünnilərdən və imami şiələrindən səylə gizlədilir. Məzhəbin ehkamlarında və ayələrində xristianlığın təsiri böyükdür. Türkiyədə şiələrin 90%-i, Əfqanıstanda 15%-i, İranda təxminən 7,5%-i Əliallahi məzhəbinə məxsusdur.

**Əşərilik** – əşərilik X əsrin əvvəllərində yaranmış, İslam dininin ehkamlarını «əqli dəlillər»lə sübut etməyə çalışan dini-fəlsəfi təriqətdir. «Varlıq və yoxluq» məsələsində «yoxluğun»





mövcudluğunu qəbul edirdi. Əşərilik kainatın əbədiliyini və qanunauyğunluqlarını inkar edir, səbəbiyyəti insan zehninin uydurması sayırdı.

**Əyyub** – Qurani-Kərimdə buyurulur: «(Ya Rəsulum!) Əyyubu da (yada sal)! Bir zaman o, Rəbbinə yalvarıb dua edərək belə demişdi: «Mənə bəla üz verdi (Sənə pənah gətirdim). Sən rəhmlilər rəhimlisisən! Biz (Əyyubun) duasını qəbul buyurduq, onu düçar olduğu bəladan (xəstəlikdən və ailəsinə üz vermiş müsibətdən) qurtardıq»» (əl-Ənbiya surəsi, ayə 83-84).

**Fatalizm** (latınca – « tale», «qismət» deməkdir) – hər bir hadisənin əzəli qismətdən bilavasitə asılı olmasına və labüdən həyata keçməsinə etiqad edir və insan tərəfindən sərbəst hərəkət yolu seçilməsini və təsadüfliyi istisna edir.

**Halal** (ərəbcə həllə sözündəndir, icazə verilmək, yol verilmək deməkdir) – müsəlmanlara icazə verilən hərəkətlər, haram kateqoriyasına daxil olmayan işlər və əməllər deməkdir.

**Haram** – ərəbcədir, müsəlman hüququnda müsəlmanlar üçün qəti qadağan olunan hərəkətlər (şərab içmək, qumar oynamaq, donuz əti yemək, sələmçilik və s.) haram hesab edilir.

**Harun** – Qurani-Kərimin Yunus surəsinin 74-cü ayəsində buyurulur: «Nuhun ardınca öz ümmətlərinə peyğəmbərlər göndərdik. Onlar (öz ümmətlərinə) açıq-aşkar möcüzələr gətirmişlər. Bunlar isə öncə (peyğəmbər gəlməzdən əvvəl) yalan hesab etdikləri şeylərə iman gətirmədilər. Biz (küfr etməklə, günah işləməklə) həddi aşanların ürəklərini belə möhürləyirik. Onlardan sonra Musanı və Harunu Firona və camaatına açıq möcüzələrlə peyğəmbər göndərdik».

Həzrət Harun qardaşı Musadan (ə.) 3 yaş böyük idi. «Ədədlər»də Həzrət Harunun 123 yaşında Xor dağının təpəsində öldüyü və basdırıldığı rəvayət olunur.

**Hədis** (ərəbcə «rəvayət», «hekayət» sözündəndir) – Həzrət Məhəmmədin (s.) və onun silahdaşlarının gördükləri işlər və söylədikləri fikirlərlə bağlı rəvayətlərdir. VII əsrin sonu – VIII əsrin əvvəllərində yaranmışdır

**Hənəfilər** – «həqiqət axtaranlar» deməkdir. Dörd məzhəb-

dən birinin banisi olan Əbu Hənifənin (767 – 800) dini-hüquqi məktəbinin tərəfdarlarıdırlar. Hənəfilər başqa məzhəblərin tərəfdarlarına nisbətən yəhudilər və xristianlara daha mülayim münasibət göstərir, hüquqi məsələlərdə rəydən (sərbəst fərdi mühakimədən) və qiyasdan (bənzətməyə əsaslanan mühakimədən) daha geniş istifadə edirdilər.

**Hedonizm** (yunanca «həzz» sözündəndir) – xeyiri həzdə, şəri əzabda görən əxlaqi tələblərin əsaslandırılması prinsipi, tərki-dünyalığın əksi. Hedonizmə görə, həzz insan əxlaqının yüksək neməti və davranışının meyarı hesab edilir, bütün əxlaqi tələblər onunla bağlanır.

**Helm** – mülayimlik deməkdir. Helm qılıncı dəmir qılıncdan daha kəskindir.

**Hidayət** – ərəbcə «doğru yol» deməkdir.

**Hinduizm** – çox yayılmış dünya dinlərindən biri. Hinduizmin kökləri qədim hind dini olan brahmanizmə gedib çıxır. E.ə. VI–IV əsrlərdə buddizmin və caynizmin yayılmasına cavab olaraq meydana gəlmişdir. Hinduizmə görə, insan həyatının məqsədi (buddizmdən fərqli olaraq) atmanı (ilahiliyin təzahür etdiyi insan ruhu) təbiətdən azad etmək və brahma (dünya ruhu) ilə qovuşdurmaqdır.

**Hürmüzd, Hörmüzd, Hörmüz** – qədim fars mənbələrində və «Avesta»da Ahura Mazda–qədim irandilli tayfaların allahı. Zərdüştilükdə və məzdəizmdə baş allah. Xeyir başlanğıcının rəmzi olan Hürmüzd şər rəmzini əks edən Əhrimənə qarşı daim mübarizə aparmışdır. Bu mübarizə «Avesta»da əksini tapmışdır. Azərbaycanda islamın yayılmasınadək Hürmüzdə sitayiş mövcud idi.

**Hürufilik** – XIV əsrin sonu – XV əsrin əvvəllərində Azərbaycanda, Anadoluda və Qərbi İranda yayılan hürufi təriqəti. Hüruf sözü ərəb dilində «hərflər» mənasını verir. Bu təriqətin əsas ideyası iudaizmdə mövcud olan mistik kabalistika təlimində olduğu kimi, Quranın hərf sistemi vasitəsilə izah olunmasına əsaslanır. Hürufilikdə 7 rəqəmi müqəddəs hesab edilir.





Hərflərin texniki tərəfləri ilə bağlı görüşləri inkişaf etdirməklə hürufiliyi bir fəlsəfi-dini sistem olaraq quran şəxs mənşəcə Azərbaycan türklərindən olan Şəhabəddin Fəzlullah Astrabadi Nəimidir (1339/40–1394). Fəzlullah çox gənc yaşlarında ilahiyyat ilə maraqlanmağa başlamış, 18 yaşında olarkən təsəvvüfə yönələrək həccə getmişdir. O, 1386-cı ildə öz təlimini Təbrizdə elan etmiş, daha sonra İsfahanda bu fikri yaymağa başlamışdır. Uzun müddət bir mağarada tənhalığa çəkildikdən sonra Fəzlullah özünün Hz. Mehdi olduğunu iddia etmiş, ətrafındakı yeddi inanılmış xəlifəsi və daha sonra çoxsaylı tələbəsi ilə yeni inancın təbliğinə başlamışdır. Qısa müddətdə müxtəlif ictimai təbəqələrdən olan insanlar bu yeni axının ətrafında toplaşmağa başlayır.

Yeni sistemin yayılması hakim çevrələrdə narahatlıq yaradır. Əmir Teymurun oğlu Miranşahın əmri ilə Fəzlullah həbs edilmiş, 1394-cü ildə Naxçıvanda Əlincə qalasında edam edilmişdir.

Fəzlullah düşüncələrini «Cavidani-kəbir», «Ərşnamə», «Məhəbbətnamə», «Növmnamə», «İsgəndərnamə» adlı əsərləri ilə bəyan etmişdir.

Hürufiliyə görə, Kainat əbədidir və müxtəlif dövrlər bir-birini əvəz edir. Bu dövrlər Peyğəmbərlik, İmamlıq və Allahlıqdır. Adəm (ə.) peyğəmbərlə başlayan Peyğəmbərlik dövrü Məhəmməd (s.) peyğəmbərlə başa çatmışdır. Əli ibn Əbu Tabiblə (ə.) başlayan İmamlıq dövrü 11-ci imam Həsənlə (ə.) başa çatmışdır. Allahlıq dövrü isə Fəzlullahla başlamışdır və bütün peyğəmbərlər onun gəlişini xəbər vermişlər. Hürufilər Adəmdən (ə.), Musadan (ə.) və Məhəmməddən (ə.) sonra Allahın qüvvəsinin təzahürü kimi Fəzlullahı hesab edirdilər. Allahın zahiri görünüşü solmazdır və o, insanda, yaradılmışların ən yaxşısında bəyandır (zühur kibriyyə), insan ilahinin surətidir və həqiqətin açarıdır. Allah hər bir zərrəcikdə mövcuddur. O, həmçinin sözlərdə, sevginin və gözəlliyin əsası olan ərəb əlifbasının 28 və fars əlifbasının 32 hərfində təcəssüm edir. 7 rəqəmi

insan sifətinin əsas hissələrinə, Fatihə surəsinin ayələrinə və inamın əsas şərtlərinə müvafiq olan əsas rəqəmdir.

Hürufiliyin Azərbaycanda təşkilatlanması XIV əsrin sonlarında başladı. Onların fəlsəfi dini qaynaqları Ön və Orta Şərqin fəlsəfəsindən bəhrələnmişdir. Hürufiliyin Azərbaycan ərazisində Nəimi, Nəsimi, Sururi, Əli-ül Əla kimi nümayəndələri var idi. Hürufilik təriqəti geniş bir ərazini (İran, Azərbaycan, Suriya, Osmanlı) əhatə edirdi. Əsas nümayəndələri kəndlilər və şəhər ziyalıları idi.

Hürufilər ideyalarını yaymaq üçün öz əraziləri ilə kifayətlənmir, islam Şərqinin müxtəlif ölkələrinə səyahətlər edir, tələbələrinin sayını artırırdılar.

İki yüz il monqolların işğalı altında qalan Şərqdə hürufiliyin tarixi cəhətdən yaranmasına ehtiyac var idi. Bu zaman meydana çıxan həyəcan və çıxışlar həm ölkədə ağalıq edən feodallara, həm də ortodoksal islam ideyasına qarşı çevrilmişdi.

Bu dövrdə şiəlik Kiçik Asiyanın şərqində geniş yayılmışdı. Vergilərdən bezən xalq mövcud rejimin əksinə olaraq şiəliyə meyil edirdi. 1239-cu ildə Şeyx Baba İshaqın başçılığı altında üsyan başladı. Şeyx Baba İshaq üsyanın gedişində özünü Allah elan etmiş və bunu şüara çevirərək, kəndliləri və sənətkarları sünni olan Səlcuq sultanına qarşı üsyana çağırmışdı.

Beləliklə, görünür, XIV əsrdə Mərkəzi Asiyada, İranda, Azərbaycanda və digər yerlərdə baş qaldıran inqilabi ideyaların böyük əksəriyyəti ortodoksal sünni ruhanilərə qarşı çevrilmişdi.

Hürufilik təlimi, əsasən, feodallara, xarici işğalçılara və onları müdafiə edən islama qarşı yönəlmişdi.

Hürufilər bütün dini hökmləri öz düşüncələri istiqamətində izah edirlər. Kəlmeyi-şəhadət, namaz, oruc, həcc, zəkat kimi bütün dini hökmlərin hamısı 28 və 32 hərfə görə izah edilir. Nəticə əskik və ya artıq olarsa, hesabı düz gətirmək üçün hərf elminin üsullarına müraciət edilərək nəticə əldə edilir.

Bu cərəyanın məqsədi insana ən yüksək mərtəbəni verməkdir. Mövcud olan hər bir varlıq mütləq varlığın təzahürüdür, əksidir. Bu təzahür qüvvət aləmindən təbiət və ünsürlərə gəlmişdir. Səma ilə ünsürlərin birləşməsindən də cansız aləm, bitkilər və insanlar yaranmışdır.





Hürufiliyin ilkin qaynaqları, eləcə də müasir araşdırmalar əsasında bu cərəyanın fəlsəfi məzmun və məqsədini aşağıdakı kimi xülasə etmək olar:

İlahi nitqin səsi kainatın yaradılmasının yeganə vasitəsidir. Bu, maddi aləmin yaranması ilə bağlı olaraq, Quranda yer alan «Kun!» («Ol!») əmri ilə əlaqəli yaranmış mülahizə kimi də yozula bilər.

**Xəlifə** (ərəbcə «varis», «müavin», «xələf» deməkdir) – erkən islamiyyətdə müsəlman icmasının başçısı xəlifə adlanırdı. Bəzi vəzifələri yerinə yetirməkdə Həzrət Məhəmmədin (s.) canişini (müavini) hesab edilir, onu əvəz etmiş adama deyilirdi. Xəlifələr hər biri özündən əvvəlkini «əvəz edən» xəlifələr icmasının həyatını şəriət əsasında tənzimləmək, Allahın buyurduğu «ilahi göstərişlər»i icmanın yerinə yetirməsinə göz qoymaq üçün icma tərəfindən seçilmiş mömin adamlar olmalı idilər. Nəzəri cəhətdən xəlifə vəzifəsi dünyəvi hakimiyyətlə ruhani hakimiyyətin ayrılmazlığı ideyalarının təcəssümü idi. Prinsipcə, xəlifə dünyanın bütün müsəlmanlarının başçısı idi.

**Xilafət** – İslam dininin sünni məzhəbi üçün səciyyəvi olan hakimiyyət təsisatıdır, icma üzərində dünyəvi və mənəvi hakimiyyətin xəlifənin əlində birləşdiyini göstərir. VII əsrin əvvəllərində Məhəmmədin təşkil etdiyi müsəlman icması xilafətin özəyi olmuşdur. XIII əsrdə monqol istilasmadək mövcud olmuş müsəlman dövlətini xilafət və ya ərəb xilafəti adlandırırdılar.

**Xristianlıq** (yunanca hərfi mənası «padşah» deməkdir) – dünya dinlərindən yaranma tarixinə görə ikincidir. İslamla yanaşı, dünyada ən çox yayılmış dindir. Xristianlığın yaranması ilahiyyatçı nöqteyi-nəzərlə bağlıdır və bu fikrə görə, xristianlığın əsası eramızın I əsrində allah-insan İsus Xristos (İsa Məsih) tərəfindən qoyulmuşdur. İsa Məsihin (ə.) Əhdi-Cədid

dini kitabında əksini tapmış həyatının təsvirinə və baxışlarına söykənən monoteistik dünya dini, üç əsas dünya dinlərindən (buddizm və islamla yanaşı) biri, İbrani dini kimi də sayılır. I əsrdə Roma imperiyasının şərq əyalətlərində meydana gəlmişdir.

Xristianlar inanırlar ki, İsa (ə.) «taxta çıxarılmış ilahi varlıq»dır, İlahinin oğludur, insana çevrilmş ilahidir və bəşəriyyəti xilas edəcək varlıqdır. Dünyada tərəfdarlarına görə (2,1 milyard, 2007) birinci dindir. Avropada, Amerikada, Cənubi Afrikada və Okeaniyada üstün inancdır.

**Xülya** – reallıqdan uzaq, müəyyən sistemi olmayan xəyali surətlərin insan təxəyyülündə canlanması. Xülya zamanı surətlər insan beynində sistemsiz halda bir-birini əvəz edir, onların belə hərəkəti (cərəyanı) təfəkkür tərəfindən tənzim edilmir. Xülya zamanı insanın xəyalında xoş təsəvvürlər canlanır, lakin həmin surətlərin həyatdan, konkret gerçəklikdən uzaq olması insanın fəallığını zəiflədir.

**Xüşu** – Allaha qarşı qorxu və sevgi ilə boyun əymək, bu duyğu ilə meydana gələn hal.

**İblis** – «şeytan», «iftiraçı» deməkdir, bir sıra dini təlimlərdə (xristianlıq, islam və s.) bədxah ruh, şər qüvvələrin başçısı, Allaha qarşı duran, insanı günaha sövq etdirən, Cəhənnəmin sahibi. Guya əvvəllər mələk olmuş, Allahın əmrindən çıxdığı üçün Cəhənnəmə göndərilmişdir. Ona görə də həmişə insanlardan qisas almağa çalışır.

**İbrahim (ə.)** – Qurana görə, İbrahim (ə.) yəhudilərin və müsəlmanların əfsanəvi əcdadı, Məhəmmədin (s.) sələflərindən biri sayılır. Dini rəvayətə görə, İbrahimxəlil peyğəmbər (ə.) öz atasının dinini, yəni bütpərəstliyi atmış, bütləri qırmışdır. Burada xəlil– dost mənasını verir. İbrahimxəlil peyğəmbər (ə.) oğlu İsmayılı (ə.) Allaha qurban vermək istəmiş, lakin Allah onu bağışlayaraq, əvəzinə qoyun göndərmişdi. Bu da insandan qurbanvermə adətinin aradan çıxmağa başladığını göstərir.

**İbrani** – bu söz «ibri» və «hibri» sözündən törənmişdir. Bizim eradan əvvəl XIV əsrdə Kənanda (Fələstində) yaşayan





«ibri» və «hibri» adlı qəbilənin adından götürülmüşdür. Mixi yazılı mətnlərdə «hapin» adlanır. Onlar əvvəl İsrail oğulları ilə razılaşmalar əldə etmiş və sonra da «Eber» adlı bir qəbilə başçısına bağlanaraq onlarla qarışmışlar. Bundan başqa, yəhudilərin özləri də başqaları tərəfindən «İordaniya çayının kənar tərəfində oturanlar» mənasında «İbrim» (Eber) adlandırılmışlar. Tövratın dilinə verilən ad da ibranicə bu kökdən törənmişdir.

**İmam** (ərəbcə «əmmə» sözündəndir, öndə getmək, başçılıq etmək deməkdir) – müsəlmanlarda dini rəhbər. Məsciddə namaza rəhbərlik edən ruhanini imam adlandırırlar.

Şiələr üçün imamlıq adamların iradəsindən asılı deyil, çünki o, «İlahi qanunla qoyulmuşdur». Şiə ehkamına görə, imamlıq Əlinin nəslindən olan adamların alın yazısıdır. Öz hakimiyyətinin ilahi təbiətinə görə imam şiələrdə dinin sirli cəhətlərini bilir, o, «İlahi göstərişlərin» icraçısıdır, dini məsələlərin təfsirində qəti söz onundur. Şiələrə görə, imam heç bir vaxt səhv etmir və deməli, ona itaət etmək şiəliyin ehkamıdır. Şiələrin böyük əksəriyyətinin fikrincə, Əli nəslindən olub «İlahi hakimiyyətə» malik olan imam hazırda dünyada yoxdur. Onun səlahiyyətli nümayəndələri şiə ruhaniləridir.

**İmamilər** – şiə məzhəbinin əsas cərəyanlarından birini təşkil edən, Əli ibn Əbu Talibin (ə.) nəslindən 12 imam olduğuna inanan mötədil şiələrdir. 11-ci imam Əl-Həsən Əl-Əsgərinin vəfatından (873-cü il) sonra imami şiələri sonuncu imamın kiçikyaşlı oğlu Məhəmmədi özlərinin 12-ci imamı kimi tanıtmışlar. Lakin az sonra Məhəmməd «yoxa çıxmış» və ya «qeybə çəkilmişdir». İmamilər onu «gizli imam», Mehdi elan etmişlər. O, zühur edəcək və dünyada ədaləti bərpa edəcəkdir. «Gizli imama» etiqad imamilərin əsas ehkamlarından birinə çevrilmişdir. Onların təliminə görə, imamın «qeybə çəkilməsi» dövrü indiyədək davam edir və bu dövr «sahib əz-zamanın» zühur etməsi, yəni gözlənilən Mehdinin üzə çıxması ilə başa çatmalıdır.

**İsa, İisus Xristos** – Xristianlığın əfsanəvi banisi. Xristianlığın müqəddəs yazılarında, Quran və başqa müqəddəs

kitablardakı Həzrət İsa (ə.) ilə bağlı məlumatlar bir kənara qoyulsa, onun yaşadığı dövr haqqında tarixi dəyəri olan mənbə, demək olar ki, yoxdur.

Professor Şinasi Gündüzün «Missionerlik» (Azərbaycan dilinə çevirəni Elşad Miri, Bakı, 2006) kitabından bəzi maraqlı məqamları oxuculara təqdim etmək istərdik:

«Həzrət İsa (ə.) həyatı ilə bağlı tarixi mənbələrdə heç bir məlumat olmayan çox nadir tarixi şəxsiyyətlərdən biridir. Həzrət İsanın (ə.) əksər tədqiqatçılarının da vurğuladığı kimi, xristianlığın müqəddəs əsərlərində iki fərqli İsa tipologiyası mövcuddur.

Bunlardan biri «tarixi İsa» kimi adlandırıla biləcək, bizim eranın I əsrinin əvvəllərində yaşayan musəvi (yəhudi) bir müəllim, peyğəmbərdir. O, insanları Həzrət Musanın (ə.) təlimlərinə dəvət edən, Tanrıya iman gətirməyi, yaxınlaşan haqq-hesab gününə hazırlaşmağı, halal və haramları nizamlayan ilahi hökmlərə riayət etməyi, dindən sui-istifadə etməməyi, dinin istismardan uzaqlaşmağı və əxlaq qaydalarına bağlı qalmağı vurğulayan bir şəxsdir.

İkinci İsa tipologiyası isə xristian ənənəsində imanın Məsih İsası ilə əlaqədardır.

İsa Məsih ilahi qurtuluş planına uyğun olaraq gələcəkdə təkrar (ikinci dəfə) gələcək, ölən insanları dirildərək mühakimə edəcək, pisliyi aradan qaldıracaq və yer üzündə qızıl dövrü başladacaq. İsanın ikinci gəlişində ona inananların hamısı ölümsüz xüsusiyyətə malik olacaq və sonra dünyanın məhv olması ilə birlikdə ilahi aləmə yüksələcəklər».

Qurani-Kərimdə Məryəm oğlu İsa (ə.) haqqında buyurulanlara bir daha nəzər salaq: «Onlar həm də küfr etdikləri (İsanı inkar etdikləri) və Məryəmə qarşı böyük bir böhtan dedikləri üçün (lənətə düçar oldular). (Onların lənətə düçar olmalarının bir səbəbi də): «Biz Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük», – deməleridir. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqda ixtilafda olanlar onun şəxsən





öldürülməsi barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu (İsanı) öldürməmişlər. Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır...» (ən-Nisa surəsi, ayə 156-158). -(Bu surələrdə «onlar» yəhudilərə aiddir – *Ə.M., Z.H.*)

Quranın əl-İxlas surəsində buyurulur: «(Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: «(Mənim Rəbim olan) O Allah birdir (heç bir şəriki yoxdur). Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır, O, əzəlidir, əbədidir!) O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir). Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!»

əl-İxlas surəsinin bütün ayələri xəbər verir ki, İsa Allahın bir peyğəmbəri olub (Allahın oğlu ola bilməz!) və O, Allaha çox yaxın idi.

**İsaq (ə.)** – İbrahim peyğəmbərin (ə.) Saradan olan oğlu.

**İslam** (ərəbcə «silm» kökündəndir və mənası «itaətetmə», «barış» deməkdir) – dünyada geniş yayılmış monoteist dinlərdən biridir. Buddizm və Xristianlıqdan sonra yaranmışdır. Banisi qüreyşilərin Haşimi tayfasından olan Məhəmməd peyğəmbərdir. İslam VII əsrdə Ərəbistanda meydana gəlmişdir. İslam, iman, elm və əməli tam ahəng içində bütünləşdirən ilahi bir qanundur.İslamın əsasını üsuli-din təşkil edir. Üsuli-din 5 maddədən ibarətdir: Tövhid– təkliyi bildirir. Allahın tək, misli-bərabəri olmayan bir qüvvə olduğuna inamı bildirir; Ədl–Allahın ədalətli olduğunu nəzərdə tutur; Nübuvvət – nəbilik, peyğəmbərlik deməkdir, Allahın peyğəmbərlərinə inamı tələb edir; Məad– axirətə, qiyamət gününə inamı bildirir; İmamət – (şiələrdə) və Xilafətə (sünilərdə) inamdan ibarətdir. İslam 5 təməl üzərində qərar tutmuşdur: kəlmeyi-şəhadət; namaz, zəkat və xüms; oruc; həcc - Məkkədə Kəbəni ziyarət etmək. Müsəlmanların müqəddəs kitabı Qurani-Kərimdir. İslam ehkamlarına görə, Allah Cəbrayıl vasitəsilə Peyğəmbərə müqəddəs vəhyləri, ayinləri göndərmişdir. Bu müqəddəs kəlamlar 23 il (610–632) ərzində

verilmişdir və Quranda cəmlənmişdir. Dünyada müsəlmanların sayı 1 milyarddan artıqdır. Yer kürəsinin 120-dən artıq ölkəsində müsəlman icmaları var. İslam 28 ölkədə dövlət dinidir. Dünya müsəlmanlarının 90%-dən çoxu sünnidir. Şiələrin ümumi sayı təqr. 100 milyon nəfərə çatır.

**İsmail, İdris, Zülkifli** – Qurani Kərimdə buyurulur: «(Ya Rəsulum!) İsmaili, İdrisi və Zülkifli də (yad et)! Onlardan hər biri səbir edən kimsələrdən idi. Biz onları mərhəmətimizə qovuşdurduq (peyğəmbər etdik). Onlar, doğrudan da, saleh bəndələrdən idilər!» (əl-Ənbiya surəsi, ayə 85-86).

**İsmaililər** – şiə İslamının ən böyük təriqətlərindən birinin davamçılarıdır. Bu təriqətin meydana gəlməsi VIII əsrin ortalarında sinfi ziddiyyətlərin nəticəsində şiələrin parçalanması ilə bağlı olmuşdur. Onların əksəriyyəti Musa əl-Kazımı (Cəfər əs-Sadığın oğlu) 7-ci imam kimi tanımırdı və sonralar onu imam adlandırmağa başladılar. Lakin şiələrin bir hissəsi imam Cəfər Sadığın böyük oğlu İsmaili imamlığın varisi adına layiq bildi və onu 7-ci imam kimi tanıdılar (7-ci imam adı da buradan götürülmüşdür).

**İsmayıl (ə.)** – İbrahim peyğəmbərin (ə.) Həcərdən olan oğlu.

**İstibdad, despotizm** – *despotes* yunanca hökmdar, qeyri-məhdud hakimiyyətə malik, özbaşınalığı rəhbər tutan hökmdar və ya başqalarını özünün iradəsinə tabe olmağa məcbur edən, hərəkətlərində heç kəslə hesablaşmayan müstəbid adam deməkdir. Despotizm (istibdad) bir sıra Qədim Şərq dövlətlərində qeyri-məhdud monarxiya formasıdır.

**İşraqilik** (ərəbcə «şəfəq», «parıltı» deməkdir) – Orta əsrlərdə Yaxın və Orta Şərqdə yayılmış fəlsəfi cərəyan. İşraqiliyin ideya mənbələri Şərq xalqlarının islamdan əvvəlki dini təfəkkürünə əsaslanır. Əvvəlki bölmələrdə işraqilik haqqında geniş məlumat verilib.

**İudaizm, yəhudi dini** – e.ə.I minillikdə Fələstində yaranmışdır. Əsasən, yəhudilər arasında yayılmışdır. İsrailin dövlət dinidir.





**Kabbalastika, Kabbala** (qədim yəhudi dilində– rəvayət) – iudaizmdə mistik cərəyan. Kabbalastikanın təməl daşı «En-sof» (sonsuzluq) haqqında təlimdir. Kabbalastikaya görə, «Ensof» dünyanın fəal və passiv başlanğıcı, substansiyası, immanent səbəbidir. O, hər şeydir və ayrı-ayrı predmetlər onun vahid varlığının yalnız iradəsidir. Kabbalastika bu inama əsaslanır ki, xüsusi ritual və duaların köməyi ilə insan ilahi– kosmik prosesə müdaxilə edə bilər. Kabbalastika xristianlıqda və islamda da vardır.

**Kəlam** (ərəbcə «söz», «ifadə», «nitq» mənasındadır)– dini təlimi əsaslandırmaq üçün məntiqi dəlillərə arxalanan müsəlman nəzəri ilahiyyatıdır. Daha doğrusu, «kəlam» yaşayan bir həqiqətin kəlmə ilə ifadəsidir. VIII əsrin əvvəllərində yaranmışdır. Dini-idealist fəlsəfi sistem olan kəlamın nümayəndələri mütəkəllim adlanmışlar. Kəlama görə, Allah birdir, kamildir, qüsursuzdur. Kəlam Orta əsrlərdə islam fəlsəfəsi kimi məşhur olmuşdur. Hazırda Şərqdə müsəlman dini məktəblərində tədris edilir.

**Konfutsi və konfutsiçilik** – Konfutsi, Kun-tszı (e.ə. təqr.551– e.ə. 479) – qədim Çin mütəfəkkiri, konfutsiçiliyin banisi. Konfutsiliyin əsas prinsipi adamların cəmiyyət və ailə münasibətlərinin yüksək qanunu, «insanpərvərlik anlayışı»dır. Konfutsi buyurmuşdur: «Hökumət xalqa qarşı şəfqətli bir ata-ana olmaqla, yaxşı hökumət vəzifəsini icra edə bilər». «Müsahibələr və mülahizələr» («Lun yuy») kitabı Konfutsinin öz şagirdləri və ardıcılları ilə müsahibələrinin yazılı qeydləridir. Konfutsinin etik-siyasi təlimində ən mühüm anlayış insanpərvərlikdir («jen»dir).

Konfutsiçilik Qədim Çində meydana gəlmişdir və Qədim Çinin aparıcı ideya cərəyanlarındandır. İki min ildən artıq dövr ərzində Çinin mənəvi mədəniyyəti, siyasi həyatı və ictimai quruluşuna böyük təsir göstərmiş bu təlimi sonralar onun davamçıları inkişaf etdirmişlər.

**Konseptualizm** (latınca «fikir», «anlayış» deməkdir) – sxolastik fəlsəfədə cərəyan. Konseptualistlər realizmi, ümuminin

ayrı-ayrı şeylərdən asılı olmayaraq real mövcudluğunu inkar edirdilər. Onlar ümumi anlayışların, konsepsiyaların mövcudluğunu qəbul edirdilər.

**Kreasionizm** (latınca «yaradılma» deməkdir) – biologiyada üzvi aləmin Allah tərəfindən yaradılmasını iddia edən konsepsiya, dünyanın, canlı və cansız təbiətin vahid yaradıcılıq əməli ilə yaradılması haqqında idealist təlimdir.

**Lut** – Qurani-Kərimdə buyurulur: «(Ya Rəsulum!) Lutu da (yad et)! Bir zaman o öz qövmünə demişdi: «Doğrudanmı, siz özünüzdən əvvəl aləmlərdən (bəşər əhlindən, ins və cinsdən) heç kəsin etmədiyi iyrənc bir işi görürsünüz. Həqiqətənmi siz (şəhvətlə) kişilərə yaxınlaşır (müsafirlərin namusuna toxunmaq, mallarını əllərindən almaq üçün) yol kəsir və məclislərinizdə (bir-birinizlə) çirkin iş görürsünüz?..» (əl-Ənkəbut surəsi, ayə 28-29).

**Qnostisizm** (yunanca *«qnosis»* sözündəndir, idrak deməkdir) – quldarlıq quruluşunun dağıldığı dövrdə meydana gəlmiş dini-fəlsəfi təlimdir. Qnostisizmə görə insan öz ehtiraslarını məhdudlaşdıra və mistik idrak (qnozis) yolu ilə dünyanın ilahi mahiyyətini dərk edə bilər. Qnostisizmin nümayəndələri olan qnostiklər dini-fəlsəfi cərəyanın xristian ideologiyasını Qədim Şərq dinləri, eləcə də neoplatonizm və pifaqorizmlə (pifaqorçuluqla) birləşdirirdilər. Başlıca nümayəndələri suriyalı Vasilid və misirli Valentin idi (ASE, 3-cü c., s. 187). Qnostisizmin son forması manilik olmuşdur.

İkinci dünya müharibəsindən sonra Misirdə qnostisizmə dair mətnlərin saxlandığı böyük arxiv tapılmışdır.

**Maarifçilik** – ictimai-siyasi cərəyan. Maarifçilik nümayəndələri mövcud cəmiyyətin nöqsanlarını aradan qaldırmağa, əxlaq, siyasət və məişətini xeyirxahlıq və ədalət ideyalarının, elmi biliklərin yayılması yolu ilə dəyişdirməyə çalışmışlar. Maarifçilik XVIII əsrdə sosioloji baxışların formalaşmasına təsir göctərmişdir. Yaxın və Orta Şərq ölkələrində maarifçilik ideyaları XIX əsrin 2-ci yarısı – XX əsrin əvvəllərində həm Qərbi Avropa, həm də rus maarifçiliyinin təsiri ilə





inkişaf etmişdir. Çox zaman bu ideyaları yayanlar Rusiya imperiyasının tərkibinə daxil olan Şərq xalqlarının nümayəndələri, o cümlədən azərbaycanlılar idi.

**Mani** (216–274, yaxud 276)– Qədim Şərq rəssamı Mani rəssamlıqdan başqa, dini-fəlsəfi görüşləri, həkimliyi, mühəndisliyi ilə də tanınmışdı. Hətta o, xüsusi əlifba yaratmışdır. Rəvayətə görə, Mani 24 yaşında özünü peyğəmbər elan etmiş, Şərq ölkələrini gəzərək yaratdığı dini yaymışdır. Maninin dini-fəlsəfi və əxlaqi görüşləri manilik adı ilı formalaşmışdır.

**Mehr** – şəriətə əsaslanan kəbini (nikahı) rəsmiləşdirən bir sənəddir. Evlənən şəxs kəbin kəsdirdikdə müəyyən məbləğdə (bu, əsasən, qızıl, yaxud mal-qara olur) qadın üçün mehr verdiyini qeyd edirlər. Əgər o, arvadı boşasa, həmin vəd olunmuş məbləği, yaxud mal-qaranı qadına verməlidir.

**Metafizika** (yunanca fizikadan sonra gələn sözündəndir) – dünyanın, varlığın fövqəlhissi prinsiplərindən bəhs edən fəlsəfi elmdir. Metafizika termini e.ə. I əsrdə Aristotelin fəlsəfi irsinin bir hissəsini göstərmək üçün meydana gəlmişdir. Müasir fəlsəfədə metafizika termini çox vaxt fəlsəfə sözünün sinonimi kimi işlənir. Aristotel birinci qrupa daxil olan əsərlərində varlığın hisslə qavranıla bilməyən «ali» əsaslarından bəhs edir. O, kitablarında şərh edilən elmi bəzən «birinci fəlsəfə», bəzən «Allah haqqında elm», bəzən isə «müdriklik» adlandırırdı.

**Məşşailik** – orta əsrlərdə müsəlman Şərqi ölkələrində Aristotelin və davamçılarının, qismən də Platonun əsərləri əsasında yaradılmış elmi-fəlsəfi təlim.

**Musa** – miladdan əvvəl 1571-ci ildə doğulub, 1451-ci ildə vəfat etdiyi qeyd olunur. «Musa» sözünün lüğəti mənası ibrani dilində «Sudan xilas olmuş oğlan» deməkdir. Musa peyğəmbərə insanlara təbliğ etmək məqsədilə Allah tərəfindən Tövrat nazil edilmişdir. Musa əleyhissəlama göndərilmiş olan Tövratın əsl nüsxəsi mövcud deyildir.

Qurani-Kərimdə buyurulur: «Biz Musaya kitab (Tövrat) verdik və: «Məndən başqa heç bir vəkil tutmayın (və ya tanrı qəbul etməyin)» – deyə, onu İsrail oğullarına (haqq yolu göstə-

rən) bir rəhbər təyin etdik» (əl-İsra surəsi, ayə 2).

**Müxəmmirə** – ərəbcə «qırmızı geyinmişlər» və ya farsca «surxəl» «qırmızı bayraqlılar» mənasını verir. Xürrəmilərin ardıcıllarına deyirdilər. Tarixdə ilk dəfə işğalçılara qarşı qırmızı geyimdə və qırmızı bayraq altında çıxış edən məhz xürrəmilik tərəfdarları olmuşlar.

**Mürşid və Mürid** – keçmiş vaxtlarda ədəbi-dini təriqətlərin başçısı mürşid (böyük), tabeləri isə mürid adlandırılırdı.

**Mütməinnə,** Nəfs-Mütməinnə – Allahın əmrlərini diqqətlə yerinə yetirib, qadağan etdiklərindən qorunmaqla mənəvi xəstəliklərdən qurtarmış, həqiqi və qüvvətli bir iman ilə hüzur və rahatlığa qovuşan bir nəfsdir. Nəfsin dördüncü mərtəbəsidir.

**Nəbi** – peyğəmbər, Allahın xəbərçisi. Kitab, şəriət sahibi olmayan peyğəmbər.

**Neoplatonizm** – III–VI əsrlərdə Roma imperiyasının tənəzzülü dövründə antik fəlsəfədə meydana gəlmiş yeni cərəyan. Məqsəd Platon fəlsəfəsinin ziddiyyətli ünsürlərini sistemləşdirib Aristotelin bir sıra ideyaları ilə birləşdirmək idi. Banisi Platon (III əsr) olmuşdur. Sonralar onun təlimini şagirdləri Ameli və Portiri davam etdirmişdir. Neoplatonizmə görə, ideyalar dünyası əlçatmaz və dərkedilməzdir, fəlsəfənin ən yüksək pilləsinə təcrübə və zəka vasitəsilə deyil, mistik ekstaz yolu ilə çatmaq olar. Neoplatonizm qədim Şərq fəlsəfəsinin inkişafına (Fərabi, İbn Sina və s.) çox böyük təsir göstərmişdir.

**Nifaq** – münafiqlik, ikiüzlülük, müsəlman kimi görünüb kafir olmaq.

**Nihilizm** (latınca «heç nə», «heç şey» sözlərindəndir) – heç bir müsbət idealla bağlı olmayan mütləq nöqteyi-nəzər. Nihilistlər hakim ideologiyanı, hakim əxlaq və davranış normalarını qəti inkar edirdilər. Nihilizm dini mövhumatı, idealist fəlsəfəni, ictimai və ailə həyatında istibdadı, «sənət sənət üçün», «elm elm üçün» prinsiplərini rədd edir, şəxsiyyət azadlığını və qadınların bərabərliyini təbliğ edir və təbiətşünaslığı öyrənməyə çağırırdılar.

**Nuh (ə.)** – rəvayətlərdə Nuh peyğəmbərin (ə.) əsl adının





Əbdül-Qəffar, Əbdül-Məlik, bəzilərində isə Əbdül-Əla olduğu qeyd olunmuşdur. Həddindən artıq ağladığına görə onu Nuh (ə.) deyə çağırırdılar. Naziksifətli, hündürboylu, irigözlü, nazik baldırlı və dərisi buğdayı rəngli bir kişi olan Nuh (ə.) güclü məntiqə malik idi. Nuh peyğəmbər (ə.) indiki nəslin ikinci atası sayılır. Tarixi mənbələrdə onun ömrünü 950 il qeyd edirlər.

Nuhun (ə.) tufanından xilas olanların sayı haqqında dəqiq məlumat yoxdur. Bəzi məlumatlara görə, onların sayı 72-80 olmuşdur. Nuhun (ə.) üç oğlu – Sam, Ham, Yafəs və arvadları da xilas olmuşlar ki, Yer üzərində olan indiki irqlər onlardandır.

Quran ayələrindən və s. mənbələrdən görünür ki, Nuhun (ə.) tufanı ümumi olub və bütün yer üzünü tutmuşdur. Necə ki, onun çağırışı ümumi olub və Yer kürəsinə göndərilən ən böyük peyğəmbərlərdən biridir. İslam terminologiyasında onlara «Ulul-əzm» peyğəmbərlər deyilir. Qurani-Kərimin əl-Ənkəbut surəsinin 15-ci ayəsində buyurulur: «Biz onu (Nuhu) və onunla birlikdə gəmidə olanları (tufan bəlasından) qurtardıq və bunu (bu hadisəni) aləmlərə (insanlara, sonrakı nəsillərə) bir ibrət etdik.»

Hətta qədim yunan, İran və Hindistan dini-tarixi kitablarında da tufanın bütün yer üzünü tutması haqqında dastanlar yazılmışdır.

Nuhun obrazı Şumer və Babil mifologiyası qəhrəmanlarının bir çox cizgilərini belə özündə birləşdirir. (ASE, 7-ci c., s.306) Azərbaycan mifologiyasında da Nuhun gəmisi barədə rəvayətlər vardır.

Son məlumatlara görə, bir qrup türkiyəli və çinli Nuh peyğəmbərin (ə.) gəmisinin qalıqlarını tapıb. Türkiyə mətbuatının məlumatına görə, bu iddia ilə Honq-Konqda sənədli film çəkilişləri ilə məşğul olan və Beynəlxalq Nuhun Gəmisi Araşdırmaları (Noah's Ark Ministries İnternational) qrupunun üzvləri çıxış ediblər. Qrupun üzvü Yanq Vinq Çinqin sözlərinə görə, Ağrı dağının təqribən 4 min metr hündürlüyündə olan zirvədə 4 min 800 il əvvələ aid olan gəminin taxta hissələri tapı-

lıb. Yanq tapılan parçaların Nuh peyğəmbərin (ə.) gəmisinə aid olmasına 99% əmindir. O bildirir ki, qalıqlar gəminin içərisində müxtəlif növ heyvanları saxlamaq üçün bölmələr olduğuna işarə edir. Çünki mütəxəssis bölgədə qazıntı aparılması və qazıntı işləri zamanı ərazinin mühafizə edilməsi üçün Türkiyə hökumətinə, eləcə də adıçəkilən ərazinin Dünya mədəni irsi siyahısına salınması üçün UNESCO-ya müraciət etmişdir.

**Nuşirəvan** – hərfi mənada «ölməz ruhlu» (? – 579). Sasani sülaləsinin ən məşhur hökmdarı [531–579] olmuşdur. Yaxın Şərq, eləcə də Azərbaycan ədəbiyyatında ədalətli bir hökmdar (Nuşirəvan Adil) surəti kimi mədh olunmuşdur.

**Nüsəyrilər** – ərəbcə «nüseyriyyə» sözündəndir – ifrat şiələr, şiəlik. Onun banisi Məhəmməd ibn Nüsəyr (təqr. 883-cü ildə Bəsrədə vəfat etmişdir) sayılır. On birinci şiə imamı Həsən əl-Əsgərinin (873-cü ildə vəfat edib) imamlığının tərəfdarı olan Məhəmməd ibn Nüsəyr bu imamın ilahiliyi haqqında təlim təbliğ etməyə başlamışdı, guya özü onun peyğəmbəri və elçisi idi. Nüsəyrilər onu Həsən əl-Əsgərinin babı (qapısı) adlandırırdılar. Nüseyrilərin (ələvilərin) təlimi şiəlik məzhəbinin, xristianlığın, həmçinin müsəlmanlıqdan əvvəlki astral din və etiqadların qarışığından ibarətdir. Nüseyrilərin təliminə görə, Allah üç ünsürün (Mənanın, Adın, Qapının) ayrılmaz vəhdətindən ibarətdir. Bu ünsürlər vaxtaşırı peyğəmbərlərin vücudunda təcəssüm edir. Bu üçlüyün son təcəssümü Əli ibn Əbu Talib və Salman əl-Farisidir. İfrat şiələrin əksəriyyəti kimi nüseyrilər də ruhun bir bədəndən digərinə keçməsinə inanır, İslamın mərasim və əxlaqi qadağalarını rədd edirlər. Onlar insanı ilahiləşdirir, xristian apostollarına, bəzi müqəddəslərə və cəfakeşlərə pərəstiş edir, xristian bayramlarını (milad, pasxa) qeyd edirlər və s. Bundan başqa onların təlimində astral etiqadların (günəşə, aya, ulduzlara sitayişin) ünsürləri qalmaqdadır.

Hazırda Suriyada nüseyrilərin iri icmaları var. Burada onlar bütün şiə əhalisinini üçdə iki hissəsindən çoxunu təşkil edirlər. Nüseyri icmaları Türkiyədə də vardır.

**Ontologiya** – yunanca «varlıq» və «təlim», söz sözündəndir.





Fəlsəfədə varlığın ümumi əsasları, prinsipləri, strukturu və qanunauyğunluğundan bəhs edən bölmədir. O, hər bir dövrün elmi idrak səviyyəsinə müvafiq gələn və müxtəlif fəlsəfi ənənələrə xas olan kateqoriyalar sistemində təsbit olunmuş dünya mənzərəsini ifadə edir. Bu mənada hər bir fəlsəfi sistem onun sabit məzmununu təşkil edən və idrakın inkişafı ilə dəyişikliyə məruz qalan ontoloji təsəvvürlərə əsaslanır.

**Ortodoksal** – yunanca «mömin», «sabit», «ardıcıl» sözlərindəndir. Müəyyən bir təlimə, (doktrinaya, baxışlar sisteminə) dönmədən riayət edən, bu təlimdən kənara çıxmayan şəxs. II əsrdə meydana gəlmişdir.

**Panteizm** – yunanca «hər şey» və «allah» sözündəndir. Aləmi Allahla eyniləşdirən fəlsəfi təlim. Orta əsrlərdə müsəlman Şərqində yayılmış sufilik, habelə hürufilik özünəməxsus panteizm dünyagörüşünə əsaslanırdı. Görkəmli nümayəndələri Sənayi, Rumi, Sədi, İbn əl Ərəbi, Yunus Əmrə, Eynəlqüzat Həmədani, Şəms Təbrizi, Mahmud Şəbüstəri, Nəimi, Qasım Ənvar və b.-dır.

Hazırda panteizm dünyanın Allahda mövcud olması haqqında dini-idealist nəzəriyyəyə çevrilmişdir.

**Peyğəmbərlər** – farsca mənası «xəbər gətirən» deməkdir. İslam dini ənənəsinə görə, Allahın rəsulu, digər dini təlimlərə görə Allahın buyruqlarını, göstərişlərini, vəhylərini dindarlara çatdıran mömin şəxs, vaiz. Qədim yəhudi dinində nəvi (ərəbcə nəbi) adlanmışdır. Dindəki mənası isə, Allahın insanlara doğru yolu göstərmək üçün vəzifə verdiyi seçilmiş bir insandır. Yəni peyğəmbərlər Allahla insanlar arasında elçilik edir, Allahın əmr və qadağalarını onlara çatdırır. İnsanlara təbliğ etmək məqsədilə Allah tərəfindən peyğəmbərlərə kitablar və səhifələr göndərilmişdir. Bir neçə səhifədən ibarət olanlara «sühuf», digərlərinə isə dörd böyük kitab deyilir.

Səhifələr:
10 səhifə – Adəm əleyhissəlama
50 səhifə – Şit əleyhissəlama
30 səhifə – İdris əleyhissəlama

10 səhifə – İbrahim əleyhissəlama nazil olmuşdur. Dövrümüzə bu səhifələrin heç biri gəlib çatmamışdır.

Böyük kitablar:

Tövrat – Musa əleyhissəlama

Zəbur – Davud əleyhissəlama

İncil – İsa əleyhissəlama

Qurani-Kərim Məhəmməd əleyhissəlama nazil olmuşdur.

Musa əleyhissəlama göndərilmiş olan Tövratın əsl nüxsəsi mövcud deyildir. Hazırda əldə mövcud olan Tövrat sonradan müxtəlif insanlar tərəfindən yazılmış, əlavələr və ixtisarlar edilmişdir.

Tövratın üç nüsxəsi var: ibranicə, yunanca, şami dilində. Bu nüsxələr bir-birinə uyğun gəlmir. Qurani-Kərim də Tövratın dəyişdirildiyini xəbər verir.

Yuxarıda qeyd etdiyimiz kimi, peyğəmbərlərdən bəzilərinə kitab göndərilmişdir ki, onlara, adətən, «Rəsul» deyilir. Kitab göndərilməyən peyğəmbərlər, özlərindən əvvəlki peyğəmbərlərə göndərilən kitablarla fəaliyyət göstərmiş və bu kitabları təbliğ etmişlər. Onlara da, adətən, «Nəbi» deyilir. Bu sözün cəm şəkli Ənbiyadır. Kitab göndərilmiş olan Rəsula Nəbi də deyilir. Ancaq başqa bir peyğəmbərə göndərilən kitabla fəaliyyət göstərən və o kitabı təbliğ edən Nəbiyə Rəsul deyilməz. Başqa sözlə, hər bir Rəsul eyni bir zamanda bir Nəbidir, ancaq hər bir Nəbi Rəsul deyildir.

Peyğəmbərlik möcüzələrlə sübut olunur. Möcüzə bir peyğəmbərin peyğəmbərliyinin şahidi deməkdir. Peyğəmbərlərdə ən zəruri beş xüsusiyyət vardır: sidq, əmanət, təbliğ, fətanət, ismət.

Sidq – doğruluq deməkdir.

Əmanət – etibarlı olmaqdır.

Təbliğ – elan etmək deməkdir.

Fətanət – ağıllı və müdrik olmaqdır.

İsmət – günahdan qorunmaq deməkdir.

Peyğəmbərlər üçün caiz olan sifətlər isə bütün digər insanlara da aid olan sifətlərdir. Peyğəmbərlər də insan olduğu üçün





bizim kimi yemək yeyir, yatır, yorulur və təbii ehtiyacları ilə məşğul olurlar. Ömürləri başa çatanda isə ölürlər.

Qurani-Kərimin İbrahim surəsinin 4-cü ayəsində buyurulur: «Biz hər bir peyğəmbəri yalnız öz millətinin dilində (danışan) göndərdik ki, (Allahın əmrlərini) ona izah edə bilsin».

İlk peyğəmbər Adəm əleyhissəlamla son peyğəmbər Məhəmməd əleyhissəlam arasında bir çox peyğəmbər gəlib-getmişdir. Onların dəqiq sayını ancaq Allah özü bilir. Çünki Quranda bəzi peyğəmbərlərin adı bildirilmiş, adı çəkilməyən daha bir çox peyğəmbərin olduğu ifadə edilmişdir. Qurani-Kərimdə 25 peyğəmbərin adı çəkilmişdir: Adəm, Nuh, İdris, Hud, Saleh, Şueyb, İbrahim, Lut, İsaq, İsmayıl, Yaqub, Yusif, Musa, Harun, Davud, Süleyman, Əyyub, Zulkifl, İlyas, Əlyəsa, Zəkəriyyə, Yunis, Yəhya, İsa və Məhəmməd əleyhissəlam.

Bunlardan başqa Quranda Zülqərneyn, Loğman və Üzeyrin də adı çəkilir. Ancaq onların peyğəmbər olub-olmadığı bilinmir. Onlar, bəzilərinə görə, peyğəmbər, bəzilərinə görə isə övliyadır. Onların da peyğəmbər olduğu qəbul edilsə, Qurani-Kərimdə adı çəkilən peyğəmbərlərin sayı 28-ə çatar.

**Peripatetik** – yunanca «gəzişirəm» sözündəndir. Orta əsrlərin ərəb müsəlman fəlsəfəsində prepatetiklərin baxışlarını məşşailər davam və inkişaf etdirmişlər ki, bu da Şərq peripatetizmi (əl-Məşşaiyyə) adlanır. Qeyd etməliyik ki, Şərq peripatetizminin nümayəndələri orijinal məntiqi sistem yaratmış, onu elm, sənət və təfəkkür qanunu kimi səciyyələndirmişlər.

**Peripatetik məktəb** – Aristotelin Afinada təşkil etdiyi fəlsəfi məktəb. Aristotel mühazirələrini Ligey xiyabanlarında gəzişərək oxuyarmış – məktəbin adı da buradan götürülmüşdür.

**Pifaqoreizm** – e.ə. VI–IV əsrlərdə Qədim Yunanıstanda ədəd haqqındakı təsəvvürü bütün mövcudatın əsas prinsipini hesab edən dini-fəlsəfi təlim. Bu təlim əvvəllər Pifaqor məktəbində sirr kimi bir-birinə şifahi ötürülürdü. Əsasında, ümumiyyətlə, ədədlər təlimi duran pifaqoreizm allahları, ruhları, kosmosu, incəsənəti, bütün şeyləri ədədlərlə təsvir edirdi. Pifa-

qoreizmdə hər ədədə müəyyən həyati məna verən son dərəcə orijinal hesab yaranmışdı.

**Plutarx – Plutarchos** (46– 127) – yunan filosofu, yazıçı və tarixçi. Plutarx 200-dən çox əsər yazmışdır, onların bir çoxu dövrümüzədək çatmamışdır. Plutarxın əldə olan bədii-fəlsəfi əsərləri «Etik əsərlər»də («Moralia») toplanmışdır. Plutarxın işləyib hazırladığı ellin humanizmi və vətəndaşlığı idealı Renessans və Maarifçilik dövründə geniş əxz edilmişdir. Tarixi janrda yazılmış «Paralel tərcümeyi-hallar» əsərində o, Qafqaz Albaniyası (albanların Pompeyə qarşı apardığı mübarizə, alban piyada və atlı qoşunları, onların silahları), bir sıra toponimlər (Kür, Araz çayları və s.)), Atropatena (Antoninin hücumu və s.) haqqında məlumatlar var. Plutarxın əsərləri qədim yunan, Roma, Şərq, o cümlədən Azərbaycan tarixinin öyrənilməsində mühüm mənbədir.

**Renessans** – fransızca «dirçəliş», «dirçəlmək» sözlərindəndir), İntibah – Qərbi və Mərkəzi Avropa ölkələrinin mədəniyyət tarixində orta əsr mədəniyyətindən yeni dövr mədəniyyətinə keçid dövrü. Renessansın təxmini xronoloji sərhədləri: İtaliyada 14–16-cı əsrlər, digər ölkələrdə XV əsrin sonu – XVI əsr. Renessans mədəniyyətinin mühüm xüsusiyyətləri onun dünyəvi xarakter daşımasında, humanist dünyagörüşü, antik mədəni irsə müraciəti və onun sanki «dirçəlməsindədir». Renessans adı da məhz buradandır.

**Riba** – ərəbcədir, sələmçilik, müamilə, borc faizi deməkdir. Müsəlmanlar üçün riba ciddi qadağan edilmişdir. Qurani-Kərimdə bu haqda dəfələrlə xəbər verilir.

**Romantizm** – XVIII əsrin sonu – XIX əsrin 1-ci yarısında Avropa və Amerika mədəniyyətində ideya-bədii cərəyan.

**Rövzə** – rəvayətə görə, heç biri öz əcəli ilə ölməmiş şiə imamlarının və ilk növbədə, İmam Əlinin və İmam Hüseynin rəşadətli həyatı və möminliyi, onların əzab-əziyyətlə öldürülməsi haqqında təhkiyədir. Rövzəxanlıq (rövzənin camaat üçün avazla oxunması) XVI əsrdən, yəni şiə ilahiyyatçısı Hatifinin «Rövzət əş-Şühəda» («Din yolunda şəhid olanların





bağçası») əsəri ərsəyə çıxdıqdan sonra başlamışdır. Əsərdə şiəliyin dini başçılarının həyatından bəhs edilir. Bayramlarda və müxtəlif dini mərasimlər yerinə yetiriləndə, o cümlədən aşura zamanı xüsusi din xadimləri – rövzəxanlar oxuyurlar.

**Səlib səfərləri, Səlib yürüşləri, Xaç yürüşləri** – 1096–1270-ci illərdə Fələstindəki müqəddəs yerləri müsəlmanların hakimiyyətindən azad etmək şüarı altında katolik kilsənin təşəbbüsü ilə Qərbi Avropa feodallarının Şərqdə işğalçılıq müharibələridir. Səlib yürüşləri iştirakçıları öz paltarlarına xaç nişanı tikirdilər – Xaç yürüşü adı buradandır.

Katolik kilsəsi öz nüfuzunu gücləndirmək və gəlirlərini artırmaq məqsədilə, güya «Həzrət İsanın (ə.) qəbrini» azad etmək və Şərq xristianlarına kömək bəhanəsilə səlib səfərləri ideyalarının geniş təbliğinə başlamışlar. Təqribən 200 il ərzində Şərqdə 8 böyük və çoxlu xırda işğalçı yürüşlər təşkil olunmuşdur. Səlib yürüşləri milyonlarla insanın mənasız qırğınına, Avropa və xüsusən Şərq üçün ağır itkilərə səbəb oldu. Sonralar səlib yürüşlərinin ideyalarından alman təcavüzkarlarının Baltikyanı və slavyan xalqlarına qarşı işğalçı yürüşlərində istifadə edildi.

**Sintoizm** – hərfi mənası «allahların yolu», «təlimi» deməkdir. Yaponiyada təşəkkül tapmış və burada buddizmlə yanaşı geniş yayılmış din. Sintoizmə görə, insanın mənşəyi sonsuz sayda ruhlardan, nüfuzlu allahlardan başlayır.

**Stoisizm** – yunanca «sütunlu eyvan» deməkdir. Ellinizmin və Roma fəlsəfəsinin mühüm cərəyanlarından biridir. Məktəbin adı Afinadakı «Səfalı stoya» (bina) eyvanı ilə əlaqədardır.

**Süleyman (ə.)** – Davud peyğəmbərin (ə.) oğlu və İsrail-Yəhudi padşahlarından biridir (e.ə. 965–928). Rəvayətə görə, qeyri-adi müdrikliyi ilə şöhrət qazanmışdı. Dini rəvayətə görə, heyvanların və quşların dilini bilirmiş. Süleyman obrazına klassik Şərq, o cümlədən Azərbaycan ədəbiyyatında müraciət edilmişdir.

**Sünnə** – ərəbcə «yol», «nümunə» deməkdir. Məhəmməd peyğəmbərin (s.) gördüyü işlər və söylədiyi fikirlər, ictimai həy-

at qaydalarının və Qurani-Kərimin, dini ayinlərin və hüquq təfsirinin mənbələrindən biridir. Sünnə hədislərlə təsbit olunmuşdur. Hədislər isə Həzrət Peyğəmbərin (s.) müasirlərinin adı ilə bağlanan, isnadla əsaslandırılan rəvayətlərdir, daha doğrusu, Məhəmmədin (s.) dedikləri, dinin və icmanın həyat quruluşunun müxtəlif məsələləri, onun çıxardığı qərarlar haqqında rəvayətlərdir.

**Sünnilik** – ən böyük İslam cərəyanıdır. Bu cərəyanın tərəfdarları özlərini əhl əs-sünnə (sünnə adamları) adlandırır və belə hesab edirlər ki, Peyğəmbərin (s.) ənənələrinə məhz onlar əməl edirlər. İlk dörd xəlifəni qanuni sayanlar, hədislərin qanuni məcmuələrinin düzgün olduğunu təsdiqləyənlər və dörd məzhəbdən birinə uyğun olaraq mərasimlərə, məişət qaydalarına və sosial qaydalara riayət edənlər sünni sayılırlar. Məzhəblər bunlardır: şafil, hənəfi, maliki və hənbəli. VIII əsrdə sünnilərdə sufilik, XVIII–XIX əsrlərdə isə vəhhabilik cərəyanları meydana gəldi. Dünya müsəlmanlarının əksər hissəsini sünnilər təşkil edir (ASE, 9-cu c., s. 106).

**Sührəvərd** – Cənubi Azərbaycanda orta əsr yaşayış məntəqəsi, şəhər. Zəncan yaxınlığında, Həmədana gedən yolun üzərində yerləşirdi. Həmdullah Qəzvininin məlumatına görə, 14-cü əsrdə xarabalığa çevrilmişdir. Ehtimal ki, monqol hücumları zamanı dağıdılmışdır.

**Şafiilər** – Əbu Abdulla Şafinin (767–795) dini-hüquqi məktəbinin, bütün müsəlman dünyasında indi də tanınan dörd məzhəbdən birinin adıdır.

**Şamanizm** – ibtidai icma quruluşunda bəzi xalqlarda yaranmış erkən din.

**Şərq peripatetizmi** (əl-Məşşaiyyə) – Orta əsrlərdə müsəlman Şərqi ölkələrində Aristotelin və davamçılarının, qismən də Platonun əsərləri əsasında yaranmış elmi-fəlsəfi təlimdir. Onun nümayəndələri Aristoteli özlərinin «ikinci müəllimi»i (əl-müəllim əl-əvvəl) adlandırmışlar.

Şərq peripatetizmi iki yerə bölünürdü: 1.Metafizika, təbiyyat, riyaziyyət; 2.Etika, məişət məsələləri və siyasət. Metafizikaya mütləq varlıq və onunla əlaqədar şeylər haqqında elm kimi baxılırdı. Şərq peripatetizminin nümayəndələri (Fərabi, İbn Sina, Bəhmənyar, C.Urməvi, N.Tusi və s.) orijinal məntiqi sistem yaratmış, onu elm, sənət və təfəkkür qanunu kimi səciyyələndirmişlər.





Şərq peripatetizmində idrakın hissi və əqli mərhələləri fərqləndirilir, şeylərin zahiri cəhətlərinin duyğular vasitəsilə qavranıldığı, onların mahiyyətinin isə əqlin sayəsində, məntiqin köməyi ilə dərk edildiyi göstərilirdi.

**Şəriət** – ərəbcə məqsədə doğru aparan «düzgün yol» deməkdir. Müsəlman davranışının, dini həyatının və hərəkətlərinin hüquqi normaları, prinsip və qaydaları kompleksidir.

**Şiəlik** – şiə təliminin adıdır, ərəbcə şiə – «tərəfdarlar», «ardıcıllar» sözündəndir. İslamda sünnilik ilə yanaşı böyük cərəyan, təriqətdir. Əli ibn Əbu Talıb (ə.) və onun Fatimədən (r.a.) olan uşaqlarının (Həsən (ə.) və Hüseyn (ə.)) xəlifəlik hüququnu müdafiə edən, Məhəmməd peyğəmbərin (s.) yeganə qanuni varisləri hesab edilən müxtəlif cərəyanların və təriqətlərin ümumi adıdır. Şiələr öz dini rəhbərlərini imam adlandırırdılar. Onlar Əlinin (ə.) nəslini təmsil edən 12 imamdan ibarət imamlıq yaratmışdılar. 1-ci İmam Əli (ə.), qalanları onun oğlanları Həsən (ə.), Hüseyn (ə.) və başqalarıdır. 12-ci imam, şiələrə görə, 971–978-ci illər arasında «qeybə» çəkilmiş, qiyamət günündə gəlib yer üzündə «ədaləti» bərpa edəcək Məhəmməd ibn əl-Həsən əl-Əsgəri (Mehdi Sahib-əz-Zaman) hesab olunur.

**Şüeyb** – Qurani-Kərimdə buyurulur: «Biz etdikləri pozğunluğa (günahlara) görə bu məmləkət əhlinin başı üstünə göydən bir əzab endirəcəyik! Həqiqətən, Biz dərindən düşünən bir qövm üçün (baxıb ibrət alsınlar deyə) o məmləkətdən açıq-aydın bir nişanə (xarabalıq) qoyduq. Mədyənə də qardaşları Şüeybi (peyğəmbər göndərdik). O dedi: «Ey qövmüm! Allaha ibadət edin! Qiyamət gününə inanın!.. Yer üzündə fitnə-fəsad törətməyin!» (əl-Ənkəbut surəsi, ayə 34–36)

**Şüubiyyə** – «başqa xalqlar» hərəkatı VIII əsrdə Xilafətdə, qeyri-ərəb xalqları, o cümlədən azərbaycanlılar arasında yaranmış və islam ölkələrinin mədəni (bəzən siyasi) həyatında ərəblərin hakim rolu iddiasını inkar edən mədəni-siyası hərəkatdır. Əsas xadimləri İbn əl-Müqətta, Həmzə əl-İsfahani və Biruni olmuşdur.

**Talmud** – qədim yəhudi dilində «öyrənmə» deməkdir. İudaizmin ehkamçı, dini-etik və hüquqi müddəalarının külliyyatı. Talmudda insanın Allahdan asılılığı, sosial qanun-qaydanın dəyişməzliyi, səbirlilik, başqa dindən olanlara nifrət təlqin edilir.

**Teokratiya** – yunanca hərfi mənası «Allahın hakimiyyəti» deməkdir. Siyasi və dini hakimiyyətin ruhanilərə məxsus olduğu dövlət formasıdır. Hazırda Vatikanda və bəzi Şərq ölkələrində, İranda, Küveytdə və s. yerlərdə mövcuddur.

**Teologiya** – yunanca «allah» və «söz», «təlim» sözlərindəndir. Allah, ilahiyyat deməkdir. Müəyyən dini təlimin sistemə salınmasıdər.

**Tərbiyə** – şəxsiyyətin ictimai və mədəni həyatda, istehsalda fəal iştirakına nail olmaq üçün onun məqsədyönlü, sistemli surətdə formalaşdırılması prosesidir. Təlim-tərbiyənin güclü vasitəsidir. Tərbiyə cəmiyyətin ən zəruri fnksiyalarından biridir, obyektiv prosesdir, adamların arzu və istəyindən asılı deyildir.

**Təriqət** – ərəbcədir. 1-ci sufilərin dini-mənəvi kamilləşmə yoludur. Qurandan götürülmüşdür. Sufilərin anlayışına görə, bu yol Allahı başa düşməyə, ona yaxınlaşmağa doğru aparır. 2-ci sufi qardaşlığıdır.

**Təsəvvüf** – İslamda geniş yayılmış ezoterik dini və fəlsəfi cərəyan. Təsəvvüf islam dinindəki mənəvi həyatın və əxlaqi dəyərlərin adıdır. Bu fəlsəfi-dini təlimdə insanın nəfsi ilə mücadilə edərək onu islah və tərbiyə etməsi, öz varlığından və dünyadan keçərək, Allaha qovuşması məqsədi izlənilir. Bəzi sufilərə görə, təsəvvüf sülhü olmayan bir savaş, nəfsə qul olmamaq, şeytana alçalmamaq, nəfsin nəsibini tərk edərək Haqqın nəsibini axtarmaq, zahirdən uzaqlaşıb batinə yaxınlaşmaq,





əziyyətləri gizləmək, comərdlik, zəriflik və təmizlik olaraq qiymətləndirilir.

İlk öncə sufi adını alan Əbu əs-Sufi (Suriyanın Rəml şəhərində) ilə başlayan təsəvvüf hərəkatı qısa zamanda bir çox islam ölkələrinə yayıldı.

Təsəvvüf tarixinin mənbələri zöhd (İslamın ilk yarandığı dövrlər) və təriqətlər dövrü olaraq müəyyənləşdirilmişdir.

**Təziyə** – ərəbcə «yas» deməkdir. 680-ci il oktyabrın 10-da (hicrətin 61-ci ilinin Məhərrəm ayının 10-da) Kərbəla yaxınlığında şəhid olmuş 3-cü şiə imamı Həzrət Hüseynin (ə.) xatirəsini yad edən şiə müsəlmanlarının dini şəbih mərasimidir.

**Tövhid** – ərəbcə «birləşmə», «birləşdirmə», «təkallahlılıq», «monoteizm» mənasındadır. Allah yeganəliyi və təkliyi «la ilahə illəllah» kəlamında tapmışdır. İslamın başlıca ehkamı vahid Allaha inam – Tövhiddir. İslam təriqətlərində göstərilir ki, bəşəriyyətin ilk dini ilahidən (Allahdan) vəhy gələn haqq din – Tövhid dinidir. Tək Allaha –Tövhidə təzim edilməsinə əsaslanan islamın banisi Məhəmməd peyğəmbər (s.) ərəb ənənələrinə üstünlük verərək və hənəfilərdən bəhrələnərək, Məkkədə politeizm (çoxallahlıq) dini əleyhinə çıxış edirdi. O, inadkarlıqla tək Allaha – Tövhidə təzim etməyə qərar verdi.

**Utopiya** – yunanca «olmayan yer», «xoşbəxt yer», «xoşbəxt ölkə» deməkdir. Elmi cəhətdən əsaslandırılmayan ideal ictimai quruluşu bildirir. Sonralar bu anlayış uydurma, həyata keçirilə bilməyən ictimai qaydaları səciyyələndirmək üçün işlədilmişdir.

**Ümmət** – ərəbcə «xalq», «millət» mənasındadır. Müsəlman icmasının, bütün müsəlmanların birliyinə deyilir. Bu söz Quranda işlədilir.

**Zəkəriyyə, Yəhya** – Qurani-Kərimdə buyurulur: «(Allahdan belə bir nida gəldi: «Ey Zəkəriyyə! Sənə bir oğulla (oğlun olacağı ilə) müjdə veririk ki, adı Yəhyadır. Biz bu adı əvvəllər heç kəsə verməmişik.» (Məryəm surəsi, ayə 7)

(Yəhya dünyaya gəldikdən sonra ona dedik): «Ey Yəhya! Kitabdan bərk yapış! (Tövratı möhkəm tutub onun hökmləri-

nə ciddi əməl et!) Biz uşaq ikən ona hikmət (Allah kəlamının incəliklərini anlamaq, peyğəmbərlik) verdik» (Məryəm surəsi, ayə 12).

«Biz İsrail oğullarına kitabda (Tövratda): «Siz yer üzündə (Zəkəriyyanı, sonra da Yəhyanı öldürməklə) iki dəfə fitnə-fəsad törədəcək və çox dikbaşlıq (yaxud zülm) edəcəksiniz» – deyə bildirdik» (əl-İsra surəsi, ayə 4).

**Yəqub (ə.)** – İsaq peyğəmbərin (ə.) oğlu.

«Bir zaman Yusif atasına demişdi: «Atacan! Mən (yuxuda) on bir ulduz və Günəşlə Ayı gördüm. Gördüm ki, onlar mənə səcdə (təzim) edirlər». (Atası Yaqub) dedi: «Can oğul! Yuxunu qardaşlarına danışma, yoxsa sənə bir hiylə qurarlar... Yuxuda gördüyün kimi Rəbbin səni (başqalarından) seçib üstün tutacaq, sənə yuxu yozmağı öyrədəcək, bundan əvvəl babaların İbrahimə və İshaqa nemətini tamamlayıb (peyğəmbərlik) verdiyi kimi, sənə və Yaqub nəslinə də tamamlayıb verəcək...»» (Qurani-Kərim, Yusif surəsi, ayə 4-6)

**Yunus (Yunis)** – dini rəvayətə görə, uydurduğu möcüzə yalan çıxdığı üçün qaçıb Dəclə kənarına gəlmiş, gəmiyə minmiş, günahkar olduğundan gəmi onu aparmamışdır, Yunusu suya atmışlar. Bir böyük balıq onu udmuş, o da balığın qarnında tövbə və dua etmişdir. Allah Yunusun duasını qəbul etmiş, bir müddət sonra balıq onu kənara buraxmışdır.

Qurani-Kərimdə 109 ayədən ibarət Yunus surəsi vardır. əl-Ənbiya surəsinin 87-88-ci ayələrində buyurulur: «Zün-Nunu (balıq sahibi Yunisi) da xatırla!) Bir zaman o (küfr etməkdə həddi aşmış ümmətinə qarşı) qəzəblənərək çıxıb getmiş və (Bizə xoş gəlməyən bu səbirsizliyinə görə) onu möhnətə düçar etməyəcəyimizi (gücümüzün, yaxud hökmümüzün ona yetməyəcəyini) güman etmişdi. Amma sonra qaranlıqlar içində (balığın qarnında; gecənin, yaxud dənizin zülmətində): «(Pərvərdigara!) Səndən başqa heç bir Tanrı yoxdur. Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam (əmrinə qarşı çıxaraq özümə zülm eləmişəm)», – deyib dua etmişdi.





Biz onun (Yunisin) duasını qəbul buyurduq və (balığın qarnından çıxartmaqla) onu qəmdən qurtardıq. Biz möminlərə belə nicat veririk».

**Yusif (ə.)** – Yəqub peyğəmbərin (ə.) oğlu. Qurani-Kərimdə buyurulur: «(Yusif (ə.) atası ilə bir müddət gözəl dövran sürdükdən sonra Yəqub (ə.) vəfat etdi. Yusif (ə.) atasını aparıb öz vətənində dəfn etdi və dünyanın heç bir etibarı olmadığını gördükdə Allaha dua edərək Ondan ölüm diləyib dedi:) Ey Rəbbim! Sən mənə səltənətdən (istədiyimdən də artıq) bir pay verdin. Mənə yuxu yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim ixtiyar sahibimsən. Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!» (Yusif surəsi, ayə 101).

Qurani-Kərimdən: «Elçilərimiz (mələklər) İbrahimə (İsaqın, sonra da Yəqubun doğulacağı barədə) müjdə gətirdikləri zaman: «Biz bu məmləkət əhlini məhv edəcəyik, çünki onlar zalımdırlar (Allaha asi olmaqla, onun peyğəmbərini təkzib etməklə, çirkin işlər görməklə özləri-özlərinə zülm edirlər), dedilər». (İbrahim) dedi: «Orada (onların içində Allahın mömin bəndəsi) Lut da var! Onlar: Biz orada kimin olduğunu (hamıdan) yaxşı bilirik. Biz onu və ailəsini mütləq xilas edəcəyik. Yalnız övrətindən başqa. O (əzab içində) qalanlardan olacaq!» - deyə cavab verdilər.» (əl-Ənkəbut surəsi, ayə 31-32)

Dini rəvayətə görə, qədim Fələstində Lut peyğəmbərin (ə.) arvadı onun dinini qəbul etməyənlərə qoşulub ərindən üz döndərmişdir.

Sədi Şirazi «Gülüstan»da bu barədə yazır:

Pislərə yar oldu Lutun arvadı,
Ayrıldı peyğəmbər xanədanından.

**Vəhhabilik** – hənbəli məzhəbinin ideya və prinsiplərinin ifrat şəkildə inkişafıdır. Hənbəliliyin əsasını Əhməd ibn Məhəmməd ibn Hənbəl (780–955, Bağdad) qoymuşdur. Hənbəlilik İslamda yeniləşmə, dəyişmə və təkamülün əleyhinə olmuş, İslam dinini ilkin şəklində mənimsəməyi, yalnız Quran və hədislərə itaəti təbliğ etmişdir.

Vəhhabiliyin təməli Ərəbistanda XVIII əsrin ortalarında Məhəmməd ibn Əbd əl-Vəhhab tərəfindən qoyulmuşdur. İbn Əbd əl-Vəhhaba görə, tövhid, qulun Allahı bir tanımasıdır. Tövhid sözünü (la ilahə iləllah) söyləmək, Allahdan başqa sitayiş olunan şeyləri tanımamaqdır. Allahla ürəklə, dillə və davranışlarla birləşməlidir. Bunlardan birinin əskik olması vəziyyətində adam müsəlman ola bilməz. Vəhhabiliyin ən əhəmiyyətli xüsusiyyətlərindən biri də bidətlər qarşısındakı ciddi etirazlardır. İbn Əbd əl-Vəhhaba görə, Quran və Sünnədə olmayan hər şey bidətdir.

Hazırda Vəhhabilik təlimi Səudiyyə Ərəbistanında rəsmən tanınmış İslam etiqadıdır.

**Vəhy** – lüğəti məna etibarilə vəhy «gizli danışmaq», «əmr etmək», «işarə etmək», «səsləndirmək», «pıçıldamaq», «yazmaq», «tələsmək» deməkdir. Müqəddəs kitabımız Qurani-Kərimdəki müxtəlif ayələrində vəhyin yuxarıda sadalanan mənalarına rast gəlinir. Ayrıca «vəhy» sözü Allahın peyğəmbərlərinə bəzi şeyləri bildirməsinə, izah etməsinə də deyilir.

**Volyuntarizm** – fəlsəfədə insan iradəsini varlığın ali prinsipi hesab edən cərəyan. Volyuntarizm termini, həmçinin tarixi prosesin obyektiv qanunları ilə hesablaşmayan və ayrı-ayrı siyasi xadimlərin subyektiv arzularını və özbaşına qərarlarını rəhbər tutan ictimai-siyasi praktikanı xarakterizə etmək üçün işlədilir.

*Qurani-Kərimdə Zülqərneyn, Loğman və Üzeyirin də adlarının çəkildiyi barədə məlumat vermişdik. Ancaq onların peyğəmbər olub-olmadığı bilinmir. Bu şəxsiyyətlər bəzilərinə görə peyğəmbər, bəzilərinə görə isə övliyadırlar. Onların haqqında da məlumat verməyi özümüzə borc bildik.*

**İsgəndər, Makedoniyalı İsgəndər, İsgəndər Zülqərneyn** (e.ə. 356–323) – qədim dünyanın görkəmli sərkərdəsi və dövlət xadimi, Makedoniya padşahı [336-cı ildən], Aristotelin şagirdi. E.ə. 336-cı ildə atası II Filipp öldürüldükdən sonra hakimiyyətə keçmişdir. İsgəndərin hərbi yürüşləri Qədim Yunanıstan hərbi





sənətinin yüksək mərhələsi olmuşdur. Adı Şərq ədəbiyyatında, mifologiyasında, folklorunda və tarixi mənbələrdə İsgəndər Zülqərneyn kimi geniş yayılmışdır. İsgəndərin Azərbaycanda olması haqqında müxtəlif rəvayətlər var. Azərbaycan nağıllarında İsgəndər Zülqərneynin adı çəkilir. Nizami Gəncəvinin «İsgəndərnamə» poemasında İsgəndərin həyatından, hərbi səfərlərindən, fəlsəfi görüşlərindən bəhs edilir. Poemada onun Bərdə hakimi Nüşabə ilə görüşü də təsvir olunur. Nizami Gəncəvi poemanın «Şərəfnamə» bölməsinin giriş hissəsində İsgəndəri üç cəhətdən, yəni fateh, hakim və peyğəmbər kimi səciyyələndirir:

Öncə söz açaram padşahlığından,
Cahangirliyini edərəm elan.
Hikmətlə bəzəkli söz yazaram mən,
Köhnə tarixləri təzələrəm mən.
Döyərəm qapını peyğəmbərliyə,
Tanrı da bəyənmiş, peyğəmbər, – deyə.

Qurani-Kərimin əl-Kəhf surəsinin 83–99-cu ayələrində məhz Zülqərneyndən bəhs edilir.

Qurani-Kərimin əl-Kəhf surəsinin 83–86-cı ayələrində buyurulur: «(Ya Rəsulum!) Səndən Zülqərneyn barəsində soruşarlar. De: «Onun barəsində sizə bir hekayət (bəzi xəbərlər) söyləyəcəyəm! Biz onu yer üzərində möhkəmləndirib qüvvətləndirdik və hər şey verdik (hər şeyin yolunu ona öyrətdik). O, (məğribə çatmaq üçün) yola çıxdı. (Tövbə qapısı məğribdə olduğuna görə səfərini oradan başladı). Nəhayət, günəşin batdığı yerə gəlib çatdıqda onu qara palçıqlı bir çeşmədə (lehməli bir suda) batan gördü. O, çeşmənin yanında (Allahı tanımayan, kafir) bir tayfa da gördü. Biz ona belə buyurduq: «Ya Zülqərneyn! Sən onlara (imana gəlməsələr) əzab da verə bilərsən, (haqq yola dəvət edib) onlarla yaxşı rəftar da edə bilərsən!»

Ətrafa nur saçan parlaq günəştək,

Yalan vəsvəsədən uzaq bir mələk
Parlaq gövhər saçdı şah hüzuruna,
Allahın vəhyini yetirdi ona:
Bu saysız dağlarcan, coşqun çaylarcan,
Alqışlar göndərdi sənə yaradan!
O səni dünyada şahlıqla birgə
Ləyaqətli bildi peyğəmbərliyə.

*Nizami Gəncəvi*

**Loğman** – Yaxın Şərqdə əsatiri surət, bütün xəstəliklərə əlac edən əfsanəvi həkim və mütəfəkkir. İslamaqədərki ərəblər arasında peyğəmbər və şair təbiətli hökmdar kimi təsvir olunmuşdur (ASE, 6-cı c., s.255). Qurani-Kərimin 31-ci surəsi «Loğman surəsi» adlanır. Klassik Şərq, o cümlədən Azərbaycan ədəbiyyatında (Nizami, Füzuli və b.-nın əsərlərində), habelə şifahi xalq yaradıcılığında hikmətli və nəsihətamiz kəlamlar müəllifi, ağıllı və bacarıqlı həkim kimi təsvir edilir. Qurani-Kərimin ayələrində Loğman hikmətli kəlamları, nəsihətləri, uzaqgörənliyi ilə nəzəri cəlb edir.

Qurani-Kərimin Loğman surəsinin 12,16-19-cu ayələrində buyurulur. «Həqiqətən, Loğmana: «Allaha şükr et!» (deyə) hikmət verdik...». «(Loğman (öyüd-nəsihətinə davam edərək) dedi: «Oğlum (dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın (daşın) içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu (qiyamət günü) ortaya gətirər (onun haqq-hesabını çəkər). Həqiqətən, Allah lətifdir (bütün incə, nazik işləri biləndir, lütfkardır), (hər şeydən) xəbərdardır! Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir. Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz. Yerişində müvazinət gözlə (nə çox yeyin, nə də çox asta get) və (danışanda) səsini qaldırma, çünki ən çirkin səs uzunqulaq səsidir!»





## Qaynaqlar


1. Abbasov V. Bioloji varlıqların şəxsiyyətə ucalmaq yolu. Müdrik kəlamlar. Bakı, 2003.
2. Abbasov V. Liderlik fəlsəfəsi, Bakı, 2004.
3. Azərbaycan Sovet Ensiklopediyası, 1-10-cu c.-lər, Bakı, 1976–1987.
4. Aleksandr Düma. Qafqaz xatirələri, Bakı, 1985.
5. Алиев И. История Мидии, Москва, 1960.
6. Azərbaycan ədəbiyyatı tarixi, 3 c.-də, c. 1, Bakı, 1960.
7. Azəroğlu B. Saib Təbrizinin sənət dünyası, Bakı, 1980.
8. Axundov M.F. Əsərləri, 1-3 c., Bakı, 1958–1962.
9. Ağamirov M. Sabirin dünyagörüşü, Bakı, 1962.
10. Aslanov E. Yeni intellektual məkana doğru, «Yeni Azərbaycan» qəzeti, 2 iyun 2010.
11. Bəhramova N. Həzrəti Əlinin kəlamları, Bakı, 1991.
12. Baltasar Qrasian. Kamillik elmi, Bakı, 2000.
13. Bünyadov T. Əsrlərdən gələn səslər, Bakı, 1993.
14. Буниатов З.М. Образ источников по истории Азербайджана (источники арабские), Баку, 1964.
15. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136–1225), Bakı, 1985.
16. Cəfərzadə Z. 500 hədis, nəşr edən Daneşe Hamidun, 2000.
17. Cəfər M. Azərbaycan ədəbiyyatında romantizm, Bakı, 1963.
18. Çərkəsov B. İpə-sapa düzülmüş incilər, Bakı, 1981.
19. Dünya uşaq ədəbiyyatı kitabxanası: Xaqani, Nizami, Füzuli, Məhsəti, Heyran xanım, Natəvan. Seçilmiş əsərləri, Bakı, Gənclik, 1987.
20. Дубинин Н.П., Экономическая альтернатива, Москва, 1990.
21. Davud Nəsib. Cavanşir, Bakı, 2000.

22. Elşad Miri. İslamda ailə həyatı, Bakı, «Nurlan» nəşriyyatı, 2006.
23. Elşad Miri. «İslamda qadın-kişi bərabərliyi», Bakı, «Nurlan» nəşriyyatı, 2006.
24. Elşad Miri. İslamda qadının ictimai həyatdakı rolu, Bakı, «Nurlan» nəşriyyatı, 2006.
25. Eyvazov F. Nəsirəddin Tusinin etik görüşləri, Bakı, 1976.
26. Eyvazov F. Dahi alim və filosof, Bakı, 1981.
27. Əntiqə. Azərbaycan bazarında genetikası dəyişdirilmiş məhsullar, «Olaylar» qəzeti, 26 dekabr 2007.
28. Əkbərov F., Camalov N. İnsan, mənəviyyat və əxlaq, Bakı, «Mir» nəşriyyatı, 2003.
29. Əbül Əbbas Müstəqfəri, Məhəmməd Xəlili, Həzrəti Muhəmmədən – tibnamə, «Azad fikir» tərcümə mərkəzi, Bakı, 2006.
30. Əhməd Həbibullah. Allahın elçisi. Tərcümə edəni Məhəmməd Turan, naşiri Təharət, 2005.
31. Əbülfəzl Əlami. Quranın tilavət qaydaları. Tərcümə edəni Azər Turab, naşiri Darul -huda, 2005.
32. Əliyev C., Budaqov B. Türklər, azərbaycanlılar, ermənilər: Tarixi həqiqətin soyqırımı, Bakı, 2003.
33. Əliyev Q. Təbabət fəlsəfəsi, Bakı, 2000.
34. Əsgərov Ş. Təhsil və elm, «Kəlam» jurnalı, № 38, 2009.
35. Əlizadə A. Millətin əxlaqı nəyin əsasında formalaşmalıdır, «Səs» qəzeti, 19 yanvar 2010.
36. Fazili A. Azərbaycanın qədim tarixi İran tarixşünaslığında, Bakı, 1970.
37. Göyüşov E. Azərbaycan maarifçilərinin etik görüşləri, Bakı, 1960.
38. Hacı Sabir Həsənli. 101 hədis (Həzrəti Mühəmməd əleyhissəlamın söylədikləri), Bakı, 1990.
39. Hüseyn Suri. 40 mövzu və 40 həqiqət. Tərcümə edəni Rza Şükürbəyli. Sadat Rəzəvi nəşriyyatı, 2005.





40. Haluk Nurbaqi. Qurani-Kərimdən ayələr və elmi həqiqətlər, Bakı, 2004.
41. Həsənli B., Ağalarova Ş. Dünya mənim, dünya sənin. Beynəlxalq Humanitar Hüququn öyrənilməsi üçün şagird kitabı, Bakı, 1964.
42. Hüseynov R. Min ikinci gecə, Bakı, 1988.
43. Həkimov M. Xalqımızın deyimləri və duyumları, Bakı, 1986.
44. Hüseynov İsa («Muğanna»). İdeal, Bakı, 1988.
45. Həsənov Mirələkbər. İslam fəlsəfəsinə, tarixinə və məntiqinə dair ensiklopedik məlumatlar, Bakı, 2007.
46. Həsənov Qabil. Qlobal istiləşmə: ekologiya və iqtisadi problem, «Respublika» qəzeti, 31 iyul 2007.
47. Həmidov Ə. (Ənvər Mete). Ekologiya və sağlamlıq, Bakı, 1990.
48. Həmidov Ə. (Ənvər Mete). Torpağımız, məhsullarımız və sağlamlığımız, Bakı, 1990.
49. Həmidov Ə. (Ənvər Mete). Loğmanlar yurdu, Bakı, «Nurlan» nəşriyyatı, 1991.
50. Ənvər Mete. O torpağın övladları, Bakı, «Nurlan» nəşriyyatı, 2006.
51. Ənvər Mete. Loğmanlar, Bakı, «Nurlan» nəşriyyatı, 2008.
52. Ənvər Mete, Nadir Əhmədov. İblis xislətli erməni, Bakı, 2009.
53. Harun Yəhya, Quran möcüzələri. Çevirəni Elşad Miri.
54. Hafiz Mirzə. Ekologiyanı insanlardan qorumalı, «Olaylar» qəzeti, 15-17 avqust 2009.
55. Hafiz Mirzə. Dünyanın əşrəfi sayılan insan və biosfera, «Olaylar» qəzeti, 18 avqust 2009.
56. Xatəmül-Ənviya. Həzrəti Məhəmməd və həyatı, Ankara, 1993.
57. Xanımlar xanımı Həzrəti Fatimeyi-Zəhra (ə), «Əlhudə» Bakı, «Şərq-Qərb» nəşriyyatı, Bakı, 1993.
58. İkrami. Məsum imamlardan tibnamə, Bakı, 2006.

59. İmaməliyeva-Babanlı T., İmaməliyeva V., İmaməliyev R., Hikmət və kəlam ensiklopediyası, Bakı, 1998.
60. Ибрагимбеков М., Завтра будет поздно, В.сб.: Конфликт в Нагорном Карабахе, Bakı, 1990.
61. İsmayılov M. Nübüvvətin qayəsi, «İrfan» jurnalı, №28, 2009.
62. İbrahim Baz. Bir gün dünyanın da qəlbi dayanacaq, «İrfan» jurnalı, № 28, 2009.
63. Kərimov Q. Şəriət və onun sosial mahiyyəti, Bakı, 1987.
64. Kəlilə və Dimnə, Bakı, 2006.
65. Керимов У.И. «Из философского наследия народов Востока», Дашкэнд, 1972.
66. Köçərli F. Bəstəkarın xatirəsi, Bakı, 1976.
67. Qabusnamə, Bakı, 1989.
68. Qasımov Elşən. Attila, Altunkitab, 2007.
69. Qüdrətov O.H., Qüdrətov N.O. Peyğəmbərə 40 sual, Bakı, Bilik, 1993.
70. Quliyev G. Nizami və təbabət, Bakı, 1993.
71. Qurani-Kərim məali. Azərbaycan dilinə tərcüməsi. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Bakı, «Qismət» nəşriyyatı, 2006.
72. Lokman Helvaçı. Gələn qalmaz, gedən gəlməz, «İrfan» jurnalı, № 28, 2009.
73. Mahmudov M. Yurdumuzun ərəbdilli mədəniyyəti, «Azərbaycan» jurnalı, № 3, 1979.
74. Mehmet Kamal Pilavoğlu. Böyük insan Həzrəti Əli, «Günəş» nəşriyyatı, Bakı, 2008.
75. Məhəmməd Peyğəmbər. Kəlamlar, Bakı, 1990.
76. Məhəmməd Riza Məhdəv Kəni. İslamda əxlaq, tərcümə edəni Ceyhun Cəfərov, Bakı, «Qələm» nəşriyyatı, 2005.
77. Məmməd Araz. Daş harayı, Bakı, 1992.





78. Məmmədov Z.C. Bəhmənyarın fəlsəfəsində «ilk səbəb» və «nəticə» anlayışına dair, Azərbaycan SSR EA Xəbərləri, №3, 1973.
79. Məmmədov Z.C. Azərbaycanda XI–XIII əsrlərdə fəlsəfi fikir, Bakı, 1978.
80. Məmmədov (Gəncəli) S. Ömürlərdən səhifələr, Bakı, 1973.
81. Məmmədov Urbaş. Kimləri sevməli, «İrfan» jurnalı, № 28, 2009.
82. Məmmədyarov Şünazi Əhəd oğlu. İslamda dövlətçilik prinsipləri. Avtoreferat, Bakı, 2009.
83. Məryəm Selcan. İlahi möcüzələr, 1-2-ci c., Bakı, 2008.
84. Məti Osmanoğlu. Əmir Teymurun vəsiyyətləri, Bakı, 1991.
85. Mir Cəlal. Cəlil Məmmədquluzadə realizmi haqqında, Bakı, 1966.
86. Mirbağırov K. Seyid Əzim Şirvani, Bakı, 1959.
87. Misbah Yəzdi. Allaha doğru (əxlaq dərsləri). Tərcümə edəni Məhəmməd Azəri, naşiri Surusu Mehr, 2005.
88. Musazadə Ə. Ziyalı və ictimai məsələlər, Əmir Kəbir nəşriyyatı, 1992.
89. Nizami Gəncəvi. İsgəndərnamə, Bakı, 1982.
90. Süleymanoğlu N., Asifqızı K. Allaha səcdələrlə, Bakı, 2004.
91. Nəsirəddin Tusi, Əxlaqi-nasiri, Bakı, 1989.
92. Nəzərli S. Heydər Əliyev Atatürk haqqında, Bakı, 2003..
93. Nəzərli S. Müdrik Atatürk, Bakı, 2006
94. Nərimanov N. Seçilmiş əsərləri, Bakı, 2001.
95. Nehru Cəvahirləl. Ümumdünya tarixinə nəzər, Bakı, 1986.
96. Osman Nuri Topbaş. Məsnəvi dəryasından abi-həyat qətrələri, Anadolu türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran Məmməd Aslan, Bakı, «İpək yolu» nəşriyyatı, 2007.

97. Osman Nuri Topbaş. Haqq dostlarının nümunəvi əxlaqından. Axirəti dünyadan üstün tutmaq, «İrfan» jurnalı, № 28, 2009.
98. Rəmzi C. Mani, Bakı, 1979.
99. Rüstəmxanlı S. Ömür kitabı, Bakı, 1988.
100. Saleh bəy. Dünyanın taleyi, Bakı, 1998.
101. Salamzadə Ə.V. Əcəmi Naxçıvani, Bakı, 1976.
102. Sədi Şirazi. Gülüstan. Bakı, 2006.
103. Səməd Vurğun. Seçilmiş əsərləri, 1–3 c., Bakı, 1986-1987.
104. Səmədov A. Hikmət sahibləri, Bakı, 2008.
105. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim, Bakı, 1987.
106. Şinazi G. Missionerlik, Bakı, 2006.
107. Tağıyev R. Salman Mümtaz. Bakı, 1974.
108. Türkoğlu A. Ateizm və onun tənqidi, Diyanət işləri Başkanlığı Nəşrləri, Ankara, 1999.
109. Vahabzadə B. Seçilmiş əsərləri, 2-ci c., Bakı, 1975.
110. Vahabzadə B. Axı dünya fırlanır, Bakı, 1987.
111. Vahabzadə B. Gəlin açıq danışaq, Bakı, 1988.
112. Vahabzadə İ. Süleyman Rüstəm və Cənub mövzusu, Bakı, 1986.
113. Vəlixanlı N. 11-ci əsrin görkəmli alimi Əbu-r-Reyhan əl-Biruni, Azərbaycan SSR EA Xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası), 1973, №3.
114. Verdiyeva Z. Üzbəüz, «Azərbaycan gəncləri» qəzeti, 1 oktyabr 1988.
115. Yunus Əmrə. Aşiq Veysəl, İki zirvə. Tərtib edəni və çevirəni Məmməd Aslan, Bakı, 1982.
116. Zəkiyev Ə. Bəhmənyarın fəlsəfi görüşləri, Bakı, 1958.





## İçərisi

Həyat baxçasından hikmətli damlalar ... 3
Ön söz ... 5

**I FƏSİL. Söz tanrının möcüzəsidir** ... 17
İntellektual ekologiya (abi-hava, abi-həyat) və onun yaradıcı amili – Söz ... 18

**II FƏSİL. Şərqin hikmətlər simfoniyası** ... 54
Dinlərin və elmlərin beşiyi Şərq ... 55
Ön və Orta Şərqin bəzi müqəddəs şəxsiyyətləri haqda qısa məlumat ... 79
Ön və Orta Şərqdə qədim dini-əxlaqi, sosial-etik, fəlsəfi təlimlər ... 102
Ön və Orta Şərq mütəfəkkir, alim, filosof və dövlət xadimlərinin sosial-etik, dini fəlsəfi baxışları ... 107
Ön və Orta Şərqdə dövlətçiliyin təkamülünə təkan verən şəxsiyyətlər ... 152
Ana insaniyyətin məşəl aparanı, onun ayaqları altındadır Cənnət ... 184
Soyuq məzara da zinətdir insan ... 199

**III FƏSİL. Müsbət intellektual ekoloji tarazlığı yaradan** Amillər ... 209
Sözün ucalığı ... 210
Qiymətli incidir hikmətli kəlam ... 218
İslam mütləq həqiqətlərdən gələn göyün yerə müjdəsidir ... 230
Kamilliyə, inkişafa meyil insan xislətinin ilahi nemətidi ... 238
Tərbiyə cəmiyyətin həyat və inkişafı üçün əsas amildir ... 264
İslamda ailə həyatı, qadın və kişi münasibətləri ... 280
Yer planeti əcdadımızın məskunlaşdığı məkandır ... 292

İnsan ağlı, təmiz qəlbi, təvazökarlığı, əxlaqı və mənəviyyatı sayəsində yüksəlir, müdrikliyi ilə tanınır ........................... 298
Vicdan insanın daxili məhkəməsidir, o, həqiqətə güvənir. Ədalət dövlətin xəzinəsidir ................................... 316
Doğruluq dost qapısıdır, həqiqət ağlın günəşidir, etiraf və tövbə insanın mənəvi paklığıdır ............................ 323
Mərhəmət, şəfqət, yaxşılıq, eşq-məhəbbət... insanın ilahi xislətləridir.................................................. 330
Mərdlik – qorxuya nifrət, qələbəyə başlanğıc, dost isə çətin və ağır günlərin dayağıdır........................................ 347
Əmək insanın formalaşmasında, gənc nəslin tərbiyəsində, bəşəri əlaqə və münasibətlərin yaranmasında əsas meyardır.............................................. 357

**IV FƏSİL. Mənfi intellektual ekoloji sferanı yaradan amillər** ................................................................................ 365
Kainatda hər şey ziddi ilə bilinir ....................................... 366
İblis bütün pisliklərin baş təmsilçisi və təhrikçisidir ........... 369
Təkəbbür və lovğalıq ........................................................ 374
İnsanın ən qorxulu düşməni onun nəfsidir – tamahkarlıq, haram, oğurluq ................................................................. 378
Həsəd, paxıllıq, pislik, kin, nifrət hərislik insan əzabının səbəbləridir ......................................................... 384
Qəzəb, mübahisə, dalaşqanlıq – bütün pisliklərin açarıdır . 394
Xudpəsəndlik varlığın yoxsulluğudur ............................... 410
Riyakarlıq, hiyləgərlik, ikiüzlülük, yaltaqlıq, xəyanət, qeybət, fitnəkarlıq, bədnamlıq, ləyaqətsizlik şeytanı xislətlərdir .............................................................. 412
Yalan zalımın dinidir, lənət qisməti .................................. 422
Zülm, qəddarlıq küləyi əsən dənizdən intiqam dalğası qalxar ................................................................................ 431
Nadanlıq nifaqın başlanğıcıdır........................................... 442





**V FƏSİL. Qəbahət dünyada deyil, ona aldanandadır, gələn qalmaz, gedən gəlməz**.................................................... 449
Hansı yerdə xəzinə var, keşiyini ilan çəkər......................... 450
Dünya – sonu ölüm, həyat sınaqlar içində sevgi, haqsızlıqlar aləmində əzab-işgəncə ........................................ 460

**VI FƏSİL. Kainatın ağlı və nizamnaməsi Qurani-Kərimdir** 489
Etiqad inkişafa əngəl ola bilməz, din və elmin sinergetikası bəşəriyyəti fəlakətdən qorumalıdır................ 490
İslam haqq yoluna çağırışdır. Şəxsiyyətlərin dediklərindən.. ............................................................... 509
Son qənaətimiz ............................................................... 524
Şərhlər ............................................................................. 539
Qaynaqlar ......................................................................... 575

**ƏNVƏR METE HƏMİDOV**
**ZƏRNURƏ HƏMİDOVA**

# İNTELLEKTUAL EKOLOGİYA


«Elm və Təhsil» nəşriyyatının direktoru:
**professor Nadir MƏMMƏDLİ**

*Kompüter dizayneri:* **Zahid** Məmmədov
*Texniki redaktor:* Rövşanə Nizamiqızı

Yığılmağa verilmiş **25.05.2012.**
Çapa imzalanmış **19.06.2012.**
Şərti çap vərəqi **36,5.** Sifariş № **298.**
Kağız formatı **60x841/16.** Tiraj **500.**

Kitab «**Elm** və **Təhsil**» nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.